AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ НАЦИОНАЛЬНОЙ
АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА

NAKHCHIVAN SECTION OF THE NATIONAL
ACADEMY OF SCIENCES OF AZERBAIJAN

# XƏBƏRLƏR

*İCTİMAİ VƏ HUMANİTAR ELMLƏR SERİYASI*

# ИЗВЕСТИЯ

*СЕРИЯ ОБЩЕСТВЕННЫХ И ГУМАНИТАРНЫХ НАУК*

# NEWS

*THE SERIES OF SOCIAL AND HUMANITIES SCIENCES*

**№3**

**Naxçıvan, «Tusi», 2008**

## Redaksiya heyəti:

Baş redaktor:
Akademik **İ.M.Hacıyev**

Məsul katib:
AMEA-nın müxbir üzvü, t.e.d. **V.B.Baxşəliyev**

## Üzvlər:

Akademik **İ.Ə.Həbibbəyli**

AMEA-nın müxbir üzvü, f.e.d. **Ə.A.Quliyev**

AMEA-nın müxbir üzvü, t.e.d. **H.Q.Qədirzadə**

Tarix elmləri doktoru **H.Y.Səfərli**

Filologiya elmləri doktoru **M.A.Cəfərli**

Filologiya elmləri namizədi **F.H.Rzayev**

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin
«Xəbərlər»i, 2008, № 3, 316 s.

Jurnal 25 noyabr 2004-cü il tarixdə Azərbaycan Respublikası
Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir (şəhadətnamə №1140).

«Tusi» nəşriyyatı, 2008

## MÜNDƏRİCAT

### TARİX

**Hacıfəxrəddin Səfərli.** Hülakülərin Sahib-divanı Şəmsəddin Məhəmməd Cüveyni və Naxçıvan……....5
**Ağalar Abbasbəyli.** Gələcəkdə dünya birliyində qüvvələrin bölünməsi (ıı məqalə)……..14
**Atamoğlan Məmmədli.** İran İslam Respublikası və Ermənistan arasında siyasi münasibətlər……..31
**Emin Şıxəliyev.** Beynəlxalq terrorizmə qarşı mübarizə kontekstində erməni terroruna bir baxış……40
**Fəxrəddin Cəfərov.** Araz-Türk respublikası dövründə və onun ləğvindən sonra polisin fəaliyyəti……47
**Musa Quliyev.** I Kalbalı xan Ehsan xan oğlu Kəngərli və onun nəsil şəcərəsi……54
**Yaşar Rəhimov.** Vasili Qriqoryevin «Naxçıvan əyalətinin statistik təsviri» kitabı Naxçıvan bölgəsinin tarixinin mənbəyi kimi……62
**Şamxal Məmmədov.** Erməni siyasi elitası və terror……...69
**Qadir Seyidov.** Qədim sivilizasiyaların iqtisadi-mədəni həyatı haqqında nə bilirik?.....76

### ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

**Vəli Baxşəliyev.** Naxçıvanda Tunc dövrünə aid yeni abidələr……83
**Abbas Seyidov.** Mənəvi mədəniyyətimizin ulu qaynaqları……89
**Toğrul Xəlilov.** İlikliqaya yaşayış yeri və nekropolu……94
**Hacı Qadir Qədirzadə.** Gəmiqayada «həyat ağacı» və bir folklor nümunəsi ilə müqayisə……98
**Arif Əsədov.** Naxçıvan boyalı qablar mədəniyyətinin mərkəzi kimi……..106
**Ali Haghighat, Amir Hossein Salehi.** An evaluation of mental numerical cognition of rural man in the middle east of neolithic age……..111
**Türkan Qədirzadə.** Uşaqların sağlamlığının qorunması və körpəlik dövründə icra olunan mərasimlər, ayinlər……126
**Asəf Orucov.** Ailələrin ənənəvi qış hazırlığı məsələsi (Naxçıvan materialları əsasında) (I məqalə - bitki mənşəli məhsulların hazırlanması)……...132
**Aytəkin Qəhrəmanova.** Cəlil Məmmədquluzadə yaradıcılığında «bəzzazlıq» «şalbaflıq», «dulusçuluq» və «misgərlik» sənət nümunələrinə dair bir neçə söz……138

### AZƏRBAYCAN DİLİ

**Əbülfəz Quliyev, Səyyar Məmmədov.** Ordubad dialektində isim düzəldən şəkilçilər……...144
**Firudin Rzayev.** Naxçıvan toponimlərində Oğuz tayfalarının izi, onların tarixinə və «oğuz» sözünün etimologiyasına yeni baxış……....151
**Elmar Hüseynov.** Şərur rayonu ərazisindəki teonimlərin (ziyarətgah və pirlərin) etimologiyasına dair……...159

**Nuray Əliyeva.** Azərbaycan dilinin Şahbuz şivələrində frazeoloji birləşmələr….166

## ƏDƏBİYYAT VƏ FOLKLOR

**Fərqanə Kazımova.** Məmməd Cəfər Cəfərov romantizmin ardıcıl tədqiqatçısıdır…….173
**Fərman Xəlilov.** Mirzə Əli Möcüzə aid edilən saxta bir şeirin tarixçəsi……180
**Ramiz Qasımov.** Cəlil Məmmədquluzadə yaradıcılığında «kiçik» adam obrazlarının sosial mahiyyəti……..186
**Lütviyyə Əsgərzadə.** Hüseyn Cavid və Məhəmməd Tağı Sidqi……..193
**Fariz Yunisov.** Məhəmmədağa Şahtaxtlı və Hüseyn Cavid: problemlər, baxışlar……200
**Seyfəddin Rzasoy.** Oğuz mifində antropoloji məkanın strukturu……..206
**Məhərrəm Cəfərli.** «Kitabi-Dədə Qorqud»da «Hacətdiləmə» mərasimi……...214
**Məhsəti İsmayıl.** «Sarı gəlin» xalq mahnısının anadolu türklərində işlənən variantların təhlili……...221
**Rafiq Babayev.** Paremioloji vahıdların bəzı özünəməxsusluqları……...227
**Nazirə Əsgərova.** Bayatıların janr xüsusiyyətləri……..233
**Fəxrəddin Eylazov.** XV əsr Azərbaycan tərcümə abidəsi «Gülşəni-raz»ın orfoqrafik xüsusiyyətləri haqqında……..238

## İNCƏSƏNƏT

**Əli Qəhrəmanov.** Naxçıvan teatrı: yeni məqsəd, yeni amallar……242
**Yaqut Quliyeva.** Naxçıvanda aşıq musiqisinin yaradıcıları……...248

## İQTİSADİYYAT VƏ FƏLSƏFƏ

**Teymur Abbasov.** Naxçıvan Muxtar Respublikasında sahibkarlığın sosial-iqtisadi inkişafda rolu və makrosəviyyəli əhəmiyyəti……255
**İradə Bağırova.** Xarici iqtisadi əlaqələrin idarə edilməsində gömrük işinin rolu……...261
**Qərib Allahverdiyev.** Fərdi azadlıq ictimai münasibətlər sistemində……266
**Cavadxan Qasımov.** Müasir dövrdə aqrar sahənin faydalılığı……273
**Polad Əliyev.** Milli gəlirin istehsalı həcmi ilə əmək məhsuldarlığı və məşğulluq arasında əlaqə……279
**Zaur Məmmədov.** Aqrar sahədə sahibkarlığın inkişafının prioritet istiqamətləri……284
**Səbuhi İbrahimov.** İmamiliyin fəlsəfi tarixi……...291

## TƏNQİD VƏ BİBLİOQRAFİYA

**İsmayıl Hacıyev.** Naxçıvan: tarixi və abidələri…….....296
**Hacıfəxrəddin Səfərli.** Naxçıvan həqiqətlərini əks etdirən toplu……..301

## YUBİLEYLƏR

**Asif Şirəliyev.** Görkəmli alim və istedadlı elm təşkilatçısı……..309
AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

## TARİX

**HACIFƏXRƏDDİN SƏFƏRLİ**
AMEA Naxçıvan Bölməsi

# HÜLAKÜLƏRİN SAHİB-DİVANI ŞƏMSƏDDİN MƏHƏMMƏD CÜVEYNİ VƏ NAXÇIVAN

Qaynaqlara əsaslanaraq deyə bilərik, orta əsrlər zamanı Azərbaycanda hökmranlıq etmiş müxtəlif feodal dövlətlərin idarəetmə aparatında ölkəmizin digər bölgələri ilə yanaşı, Naxçıvan bölgəsindən də yetişmiş bir sıra görkəmli şəxsiyyətlər mühüm dövlət vəzifələrində işləyib çalışmışlar. Həmçinin orta əsrlər zamanı Naxçıvan Azərbaycanın inkişaf etmiş ən mühüm elm, təhsil və mədəniyyət mərkəzlərindən olduğu üçün orta əsr hökmdarları və sarayda böyük vəzifə, mənsəb sahibi olan bir sıra şəxsiyyətlər Naxçıvana böyük diqqət və qayğı ilə yanaşmış, bölgənin, xüsusilə ərazinin əsas şəhəri olan Naxçıvanın inkişafı üçün səylər göstərmiş, mühüm tədbirlər həyata keçirmiş, böyük işlər görmüşlər. Belə şəxsiyyətlərdən biri də əsası 1258-ci ildə monqol şahzadəsi Hülakü xan tərəfindən qoyulmuş və tarixdə banisinin adı ilə Hülakülər dövləti, bəzən isə dövlətin başında duran adama verilən «Elxan» adı ilə Elxanilər dövləti adlanan dövlətdə baş vəzir, yaxud da o zaman deyildiyi kimi Sahib-divan vəzifəsini tutan Şəmsəddin Məhəmməd Cüveyni olmuşdur.

Orta əsr müəllifi Xandəmirin verdiyi məlumata görə, Şəmsəddin Məhəmməd Cüveyninin babası da, yüksək mənsəb sahibi olmuş, Orta Asiyada Xarəzmşah Məhəmməddin (1200-1220-ci illər) və onun oğlu Sultan Cəlaləddinin (1220-1231-ci illər) hakimiyyətləri zamanı sarayda divan mustovfisi olmuş, atası Xacə Bəhaəddin isə monqol hökmdarları xidmətində eyni vəzifəni daşımışdır. Akademik Z.Bünyadovun yazdığına görə, mustovfi əl-məmalik Azərbaycan Atabəyləri dövlətində maliyyə idarəsinə və ya xəzinəyə rəhbərlik edən ali maliyyə məmuru olmuşdur. O taxt-tac və xəzinənin maliyyə cəhətdən təmin olunması da daxil olmaqla dövlətin maliyyə müəssisələri sisteminə başçılıq etmişdir (1, s. 179). Hülakülər dövlətində mühüm vəzifə tutan tarixçi Fəzlullah Rəşidəddinin şəhadətinə görə, Hülakü xanla Qızıl Orda xanı Birkay xan arasında 1262-ci ildə baş verən

müharibə zamanı Sahib-divan Seyfəddin Bitikçi öldürüldükdən sonra Hülaku xan tabeliyində olan ölkələrdə vəziyyəti nizama salmaq və qaydaqanun yaratmaq məqsədi ilə 1263-cü ildə çağırdığı qurultayda Şəmsəddin Məhəmməd Cüveynini onun yerinə Sahib-divan vəzifəsinə təyin etdirir. Şəmsəddin Məhəmməd Cüveyni bu vəzifədə uzun müddət – Hülakü xanın oğlu Abaqa xanın (1265-1282-ci illər) və Sultan Əhməd Təkudarın (1282-1284-cü illər) zamanı da daxil olmaqla təxminən 22 il çalışır. Ancaq Sultan Əhmədi Təkudarı hakimiyyətdə əvəz edən Arqun xanın zamanında (1284-1291-ci illər) onun mövqeləri zəifləyir, əleyhdarları onu Sultan Əhməd Təkudarın tərəfdarı və Arqun xanın düşməni kimi qələmə verirlər. Ona görə də Sahib-divan Şəmsəddin Məhəmməd Cüveyni 16 oktyabr 1284-cü ildə Arqun xanın əmri ilə Əhər şəhərində öldürülür (2, s. 1272).

Maliyyə işlərini yaxşı bilən və ölkədə böyük nüfuza malik olan Sahib-divan Şəmsəddin Məhəmməd Cüveyni, mənbələrin verdiyi məlumata görə, eyni zamanda böyük bir mülkədar olmuşdur. Ölümündən sonra müsadirə edilmiş mülklərinin illik gəliri Keyxatu xan (1291-95) zamanı 360 tümən imiş ki, bu da 1311-ci ilin hesabı ilə 2.700.000 manata bərabər olmuşdur (2, s. 1272). Vəzirliyi dövründə bir sıra xeyirxah əməlləri ilə şöhrət tapan, elmin, təhsilin inkişafında xüsusi fəaliyyət göstərən, quruculuq işləri ilə məşğul olan Şəmsəddin Məhəmməd Cüveyni xalq arasında «Cüveyni vəzir» adı ilə məşhur olmuşdur.

Nəsirəddin Tusinin «Övsafül-Əşraf» (Şərafətli insanların xüsusiyyətləri) əsərini Azərbaycan dilinə tərcümə edərək ona qeyd və şərhlər yazan Füzuli Şəfiyevin fikrincə, Şəmsəddin Məhəmməd Cüveyninin əsil-nəsəbinin on beşinci silsilə halqası Abbasi xəlifələrindən Məmunun vəziri və hacibi olmuş Fəzl bin Rəbiyə çatır. Cüveyni-vəzir dövlət xadimi olmaqla yanaşı, həm də zəmanəsinin elmlərinə yiyələnmiş böyük alim və şair idi. İbnül Futi özünün «Məcməül-Adab» əsərində bu barədə yazır: «Şəmsəddin Məhəmməd vəzir ömrünün ilk çağlarında ədəbiyyat elmlərini mənimsəyir. «Məqamate-Həriri» adlı bölümü İmadəddin Əbu Məhəmməd Naxçıvaninin yanında oxuyub öyrənir. Elmi fənləri kamil öyrənib başa çıxdıqdan sonra ata və babası kimi o da böyük dövlət işlərinə daxil olur» (3, s. 15).

O, Xacə Nəsirəddin Tusi ilə çox yaxın və səmimi dost olmuşdur. Hətta Nəsirəddin Tusinin yazdığına görə, təriqət yolçularının və əqli, nəqli qanunlara söykənən və nəzəri və əməli yöndən həqiqət aşiqlərinin qaydasına müvafiq övliya və bəsirət əhlinin yolu haqqında müxtəsər bir risalə hazırlamaq istəyirmiş. Ancaq işlərin çoxluğundan, bəzi maneələr üzündən bu işi həyata keçirməyə imkan tapmırmış. Ancaq Şəmsəddin Məhəmməd Cüveyninin «kəsərli işarəsi» həmin fikrin həyata keçməsinə səbəb olmuşdur (3, s. 14-15).

Görkəmli alim Nəsirəddin Tusi Şəmsəddin Məhəmməd Cüveyni haqqında danışarkən onu «yer üzünün padşahı, aləmin buyruqçusu, qılın-

cın və qələmin valisi, ərəbin və əcəmin böyüklərinin müqtədaşı, haqqın və dinin günəşi, islamın və müsəlmanların şökəti, aləmlərin məliki, məmləkətlərin divanının sahibi, əşraf və əyanın iftixarı, ədl və ehsanın məzhəri, cahanın əfzəl və əkməli, İranın pənah və ümid qapısı, övliyaların sevimlisi, xoşbəxtlik sahibi» epitetləri ilə tərənnüm etmişdir (3, s. 15).

Orta əsr tarixçisi Abdulla ibn Fəzlullah Şirazi «Tarix-i Vəssaf» əsərində Hülakü hökmdarı Abaqa xanın dövründə yaşamış dörd böyük şəxsiyyətin adını çəkir: 1. Xacə Nəsirəddin Məhəmməd Tusi. 2. Sahib-divan Şəmsəddin Cüveyni. 3. Azərbaycanın məşhur musiqişünası Səfiyəddin Əbdülmömin Urməvi. 4. Məşhur xəttat Cəmaləddin Yaqut (6, s. 28). Tarixçinin Şəmsəddin Cüveyninin adını dörd görkəmli şəxsiyyətlə, xüsusilə dövrünün görkəmli alimi, hikmət, riyaziyyat və əxlaq elmləri sahəsində Aristoteli və Əflatunu keçmiş, müasirləri tərəfindən «tədqiqatçıların soltanı və alimlərin ustadı», «bəşərin ustadı», «kainatın xacəsi» kimi qiymətləndirilən Xacə Nəsirəddin Tusi ilə bir yerdə, həm də onun adından sonra ikinci yerdə çəkməsi Cüveyninin görkəmli dövlət xadimi olmaqla yanaşı, həm də böyük alim olduğunu təsdiq edir (6, s. 28).

Elmə, təhsilə, elm adamlarına böyük hörmət və qayğı göstərən Şəmsəddin Məhəmməd Cüveyni müharibələr zamanı əsir tutulmuş Adamların xilası, hərbi yürüşlər zamanı ölkələrindən didərgin düşərək dolanışıq üçün gələnlərin nicatı, bir sıra elmi və ədəbi əsərlərin məhv edilməsinin qarşısını almaq üçün böyük işlər görmüşdür. Əfqan alimi Sərv Guya Etimadi bu haqda yazırdı ki, Bağdad dağılandan, xilafət süqut edəndən sonra Şəmsəddin Cüveyni, Xacə Nəsir və Əta Məlik kimi şəxsiyyətlər Çindən məqribə, Bolqarıstandan Zəncə qədər olan ölkələrdən gəlmiş yüz minlərlə sənətkarların bir hissəsinin, adamların, elmi və ədəbi əsərlərin nicatı uğrunda çalışmışlar və buna nail olmuşlar (8, s. 94).

Hülakü dövlət aparatında belə yüksək mənsəb və söz sahibi olan, müasirləri tərəfindən yüksək qiymətləndirilən Şəmsəddin Məhəmməd Cüveyni yaşadığı dövrdə Azərbaycanın iri yaşayış məskənlərindən və inkişaf etmiş şəhərlərindən biri olan Naxçıvanla sıx əlaqədə olmuş, orada elmin, təhsilin və mədəniyyətin inkişafı üçün bir sıra tədbirlər həyata keçirmiş, sənədlər hazırlamış, hətta Elxani hökmdarlarının fərmanlar verməsinə nail olmuşdur. Bu fərmanlar içərisində onun Naxçıvanda, bilavasitə təhsilin inkişafı ilə əlaqədar hazırladığı və Elxani hökmdarlarına imzalatdırdığı fərman xüsusi yer tutur.

Naxçıvan orta əsr mədrəsələri, mədrəsələrdə müəllim-tələbə münasibətləri, orada tədris olunan fənlər və s. haqqında dəyərli məlumat verən bu qiymətli sənəd «Mənşur-i təqrir-i tədris-i mədrəsə-i Naxçıvan» («Naxçıvan mədrəsəsi tədrisinin təsdiqinə dair fərman») adlanır. Bu sənəd Elxani hakimləri tərəfindən imzalanmış fərmandır. Müəllifi Elxanilər sarayında baş vəzir işləmiş Şəmsəddin Məhəmməd Cüveyni olan bu fərman Azərbaycan

Atabəyləri zamanında Naxçıvan şəhərində inşa edilmiş iki mədrəsə haqqındadır. 1263-1284-cü illər arasında yazılması müəyyən edilən fərmanın mətnini ilk dəfə olaraq türk alimi Osman Turan 1958-ci ildə elmi dövriyyəyə daxil etmiş (9), Ə.Hüseynzadə isə 1960-cı ildə onun haqqında Azərbaycanın elmi ictimaiyyətinə məlumat vermişdir (2).

Elxanilər tərəfindən verilən bu fərman ilk növbədə Azərbaycanda məktəb və mədrəsələrin olmaması haqqında fikirləri puça çıxarır və Naxçıvanda, geniş miqyasda isə bütün Azərbaycanda və Müsəlman Şərqində məktəb və mədrəsələrin olduğunu qəti şəkildə təsdiq edir. Həmçinin, bu fərman hələ Elxanilər dövründə (XIII əsr) Naxçıvanda və bütövlükdə Azərbaycanda tədris və tərbiyə işlərinin yüksək səviyyədə inkişaf etdiyini parlaq şəkildə əks etdirir.

Professor İ.Mollayev yazır ki, Naxçıvan mədrəsələrinin tarixi Atabəy Məhəmməd Cahan Pəhləvanın anası, Şəmsəddin Eldənizin arvadı Möminə xatunun şərəfinə Naxçıvan şəhərində inşa edilmiş türbənin (1186-cı il) və 1162-ci ildə inşa edilmiş Yusif ibn Küseyir türbəsinin tarixi ilə çox müvafiq gəlir. Bu, onu sübut edir ki, Azərbaycanın ayrılmaz bir hissəsi olan Naxçıvanda hələ XII əsrin sonlarından məktəb və mədrəsələr olmuş, XIII əsrin ilk rübündə isə dağıntılara məruz qaldığından həmin fərmanla yenidən bərpa etdirilmişdir (4, s. 72).

Müsəlman Şərqində məktəb və mədrəsələr əsasən məscidlər və məqbərələr yanında təşkil edildiyindən, onların bütün xərcləri də məscid və ya məqbərənin vəqfləri hesabına ödənilirdi.

Naxçıvan şəhərindəki əsas mədrəsələr də Atabəylər memarlıq kompleksinə daxil olan Came məscidi və Möminə xatun məqbərəsi yanında təşkil olunmuş və həmin obyektlərin vəqf gəlirləri hesabına maliyyələşmişdir. Bu isə heç də təsadüfi bir hal deyildi. Fərmanı Azərbaycan oxucularına ilk dəfə çatdıran Ə.Hüseynzadənin fikrincə, bu bir tərəfdən tədris və tərbiyə sahəsində dini məfkurənin təsirini artırmaq, digər tərəfdən isə mədrəsənin maliyyəsini, xərclərini mənsub olduğu məqbərənin, məscidin vəqfləri hesabına təmin etmək zərurətindən irəli gəlirdi. Naxçıvan mədrəsələrinin də Möminə xatun məqbərəsi vəqfləri gəlirləri hesabına idarə olunduğu qətidir (2, s. 1270).

Müəllifi böyük mülkədar, eyni zamanda Elxanilər dövlətində maliyyə işlərini idarə edən, sahib-divan-baş vəzir Şəmsəddin Məhəmməd Cüveyni olan fərmanı təhlil edərək Ə.Hüseynzadə belə bir fikrə gəlir ki, fərmanın belə bir məşhur və yüksək vəzifəli şəxs tərəfindən yazılması bu mədrəsələrin vəqflə əlaqədar olmasından irəli gəlir. Müsəlman Şərqində mədrəsələr vəqf hesabına fəaliyyət göstərdiyindən, Elxanilər dövründəki vəqflərin maliyyə məsələləri isə sahib-divan Şəmsəddin Məhəmməd Cüveyninin nəzarəti altında olduğundan mədrəsələrə nəzarət və onların idarəsi də bir vəzifə olaraq ona tapşırılmışdı.

Bu fikir bir daha təkzibolunmaz şəkildə təsdiq edir ki, orta əsrlər dövründə məşhur mədrəsələr dövlətdə yüksək vəzifə tutan adamların nəzarəti altında olmuş, vəqflər hesabına idarə edilmişdir. Fərmandan bu da aydın olur ki, həmin vaxt Naxçıvan mədrəsələrində tədris işlərini Qəva-məddin adlı bir şəxs idarə edirmiş (2, s. 1271).

Azərbaycanda məktəb tarixini öyrənmək üçün çox əhəmiyyətli bir qaynaq olan «Mənşur-i təqrir-i tədris-i mədrəsə-i Naxçıvan» fərmanı konkret olaraq islamın intibah dövründə Naxçıvanda və bütövlükdə Azərbaycanda məktəblərin, tədrisin vəziyyəti haqqında əsaslı fikir söyləməyə imkan verir.

Əvvələn, bu fərmanda Azərbaycan mədrəsələrində oxuyan tələbələr və dərs deyən müəllimlər qarşısında duran vəzifələr dəqiq müəyyən edilmişdir. Fərmana görə, müəllim-müdərris aşağıdakı şərtlərə əmələ etməlidir: çalışqan tələbələri öz ruhani oğlu hesab etməli, tədris və təlim zamanı şagirdlərə əziyyət verməməli, onları yormamalıdır. Şagirdlərin təbiəti, istedadı və bilik dərəcəsi müxtəlif olduğundan müdərris hər şagirdin fərdi xüsusiyyətini nəzərə alaraq ona fənn təyin etməli və onun şəxsi xüsusiyyətinə müvafiq dərs verməlidir. Müdərris dərsləri asan anlaşılacaq bir tərzdə aparmalıdır. Təhsilə yeni başlayan şagirdlərdə mübahisəyə çox meyil olduğundan onlar elmin əsaslarını öyrənmək əvəzinə bir neçə məsələni öyrənməklə kifayətlənir. Hiylə və mübahisələr ilə özünü bilici göstərməyə çalışır. Müdərris buna yol verməməlidir. Həftədə bir gün şagirdlər arasında keçirilən dərslərin müzakirələri keçirilməli, öyrənilən dərslərin mənimsəmə dərəcəsini yoxlamaq üçün müdərris ayda bir dəfə imtahan təşkil etməli, dərslərini yaxşı oxuyan tələbələri başqalarına tanıtmalıdır (2, s. 1271).

Müdərrislər qarşısında belə konkret vəzifələr qoyan fərman onun ardınca şagirdlərin də vəzifələrini müəyyənləşdirmişdir. Şagirdlər fərmana görə aşağıdakı şərtlərə əməl etməli idilər: 1) Fərmanda göstərilən şərtləri həyata keçirən müdərrisi digərlərindən üstün tutmalıdırlar; 2) Elm təhsil etmək istəyən şagird tənbəllik və səhlənkarlıqdan uzaq olmalıdır, dərsləri təkrar etməkdən yorulmamalıdır; 3) Dərs zamanı diqqətli olmalı, anlaşılmayan məsələyə dair sual verməkdən çəkinməməlidirlər; 4) Şagirdlər keçən dərsi mənimsəmədən yeni dərsə başlamamalıdır, 5) Şagirdlər yalnız elm təhsili ilə kifayətlənməyib, eyni zamanda, əxlaq təmizliyinə və doğruluğa da diqqət verməlidir (2, s. 1271).

Burada diqqəti belə bir cəhətə yönəltmək yerinə düşər ki, sovet pedaqogika elmində uzun müddət «Ədəb qaydaları»nın ilk dəfə tərtib edilməsini çex-slavyan pedaqoqu Y.A.Komenski, Y.Slavinetski və Yankoviçin (XVII yüzillik) adları ilə bağlasalar da, bu həqiqətə uyğun olmamışdır. Çünki fərmandan da göründüyü kimi, bu pedaqoqlardan bir neçə əsr əvvəl Naxçıvanda davranış və ədəb qaydaları tərtib edilmiş və bu qaydalar Naxçıvan mədrəsələrində geniş tətbiq olunmuşlar (5, s. 173-174).

Həmçinin, qeyd olunan pedaqoqlar özlərinin «Ədəb qaydaları»nı yaradarkən ancaq tələbələrə aid qaydaları, onlara verilən tələbləri ön plana çəkmiş, tələbələrin qarşısında qoyulan vəzifələrə diqqət yetirmişlər. Ancaq Naxçıvan mədrəsələrinə dair verilən bu fərmanda isə tələbələrin vəzifələri konkret şəkildə müəyyənləşdirildiyi kimi, müəllim-müdərrislərin vəzifələri də hərtərəfli əks etdirilmiş, aydın şərh olunmuşdur.

Fərmanın əhəmiyyətindən danışaraq İ.Mollayev qeyd edir ki, həm maraqlı, həm də çox qəribədir ki, hələ orta əsrlərdə də şagirdlərin fərdi xüsusiyyətlərinə diqqət yetirmək, onların təbiətini, istedadını, bilik dərəcəsini nəzərə almaq kimi sırf pedaqoji məsələlərə də fikir vermək vəzifə hesab edilmişdir (4, s. 73).

Bu fərmanın bir əhəmiyyəti də ondadır ki, o, XIII yüzillikdə mədrəsələrdə tədris olunan fənlər haqqında dəyərli məlumat verir və aydın olur ki, bu mədrəsələrdə din elmləri ilə yanaşı, dünyəvi elmlər də tədris olunurmuş.

Atabəylər memarlıq kompleksinə daxil olduqlarını və Möminə xatun türbəsinin vəqfləri hesabına fəaliyyət göstərmələrini nəzərə alaraq, demək olar ki, bu mədrəsələr Eldəniz hakimləri tərəfindən XII yüzillikdə inşa etdirilmişlər.

Şəmsəddin Məhəmməd Cüveyninin həyatı orta əsrlər zamanı Azərbaycanda, o cümlədən Naxçıvanda geniş yayılan sufi təriqətləri ilə sıx bağlı olmuşdur. Görkəmli alim Nəsirəddin Tusinin onun tapşırığı ilə sırf təsəvvüflə bağlı olan «Övsafül-Əşraf» (Şərafətli insanların xüsusiyyətləri) adlı əsər yazması, əsərin müqəddiməsində Nəsirəddin Tusinin onu bir sıra yüksək epitetlərlə tərənnüm etməklə yanaşı, «övliyaların sevimlisi» adlandırması fikrimizi təsdiq edən faktlardandır. Onun Ordubad bölgəsindəki Vənəndçay vadisinin ən böyük yaşayış məskənində, Vənənd kəndində möhtəşəm bir Xanəgah tikdirməsi, hətta vəqf olaraq ona əmlak bağışlaması deyilən fikirdə heç bir şübhə yeri qoymur.

Tarix elmləri doktoru, professor Vaqif Piriyev orta əsr müəllifi Hünduşah bin Səncər bin Əbdullah Sahebi Naxçıvaniyə əsaslanaraq yazır ki, Şəmsəddin Məhəmməd Cüveyni tərəfindən Vənənddə layiqli xanəgah tikilmiş, ona əmlak vəqf olunmuş və şeyx Sədr əl-Həqq və əd-Din Əhməd bin Əbu Bəkr bin Əbülfərəc əl-Qəzvini əl-Bəkraninin və oğlanlarının idarəsinə verilmişdir (7, s. 27). Hazırda Vənənd kəndində el arasında konkret olaraq xanəgah kimi tanınan yer yoxdur. Ancaq kəndin şimal tərəfində, Abidin məscidinin cənub-qərb hissəsində ona bitişik vəziyyətdə yerləşən bir pir vardır. Hazırda yerli əhali tərəfindən ziyarət edilən bu pir düzbucaqlı formalı kiçik binadan ibarətdir. Binanın içərisində bir qəbir vardır. Qəbirin üstü son zamanlar betonlanmış və kiçik baş daşı qoyulmuşdur. Ancaq baş daşının üzərində epiqrafik sənəd – kitabə olmadığı üçün onun mənsubiyyətini təyin etmək mümkün olmamışdır. Ona görə də bu qəbrin nə üçün ziyarət-

gaha çevrilməsi haqqında dəqiq məlumat yoxdur. Yerli əhali arasında da bu ziyarətgah-pir haqqında kifayətləndirici bir fikrə rast gəlinmir.

Ziyarətgahı el arasında bəzi adamlar «Abidin məscidinin piri», bəziləri isə «Pir Məqsud piri» adlandırır. Fikrimizcə, ziyarətgahın xalq arasında adlandırıldığı birinci variantın («Abidin məscidinin piri») elmi əsası yoxdur. Çünki Naxçıvan bölgəsində apardığımız tədqiqatlar və başqa Azərbaycan tədqiqatçılarının fikirləri də göstərir ki, orta əsrlər zamanı məscidlər yanında ziyarətgahların yaranması faktı yoxdur. Əksinə, müqəddəs şəxslərin, sufi şeyxlərinin, övliyaların, seyidlərin və s. qəbirləri yanında məscidlərin və s. tipli binaların inşa olunması, nəticədə böyük ziyarətgah komplekslərinin əmələ gəlməsi faktı onlarladır. Bu baxımdan Parçı imamzadəsini, Naxçıvan imamzadəsini, Nehrəm imamzadəsini, Düylün pirini, Tivi pirini və s. müqəddəs yerləri göstərmək olar. Deməli, pirə verilən birinci adın elmi əsası yoxdur.

Pirin əhali arasında yayılan ikinci adı (Pir Məqsud piri) ziyarətgah və onun mahiyyəti haqqında müəyyən fikir söyləməyə əsas verir. Ziyarətgahın bu variantda olan adında iki dəfə «pir» sözü işlənmişdir. Bir adda «qoca», «ziyarətgah», «ocaq» anlamında işlənən pir sözünün iki dəfə həm adın əvvəlində, həm də sonunda ifadə olunması mümkün deyil və heç bir məna kəsb etmir. Əslində adı (Məqsud) ilə əlaqədar ziyarətgah yaranmış, Məqsudun adının əvvəlinə əlavə edilmiş birinci «pir» titul, adın sonuna əlavə edilmiş «pir» isə ziyarətgah, ocaq, müqəddəs yer mənasını ifadə edir.

«Pir» titulu orta əsrlərdə Azərbaycanda geniş yayılmış dini-fəlsəfi və siyasi cərəyan olan sufi təriqətləri ilə bağlıdır. Sufilikdə ən yüksək hesab olunan bu titul dörd idrak mərhələsini (şəriət, təriqət, mərifət, həqiqət) uğurla başa vurmuş təriqət mənsublarına verilirdi. Bu titulu daşıyan Adamlar – şeyxlər müəyyən yerlərdə, xüsusilə əhalinin ən çox gedib-gəldiyi ərazilərdə, iri yaşayış məskənlərində öz xanəgahlarını yaradır, orada oturur, ətrafına müridlər toplayır, onlara öz ideyalarını mənimsədir, ardıcıllarını yetişdirir, ideyalarını yayırdılar. Bu qəbildən olan adamlar adətən öz ailələri ilə birlikdə xanəgahda yaşayır, öldükdən sonra orada da dəfn olunurdular. Həmin pirlərin, övliyaların, şeyxlərin qəbri çox vaxt müridləri və əhali tərəfindən ziyarətgaha çevrilirdi.

Fikrimizcə, Şəmsəddin Məhəmməd Cüveyninin XIII əsrdə Vənənddə inşa etdirdiyi xanəgah bu ziyarətgahın yerində olmuşdur. Orada hansı isə sufi təriqətinə mənsub dərvişlər qrupu fəaliyyət göstərmiş, sufilikdə «pir» dərəcəsinə yüksəlmiş Pir Məqsud isə onun rəhbər – şeyxi olmuşdur. Ehtimal ki, xanəgah Pir Məqsudun rəhbərliyi dövründə daha da şöhrət tapmış, bu səbəbdən də xanəgahın əvvəlki adı unudularaq onun adı ilə Pir Məqsud xanəgahı kimi tanınmışdır. Pirdə müqəddəs hesab olunan və ziyarət edilən qəbir də onun qəbridir. Bu qəbir ziyarətgaha çevriləndən sonra buraya gələn zəvvarların sayı artmış, ona görə də onlara ibadət etmək

üçün məscid inşa edilmişdir. Məscid Abidin adlı şəxs tərəfindən tikdirildiyi üçün onun adı ilə adlandırılmışdır. Xanəgah – ziyarətgahın qərb tərəfində indi məscidin həyəti hesab olunan ərazidə kiçik qəbiristanlıq olmuşdur. Hazırda itib batmış qəbiristanlıq ziyarət obyekti olan qəbrin – Pir Məqsudun məzarının ətrafında keçirilən fəxri dəfnlər sayəsində meydana gəlmişdir.

## ƏDƏBİYYAT


1. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti. Bakı: Elm, 1985, 268 s.
2. Hüseynzadə Ə. Naxçıvan mədrəsələrinə dair bir Elxani fərmanı / Az. EA Məruzələri, 1960, 16 c., № 12, s. 1269-1273.
3. Xacə Nəsirəddin Tusi. Övsafül-Əşraf. Şərafətli insanların xüsusiyyətləri / Tərcümə, çıxarışlar, qeyd və şərhlər Füzuli Şəfiyevindir. Darül-hüda, 2005, 76 s.
4. Mollayev İ. Orta əsr Azərbaycan mütəfəkkirləri təlim-tərbiyə haqqında. Bakı: Maarif, 1996, 304 s.
5. Mollayev İ. Naxçıvan mədrəsələri tarixinə dair / Naxçıvan tarixinin səhifələri. «Uluslararası qaynaqlarda Naxçıvan» beynəlxalq simpoziumunun materialları. Bakı: ADPU mətbəəsi, 1996, s. 172-175.
6. Onullahi S., Seyidov M. Xacə Nəsirəddin Məhəmməd Tusinin nəsli, həyatı və xidmətləri / Nəsirəddin Tusi və müasirlik. Naxçıvan: Qeyrət, 2001, s. 22-31.
7. Piriyev V. Naxçıvan tarixindən səhifələr. Bakı: Müəllim, 2004, 125 s.
8. Rzayev A. Nəsirəddin Tusi: həyatı, elmi, dünyagörüşü. Bakı: İrşad, 1996, 266 s.
9. Osman Turan. Türkiye Selcukları hakkında resmi vesikalar. Metin, tercüme və araştırmalar. Ankara, 1958.



**Гаджифахреддин Сафарли**


## ГЛАВНЫЙ ВИЗИРЬ ДИНАСТИИ ХУЛАКИДОВ ШАМСАДДИН МУХАММЕД ДЖУВЕЙНИ И НАХЧЫВАН


В статье рассказывается о жизни и деятельности Шамсаддина Мухаммеда Джувейни, занимавшего должность главного визиря во времена правления представителей династии Хулакидов Абага-хана и Ахмеда Текудара. Указывается, что он осуществил ряд мероприятий, связанных с Нахчываном, издал фирман о Нахчыванских медресе (мусульманских духовных средних школах), а также приказал построить молельную для дервишей в селении Ваненд Ордубадского района.

**Hajifakhraddin Safarli**

## THE HEAD VIZIER OF THE HULAKID'S DYNASTY SHAMSADDIN MOHAMMED JUVEYNI AND NAKHCHIVAN

In the article it is told about life and activities of Shamsaddin Mohammed Juveyni, who was holding the head vizier's post during the government of Abaga-khan and Ahmed Tekudar, the representatives of the Hulakid's dynasty. It is underlined, that he has carried out a number of measures connected with Nakhchivan, has promulgated an edict about Muslim religious high schools in Nakhchivan, and also has ordered to build a cloister for dervishes in the village of Vanend in the Ordubad district.

***Rəyçilər: Akademik İ.Hacıyev, AMEA-nın müxbir üzvü, tarix e.d. H.Q.Qədirzadə.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**AĞALAR ABBASBƏYLİ**
Bakı Dövlət Universiteti

# GƏLƏCƏKDƏ DÜNYA BİRLİYİNDƏ QÜVVƏLƏRİN BÖLÜNMƏSİ
## (II məqalə)

Bu gün **iqtisadi səviyyədə** mübarizə elə bir mənzərə yaradır, biz orada üç iqtisadi mərkəz görürük: ABŞ, Avropa Birliyi və Yaponiya və ya «böyük triada». Burada da ABŞ bir neçə səbəbə görə mühüm rol oynayır. Əvvəla, ABŞ-nın iqtisadi göstəriciləri hətta fərdi qaydada belə aparıcı mövqe tutur. Bu gün ABŞ-nın payına dünya üzrə bütün ÜMM 30% düşür, ixrac və idxal isə dünya üzrə birinci yer tutur: hal-hazırda ABŞnın ixracı 624,8, idxalı isə 817,3 mlrd. dollar təşkil edir.

İkincisi, Beynəlxalq Valyuta Fondu (BVF) və Ümumdünya bankı kimi ixtisaslaşdırılmış qlobal beynəlxalq maliyyə institutları amerikalıların əsas mövqe tutduqları təşkilatlardır və onların yaradılmasında Amerika təşəbbüsləri (xüsusilə də 1944-cü ildə Bretton-Vudsda keçirilmiş konfransda) aydın sezilir. Bu maliyyə təşkilatları demək olar ki, qlobal maraqlara səbəb olur və onların müştəriləri olaraq bütün dünyanı göstərmək olar.

Üçüncüsü, bu «triadada» Yaponiya kimi Avropa birliyi ölkələri də ABŞ-ə qismən siyasi asılılıqda və tam hərbi asılılıqdadırlar. NATO qoşunları Avropada bu günə kimi əksər ölkələrdə yerləşir, hətta NATO-nun Şərqə doğru olan sərhədləri Avropa birliyinin sərhədlərinə paralel olaraq uzanır. 1960-cı il Amerika-yapon müqaviləsinin şərtlərinin hələ də qüvvədə olmasını nəzərə alsaq, Yaponiyanın vəziyyəti daha da mürəkkəbdir. Digər tərəfdən, ABŞ-nın «böyük triadada» əsas mövqe tutması heç də onlar arasında rəqabətin olmamasına dəlalət etmir. Əksinə, Avropa ölkələri və Yaponiya artıq uzun müddətdir ki, sənayenin və hətta iqtisadiyyatın müəyyən sahələrində rəhbər mövqe tuturlar. Belə ki, ABŞ öz çoxsaylı cəhdlərinə baxmayaraq, bu mövqeyi onların əlindən almağa müvəffəq olmamışdır. Beləliklə, məsələn, Avropa birliyi dünyada ən böyük eksportçu (57%) və importçudur (55%). Bununla yanaşı Avropa ölkələrindən ixrac edilən məhsul «avropa məhsulları» adlanmaqla yanaşı, həm də «made in USA» və «made in Capan» nişanları ilə eyni olaraq «made in Europe» yazısına rast gəldikdə artıq təəccübə səbəb olmur.

Yaponiya da bir çox iqtisadi göstəricilərə görə birinci yeri tutur. Bu birincilik maşınqayırma sahəsində xüsusilə nəzərə çarpır. Yaponiya bu sahənin eksportunda birinci yeri (67%) tutur. Lakin ədalət xatirinə qeyd etmək lazımdır ki, hətta iqtisadi sahədə belə «triada»nın daha güclü üzvü yenə də ABŞdır. Yalnız ABŞ bütün növ ehtiyatlara və faydalı qazıntılara (böyük neft ehtiyatları da daxil olmaqla), hələ üstəlik öz ərazisində bütün iqlim qurşaqlarına malikdir (heç bir ehtiyatlara və faydalı qazıntılara malik olmayan və hər cəhətdən idxaldan asılı olan Yaponiyadan fərqli olaraq). Bununla da «triada»nın üzvləri arasında çox tez-tez «ticarət müharibələri»nə gətirib çıxaran şiddətli rəqabət mövcuddur. Məsələn, ABŞ və AB və onların latın amerikası tərəfdaşları arasında 1993-cü ildə baş vermiş «banan müharibəsi». Bu şiddətli rəqabətə baxmayaraq, «triada» üzvləri həm də iqtisadi cəhətdən bir-birindən asılı vəziyyətdədirlər. Adətən birinin məhsulu idxal və ixrac prosesində digərininkini tamamlayır. Misal olaraq elektron texnikası və bu texnika üçün proqramın qarşılıqlı istifadəsini göstərmək olar. Burada proqramların əsas istehsalçısı ABŞ, elektron texnikanın əsas istehsalçısı isə Yaponiyadır və nəticədə hər iki istehsalçı ümumi mənfəət uğrunda əməkdaşlıq etməyə məcbur olurlar. Məhz bu qarşılıqlı asılılıq sayəsində «triada» üzvləri iqtisadi münaqişələrin həll edilməsi üçün yol tapırlar.

**Mədəni mübarizədə** bü günün danılmaz qalibi ABŞ başda olmaqla qərb mədəniyyətidir. Bu birincilik SSRİ-nin dağıldığı vaxtdan etibarən qorunub saxlanmaqdadır. Bundan əlavə, hal-hazırda Avropa birliyinin güclənməsi tendensiyası üzə çıxmaqdadır, bu isə həm də bu mədəniyyəti ehtiyatda saxlayacaq və bütün qüvvəsini onun yayılmasına sərf edəcək vahid siyasi və iqtisadi nəhəngin meydana çıxması deməkdir. Eyni zamanda Qərb mədəniyyəti dar və geniş mənalarda da şərh edilə bilər. Dar mənada bu mədəniyyət ABŞ, Kanada, Avropa ölkələri, Avstraliya və Yeni Zelandiyanı əhatə edir. Bu fikri Samuel Xantinqton da təsdiq edir. Mən isə hesab edirəm ki, qərb mədəniyyətini geniş mənada dərk etmək daha düzgün olardı. Daha doğrusu, qərb mədəniyyəti demokratiya, bazar iqtisadiyyatı, insan hüquqları, humanizm, cinsi, irqi mənsubiyyətindən, dərisinin rənginden, dinindən və s. asılı olmayaraq isanların bərabərliyi kimi prinsiplərin məcmusundan ibarətdir və bir qayda olaraq öz əksini ölkənin qanunvericiliyində və mühakimə üsulunda tapır. Qərb mədəniyyətinə bu cür yanaşma bizə onun hüdudlarını üç dəfə artırmağa imkan verir, belə ki, bu gün müstəqil olan dövlətlərin böyük hissəsi ya Amerika konstitusiya modelinin ya da hansı isə bir Avropa ölkəsinin kostitusiya modeli əsasında yaradılmış konstitusiya modelindən istifadə edir. Yuxarıda qeyd edilənlərdən irəli gələrək afrika ölkəsi olan CAR-ı cəsarətlə qərb mədəniyyətinə və ya «qərb dəyərlərinə» tərəfdar olan ölkə adlandırmaq olar. Bu ölkənin konstitusiyası və qanunvericiliyi bunu sübut edir. ABŞ-nın və Avropa ölkələrinin konstitu-

siyası kimi CAR-ın da konstitusiyası insan ləyaqətinə, insan hüquqlarına, irqi, dini və cinsi ayrı-seçkiliyin olmamasına əsaslanır, söz azadlığı və s. xüsusi qeyd edilir. Məhkəmə sistemi isə roma-alman hüququna əsaslanır və hal-hazırda demək olar ki, tamamilə holland qanunvericiliyinə müvafiq gəlir. Mədəniyyətlər arasında qüvvələr nisbətinə bu cür yanaşma bizə bu gün bütün inkişaf etmiş ölkələrin mədəniyyət cəhətdən qərb mədəniyyətinin nümayəndələri olması faktını qeyd etməyə imkan verir. Bu isə öz növbəsində bu mədəniyyətin bütün dünya üzrə birinciliyini göstərir.

Siyasi, iqtisadi və mədəni dünya şübhəsiz ki, gələcəkdə tamamilə fərqli bir formaya malik olacaqdır. Mən də daxil olmaqla heç bir kəs bu formanın nədən ibarət olmasını əvvəlcədən dəqiqliklə söyləyə bilməz. Bu səbəbdən də bütün proqnozlar nisbi xarakter daşıyır.

Bu gün dünyanın siyasi mənzərəsi, demək ki, siyasi mübarizə ətraflı tədqiqat zamanı bizə nisbi xarakterli proqnozlar verməyə imkan verir. Ümumiyyətlə, bu günün siyasi mübarizəsi dünyanın ürəyi hesab edilən Avrasiyada siyasi mübarizənin inkişafının aşağıdakı ssenarisini proqnozlaşdırmaq imkanı yaradır:

1) Orta hissəni Qərbin daim genişlənən orbitasına (Amerikanın rəhbər mövqeyə malik olduğu hissəyə) daxil etsək, cənub regionunda yeganə hegemonun hökmranlığı bərqərar olmazsa və Şərqin Amerikanı öz dəniz bazalarını tərk etməyə vadar edəcəyi dərəcədə birləşmədiyi halda söyləmək olar ki, Amerika Avrasiyada da demək olar ki, tam hegemonluq əldə edəcəkdir.

2) Lakin əgər orta hissə Qərbə müqavimət göstərərsə, fəal yeganə vahidə və ya

3) Cənub üzərində nəzarət əldə edərsə, və ya

4) İri şərq derjavasının iştirakı ilə birlik yaradarsa, Amerikanın Avrasiyadakı birinciliyi kəskin şəkildə daralacaqdır.

5) İki iri şərq oyunçusunun (Rusiya və Çin) birləşdiyi təqdirdə də eyni hadisə baş verəcəkdir.

6) Əgər qərb partnyorları Amerikanı onun qərb periferiyasındakı tarın-dan qovarlarsa, bu avtomatik olaraq Amerikanın Avrasiyada təsirinin sonu demək olacaq, hətta bu belə olsa da nəticədə bu qərb qurtaracağının orta mövqe tutan dirilmiş dövlətə tabe olunması demək olacaqdır.

Dünyanın siyasi gələcəyinin müəyyənləşdirilməsinin bu mənzərəsinə açıqlama verməyə çalışacağam. Mənim hələ əvvəldə demək istədiyim yaxın gələcəkdə dünyada əsas siyasi oyunçunun yenə də ABŞ olacağıdır. Lakin digər dövlətlərin imkanlarının və digər subyektlərin qüvvələrinin ABŞ-a qarşı birləşdirilməsi ehtimalının artmasını nəzərə alaraq çox güman ki, ABŞ öz strategiyasında özündə geostrateci nöqteyi-nəzərdən dinamik dövlətlərlə məqsədyönlü rəhbərliyi və katalizator-dövlətlərlə ehtiyatlı münasibətləri ehtiva edən strategiyanın tərəfdarı olacaqdır. Bununla da ABŞ geosiyasi

planda iki bərabər maraq güdəcəkdir: yaxın perspektivdə öz müstəsna qlobal hakimiyyətinin qorunmasını, uzaq perspektivdə isə onun daha da qlobal əməkdaşlığa çevrilməsini. Qədim imperiyaların amansız dövrlərinin terminologiyasından istifadə edərək imperiya geostrategiyasının üç əsas vəzifəsi vassallar arasında sövdələşmənin aradan qaldırılması və onların ümumi təhlükəsizlikdən asılılığının qorunmasından, tabelilərin itaətkarlığının qorunmasından, onların müdafiəsini təmin etmək və varvarların birləşməsinə yol verməməkdən ibarətdir. Beləliklə, ABŞ-nın gələcəyini Henri Kissincer özünün «Diplomatiya» kitabında gözəl şəkildə yekunlaşdırır: «Çox güman ki, Birləşmiş Ştatlar gələcəkdə dünyada ən güclü iqtisadiyyatını saxlamağa müvəffəq olacaqdır. Bununla Birləşmiş Ştatlar «soyuq müharibə» dövründə belə olmamış iqtisadi rəqabət qarşısında durmuş olacaqdır».

Amerika iri və qüdrətli millət olaraq qalacaqdır, lakin artıq onunla rəqabət apara biləcək qüvvələr də olacaqdır; «bərabər millətlər arasında birinci», lakin bununla yanaşı oxşar sıralardan biri. Vilsonun xarici siyasətinin ayrılmaz fundamenti olan Amerikanın müstəsnalığı çox güman ki, gələn yüzillikdə öz əhəmiyyətini xeyli dərəcədə itirəcəkdir».

Digər bir derjava – Böyük Britaniya da çox güman ki, yaxın gələcəkdə öz xarici siyasətini dəyişməyə hazırlaşmır. Bu gün o, özünü AB ilə ABŞ arasında yeganə birləşdirici bənd hesab edir və bununla da onlardan hər biri ilə xüsusi münasibətlərə malikdir. AB-yə münasibətdə onun siyasəti aşağıdakı kimidir:

1) Böyük Britaniya siyasi birlik məqsədini rədd edir;
2) Böyük Britaniya azad ticarət əsasında iqtisadi inteqrasiya modelinə üstünlük verir;
3) Böyük Britaniya xarici siyasətin, təhlükəsizliyin və AC-nin qeyri-struktur çərçivələrinin müdafiəsinin birləşdirilməsinə üstünlük verir;
4) Böyük Britaniya özünün AC-dəki avtoritetindən çox nadir hallarda istifadə edir. Böyük Britaniya bu siyasətə bir tərəfdən o səbəbdən tərəfdardır ki, o, tarixi cəhətdən özünü Avropadan ayrı bir ada hesab edir (siyasi münasibətdə bu mülahizə Qladstonun «möhtəşəm təcridi» siyasətində aydın şəkildə əks olunmuşdur), digər tərəfdən isə dünyada ən güclü dövlət qarşısında sadiq tərəfdaş ola bilməyəcəyindən qorxur. Şübhəsiz ki, Böyük Britaniya Avropa ilə münasibətlərə nisbətən ABŞ ilə münasibətlərə daha böyük üstünlük verir. Bu həm mədəniyyət və dil cəhətdən yaxınlıq, həm də geosiyasi tələbatla izah edilir. ABŞ-da və Britaniyada adətən bu iki ölkə arasında münasibətləri «xüsusi» münasibətlər – «special relations» adlandırırlar. ABŞ öz növbəsində hələ Ruzvelt və Çerçillin dövründən etibarən bütün xarici siyasi məsələlərdə onun daimi yardımına görə öz ən yaxın müttəfiqini dostcasına qiymətləndirir. Beləliklə, Corc Buş Böyük Britaniya baş nazirinin də iştirak etdiyi Senatdakı çıxışında bildirmişdir: «America

has no true friend than Great Britain» («Amerikanın Britaniyadan sadiq dostu yoxdur»). Böyük Britaniya da öz növbəsində ABŞ üçün AB-də ən sadiq müttəfiqdir. Burada Britaniyanın köməyi ilə AB heç zaman tamamilə antiamerika siyasi birliyinə çevrilə bilməz. Beləliklə, ABŞ hesab edir ki, xüsusilə AB-nin müstəqil siyasi orqanizm kimi güclənməsi şəraitində Avropa işlərində vetoya malik olmaq mühüm amildir. AB-nin vahid subyekt kimi güclənməsi istər-istəməz AB-nin ABŞ ilə bərabər münasibətlərə can atması ilə nəticələnir. Məhz bu cəhd NATO-nun mövcud strukturunu şübhə altına alır. Beləliklə, AB bu strukturun ənənəvi terminologiyadan istifadə etsək, hegemon və vassallardan ibarət olan alyans əvəzinə iki bu və ya digər dərəcədə bərabər partnyorlara əsaslanan alyansın yeni reallığına uyğunlaşmasını tələb edir. NATO çərçivəsində Qərbi Avropa Birliyinin (QAB), Qərbi Avropa ölkələrinin hərbi koalisiyasının rolunun artırılmasına yönəldilmiş 1996-cı ildə görülmüş son dərəcə ciddi tədbirlərə baxmayaraq, bu məsələyə hələ indiyə kimi baxılmır. Beləliklə, birləşmiş Avropa lehinə real seçim NATO-nun tamamilə yenidən təşkilinin həyata keçirilməsini tələb edəcəkdir, bu isə alyans çərçivəsində Amerikanın rəhbər rolunun azalmasına gətirib çıxaracaqdır. Bu o deməkdir ki, AB və ABŞ hərbi cəhətdən hələ uzun müddət əməkdaşlıq edəcəklər, belə ki, onlar Rusiya və Çinin simasında ümumi potensial düşmənlərə malikdirlər. ABŞ-nın Avropada əsas geostrateji məqsədi məhz bundan ibarətdir. O, kifayət qədər sadə şəkildə ifadə edilə bilər: daim böyüyən Avropanın beynəlxalq demokratik quruluşun və əməkdaşlığın Avrasiyaya daxil olması üçün daha real tramplinə çevrilməsi məqsədilə daha səmimi transatlantik partnyorluq vasitəsilə Avrasiya qitəsində Amerika meydanını möhkəmləndirmək. Rusiyaya münasibətdə ABŞ və AB-nin siyasətini iki rusiya geosiyasətçisi gözəl şərh etmişlər: «Birləşmiş Ştatlar və NATO ölkələri Rusiyanın özünə hörmət hissinə hörmətlə yanaşmalarına baxmayaraq, Rusiyaya dünya siyasətində Sovet İttifaqına məxsus ikinci derjava statusunun əldə edilməsinə ümid bəsləməyə imkan verən geosiyasi əsasları məhv edirlər».

AB-nin özünə gəldikdə isə onun birləşməsi prosesi hələ də davam edir. Lakin Avropa klubunun 25 üzvdən ibarət olmasına baxmayaraq, problemlər hələ də mövcuddur. Problem ondan ibarətdir ki, həqiqi avropa «Avropası» mövcud deyildir. Bu tam reallıq deyil, surət, konsepsiya və məqsəddir. Qərbi Avropa artıq geniş bazar deyildir, lakin yeganə siyasi təşkilat olmağına da çox var. Hələ ki, siyasi Avropa mövcud deyildir, belə ki, ümumi Avropa kostitusiyası hələ Litvadan başqa heç kim tərəfindən təsdiq edilməmişdir. İraq böhranı AB-nin yaxın gələcəkdə vahid siyasi qərarın hakim olduğu siyasi təşkilata çevrilə bilməyəcəyinin bir sübutu oldu. Xüsusilə də ABŞ siyasətinə aid olan məsələlərdə… Türkiyənin AB-nin üzvü olacağı təqdirdə AB siyasi cəhətdə daha da parçalanmış olacaqdır. Acınacaqlı bir fakt ondan ibarətdir ki, Qərbi Avropa və getdikcə həm də

Mərkəzi Avropa xeyli dərəcədə Amerika protektoratı olaraq qalmaqdadır, bununla belə müttəfiq dövlətlər qədim vassallar və tabe dövlətlərə bənzəyir. Bu cür vəziyyət nə Amerika, nə də Avropa dövlətləri üçün normal vəziyyət deyil.

Türkiyəyə gəldikdə isə çox güman ki, bu Avropa üçün mühüm problemlərdən biridir. 80 milyonluq bu müsəlman ölkəsi AB-nin üzvü olmaqdan ötrü böyük qüvvə sərf etmişdir. AB Türkiyənin üzvlüyü səbəbindən öz siyasi məhvi təhlükəsini dərk edərək böyük bir tərəddüd içərisindədir. Türkiyənin Almaniyadan sonra ikinci böyük dövlət olacağı və Almaniya və Fransanın öz liderliklərini Türkiyə ilə bölüşməyə məcbur olacaqları faktını dərk edən AB çox güman ki, Türkiyənin 2004-cü ilin dekabrında üzvlüyə qəbul edilməsi məsələsini təxirə salacaqdır, ya da onu hər hansı bir əməkdaşlıq layihəsinə cəlb edəcəkdir ki, bu da mahiyyətcə «bir az gözlə» demək olacaqdır. AB-nin Türkiyə ilə bağlı məsələdə tələsməyə məqsədi yoxdur. Ukraynadan fərqli olaraq, onun Avropa tərəfə olmaqdan savayı inkişaf yolu yoxdur. Lakin AB-nin də Türkiyə ilə əməkdaşlıq etməkdən savayı yolu yoxdur, buna görə də incidiyi təqdirdə Türkiyə Avropanın «acığına» daha da islamlaşa bilər.

Avropada isə iki lider mövcuddur ki, bu da Almaniya və Fransadır. Şübhəsiz ki, Almaniya demək olar ki, hər cəhətdən Fransadan üstündür. Onun hakim rolu şübhəsizdir, lakin digər ölkələr, xüsusilə də ABŞ Almaniyanın Avropada liderliyinin açıq şəkildə müdafiə edilməsi məsələsində bir qədər ehtiyatlı davranırlar. Bu liderlik Avropanın şərqə doğru genişləndirilməsi sahəsində alman tədbirliliyini qiymətləndirən Mərkəzi Avropanın bir neçə dövləti üçün faydalı ola bilər və o qərbi avropalıları ABŞ-nın birinciliyinin davam etməsi boyunca qane edə bilər, lakin uzunmüddətli perspektivdə Avropanın qurulması ona əsaslana bilməz. Yadda qalan xatirələr hələ ki, çoxdur, üzə çıxa biləcək qorxular çoxdur. Berlin tərəfindən təşkil və başçılıq edilən Avropa – həyata keçirilməsi qeyri-mümkün olan bir ideyadır. Məhz bu səbəbdən Fransa Almaniyaya, Almaniya isə Fransaya lazımdır. Kim inana bilərdi ki, Üçüncü Napoleon və Bismarkın dövründən Almaniyanın qatı düşməni olan, iki dəfə təcavüz qüvvəsini öz üzərində hiss etmiş və iki dəfə Almaniyaya təslim olmuş ölkə olan Fransa 50 il ötməmiş belə Almaniyanın fəal müttəfiqi olacaq və bu ölkənin BMT-nin Təhlükəsizlik Şurasının bərabərhüquqlu üzvü olması daha doğrusu, BMT-də islahatların aparılması uğrunda mübarizə aparacaq. Lakin Avropaya fransa-alman qarşılıqlı əlaqəsi gərəklidir, ABŞ isə Almaniya və Fransa arasında seçim edə bilməz. Qısamüddətli perspektivdə ABŞ-nın Fransa siyasətinə qarşı taktiki qarşıdurması və Almaniyanın liderliyinin müdafiə edilməsi haqlı idi; gələcəkdə isə əgər həqiqi Avropa doğrudan da reallığa çevrilməlidirsə, Avropa birliyi daha xarakterik siyasi və hərbi bənzərliyi qəbul etməyi tələb edəcəkdir. Bu tədricən səlahiyyətlərin atlantik orqanları

arasında bölüşdürülməsi haqqında məsələnin fransızsayağı şəkildə həll edilməsinə uyğunlaşmağı tələb edir.

Bir dövlətin liderliyi altında vahid Avropanın yaradılması məsələsinə gəldikdə isə bu məsələni qeyri-mümkün hesab edirəm, belə ki, nə Fransa, nə də ki, Almaniya Avropanı tək öz gücü hesabına qurmağa və ya Avropanın coğrafi məkanının müəyyənləşdirilməsi məsələsində Rusiya ilə qeyri-müəyyənlikləri həll etməyə qadir olacaq dərəcədə qüvvətli deyil. Bu ABŞ-nın, xüsusilə Avropa məkanının müəyyən edilməsində və demək ki, xüsusilə Rusiya üçün Avropa sistemində Baltikyanı və Ukrayna respublikalarının mümkün statusu kimi məsələlərin aradan qaldırılmasında almanlarla birgə ciddi, gərgin və qəti iştirakını tələb edir.

Eyni zamanda bu, gələcəkdə Fransa ilə Almaniya arasında siyasi münaqişənin tam olaraq aradan qalxması demək deyildir. Əgər ABŞ yalnız Almaniyaya böyük yardım göstərərsə, Almaniya isə öz növbəsində Avropanı təklikdə idarə etməyə can atacaqsa, bu halda Fransa Amerikanın Avropa siyasətinin qarşısını almaq və bunu münasib vaxtda yenidən bərpa etmək məqsədilə özünün Rusiya ilə ənənəvi əlaqələrindən taktiki surətdə istifadə edə bilər. Bu siyasi inkişaf variantının yaxın gələcəkdə inanılmaz görünsə də, Avropa ölkələri içərisində siyasi cəhətdən Rusiyaya ən yaxın ölkə olan Fransa bu mövqeyi itirməyə hazırlaşmır. Bu mövqe Fransa tərəfindən bir daha onun xarici işlər Nazirinin 1996-cı ilin avqustunda açıq-aşkar verdiyi bəyanatında qeyd edildi. O, söyləmişdir ki, «əgər Fransa beynəlxalq səviyyəli rol oynamaq istəyirsə, Rusiyanın güclü olması və onun güclü derjava kimi təkrarən özünütəsdiq edilməsində ona yardımın göstərilməsi onun üçün əhəmiyyətlidir» və Rusiya xarici işlər nazirini buna bu cür cavab verməyə vadar etdi: «bütün dünya liderləri içərisində Rusiya ilə qarşılıqlı münasibətlər sahəsində ən konstruktiv yanaşma fransız rəhbərlərinə məxsusdur».

Zənnimcə ən ağlabatmaz gələcək nəhəng derjavalardan Rusiyaya məxsusdur. Məhz o, gözlənilməz olaraq kommunist «müsibətinə» çevrilmiş və gözlənilməz olaraq da bu «müsibəti» tərk etmişdir. Rusiya kommunizm dövründə fərqli ideologiyaya malik idi, bu isə ona şərəf hissi verirdi. Bu səbəbdən də artıq o zaman Rusiyanın öz ideologiyası olmadan mövcudiyyətini proqnozlaşdırmaq çətin idi. «Əgər ruslar üçün dəhşətli olan hadisə baş verərsə və dövlət hissələrə parçalanarsa, öz 1000 illik tarixi boyunca talan edilmiş və aldadılmış ruslar tək qalacaqlar, bu zaman onların bu yaxındakı «qardaşları» öz şeylərini götürüb «milli xilasetmə qayıqlarına» minəcək və əyilimiş gəmidən kənara üzəcəklər; nə etməli, bizim getməyə başqa yolumuz yoxdur… Siyasi, iqtisadi və mədəni cəhətdən «rusiya ideyasını» təcəssüm etdirən Rusiya dövlətçiliyi yenidən yaradılacaqdır. O, çarizmin mövcud olduğu uzun 1000 il və bir an kimi ötüb keçmiş 70 sovet ili təcrübəsindən ən yaxşı cəhətləri özündə ehtiva edəcəkdir». Bu səbəbdən

də Rusiya üçün günümüzə kimi onu dərhal Qərbdən və onun keçmiş qatı düşməni olan ABŞ-dan mədəni cəhətdən asılı vəziyyətə salacaq demokratik-avropa örtüyü altına girmək çox çətindir. Dövlət duması deputatlarından biri Rusiya mövcud olan vəziyyəti bu cür təsvir etmişdir: «Keçmişdə Rusiya özünü Avropadan arxada olsa da, Asiyanın başında görürdü. Lakin, sonradan Asiya daha cəld tempdə inkişaf etməyə başladı… və biz özümüzün «müasir Avropa» və «geridə qalmış Asiya» arasında olmaqdan çox, bir qədər qəribə mövqe tutaraq iki «Avropa» arasında olduğumuzu müəyyən etdik». Sovet İttifaqının dağılmasından heç bir ay keçməmiş ilk Rusiya xarici işlər naziri bəyan etdi: «Messianizmdən imtina etməklə biz praqmatizm kursu götürdük… biz tezliklə anlamağa başladıq ki, geosiyasət… ideologiyanı əvəz edir». Geosiyasət dedikdə bir çox siyasətçilər ABŞ-nın Şərqə doğru irəliləməsini dayandırmaq və nəticədə özlərinin sağ qalması üçün bütün mümkün vasitələrə əl atmağı başa düşürlər. Buna baxmayaraq, aparıcı geosiyasətçilər əvvəlki kimi hələ də «Birləşmiş Ştatlarla konfrontasiya – qaçılması zəruri olan variant» olduğunu sübut etməyə çalışırlar. Bundan əlavə onlar sübut etməyə çalışırlar ki, ABŞ «Nəticədə qitədə bir aparıcı dövlətin deyil, bir çox orta, nisbətən sabit və orta güclü …, lakin mütləq həm birlikdə, həm də ayrı-ayrılıqda Birləşmiş Ştatlarla müqayisədə xeyli zəif dövlətlərin olması üçün bütün Avrasiyada dövlətlərarası münasibətlərin yenidən təşkilinə» can atır.

Lakin eyni zamanda Rusiyanın bir çox siyasətçiləri yenə də ideoloji boşluğu qərb tipli demokratiya ilə doldurmağa razı deyillər. Bu boşluğu Rusiya ideoloqları daha da cəlbedici görünən «yaxın xaricə» doğru olan fokuslu «Avrasiya» doktrinası ilə doldurmağa cəhd etdilər. Terminologiyada mədəniyyət, hətta mistika ilə əlaqələndirilən bu istiqamətin başlanğıc nöqtəsi ondan ibarət idi ki, geosiyasi və mədəni münasibətdə Rusiya tam olaraq nə Avropa, nə də Asiya ölkəsidir və bu səbəbdən də Avrasiya dövlətindən ibarətdir, bu isə yalnız ona xas olan keyfiyyətdir. Bu Rusiyanın Mərkəzi Avropa ilə Sakit okean arasında yerləşən geniş əraziyə nəzarət irsidir, Moskva şərqə doğru irəliləməsinin 400 ili ərzində yaratdığı imperiyanın irsidir. Bu irəliləmə nəticəsində Rusiya saysız-hesabsız rus və avropalı olmayan xalqları assimilyasiya etmişdir, bununla da vahid siyasi və mədəni fərdiliyə nail olmuşdur.

«Avrasiyalıq» bir doktrina kimi Sovet İttifaqının dağılmasından sonra yaranmışdır. O, ilk dəfə 19 əsrdə yaranmış, lakin sovet kommunizminin aydın şərh edilmiş alternativi və Qərbin guya ki, tənəzzülünə reaksiya kimi 20 əsrdə geniş yayılmışdır. Rus mühacirləri bu doktrinanı sovet yolunun alternativi kimi xüsusi fəallıqla yayırdılar, belə ki, başa düşürdülər ki, kommunizmin tamamilə iflasa uğraması Böyük Rusiya İmperiyasının dağılmasına gətirib çıxarmasının qarşısını almaq üçün rus olmayan xalqların Sovet İttifaqında milli oyanışı hərtərəfli milli doktrinanı tələb edir.

Lakin istənilən halda etiraf etmək lazımdır ki, avrasiyalıq nəzəriyyəsi dövlət ideologiyası olmaq nəzəriyyəsindən uzaqdır. Onu da qeyd etmək lazımdır ki, Rusiya indi də, xüsusilə Ukraynada baş verən hadisələrdən sonra özü üçün Qərb ideologiyasından fərqli ideologiyanı götürməyin zəruri olduğunu hiss edir.

İdeoloji müharibədə məğlub olan Rusiya həm də geosiyasi müharibədə də məğlub oldu. Lakin ideoloji müharibədə tamamilə məğlubiyyətindən fərqli olan Rusiya tam geosiyasi məğlubiyyətdən hələ ki, uzaqdır. Bu gün Rusiyanı hər şeydən çox ABŞ-nın hərbi müttəfiqlərinin – NATO-ya üzv-ölkələrin sərhədlərinin Rusiyanın sərhədlərinə yaxınlaşması faktı narahat edir. Bu faktı nəzərə alaraq Rusiya mexaniki surətdə ABŞ-nın Avrasiyaya doğru gələcək irəliləməsinə qarşı müttəfiqlər axtarmağa başladı. Öz təsir sahələri olan regionlarda (məsələn, Tayvan) ABŞ-nın hegemonluğu ilə razılaşmaq üçün kifayət qədər güclü ölkə olan Çin Rusiyanın ideal potensial müttəfiqi ola bilərdi. Beləliklə, ABŞ-nın bugünkü militarist siyasətindən narazı olan iki ölkənin daha sıx surətdə yaxınlaşması ehtimalı mövcuddur. Hər iki dövlətin siyasi elitasının ABŞ-nın yeganə üstün derjava olmasından narazılıq əsasında ikitərəfli Rusiya-Çin münasibətlərinin bərpası 1996-cı ilin başlanğıcında Eltsinin Pekində səfərdə olduğu və qlobal «hegemon» tendensiyaları birmənalı şəkildə pisləyən bəyannaməni imzaladığı zaman baş vermişdir. Bu Rusiya və Çinin Birləşmiş Ştatlara qarşı ittifaqa daxil olması demək idi. 1996-cı ilin dekabr ayında Çinin baş naziri Li Pen cavab səfəri ilə Rusiyada oldu və hər iki tərəf «bir dövlətin hakim olduğu» beynəlxalq sistemin qəti surətdə əleyhinə olduqlarını bir daha təsdiq etməklə yanaşı, həm də mövcud ittifaqların güclənməsini bəyəndilər. Rusiya müşahidəçi və politoloqları hadisələrin bu cür inkişafını rəğbətlə qarşılayırdılar, belə ki, onu qlobal qüvvələr nisbətində müsbət irəliləyiş və Birləşmiş Ştatlar tərəfindən NATO-nun genişlənməsinə yardıma cavab hesab edirdilər.

Bu antihegemonçu ittifaqa olan tendensiya hər iki dövlətin sərhədlərində ABŞ-nın hərbi iştirakının təsdiq olunmasından sonra getdikcə daha da gücləndi – Əfqanıstan, Özbəkistan, Baltikyanı dövlətlər və İraq. Bundan savayı, bu ittifaq Rusiyaya Çindən çox lazımdır. Bunun səbəbi ondan ibarətdir ki, Rusiya həm iqtisadi, həm də hərbi nöqteyi-nəzərdə daha zəifdir. Bundan əlavə, geosiyasi nöqteyi-nəzərdən Çin Rusiya üçün ABŞ və Avropadan böyük təhlükədir. Belə ki, ABŞ və Avropanın şərq ərazilərində əhali məskunlaşmamış, əhalinin yerləşdirilməsi üçün daha böyük ərazi axtaran Çində isə həddən artıq məskunlaşmışdır. Bu səbəbdən Rusiya bir tərəfdən ABŞ və Avropa, digər tərəfdən isə Çinlə ittifaq arasında patoloji qorxu qarşısındadır. Rusiya üçün bu Bismark Almaniyası üçün Fransa və Rusiya ittifaqı qarşısında olan dəhşətə bərabərdir. Bir sözlə, Rusiya diplomatiyası bu ittifaqın baş tutmaması üçün Çinin Tayvan məsələsində yardımını və ola

bilsin Koreya məsələsində şifahi yardımını da nəzərə almaqla əlindən gələni edəcəkdir (heç olmazsa etməlidir). Digər tərəfdən, yaxın perspektivdə bu ittifaqın baş tutması çətin həyata keçsin, belə ki, Rusiya antihegemon istiqamətli koalisiya üzrə həqiqətən də layiqli müttəfiq olmaqdan ötrü Rusiya-Çin ittifaqına az şey təklif etməyə qadirdir.

Ümumi ideologiyadan məhrum və antihegemonçu hisslərlə birləşmiş bu cür koalisiya mahiyyətcə «üçüncü dünya» ölkələrinin bir hissəsinin daha inkişaf etmiş dövlətlərə qarşı ittifaqı olacaqdır. Bu koalisiyanın üzvlərindən heç biri çox şey əldə edə bilməyəcəkdir, Çin isə böyük sərmayə axınını itirmək riskinə gedir. Rusiya üçün isə «Rusiya-Çin ittifaqı kabusu… onun yenidən qərb texnologiyası və kapitalından təcrid edilməsi şansını kəskin surətdə artıracaq», deyə bir rusiya geosiyasətçisi söyləmişdir. Bu cür ittifaq onun bütün iştirakçılarını uzunmüddətli təcrid və onlar üçün ümumi geriləməyə məhkum edəcəkdir.

Bundan əlavə, çox güman ki, Çin Rusiyanın oxşar antihegemonçu koalisiya yaratması cəhdlərində böyük müttəfiq olacaqdır. Əhalisinin çoxluğu ilə fərqlənən, sənaye cəhətdən daha inkişaf etmiş, Rusiyaya münasibətdə öz müəyyən ərazi planlarını daha dinamik və potensial şəkildə nəzərdə tutan Çin ona kiçik müttəfiq statusunu verəcəkdir. Beləliklə, Rusiya genişlənən Avropa və ekspansionist Çin arasında buferə çevrilə bilər.

Təhlükəli ssenarilərdən biri kimi antihegemonçu koalisiyanın ideologiya deyil, bir-birini tamamlayan inciklik əsasında birləşən Çin, Rusiya və İranın iştirakı ilə yaradılması zamanı baş verəcək hadisələrin inkişafı ola bilər. Qərb tərəfindən Hindistanda Kəşmir probleminin müdafiə edilməsi səbəbindən narazı olduğu halda Pakistanın Çinlə sıx münasibətlərini nəzərə alaraq bu koalisiyaya daxil olması daha təhlükəli olardı. Beləliklə, ABŞ Pakistanın Kəşmir probleminin həllinin yeganə yolunu Rusiya və Çin birliyində görməməsindən ötrü hər şey etməlidir. Lakin bu proses baş versə, belə gec baş verəcəkdir, belə ki Çinin özünün hələ ki, Tayvan və Koreyada, Rusiyanın isə postsovet məkanında təsirini itirməsi üzündən problemləri vardır. Bununla belə, «izqoy»ların ittifaqı Çin, Rusiya, İran və ola bilsin hətta Şimali Koreya simasında daha ehtimal olunandır. Öz həcmi və miqyasına görə hadisələrin bu cür inkişafı artıq bir dəfə Rusiya-sovet bloku tərəfindən qoyulmuş problemi xatırladır, lakin bu dəfə çox güman ki, Çin lider olacaqdır. Bu blokun yaranmasının qarşısını almaq üçün ABŞ eyni zamanda həm qərb, həm şərq, həm də Avrasiyanın cənub sərhədlərində geostrateji məharət göstərməli olacaqdır.

Coğrafi cəhətdən daha məhdud, lakin potensial surətdə daha mühüm problem Yaponiyanın dünya problemlərinə baxışının dəyişməsinə səbəb olacaq Uzaq Şərq və Sakit okean regionundakı Amerika mövqelərinin itirilməsindən sonra baş verə biləcək çin-yaponiya birliyi, ola bilsin birləşmiş Koreya problem ola bilər. Bu cür blok iki son dərəcə produktiv

xalqın gücünü birləşdirə bilər və birləşdirici Amerika doktrinası kimi «asiyanizm» («asianism») formasını istifadə edə bilər. Bu cür ittifaq nisbətən uzaq gələcəkdə həyata keçə bilən görünür. Bu proses yalnız Koreyanın birləşməsi və adada Amerika qoşunları haqqında məsələnin qalxdığı zaman başlaya bilər. Bu mənada Amerikanın Cənubi Koreyada iştirakı xüsusi əhəmiyyət kəsb etməyə başlayır. Onsuz müdafiə sahəsində Amerika-yapon sazişinin bu formada mövcud olmasını təsəvvürə gətirmək çətindir, belə ki, Yaponiya hərbi cəhətdən daha da müstəqil olmağa məcbur olacaqdır. Lakin koreyanın birləşməsi yolunda atılan hər bir addım çox güman ki, Amerika qoşunlarının Cənubi Koreyada olmasının davam etdirilməsinə yol verməyəcəkdir. Birləşmiş Koreya Amerika hərbi müdafiəsindən imtina etməyi zəruri hesab edə bilər, bu faktiki olaraq Çinin var qüvvəsi ilə yarımadanın birləşdirilməsinə tərəfdar olmasının qiyməti ola bilər. Bir sözlə, ABŞ-nın Çinlə münasibətlərini tənzimləməsi birbaşa olaraq amerika-yapon-koreya «üçbucaqlısı» çərçivəsində təhlükəsizlik sahəsində münasibətlərin sabitliyində əks olunacaqdır. Bu cür «triada»nın mümkünlüyünün daha bir neçə səbəbi vardır. Birincisi, başda Yaponiya, Çin və Cənubi Koreya olmaqla Asiya ölkələri sənaye, iqtisadi və hərbi cəhətdən kifayət qədər inkişaf etmiş ölkələrdir, bu səbəbdən də onlar arasında ziddiyyətin olmadığı halda regionda Amerika qoşunlarını saxlamağın nə dərəcədə məqsədəuyğun olması haqqında məsələ qoyula bilər. Bu səbəbdən ABŞ bu ölkələr arasında sülhün yaranmaması üçün əlindən gələn hər şeyi edəcəkdir.

İkincisi, bu gün derjava olan Yaponiya mahiyyətcə yalnız iqtisadi derjavadır ki, bu da çalışqan və mübariz milləti qane etmir. Beləliklə, 19 yanvar 1960-cı il tarixində Vaşinqtonda 10 il müddətinə imzalanmış, sonra 1969-cu ilin noyabrında qeyri-müəyyən müddətə uzadılmış «qarşılıqlı əməkdaşlıq və təhlükəsizliyin təminatı» haqqında müqavilə Yaponiyaya Versal sülhünün Almaniyaya göstərdiyi təsiri göstərə bilər (xüsusilə də ABŞ-ın quru, hərbi-hava və hərbi-dəniz qüvvələrini Yaponiya ərazisində saxlaması, eləcə də orada hərbi bazaya malik olmaq hüququnu təsdiq edən müqavilənin şərtlərini nəzərə alsaq). Yaponiya öz hərbi potensialını gücləndirməyi və Yaponiyanın rəhbərliyi altında olan ərazilərdə «ümumi təhlükənin dəf edilməsi üçün ölçü» götürməyi öz öhdəsinə götürdü. Müqavilə ilə eyni zamanda imzalanmış ayrı bir sazişdə ABŞ-nın Yaponiyada yerləşdirilmiş silahlı qüvvələrinin statusu müəyyən edildi. Bundan əlavə, Yaponiya bu müqavilədən sonra ilk dəfə olaraq öz qoşunlarını İraqa göndərmək üçün böyük qüvvə sərf etdi, bu isə iqtisadi derjava statusu çox yəqin ki, Yaponiyanı qane etmir.

Üçüncüsü, Yaponiya özünü BMT-nin TŞ-da səsi olmadığına görə də sıxılmış hesab edir. Yaponiyanın bu birlik yolunda olan yeganə maneəsi əsasən ABŞ və Avstraliyadan gələn xammal məhsulunun ixracından tam

asılılığıdır. Bu məsələni də zəngin, lakin güclü müttəfiqə ehtiyacı olan Rusiya həll edə bilər.

ABŞ-nın Uzaq Şərqdəki mövcud mövqeyini Zbiqnev Bzecinskiy gözəl xarakterizə etmişdir: «Cənubi Koreya Uzaq Şərqin geosiyasi mərkəzidir. Onun Birləşmiş Ştatlarla sıx əlaqələri Amerikaya Yaponiya üçün qalxan rolunu oynamağa və bunun vasitəsilə də Yaponiyaya Amerika qüvvələrinin orada iştirakı olmadan müstəqil və güclü hərbi derjavaya çevrilməyə yol verməməyə imkan verir. Cənubi Koreyanın statusunda istər onun birləşməsi ilə, istərsə də Çinin genişlənən təsir sahəsinə keçidi səbəbindən baş verən istənilən mühüm dəyişiklik mütləq olaraq Yaponiyanın rolunu da dəyişməklə Amerikanın Uzaq Şərqdəki rolunu köklü surətdə dəyişərdi. Bundan əlavə, Cənubi Koreyanın artan iqtisadi gücü onu özü-özlüyündə daha da mühüm bir «məkan»a çevirir. Bu səbəbdən onun üzərində nəzarət daha böyük dəyərə malik olur».

Dünyada böyük əhəmiyyətə malik digər regionlar da mövcuddur. Bu regionlarda nəhəng derjavaların mübarizəsi ya baş verir, ya da baş verməsi gözlənilir və bir derjavanın qalibiyyəti zamanı digərinin güclü zərbəsi mütləqdir. Bu regionlardan biri də Ukraynadır. Hələ SSRİ-nin dağılmasından dərhal sonra buraya səfəri zamanı Marqaret Tetçer belə bir nəticəyə gəlmişdir ki, həm RSFSR, həm də müstəqil Rusiya Ukraynanın tam olaraq Rusiya siyasi dairələrinin təsiri altında qalması üçün hər şey edəcəkdir. Bu mülahizə ona görə deyilmişdir ki, Avrasiya məkanında yeni və mühüm məkan olan müstəqil Ukrayna geosiyasi mərkəzdir, çunki onun bir dövlət kimi mövcudiyyəti belə Rusiyanı transformasiya etməyə yardım göstərir. Ukrayna Rusiya artıq Avrasiya imperiyası deyil və Ukraynasız Rusiya hələ ki, imperiya statusu uğrunda mübarizə apara bilər, lakin bu zaman o, əsasən Asiyanın imperiya dövləti olardı və çox güman ki, yenicə başını qaldırmış Orta Asiya ilə üzücü münaqişəyə cəlb edilmiş olardı. Orta Asiya isə bunun baş verdiyi halda bu yaxındakı müstəqilliyini itirdiyi səbəbindən incik düşər və onunla dostluq münasibətlərində olan cənub dövlətlərinin yardımını əldə etmiş olardı. Lakin əgər Moskva 52 milyonluq əhalisi, iri ehtiyatlara və Qara dənizə çıxışa malik olan Ukrayna üzərində nəzarəti qaytararsa Rusiya avtomatik olaraq Avropa və Asiya boyunca uzanan güclü imperiya dövlətinə tez çevrilmək üçün vəsait əldə etmiş olacaq. Bundan əlavə, Belorusiya kimi prorusiya Ukraynası da Şərqə doğru Avro-amerika irəliləməsi üçün qalxan rolunu oynayar.

Bundan başqa hadisələrdən də göründüyü kimi, ABŞ və Avropa artıq qalib gəlmişlər. Bu isə artıq Qərb tərəfdən postsovet ölkələrində əldə edilmiş ikinci inqilabi qələbədir. Nəticədə bu, digər postsovet ölkələrinə də pis təsir göstərə bilər. Rusiya politoloqu Vitaliy Tretyakovun da qeyd etdiyi kimi: «Ukraynadan sonra bu cür «incə» inqilablar Qazaxıstan, Özbəkistan… … … və hətta Ermənistanda da baş verə bilər».

Zənnimcə, Rusiyanın Ukraynadakı məğlubiyyəti tezliklə onu bütün postsovet ölkələrinə, xüsusilə də Azərbaycan və Qazaxıstana qarşı daha sayıq edəcəkdir. Rusiya bu ölkələrin növbəti Ukraynaya çevrilməməsi üçün bütün mümkün tədbirlərdən istifadə etsə, heç də təəccüblənmərəm. Azərbaycan və Qazaxıstan kimi ölkələrin güclü qərb əhval-ruhiyyəsinə malik olduğu halda Rusiya aşağıdakı tədbirlərə əl ata bilər: Qazaxıstandakı şərait böyük rus əhalisi tərəfindən tez surətdə sabitləşdirilə bilər. Bu, nəticədə şimali Qazaxıstanın rus əhalisinin Rusiyaya birləşdirilməsi haqqında məsələni üzə çıxara bilər. Həm də bu birləşdirmə milli özünü müəyyənetmə şüarı altında ediləcəkdir.

Azərbaycanda isə sonuncu təzyiq vasitəsi İranla antiazərbaycan ittifaqı ola bilər. Bu ittifaqda hər iki ölkə özünü aşağıdakı məsələlərdə müdafiə edəcəkdir: Xəzərin statusu, ölkənin şimalında ləzgilərin məsələsi, ölkənin cənubunda talışların məsələsi və əlbəttə erməni təcavüzü məsələsi. Beləliklə, hazırkı Azərbaycan rəhbərliyi əsası hələ rəhmətlik Heydər Əliyev tərəfindən qoyulmuş və zənnimcə, Azərbaycanı ikinci İraqdan qorumağa qadir yeganə siyasət olan xarici siyasətə yolunu tutmuşlar. Ən əsası odur ki, mövcud hakimiyyət bu kursu dəyişməsin, bu xüsusilə NATO qoşunlarını buraya buraxmağa aiddir. Bu gün regionda Rusiyanın keçmiş postsovet ölkələrində bərqərar olmaq cəhdindən ibarət olan geosiyasi mövqeyi, eləcə də İranın həmin şeyi Azərbaycanda da etmək cəhdini və üstəlik bu ölkələrin ABŞ və Qərbə xoşagəlməz münasibətini nəzərə alaraq NATO qoşunlarını heç bir təqdirdə Azərbaycana buraxmaq olmaz. Bu həm də NATO qüvvələrinin Ermənistan tərəfindən işğal edilmiş torpaqların bizə qaytarılacağına ümid bəsləyənlərə də aiddir. NATO qoşunlarını Azərbaycana yalnız Rusiyanın Azərbaycana qarşı intervensiya hazırlaması haqqında dəqiq məlumata malik olduğumuz halda və NATO qoşunlarının burada bərqərar olması burada NATO bazasının yaradılmasına təbii reaksiya olaraq Rusiya ilə sərhədlərimizin bağlanması ilə əlaqədar olaraq güclü iqtisadi zərbədən üstün olan müstəqilliyimizi xilas etmək üçün yeganə yolun olduğu zaman buraxmaq olar.

Yaxın gələcəyin qlobal proqnozunun verilməsi məsələsinə gəldikdə isə burada ABŞ-nın məqsədli şəkildə güclənməsi tendensiyası özünü büruzə verir. Bu tendensiya İraqda, Əfqanıstanda və Özbəkistanda artıq yaranmış, indi isə Ukraynada yaranır, yaxın gələcəkdə isə ola bilsin ki, İranda, Şimali Koreya və Suriyada, uzaq gələcəkdə isə Səudiyyə Ərəbistanında da yarana bilər. Digər tərəfdən, Amerikanın bu ölkələrdə qüvvə boşluğunu doldurmaq strategiyası İraqdakı yubanma səbəbindən tam olaraq plan üzrə getmir. Şəxsən mənim üçün bu ölkələri aradan götürməyin bu ardıcıllığı qeyri-real görünür. Mən bu fikrə ona görə tərəfdar çıxıram ki, İraqa görə derjavaların kifayət qədər ziddiyyətini görmüşəm və hətta NATO üzvü olan Almaniya və Fransanın nəinki ABŞ-nın əleyhinə çıxış etdilər, hətta Fransa

İraqa görə ABŞ ilə münasibətlərini də korladı. Digər tərəfdən, İraq, üstəlik hələ Ukrayna da Rusiyanı o dərəcədə hirsləndirdilər ki, o, çox böyük həvəslə istər Çinin, istərsə də Avropa ölkələri simasında olsun istə-nilən antiamerika müxalifətini müdafiə edəcəkdir. Bütün bunları nəzərə alaraq ABŞ öz növbəti hədəfini elə seçəcəkdir ki, o, Ukrayna ilə olduğu kimi Avropa üçün də düşmənə çevrilməsin. Belə ki, ABŞ Rusiyaya Avropanı və ya Çini vermək seçimi qarşısında qaldıqda sözsüz ki, Çini seçəcəkdir. Digər tərəfdən, Fransa və Almaniya ABŞ-nın onlara bərabər-hüquqlu müttəfiq kimi baxdığı təqdirdə heç də ABŞ-nın «demokratiyanı zor gücü hesabına yaymaq» siyasətinə qarşı deyildir. Lakin bu variant mənə həddindən çox şübhəli görünür, belə ki, ABŞ özü üçün Böyük Britaniyadan güclü müttəfiq görmək üçün çox güclüdür. ABŞ Britaniya, İtaliya, Polşanın simasında Avropada kifayət qədər sadiq müttəfiqlərə malikdir və onun bütünlükdə siyasi Avropanın özünə qarşı düşmənçiliyi haqqında narahat olmağa əsası yoxdur. Mən hesab edirəm ki, İraqda nisbi sabitlikdən və Ukraynada Yuşenkonun qalibiyyətindən sonra ABŞ özünə İranın simasında yeni hədəf seçəcəkdir. Lakin ABŞ burada hərbi tədbir-lərsiz və Avropa ilə müştərək şəkildə hərəkət etməyə çalışacaqdır. Antiiran əməliyyatı zamanı ABŞ əsas diqqəti demokratiyaya verəcəkdir və bununla da ona düşmən olan quruluşu içərisindən məhv etməyə çalışacaqdır. Lakin digər tərəfdən isə İran, xüsusilə İraqla müqayisədə, layiqli rəqib ola bilər. 20 milyonluq əhalisi olan İraqdan fərqli olaraq, İranın əhalisi demək olar ki, 70 milyon nəfər təşkil edir. Bu səbəbdən mən hesab edirəm ki, əgər İran ABŞ-nın növbəti hədəfi olsa, belə hərbi vasitə sonuncu olacaqdır.

ABŞ bundan başqa öz elmi və maliyyə bazasını rəqabət aparan derjavalardan qabağa çıxmaq üçün istifadə edir. Bu tip layihələrdən biri də hal-hazırda National Missile Defence (NMD) – Milli Raket Müdafiəsi adlanan «Star Wars» yaxud «Ulduz müharibələri» layihəsidir. Bu layihənin adında «müdafiə» sözünün olmasına baxmayaraq, kosmosda qurulmuş raketlər düşmənlərə hamıdan tez zərbə endirə bilər. Təqdirəlayiq fakt ondan ibarətdir ki, kosmosun hərbiləşdirilməsi beynəlxalq hüquq nöqteyi-nəzərindən qadağan olunmuş əməliyyatdır. Atmosferdə, kosmik fəzada və su altında nüvə silahının sınağının qadağan olunması haqqında 1963-cü il Moskva müqaviləsi, 1967-ci il kosmos haqqında müqavilə və 1979-cu il Ay haqqında saziş kosmosun hərbiləşdirilməsi – nüvə silahının sınağı, göy cisimlərində hərbi xarakterli bazaların və qurğuların yerləşdirilməsi, kütləvi qırğın silahı obyektlərinin yerətrafı və ya ayətrafı orbitaya çıxarılmasının qadağan olunmuş tədbirlər olduğunu açıq şəkildə bəyan etdilər.

Hal-hazırda gedən mədəni mübarizə İslam dini simasında qlobal və beynəlmiləl ideologiyanın təsdiq olunması barəsində proqnozlar verməyə əsas verir. İndiki zamanda bu Qərb ideologiyası kimi, özündə tərəfdaşları milli mənsubiyyətindən və dərisinin rəngindən asılı olmayaraq birləşdirir.

Bir din kimi İslam dini bütün Qərb üçün əslində bir nömrəli problemdir. O, ən tez surətdə yayılan dindir və bununla da bütün dünyada cəmiyyətin müxtəlif təbəqələrinə sirayət edir. İslam dini həm də ABŞ-da, Qərbdə və Rusiyada da tez yayılır. Samuel Xanqtinqton Qərbin İslam dininə münasibətini, dəqiq şəkildə qeyd etmişdir: «Qərb üçün İslam fundamentalizmi deyil, bir din olaraq İslam əsas problemdir». Bu bəyanat sadəcə olaraq qəzəb və ya ədavət səbəbindən verilməmişdir, o, kifayət qədər sərt əsasa malikdir. İslam qərb həyat tərzi ilə bir çox cəhətdən fərqlənir. Lakin İslamın Qərbi qane etməməsinin ən əsas səbəbi bu dinin həyatın bütün sahələrinə – iqtisadiyyata, siyasətə, hüquqa, mədəniyyətə və s. cəlb olmasıdır. İslam həm də birliyə çağırır ki, bu da adətən müsəlmanlara təkan verir və özünü ümumi düşmənə qarşı birləşmək cəhdlərində göstərir. Beləliklə, mən gələcəkdə İslamın daha da yayılmasının proqnozunu verirəm, bu isə öz növbəsində İslam Konfransı Təşkilatı kimi (İKT) bu cür təşkilatın təsirini, eləcə də islam ölkələrinin həmrəyliyini artırar. Nisbətən uzaq gələcəkdə islamın güclənməsi bir çox ərəb və qeyri-ərəb ölkələrini bir ittifaqda və ya hətta dövlətdə birləşdirməyə qadirdir. Biz ərəblərin ümumi dilə, mədəniyyətə və dinə və bu qədər müstəqil ərəb ölkələrinə məxsus yeganə millət olduqlarını adətən unuduruq. Nədənsə biz adətən koreya və azərbaycan xalqlarının parçalanması haqqında nə vaxtsa yenidən birləşəcək xalqlar kimi fikirləşirik, halbuki adətən əsrlər boyunca bir dövlət daxilində yaşayan ərəbləri unuduruq. Hesab edirəm ki, bu inadcıl xalqı yalnız ümumi islam dini birləşdirə bilər. Qədimdə İslamdan öncəki dövrlərdə bu xalqı müxtəlif başçılar tərəfindən birləşdirmək cəhdlərinin göstərildiyi kimi, müasir dövrdə də ərəb millətçiləri bu millətin birləşdirilməsi üçün əllərindən gələn səyləri göstərirlər. Lakin hamımız çox gözəl bilirik ki, nə birincilər, nə də ki ikincilər bunu etməyə müvəffəq olmamışlar. Müasir dövrdə ərəblərin birləşməsinin zirvə nöqtəsi Nəsir tərəfindən bir nesə il ərzində mövcud olmuş və tərkibinə Misir, Suriya və Yəmənin bir hissəsi daxil olan Birləşmiş Ərəb Respublikasının yaradılması oldu. Bununla da belə nəticəyə gəlirəm ki, millət yalnız İslam bayrağı altında birləşdirilə bilər. Bunun dünyada hansı qüvvələr balansına gətirib çıxaracağı zənnimcə, hər kəsə aydındır.

Beləliklə, hesab edirəm ki, dünya İslam və Qərbin toqquşmasına yaxınlaşır (biz hələ digər mədəniyyətlərin toqquşması ehtimalından danışmırıq). Bir tərəfdən ABŞ tərəfindən İsrailin müdafiə edilməsi, anti-terrorçu əməliyyatların müsəlman ölkələrinə qarşı yönəldilməsi və anti-müsəlman təbliğatı kimi hadisələr, digər tərəfdən isə SSRİ-nin dağılmasından sonra bir çox müsəlman ölkələrinin müstəqillik əldə etməsi (ümumiyyətlə, mərkəzi Avrasiyada dinə etiqad edilməsinə qadağanın götürülməsi), müsəlman ölkəsində nəhəng maliyyə bazasının yaranması, eləcə də böyük neft ehtiyatlarına sahib olma (OPEK-in üzvü olan 15 ölkədən 13-ü müsəlmandır) və

amerikalıların və avropalıların özlərinin içərisində müsəlmanların sayının artması zənnimcə bu prosesi daha da yaxınlaşdırır.

## ƏDƏBİYYAT


1. Аббасбейли А. Внешняя политика Российской Федерации в XXI веке. Баку, 2005.
2. Abbasbəyli A. Beynəlxalq münagişələr: Nəzəri və konseptual yanaşmalar. Bakı, 2006.
3. Кингстон-Маклори. Глобальная стратегия. М., 1959.
4. James P. Crisis and War Montreat. 1988. The Word in 2000 / The Economist Publications. London, 2000.
5. Waltz K. Globalization and American Power // The National Interest, Sprinq, 2000.
6. Roskin M. International Relational a New World. N.Y., 1998.
7. Bello Walden. People and Power in the Pacifik L. San Francisko: Pluto Press, 2000.
8. İsmayılov M. Yaxın Şərq müasir dünya siyasəti aspektində. Bakı, 2002.
9. Tixonov A.V. Müasir beynəlxalq münasibətlər. M., 2000.
10. Chalmers J. The sorrows of empire (Militarism, secrecy and the end of the Republic). Lonldon-New York, 2004.
11. Rovert H. Global disorder (How to avoid a Fourth world war). London: Robinson, 2003.



**Агалар Аббасбейли**


## РАССТАНОВКА СИЛ В МИРОВОМ СООБЩЕСТВЕ В БУДУЩЕМ


В аналитической статье «Расстановка сил в мировом сообществе в будущем» автор с глубоких научно-теоретичеких позиций анализирует состояние и перспективы мирового развития, геостратегическую расстановку сил держав, государств и объединений.

В статье высказывается идея, что мировое сообщество в эпоху углубления глобализации будет стремиться к консолидации.



**Agalar Abbasbeyli**


## ARRANGEMENT OF FORCES IN THE WORLD COMMUNITY IN THE FUTURE


In the analytical article «Arrangement of forces in the world community in the future» the author from deep scientifically-theoretical positions analyzes

condition and prospects of world development, geo-strategic arrangement of powers, states and associations.

In the article is advanced the idea, that the world community during the epoch of intensifying globalization will aspire to the consolidation.

***Rəyçilər: Tarix e.d., prof. M.Qasımlı, tarix e.d., prof. Z.Həsənalıyev.***

***Bakı Dövlət Universitetinin «Beynəlxalq münasibətlər» kafedrasının 14 dekabr 2007-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 14).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**ATAMOĞLAN MƏMMƏDLİ**
Bakı Dövlət Universiteti

# İRAN İSLAM RESPUBLİKASI VƏ ERMƏNİSTAN ARASINDA SİYASİ MÜNASİBƏTLƏR

1991-ci il sentyabrın 23-də Ermənistan Respublikası özünün müstəqilliyini elan etdi. Buna baxmayaraq, Ermənistan həmişə Rusiyanın «pəncəsinin» altında olmuş və Moskva istədiyi vaxt İrəvanda siyasi ab-havanı öz maraqlarına uyğun olaraq tam dəyişmək imkanı əldə etmişdi.

Belə bir qənaətə gəlmək olar ki, SSRİ dağıldıqdan sonra Ermənistan Respublikasının mövcud olması və yaşaması üçün əsasən dörd amil həlledici rol oynamışdır: 1) ABŞ-nın güclü maliyyə-iqtisadi yardımı; 2) Erməni diasporasının hərtərəfli yardımı; 3) Rusiyanın sabit hərbi dəstəyi; 4) İran ilə genişmiqyaslı əməkdaşlıq.

Qeyd edək ki, sonuncu amil olduqca mühüm əhəmiyyət kəsb edirdi. Məhz Ermənistan ilə münasibətlərdə İranın xarici siyasətinin yeni ikili standartları təzahür etməyə başlamışdı.

Ermənistan XİN-in müşaviri C.Libardiyan isə özünün «Ermənistanın xarici siyasəti» adlı məqələsində belə nəticəyə gəlir ki, Ermənistan «müstəqillik» əldə etdikdən sonra xarici siyasətini aşağıdakı əsaslar üzərində qurmuşdur: qonşu ölkələrlə əlaqələrin normallaşdırılması, regional əməkdaşlığın genişləndirilməsi, regional və beynəlxalq təşkilatlara inteqrasiya, Dağlıq Qarabağ böhranının həlli üçün səylər göstərilməsi (17, s. 202).

C.Libardiyan daha sonra yuxarıda sadalanan hədəflərə çatmaq üçün dövlətin imkanlarına 7 amilin təsir etdiyini qeyd edir. Bunlardan coğrafi mövqe, tarix, təhlükəsizlik məsələləri, Dağlıq Qarabağ böhranı, iqtisadiyyat, daxili siyasət və nəhayət, diaspora. O, sadalanan amillərin bəzisini davamlı, sabit, bəzisini isə dəyişkən hesab edir. Onun fikrincə, xarici siyasətə təsir göstərən amillərdən birincisi bu ölkənin coğrafi mövqeyidir. Ermənistan iki qüdrətli və güclü ölkə ilə – İran və Türkiyə ilə qonşudur. Eyni zamanda iki başqa ölkə ilə də, yəni Azərbaycan və Gürcüstan ilə də qonşudur. Erməni diplomatının fikrincə, Rusiya isə Ermənistan ilə qonşu olmasa belə, regional məsələlərdə təsiri nəzərə alınaraq Ermənistanın xarici siyasəti baxımından bir qonşu ölkə sayılır. Diplomat belə bir qənaətə gəlir

ki, Ermənistanın xarici siyasəti qonşu ölkələrin siyasətindəki dəyişikliklərlə özünü uyğunlaşdırmalıdır.

C.Libardiyanın fikrincə, Türkiyə özünü Azərbaycanın sülh danışıqlarında Azərbaycanın mövqeyinin girovuna çevirib (17, s. 204).

Erməni müəllifinin fikrincə, «təhlükəsizlik mülahizələri Ermənistanın xarici siyasətində üçüncü amildir. Keçmiş SSRİ Ermənistan üçün optimal təhlükəsizlik sistemi idi. Lakin SSRİ-nin dağılması ilə regionda elə bir təhlükəsizlik boşluğu yarandı ki, onu nə GİS, nə də başqa təşkilat doldura bilmədi. Ermənistan isə öz təhlükəsizliyi məsələsində Türkiyə ilə əlaqəsinin olmamasını nəzərə almağa məcburdur» (17, s. 205).

Belə bir şəraitdə 1992-ci ilin fevralında Ermənistanın xarici işlər naziri V.Hovanisyanın Tehrana səfəri iki ölkə arasında ilk rəsmi görüş oldu. İki ölkə arasında müxtəlif iqtisadi, ticarət, enerji, mədəni, idman və turizm sahələrində 37 maddədən ibarət saziş imzalandı (10, s. 145-155). Bunun ardınca may ayında Ermənistan prezidenti L.Ter-Petrosyanın İrana səfəri zamanı iki ölkə arasında 21 maddədən ibarət saziş imzalandı (10, s. 216).

1994-cü il setyabrın 25-də İran özünün İrəvandakı konsulluğuna səfirlik statusu verdi. İranın Ermənistanda ilk səfiri Rza Nikkar İsfahani oldu. Səfirin təqdimat mərasimində çıxış edən Ermənistanın xarici işlər naziri İran ilə münasibətlərin gələcəkdə daha da inkişaf edəcəyini vurğulamışdı (15, s. 283).

Qeyd etmək lazımdır ki, 1995-ci ildən başlayaraq İran ilə Ermənistan arasında münasibətlər çoxtərəfli və çoxsahəli xarakter almış, hətta illik mal dövriyyəsi 100 milyon dollaradək artmışdı. Buna xeyli dərəcədə subyektiv amillər də kömək etmişdi.

Ermənistan prezidentinin müşaviri V.Hovanesyan qeyd etmişdir ki, Ermənistan və İİR XXI əsrdə regionda sülh və təhlükəsizliyin təmin edilməsində mühüm rol oynaya bilər» (3, s. 115).

Yaranmış geosiyasi şərait Ermənistanın İİR ilə münasibətlərinin yaxşılaşmasına və inkişafına imkan yaratdı. Erməni müəllifi A.Martirosyan qeyri-obyektiv olaraq bu amillər sırasına Azərbaycan ilə Türkiyə arasında strateji ittifaqın olmasını da qeyd edir (4, s. 191).

Qeyd etmək lazımdır ki, Ermənistanın bəzi dairələrində İran ilə əlaqələrin daha da yaxşılaşdırılmasına çağırışlar tez-tez səslənirdi. Çünki həmin dairələr yaxşı başa düşürdülər ki, xarici aləmə əsas çıxış rolu oynayan İran ilə münasibətlərin soyuq olması Ermənistanın Azərbaycana hərbi təcavüzü şəraitində İrəvan üçün ölümə bərabər olardı. Regional siyasət üzrə şərhçi Edvard Kazaryan İran ilə Ermənistan arasında münasibətlərin daha çox yaxınlaşmasına kömək edə biləcək aşağıdakı təklifləri vermişdir: «İranın Qarabağ münaqişəsinə münasibətdə yumşaq mövqe tutması, Ermənistan-İran hərbi əməkdaşlığının həyata keçirilməsi, iqtisadiyyat

və tranzit sahəsində əməkdaşlıq, iki ölkə arasında parlament münasibətlərinin bərpası, mətbu nəşrlərin və radioteleviziya verilişlərinin mübadiləsi, həmçinin ikitərəfli mədəni-tədris münasibətlərinin gücləndirilməsi» (3, s. 121).

İki ölkə arasında münasibətlərin inkişafında mənəvi amillərin də rolu böyük olmuşdur. Bunu hər iki ölkənin həm siyasi, həm də mədəni dairələrinin nümayəndələri etiraf etmişlər. İranın xarici işlər nazirinin təlim və tədqiqatlar üzrə müavini Sadiq Hərrazi yazırdı ki, «Ermənistanın müstəqilliyinin ilk günlərindən İİR ona xüsusi diqqət yetirmişdir. İran, erməni cəmiyyətinə və erməni xalqına xarici dövlət kimi baxmır, iranlılar (farslar – A.M.) və ermənilər bir ailədən çıxdıqlarına görə qohumluq əlaqələri hiss edirlər» (3, s. 114).

Ermənistan İranda fəaliyyət göstərən erməni icması ilə sıx əlaqə saxlayır. Məlumat üçün qeyd edək ki, İran ərazisində daşnakpərəst terrorçu «REM» və «ASALA» təşkilatları fəaliyyət göstərir. Rəhbəri Nurayer Elsoyan olan «REM» təşkilatının mərkəzi Tehranda yerləşir. «ASALA»-nın iqamətgahı isə İsfahanda yerləşir. Ona Mesram ləqəbli şəxs başçılıq edir. İranlı ermənilərin Qarabağda hərbi əməliyyatlarda iştirakı faktları da məlumdur. Onlardan biri İran vətəndaşı Qrant Markaryan həmçinin Qarabağdakı erməni birləşmələrinə ərzaq və silah göndərişi ilə fəal məşğul olur. «Dro» daşnak qrupunun tərkibində terrorçu fəaliyyətinə görə o, 1996-cı ilin sonunda İrəvanda məhkum olunmuşdu. İran dövləti öz növbəsində həmin əlaqələrin genişlənməsinə rəvac verirdi (7, s. 7-13).

Qeyd etmək lazımdır ki, iranlı ermənilər İran İslam Şura Məclisində iki deputatla təmsil olunurlar. Məclisdə çıxış edən erməni deputat Yercik Abramyan İran dövlətindən tələb etmişdi ki, Rusiya, Yunanıstan, Fransa, İtaliya və b. ölkələr kimi üzdəniraq «erməni soyqırımı» nı tanısın (14, 13).

İran mətbuatı səhifələrində Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü əleyhinə çıxışlar da olurdu. «Salam» qəzetinin oxucularından biri yazırdı ki, «Ermənistan İsrail və Serbiya ilə bir sıradadır. Onunla münasibətlərimizə yenidən baxmalıyıq. Altı il təcavüz yetər. Azərbaycan İranın bir tikəsidir, yəni ermənidən yaxındır». Qəzet buna cavab olaraq yazırdı ki, «bu möhtərəm oxucumuz normal fikirləşmir. Səbəbi budur ki, İranın Ermənistan ilə münasibətlərini davam etdirməsi bu problemin aradan qaldırılmasına yönəldilmişdir» (13).

Maraqlı haldır ki, İranın rəsmi nümayəndələri reallığın əksinə olaraq İranın Ermənistana hərtərfli yardımını inkar edirdilər. Belə ki, İranın İstanbuldakı konsulu 1994-cü il noyabrın 19-da Ermənistanı təcavüzkar adlandıraraq, İran tərəfindən hər sahədə köməkliyi təkzib etmişdi (15, 289).

İran strateqləri eyni zamanda Gürcüstana, Qara dənizə, onun Vasitəsilə Rusiyaya və Avropaya çıxmaq üçün Ermənistana bir körpü kimi baxırdılar. Bütün bunların fonunda Tehran özünün bütövlükdə Qafqaz

bölgəsinə olan marağını da gizlətmir. Belə ki, İİR XİN-in MDB ölkələri ilə iş üzrə baş direktoru Firuz Dövlətabadi qeyd edirdi ki, «Qafqaz məsələləri üzrə İİR-in siyasəti belə bir reallığı nəzərə almalıdır ki, prinsipcə Qafqaz İran sivilizasiyasının və islam ideologiyasının zonasında yerləşir» (3, s. 119).

C.Libardiyan Ermənistanın yuxarıda sadalanan 4 məqsədinə yetişməsi üçün dövlətin imkanlarına təsir edən 7 amildən 4-sü kimi Qarabağ məsələsini qeyd edir. O yazırdı ki, «Qarabağ məsələsi Köçəryan hökumətinə miras qalıb. Bu problemin ən böyük təsiri ondan ibarətdir ki, Ermənistan Azərbaycan və onu himayə edən Türkiyə ilə əlaqələrini normal hala sala bilmir». Erməni müəllifi etiraf etməyə məcbur olurdu ki, «Qarabağ müharibəsinin başqa bir mənfi təsiri ondan ibarətdir ki, Ermənistanın regionda və beynəlxalq səviyyədə aktiv xarici siyasət yürütməsinə mane olur». Erməni müəllifi daha sonra qeyd edirdi ki, 5-ci amil ABŞ-nın Ermənistana birtərəfli köməyidir. Belə ki, Vaşinqton, Ermənistan hökumətinin rəyi olmadan birbaşa yardımların miqdarını və onların necə xərclənməsini özü təyin edir. O, 6-cı amil kimi, ölkənin daxili siyasətini götürür və «burada oyunçuların rusiyapərəst, amerikapərəst, iranpərəst və ya digər ölkələrə meyilli partiya və ya şəxslərdən ibarət olduğunu» qeyd edir. C.Libardiyan diasporanı 7-ci amil hesab edir və belə bir nəticəyə gəlir ki, hazırda Ermənistan dövlətinin diasporadan gözlədiyi iki əsas şey var. Bunlardan biri ölkəyə sərmayə cəlb etmək, digəri isə siyasi təzyiqlər göstərməkdir (17, s. 205).

İran müəlliflərinin fikrincə, Ermənistanın siyasi rəhbərliyi Qərbin müəyyən dairələri ilə sıx əlaqədardır və onlarla «xüsusi», qeyri-formal münasibətlər (o cümlədən erməni diasporası nümayəndələri vasitəsilə) saxlayır, ABŞ və Türkiyə ilə tərəfdaşlıq münasibətləri qurmağa çalışır (18).

Maraqlıdır ki, digər amillərlə yanaşı, Xəzər sahili şelfdən neftin emalı və nəqli planlarına İran kifayət dərəcədə cəlb olunmadığına görə İrəvan Tehrana mühüm strateji tərəfdaş kimi baxırdı. İran öz növbəsində Ermənistana mavi qazın Azərbaycandan keçməklə Avropaya nəql edilməsi üçün tranzit ərazi kimi baxırdı. O, bu məqsədlə Ermənistan hökumətindən qazın nəql edilməsi üçün iki alternativ variant da almışdı. Bunlardan biri Təbriz-Mehri-Qafan-Artaşat-İrəvan (bir qolu Qafan-Xankəndi), ikincisi Təbriz-Şərur-Artaşat-İrəvan xəttidir.

Ayətulla Xomeyninin vəfatından İİR-in dini-siyasi rəhbərliyi öz ideallarına sadiq qaldı. Bu da, Tehranın Moskvaya meylini müəyyən etdi. Rusiya öz növbəsində Ermənistan və İrana münasibətdə 1993-cü ildən etibarən aktiv rol oynamağa başladı. Erməni müəllifi İqor Muradyan yazırdı ki, «Moskva-Tehran, daha dəqiq desək Moskva-İrəvan-Tehran arasında güclü geosiyasi əlaqələrin yaradılması Avropaya «açar» ola bilər və Ermənistan tərəfindən müdafiə olunacaqdır» (3, № 2, s. 31).

Rusiyanın İran və Ermənistana münasibətdə yeritdiyi siyasət Kremlin qlobal strateji məqsədlərinə cavab verirdi. Erməni müəllifi A.Martirosyanın fikrincə, «İran tərəfinin Ermənistana və Rusiyaya arxalanmaq mövqeyi İrana Türkiyə və Azərbaycana qarşı durmaq imkanı verirdi. Guya ABŞ bu ölkələrin köməyilə İrana qarşı təcridetmə siyasəti yeridirdi. İran üçün Rusiya və Ermənistan xarici aləmə dəhliz rolunu oynayır» (4, s. 194).

Ermənistan tərəfi də İran-Ermənistan-Rusiya üçbucağı daxilində Ermənistan-İran əlaqələrinin inkişafında həmişə maraqlı olduğunu bildirmişdi. Vahan Ovannisyan bildirmişdi ki, «Rusiya və İran Ermənistanın çoxəsrlik tarixi boyu həmişə onun sabitliyinin təminatçısı kimi çıxış etmişlər. Bizim ölkəmiz üçün müstəqilliyin qurulması olduqca mühüm vəzifədir, Rusiya və İranın sabitliyi və çiçəklənməsi isə Ermənistanın sabitliyinə və çiçəklənməsinə kömək edəcəkdir. Bu iki qüdrətli qonşularımızı bizim müstəqilliyimiz qorxutmur» (6, s. 21).

İran müəllifi Əmir Əhmədi Bəhram qeyd edir ki, Ermənistan və Rusiya həmişə İran ilə Azərbaycan arasında münasibətlərin yaxşılaşmasına mane olmuşlar. Xüsusilə Rusiya Dağlıq Qarabağ separatçılarına hərbi və texniki yardım göstərərək bu regionda müharibənin artmasına şərait yaradırdı (9, s. 288). Tədqiq olunan dövrdə İran-Ermənistan-Yunanıstan üçbucağı çərçivəsində də Tehran ilə İrəvanın əməkdaşlığı inkişaf etmişdi. 1997-ci ildən başlayaraq bu üç ölkə arasında əməkdaşlıq həyata keçirilir. Belə ki, 1999-cu ildə bu əməkdaşlığın üçüncü iclası xarici işlər nazirləri V.Oskanyan, K.Xərrazi və C.Papandreonun iştirakı ilə İrəvanda keçirilmiş və tərəflər arasında bir sıra razılaşmalar əldə olunmuşdur (16, s. 208).

Ermənistan bir sıra beynəlxalq problemlərin həllində İran ilə həmrəylik nümayiş etdirir. Belə ki, TRASEKA layihəsinin həyata keçirilməsi ətrafında yaranmış vəziyyəti qiymətləndirməkdə Ermənistan qonşu İran ilə həmrəy olduğunu bildirmiş, bununla əlaqədar olaraq, hər iki ölkə beynəlxalq nəqliyyat və boru kəmərləri layihələri kimi TRASEKA layihəsi əleyhinə çıxış edirdilər.

Digər tərəfdən, 90-cı illərin ikinci yarısında İran, Rusiya, Ermənistan və Türkmənistan arasında əlaqələndirici yollar predmetinə dair, siyasi coğrafiya layihələri haqqında ilkin sazişlər əldə olunmuşdu. Əslində bu sazişlər Şimali Atlantika Müqaviləsinə üzv ölkələrin Avrasiya regionuna nüfuz etməsinə və bu regionda onların «həyati maraqlarının» yaranmasına maneçilik törətməyi nəzərdə tuturdu.

Şübhəsiz ki, İran və Ermənistanın məqsədləri, onların səyləri heç də bütün parametrlər üzrə uyğun gəlmirdi. İranın Ermənistan ilə əlaqələrinə bir sıra amillər təsir göstərirdi. Məsələn, ABŞ ilə əməkdaşlıq Ermənistan üçün nəinki siyasi, həm də iqtisadi əhəmiyyət kəsb edirdi. Belə ki, ABŞ İrəvana Amerika konqresi və digər strukturlar vasitəsilə əhəmiyyətli yardım göstərir. Ermənistan isə öz növbəsində, hazırda ABŞ-dakı 1,5 milyonluq

erməni koloniyasının, yəni xaricdə ən böyük erməni diasporasının mövcudluğu ilə hesablaşmalı olur. İran-ABŞ münasibətlərinin indiki vəziyyəti bu və ya digər cəhətdən İran-Ermənistan əlaqələrinin məzmununa təsir göstərməyə bilməz. Sadəcə olaraq Ermənistan üçün İranın rolu hədsizdir. Buna görə də İrəvan Tehran ilə qarşılıqlı münasibətlərə böyük əhəmiyyət verirdi.

Eyni zamanda, İranın Ermənistanda tam iqtisadi iştirakına ABŞ-nın çəkindirici siyasəti və sərmayə kapitalının çatışmazlığı mane olurdu. Belə bir şəraitdə İranın birinci vitse-prezidenti H.Həbibi 1996-cı ilin dekabrında İrəvana səfər etdi. O, Ermənistan prezidenti L.Ter-Petrosyan ilə görüşüb danışıqlar apardı. O, bildirdi ki, İran Zaqafqaziyanın bütün ölkələri ilə, o cümlədən Ermənistan ilə mehriban qonşuluq münasibətləri saxlamaq niyyətindədir (1). Öz növbəsində L.Ter-Petrosyan iki dövlət arasında dostluq münasibətləri yarandığını vurğulamışdı. O, İranın regionda yeritdiyi ölçülüb-biçilmiş siyasətdən razı qaldığını da söyləmişdi. Həmin il dekabrın sonunda Levon Ter-Petrosyan İrana cavab səfəri etdi. Danışıqlar nəticəsində 1996-cı il dekabrın 28-də İran İslam Respublikası ilə təcavüzkar Ermənistan Respublikası arasında 21 maddədən ibarət saziş imzalandı. Bu azmış kimi, həmin vaxt Mehri rayonunda Araz çayı üzərində «müvəqqəti» körpü salındı (10, s. 220).

Bunun ardınca 1997-ci ilin yanvarında İİR prezidentinin müavini H.Həbibi yenidən İrəvana səfər etdi. Danışıqlar nəticəsində iki ölkə arasında siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığa dair 12 maddədən ibarət saziş imzalandı.

Əslində Tehran ilə İrəvan arasında əlaqələrin bu cür inkişafı Azərbaycana qarşı Ermənistanın işğalçılıq müharibəsinin davam etdiyi bir şəraitdə İran tərəfindən təcavüzkar bir dövlətin dəstəklənməsi demək idi.

Ermənilər Azərbaycana qarşı düşmənçilik fəaliyyətini və təbliğatını İran ərazisində də davam etdirirdilər. İranda ermənilərin baş yepiskopu A.Manukyan «Cahane islam» qəzetinə verdiyi müsahibədə Azərbaycan əleyhinə böhtan xarakterli fikirlər söyləmişdi (11, № 756). Buna cavab olaraq Tehran universitetlərində təhsil alan azərbaycanlı tələbələr ona kəskin cavab yazdılar və həmin qəzetin növbəti saylarından birində dərc etdirdilər (11, № 760).

Bundan əlavə, Ermənistanın xüsusi xidmət orqanları İrandakı erməni mənşəli əhalidən Azərbaycana qarşı təxribatçılıq fəaliyyətində də istifadə edirdilər.

Eyni zamanda Ermənistan tərəfi, öz təhlükəsizliyi mülahizələrindən çıxış edərək azərbaycanlıların kütləvi siyasi aksiyalar keçirdikləri Qəzvin və Zəncan şəhərlərində ermənilərdən fəal istifadə olunur (5, s. 37).

İranın rəsmi nümayəndələri də 1998-ci il yanvarın 15-də keçirilmiş matəm tədbirlərində iştirak etmişdilər. Bu tədbirlər 1990-cı ilin yanvarında Bakıda ermənilərlə bağlı hadisələrin ildönümünə həsr olunmuşdu. İran

diplomatlarından biri mərasimin sonunda «Noyan Tapan» agentliyinin müxbirinə «günahsız qurbanların ruhunu yad etdik» demişdi (2).

Ermənistan rəhbərliyi 1999-cu ilin iyununda ölkənin milli məclisinə seçkilər zamanı iranpərəst qüvvələrin seçilməsinə cəhd göstərdi. İranın Ermənistandakı səfirliyi də iki ölkə arasında gediş-gəlişin artırılması üçün canfəşanlıq göstərirdi. İİR-in İrəvandakı səfirliyi 2000-ci ildə 40-dan artıq siyasi, iqtisadi nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinə şərait yaratmışdır. Həmin il müştərək iqtisadi komissiyanın 3-cü iclası keçirilmişdi (8, s. 393).

2000-ci ildə İranın Müdafiə Nazirliyinin nümayəndə heyəti Ermənistana səfər etmiş və aparılan danışıqlar zamanı hərbi sahədə əməkdaşlıq məsələləri müzakirə olunmuşdu (8, s. 394). 2001-ci ildə isə İranın Ali Təhlükəsizlik Şurasının katibi Həsən Ruhani Ermənistan ilə təhlükəsizlik sahəsində əməkdaşlıq barədə memorandum imzalamışdı (12, s. 166).

İrəvan dövlət universitetinin tarix kafedrasının müdiri L.Xurşudyan regionun bütün millətlərinin və dövlətlərinin taleyində iki mühüm amilin, yəni Rusiya və Türkiyənin mühüm rolunu qeyd edərək, «İran, Ermənistan və Rusiya arasında siyasi-hərbi sazişin bağlanması zəruriliyini ön plana çəkmişdir» (3, s. 123).

İran ilə Ermənistan arasında hərbi-siyasi əlaqələr də mövcud olmuşdur. Erməni mənşəli iranlı hərbi qulluqçular həmçinin Ermənistan-Azərbaycan qarşıdurması ilə əlaqədar olaraq İran-Azərbaycan dövlət sərhədinin möhkəmləndirilməsi prosesinə cəlb olunmuşdular. Belə ki, 1994-cü ildə Azərbaycan ilə qonşuluqdakı sərhəd dəstələrinə erməni mənşəli iranlılardan ibarət 4 yüksək rütbəli zabit, 13 əməkdaş, həmçinin bir neçə təlim qrupları göndərilmişdi (5, s. 36).

2000-ci ildə İranın Müdafiə Nazirliyinin nümayəndə heyəti Ermənistana səfər etmiş və aparılan danışıqlar zamanı hərbi sahədə əməkdaşlıq məsələləri müzakirə olunmuşdu (8, s. 394). İki ölkə arasında hərbi əməkdaşlıq bu gün də davam etməkdədir. İki ölkə arasında siyasi-diplomatik əlaqələrin normal məcrada inkişafı qarşılıqlı əməkdaşlığın müxtəlif sahələrinə öz ciddi təsirini göstərməkdədir. İran ilə Ermənistan arasında siyasi münasibətlərin normal məcrada inkişafı bütövlükdə Tehranın Qafqaz siyasətinin tərkib hissələrindən birini təşkil edir.

## ƏDƏBİYYAT

1. «Azərbaycan» qəz., 1996, 28 dekabr.
2. «Panorama» qəz., 1998, 28 yanvar.
3. Репортажи. Семинар «Иран и Армения: вчера, сегодня и завтра» // Аму-Дарья, 1999, № 1, с. 113-126.
4. Мартиросян А. Армяно-Иранские отношения: прошлое и настоящее //

Центральная Азия и Кавказ, № 2, 2000.
5. Мнение, 1998, № 2.
6. Центральная Азия и Кавказ, № 4, 1999.
7. Шугарян Р. Стабильность на Кавказе: восемь принципов регионального сотрудничества // Центральная Азия и Кавказ, № 1 (15), Швеция, 2001.
8. Əfşürdi Məhəmməd Hüseyn. Geopolitike Qafqaz. Çape əvvəl, Tehran, 1381.
9. Əmir Əhmədi Bəhram. Qarabağ: əz dirbaze ta konun bərrəsi rəvidadha // Motaleate Asyaye Mərkəzi və Qafqaz, Sale dovvom, Şomare çahar, bəhar, Tehran, 1373.
10. Cəlil Rouşəndel. Siyasət və hokumət dər Ermənistan. Tehran, 2000.
11. Cahane islam. 1372 (1994).
12. Heydəri Cavad. Bərrəsiye əbade nizami əmniyyətiye məntəqeyi dər Qafqaz // Motaleate Asyaye Mərkəzi və Qafqaz, 1382 (2004), № 42.
13. Salam, 02.10.1372 (1994).
14. Şəmsi Təbriz, 1380 (2002), № 99.
15. Motaleate Asyaye Mərkəzi və Qafqaz, 1373 (1995), № 7.
16. Motaleate Asyaye Mərkəzi və Qafqaz, 1378, (2000), № 28.
17. Motaleate Asyaye Mərkəzi və Qafqaz, 1380 (2002), № 33.
18. www.iimes.ru/rus/stat/2004/09.10.04.htm.

**Атамоглан Мамедли**

## ПОЛИТИЧЕСКИЕ ОТНОШЕНИЯ МЕЖДУ ИРАНСКОЙ ИСЛАМСКОЙ РЕСПУБЛИКОЙ И АРМЕНИЕЙ

В 1991 году, после приобретения государственной независимости между Арменией и Ираном были установлены дипломатические отношения. Отношения с Арменией являются приоритетным явлением во внешней политике исламской республики. В основном эти отношения носили взаимовыгодный характер. Несмотря на это, были и проблемы, которые отрицательно влияли на двусторонние политические отношения. По мнению исламского руководства, отношения с северным христианским государством считаются лучшим примером внешнеполитической доктрины Тегерана о диалоге цивилизаций, объявленной в 1997 г.

**Atamoglan Mammadli**

## POLITICAL RELATIONS BETWEEN THE ISLAMIC REPUBLIC OF IRAN AND ARMENIA

After acquiring state independence in 1991, diplomatic relations have been established between Armenia and Iran. These relations are priority direction in foreign policy of the Islamic republic. Basically, these relations had mutually beneficial character. However there were also problems, which influenced negatively bilateral political relations. In the opinion of the Islamic Government relations with this North Christian State are the best example of Teheran's foreign policy doctrine about the dialogue between civilizations, declared in 1997.

***Rəyçilər: Akademik İ.Hacıyev, tarix e.d., prof. H.Səfərli.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**EMİN ŞIXƏLİYEV**
AMEA Naxçıvan Bölməsi

# BEYNƏLXALQ TERRORİZMƏ QARŞI MÜBARİZƏ KONTEKSTİNDƏ ERMƏNİ TERRORUNA BİR BAXIŞ

Beynəlxalq terrorizm müasir beynəlxalq sistemin ən təhlükəli qlobal problemlərindən biridir. Müasir dövrdə qloballaşma prosesləri terrorist təşkilatlara sirayət etmiş və onlar bütün dünyada şaxələnən bir şəbəkəyə çevrilərək cəmiyyət üçün hədsiz təhlükə yaratmağa başlamışdır. Erməni terrorizmi də bu qloballaşan dünyanın bir hissəsi olmaqla, həm region dövlətləri, həm də bəzi bütün dünya dövlətləri üçün təhlükəli bir qüvvəyə çevrilmişdir. Ümumiyyətlə, erməni terroristlərinin fəaliyyətinə nəzər saldıqda bəlli olur ki, onlar beynəlxalq terrorizmin tərkib hissəsi olmaqla birlikdə, hətta ən qədim terror təşkilatıdır və özünəməxsus xüsusiyyətlərə malikdir. Məsələn, «Armenekan» terror təşkilatı ilk dəfə olaraq 1885-ci ildə yaradılmış, onun ardınca 1887-ci ildə «Hınçak» terror təşkilatı və özünü siyasi partiya adlandırsa da, əslində terror fəaliyyəti ilə məşğul olan «Daşnaksutyun», 1892-ci ildə «Fədai təşkilatı», 1908-ci ildə «Armenian Demokratic Liberal Party» adı altında təşkilatlanan «Ramqavar», 1919-cu ildə «Nemesis» formalaşmışdır. Daha sonra 1975-ci ildə «ASALA» (Armenian Secret Armyfor Liberation of Armenia), 1976-cı ildə «JCAG» (Justice Commando for the Armenian Genocide), 1983-cü ildə «ARA» (Armenian Revolutionary Army) və daha çox sayda terror təşkilatları yaradılmışdır. Bundan başqa, dünyanın bir çox ölkələrində – Fransada, İspaniyada, İsveçrədə, Böyük Britaniyada, Yunanıstanda, Hollandiyada, Avstraliyada, Lüksemburqda, Rusiyada, Azərbaycanda və s. ölkələrdə onlarla terrorçu erməni təşkilatları yaranmışdır. (Bu barədə ətraflı məlumat üçün bax: 10, s. 131-204; 6, s. 95-111; 9, s. 71-87).

Erməni terrorçularının xüsusilə 1975-1987-ci illərdə ardıcıl və sistemli xarakter daşıyan terror aksiyaları beynəlxalq təhlükəsizlik sisteminə ciddi zərbələr vurmuşdur. Erməni terrorizmi xüsusi qəddarlığı, qeyri-insaniliyi, kütləvi qırğına səbəb olması, cəsədlərin ələ salınması, tarixi və mədəni abidələrin vəhşicəsinə dağıdılması, yerli aborigen əhalinin yer üzündən silinməsi və s. kimi əlamətlərlə xarakterizə edilir.

Məlum olduğu kimi, günümüzdə terrorizm beynəlxalq təhlükəsizlik baxımından təhdid olaraq mənimsənilmişdir. Amerika Birləşmiş Ştatları da dünya dövlətlərini «beynəlxalq terrorizmə qarşı birgə mübarizə» adı altında səfərbərliyə səsləmişdir. 29 sentyabr 2001-ci il tarixində BMT Təhlükəsizlik Şurası beynəlxalq terrorizmə qarşı mübarizə ilə əlaqədar olaraq 1373 saylı qərar qəbul etmiş və alınan bu qərarda bütün dövlətlərdən hər hansı terrorist qrupları maliyyələşdirən dövlətə əngəl olmaları tələb edilmişdir (5, s. 105). Qeyd edilməlidir ki, terrorizmə dəstək verən dövlətlər ABŞ tərəfindən «şər mehvəri» olaraq adlandırılmaqda, onlarla amansızcasına mübarizə aparılacağı vurğulanmaqdadır. «Buş doktrinası» adlanan və potensial təhdidləri aktiv hala gəlmədən məhv etməyi hədəfləyən bu konsepsiya ABŞ-nın milli təhlükəsizlik strateji sənədlərinə də daxil edilmişdir (11). Halbuki Azərbaycana qarşı həyata keçirilən bir çox terror fəaliyyətlərinin arxasında sırf Ermənistan Respublikası dayanır. Bu respublika erməni lobbi və terrorist partiyalarının təsiri altındadır və hər bir addımını onların diktəsi altında atır. Digər bir tərəfdən, erməni terror təşkilatları ilə dünyanın digər terror təşkilatları arasında da sıx əlaqələr mövcuddur. Aprel ayı PKK (Partiye Karkeren Kürdüstan – Kürdüstan Fəhlə Partiyası) ilə erməni terror təşkilatlarını türklüyə qarşı müştərək cəbhə almasını gücləndirən tarix olmuşdur. Məlum olduğu kimi, ermənilər 24 apreli erməni soyqırımı, PKK isə 21-28 apreli «Qızıl Həftə» olaraq elan etmişlər.

Hələ 8 aprel 1980-ci il tarixində Beyrutda ASALA-PKK ikilisinin birlikdə təşkil etdiyi mətbuat konfransında ASALA-nın lideri Akop Akopyanın dediyi sözlər bu iki terror təşkilatı arasındakı əməkdaşlığı açıqca ortaya qoymaqdadır: *«...Biz eyni dava üçün çalışan iki toplumuq. Ermənistan və Kürdüstan, yəni ölkələrimizin xilası üçün mübarizə aparırıq. Bizim əsas planımız istər erməni, istərsə də kürd qardaşlarımızla əl-ələ verərək mübarizəmizə davam etməkdən ibarətdir...»* (3, s. 363).

Ermənilərin və kürdlərin təmas məntəqələrindən biri Livandır. Burada hələ 1970-ci illərdən ASALA ilə PKK arasında təmaslar başlamışdır. Ermənilər həmişə kürdləri Türkiyəni bölüşdürmə fəaliyyətlərinə təhrik etmişlər. Erməni terror təşkilatı ASALA 1980-ci il aprelin 7-də PKK ilə Türkiyə Cümhuriyyətini parçalayıb, bölgədə Ermənistan dövləti qurulması barədə Livanın Sidon şəhərində bir anlaşma imzalamışdılar (4, s. 225).

10 aprel 1980-ci ildə Livanın Sidon şəhərində PKK nümayəndələri ilə birgə forum keçirən erməni terrorçuları forumda iştirak edən xarici jurnalistlərə hər iki tərəfin Türkiyəyə qarşı mübarizədə vahid cəbhə yaratdıqlarını bildirmişdilər. Hətta ASALA Sidon forumunda PKK-ni özünün siyasi varisi də elan etmişdi (4, s. 226).

Heç təsadüfi deyildir ki, PKK-çılar içərisində çox sayda erməni vardır və onların əksəriyyəti də rəhbər kadrlardır. PKK-nin erməni mənşəli liderlərinin bir çoxu tanınmamaq üçün müsəlman və türk adlarından da istifadə etməkdədirlər (4, s. 229).

Qeyd edilməsi vacib olan məsələlərdən biri də budur ki, ASALA liderlərindən Bedros Hovanesyan, 1987-ci ildə Akopyan ləqəbi ilə «Panorama» jurnalına vermiş olduğu müsahibədə, ASALA-nın 21 ölkənin terror təşkilatları ilə birbaşa əlaqələri olduğunu etiraf etmişdir (3, s. 373). Erməni terror təşkilatlarının əlaqə qurmuş olduğu terror təşkilatlarından bəziləri beynəlxalq arenada özünəməxsus fəaliyyətləri ilə məşhurlaşan Yapon Qızıl Ordusu (YQO – JRA), İrlandiya Respublika Ordusu (İRO – IRA), İtalyan Qırmızı Briqadaları (İQB – IRB) və digər təşkilatlardır. Yapon Qızıl Ordusunun PKK ilə dolaylı əlaqələri də olmuşdur (3, s. 362). Qeyd edək ki, fələstin və erməni terrorçu qruplaşmaları arasında tərəfdaşlıq münasibətlərinin 30 ildən artıq tarixi var. Erməni terror təşkilatlarından olan ASALA Fələstin Azadlıq Təşkilatı (FAT) ilə də sıx əlaqədə fəaliyyət göstərmişdir. Hətta məhsuldar əməkdaşlığa görə, minnətdarlıq əlaməti olaraq ASALA-nın banisi Akop Akopyan FAT-nin «fəxri mücahidi» elan edilmişdir (1, s. 193). Belə qruplar öz mənafeləri naminə digər beynəlxalq terrorçu təşkilatlarla asanlıqla əməkdaşlığa getmək və onları öz məqsədlərinin reallaşması üçün istifadə etmək qabiliyyətinə malikdirlər. Bu zaman dini, etnik və digər mənsubiyyətlər onlar üçün heç bir əhəmiyyət kəsb etmir.

Bu gün terrorçu birliklərdə birgə fəaliyyət diapazonu kifayət qədər genişdir və özünə basqınlarda iştirakı deyil, həm də ona hazırlığı, döyüşçülərin cəlb edilməsini, terrorçu qrupların artmasını, maliyyələşməsini, birləşməsini, təlimini avadanlıqla və silahla təchizini, planlaşdırmanı, terrorçuların sığınacaqla təminini birləşdirir.

Bir şeyi də qeyd etmək lazımdır ki, günümüzdə beynəlxalq terrorçu birliyi tədricən müstəqil gücə çevrilmişdir. O, özü dövləti dəstəkləmək və ona təzyiq göstərmək qabiliyyətinə malikdir. Onun özünün ərazisi yoxdur. Ona görə də hazırkı dövrdə beynəlxalq terrorizmin əsas marağı ərazi münaqişələrinə cəmləşdirmiş, bu münaqişələrin gedişində xeyli ərazini öz nəzarətinə götürmüş və orada cinayətkar iqtisadi fəaliyyətin tam tsiklini formalaşdırmışdır. Məsələn, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarında yaradılan qondarma «Dağlıq Qarabağ Respublikası» separatçı rejimin ərazisi çoxlu terrorçu təşkilatların «vətəninə» çevrilmişdir. Orada cinayətkar fəaliyyəti həyata keçirmək üçün narkobiznes, silah alveri və s. hər cür şərait yaradılmışdır.

Bütün bunlar həqiqət olsa da, terrora münasibətdə «ikili standartlar» mövcuddur. Ötən illərin təcrübəsi belə bir faktı təsdiq edir ki, çox vaxt «lobbiçilik», «diaspor» və s. kimi subyektiv nəsnələrin təsiri altında terrorçu və terrorçu təşkilat «öz həqiqi adı ilə» çağırılmır. Bu vəziyyət indi də davam edir. Məhz həmin bu «məntiq»ə görə erməni cinayətləri terror kateqoriyasına daxil edilməmişdir. Halbuki Qərbdə ASALA, Hınçak, JCAG, ARA və digər erməni terror təşkilatlarının üzvləri ötən əsrin 70-80-ci illərində 50-dən artıq türk diplomatını qətlə yetirmişlər. Eyni zamanda 30

mindən çox günahsız insanın ölümünə bais olmuş PKK lideri Abdulla Öcalan kimi peşəkar terrorçu Qərb dövlətləri tərəfindən insan hüquqları pərdəsinə bürünmüşdür. Həmçinin qeyd etmək lazımdır ki, Abdulla Öcalan «Böyük Ermənistan ideyasına xidmət etdiyinə görə» Erməni Müəllifləri Assosiasiyasının (Armenian Authors Association) fəxri üzvü seçilmişdir (1, s. 195).

Təkcə bunu söyləmək kifayətdir ki, erməni terrorizmi mövcud olduğu 100 ildən artıq müddətdə ümumdünya hadisəsinə çevrilmişdir. 1973-2001-ci illər ərzində erməni terror təşkilatları təkcə Qərbi Avropa ölkələrində 235 terror aktı, 70 qətl, 41 qətl cəhdi törətmişlər. Artıq 20 ildir ki, Azərbaycan Ermənistanın dövlət terrorizmi siyasətinin hədəfinə çevrilmişdir. Beynəlxalq vasitəçilərin də həllini tapa bilmədikləri və ya tapmaq istəmədikləri Dağlıq Qarabağ problemi mahiyyət etibarilə Ermənistanın dövlət terrorizmi siyasəti və Qarabağ ermənilərindən ibarət terror qruplarının separatçı fəaliyyəti nəticəsində yaranmışdır (7, s. 89). Bu prosesdə problemə "ikili standartlar" mövqeyindən yanaşılmamalıdır. Məhz ikili standartların tətbiqi səhih faktların təqdim olunmasına və Azərbaycan tərəfindən BMT-yə dəfələrlə müraciət edilməsinə baxmayaraq, BMT Təhlükəsizlik Şurasına həmin təşkilatın 39-cu maddəsinə müvafiq olaraq Dağlıq Qarabağ ətrafındakı hadisələrə hüquqi qiymət verməyə və həmin hadisələrdə Ermənistan Respublikasının hərəkətlərini təcavüzkar akt şəklində təsnifləşdirməyə və bu hərəkətləri dövlət terrorizmi siyasəti kimi tanımağa imkan verməməkdədir. Bu gün ikili standartlar siyasəti Azərbaycana Ermənistanla əməkdaşlığa başlamadığını təklif edən digər beynəlxalq təşkilatlar (Avropa İttifaqı, Avropa Şurası, ATƏT) səviyyəsində də davam edir. Bununla birlikdə bütün dünya birliyi başa düşməlidir ki, beynəlxalq terrorizmə qarşı mübarizə birgə və ən sərt şəkildə aparılmalıdır. Aydındır ki, beynəlxalq terrorizmə qarşı mübarizə ardıcıl və kompleks olmalıdır. Bu mübarizədə ikili standartların tətbiqi gələcək sivilizasiya üçün məhvedici ola bilər. Bu mübarizəni «prioritet» və «ikinci dərəcəli istiqamətlər»ə bölmək olmaz, eləcə də bu mübarizə aparıcı dövlətlərin geosiyasi və digər maraqlarından asılı olmamalıdır.

Bu bir həqiqətdir ki, Ermənistan Respublikasının sabiq prezidenti Robert Köçəryan Dağlıq Qarabağda qanunsuz silahlı qruplaşmalara komandirlik etmiş, onun rəhbərliyi altında dünyanın bir çox ölkələrindən məşhur beynəlxalq terrorçular mülki əhaliyə qarşı qanlı aksiyalarda iştirak etmişlər. O, Azərbaycanın işğal edilmiş ərazilərinin çoxsaylı terrorçu təşkilatlar üçün bazaya çevrilməsinə və həmin ərazilərdə narkobiznesin, silah ticarətinin və digər cinayətkar fəaliyyət növlərinin çiçəklənməsinə görə şəxsən məsuliyyət daşıyır. Yalnız onu əlavə etmək olar ki, keçmiş terrorçuların və onların ardıcıllarının dünya dövlətləri tərəfindən beynəlxalq

miqyasda tanınması aradan qaldırılmayana qədər beynəlxalq terrorizmlə səmərəli mübarizə aparmaq və onun kökünü kəsmək qeyri-mümkündür.

Ermənistanın terrorist dövlət olmasını sübuta yetirmək üçün əlimizdə kifayət qədər arqumentlər vardır. Əvvəla onu qeyd edək ki, dünya kütləvi qırğın və bioloji silahlar qarşısında acizdir. Dünya miqyasında bir çox ölkənin bioloji silahlar üzərində işlədiyinə dair məlumatlar mövcuddur. Məşhur Avstraliyalı tədqiqatçı, «Halen Science and Public Affair» jurnalının redaktoru Vendi Barnabi (Wendy Barnaby), «The plague makers» (kitabın türk dilində adı: «Virus saldırıyor, biyolojik ve kimyasal savaşa doğru») adlı kitabında bioloji silahlara sahib olan 20 ölkənin adlarını sadalayaraq, bunların 14-ünü «durumu açıq olmayan», 4-ünü isə «şübhə oyandıran dövlətlər» olaraq qeyd etmişdir. «Şübhə oyandıran dövlətlər» arasında Ermənistanın da adı çəkilir. Müəllif Ermənistanın yaxın zamanlarda bakterioloji və kimyəvi silahların potensial bazasına çevriləcəyini qeyd etməkdədir (2, s. 26). Bu kitabda Ermənistanın adının çəkilməsi heç də təsadüfi deyildir. Hələ 1994-cü il iyunun 14-də erməni fizikləri ilə birgə qatı millətçi fikirləri ilə tanınan Zori Balayanı və prezident Ter-Petrosyanı qəbul edən Rusiya prezidenti B.N.Yeltsinin, *«...İndi sizin nəyiniz çatmır?»* sualına Z.Balayan belə cavab vermişdi: *«...Boris Nikolayeviç, etdiyiniz yaxşılığa görə minnətdarıq... Ermənistanın bir dövlət kimi yaşaması və türk dünyasından qorunması üçün ona nüvə silahı hökmən lazımdır...».* Boris Nikolayeviç: *«...Zamana ehtiyac var. Şübhə etmirəm ki, o da olacaq...»* (8, s. 37).

Bu, sadəcə bir başlanğıc idi. Araşdırmalardan məlum olmuşdur ki, Ermənistan Azərbaycan və Türkiyəyə qarşı bioterrorizm metodlarından istifadə etməyi hədəfləmişdir. Ermənistanın bioloji silahlara meyil etməsinin müxtəlif səbəbləri vardır. Bu səbəblərdən ilki, Zori Balayanın təbiri ilə desək, Ermənistanın bir dövlət olaraq yaşaması və guya türk dünyasından qorunmasıdır. Vendi Barnabi, bioloji silahları «kasıbın nüvə silahı» şəklində izah edərək, onları «vacib olan şəraitdə psixoloji təsirə sahib bir nüvə silahı əldə etmənin ən ucuz yolu» kimi dəyərləndirmişdir (2, s. 27). Hər hansı bir hücum ehtimalı ictimaiyyətdə qorxuya yol açmaqdadır ki, bu da strateji planları dəyişdirə bilər. Floranı da hədəf alan bioloji silahlar hər hansı bir konvansional silahlarla ediləcək bir hücum öncəsində digər ölkələrin iqtisadiyyatını zəiflətməkdə istifadə oluna bilər. Ümumiyyətlə, faktların sayını artırmaq mümkündür. Bu baxımdan başda terrorizmə qarşı mübarizə aparan lider dövlət olaraq ABŞ, eyni zamanda Avropa dövlətləri, ümumiyyətlə dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatlar Ermənistanın «terrorçu dövlət» olduğunu qəbul etməli və bu yöndə fəaliyyətlərini genişləndirməlidirlər. Yalnız belə mövqe Ermənistanın pərdələnmiş terrorçu dövlət qiyafəsini götürə bilər.

## ƏDƏBİYYAT


1. Abdullayev Ə., Kərimov Ş., Zahidov B. Beynəlxalq terrorizm: onunla cinayət-hüquqi və kriminoloji mübarizənin aktual problemləri. Bakı: Qanun, 2006, 403 s.
2. Barnaby W. Virus saldırıyor, biyolojik ve kimyasal savaşa doğru. İstanbul: Timaş yayınları, 2003, 247 s.
3. Güler A., Akgül S. Sorun olan ermeniler. Ankara: Berikan, 2003, 425 s.
4. Hacıyev S. Müasir Türkiyədə terror. Bakı: Adiloğlu, 2005, 328 s.
5. Kaya İ. 11 Eylül saldırıları ve sonrası: uluslararası hukukta askeri müdahale // Stratejik Analiz, 2001, c. 2, № 19, s. 102-107.
6. Laçıner S. Ermeni iddiaları ve terör / Ermeni sorunu el kitabı. Ankara: ASAM, 2003, s. 95-122.
7. Nəsirov E. ABŞ və dünya 11 sentyabrdan sonra. Bakı: Bakı Universiteti, 2003, 261 s.
8. Novruzoglu R., Oguz Y. Garabagh: uncontrolled zone. Baku: Ozan, 2002, 255 p.
9. Şıhaliyev E. Türkiye ve Azerbaycan açısından ermeni sorunu. Ankara: Türk kültür ve eğitim norm geliştirme vakfı, 2002, 231 s.
10. Uras E. Tarihte ermeniler ve ermeni meselesi. İstanbul: Belge, 1987, 798 s.
11. The National Strategy of the United States of America, http://www.whitehouse.gov/ nsc/nss.html., 2002, september.



**Эмин Шихалиев**


## ВЗГЛЯД НА АРМЯНСКИЙ ТЕРРОР В КОНТЕКСТЕ БОРЬБЫ С МЕЖДУНАРОДНЫМ ТЕРРОРИЗМОМ


Хорошо известно, что терроризм понимается как угроза международной безопасности, и в связи с этим США призвали государства мира к борьбе против международного терроризма.

В статье указывается, что за террористическими актами против Азербайджанской Республики прямо или косвенно стоит Армянская Республика. Она находится под влиянием армянского лобби и террористических политических партий и организаций, и любой свой шаг предпринимает под их диктовку. Чтобы выявить террористическую сущность Армянской Республики, ведущим государствам мира и международным организациям нужно, безусловно, признать эту республику террористическим государством.

**Emin Shikhaliyev**

## A LOOK AT THE ARMENIAN TERROR IN THE CONTEXT OF FIGHT AGAINST NTERNATIONAL TERRORISM

It is well known that terrorism is accepted as a threat to the international security and the USA called the international community to collaborate with each other for fighting against terrorism.

It is indicated in this article that the Republic of Armenia is behind so many terrorist activities against Azerbaijan. This republic is under the influence of the Armenian lobby and terrorist political parties and takes each of its steps under their guidance. The world's leading countries have to accept Armenia as a terrorist state for the sake of revealing Armenia's real face which is terrorism.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, tarix e.d. H.Q.Qədirzadə, tarix e.d., prof. H.Səfərli.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**FƏXRƏDDİN CƏFƏROV**
Naxçıvan MR Arxiv İdarəsi

# ARAZ-TÜRK RESPUBLİKASI DÖVRÜNDƏ VƏ ONUN LƏĞVİNDƏN SONRA POLİSİN FƏALİYYƏTİ

Erməni daşnakları başda Andranikin quldur dəstələri Naxçıvandan qovulduqdan sonra Türkiyənin 9-cu və 11-ci diviziyaları 1918-ci ilin iyul ayının 8-də Naxçıvan şəhərinə daxil olurlar. Şəhər əhalisi türk qoşunlarını toy-bayramla qarşılayır və şəhərdə türk bayrağı qaldırılır. Naxçıvanda Milli Şuranın sədri Cəfərqulu xan, onun oğlu Kərbalı xan, Rəhim xan, Kamran xan Naxçıvanskilərin, Cabbar ağa Vəzirov və başqalarının səyləri ilə yeni inzibati komitə bərpa olunur.

11 iyul 1918-ci ildə Naxçıvan şəhər bələdiyyə idarəsində keçirilən yığıncaqda Türkiyənin XI alay komandanı Sürəyya bəy «Vətən və millətçilik haqqında» çıxış edir. Yığıncaqda yeni idarə üsul idarəsi kimi müsəlman milli komitəsi ləğv edilib yerində bələdiyyə və onun jandarm bələdiyyə idarələrinin yaradılması haqqında qərar qəbul olunur. Bələdiyyə idarəsinə Cəfərqulu xan Naxçıvanski, ona müavin Hacı Abdulla Şeyxov və katib Tağı Nağdəliyev təyin edilir. Ədliyyə məhkəməsinə Şeyx Kərim Axundzadə, Cabbar Kələntərov, Vəliağa Kəndlinski, Abbasqulu bəy Tahirov və İbrahim ağa Kəngərlinski, polis idarəsinə Məhəmmədəli xan Naxçıvanski və onun müavini Qəni bəy Vəzirov təyin olunması haqda qərar qəbul edilir. Yeni təşkil olunmuş idarələr həmin gündən öz vəzifələrini icra etməyə başlayırlar.

Türk ordusunun köməyi ilə Naxçıvan qəzasını, həmçinin İrəvan quberniyasının müsəlman kəndlərini erməni daşnak qoşunlarının hücumlarından qorumaq üçün yerli milli ordu hissələrinin yaradılması məqsədə uyğun hesab edilir. Naxçıvan Milli Komitəsinin sədri Mirzə Nəsrulla Əmirovun əmri ilə Naxçıvan qəzasında 18 yaşından 20 yaşına qədər cavanların orduya cəlb edilməsi işi polis idarəsinin rəisi Məhəmmədəli xan Naxçıvanskiyə tapşırılır. Onun səyi ilə təkcə Naxçıvan qəzasının Nehrəm, Qaraçuq və Bulqan kəndlərindən 200-ə qədər yerli əsgər toplanaraq orduya cəlb edilir (1, s. 71-72).

Erməni təcavüzkarlarına qarşı Naxçıvan qəzasına gələn türklərin Naxçıvanda Araz-Türk respublikasının yaradılmasında da böyük xidmət-

ləri olmuşdur. Belə ki, Qəmərli nahiyəsində Rüşdü bəy tərəfindən elan olunan Araz-Türk respublikasının bir neçə nümayəndələri oktyabrın 19-da Naxçıvana gələrək bu xəbəri şəhər əhalisinə yetirməklə Naxçıvanda Araz-Türk hökümətinin yaradılmasını və yerli nazirlərin seçilməsini bildirmişlər.

Həmin hadisənin şahidi olmuş və Naxçıvan müsəlman Milli Komitəsinin katibi işləmiş və həmçinin 1921-ci ildə bir müddət Naxçıvan Daxili İşlər komissarı olmuş Mirzə Bağır Əliyev «Qanlı günlərimiz» əlyazmasında qeyd edir ki, «1918-ci ilin oktyabr ayının 23-də Naxçıvan şəhər Came məscidində Naxçıvan Milli Komitəsinin sədri Mirzə Nəsrulla Əmirovun sədrliyi ilə keçirilən iclasın gündəliyində bir çox məsələlərlə yanaşı, əsas məsələlərdən biri də Naxçıvanda Araz-Türk Respublikasının yaradılması və Milli Şuranın təşkil olunması məsələsi müzakirə edilmişdir» (1, s. 83-84).

Beləliklə, 1918-ci ilin noyabr ayının 3-də mərkəzi İqdır olmaqla Araz-Türk Respublikası quruldu. Naxçıvan rəsmi paytaxt olmasa da idarəçilik, müdafiə işlərinin əksəriyyəti burada yerləşmişdi (3, s. 68).

Az sonra mərkəzi Naxçıvana köçən bu hökümətin hüdudları Eçmiədzin, Uluxanlı, Sərdarabad, Qəmərli, Şərur-Dərələyəz, Ordubad, Naxçıvan, Mehri və Sürməli bölgələrini əhatə edirdi (2, s. 44).

1918-1919-cu illərdəki çox mürəkkəb bir dövrdə yaranmış və fəaliyyət göstərmiş Araz-Türk Respublikasının qısa müddətli fəaliyyəti nəticəsində əldə edilmiş nailiyyətlər təkcə o dövr üçün yox, Naxçıvan bölgəsinin sonrakı taleyi və gələcəyi üçün də çox böyük əhəmiyyətə malikdir.

Araz-Türk Respublikası dövründə bir çox nazirliklər yaranmışdır ki, bu nazirliklərdən biri də Daxili İşlər Nazirliyi idi. Daxili İşlər Nazirliyinə Bəhrəm xan Naxçıvanski təyin edilir. Həmçinin respublika ərazisində polis idarələri və onların sahə şöbələri yaradılır.

Andranikin dəstəsi Naxçıvan və onun ətraf kəndlərində törətdikləri vəhşiliklərdən sonra 1918-ci il sentyabrın 4-də Sisyana, noyabrın 22-də Korusa gəlir və orada məskən salır. Bu vaxtdan Zəngəzurun, bütün Qarabağın qara günləri başlayır.

Qeyd etmək lazım gəlir ki, Azərbaycan hökuməti də Andranikin tüğyanının qarşısını almaq, onun Şərurdan tutmuş Cavanşir qəzasına, Qarabağa qədər böyük ərazidə törətmiş olduğu vəhşiliklərə, quldurluqlara, cəlladlığa son qoymaq üçün bütöv sistemli tədbirlər görə bilməmişdi. Buna görə də qəzalardan, kəndlərdən, ayrı-ayrı adamlardan dalbadal dərdlə, məşəqqətlə dolu göz yaşları ilə yazılmış teleqramlar, məktublar, məlumatlar Azərbaycana gəlməkdə davam edirdi.

Araz-Türk respublikasının təzəcə yarandığı bir dövrdə türk qoşunlarının Qafqazdan, həmçinin Naxçıvan ərazisindən getmələrindən istifadə edən ermənilər polkovnik Doluxanovun başçılığı ilə güclü silahlı dəstə ilə hərəkətə gəlirlər. Polkovnik İrəvan qəzasına gələn kimi İrəvan qəzasının

müsəlmanlarına müraciət edərək bildirir ki, onlara itaət etsinlər və söz verir ki, müsəlmanlarla dostluq münasibətləri quracaqdır.

Polkovnik Doluxanovun bu vədlərinə inanan Vedibasar rayonu müsəlman əhalisi onu öz dəstəsilə Dəvəli kəndinə buraxırlar. Lakin polkovnik öz sözünə əməl etmir. Onun dəstəsində olan Artus adlı bir şəxs hərbi hissələrlə Vedibasar rayonunun Səid-Kətanlu, Xaraba-Kətanlu və Şəhərab kəndlərinə hücumlar təşkil edir və yerli müsəlman əhalini vəhşicəsinə qətlə yetirir (4, v. 9).

Az sonra general Doluxanovun komandası altında daşnaq qoşunları Şərur qəzasına, mayor Gibbon qoşunu ilə Dərələyəzə, Nicde isə qoşunu ilə Zəngəzura hücum edir. Bu zaman Naxçıvan qəzasının Nehrəm, Cəhri, Qaraçuq, Zeynəddin, Ordubad qəzasının Dəstə, Vənənd, Yaycı kəndlərinin, Naxçıvan və Ordubad şəhərinin fəhlə və kənd yoxsullarından ibarət xalq dəstələri yaradılır. Xalq dəstələri ilə birlikdə polis hissələri də döyüşlərdə yaxından iştirak edirdi.

19 dekabr 1918-ci ildə erməni daşnakları Şərur bölgəsinə hücum edirlər. Ermənilərin qarşısını almaq üçün Bəhrəm xan Naxçıvanskinin komandanlıq etdiyi Naxçıvan taboru Dəmirçi tərəfdən hücum edib, küllü miqdarda hərbi sursat, top, ərzaq və bir pulemyot qənimət almış, 25-30 nəfərə kimi erməni əsgərini həlak etmişlər. Ermənilər tab gətirməyərək geri çəkilmişlər (5, v. 42).

Ordubad Milli Komitəsinin sədri Hidayət Seyidzadə 22 dekabr 1918-ci ildə Azərbaycan Nazirlər Şurasının sədrinə göndərdiyi məlumat vərəqəsində yazırdı: «Türklərin Qafqazdan gedişindən sonra bizim vəziyyətimiz əvvəlkidən də pis oldu. Tiflis və Gəncəyə gedən yollar bağlandı, şəhərin ərzaqla təmin olunması dayandırıldı, məhz buna görə də 500 nəfərdən ibarət dəstəmizi ləğv etdik, yalnız bir rotanı saxladıq. Çatışmamazlıq bizim təşkilatımızı əsaslı şəkildə zəiflətdi, biz kimə tabe olduğumuzu, kimdən göstəriş alacağımızı bilmədik. Naxçıvan qəzasında və Şərurda müsəlmanlar belə vəziyyətə düşdülər, bəs buna görə də biz bir müsəlman hökuməti – Araz hökümətini yaratmağı qərara aldıq. Əslində bu hökümət Naxçıvan və Şərur müsəlmanları tərəfindən yaradılmışdır və bizə də bura daxil olmaq təklif olunmuşdur. Biz də Gəncədən xəbərlərin kəsilməsini, həmçinin Araz hökümətinin də eyni istiqamətdə hərəkət etməsini nəzərə alaraq, öz razılığımızı bildirdik. Araz hökuməti yenicə yaranıb. Onun hansı formaya düşəcəyi məlum deyil. Son vaxtlar ermənilər yenə də Zəngəzur qəzasına, bizə, yəni Şərura və Yerevan qəzası müsəlmanlarına qarşı düşmənçiliyə başlayıblar. Onlar bizim kəndlərimizə basqınlar edir, camaatı kütləvi şəkildə qarət edir və qırırlar. Zəngəzur qəzasında 20-ə qədər kəndin əhalisi öz doğma yerlərini tərk edib, İrana, Qarabağa və bizə qaçmaqla xilas olublar. Ermənilər çalışırlar ki, Ararat dövləti Türkiyə sərhədlərindən

başlayaraq Şuşaya qədər gəlib çatsın, həmin yerlərdə isə bir nəfər də olsun, müsəlman türkü yaşamasın.

… Andranikin dəstəsi Zəngəzur tərəfdən hücuma hazırlaşır. Belə ağır gündə bizim vəziyyətimiz barədə düşünməyinizi, bizim üçün hərəkət planı tərtib etməyinizi xahiş edirik. Xahiş edirik ki, kimlə vuruşduğumuz bizə izah edilsin: «rəsmi düşmənlə yoxsa quldur dəstəsilə» (6, v. 11).

Erməni genosidindən xilas olan qaçqınlar böyük bir axınla Ermənistandan Araz-Türk Respublikasına gəlirlər. 1919-cu ilin yanvarında onların sayı 100 min nəfərə çatmışdır. Ermənistan ərazisində 200-dən çox müsəlman kəndini darmadağın edib müsəlmanları qılıncdan keçirən, yandıran ermənilərin zorakılıq hərəkətləri azərbaycanlıları öz yurdlarını atıb getməyə məcbur etmişdir (7, v. 103-105).

Erməni qoşunlarının Şərur tərəfə hərəkəti Araz-Türk respublikası hökümətinə çatan kimi, hökümət tərəfindən sərəncam verilir ki, ermənilərin hücumunun qarşısı alınsın. Həmçinin Şərur qəzasının «Qurd qapısı» adlanan yerdə daşnak qoşunlarının qarşısını almaq məqsədilə Naxçıvanın yerli müdafiə dəstələri göndərilir. Bu döyüşə rəhbərliyi Məşəələsgər Qasizayev edirdi. Bu arada Araz-Türk respublikasının hökümət rəhbərləri ermənilərin komandanlığı ilə danışıq aparsalar da, heç bir nəticə olmurdu.

İlk qeyri-bərabər vuruşma Naxçıvan yerli müdafiə dəstələrinin geri çəkilməsinə səbəb olur. Bu xəbər Araz-Türk hökümətinə çatan kimi, polkovnik Kalbalı xan və Daxili İşlər Naziri Bəhrəm xan Naxçıvanskinin başçılığı ilə mütəşəkkil böyük bir dəstə göndərilir.

Həmin vaxt qarşıda qantöküləsi qırqınların olacağını görən respublika hökümməti Təbrizə vəliəhd şahzadəyə müraciət edir ki, Tehranla razılaşsın və göndərdikləri nümayəndə vuruşan hər iki tərəfin arasındakı bədbəxtliyi yatırda bilsinlər.

Polkovnik Kalbalı xan öz hökümətindən aldığı təlimata görə erməni hissələrinin komandanlığına təklif edir ki, Təbrizdən cavab gələnə qədər bu düşmənçilik hərəkəti dayandırılsın. Lakin ermənilər razı olmayıb, vuruşmanı davam etdirirlər.

Buna görə də polkovnik Kalbalı xan dəstəsinə atəş açma əmri verir. Çox böyük döyüşdən sonra Baş-Noraşendən yuxarıda Zeyvə kəndində düşmən geri oturdulur.

1918-ci ilin dekabrında Ermənistan respublikası Araz-Türk respublikasına qarşı geniş miqyaslı təcavüzə başlayır. Yanvarın 3-də «Azərbaycan» qəzeti yazırdı: «Daxili İşlər Nazirliyi dekabrın 28-də Cəbrayıldan belə bir teleqram almışdır ki, İrəvandan gələn 25 minlik erməni qoşunları Sədərək kəndindən keçərək 8 müsəlman kəndini mühasirəyə alaraq tərksilah etmişdir. Naxçıvan və Şərurun sakinləri İrana keçməyə hazırlaşırlar. Arazı keçərkən 200-dən çox adam həlak olmuşdur. Zəngəzur ermənilər bizə hücum

etmişlər, hazırda güclü atışma gedir, hara müraciət ediriksə, kömək yoxdur» (8, v. 18).

Ermənilərin təcavüzlərinə qarşı Araz-Türk respublikasının özündə də təcili tədbirlər görülürdü. O günlərdə könüllü xalq dəstələri, taborlar yaradılırdı. Kəlba Muxtar Cəfərzadənin başçılığı ilə Nehrəm taboru, Kəlbə Kərimin başçılığı ilə Cəhri taboru, Məmməd Rza bəy Allahverdiyevin başçılığı ilə Qulubəydizə taboru, şəhərdə Hüseyn Əliyevin, Ordubadda İbrahim Xəlil Axundovun, Sədərəkdə Həsən Şahverdiyevin və başqalarının rəhbərliyi ilə qırmızı taborlar yaradılır. Bu qırmızı taborlarla yanaşı, polis əməkdaşları da ermənilərə qarşı vuruşurdular.

1919-cu ilin əvvəllərində daşnak hökümətinin xahişi ilə Naxçıvan ingilislər tərəfindən işğal edilir. İngilislər Əmir bəy hökümətinə qarşı yaxşı münasibət bəsləmir, bu hökuməti Gürcüstanın və onun tərəfdarlarının əlaltısı hesab edirdilər.

Bu məqsədlə də Naxçıvana mayor Gibbonun başçılıq etdiyi Böyük Britaniya nümayəndələrinin bir qrupu gəldi. Mayor Gibbon öz gəlişinin səbəbini Əmir bəyə qaçqınlar məsələsinin həlli ilə əlaqəsini bəyan etdi. Lakin həqiqətən də onun gəlişinin əsas məqsədi iqtisadi və siyasi vəziyyətlə tanış olmaq, Araz-Türk respublikasının hərbi hissələrinin tərkibi və silahlanması, həm də türklərin bu respublika hökümətinə təsirinin dərəcəsini aydınlaşdırmaq idi.

ADR-in və eləcədə Araz-Türk respublikasının fəaliyyəti dövründə Naxçıvan ölkəsində siyasi hadisələrdən biri də ingilislərin 1919-cu ildə Naxçıvanın «bitərəf zona» elan etməsidir. Araşdırdığımız sənədlərdən məlum olur ki, ingilislərin Naxçıvana gəlişinin əsas səbəblərindən biri Naxçıvanı «bitərəf zona» etmək və Ermənistan hakimiyyətinə vermək məqsədini güdürmüş.

1919-cu ilin aprel ayında Ermənistanda ingilis və amerkanların fəaliyyətdə olan ali komissarı Vilyam Haskel Naxçıvanı «bitərəf zona» elan edib, daşnak hökümətinin tabeliyinə verilməsini icra etməyə başlayır və Naxçıvana ingilis və erməni qoşunu yeridilir. Ermənistan hökümətinin nümayəndəsi Varşamyan Naxçıvana qubernator təyin edilir.

Varşamyanın Naxçıvanda qubernator olduğu qısa bir dövrdə Naxçıvanda Araz-Türk respublikasının bir sıra inzibati orqanları, o cümlədən Daxili İşlər Nazirliyi və polis idarələrinin, məntəqələrinin fəaliyyəti demək olar ki, dayandırılmışdır. Varşamyan ingilislərin köməyi ilə Naxçıvan qəzasında öz adamlarından, yəni ermənilərdən ibarət polis komissarlığı və polis şöbələri təşkil etmişdir. Məhz yuxarıda qeyd etdiyimiz kimi, bu polislərin və hərbiçilərin səyi ilə Naxçıvan qəzasında böyük talanlar və həbslər edilmişdir.

1920-ci ilin mart ayının 21-də novruz bayramının birinci günündə 1000 nəfərdən ibarət olan erməni silahlı dəstələri Ordubad qəzasının Düyü-

lün, Vənənd, Velever, Xanağa, Beksar, Ağrı, Gənzə, Anabad, Əylis, Kilit, Kotam, Varapert, Dizə, Unus kəndlərinə hücum edərək qarət etmiş, əhalinin çox hissəsini qətlə yetirmiş və Ordubad ətrafında gedən döyüşlərdə ermənilər tərəfindən çox itkilər olmuşdur. Ordubadda bir neçə bina yandırılmışdı. Lakin ermənilər şəhərə girə bilməmişdilər (8, v. 18).

Ümumiyyətlə, ermənilər 1918-1920-ci illərdə İrəvan quberniyasında 220000-dən çox, Zəngəzur qəzasında 200000 və Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında isə 73727 nəfər azərbaycanlıya vəhşicəsinə soyqırım etmişlər.

XI Rus ordusunun 28-ci diviziyasının I və II atlı polkları Korusdan, Batabatdan və Biçənək aşırımından, Şahbuzdan, Cəhridən keçərək 28 iyul 1920-ci ildə Naxçıvana daxil olması və Naxçıvanda inqilab komitəsinin yaradılmasından sonra A.Şadlinskinin təşkil etdiyi «Qırmızı Tabor» və «Naxçıvan polkunun» qəhrəman döyüşçülərinin apardığı mübarizə nəticəsində 1920-ci ilin noyabrın axırları və dekabrın əvvəllərində Naxçıvan, Şərur və Ordubad qəzaları erməni daşnaklarından, demək olar ki, tamamilə təmizlənir.

Araz-Türk respublikası dövründə, istərsə də respublikanın ləğvindən sonra Naxçıvan polisinin bölgədə asayişi qorumaqla bir çox cinayətlərin, xüsüsilə erməni daşnaklarının təcavüzlərinin qarşısının alınmasında qırmızı taborçularla çiyin-çiyinə mərdliklə vuruşmuşdular.

1918-1920-ci illərdə ermənilərə qarşı döyüşlərdə Naxçıvan qəza və şəhər polisində çalışan Məhəmmədəli xan Naxçıvanskinin, Böyük xan Naxçıvanskinin, Qasım Hüseynovun, İbrahim ağa Kəngərlinin, Cabbar Kələntərovun, Cəfər Məmməd oğlunun, Rzaqulu Abdulla oğlunun, Abbasqulu bəy Tahirovun, İmaməli Rzayevin, Mirəli Seyidovun, Vəli ağa Kəngərlinin və onlarla belə polis əməkdaşlarının böyük xidmətləri olmuşdur.

## ƏDƏBİYYAT


1. Əliyev M.B. Qanlı günlərimiz. Bakı: Azərnəşr, 1993, 141 s.
2. Hacıyev İ.M., Quliyev Ə.A. Tarixdə və günümüzdə Naxçıvan. Ankara, 1998.
3. Musayev İ.M. Azərbaycan, Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996.
4. Nax. MRDA: f. 314, siy. 5 a, iş 72, v. 9.
5. Nax. MRDA: f. 314, siy. 5 a, iş 74, v. 42.
6. Nax. MRDA: f. 314, siy. 5 a, iş 72, v. 11.
7. Nax. MRDA: f. 314, siy. 5 a, iş 74, v. 103-105.
8. Nax. MRDA: f. 314, siy. 5 a, iş 72, v. 18.

**Фахреддин Джафаров**

## ДЕЯТЕЛЬНОСТЬ ПОЛИЦИИ ВО ВРЕМЯ АРАКСО-ТЮРКСКОЙ РЕСПУБЛИКИ И ПОСЛЕ ЕЕ ЛИКВИДАЦИИ

Во время Араксо-Тюркской республики появилось множество министерств, в том числе, Министерство Внутренних Дел. Министром был назначен Бахрам хан Нахичеванский. В то же время на территории республики создавались полицейские управления и их территориальные отделения.

Во время Араксо-Тюркской республики и после ее ликвидации Нахичеванская полиция в регионе предотвратила много преступлений, она плечом к плечу с «Красным табором» остановила проникновение армянских дашнаков на нашу территорию.

В борьбе против армян в 1918-1920-х годах нужно отметить следующих работников полиции Нахичеванского уезда: Мамедали хана Нахичеванского, Бойук хана Нахичеванского, Касума Гусейнова, Ибрагима агу Кенгерли, Джаббара Калантар-оглы, Джафара Мамед-оглы, Рзагулу Абдулла-оглы, Аббасгулу бека Тахирова, Имамали Рзаева, Мирали Сеи-дова, Вели агу Кенгерли и др.

**Fakhraddin Jafarov**

## POLICE ACTIVITIES IN THE PERIOD OF ARAZ-TURK REPUBLIC AND AFTER ITS LIQUIDATION

A number of ministries, including the ministry of internal affairs were established in the period of Araz-Turk republic. Bahram khan Nakhchivansky was appointed minister of internal affaires. At the same time police administrations and their regional departments were created in this territory.

During the period of Araz-Turk republic and after its liquidation the Nakhchivan police in the region prevented many crimes; policemen shoulder to shoulder with the «Red tabor» stopped the invasion of Armenian dashnaks to our territory.

It is necessary to point to feats of following police workers of the Nakhchivan uyezd in the struggle against Armenians in 1918-1920: Mohammedali khan Nakhchivansky, Boyuk khan Nakhchivansky, Kasum Huseynov, Ibrahim aga Kengerli, Jabbar Kalantar-oglu, Jafar Mammad-oglu, Rzagulu Abdulla-oglu, Abbasgulu bey Tahirov, Imamali Rzayev, Mirali Seyidov, Vali aga Kengerli et al.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, tarix e.d. H.Q.Qədirzadə, tarix e.d. prof. H.Səfərli.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**MUSA QULİYEV**
AMEA Naxçıvan Bölməsi

# I KALBALI XAN EHSAN XAN OĞLU KƏNGƏRLİ VƏ ONUN NƏSİL ŞƏCƏRƏSİ

Uzun illərdir ki, I Kalbalı xanın həyatı və fəaliyyəti ilə bağlı ciddi axtarışlar aparırıq. Çünki sovet hakimiyyəti illərində Naxçıvan Kəngərliləri haqqında tələm-tələsik yazılan və yalanlarla dolu olan kitablar az da olsa, nəşr olunmuşdur. Hətta elə olmuşdur ki, rus şərqşünası K.N.Smirnov çox zəngin olan Kəngərli arxivini (350-dən artıq sənədi) Tiflisə aparıb, orada erməni mənşəli alimlərə təhvil vermişdir. Bununla kifayətlənməyən alim yazdığı kitabda I Kalbalı xanın ulu əcdadlarını ayrı millətə aid etmişdir. Buna cahillikdən və paxıllıqdan başqa ad vermək çətindir. Çünki onun özü Kəngərli arxivindən 25 sənədin orijinalı ilə birlikdə tərcüməsini də çap etdirib. Və o sənədlərin çoxunda «Kəngərlilərin qədim türk tayfası» olduğu yazılıb (14, s. 35-40).

Bir vaxtlar Şah İsmayıla atılmış böhtanlar XX əsrin əvvəllərində Smirnov tərəfindən I Kalbalı xana da atılmışdır. Necə ola bilər ki, ulu babaların türk olsun, sənin özünü isə ayrı millətə aid etsinlər. Bu, çox böyük saxtakarlıqdır.

Bütün ömrü boyu Qafqazın alovları içində, at belində, əlində qılınc azadlıq uğrunda müstəqillik amalı ilə döyüşən hünərli, qorxmaz sərkərdə I Kalbalı xan Kəngərli (Naxçıvanski) qəhrəmanlıqlarla dolu ömür yaşamışdır. Bu qəhrəmanı yaxşı tanımaq üçün uzaq yüzilliklərə aid sənədləri vərəqləyək, doğma tariximizə nəzər salaq.

Aparılan araşdırmalar belə söyləməyə əsas verir ki, I Kalbalı xan XVIII əsrin 40-cı illərində anadan olmuşdur. Bu günədək onun atasının adını müxtəlif cür yazıblar. Buna əsas səbəb rus şərqşünası Smirnovun yazdıqları olub. Guya ki, onun atası Murad Xəlifə Diyarbəkirli imiş və sair. Bundan isə Moskva tədqiqatçıları tələm-tələsik istifadə edib, onun yazdıqlarını etalon kimi qəbul edib təkrarlamışlar.

K.N.Smirnovun da Şopen kimi Naxçıvan tarixini müəyyən qədər «haylaşdırmaq» məqsədini nəzərə almasaq, onun tarixi-etnoqrafik məlumatlarının bolluğuna sevinmək olar.

Onun Tbilisidəki elmi arxivində işləyərkən çox məsələlər bizə aşkar

oldu... Ona görə də K.N.Smirnovun yazdıqlarına ciddi yanaşmalıyıq. Bunu bizdən doğma Naxçıvan və onun müstəqilliyi uğrunda döyüşən insanların ruhu, o cümlədən I Kalbalı xanın ruhu tələb edir.

2005-2006-cı illərdə Gürcüstan Dövlət Tarix Arxivində araşdırmalar zamanı podporuçik Nəcəfqulu ağa Nəzərəli xan oğlunun Gürcüstan-İmereti qubernatorluğuna yazdığı bir ərizəyə rast gəldik.

Həmin ərizədə I Kalbalı xanın atasından miras qalan Badamlı kəndi haqqında danışılır. I Kalbalı xanın vəfatından sonra onun arvadı Tükəzban xanımın idarə etdiyi bu kənd haqqında olan sənədlər toplusu cəmi 7 səhifədən ibarət olsa da, bir çox məsələlərə aydınlıq gətirdi. Bu iş 20 iyul 1845-ci ildə başlayıb, 14 may 1846-cı ildə başa çatdırılıb. Burada ən maraqlı məsələlərdən biri I Kalbalı xanın atasının adının Ehsan xan olduğunun ilk dəfə aşkarlanması oldu. Çünki podporuçik Nəcəfqulu ağanın 19 mart 1829-cu ildə Tiflisdə yazdığı ərizədə göstərilib ki, bu kəndə aid sənəd hicri 1170-ci ildə I Kalbalı xanın atası Ehsan xana aiddir. Onun qeyd etdiyinə görə, bu kənd 82 il öncə ulu babası Ehsan xana məxsus olub, ondan isə miras kimi oğlu Kalbalı xana qalıb. Bu sənədlər çox köhnə olsa da, üzünün surətini çıxara bildik. Hətta həmin sənədlərin birində göstərilir ki, I Kalbalı xanın arvadı Tükəzban xanım 12 iyun 1833-cü ildə vəfat edib (17). Alicah Ehsan xan adına «Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri» kitabında rast gəlirik. 1761-ci ilə aid sənəddə (№ 9) Alicah Ehsan xan adı çəkilir (15, s. 49).

V.S.Puturidzenin «Gürcüstan kitabxanalarında fars dilli tarixi sənədlər» kitabında (I cild) olan maraqlı fakt I Kalbalı xanın ulu əcdadlarının da Kəngərlilər olduğunu bir daha təsdiqləyir. Orada belə yazılıb: «II Şah Abbasın hicri 1070-ci ilin ramazan ayı (1660, may) tarixli digər hökmündən məlum olur ki, o dövrdə Əliqulu xan Kəngərli Naxçıvanın hakimi olmuşdur» (11, s. 40). Məhəmməd Tahir Vəhidin «Abbasnamə» əsərində Əliqulu xanın atası Kəngərli Murad xan Sultanın da Naxçıvanda hakim olması qeyd edilmişdir. Maraqlı haldır ki, «Abbasnamə» əsəri Sankt-Peterburqdakı Saltıkov-Şedrin adına Dövlət kitabxanasında, akademik Dornun fondunda (№ 30312) saxlanılır (11, s. 40). Bu kitab 1828-ci ildə Ərdəbildəki Şeyx Səfi məqbərəsindəki kitabxanadan aparılıb.

Kəngərli Murad xan Sultanın adının yanında xəlifə yazılması isə həmin şəxsin hakimiyyətdə müavin və nümayəndəsi deməkdir. Səfəvi şeyxləri özlərinin ən sədaqətli və inanılmış adamlarını həmin titulla təltif edirdilər.

Naxçıvan xanlarının şəcərəsini hazırlayarkən I Kalbalı xanın nəsil qolunun Murad xandan başlandığı məlum idisə, bu heç də onun atasının Murad xan olması demək deyildi. Bu haqda əvvəlki yazılarda məlumat vermişdik. Araşdırmalar göstərir ki, Murad xan onun babası Əliqulu xanın atasıdır. Və beləliklə, I Kalbalı xanın ulu babalarının nəsil şəcərəsi aşağı-

dakı kimidir:

Murad xan – Əliqulu xan – Ehsan xan – I Kalbalı xan.

Təsadüfi deyil ki, I Kalbalı xan oğlanlarından birinin adını Ehsan xan qoymuş və ailədə ona "Böyük xan" demişlər.

Araşdırmalar göstərir ki, I Kalbalı xanın Zülfüqar xan, Fətəli xan və Abbas xan adında qardaşları olmuşdur. Rus şərqşünası və qafqazşünası Adolf Petroviç Berje (10.08.1828, Sankt-Peterburq-13.02.1886, Tiflis) Qafqaz Arxeoqrafiya Komissiyasının sədri (1864-1880-ci illərdə) olmuşdur. On iki cildlik Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında (qısaca QAKA, rusca AKAK) Rusiyanın Azərbaycanı işğal etməsi prosesini əks etdirən sənədlər tarixi ardıcıllıqla toplanmışdır.

Onu da deyək ki, Qafqaz Aktlarının 11 cildi Bercenin sağlığında, 12 cild isə sonralar nəşr edilmişdir. Bu sənədlər XVIII əsrin sonu-XIX əsrin əvvəllərində çar Rusiyasının Azərbaycandakı siyasətinin müstəmləkəçi mahiyyətini açıqlamağa əsas verir. Bu aktları tərtib etmək üçün 43 min 415 qovluqdan, 177 kitabdan, bundan əlavə, xanların, bəylərin məlumatlarından, çoxlu jurnallardan istifadə olunmuşdur. Bu kitablar və qovluqlar Dərbənd, Şəki, Qarabağ, Gəncə, Bakı, Naxçıvan, İrəvan və digər xanlıqların dəftərxanalarından götürülmüşdür. Bunların hamısı 12 cildlik aktlarda nəşr olunmuşdur. Bu cildlərin hər birinin çəkisi təxminən 10 kiloqrama bərabərdir.

Azərbaycan dilini mükəmməl bilən Berje Naxçıvan xanlığına aid materiallara diqqətlə yanaşmışdır. Əlbəttə, yazılanlar nöqsansız deyil. Bu aktların I-II cildlərində I Kalbalı xan və onun məktubları haqqında təxminən 34 yerdə məlumat verilmişdir.

I Kalbalı xan bacarıqlı sərkərdə kimi çox döyüşlərdə iştirak etmişdir. Özünün dövlətçilik bacarığı, uzaqgörənliyi və ağıllı diplomatiyası ilə fərqlənən I Kalbalı xanın ən böyük arzusu Naxçıvan xanlığının müstəqilliyi idi. O, 1787-ci ildən 1797-ci ilədək Naxçıvan xanlığının müstəqilliyini qorumaq üçün Qafqazda orijinal diplomatik manevrlər etmişdir.

Tarixi xronika sənədlərindən götürülən məlumatlar I Kalbalı xanın Naxçıvanın müstəqilliyini qorumaq üçün özünə güclü hərbi müttəfiqlər axtarmasından xəbər verir.

Naxçıvan xanlığının müstəqilliyini qorumaq üçün I Kalbalı xan Tiflis yürüşlərində hərbi sərkərdə kimi iştirak etməyə məcbur oldu. Onun bacanağı Xoy xanı Cəfərqulu xan da onun kimi bu yürüşdə iştirak etdi. Hətta sonralar Cəfərqulu xan Xoyski (Şəkinski) bunu təəssüflə xatırlayırdı: «...Mən can-dildən Ağa Məhəmməd şaha Tiflis yürüşlərində xidmət göstərdim və Persiyanın (İranın) çox hissəsinin onun tərəfindən işğal edilməsində günahkaram...» (1, s. 676-677).

Sonralar Ağa Məhəmməd Şah Qacar Naxçıvana yolladığı süvari dəstəsinə konkret əmr vermişdi: xanlığı darmadağın edib, əhalini İranın

ucqarlarına köçürsün. Ağa Məhəmmədin bu dəfəki qoşunlarına müqavimət göstərə bilməyəcəyinə əmin olan Naxçıvan xanı Kalbalı xan yurdunu, özünü və əhalini gözlənilən cəzadan qurtarmaq üçün səxsən qiymətli hədiyyələrlə Ərdəbilə gedib şahdan imdad istədi. Ağa Məhəmməd Şah ondan hədiyyələri alıb, V.Zubov ilə məktublaşdığına və Rusiya dövlətinin himayəsinə keçmək istədiyinə görə onun gözlərini çıxartdırıb bir məhbus kimi Tehrana göndərdi (2, s. 380-381, 642).

Bu haqda o vaxtlar Qafqazda hərbi səfərlərdə iştirak edən və şəxsən I Kalbalı xanı tanıyan P.Q.Butkov və N.F.Dubrovin öz kitablarında məlumat vermişlər (7, s. 427-428; 8, s. 20).

Ağa Məhəmməd Şah Qacar öldürüldükdən sonra hakimiyyətə Fətəli şah gəldi. Bu zaman o, I Kalbalı xanı həbsdən azad etsə də, Naxçıvanda yaşamağa ona icazə vermədi. Bunun üçün I Kalbalı xan müvəqqəti yaşamaq üçün İrəvan xanlığını seçdi. Yeri gəlmişkən, həmin illərdə İrəvan xanlığına onun qaynı Məhəmməd xan İrəvanski hakimlik edirdi. Bəzi tədqiqatçılar Məhəmməd xanı I Kalbalı xanın qayınatası yazırlar. Yenə də onlar bu məsələdə K.N.Smirnova əsaslanırlar. Amma bu fikir tamamilə əsassız və yanlışdır. Çünki bir çox mənbələrdə, o cümlədən arxiv sənədləri əsasında yazılmış Qafqaz Aktlarında olan faktlar tədqiqatçıların bu ideyalarını təkzib edir. 1868-ci ildə Tiflisdə nəşr edilən Qafqaz Aktlarının II cildində yazılıb ki, Səltənət bəyim Məhəmməd xan İrəvanskinin doğma bacısıdır (4, s. 856; 6, s. 755). Əgər tarixin bir az da keçmiş səhifələrinə nəzər salsaq, qeyd edə bilərik ki, Əhməd xan Xoyski (1763-1786-cı illərdə xanlıq edib) İrəvan üzərində öz nüfuzunu saxlamaq üçün 1783-84-cü illərdə özünün 30 yaşlı qızını 12 yaşlı Məhəmməd xan İrəvanskiyə verib (10, s. 49). Deməli, 1772-ci ildə İrəvan xanı Hüseynəli xanın ailəsində doğulan Məhəmməd xan Tükəzban xanımın (I Kalbalı xanın arvadı) atası ola bilməz. Çünki Tükəzban xanımın birinci övladı Nəzərəli xan 1776-cı ildə anadan olub.

Digər tərəfdən, İrəvan xanlarının «Məktublar» külliyyatının orijinalı İrəvan şəhərindəki «Matenadaran»da (Mətndaran) saxlansa da, şərqşünas K.N.Smirnov və azərbaycanlı alim Cahangir Qayıbov o məktubları ruscaya tərcümə etmişlər və 375 səhifəlik o məktublar Smirnovun fondunda saxlanılır (16). Həmin fondda (№ 36) İrəvan xanlarının yazışmalarını (Hüseynəli xanın və iki oğlunun – Qulaməli və Məhəmməd xan qardaşlarının məktubları) oxuyub öyrənərkən aşkar oldu ki, Məhəmməd xanın və iki doğma bacısının anası Şadılı tayfasındandır. Amma tarixçi O.Markova və digər rus tədqiqatçıları isə onun anasının gürcü qızı olduğunu yazırlar (9, s. 74). Hətta bəzi kitablarda isə yanlış olaraq Qulaməli xanı Məhəmməd xanın atası kimi göstərilir (9, s. 74). Yox, bu fikir də yanlışdır. Qulaməli xan onun ana ayrı qardaşıdır. Və ehtimal etmək olar ki, Qulaməli xanın anası gürcü qızı olub. Məhəmməd xanın o biri bacısı Səltənət xanım əvvəlcə Xoy xanı Əhməd xanın, sonra isə məşhur general, Xoy və Şəki xanı Cəfərqulu xanın

arvadı olub (3, s. 755, 856). Səltənət xanım Əhməd xandan olan oğluna Kalbalı xan adını qoyub. Hətta Qafqaz Aktlarında səhv olaraq general-mayor Kalbalı xan Xoyskini general-mayor Naxçıvanski kimi də yazıblar. Bu, ola bilməz. Çünki general-mayor Kalbalı xan Xoyski əsasən Gəncədə yaşayıb. Onun haqqında Tbilisi və Moskva arxivlərində xeyli məlumat var. O, həyatını sevə-sevə oxuduğumuz Fətəli xan Xoyskinin ata babasıdır. Sadəcə, Kalbalı xan Xoyski I Ehsan xanla xala uşağıdırlar.

I Kalbalı xan 1800-1803-cü illərdə İrəvan xanlığının qoşunlarına başçılıq etmiş, Məhəmməd xanın müşaviri və xanlığın hərbi rəisi olmuşdur (1, s. 117-119). İrəvan xanlığının müstəqilliyi uğrunda dəfələrlə İran və Rusiya qoşunlarına qarşı vuruşmuşdur.

1804-cü ildə İrəvan qalasının müdafiəsi uğrunda Sisianovun qoşunlarına qarşı uğurlu döyüşlər aparmışdır. O, bununla kifayətlənməmiş, hətta İrəvan xanlığı ilə Kartli-Kaxeti çarlığı arasında olan mübahisəli ərazi məsələsinin (Pəmbək və Şuragöl) də doğru həlli üçün hərbi toqquşmalar da olmuşdur. 1808-ci ilin yazında həbs edib yenidən Tehrana aparmışlar (3, s. 713).

Sonralar yenə də həbsdən azad edilmiş və 1810-cu ildə Rusiya qoşunlarına qarşı vuruşmuşdur (5, s. 738-739). 1815-ci ildə Naxçıvan xanlığının hakimi, yəni general-qubernatoru olmuşdur (14, s. 41-43).

I Kalbalı xanın hakimiyyət şəcərəsini də işləyib hazırlamaq mümkün oldu. Deməli, o, 1787-1797-ci illərdə Naxçıvanın xanı, 1805-1808-1810; 1815-1816-cı illərdə Naxçıvanın hakimi olmuşdur. Onu da qeyd edək ki, İrəvanda yaşadığı illərdə İrəvan xanlığını I Kalbalı xan idarə etmişdir (12, s. 67).

I Kalbalı xanın fəaliyyəti o qədər maraqlı və orijinaldır ki, araşdırma apararkən tədqiqatçının özü onun vətənpərvərliyinə heyran qalır... Onun hicri 1221 şəvval ayında (miladi 1806) Naxçıvan xanlığının hərbi rəisi Lütfəli Sultana ünvanladığı əmr yuxarıdakı fikrimizi daha da incələyir (14, s. 32-34).

I Kalbalı xan həmin əmrdə Kəngərli tayfasının sultanlarını, sadə işçilərini və döyüşçülərini də nəzərdə tutaraq yazıb ki, silah gərək anbarda saxlanmasın, əldə tutulsun. O, Lütfəli Sultana göstəriş verir ki, adbaad qeydetmə keçirilsin və döyüşçülər nizamla dəstə şəklində yola düşsünlər.

Əmrin haşiyəsində isə süvari dəstəsinə oğlu Nəzərəli xanın komandirliyini məsləhət görür.

Həmin əmrə I Kalbalı xanın möhürü vurulub: «Allahdan başqa Allah yoxdur. Sədaqətdə çox möhkəm Kalbalı xan» (14, s. 32-34). Doğrudan da, I Kalbalı xan dostluq etdiyi şəxslərə heç vaxt xain çıxmayıb.

I Kalbalı xan Qars paşası Neman Paşa ilə çox səmimi və etibarlı dostluq, hərbi müttəfiqlik əlaqəsi də saxlamışdır (1, s. 624-630).

Maraqlı bir faktı da nəzərinizə çatdırmaq doğru olardı. Tiflisə yürüş edən İran qoşunlarının bir hissəsinə sərkərdəlik edən I Kalbalı xan qədim Msxeta şəhərini dağıtmağa icazə vermir (bu haqda arxiv sənədi də var) (8, s. 47).

I Kalbalı xan sözündə də qəti idi, əməlində də. Verdiyi əmrlərdə də.

Tbilisidə Gürcüstan Dövlət Arxivində əldə etdiyimiz bir sənəddə I Kalbalı xanın 1816-cı ildə mayın 11-də İrana gedən Rusiya səfirliyinin (112 nəfərə qədər – 42 məmur, 70 nökər) Naxçıvan qalasında Xan dikində indiyədək duran sarayında necə qəbul etməsini oxuyanda qürur duyduq. Həmin görüşdə iştirak edən N.N.Muravyov (Karsski) özünün gündəliklərini yazıb. Xeyli hissəni Naxçıvana və onun hakimi I Kalbalı xana həsr edib. O yazır: «Onun özü çox səmimidir, xeyirxahdır, adamda ona qarşı hörmət yaradır...»

Hətta Naxçıvan qalasında olan qüllənin Əmir Teymur (Teymurləng) tərəfindən tikildiyini yazan hərbiçi tarixçi «o qüllənin işarə verilməsi üçün tikildiyini» də diqqətə çatdırır (20, s. 475-476, 482-483).

Bu görüşdə iştirak edənlərdən biri də Böyük Kabarda knyazı Canbulat Canxotov idi ki, sonralar I Kalbalı xanı böyük səmimiyyətlə xatırlayırdı...

I Kalbalı xan 1823-cü ildə Məkkə ziyarətindən gələrkən Təbrizdə dayanmalı olur. Bəzi mənbələrə görə, Fətəli şahın əmri ilə zəhərləndirilərək Təbrizdə vəfat edir (13, s. 53; 19).

Qafqaz müsəlman süvarilərinin döyüşlərini görən məşhur rus yazıçısı L.N.Tolstoy yazırdı: «Həqiqətən bu sərt diyarda iki əksqütblü şeylər – müharibə və azadlıq qorxulu, həm də şairanə şəkildə birləşirlər» (18, s. 10).

Hələ əlimizdə xeyli əlavə yeni sənədlər var ki, onlar üzərində də işimizi davam etdiririk. Bu sənədləri öyrənəndə, araşdıranda Naxçıvanın azadlığı, müstəqilliyi uğrunda gözlərini verməkdən belə qorxmayan, hətta dünya işığına həsrət qalsa da, qəlbindəki azadlıq işığı ilə 23 il döyüşlər aparan, sonralar doğulan oğlanları Fərəc ağanın, Mehdiqulu xanın və İsgəndər xanın üzlərini görə bilməyən, yalnız səslərini eşidən atanın, sərkərdənin–I Kalbalı xanın qırmızı kaporlu atın üstündə özünə əzəmətli bir abidə yaratdığını görürük.

## ƏDƏBİYYAT

1. АКАК: т. I, Тифлис, 1866.
2. АКАК: т. I, д. 484, 889, Тифлис, 1866.
3. АКАК: т. I, д. 1040, д. 1044, Тифлис, 1866.
4. АКАК: т. II. Тифлис, 1868.
5. АКАК: т. IV. Тифлис, 1870.
6. АКАК: т. VI, ч. 1. Тифлис, 1874.
7. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1802 гг. Т.

I-III, СПб., 1869,
8. Дубровин Н.Н. История войны и владычества русских на Кавказе. Т. V, СПб., 1887.
9. Əliyev F., Həsənov İ. İrəvan xanlığı. Bakı: Azərnəşr, 1997, 121 s.
10. Mustafayeva N.Ç. Azərbaycanın cənub xanlıqları. Bakı, 1995.
11. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair sənədlər. Bakı: Elm, 1977, 237 s., 16-18-ci sənədlər.
12. Mirzə Adıgözəl bəy. Qarabağnamə. Bakı: Yazıçı, 1989, 102 s.
13. Нагдалиев Ф.Ф. Ханы Нахичеванские в Российской империи. Москва: Аргумент, 2006, 409 с.
14. Передняя Азия в документах (серия памяти Ю.Н.Марра). Нахичеванские рукописные документы XVII-XIX вв. Кн. 1, Тифлис, 1936, 139 с.
15. Seyidbəyli E.M. Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri. Bakı: Elm, 1977, 237 s.
16. Сборник переписки Ираванских ханов в конце XVIII в. Ереван, Литературный музей, каталог № 24; Институт Рукописей Грузии, фонд Смирнова, д. 36.
17. Тбилиси, ЦГИА: ф. 16, оп. 1, д. 8958, 7 л.
18. Толстой Л.Н. Полное собрание сочинений. Т. XLVII, М., 1937.
19. Teymurlu (Bənəniyarski). Naxçıvan xanları haqqında xatirələr. Moskva, 1990, (əlyazma).
20. Записки Н.Н.Муравьева. Русский архив, 1886, апрель, 524 с.

**Муса Кулиев**

## КАЛБАЛЫ ХАН I ЭХСАН ХАН ОГЛЫ КЕНГЕРЛИ И ЕГО ГЕНЕАЛОГИЧЕСКОЕ ДРЕВО

В этой статье говорится о жизни и деятельности Калбалы хана I Эхсан хан оглы по развитию Нахчыванского ханства и защите его границ, который не дал уничтожить город Мцхета во время военного похода Аги Мухаммеда Шаха Каджара на Тифлис, и о борьбе против иноземных захватчиков под его руководством.

Здесь впервые дается новая информация о родословной Калбалы хана.

**Musa Guliyev**

## KALBALY KHAN I EHSAN KHAN OGLU KENGERLI AND HIS FAMILY TREE

Life and activities of Kalbaly khan I Ehsan khan oglu in development of the Nakhchivan khanate and protection of its borders are considered in this article. Kalbaly khan has not allowed destroying the city of Mtskheta during Aga Mohammed Gajar shah's military campaign against Tbilisi. Also it is informed about the struggle under his direction against foreign aggressors.

For the first time the new information about the family tree of Kalbaly khan is given.

***Rəyçilər: Akademik İ.Hacıyev, AMEA-nın müxbir üzvü, tarix e.d. H.Q.Qədirzadə.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**YAŞAR RƏHİMOV**
AMEA Naxçıvan Bölməsi

# VASİLİ QRİQORYEVİN «NAXÇIVAN ƏYALƏTİNİN STATİSTİK TƏSVİRİ» KİTABI NAXÇIVAN BÖLGƏSİNİN TARİXİNİN MƏNBƏYİ KİMİ

Naxçıvan bölgəsi Rusiya tərəfindən işğal edildikdən (1828) sonra yeni torpaqlarda əvvəllər mövcud olan qayda-qanunu və vəziyyəti öyrənmək məqsədilə çarizm öz məmurlarına həmin yerləri yazılı surətdə təsvir etməyi tapşırmışdı. Rusiyanın qabaqcıl ziyalıları – tarixçilər, etnoqraflar, iqtisadçılar, diplomatlar, dövlət xadimləri tez-tez Naxçıvana gəlirdilər. Onların içərisində V.Qriqoryev, mənşəcə fransız olan İ.Şopen, diplomat A.S.Qriboyedov, qafqazşünaslardan S.P.Zelinski, N.Engelqart, K.A.Nikitin və b. var idi. İşğal olunmuş ərazilərdə özünün idarə sistemini daha etibarlı şəkildə qurmağa çalışan müstəmləkəçi Rusiya Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin öyrənilməsinə xüsusi önəm verirdi. Rus məmurlarının, ziyalılarının və araşdırıcılarının müstəmləkəçilik baxımından tərtib etdikləri sənədlər, arayışlar, toplular, məktublar, xülasələr, almanaxlar, təsvir və təqvimlər hazırda Naxçıvan tarixi üçün əhəmiyyətli mənbələrdir. Həmin mənbələrdə və digər müxtəlif nəşrlərdə Naxçıvanın XIX əsr tarixinə dair çoxlu məlumatlar vardır.

İlhaqdan sonra Naxçıvanda olmuş rus məmurlarından biri də bölgə ilə tanışlıq məqsədilə Naxçıvana gəlmiş, «Naxçıvan əyalətinin statistik təsviri» kitabının müəllifi V.Q.Qriqoryevdir. Rusiya Ticarət palatasının nümayəndəsi V.Qriqoryev bir neçə ay Naxçıvanda və onun bölgələrində olmuş, rus dilini bilən yerli sakinlərlə görüşmüş, burada işləyən rus məmurları ilə söhbətlər apararaq xeyli müxtəlif və maraqlı tarixi məlumatlar əldə etmişdir.

175 il öncə – 19 fevral 1833-cü ildə Rusiyanın Sankt-Peterburq şəhərində xarici ticarət Departamentinin nəşriyyatında nəşr edilmiş bu kitabı Naxçıvan bölgəsinin tarixi üçün qiymətli mənbə adlandırmaq olar. İlk əvvəl müəllif kitabın üç nüsxəsini hazırlamış və onları senzor N.Butırskiyə təqdim etmişdir. Kitab hərtərəfli və diqqətlə öyrənildikdən sonra senzura üzrə Komitə onun nəşrinə icazə vermişdir.

Kitab iki bölmədən, beş fəsildən ibarətdir. Birinci bölmə Naxçıvan dairəsindən, ikinci bölmə isə Ordubad dairəsindən bəhs edir. Birinci fəsil Naxçıvan dairəsinin sərhədləri, dağları, çayları, bulaqları, düzənlikləri, meşələri, torpaq quruluşu, heyvanat aləmi, yolları, iqlimi, əhalisi, dili, dini, adət-ənənəsi və maarifi haqqındadır.

İkinci fəsildə əhalinin sayı, onun sinfi tərkibi, bölgənin qədim sülalələri və tayfaları, azərbaycanlıların (müəllif azərbaycanlıları tatarlar adı ilə göstərir; tatar anlayışı bilavasitə bölgənin qədim və yerli sakinləri olan azərbaycanlılara şamil edilirdi – Y.R.) zəhmətkeş və qoçaq olması, maarifə, mədəniyyətə, elmə, ədəbiyyata böyük marağı təsvir olunmuşdur. «Naxçıvan əyalətinin statistik təsviri» kitabında Kəngərli tayfaları, onların yaşadıqları ərazilər, Kəngərlilərin ailə və nəsilləri haqqında geniş məlumat vardır. Tədqiqata cəlb olunan mənbədə yazılır ki, hərbi işi çox sevən Kəngərlilər ayrı-ayrı nəsillərə bölünməklə 920 ailədən ibarət idilər. Müəllif Yurçi, Gümüşlü, Xalxalı, Qaraxanbəyli, Ağabəyli, Cığataylı, Qaracalı, Bilici, Qaratulağı, Gicəllər, Sarbanlar, Şahbanı, Əlixanlı, Aravanlı, Sələqəyə, Kizıllı, Pircahanlı, Qızıl Qışlağı, Kəlafir və Qarabağlar (cəmi 20 tayfa) tayfalarının adlarını çəkir.

Mənbənin təhlilindən aydın olur ki, Dərələyəz mahalında yaşayan məşhur Kəngərli tayfaları 9 nəsildən ibarət olmuşdur. Onlar Hacı Samlı, Şad-manlı, Kəloqçi, Kyulaqanı, Həsənalılar, Boslu, Fərqanlı, Pisiyanı və Millilərdir.

Rus müəllifi V.Qriqoryev Naxçıvan əyalətində yaşayan əhalini vergi verənlər və vergidən azad olanlar olmaqla iki əsas sinfə bölmüşdür. Vergi verməkdən azad olanlar xanlar, bəylər, seyidlər və ruhanilər (yüksək rütbəli) idi. Vergi verənlər isə sənayeçilər, tacirlər, sənətkarlar, kəndlilər və torpaq sahibləri idi.

Azərbaycanlıların maarifi yüksək dərəcədə sevdiyini və qiymətləndirdiyini göstərən müəllif yazır ki, onlar rus dilini öyrənməyi arzu edirlər. Ehsan xanın verdiyi məlumatlara görə, yaxın kəndlərdən və Naxçıvan şəhərindən 200 nəfər gənc yeni açılacaq məktəbdə oxumaq arzusundadır. Həmin fəslin sonunda müəllif mənzillərin tikiliş forması daxil olmaqla əhalinin (həm şəhər, həm də kənd əhalisinin) həyat və məişətindən, varlı və yoxsul ailələrin ev əşyalarından və illik büdcələrindən bəhs etmişdir.

Üçüncü fəsildə Naxçıvan xanlığı İran hakimiyyəti dövründə və işğalçı Rusiyanın tərkibinə daxil olduqdan sonra onun idarə quruluşundan, daxili idarəetmədən, cinayət, dini və hərbi vəziyyəti, maliyyə məsələləri və ermənilərin bölgəyə köçürülməsindən bəhs edilir. Bu fəsildə göstərilir ki, tərkibinə Naxçıvan, Ordubad dairələrindən başqa, Mehri və Qafanın da daxil olduğu Naxçıvan xanlığı 1790-cı ilə qədər müstəqil olmuşdur

Bölgədə qüvvədə olan cinayət məcəlləsinin maddələri maraq doğuran məsələlərdən biridir. Cinayət işlərinə özü baxan xan bir sıra məsələlərdə

baş axundla məsləhətləşirdi. Qatilə müxtəlif növ cəzalar verilirdi. 55-ci səhifədə göstərilir ki, hər hansı bir şəxsi öldürmüş qatil qolları bağlı öldürülənin qohumlarının ixtiyarına verilirdi. Onlar qatili öldürə, yaxud ölmüş şəxsin qan pulunu ödəməyə məcbur edə bilərdilər. Qan pulunun həddinin müəyyən edilməsində sinfilik prinsipi özünü açıq şəkildə göstərirdi. Belə ki, varlı şəxsin qan pulu 800 manat, yoxsul şəxsin qan pulu isə 200 manat idi.

Cinayət məcəlləsində oğurluğa görə də cəza növləri var idi. Bir nəfər oğurluqda tutulduqda möhkəm döyülür və oğurlanmış şeyi və ya onun dəyərini qaytarmağa məcbur edilirdi. Üçüncü dəfə oğurluq edən müqəssirin boynu (balta və ya xəncərlə) vurulurdu, bəzən isə hündür qüllədən atılırdı.

Cinayət məcəlləsinə görə, vurub başqasının dişini sındırmaq üstündə günahkar şəxs 120 manat (gümüş pula) və ya 30 tümən cərimə ödəməli idi. 57-ci səhifədə müəllif yazır ki, burun, qulaq və əl kəsmək, yaxud göz çıxarmaq üstündə cinayətkar qan pulu verməli idi. Bəzi hallarda belə cinayət cinayətkarın öz üzərində tətbiq edilirdi.

Bölgədəki hərbi işdən, xanlığın qoşunlarından və komanda heyətindən bəhs edən müəllif göstərir ki, Naxçıvan xanlığının qoşunlarının tərkibi dairələrdən toplanan 800 nəfər piyadadan və yalnız Kəngərli tayfalarından ibarət olan 200 nəfər süvaridən ibarət idi. Qoşunlara başçılıq edən hərbi qulluqçu sərhəng adlanırdı ki, onu da xan öz yaxın adamlarından təyin edirdi. Sərhəngə kömək edən şəxs yavər adlanırdı.

Qoşunun tərkibində soltan, naib və onbaşıdan ibarət olan komanda heyəti aparıcı rol oynayırdı. Burada yüz nəfərə başçılıq edən 8 nəfər soltan, 50 nəfərə başçılıq edən 16 nəfər naib və bir neçə onbaşı (on nəfərin başçısı) var idi.

Dinc vaxtı öz evlərində yaşayan hərbi qulluqçular və əsgərlər bütün vergilərdən azad olunurdu. Onlar kənd təsərrüfatı işləri ilə məşğul olsalar da, müharibə vaxtı xanın sərəncamına gəlirdilər. Bundan əlavə, 30 nəfərlik bir dəstə xanın sarayında gözətçi vəzifəsini yerinə yetirirdi. Xan sarayında iki nazir vəzifəsi var idi. Bu nazirlərdən biri xanın göstəriş və sərəncamlarını yayırdı. O biri nazir isə xəzinə və anbar işlərinə başçılıq edirdi.

Kitabın 58-ci səhifəsində dini idarəçiliyə aid olan məsələlər təsvir olunur. Dini işlərlə əlaqədar Naxçıvanda üç axund olurdu. Birinci Axund və ya Şeyxülislam birbaşa Abbas Mirzə tərəfindən təyin edilirdi. Xana tabe olmayan axundlar dini idarəetmə sahəsində əsas yer tuturdular. Qazı və peşnamazları isə Müştəhid təyin edirdi.

Mənbədə vergi sistemindən və maliyyə işlərindən ətraflı bəhs olunur. Müəllif yazır ki, nümayisə adlı şəxs vergilərin toplanması, miqdarının müəyyənləşdirilməsi və maliyyə işlərinə baxırdı. İran şahı Abbas Mirzə 6 ildə bir dəfə öz məmurlarını Naxçıvan əyalətinə göndərirdi. Nümayisə həmin məmurlarla birlikdə siyahı tərtib edib hazırlayırdı. İki nüsxədən ibarət olan siyahıda aşağıdakı məsələlər öz əksini tapırdı: əhalinin sayı, əkinlərdən,

bağlardan, bostanlardan, mal-qaradan gələn qazanc, daş karxanalarından, dükanlardan, toxucu müəssisələri və hamamlardan, bazar və tərəzidən əldə edilən gəlir, tacirlərin və sənətkarların qazanc mənbəyi və s. Bu nüsxələrdən biri şah sarayına göndərilir, o biri isə vergiləri toplamaq üçün xanın dəftərxanasında saxlanılırdı. İldə üç dəfə xan yasavullar adlanan vergiyığanları vergiləri toplamaq üçün kəndlərə göndərirdi.

XIX əsrin əvvəllərində Naxçıvan əyalətinə koçürülən erməni ailələrinin sayının və bölgə əhalisinin tərkibinin öyrənilməsində də bu statistik təsvir mühüm yer tutur. 1828-ci ilin yayında Naxçıvan əyalətinə 2551 erməni ailəsi köçürüldü, köçürülən erməni ailələrindən 1869 ailə Naxçıvan dairəsində, 416 ailə Naxçıvan şəhərində, 266 ailə Ordubad dairəsində yerləşdirildi. Rus müəllifinin verdiyi məlumatlara əsasən, ailə sayına görə mahallar arasındakı yerləri ardıcıllıqla aşağıdakı kimi bölüşdürmək olar: I – Naxçıvan mahalı (3450 ailə), II – qərb və şərq hissələrindən ibarət olan Dərələyəz mahalı (1272 ailə: qərb hissəsində 362 ailə, şərq hissədə isə 910 ailə), III – Əlincə mahalı (718 ailə), IV – Naxçıvan şəhəri (502 ailə), V – Xok mahalı (235 ailə). Tədqiqata cəlb olunan mənbənin verdiyi məlumatlara əsasən deyə bilərik ki, Xoydan, Səlmasdan köçürülən köçkünlər bölgədə istədikləri şəraitlə təmin olunur, onlara hərtərəfli qayğı və diqqət göstərilirdi. Naxçıvanın türk yurdu olması bütün tarixi dövrlərdə özünü göstərmişdir. Ta qədim dövrlərdən türk diyarı olan Naxçıvan əhalisinin etnik tərkibinin türklərdən ibarət olması danılmaz bir faktdır.

IV və V fəsillərdə əkinçiliyin, bağçılığın, bostançılığın və digər təsərrüfat sahələrinin, toplanan vergi növlərinin təsnifatı verilmişdir. Taxılçılıqla, demək olar ki, dairənin bütün əhalisi məşğul olur. Çəltik əsasən Naxçıvan mahalının Şıxmahmud, Xəlilli, Kültəpə, Uzunoba, Didivar, Nəzərabad, Xalxal, Şahbuz, Qarababa, Cəhri, Nehrəm kəndlərində, Əlincə mahalının bir neçə kəndində və Dərələyəzin qərb hissəsində əkilir. Buğda və çəltiklə yanaşı, darı, noxud, küncüt əkilir. Əhalinin əsas məşğuliyyət sahələrindən biri də bostançılıq və tərəvəzçilikdir. Bu sahələrdə qarpız, qovun, yemiş, lobya və soğan geniş yayılmışdır. Bostanlar əsasən Naxçıvan şəhərində, Naxçıvan mahalının kəndlərində və Əlincə mahalının Ərəzin, Əbrəqunis, Bənəniyar, Culfa, Kırna, Saltaq, Xanağa və digər kəndlərində əkilir. Bölgədə üzüm, çoxlu meyvələr yetişdirilir. Şirinliyinə və tamına görə Naxçıvan üzümü xüsusilə seçilir. 89-cu səhifədə rus müəllifi 1828-ci ildə Naxçıvan mahalında 6000 pud pambıq, Naxçıvan civarında 10000 pud çəltik yığıldığını göstərir. Naxçıvan bölgəsi əhalisinin məşğuliyyət sahələrindən biri də maldarlıqdır. Arıçılıq (Əlincə mahalının kəndlərində) və qismən də balıqçılıqla məşğul olurlar.

Mənbədə sənayenin və daxili ticarətin vəziyyəti haqqında da maraqlı material vardır. Bölgədə irihəcmli fabrik-zavod olmadığını göstərən müəllif qeyd edir ki, ayrı-ayrı şəxslərin toxuculuq emalatxanaları var idi. Digər

sənaye sahələri kimi, duz sənayesinin də əhatə dairəsi o qədər geniş deyil. Burada istehsal çox primitiv texnikaya əsaslanır. Naxçıvan əyaləti Rusiya tərkibinə daxil olduqdan sonra sənayenin inkişafına diqqət artmışdır.

Toplanan vergi növlərindən başlıca vergilər tüstü pulu, şəxsi vergi, baş pulu və ev pulu vergiləri idi. Vergilər təkcə pulla deyil, həm də natura şəklində toplanırdı. Mal-heyvana görə mal pulu, qoyun pulu, arı pulu alınırdı. Mənbə sənətkarlardan da vergi alındığını təsdiqləyir. Belə ki, bez toxuyan sənətkarlardan ildə 19 manat 20 qəpik alınırdı. Karvansaralardan, dəyirmanlardan, qarovulxanalardan, ipəkəyirmə müəssisələrindən əlavə vergilər əldə edilirdi. Ordubad şəhərində kömürsatanlar da vergi verirdilər.

Kitaba əlavə olunmuş 44 cədvəl statistika məlumatlarından ibarətdir. Kitabda Naxçıvan dairəsinə (1, s. 121-191) və Ordubad dairəsinə (1, s. 219-233) aid olan statistik cədvəllər ayrı-ayrılıqda tərtib olunub. Adı gedən tarixi mənbədə Naxçıvan bölgəsində yaşayan əhalinin geyimi, qonaqpərvərliyi, yeməkləri, maarifin inkişafı, səhiyyə işləri barədə də bəhs olunur. Müəyyən təhrif və çatışmazlıqlar istisna edilməklə V.Qriqoryevin «Naxçıvan əyalətinin statistik təsviri» kitabı XIX əsrdə nəşr edilmiş digər mənbələrlə müqayisədə Naxçıvan tarixini öyrənmək üçün etibarlı mənbə olaraq qalır.

Akademik İ.Həbibbəyli haqlı olaraq bu tarixi mənbəni Naxçıvan bölgəsi üçün ilk qiymətli ensiklopediya adlandırır. V.Qriqoryevin şəxsiyyəti haqqında dəqiq məlumata malik olmasaq da, bu kitab onun yüksək elmi səviyyəyə və dərin biliyə malik olan bir müəllif olduğunu sübut edir (2, s. 56). Biz İsa müəllimin «kitabdakı bir neçə məlumat natamam halda verilmiş, demoqrafik məsələyə həsr edilmiş bölmədə statistik rəqəmlərin və məlumatların şişirdilməsi halları ilə qarşılaşırıq» fikri ilə tam razıyıq. Çünki XIX əsr Naxçıvan tarixinə aid olan mənbələrin əksəriyyətində – İ.Şopenin «Исторический памятникъ состояния Армянской области в эпоху ее присоединения к Российской империи», K.A.Nikitinin «Город Нахичевань и Нахичеванский уездъ», «Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом и финансовом отношениях» və b. nəşrlərdə bu cür hallarla rastlaşırıq. Belə bir vəziyyətin yaranmasına səbəb həmin müəlliflərin erməni mənşəli tərcüməçilərdən və məmurlardan aldığı məlumat və materiallardan istifadə etməsi olmuşdur. Bu cür hallar gərgin əməyin və böyük zəhmətin bəhrəsi olan kitabın əhəmiyyətini azaldır (2, s. 56).

«Naxçıvan əyalətinin statistik təsviri» kitabında o dövrün ölçü (tanap, kir, arşın, daş), çəki (noxud, stil, misqal, bisti, çərək, batman, hoqqa, tyaqa), uzunluq və pul vahidləri (tümən, sahab-kran, yarımşah, mahmudiyə, səksənlik, quruş, yüzlük), Azərbaycanın Təbriz və Lənkəran bölgələri (s. 257-263), İran və Rusiya ilə ticarət (s. 239) haqqında verilən məlumatlar da maraq doğurur.

Beləliklə, ermənipərəstliyi, müəyyən təhrif və çatışmazlıqları istisna edilməklə V.Qriqoryevin bu kitabı özündə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin tarixinə dair zəngin məlumatlar əks etdirməsi baxımından çox qiymətli və sanballı mənbədir.

## ƏDƏBİYYAT


1. Григорев В.Г. Статистическое описание Нахичеванской провинции. СПб., 1833, 263 с.
2. Акпероглы И. Взгляд со стороны / İrs, M., 2007, № 3 (27), s. 56-57.



**Яшар Рагимов**


## КНИГА В.ГРИГОРЬЕВА «СТАТИСТИЧЕСКОЕ ОПИСАНИЕ НАХИЧЕВАНСКОЙ ПРОВИНЦИИ» КАК ИСТОЧНИК СВЕДЕНИЙ ПО ИСТОРИИ НАХЧЫВАНА


Многие проблемы Нахчыванской истории нашли свое отражение в произведениях русских авторов. Одним из письменных источников сведений по истории Нахчывана XIX века является книга В.Григорьева «Статистическое описание Нахичеванской провинции». В статье раскрыты вопросы, связанные с нашей историей, а также исследованы отдельные части и разделы книги. Обращается внимание на существование в источнике ложных исторических фактов, не имеющих научных оснований. Несмотря на определённые ошибки и недостатки, книга В.Григорьева «Статистическое описание Нахичеванской провинции» считается очень весомым и достоверным источником материалов по Нахчыванской истории XIX века.



**Yashar Rahimov**


## V.GRIGORYEV'S BOOK «STATISTICAL DESCRIPTION OF NAKHCHIVAN PROVINCE » AS A DATA SOURCE ON NAKHCHIVAN'S HISTORY


Many problems of Nakhchivan's history are reflected in the works of Russian authors. One of written data sources on the Nakhchivan's history concerning to the 19th century is V.Grigoryev's book «Statistical description of Nakhchivan province». The questions connected with our history are explained in this article, and also separate parts and sections of the book are investigated. It is pointed out that this source contains some false historical facts without any scientific foundation. Despite of the certain mistakes and defects, V.Grigorev's

book «Statistical description of Nakhchivan province» can be considered as a powerful and authentic source of materials on Nakhchivan history of XIX century.

***Rəyçilər: Akademik İ.Hacıyev, tarix e.n. M.Məmmədov.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**ŞAMXAL MƏMMƏDOV**
Azərbaycan Turizm Universiteti

# ERMƏNİ SİYASİ ELİTASI VƏ TERROR

Müasir dövrdə dünya dövlətlərinin qarşısında dayanan qlobal problemlərdən biri beynəlxalq terrorizmdir. Bəşəriyyət üçün böyük sosial bəla olan terrorizm çox qədim tarixə və olduqca geniş coğrafiyaya malik olub dövrümüzdə bütün qitələri və demək olar ki, bütün ölkələri əhatə etmək-dədir. ABŞ-da 2001-ci ilin 11 sentyabr hadisələri göstərdi ki, hətta dünyanın bu dərəcədə qüdrətli və möhtəşəm dövləti də terror təhlükəsindən yan keçməmişdir. Həmin hadisələrlə bağlı olaraq Prezident Heydər Əliyevin verdiyi bəyanatında deyilirdi: «Müasir dövrdə terrorçuluq, bütün ölkələri hədəfə çevirə biləcəyi üçün qlobal problemdir. Terrorçuluq təhlükəsinin tamamilə aradan qaldırılması və gələcəkdə heç bir xalqın, heç bir dövlətin belə bir dəhşətli sınaqlara və sarsıntılara məruz qalmaması üçün beynəlxalq ictimaiyyət, bütün dünya xalqları və dövlətləri səylərini birləşdirməli, terrorçuluğa qarşı barışmaz mübarizə əzmini əməli işdə və sıx əməkdaşlıqda sübuta yetirməlidirlər» (1, s. 30).

Lakin təəssüflə qeyd etmək lazım gəlir ki, bir çox beynəlxalq problemlər kimi, terrora da öz dövləti maraqları prizmasından baxan və vahid mövqedən çıxış etməyən bir sıra böyük dövlətlər ona qarşı mübarizədə əməkdaşlıqdan da çox uzaqdırlar.

Öz siyasi havadarlarının fəal dəstəyi və ikili standartlar siyasəti yeridən iri dövlətlərin məkrli himayədarlığı sayəsində lazımi siyasi-hüquqi qiymətini almasa da, Ermənistan Respublikası bütün parametrləri ilə hazırkı dünyanın ən birinci terrorçu dövləti sayılmalıdır. Ermənistanı terrorun baş verdiyi digər ölkələrdən fərqləndirən əsas cəhət ondan ibarətdir ki, həmin ölkələrdə bu cinayətkar fəaliyyətlə ayrı-ayrı ekstremist qruplar, üsyançı təşkilatlar, qanunla təqib olunan silah qaçaqmalçıları və narkobiznes alverçiləri məşğul olurlar. Ermənistanda isə terror əməllərinin ideoloqları, sifarişçiləri, təşkilatçıları və icraçıları hakimiyyət piramidasında təmsil olunan siyasi elitadır.

Ermənistan bəlkə də dünyanın yeganə dövlətidir ki, burada qonşu xalqlara qarşı terror rəsmi dövlət səviyyəsində planlaşdırılır və həyata keçirilir. Əksər dövlət strukturları, elmi-tədqiqat institutları, incəsənət xadim-

ləri, pedaqoqlar, özfəaliyyət cəmiyyətlərindən başlamış təhsil müəssisələrinə qədər ən müxtəlif təşkilatlar bu və ya digər formada terror məsələləri ilə məşğuldurlar. Nəinki əhalinin müxtəlif sosial qrupları – gənclər, tələbələr, din xadimləri, yazıçılar, həkimlər və b., hətta dövlət rəsmiləri belə, terror kimi bir rüsvayçı əməllə məşğul olmaları ilə fəxr edirlər, beynəlxalq ictimaiyyat və media mənsubları qarşısında bunu gizlətmirlər də. Terrorun və silahlı münaqişələrin baş verdiyi digər ölkələrdə alimlər, yazıçılar, incəsənət xadimləri qan tökülməsinə qarşı çıxır, müxtəlif pasifist hərəkatlarda iştirak edir, insanpərvərliyə və humanizmə səsləyirlər. Ermənistan yeganə ölkədir ki, burada artıq neçə yüz illər boyu ziyalılar insanları terrora, qatilliyə, qisasçılığa, etnik düşmənçiliyə səsləməkdədirlər. Bu baxımdan erməni terrorunun ideoloqlarından olan yazıçı Silva Kaputikyanın 1988-ci ildə İrəvanda rus və erməni dillərində çapdan çıxan «Oçerklər kitabı»nda gənc nəslə edilən müraciəti diqqəti çəkir: «Hayk bilməlidir ki, Allahı sevən ermənilərin ailəsində dünyaya göz açmış erməni uşağı yaşamaq üçün yox, erməni millətinə kömək etmək üçün doğulmuşdur. Buna görə də yeni doğulan erməni uşağının qulağına bərkdən, lap bərkdən qışqırmaq lazımdır. Ey Aram… sənin düşmənin türkdür…» (3, s. 233).

Ermənistan bəlkə də yeganə dövlətdir ki, burada terror məsələsində iqtidarla müxalifət arasında fikir ayrılığı yoxdur. Nəinki Daşnaksutyun, ASALA kimi terrorçu partiyalar, hətta komministlər belə terrorçuluq əməlləri ilə fəxr edirlər. Məsələn, 1988-ci il noyabrın 12-də Ermənistan KP Spitak rayon komitəsinin I katibi, SSRİ xalq deputatı N.Muradyan, onun köməkçisi F.Abuçyan, rayonun baş həkimi R.Bağdasaryan, hakim E.Nazaryan və başqa dövlət rəsmiləri yerli azərbaycanlı ailələri mənzillərdən küçəyə qovub, onlara ağır işgəncələr vermiş bu yolla 36 nəfəri qətlə yetirmişdilər (3, s. 226).

Əslində erməni tarixinin bütün dönəmlərində siyasi elita kimi qəbul edilə bilən ruhanilər, tacirlər, alimlər, sənətkar korporasiyalarının rəhbərləri, bir sözlə, «erməni başbilənləri» erməni millətinin əlahiddəliyini təbliğ etməklə, qonşu müsəlman-türk xalqlarına qarşı kin və nifrət yaymaqla məşğul olmuş, fürsət düşdükdə qətl və terrordan da çəkinməmişlər. Erməni dövlətçiliyinin mövcud olduğu son doxsan illik bir dövrdə isə onun rəhbər xadimlərinin ən başlıca işi terror və deportasiya siyasətini həyata keçirmək olmuşdur.

Hələ keçən əsrin əvvəllərində Rusiya imperiyası dağıldıqdan sonra öz müstəqilliyini elan edən Ermənistan Respublikasının hökumətinə terrorçu Daşnak partiyasının lideri Kaçaznuni başçılıq edirdi. Bir qədər keçdi və Ermənistanda qurulan «Sovet hökuməti»nə yenə də daşnak terrorçusu, rəsmən bolşevik, xəlvətdə isə türk siyasi liderlərinə qarşı kütləvi terroru həyata keçirən «Qisas» təşkilatının rəhbəri, eyni zamanda «Vətənin qurtu-

luşu» adlanan daşnak komi-təsinin sədri Simon Vratsyan başçılıq edirdi (3, s. 135).

Sonrakı zamanlarda Ermənistanın siyasi elitasına rəhbərlik edən, növbə ilə Ermənistan KP MK-nin birinci katibləri olan Xancanyan, Arutyunyan, Koçinyan, Dəmirçiyan və digərlərin də eyni terror və deportasiya siyasətinin açıq və ya gizli təşkilatçıları, daşnak xislətli siyasətçilər olmuşlar. Böyük vətənpərvər alim, akademik B.Budaqov yazır ki, Ermənistanda 1988-ci ilin məlum hadisələri başlanmazdan xeyli əvvəl Ermənistan KP MK-nin qərarı ilə etnik azərbaycanlıların respublika ərazisindən qovul-ması planı təsdiq edilmişdi.

Əslində terrorçu təşkilatlar olan «Daşnaksutyun», «Ramqavar», «ASALA» və b. ya müxtəlif zamanlarda Ermənistanda qurulan hökumətlərdə rəsmən təmsil olunmuş, ya da dövlətin rəsmi qurumları tərəfindən açıq və ya gizli formada dəstəklənmiş, idarə olunmuş, istiqamətləndirilmişdir. Bəlkə də bunun əksini demək daha doğru olardı: Erməni dövləti bir qayda olaraq həmişə terrorçular tərəfindən idarə olunmuş və istiqamətləndirilmişdir.

Bu gün də eyni situasiya mövcuddur. Ermənistanda iqtidarda olan hakim elita Dağlıq Qarabağda separatizm və terror dalğası üzərində hakimiyyətə gələnlərdir. Ermənistanın eksprezidenti Robert Köçəryan da, indiki prezidenti Serc Sarkisyan da, müdafiə naziri Seyran Ohanyan da, qondarma Dağlıq Qarabağ respublikasının eks-prezidenti Arkadi Qukasyan da, onların rəhbərlik etdikləri hakimiyyət elitasının əksər üzvləri də «azərbaycan vətəndaşları» olan erməni terrorçularıdır. Onlar Xocalıda, Şuşada və digər işğal olunmuş azərbaycan ərazilərində dinc vətəndaşlara qarşı amansız terror əməllərinin birbaşa icraçıları olmuşlar. Köçəryan hakimiyyətə gəldikdən sonra əvvəllər məhkum olunmuş qatı terrorçular həbsxanadan buraxılaraq məsul dövlət vəzifələrinə təyin olunmuşdular. Məsələn 1996-cı ildə məhkum olunmuş, «Dro» terror qruplaşmasının rəhbəri, İran vətəndaşı, 1991-ci ildə saxta sənədlərlə Ermənistandan Qarabağa atılmış, məşhur ASALA-çı terrorçular Monte Melkonyan və Vazgen Sislyanla birlikdə regionun azərbaycanlı əhalisinə qarşı kütləvi soyqırımların təşkilatçısı və icraçısı olan Qrant Markaryan həbsxanadan azad olunmuşdu. Bu azmış kimi, R.Köçəryanın təşəbbüsü ilə digər iki terrorçu ilə birlikdə ona da «Ermənistanın milli Qəhrəmanı» adı verilmişdi. «Dro» terror təşkilatlarının liderlərindən olan Vahan Ohanesyan həbsxanadan buraxılaraq prezident Robert Köçəryanın məsləhətçisi təyin olunmuşdu. Levon Ter-Petrosyanın dövründə ağır dövləti cinayətlərdə ittiham olunaraq həbs edilən, «Vaan» adlanan terrorçu qrupun lideri Vaan Ovanesyan Köçəryan tərəfindən «siyasi vəziyyətin dəyişməsi ilə əlaqədar olaraq» həbsdən azad edilmiş və Parlamentin ikinci vitse-spikeri təyin edilmişdir (5, s. 154).

Ölkə xaricində, xüsusilə də Qarabağ ərazisində qanlı terror əməliyyatları keçirmiş «Aydat», «Vretaruner», «Urartu», «Sasunlu David» və başqa quldur dəstələrin fəalları hazırda mühüm dövlət vəzifələri daşıyır, öz qanlı əməllərini dövlət səviyyəsində davam etdirirlər. 1907-ci ilin mayında kütləvi informasiya vasitələrinin yaydıqları xəbərlərə görə, qondarma «Dağlıq Qarabağ Respublikası»nın «müdafiə naziri» general-leytenant Seyran Ohanyan Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargahı rəisi təyin olunmuş, S.Sarkisyanın prezidentliyə gəlməsi ilə müdafiə naziri kürsüsünə yiyələnmişdir. Əslən Şuşalı, sovet ordusunun bədnam 366-cı motoatıcı alayında batalyon komandiri olan Seyran Ohanesyan Qarabağ müharibəsi zamanı kütləvi qətllərdə və Xocalıda dinc əhaliyə qanlı divan tutulmasında fəal iştirak etmişdi. Barəsində İnterpol xətti ilə beynəlxalq axtarış elan edilməsinə baxmayaraq, bu qatı terrorçu dünya ictimaiyyətinin gözləri qarşısında çox məsul dövləti vəzifə tutur (8).

Bütün bunlar erməni siyasi elitasının terrorçuluqda fəal iştirakının yalnız görünən tərəfləridir. Görünməyən tərəf odur ki, hakimiyyət təmsilçiləri olan erməni terrorçuları müəyyən məqamlarda şəxsi və qrup mənafeləri üzündən amansız daxili mübarizə aparır, biri digərinin vəzifəsinə və gəlirlərinə sahib çıxmaq istəyirlər. Terrorçu ermənilərin tutduqları vəzifələr və əldə etdikləri gəlirlər isə kifayət qədər böyük olur. Məhz bu vəzifə və həmin vəzifənin gətirdiyi gəlirlər uğrunda səngimək bilməyən daxili çəkişmələrin nəticəsidir ki, Qarabağdan olan terrorçu qruplaşma digər bir terrorçu qrupun rəhbəri olan Ermənistan Respublikasının ilk prezidenti Levon Ter-Petrosyanı mənəvi terrora məruz qoyaraq, 1997-ci ildə zor tətbiq etməklə vəzifəsəndən istefaya göndərdi. 1999-cu ilin oktyabr ayının 27-də beş nəfər erməni terrorçusu Parlamentdə iclas keçirilən vaxt atəş açaraq ölkənin Baş Naziri Vazgen Sərkisyan və Milli Assambleyanın spikeri Karen Dəmirçiyan da daxil olmaqla səkkiz nəfər dövlət rəsmisini öldürdülər (4, s. 135). 1994-cü ilin dekabrında Ermənistanın keçmiş DTK sədri Marius Yüzbaşyan, İrəvanın keçmiş meri Ambarsum Qalstyan məhz həmin terrorun qurbanı olmuşlar. Yenə də həmin illərdə ölkənin baş prokuroru, daxili işlər nazirinin müavini və müdafiə nazirinin müavini dövlətin birbaşa göstərişi əsasında terror yolu ilə məhv edilmişlər. Terrorçu erməni siyasi elitası üçün öz qurbanlarının dövləti, milli, dini, irqi və cinsi mənsubiyyəti elə bir əhəmiyyət kəsb etmir. Ortada olan iqtisadi və siyasi maraqlardır. Məsələn, 2008-ci ilin fevralında keçirilmiş Prezident seçkilərindən sonra yol verilən saxtakarlıqlara etiraz edən siyasi müxalifətin dinc aksiyalarının iştirakçılarına qanlı divan tutan bu elita 28 ermənini öldürmüş, yüzlərini yaralamış və həbsə atmışdır. Eyni zamanda Ermənistan içtimaiyyətinin diqqətini ölkədəki qanlı hadisələrdən yayındırmaq məqsədilə cəbhə xəttində atəşkəs rejimi təhlükəli şəkildə pozulmuşdur. 2008-ci il martın 4-5-də erməni rəhbərliyinin avantürist siyasətinin davamı olaraq cəbhə xəttində

atəşkəsin pozulması nəticəsində Azərbaycan ordusunun cüzi itkiləri müqabilində erməni birləşmələrinin 27 nəfər ölü və 15 nəfər yaralı olaraq ağır tələfat verməsi də xalqın diqqətini daxili problemlərdən yayındırmağa hesablanmışdı (2).

Dövlət rəsmilərinin, din xadimlərinin, içtimai xadimlərin tez-tez və vəhşicəsinə döyülməsi, fiziki və mənəvi təzyiqlərə məruz qalması, qətlə yetirilməsi erməni siyasi həyatının və dövlət siyasətinin gündəlik iş qaydasıdır. Nəinki Ermənistan Respublikasında, eləcə də erməni diasporasının mövcud olduğu yaxın-uzaq ölkələrdə hər hansı erməni, terrorçu təşkilatların tələblərini yerinə yetirmədikdə, fiziki təzyiqlər və qətl təhlükəsi «Damokl qılıncı» kimi onun başı üzərindən asılmış olur. Məsələn, 1996-cı ilin sentyabrında Gürcüstanın ermənilər sıx yaşadığı Cavaxetiya bölgəsində «Cavakx» adlı erməni terror qruplaşması («Daşnaksutyun» terror təşkilatının yerli şöbəsi – Ş.M.) Axalkalaki şəhərinin meri Sergey Darbinyanı vəhşicəsinə döymüşlər. Bu hadisə separatçı və terrorçu fəaliyyətlə məşğul olan yerli ermənilər qane etmədiyinə görə Darbinyana edilən növbəti xəbərdarlıq idi (3, s. 198). Yenə də mətbuatın verdiyi xəbərlərə görə, Ermənistanın indiki prezidenti Serj Sərkisyanın əlaltılarından biri olan Samvel Şahverdyan 2007-ci ilin mayında İrəvanın mərkəzi küçələrindən birində qətlə yetrilmişdir. Qəzet bunu da yazır ki, Ermənistanın müxalifət partiyalarının rəhbərlərinin fikrincə «Samvelik» adlanan bu 41 yaşlı qatil və terrorçunu, habelə onun «Kürən Edo» ləqəbiylə tanınan həmkarı Eduard Famanyanı məhz Robert Köçəryanın mühafizə xidməti aradan götürmüşdür (8).

Bu faktların sayını istənilən qədər artırmaq da mümkündür. Lakin bir şey aydındır. Terror siyasətini öz fəaliyyətinin prioritet sahəsi hesab edən erməni siyasi elitası özü də bir çox hallarda elə həmin terrorun hədəfi olur. Ermənistanın siyasi elitası vulkan üzərində yaşayan insanlar kimi hər an məhv olmaq təhlükəsi ilə üz-üzədirlər.

Qədim çağların tanınmış Roma mütəfəkkiri Avreli Avqustin yazırdı: «Ədalət olmayan yerdə dövlət iri quldur dəstəsidir, quldur dəstəsi özü isə miniatür dövlətdir» (6, s. 72).

Bu gün öz ölkəsində elementar insan hüquqlarına belə məhəl qoymayan, qonşu xalqlara münasibətdə isə «cəngəllik qanunu» prinsipi ilə yaşayan, müxtəlif xarici güclərin əlində oyuncağa çevrilən terrorçu Ermənistan dövləti məhz Avrelinin dediyi quldur dəstəsidir. Peşəkar qatil və terrorçulardan ibarət quldur dəstəsi – Ermənistan siyasi elitası isə öz məhdud qrup mənafelərinə və xarici havadarlarının strateji maraqlarına xidmət edən «miniatür dövlətdir».

İşğalçı Ermənistan dövləti və onun terrorçu siyasi rəhbərliyi həmişə olduğu kimi, bu gün də müstəqil siyasi qərarlar qəbul etməyə qadir deyildir. Öz siyasi havadarları tərəfindən dəstəklənən, regionda strateji və iqtisadi maraqları olan güclər tərəfindən idarə olunan erməni terrorçuları məhz

həmin güclərin tapşırıqlarını yerinə yetirirlər. Rusiyanın yüksək vəzifəli rəsmilərindən olan Boris Qrızlovun mətbuat nümayəndələri qarşısında çəkinmədən Ermənistanı Cənubi Qafqazda Rusiyanın forpostu hesab etməsi heç də təsadüfi deyildir.

Qloballaşan dünyamızda mövcud siyasi reallıqları görmək qabiliyyətini itirmiş bu quldur dəstəsi özünün bütün əvvəlki zamanlardakı sələfləri kimi, «ermənilər» deyilən bir toplumun xoşbəxtliyini qonşu xalqların bədbəxtlikləri – terror və soyqırım siyasəti üzərində qurmağı düşünür. ABŞ-nin nüfuzlu «Uolt Strit Jurnal» qəzetinin 2007-ci ilin fevral saylarından birində Ermənistan parlamentinin eksspikeri, «Orinats Yerkir» partiyasının sədri Artur Baqdasaryan özünün «Ermənistan öz keçmişinin əsiridir» adlı məqaləsində etiraf edirdi ki, «Ermənistanın siyasi elitasının böyük hissəsi keçmişlə yaşayır» (7).

Qonşu dövlətlərin artan və çiçəklənən iqtisadiyyatı ilə müqayisədə mis-kin vəziyyətdə olan, Rusiyanın satraplığına çevrilən, vətəndaşları acyalavac həyat keçirən Ermənistan dövlətinin rəhbər elitası həmişə olduğu kimi, bu gün də terror və işğalçılıq siyasətilə kütlələrin diqqətini ölkənin qarşısında duran çoxsaylı sosial-iqtisadi problemlərdən yayındırır, terror dalğası üzərində öz hakimiyyətini sürdürür. Lakin bu hakimiyyətin uzun sürəcəyi böyük bir sual altındadır.

## ƏDƏBİYYAT


1. Əliyev H.Ə. ABŞ-də 11 sentyabr 2001-ci il terror hadisələri ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Bəyanatı // Dirçəliş-XXI əsr, 2001, № 43.
2. Əliyev İ.H. Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin «mövcud reallıq» əsasında həll variantı ilə heç zaman razılaşmayacaq və torpağını bir qarışını belə heç kimə verməyəcəkdir. 24 sentyabr 2003-cü ildə BMT-nin Baş Məclisinin 58-ci sessiyasında çıxış. «Azərbaycan» qəz., 2003, 26 sentyabr.
3. Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər). Bakı: Vətən, 2003, 367 s.
4. Həsənov A. Beynəlxalq terrorizm. I h., Bakı: Əbilov, Zeynalov və oğulları, 2003, 588 s.
5. Севдималиев Р. Международный терроризм – глобальная проблема современности. Баку, 2004, 254 с.
6. История политических и правовых учений. Москва: Норма, 1991, 736 с.
7. «Ekspress» qəz., 2007, 22 fevral.
8. «Ekspress» qəz., 2007, 3 may.

**Шамхал Мамедов**

## АРМЯНСКАЯ ПОЛИТИЧЕСКАЯ ЭЛИТА И ТЕРРОР

В статье освещаются вопросы, связанные с ролью армянской политической элиты в организации и осуществлении террористических действий. Установлено, что армянская политическая элита в течение всей истории своего существования активно проводила и проводит в настоящее время политику террора и межнациональной розни. Сегодняшняя правящая элита, которая пришла к власти на волне «Карабахской проблемы», продолжает свою антигуманистическую деятельность.

**Shamkhal Mammadov**

## ARMENIAN POLITICAL ELITE AND TERROR

The questions, connected with the role of the Armenian political elite in organization and realization of terrorist actions, are thrown light on in the article. It is established, that the Armenian political elite was actively carrying out the policy of terror and interethnic dissension during the whole period of its existence and is doing it now. Today's ruling elite, which has come to power on the wave of «Garabagh problem», continues this anti-humanist activity.

***Rəyçilər: Tarix e.n. M.Məmmədov, tarix e.n. E.Cəfərli.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**QADİR SEYİDOV**
Azərbaycan Dövlət İqtisad Universiteti

# QƏDİM SİVİLİZASİYALARIN İQTİSADİ-MƏDƏNİ HƏYATI HAQQINDA NƏ BİLİRİK?

Azərbaycan Sovet Ensiklopediyasına baxarkən Stounhenc meqalit tikilisinin Günəşə sitayişlə əlaqədar yaradıldığını görürük [1, s. 43]. Eyni zamanda Cizə ehramları e.ə. III minilliyə aid edilir. Bəzi tədqiqatçılar adı çəkilən qədim abidələri, sadəcə olaraq, «möcüzə» adlandırır, digərləri bu məsələdə «kənar sivilizasiyaların müdaxiləsi»nə tərəfdar çıxır, bəziləri isə buna «elmi izah» verməyə çalışırlar. Amma alimlər real faktlardan çox ehtimallara üstünlük verirlər. Elə bu səbəbdən də müasir tədqiqatçılar hesab edir ki, qədim tarix yenidən öyrənilməli və yazılmalıdır.

Məsələn, Qədim Misirin tarixi Manefonun «Padşahlar siyahısı» əsasında tərtib olunmuş xronologiyanın üzərində qurulub. Amma müasir arxeoloji araşdırmalar orada göstərilən padşahların həqiqətdə mövcud olub-olmadığı barədə çox az faktlar verir. Belə çıxır ki, bütövlükdə Misir xronologiyası azsaylı faktlara istinadən, başlıca olaraq isə fərziyyələr üzərində qurulmuşdur. Maraqlıdır ki, Manefonun «Padşahlar siyahısı»nda Menesə qədərki Misir hökmdarlarının uzun siyahısı var. Manefona əsasən, həmin dövrdə Misirdə 350 illik xaosdan əvvəlki 3650 il ərzində 30 padşah – yarımallah sülaləsi, daha əvvəl isə – təqribən 13870 il öncə daha 2 allahlar sülaləsi hökmranlıq etmişlər. İnsanlıq tarixinin bu dəyərli nümunəsi misirşünasların tarixi təsəvvürünə sığışmadığı üçün diqqət mərkəzindən uzaqlaşdırılmışdır. Çünki misir sivilizasiyasının başlanğıcının daha gec tarixə, Böyük Cizə ehramlarının isə e.ə. III minilliyə aid edilməsi yaddaşımıza həkk olunub. Arxeoloq Zahi Həvas deyir: «Bu dövrdə (9-12 min il əvvəl – red.) Misirdə ümumiyyətlə belə abidələr yarada biləcək kiminsə olması haqqında heç bir əsasımız yoxdur». Elə isə tədqiqatçıların yeni aşkar etdiyi faktları nəzərdən keçirək.

Misir ehramlarının rəsmi xronologiyası divarları 43,5 dərəcəlik bucaq altında tikilmiş Coser ehramından başlayır. Yüz il sonra tikinti texnikasının ani sıçrayışı özünü Cizə ehramlarında büruzə verir. Buradakı ehramların divarları 52 dərəcəlik bucaq altında ucaldığına görə yeganə «düzgün» Misir ehramları adlandırılır. Axı ancaq 52 dərəcəlik bucaq altında

ehramın hündürlüyünün oturacağının perimetrinə nisbəti çevrənin diametrinin onun uzunluğuna olan nisbətinə bərabərdir. Həmin ehramlardan biri olan Xufu (Xeops) indiyədək insanları heyrətə gətirməkdədir. Bu ehramın daxili keçidləri tamamilə düzxətlidir. Aşağı enən keçidin tikilişində yeganə xəta 0,5 sm təşkil edir. 50 m məsafədə belə cüzi əyrilik qeyri-adidir. Hətta əgər bura tunelin digər – qayada oyulmuş 67 metrlik hissəsini də əlavə etsək, onda əyrilik 0,6 sm-dən də az olar. Bu, ancaq müasir dövrün tikinti texnikası ilə müqayisə edilə bilər. Axı tikinti, sanki 4800 il əvvəl aparılıb?!

Ehramdakı padşahın və ya şahzadənin kamerasının sərdabə rolu oynaması fərziyyələri mövcud dəlillər qarşısında sıradan çıxır. Çünki, təəccüblü olsa da, Böyük Ehramda, və ümumiyyətlə, Misir ehramlarında nə mumiya, nə meyit, nə də dəfn və ya sərdabə ilə əlaqələndirilə biləcək bir şey tapılmamışdır. Sual oluna bilər: əgər ehramlar sərdabə rolu oynayırdısa, onda nə üçün firon Snofru özü üçün 3 ehram tikdirmişdi?

«Xronologiya»nın bir başqa maraqlı detalı Xufunun oğlu Recefin ehramı ilə bağlıdır. Naməlum səbəblərə görə o, öz ehramını Cizədə deyil, bir qədər şimalda tikdirib. Ondan sonrakı fironlar Hafra və Menkaur isə yenidən Cizəyə qayıdır. Qısa müddətdən sonra isə qəflətən Cizədə tikinti texnikasının inkişafı müəmmalı şəkildə bütünlüklə tənəzzülə uğrayır. Görəsən, Misir ehramlarının tikinti texnikasındakı bu dönüş nöqtəsi nə ilə bağlı idi? Cavab sadədir: 1980-ci ildə dəqiq sübut edildi ki, Böyük Ehramı firon Xufu tikməyib.

Misirşünas Con Antoni Vest bu barədə yazır: «...Misir haqqında bilgilərin bütün sahələri elə bil əvvəlcədən bitmiş xarakter daşıyır... heç yerdə inkişaf mərhələsinin əlamətləri nəzərə çarpmır, ilk sülalələrin nailiyyətlərinin çoxunu ötüb keçmək mümkün olmayıb». Sözügedən, ehramların Tufandan (Tufan haqqında aşağıda söhbət açacağıq) zərər çəkməməsi də onların eramızdan 11000 il əvvəlki faciədən sonra tikildiyini göstərir. Bunu Robert Buvel və Adriana Gilbertin tədqiqatları da sübut edir. Onlar müəyyən ediblər ki, üç Cizə ehramı e.ə. 10450-ci ildə Orion Zolağında yer alan 3 ulduzu dəqiq əks etdirir.

Digər bir abidə – Misirin fəxri hesab edilən, 80x22 m ölçüdəki Sfinks, rəsmi olaraq, e.ə. 2500-cü ilə aid edilir. Ancaq Sfinksin üzərində nə yazı, nə qarmaq, nə də onun yaranma tarixini müəyyən etməyə kömək edəcək başqa bir şey tapılmayıb. 1991-ci ildə Boston Universitetinin geoloqu doktor Robert Şox Sfinksin ən azı 5500 yaşında olması barədə əsaslı sübutlar gətirmişdir. O, Sfinksin yonulub-düzəldildiyi qayanın aşınma xarakterini və müddətini müəyyən etməklə bu qənaətə gəlib. Geologiya elminə əsasən, Sfinksin eroziyası ancaq davamlı şiddətli yağışlar nəticəsində mümkündür. Misirdə isə son 4500 il ərzində sabit quru iqlim olmuşdur. Beləliklə, R.Şoxun hesablamalarına görə, Sfinks 9-12 min il əvvələ – Misirdə daha yağmurlu hava şəraitinin olduğu dövrə aiddir.

Alimlər Cizə fironlarından hər hansının sifəti ilə Sfinksin üzünün bənzər olub-olmadığını öyrənməyə xüsusi diqqət yetirirlər. Bunun üçün hətta kompyuter texnologiyalarının tətbiqi də nəticəsiz qalıb. Bu incəsənət əsərinin bir marağı da ondadır ki, burada insan başlı heyvan təsvir olunub. Çox halda heyvan başlı insan təsvirlərinə rast gəlinir. Hətta Misirdə aşkar olunmuş Sfinks təsvirlərində qoyun başlı şir də əks olunub.

Şumerlərin çar şəhəri Urdan tapılmış ləleklərlə örtülü «Cəngəllik qoyunu» da Sfinksi daha erkən dövrlərə aid etməyə əsas verir. Alimlər hesab edir ki, bu təsvir Qoç erasının başlanması ilə bağlı meydana çıxan allahın simvolik interpretasiyasıdır. E.ə. 2000-ci ildə öküzlərin geniş miqyaslı qurban kəsilməsi Qoç erasının sona çatmasının simvolik əlamətləri idi. Şumer gil lövhələrindən birində Şir bürcündən başlayaraq digər bürclərin ulduz cəmləşməsi təsvir edilmişdir. Lövhədə həm də qeyd olunur ki, bu anlayışlar kifayət qədər qədim zamanlarda – (təqribən eramızdan 11000 il əvvəl) insanlar hələ təzə-təzə əkinçiliklə məşğul olmağa başlayanda meydana gəlmişdir. Bəlkə elə Sfinks də e.ə.10900-8700-ci illərin Şir bürcü erasını simvolizə edir?

Şumerlərin Misir mədəniyyətinə təsiri istisna olunmur. Çünki şumerlər təcrübəli səyyah və tədqiqatçı olmuşlar. Karl Yunq və Ceyn Sellersin qeyd etdikləri kimi, Yerin oxunun presessiyası nəticəsində bir bürcdən digərinə keçmə mərhələləri misirlilərə məlum idi. Misirdə xaosun başlanması və Qədim padşahlığın çökməsi Öküz mərhələsinin sonu və Qoç mərhələsinin başlanğıcı ilə üst-üstə düşür. Müasir astronomlar Qoç erasını təqribən e.ə. 4360-2200-cü illərə – Misir sivilizasiyasının başlanğıcına aid edirlər. A.Alford bu barədə yazır: «Öncələr Qədim şahlığın fironları Qoç bürcünü bildirən öküzə sitayiş edirdilər. İlk Aralıq dövründəki xaosdan sonra, təqribən e.ə. 2000-ci ildən etibarən Misirin yeni erası yarandı. Bu dövrdə fironlar qoyun başlı sfinkslər təsvir etməyə başladılar ki, bu da Qoça keçid demək idi» [2]. Həm də astronomiya elmi ilk dəfə Şumerdə yaranıb. Astronomik müşahidələr üçün şumerlər kvadrat fundamentli, küncləri dəqiqliklə yerin dörd istiqamətinə yönəlmiş Zikkuratlar tikirdilər. Baxmayaraq ki, onlar heliosentrik sistemdən istifadə edirdilər, müasir astronomiyada mövcud olan bir sıra anlayışları biz onlardan qəbul etmişik: məsələn, 360 dərəcəlik dairə, zenit, üfüq, göy qübbəsi oxu, qütblər, ekliptika, gecə-gündüzün bərabərliyi və s. — bunların hamısı «qəflətən» Şumerdə meydana gəlmişdir. E.ə. 3760-cı ildə Nippur şəhərində istifadə olunan ilk Günəş-Ay təqvimi 12 ay, 354 gündən ibarət idi. Tam Günəş təqvimi almaq üçün isə sonda 11 gün əlavə olunurdu. Yeni il hər dəfə yazın, gecə-gündüzün bərabərləşməsinə təsadüf edirdi ki, bu da təqvimin dəqiqliyini göstərirdi [3].

Şumerlər bizi təkcə təqvimləri ilə heyrətə gətirməyiblər. Onlar mis və qalayın dəqiq nisbətini müəyyənləşdirərək tunc istehsal ediblər. Şumerlərdə misi növünə və keyfiyyətinə görə ayırd etmək üçün otuza yaxın sözdən

istifadə olunurdu. Qalay isə «AN.NA» şəklində yazılırdı (hərfi mənada «Səma daşı» mənasını verir). Maraqlıdır ki, «Tiauanako» adı da şumerlərin «Tİ.AN.NA» – «qalay, həyat» sözündən yaranmışdır.

Şumerlərin altmışlıq riyazi sistemi, demək olar ki, sırf astronomik hesablamalar üçün yaradılmışdı. Tədqiqatçılar üçün təəccüblü olan isə yazılarda tez-tez rast gəlinən 12 960 000 rəqəmidir ki, bu da Yerin 500 presessiya siklinə bərabərdir. Görəsən, şumerlərə bu cür dəqiq astronomik hesablar nə üçün lazım idi? Adətən bu bilgilərin kənd təsərrüfatında istifadə edildiyini deyirlər. Amma hansı kəndliyə desən ki, məhsulu toplamaq vaxtını astronomla məsləhət et, söz yox ki, özünü təhqir olunmuş hesab edər [2].

«National Geographic» jurnalı bildirir ki, şumerlər yazıb-oxumağı bacarırdılar. Əslində, yeni zamanadək dünyada çox az adam bunu bacarırdı. Josef Kəmpbel bunu belə qeyd edir: «Heyrətləndirici aniliklə... Şumerdə... qəflətən dünya sivilizasiyasının əsasını yaratmış sindrom əmələ gəldi». Şumerlər deyirdilər ki, onlar Yer üzərinə Nibiru planetindən gəlmiş allahlardan yaranıblar. Bu, həmin – dünyanın yaranması haqqında olan «Enuma Eliş» dastanında, eləcə də digər yazılarda Böyük Tufana səbəb olduğu dəfələrlə vurğulanan planetdir. Dastanda yazılır: «Əgər o müdrik «Tufan!» deyə qışqırsa — deməli, bu gələn Nibiru allahıdır... Silahı su uraqanı olan allah hələ geri qayıdacaq; O, özünün istirahət məkanına enəcək». Assuriya çarı Aşşurbanipala məxsus yazıda deyilir: «Mən hətta qəliz şumer lövhələrini də oxuya bilirəm... mən qədim – hələ Tufanaqədərki dövrdə daşların üzərində yazılmış sirli sözləri də başa düşürəm».

Alimlər müəyyən edib ki, Günəşin və Ayın cazibə qüvvəsi 10 m yüksəkliyində yuvarlaq dalğa qabarıqlığı yaradaraq okeanik su kütləsini qaldıracaq qədər güclüdür. Bu proses başqa iri səma cisminin yaxınlıqdan keçməsi zamanı dəfələrlə arta bilər. Bibliyada Tufan haqqında məhz belə deyilir: «...dəniz dibi açıldı, və Yerin özülü çılpaqlaşdı». Alfred Ceremi tərəfindən tərcümə olunmuş bir Mesopotamiya mətnində yazılır: «Vaxtilə planetlər elə düzülmüşdü ki, Yerdən 3 dəfə böyük olan Nibiru planeti Yerlə Venera arasında bilavasitə yaxınlıqdan keçmişdi». Yəqin ki, Nibirunun Yerə yaxınlaşması anında sular cazibə qüvvəsi ilə çəkilmiş və ona tərəf yönəlmiş nəhəng su qovuğu əmələ gəlmişdi. Nibiru ötüb keçdikdən sonra, bütün bu su kütləsi, çoxlu ölü, sınmış ağac və s. özü ilə təzədən yerə yaymışdı.

Belə bir fərziyyə də var ki, Nibiru ilə yaxınlaşma Yerin öz oxu və eləcə də Günəş ətrafında fırlanmasına təsir göstərmişdir. Qədim epik «Erra» poemasında Tufan vaxtı Yerin orbitində hərəkətin dəyişildiyinə birbaşa işarə edilir. Belə ki, Mərduk allahı şikayət edir ki, «Göylə yerin qoşulma nizamı həmişəki yolundan çıxdı, və allahların, göy cisimlərinin yeri dəyişdi. Onlar heç vaxt əvvəlki yerlərinə qayıtmadılar». İsveç alimləri

1972-ci ildə belə qənaətə gəlmişlər ki, 12400 il əvvəl Yerin maqnit sahəsinin işarəsi dəyişilmişdir. Hələ də elmi izahı tapılmayan Yerin maqnit sahələrinin bu cür dəyişilməsi onun mövcud olduğu dövr ərzində çox az qeydə alınmışdır.

Bu hadisənin Veneraya da təsiri qeyd olunur. Venera Günəş sistemində yeganə planetdir ki, saat əqrəbi istiqamətində fırlanır. Astek əfsanəsində Venera «siqaret çəkən ulduz» adlandırılır. Güman edilir ki, Venera öz atmosferini Nibiru ilə «görüşməsi» nəticəsində itirsə də, sonrakı minilliklərdə onu bərpa etmişdir. Astek əfsanəsi bir yunan əfsanəsi ilə üst-üstə düşür, burada deyilir ki, hansısa «alovlanan ulduz» az qala dünyanı dağıtdı, Yeri yandırdı, sonra isə Veneraya çevrildi!

Bir çox xalqların mifologiyasında Tufan haqqında əfsanə və rəvayətdən danışılır. Onların sayı 500-dən artıqdır və hamısı da bir-birinə bənzəyir. Yer üzərində bəzi yerlərdə Tufandan qurtulmuş gəminin «əlamətlərinə» də rast gəlinir. Məsələn, Nuhun gəmisinin Naxçıvandakı Gəmiqaya dağına yaxınlaşmasını buradakı toponimlərdə də tapmaq olar: Qaranquş yaylağı, Nəbi yurdu – Nuh Nəbi, Naxçıvan – Nuhçıxan, Nəhəcir – Nuhəcir, Nehrəm – Nuhrəm və s. [4].

Fikrimizcə, Böyük Tufan baş verən zaman Yer üzərində Atlantidaya bənzər yüksək sivilizasiya (sivilizasiyalar) mövcud olub. Platon Atlantidanın mövcudolma tarixini təqribən e.ə. 11000-ci ilə aid edir. İstisna olunmur ki, bu sivilizasiyaların nümayəndələrinin «Allah» adlandırdıqları kosmik sivilizasiyalarla əlaqələri olub. Kosmik əlaqələr fərziyyəsi çox vaxt bəzi elm adamlarının «xoşuna gəlmir». Ancaq bunu tam təkzib etmək də olmaz. Misirdə – Feytaxada ingilis arxeoloqları qədim qəbirlər aşkar ediblər. Buradakı mumiyalar e.ə. 6000-ci ilə aid edilir. Hesab edilir ki, məhz o dövrdə «Firon» adı ilk dəfə real şəxs kimi çəkilir. Elə o dövrdən də heç bir etnik qrupa aid olmayan, haradan gəldiyi məlum olmayan xalqın və ölkənin – qədim Misirin mədəniyyəti başlayır. Oradakı yazılarda isə onların allahlardan yarandığı yazılır. Maraqlıdır ki, yuxarıda qeyd etdiyimiz kimi, şumerlər də allahlardan yarandıqlarını iddia edirdilər. Feytaxa mumiyalarının öyrənilməsi zamanı müəyyən olmuşdur ki, onların dərisinin hüceyrələri o dərəcədə insan hüceyrələrindən fərqlənirlər ki, bu ancaq yerli və hansısa başqa növlərin calaşması nəticəsində meydana gələ bilər [5].

Daha bir misal kimi Yer kürəsinin ayrı-ayrı yerlərində – Peruda (Naska platosunda), ABŞ-da (Oqayo ştatında), İngiltərədə, Qazaxstanda (Üsturt platosunda), Cənubi Uralda, Altayda, Afrikada (Viktoriya gölünün cənubunda), Efiopiyada və daha bir çox yerdə çəkilmiş nəhəng mistik şəkillər göstərilə bilər [6].

Qobustan qayaüstü rəsmləri arasında bəzi qayıqların burun hissəsində Günəş təsviri verilmişdir. V.L.Qlazıçev qədim misir fironlarının sərdabələrinin ritual qayıqları ilə bu rəsmlərin bənzərliyini xüsusi qeyd edir [7].

Məşhur norveçli tədqiqatçı Tur Heyerdal üç dəfə Qobustanda olmuş və belə qənaətə gəlmişdir ki, norveçlilərin əcdadları Skandinaviya yarımadasına Azərbaycandan gəlmədirlər. O, dəlil olaraq qayaüstü rəsmlərin və Odin allahının bənzərliyini göstərilmişdir. Bəlkə qədim Qobustan sakinlərinin də dövrün digər sivilizasiyaları ilə əlaqələri olub? Əgər ümumi qəbul edilmiş xronologiyaya əsaslansaq, onda belə düşünmək olar ki, qədim misirlilərin qobustanlılarla bağlılığı vardır.

İ.Donelli «Atlantida – Tufandanəvvəlki dünya» kitabında yazır ki, Atlantidadan gəlmələr Missisipi, Amazonka çaylarının və Aralıq dənizinin sahillərini, Avropa və Afrikanın qərb sahillərini, Baltik, Xəzər və Qara dənizlərin sahillərində məskunlaşmışdılar [8].

Bəzi Amerika xalqlarının rəvayətlərində onların hansısa kataklizm (allahların bəşəriyyəti cəzalandırması) zamanı qurtularaq vaxtilə şərqdən (adadan) gəlmələrinə və bu ölkənin (şəhərin, xalqın) əsasını qoymalarına rast gəlinir. Buna bənzər mətnə Niderlandın şimalında Frislandiya əyalətinin administrativ mərkəzi olan Leevarden kitabxanasından 1969-cu ildə tapılmış əlyazmada da rast gəlinir. Məlum əlyazma atlantların dövrünə aid olub, dəhşətli fəlakətdən və «Atlan ölkəsinin» suyun altında qalmasından sonra naməlum müəllif tərəfindən yazılmış, sonralar isə üzü köçürülmüşdür. Orada yazılır: «Bütün yay ərzində Günəş qara buludlar arxasında gizlənirdi... Yerdə sükut, yaş duman hökm sürürdü... Elə bu zaman elə bil dünyanın sonuna dəlalət edən zəlzələ başladı. Dağlar alov püskürdü... Dənizçilərin «Atlan» adlandırdıqları ölkə yox oldu, qəzəbli (amansız) dalğalar isə dağların üzərində elə ucalığa yüksəldi ki, alovdan qurtulanları dəniz uddu». Yazıda həm də flotiliyaya komandanlıq edən Naef-Tuna adına da rast gəlinir. «Naef-Tuna» adı dənizlər allahı Neptunu xatırladır. Romalıların ona sitayiş etmələri təsadüfi olmayıb. Kitabda deyilir ki, Naef-Tuna öz gəmilərini Orta (Aralıq) dənizə apardı. Onun flotiliyasından kapitan İnkanın gəmiləri ayrılır və okeanın qərbinə yollanır. Atlantoloqlar Amerikaya naməlum yerdən gəlmiş inka sivilizasiyasının yaradıcıları tərəfindən İnkanın ilahiləşdirildiyini deyirlər [9]. İnklər haqqında ətraflı söz açmasaq da, qeyd edək ki, orta əsr ispan tikililəri zəlzələlərə davam gətirməyərək bünövrəsinə qədər dağıldığı halda, onların sementdən istifadə etmədən tikdikləri daş binalar olduğu kimi qalırdı [10].

Son olaraq qeyd edək ki, biz yazıda qədim sivilizasiyaların heyrətləndirici faktlarından cəmi bir neçəsini nəzərdən keçirdik. Bunların arasında ümumi cəhətlər kifayət qədərdir. Yeni tədqiqatlara görə, bu inkişaf etmiş sivilizasiyalar tufandansonrakı dövrə aid olublar. Bəlkə də çoxları buradakı yeni tədqiqatlar və fərziyyələrlə razılaşmaqda tərəddüd edəcək. Amma tarixdə yeni, lakin düzgün nəzəriyyələr tez-tez təkzib edilib. Məsələn, Alfred Vegenerin kontinentlərin yerdəyişməsi haqqında ideyası 60 il qəbul olunmasa da, sonda tektonik lövhələr nəzəriyyəsi ilə təsdiq olun-

muşdur. Ümidvarıq ki, gələcək tədqiqatlar bəşəriyyət üçün vacib olan tarixi sirləri açmağa imkan verəcəkdir.

## ƏDƏBİYYAT


1. ASE. IX c. 1986, s. 43.
2. Alan Alford. Gods of New Millennium. 1996.
3. Samuel Noah Kramer. History Begins at Shumer. 3rd ed., 1988, 416 p.
4. Seyidov A. Naxçıvan Azərbaycan Türklərinin Mənəvi Dünyasının Beşiyidir // Ümid Çırağı, 2005, № 5-6.
5. http://all4you.kiev.ua/paranormal/view.php3?CODE=20010729011302.
6. http://ny.russianamerica.com/books/view.php?id=2059&PHPSESSID=e9b1e363 86a018f21c679ab85cd652a4.
7. Глазычев В.Л. Зарождение зодчества. Москва: Стройиздат, 1983.
8. Donelli İ. Atlantida – Tufandanəvvəlki dünya. 1882.
9. http://istina.rin.ru/ufo/text/3405.html
10. http://istina.rin.ru/ufo/text/136.html



**Гадир Сеидов**


## ЧТО МЫ ЗНАЕМ О КУЛЬТУРНО-ЭКОНОМИЧЕСКОЙ ЖИЗНИ ДРЕВНИХ ЦИВИЛИЗАЦИЙ?


В данной статье даются краткие сведения о новых теориях, находках и открытиях современных ученых, которые опровергают известные нам примитивные догадки о древних цивилизациях и помогут обществу основательно изменить представления о них.



**Gadir Seyidov**


## WHAT DO WE KNOW ABOUT CULTURAL-ECONOMIC LIFE OF ANCIENT CIVILIZATIONS?


In this article brief information is given about new theories, finds and discoveries of modern scientists, which refute well-known to us primitive surmises about the ancient civilizations and will help the society to change the notions of them.



***Rəyçilər: AMEA-nın müxbir üzvü, tarix e.d. H.Q.Qədirzadə, AMEA-nın müxbir üzvü, tarix e.d. V.Baxşəliyev.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

## ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

**VƏLİ BAXŞƏLİYEV**
AMEA Naxçıvan Bölməsi

# NAXÇIVANDA TUNC DÖVRÜNƏ AİD YENİ ABİDƏLƏR

Naxçıvan MR ərazisində mövcud olan qədim mədəniyyət abidələrinin tədqiqində Naxçıvan Muxtar Respublikası Ali Məslisi Sədrinin «Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında» 6 dekabr 2005-ci il tarixli sərəncamının böyük əhəmiyyəti olmuşdur. Araşdırmalar zamanı 2006-2007-ci illərdə yüzlərlə yeni tarix və mədəniyyət abidəsi aşkar olunmuşdur. Bu abidələr arasında Azərbaycan və dünya tarixinin öyrənilməsi üçün olduqca böyük əhəmiyyəti olan arxeoloji abidələr də vardır. Yeni aşkar olunan abidələr Tunc dövründə xalqımızın tarixini, iqtisadiyyatını və mədəni əlaqələrinin müxtəlif cəhətlərini öyrənmək üçün mühüm əhəmiyyətə malikdir.

Yeni aşkar olunmuş abidələrin bir qrupu Erkən Tunc dövrünə aiddir. Bu abidələr sırasına Hovuzlu yaşayış yeri və Qarapir qalası da daxildir. Hovuzlu yaşayış yeri Babək rayonunun Yuxarı Buzqov kəndinin qərbində hündür təpənin üzərində yerləşir. Yaşayış yerinin ərazisində bir neçə yerdə yaşayış binası üçün bünövrə qazıldığından Erkən Tunc dövrünə aid mədəni təbəqə dağılmış, keramika parçaları üzə çıxmışdır. Lakin araşdırmalar göstərdi ki, yaşayış yerində mədəni təbəqə çox yığılmamışdır. Tapıntılar başlıca olaraq yerüstü materiallardan ibarətdir. Onlar qara, boz və çəhrayı rəngdə bişirilmiş küpə tipli qabların ağız hissəsi və qulplarının parçaları ilə təmsil olunmuşdur. Yaşayış yerinin ərazisi 2 hektardır. Yaşayış yerinin ərazisindən Antik və Orta əsrlərə aid keramika nümunələri də aşkar olunmuşdur. Araşdırmalara əsasən demək olar ki, yaşayış yeri yarımköçəri maldarlıqla məşğul olan maldar tayfalara aiddir. Yaşayış yerindən aşkar olunan Erkən Tunc dövrü keramikası e.ə. IV-III minilliklər üçün xarakterikdir (şəkil 1). Gilinin tərkibinə görə onları iki qrupa ayırmaq olar. Birinci qrupdakılar çəhrayı rəngdə, ikincilər isə boz rəngdə bişirilərək cilalanmışdır. Boz rəngli qabların bəzisinin ağzının altından gövdəsinə birləşən yarımşarşəkilli qulpları vardır. Bu tip qulplar Erkən Tunc dövrünün erkən,

əsasən isə orta mərhələsi üçün xarakterikdir ( 1, s. 80-144; 2, s. 81-96; 7, s. 45-125).

**Şəkil 1.** Hovuzlu yaşayış yerinin keramikası

Erkən Tunc dövrünə aid ikinci abidə Qarapir qalasıdır. Qarapir qalası Ordubad rayonunun Ağdərə qəsəbəsindən şimal-şərqdə Qarapirə gedən yolun üzərində yerləşir. Yaşayış yeri oval formalı dağın üzərində salınmışdır. Yaşayış yerinin cənub tərəfinə iri daşlardan hörülmüş divar çəkilmişdir. Divarlar yanlarda iri daşlarla qurulmuş, onların arası kiçikhəcmli qaya parçaları ilə doldurulmuşdur. Müdafiə divarının uzunluğu 35 m-dir. Qalanın digər tərəfləri təbii cəhətdən müdafiə olunduğundan divar çəkilməmişdir. Qalanın içərisində daşdan inşa olunmuş dördkünc formalı binaların qalıqları saxlanmışdır. Binalar kiçikhəcmlidir. Onların ölçüləri 3x4 m, 2,5x3 m arasındadır. Binaların həcmi evlərdə cüt nigaha əsaslanan ailələrin yaşadığını göstərir. Yaşayış binaları qalanın içərisində qrup halında yerləşdirilmişdir.

Axtarışlar zamanı qalanın içərisindən müxtəlif dövrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Keramika məmulatının bir qismi Erkən Tunc dövrünə aiddir. Keramika nümunələri çəhrayı və boz rəngdə bişirilərək xaricdən yaxşı cilalanmışdır. Yaşayış yerindən aşkar olunan Erkən Tunc dövrü keramikası e.ə. IV-III minilliklər üçün xarakterikdir.

**Şəkil 2.** Orta Tunc dövrünə aid keramika: 1-6 – II Bəzəkli qalası; 7-10 – Göynük qalası; 11-14 – Batankənd

Araşdırmalar zamanı aşkar edilən abidələrin bir qrupu Orta Tunc dövrünə aiddir. Onlardan biri də II Bəzəkli qalasıdır. II Bəzəkli qalası Kəngərli rayonunun Qarabağlar kəndi yaxınlığında, kənd yeri yaşayış yerindən şimal-qərbdə yerləşir. Qala təbii cəhətdən müdafiə olunan, strateji cəhətdən əlverişli mövqeyə malik dağın üzərində yerləşir. Qalanın yerləşdiyi ərazi qərb və şimal tərəfdən təbii qayalıqla əhatə olunmuşdur. Zəif müdafiə olunan şərq və cənub tərəfdə iri daşlardan hörülmüş qalın divar inşa edilmişdir. Daş divarın yalnız qalıqları saxlanmışdır. Divarın saxlanmış qalıqları 45 m-dir. Araşdırmalar göstərmişdir ki, qalanın içərisindəki evlər əsas müdafiə divarına birləşik halda yerləşdirilmiş və dördkünc formalı olmuşdur. Evlərin yalnız bünövrəsinin qalıqları qalmışdır. Qalanın şimal qurtaracağında qayalığın üzərində yerləşən sahə narınqala rolunu oynamışdır. Burada dördkünc formalı evlərin qalıqlarına rastlanmışdır. Evlər kiçik həcmlidir. II Bəzəkli qalasının strateji cəhətdən əlverişli mövqedə yerləşməsi ondan həm müdafiə, həm də müşahidə məntəqəsi kimi istifadə etməyə imkan vermişdir.

Tədqiqat zamanı yaşayış yerindən Tunc dövrünə aid çəhrayı və boz rəngli keramika nümunələri aşkar olunmuşdur. Keramika məmulatının bir qismi çəhrayı rəng üzərindən qara rənglə çəkilmiş xətlərlə naxışlanmışdır. Bu tip keramika Naxçıvanın Orta Tunc dövrü üçün xarakterikdir (3, s. 120-

144; 4, s. 71-74; 5, s. 32-44; 6). Keramika məmulatına əsasən yaşayış yerini e.ə. III-II minilliklərə aid etmək olar.

Tunc dövrünə aid yaşayış yerlərinin biri Göynük qalasıdır. Qala Culfa rayonunun Göynük kəndinin şimal-şərqində, hündür oval təpənin üzərində yerləşir. Abidə 2006-cı ildə aparılan araşdırmalar zamanı S.H.Aşurov tərəfindən qeydə alınmışdır. AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyasının apardığı araşdırmalar zamanı xeyli yerüstü material toplanmışdır. Başlıca olaraq gil qabların parçalarından ibarət olan yerüstü materiallar arasında Orta Tunc dövrü üçün xarakterik olan boyalı və basma naxışlı keramika nümunələri də vardır (şəkil 2).

Qalanın yerləşdiyi təpənin zirvəsi dördkünc formalı divarla əhatə olunmuşdur. Divarlar yanlarda iri qaya parçalarından hörülmüş, onların arası kiçik həcmli daşlarla doldurulmuşdur. Qalanın içərisində dördkünc formalı binanın qalıqları saxlanmışdır. Binanın ölçüləri 3x4 m-dir. Boyalı keramika məmulatı Orta Tunc dövrünün erkən mərhələsi üçün xarakterikdir. Göynük qalasının əlverişli mövqeyi ondan sonrakı dövrlərdə də istifadə etməyə imkan vermişdir. Qalanı e.ə. III-II minilliklərə aid etmək olar.

Orta Tunc dövrünə aid Batankənd yaşayış yeri Xıncab kəndinin cənubunda düzənlik sahədə yerləşir. Yaşayış yerinin ərazisi ətraf yerlərə nisbətən bir qədər çökəkdədir. Yaşayış yerində dördkünc formalı evlərin qalıqlarına rastlanılır. Bəzi evlərin bünövrəsi daşdan, divarları isə çiy kərpicdən tikilmişdir. Uzunsov möhrə bloklarından tikilən divar qalıqlarına da rastlanmışdır. Lakin tikintilər təbii eroziya nəticəsində dağıntıya məruz qalmışdır. Yaşayış yerinin ərazisində inşaat işlərinin aparılması onun daha da dağılmasına səbəb olmuşdur.

Aşkar olunan tapıntıların əksəriyyəti Antik və Orta əsrlər dövrünə aiddir. Keramika nümunələri başlıca olaraq çəhrayı rəngdə yaxşı bişirilmiş, xaricdən cilalanmışdır. Keramika nümunələri içərisində Orta Tunc dövrünə aid bir neçə boyalı qab parçalarına da rastlanmışdır. Onlar qırmızı rəng üzərindən qara rənglə naxışlanmışdır (şəkil 2). Orta Tunc dövrünə aid Batankənd yaşayış yerini e.ə. II minilliyə aid etmək olar. Bu yaşayış yerinin su qaynaqlarından uzaqda yerləşməsi olduqca maraq doğurur. Ehtimal ki, qədim dövrdə yeraltı suların düzənliklərə çıxarılması üçün xüsusi hidrotexniki qurğulardan istifadə olunmuşdur.

Yeni aşkar olunmuş arxeoloji abidələrin araşdırılması göstərir ki, e.ə. Erkən və Orta Tunc dövründə, daha doğrusu e.ə. IV-II minilliklərdə Naxçıvanın dağlıq əraziləri yerli əhali tərəfindən məskunlaşdırılmışdır. Şübhəsiz ki, bu köçmə yaylaq maldarlığının inkişafı ilə bağlı olmuşdur. Erkən Tunc dövrünə aid mövsümi yaşayış yerlərinə əvvəlki illərdə aparılan araşdırmalar zamanı da rastlanmışdır. Yeni abidələrin tədqiqi zamanı diqqəti cəlb edən cəhətlərdən biri Orta Tunc dövrünə aid yaşayış yerlərinin müdafiə

divarları ilə əhatə olunması və strateji cəhətdən əlverişli mövqelərdə yerləşməsidir. Bu abidələr vasitəsi ilə böyük bir ərazini müşahidə altında saxlamaq mümkündür. Belə hesab edirik ki, həmin yaşayış yerləri həm əhalinin, həm də əmlakın mühafizəsi və ətraf əraziləri nəzarətdə saxlamaq məqsədi ilə inşa edilmişdir. Bu artıq tayfalararası ziddiyyətlərin artdığını, müdafiə ehtiyacının olduqca mühüm əhəmiyyət kəsb etdiyini, mülkiyyətin qorunması ilə bağlı təşkilati işlərin həyata keçirildiyini təsdiq edir.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.
2. Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası. Bakı: Elm, 2002, 158 s.
3. Baxşəliyev V.B. Azərbaycan arxeologiyası. Bakı: Elm, 2007, 240 s.
4. Бахшалиев В.Б. К вопросу хронологии и генезиса расписной керамики Юго-Восточного Закавказья // Доклады АН Азербайджанской ССР, 1990, № 10-11, с. 71-75.
5. Belli O., Bakshaliyev V. Middle and Late Bronze Age Painted Pottery culture of the Nakhchivan Region. İstanbul, 2001, 120 s.
6. Əliyev V. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 140 s.
7. Seyidov A.Q. Naxçıvan VII-II minillikdə. Bakı: Elm, 2003, 334 s.



**Вали Бахшалиев**


## НОВЫЕ ПАМЯТНИКИ ЭПОХИ БРОНЗЫ В НАХЧЫВАНЕ


Нововыявленные археологические памятники показывают, что в эпоху ранней и средней бронзы горные местности Нахчывана были заселены. Исследование показывает, что это было связано с развитием кочевого скотоводства. Выяснено, что нововыявленные памятники эпохи средней бронзы расположены в стратегически благоприятных условиях и обведены оборонительными стенами. Эти памятники позволяли контролировать окрестности, что было важно для защиты населения и имущества. Видимо, это явление связано с усилением межплеменных противоречий.

**Vali Bakhshaliyev**

## NEW MONUMENTS OF THE BRONZE AGE IN NAKHCHIVAN

The new discovered archaeological monuments show that in the Early and Middle Bronze Age mountainous regions of Nakhchivan were settled. The investigations show, that it was connected with the development of nomadic cattle-breeding. It is revealed, that the new discovered archaeological monuments of Middle Bronze Age were situated in the strategic favorable conditions and were surrounded with defensive walls. These monuments allowed to control vicinities, which was important for the protection of inhabitants and their property. Apparently this occurrence was connected with strengthening conflicts between tribes.

***Rəyçilər: Akademik İ.Hacıyev, AMEA-nın müxbir üzvü, tarix e.d. H.Q.Qədirzadə.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**ABBAS SEYİDOV**
Azərbaycan Dövlət İqtisad Universiteti

# MƏNƏVİ MƏDƏNİYYƏTİMİZİN ULU QAYNAQLARI

Hər bir insanın mənəvi dünyasının kamilləşməsində, istedadının təşəkkülündə və inkişafında, həmçinin istirahətində musiqi mühüm yer tutur. Elə buna görə də musiqi estetik tərbiyənin mühüm vasitələrindən biri kimi qiymətləndirilir. Araşdırmalardan görünür ki, musiqinin yaranması dünənin, irəli günün hadisəsi deyil, eramızdan çox-çox əvvəllərə təsadüf edir. Azərbaycan xalq musiqi sənətinə, muğamlarımıza, bəstəkarlarımızın əsərlərinə qayğı bu gün də qarşımızda duran ən mühüm məsələlərdəndir. Bu gün ölkəmizin hər guşəsində musiqi təhsili üçün geniş imkanlar yaradılır, klassik musiqi əsərləri, folklor nümunələri, xalq yaradıcılığının bəhrəsi olan nadir incilər böyük səylə öyrənilir və tədqiq olunur. Musiqi təlimi və təhsili ilə əlaqədar müxtəlif janrları qavramaq, nadir əsərləri təbliğ və təhlil etmək, musiqi alətlərinin təkmilləşdirilməsinə nail olmaq lazımdır. Bütün bunları etməklə yanaşı musiqinin və musiqi alətlərinin yaranış tarixinin öyrənilməsinin də mühüm əhəmiyyəti vardır.

Arxeoloji qazıntı işlərinin və tədqiqatların nəticələri göstərir ki, musiqinin yaranma tarixi çox qədimdir. Qədim abidələrdən müxtəlif musiqi alətlərini xatırladan əşyaların tapılması, sənətkarlıq nümunələri üzərində musiqiçi təsvirlərinin olması, Qobustan qayalarında yallı və digər kütləvi rəqslərin mövcudluğu ibtidai insanların müxtəlif musiqi duyumundan və ifa tərzindən xəbər verir.

Arxeoloqlar belə hesab edir ki, Ukrayna ərazisində qədim daş dövrünə – 250 min yaşı olan «Mezin» mədəniyyətinə aid mağaradan tapılmış, mamont sümüklərindən hazırlanmış əşyalardan məhz zərb aləti kimi istifadə etmişlər.

Azərbaycan ərazisində də zərb alətləri aşkar olunmuşdur. Qobustanda olan «Qavaldaş»ın yaşı bir milyon ildən artıqdır. Bu daş alət ibtidai insanların kütləvi əyləncələrindən xəbər verir. Yastı əhəngdaşı parçasından olan «Qavaldaş» ahəngdar və dolğun səs baxımından ciddi maraq doğurur. Təbii ki, vaxtilə bu yerlərdə yaşamış insanlar Baharın gəlişi və torpağın oyanışı, yağışın yağması, Günəşin çıxması və s. ilə əlaqədar dövrə vurub, rəqs etmiş və kütləvi şənliklər keçirmişlər. Söz yox ki, o dövrdə insanlar

ağacdan, qamışdan müəyyən nəfəsli alətlər hazırlamışlar. Lakin onlar min illərlə torpaq altında itib-batmış, çürümüş, dövrümüzə gəlib çatmamışdır. Tədqiqatlar göstərir ki, insanlar rəsm çəkməyi, musiqi alətində çalmağı, üst paleolit (40-12 min il əvvəl) dövründə öyrənmiş və inkişaf etdirmişlər.

Azərbaycan ərazisində Quruçay və Köndələnçay vadisində, Naxçıvan yaxınlığında II Kültəpədə, Bakının «İçəri şəhər» adlanan ərazisində zərb və fit tipli musiqi alətləri tapılmışdır. Bunların ən qədiminin 4-5 min yaşı vardır. Maraqlıdır ki, zərb alətlərindən başqa ən qədim musiqi aləti hansı olmuşdur? Söhbət elə musiqi alətindən gedir ki, onun üzərində barmaqları götürüb qoyduqca müəyyən səs ahəngi almaq mümkün olsun.

Arxeoloji, linqvistik, etnoqrafik mənbələr sübut edir ki, Azərbaycan ərazisi ibtidai musiqinin yarandığı ilkin ocaqlardandır. Ən qədim musiqi aləti saz-qopuz və ona bənzər alətlər olmuşdur (təbii ki, o dövrdə sim əvəzinə heyvan bağırsağından istifadə edilmişdir). Faktlara nəzər salaq.

ABŞ-ın Çikaqo və Kaliforniya Universitetlərinin arxeoloqları Hilen Kantur və Pinas Delokaz 1961-1966-cı illərdə Azərbaycanın cənub bölgəsində Şuş dağının ətəyindəki e.ə.VI minilliyə aid qədim Çığamış şəhərinin yerində apardıqları arxeoloji qazıntılar zamanı musiqi mədəniyyətimizlə bağlı nadir tapıntılar əldə etmişlər. Bu haqda YUNESKO-nun «Peyam» jurnalında məqalə dərc etdirən arxeoloqlar yazırlar: «Biz Çığamışda mədəniyyətin miladdan altı min il əvvəllərdə olduğunu müəyyənləşdirdik... Heyratamiz rəsmlərlə bəzədilmiş, pardaqlanmış saxsı qablar, heykəllər, yazılar, möhürlər, süjetli nəqşlər və s. buranın ən qədim mədəniyyətindən söz açan inkaredilməz faktlardır... Qədim mədəniyyət nümunələrindən biri də bəşərin yaratdığı formalaşmış musiqidən xəbər verən təsvirlərdir (şəkil 1). Burada bir çalğıçılar dəstəsi görünür, bu, indiki mənada orkestr deməkdir...» [1, s. 5-6].

Maraqlıdır ki, cəng, zurna, qopuz, dəf, təbil, nağara və başqa musiqi alətləri içərisində ozan-aşıq daha böyük və əzəmətli verilmişdir. Yerli sənətkarların yüksək bədii duyumunun nəticəsində 7-8 min il öncə belə təsvirlər çəkilmişdisə, onda musiqinin və musiqi alətlərinin meydana çıxmasını daha qədimlərə aid etmək olar.

Qədim Şumerlərin Nippur şəhərində Belu məbədindən tapılmış gil lövhə üzərində aşıq-ozan-qopuz sənəti ilə bağlı maraqlı süjet çəkilmişdir. Eramızdan əvvəl III minilliyə aid olan bu lövhədə əlində saz-qopuz çalan, başı çalmalı insan təsviri verilmişdir. Onun yanında ayaq üstə dayanmış köpək də vardır (şəkil 2).

Yenə də eramızdan əvvəlki II minilliyin əvvəllərinə aid, hündürlüyü 7,5 sm olan gil lövhə üzərində əlində saz-ud çalan kişi təsviri verilmişdir (şəkil 3). Babilistandan tapılmış bu gil lövhə hal-hazırda Britaniya muzeylərindən birində nümayiş etdirilir [2, s. 54-57].

Azərbaycan ərazisində qədim musiqi alətlərinin olması və musiqi ayinlərinin keçirilməsinə digər mənbələrdə də rast gəlirik. Həmədan şəhərində Anun məbədi şərəfinə mixi yazılarla eramızdan çox-çox əvvəl Bikə adlı bir şairin qoşduğu poemada yazılır: «Çıkaru resti tanak (kuş), ana

Mahur rəqsi aradı, haş hüri aradı, ti-ti aradı, müzik kannı...» [2,s. 4,39]. Digər bir Şumer gil lövhəsi üzərində müəllifi Enlil İsmə Dağan olan yazılardan birində «Çal müziim, rah (şərab) caam, al qəm, sanma hurrayam (sərxoşam)» sözləri yazılmışdır [3].

Qədim hindlilərə məxsus bir dastanda şahzadənin dünyaya gəlməsi münasibətilə keçirilən məclisdə saz alətinin adına rast gəlirik: «Zənginlik bağının qapıları açıq idi, sazlar çalındı, saranqanın, tamburun, tablanın səsləri eşidildi... səslər bir-birinə qarışıb gözəl musiqiyə çevrildi» [4, s.312].

Məlum olduğu kimi, Azərbaycanın güneyində, Urmiya gölünün cənubunda e.ə. IX əsrdə ən qədim dövlət olan Manna çarlığı yaranmışdır. Arxeoloji qazıntılar zamanı Ziviyə, Həsənli kimi abidələrdən tapılmış qızıl, gümüş sənət nümunələri bu gün də dünyanın bir çox muzeylərində nümayiş olunmaqdadır. Onlardan biri də eramızdan əvvəlki VIII əsrə aid olan gümüş piyalə üzərində saz çalan insan təsviridir (şəkil 4).

Digər mənbələrdə də musiqi sənəti və musiqi alətləri haqqında yazılara rast gəlirik. Xalqımızın ulu eposu «Kitabi-Dədə Qorqud» dastanında ozan-qopuz sənətindən söz açılır. Hələ XIII əsrdə Azərbaycanda müxtəlif musiqi alətləri sırasında kanon ud, saz, və ayrı-ayrı zərb alətlərindən istifadə edilməsini göstərən faktlar vardır.

Göründüyü kimi, saz sənəti Azərbaycan xalqının milli musiqi sənətində mühüm yer tutmuşdur. Sual ola bilər ki, o zaman sazı ifa edən şəxslər hansı xalqın nümayəndəsi olmuşlar? Cavab birmənalıdır. Bu gün sazı hansı xalqlar ifa edirsə, o zaman da onu ifa edən şəxs həmin xalqın nümayəndəsi olmuşdur. Bu gün Sakit okeandan Atlantik okeanınadək olan ərazilərdə sazı sevən, ona müxtəlif çalarlar verən ancaq türklərdir.

Qonşu xalqlar da sazın səsindən sehrlənmiş, bəhrələnmiş, bəzən onu özününkü hesab etmişlər. Torpaqlarımızın bir qismini müvəqqəti olaraq öz ağalarının köməyi ilə işğal edən mənfur qonşularımız da sazı xoşlayır, gördüklərindən «göz payı» istəyərək, adlarımızdan soyadları düzəltdikləri

kimi, milli kulinariyamızı, maddi-mədəniyyət abidələrimizi, musiqimizi «özününküləşdirdikləri» kimi, sazı da özlərininki hesab etməyə cəhd edirlər. Lakin sazın meydana çıxması bu ərazilərə ermənilərin gəlişi tarixindən çox-çox qədim olduğundan, cəsarətlə demək olar ki, onların bu alətlə heç bir əlaqəsi yoxdur. Saz Azərbaycan türkünün ən qədim musiqi alətidir.

## ƏDƏBİYYAT


1. Namazov Q. Aşıqlar, 1 kitab, Bakı, 2004.
2. Azərtürk T. Muğam Şumer deyilən azəri türkünün milli-mənəvi sərvətidir. Sietl, ABŞ, 2001. Yenə onun, Mixi yazıların mənşəyi, kimindir onlar? Sietl, ABŞ, 2002.
3. Yenə orada.
4. Индиские волшебние повести. М., 1981.



**Аббас Сеидов**


## ДРЕВНИЕ ИСТОЧНИКИ НАШЕЙ ДУХОВНОЙ КУЛЬТУРЫ


Археологические, лингивистические и этнографические исследования показывают, что территория Азербайджана являлась одним из центров возникновения духовной культуры. Для изучения духовной культуры особое место имеют музыкальные инструменты, выявленные в Азербайджане. Факты показывают, что история музыки в Азербайджане относится к древним временам.



**Abbas Seyidov**


## ANCIENT SOURCES OF OUR SPIRITUAL CULTURE


During the excavations in the territory of Azerbaijan many objects of musical culture have been found. Even in ancient Sumerian there are texts written about saz, ud and mugham. Their appearance is dated to 7-8 thousand years before. It indicates that the territory of Azerbaijan was one of the places where the ancient music was created.



***Rəyçilər: AMEA-nın müxbir üzvü, tarix e.d. H.Q.Qədirzadə, AMEA-nın müxbir üzvü, tarix e.d. V.Baxşəliyev.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**TOĞRUL XƏLİLOV**
AMEA Naxçıvan Bölməsi

# İLİKLİQAYA YAŞAYIŞ YERİ VƏ NEKROPOLU

İlikliqaya yaşayış yeri və nekropolu Ordubad rayonunun Tivi kəndi ərazisində, kənddən şərqdə, Dəmyələr nekropolundan qərbdə, qumluq ərazidə yerləşir. Abidənin yerləşdiyi yer xalq arasında Bənövşə qumluğu adı ilə də tanınır.

İlikliqaya abidəsi 2005-ci ildə tədqiqatçı-alim V.B.Baxşəliyevin rəhbərliyi ilə aparılan arxeoloji ekspedisiya zamanı qeydə alınaraq kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir. Onun öyrənilməsi sahəsində aparılan tədqiqatlar sonrakı dövrdə də davam etdirilərək bir çox maddi mədəniyyət nümunələri əldə edilmişdir. Əldə edilmiş maddi mədəniyyət nümunələri arasında keramika nümunələri çoxluq təşkil etmişdir. Abidədə geniş miqyaslı arxeoloji qazıntı aparılmasa da, toplanılmış maddi mədəniyyət nümunələrinə əsasən onun dövrü müəyənləşdirilərək burada məskunlaşan isanların yaşayış tərzi öyrənilmişdir.

İlikliqaya yaşayış yeri şimaldan və cənubdan dərin dərə ilə sərhədlənir. Sahəsi 2 ha-dan artıqdır. Buradakı yaşayış evlərinin çoxu dağılmışdır. Onların yerində daş yığınları, torpaq qarışıq təpəciklər, üzərini otlar örtən dördkünc formalı çalalar qalmışdır. Dağılmış tikili qalıqlarına əsasən buradakı yaşayış evlərinin dördkünc planda tikildiyi bilinir. Onların bir qismi ovalvari formalı təpənin üzərindəki kiçik düzənlik ərazidə salınmış, bir qismi isə dərənin qırağında bulağın yanında tikilmişdir. Yaşayış yerində mədəni təbəqə çox az saxlanılıbdır. 0,5-1 m qalınlığında olan mədəni təbəqə kül və torpaq laylarından ibarətdir.

Yaşayış yeri toplanılmış yerüstü arxeoloji materiallar əsasında öyrənilibdir. Onlar boz və çəhrayı rəngli küpə, kasa, çölmək və s. tipli gil qabların qırıqlarından, dən daşlarından ibarət olub. Buradan həmçinin xeyli miqdarda forma verməyən keramika qırıqları da tapılıbdır.

Əldə olunan küpə, kasa, çölmək tipli qabların hamısı sadə olub, narın qum qarışıqlı gildən hazırlanıb, yaxşı bişirilərək formaca bir-birlərindən fərqlənibdir.

Küpə tipli qabların bir çoxu qısa boğazlı, qabarıq və şar gövdəli hazırlanıb, xarici səthi cilalanıbdır. Onların bəzilərinin ağzı xaricə qatlanaraq dəyirmiləşmişdir. Bir coxunun ağzı içəri qatlanmışdır.

Kasa tipli qabların bir qismi qabarıq gövdəli düzəldilibdir. Bəziləri isə silindrik konsuvari formada olub. Onlar da ağız kənarının quruluşuna görə bir-birindən fərqləniblər. Bir çoxu düzağızkənarlı hazırlanmışdır. Bəzilərinin ağzı xaricə qatlanaraq dəyirmiləşibdir.

Çölmək tipli qablar əsasən qabarıq gövdəli olub, oturacağı yastı, ağzı gen hazırlanıbdır.

Yaşayış yerindən aşkar olunan dən daşı boz rəngli tuf daşından ovalvari formada düzəldilibdir. Onun bir üzü uzun müddət işləndiyindən hamarlanıbdır.

İlikliqaya nekropolu yaşayış yerindən qərbdə, qumluq yerdə, yamacda yerləşir. Sahəsi 0,5 ha yaxındır. Buradakı qəbirlərin çoxu təbii aşınma nəticəsində dağıldığına görə çoxlu miqdarda keramika nümunələri üzə çıxaraq qırılıbdır. Nekropolda aparılan kəşfiyyat xarakterli tədqiqatlar zamanı dağılmış qəbirlərdən biri öyrənilibdir. Həmin qəbir tamamilə dağıldığına görə onun planını çıxartmaq mümkün olmamışdır. Tədqiqat zamanı qəbirdən skelet qalıqları aşkar edilməmiş, müxtəlif keramik nümunələri tapılmışdır. Əldə olunan keramika nümunələri içərisində qalın divarlı, çəhrayı rəngli küpə tipli qab qırıqları çoxluq təşkil etmişdir. Buradan həmçinin boz və qara rəngli gil qab qırıqları da tapılıbdır. Aşkar olunmuş küpə tipli qabların çoxu narın qum qarışığı olan gildən hazırlanaraq çəhrayı rəngdə yaxşı bişirilibdir. Onun boğazı qısa, gövdəsi qabarıq olub, ağzı xaricə qatlanaraq dəyirmiləşibdir.

Nekropoldan tapılan iri həçmli küpə də narın qum qarışığı olan gildən hazırlanaraq çəhrayı rəngdə yaxşı bişirilib, qısa boğazlı, qabarıq gövdəli, xaricə qatlanmış ağız kənarlı hazırlanıbdır. Lakin o, formaca digər qablardan fərqlənibdir. Bu qab daha çox qalın divarlı (1,5 sm) və gen ağızlı (ağzının diametri 30-30,2 sm) olubdur.

Aşkar olunmuş küpə tipli qablardan birinin qırığı qara rəngdə olub narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilibdir. Onun xarici səthi sığallanaraq ştamp üsulu ilə həndəsi ornamentlə naxışlanıbdır. Qabın üzərində nisbətən iri olan dairə çəkilmiş, onun içərisi ardıcıl çəkilən kiçik dairələrlə bəzədilmişdir. Həmin həndəsi ornamentlər isə qaba həm xüsusi gözəllik vermiş, həm də müəyyən bir kompozisiyanı ifadə etmişdir.

Çəhrayı rəngli gil qab qırıqlarından biri çölmək tipli qaba aid olubdur. Onun ağzı gen, gövdəsi qabarıq düzəldilmiş, ağız kənarı düz hazırlanmışdır. Ağzının kənarı enli üfüqü xətlə naxışlanmışdır.

Qara rəngli küpə tipli qablardan biri silindrik boğazlı, bikonus gövdəli olub, narın qum qarışığı olan gildən düzəldilibdir. Xarici səthi sığallanaraq, üzəri basma naxışlarla bəzədilibdir.

Boz rəngli keramika nümunəsi çaynik tipli qabın lüləyi olubdur. O, narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilibdir. Xarici və daxili səthi sığallanıbdır.

Nekropoldan əldə olunmuş keramika nümunələri arasından vaza tipli qabın tapılması daha çox maraq obyektinə səbəb olmuşdur. Çünki bu cür qablar Naxçıvanda Son Tunc və Erkən Dəmir Dövrü abidələrindən çox az tapılmışdır. Onlar formaca müxtəlif olaraq bir-birindən fərqlənmişdirlər. Son Tunc dövrünə aid vazalar əsasən təkayaqlı olmuş, Erkən Dəmir dövrü vazaları isə həm təkayaqlı, həm də üçayaqlı düzəldilmişdi. Üçayaqlı vazalar həcm etibarı ilə təkayaqlılardan boyük olmuşdur. Onların bir qisminin ayaqları qısa olub çubuqşəkilli düzəldilib (Qızılburun, Şahtaxtı). Bəzilərinin (Mərdangöl, Muncuqlutəpə, Culfa) qıçları bir qədər fərqli olub ayaqları dizdən bükülən insan qıçını xatırladıbdır.

İlikliqaya nekropolundan tapılan vaza üç ayaqlı olub, narın qum qarışığı olan gildən hazırlanaraq, boz rəngdə yaxşı bişirilibdir. Ayaqları qısa (4,5 sm), oturacağı diskşəkilli düzəldilib, xarici səthi sığallanıbdır. Bu qab formaca Qızılburun (3, s. 83), Şahtaxtı (2, şəkil 7, 9) nekropolundan aşkar olunmuş vazalar ilə oxşarlıq təşkil edərək əldə olunmuş digər maddi mədəniyyət nümunələri kimi, nekropolun daha dərindən öyrənilməsinə köməklik edibdir.

Yaşayış yeri ilə nekropoldan əldə edilən keramika nümunələri birbiri ilə oxşar olmuş, hər iki arxeoloji abidənin eyni dövrə aid olduğunu göstərmişdir. Əldə olunan keramika nümunələri içərisində boz rənglilər çoxluq təşkil etmişdir. Onlar Mingəçevirdən (1, tab. XLIII, 6; tab. XXXVIIII, 14), Gəncəçay rayonundan (6, s. 136-138), Quruqçay və Göndələnçay vadisindən (5, s. 42-45), Gədəbəy, Xanlar kurqanlarından (4, s. 53) və s. tapılan qablarla oxşarlıq təşkil edərək abidənin dövrünü müəyyənləşdirməyə köməklik etmişdir. Yaşayış yerində çox az miqdarda mədəni təbəqənin saxlanılması da bu sahədə mühüm əhəmiyyət kəsb edərək, müəyyən elmi nəticəyə gəlməyə imkan vermişdir. İlikliqaya abidəsindən aşkar olunmuş keramika nümunələrinin Son Tunc və Erkən Dəmir dövrünə aid olması, Xocalı-Gədəbəy mədəniyyətinə aid abdələrdən tapılan qablarla oxşarlıq təşkil etməsi, yaşayış yerində mədəni təbəqənin çox az saxlanılması burada yaşayan insanların yarımköçəri həyat tərzi keçirdiyini və yaylaq maldarlığı ilə məşğul olduğunu qeyd etməyə əsas verərək bu tayfaların e.ə II minilliyin sonu-I minilliyin əvvəlində Gəmiqaya ətrafında məskunlaşdığını sübut etmişdir.

## ƏDƏBİYYAT

1. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Деревний Мингечаур. Баку: Изд-во АН Азерб. ССР, 1959, 191 с.

2. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. Bakı: Elm, 1993, 181 s.
3. Əliyev V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 164 s.
4. Гусейнова М.А. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа XIV-IX вв. до н.э. Баку: Елм, 1989, 128 с.
5. İsmayılov Q.S. Quruqçay və Göndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı: Elm, 1981, 64 s.
6. Nərimanov İ.H. Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı: Az. SSR EA nəşriyyatı, 1958, 142 s.

**Тогрул Халилов**

## НЕКРОПОЛЬ И ПОСЕЛЕНИЕ ИЛИКЛИГАЯ

В статье изучаются поселение Иликлигая и его некрополь. Систематизируются керамические материалы, найденные в этих памятниках. Установлено, что найденные керамические материалы относятся к эпохе Поздней Бронзы и Раннего Железа и сходны с глиняной посудой Ходжалы-Гедебекской культуры. И оба археологических памятника связаны с полукочевым скотоводством.

**Togrul Khalilov**

## THE NECROPOLIS AND SETTLEMENT OF ILIKLIGAYA

The settlement of Ilikligaya and its necropolis are investigated in the article. The ceramic materials discovered in these monuments are systematized. It is determined, that the discovered ceramic materials date from the epochs of Late Bronze and Early Iron and are similar to the pottery of Khojaly-Gadabay culture. And both these archeological monuments are connected with the half-nomadic cattle breeding.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, tarix e.d. H.Q.Qədirzadə, tarix e.n. R.Bağırov.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**HACI QADİR QƏDİRZADƏ**
AMEA Naxçıvan Bölməsi

# GƏMİQAYADA «HƏYAT AĞACI» VƏ BİR FOLKLOR NÜMUNƏSİ İLƏ MÜQAYİSƏ

Etnosun dünyabaxışının, düşüm tərzinin tədqiqində arxaik inamlar xüsusi yer tutur. Həmin inamların əksəriyyəti tarixin alt qatlarında formalaşmaqla min illər boyu nəsillərdən-nəsillərə ötürülərək yaşadılmışdır. Təbii ki, Naxçıvan ərazisində bu məsələni araşdırarkən Gəmiqayadakı təsvirlər diqqəti cəlb edir. Təsvirləri öyrənən araşdırıcılardan N.Müseyibli burada 20-yə yaxın həyat ağacı rəsmi olduğunu yazır (14, s. 92-93). Eyni məsələdən bəhs edən V.Baxşəliyev bir həyat ağacının rəsmini verir. Həyat ağacının yanında iki keçi və bir oğlaq təsvir edilmişdir (4, s. 203; şək. 65, s. 237). Bizim üçün həmin təsvir bir neçə cəhətdən maraqlıdır. Hər şeydən öncə təsvirdə təkcə ağac deyil, onun üstündə yumru formalı meyvələrin olması da diqqəti çəkir. Nəcəf Müseyibli həyat ağacı ilə keçi kultunun bağlılığını, eyni zamanda 33 № ilə verilmiş təsvirdə həyat ağacının üzərində 3 meyvə olduğunu yazır (14, s. 100). Beləliklə, həyat ağacı ilə həyat meyvəsi birləşdirilir. Bizcə, həmin meyvələr almadır. Gəmiqayada alma – həyat ağacının təsviri onun ta qədimdən Azərbaycan türklərinin inamlar sistemində xüsusi yer tutması ilə bağlıdır. Buradakı 3 meyvə ilə nağıllarda göydən 3 alma düşməsi arasında əlaqə olduğunu söyləyə bilərik. Biz nağıllarda göydən 3 alma düşməsi ilə bağlı ayrıca yazı nəşr etdirdiyimizdən bu məsələnin üzərində geniş dayanmayacağıq (12, s. 95-100). Bu təsvirlər təsadüfən yaranmamışdır. Onların mifoloji tutumunun, tarixiliyinin öyrənilməsində xalq arasında mövcud olan ağız ədəbiyyatı, nağıl və dastanlar ciddi rol oynayır. Müqayisəli araşdırmalar sübut edir ki, alma ilə bağlı inamlar tarixilik və genetik baxımdan Adəm peyğəmbər, Həvva nənə və cənnətdəki meyvə ilə yaxınlıq təşkil edir. Gəmiqayadakı təsvirlər həyat ağacı ilə bağlı E.A.Antonovanın E.D.Vana əsaslanaraq apardığı bölgüyə uyğun gəlir: 1. Yarpaqsız; 2. Budaq və yarpaqlı; 3. Meyvəli və yarpaqlı ağaclar (2, s. 116). Yəni burada hər 3 təsvir forması mövcuddur.

Meyvəli və yarpaqlı ağac həyatı, məhsuldarlığı, var olmanı təmsil edir. Beləliklə, biz həm həyat meyvəsi, həm də həyat ağacı kimi təsvir edilən

alma ilə bağlı inamlardan, ümumiyyətlə, həyat ağacından, ağac inamından bəhs edəcəyik.

Nağıl və dastanlarda alma həyatverici, sonsuzluqdan, xəstəlikdən xilasedici, qocaları cavanlaşdırıcı xüsusiyyətlərə malikdir. Nağılların çoxunda alma ilə bağlı olaraq nağıl qəhrəmanlarının divlərlə döyüşməsi, gedərgəlməz yola çıxması, kiminsə həyatının xilas edilməsi və s. süjetlər əsas yer tutur.

Gəmiqaya yaxınlığındakı Göygöl ilə bağlı topladığımız bir məlumatda deyilir ki, kimsə niyyət edib gölə alma atır. Əgər həmin alma gölün ortasında Nuhun gəmisinin qalığı hesab edilən və hazırda ada kimi görünən yerin başına dolanıb həmin adamın yanına gəlirsə, deməli, niyyəti qəbul olunub.

Görkəmli türkoloq V.M.Jirmunski yazır ki, türklərin nağıl və dastanlarında dərvişin verdiyi qırmızı almanı ər və arvadın bölüb yeməsi nəticəsində sonsuzluqdan qurtarmaları ilə bağlı magik cəhətlər xüsusi yer tutur. Çox vaxt həmin almanın qabıqları ata verilir. Bundan gələcək qəhrəmanın atı doğulur (9, s. 229-230).

Anadolu türklərində qırmızı alma inamı ilə bağlı Yılmaz Elmas (7, s. 2510-2511), Yaşar Kalafat (10, s. 78) və digər müəlliflərin çox sayda yazıları nəşr edilmişdir. Görkəmli turk tarixçisi F.M.Kırzıoğlu türklərin xalq adətləri və inamlarında qırmızı almanın xüsusi yer tutduğunu göstərir (11, s. 41-48).

Müqayisəli araşdırmalar göstərir ki, Azərbaycan nağıllarında alma həyat meyvəsi kimi təsvir edilir. Hər alma deyil, daha çox qırmızı alma müqəddəsdir. Toylarda, el şənliklərində qırmızı almaya böyük önəm verilir.

Nağıl və dastanlardan məlum olur ki, belə almalar qeyri-adi şəraitdə yetişir. Böyük çətinliklə, bəzən möcüzəli şəkildə əldə olunur. Çox vaxt almanı kimliyi bəlli olmayan dərviş verir. Məsələni çözmək üçün bəzi qaynaqlara müraciət edək. «Məlikməmməd» nağılında deyilir: «Bu padşahın bağında bir alma ağacı varmış. Bu ağac birinci gün çiçək açarmış, ikinci gün çiçəyini tökərmiş, üçüncü gündə bar verərmiş. Bu almanı hər kəs yesəymiş, on beş yaşında oğlan olarmış» (1, s. 169).

Göründüyü kimi, alma adi alma deyil. Meyvələrin yetişməsi düşünə bildiyimiz zamandan çox sürətlidir: üç günə yetişir. Yetişmə fəsli bəlli deyil. Bu xüsusiyyətlərinə görə o, zamanı qabaqlayır, cavanlığı geri qaytarır. Lakin uzun müddət şah həmin meyvələri yığa bilmir. Çünki alma yetişmə məqamında kimsə onları oğurlayır. Nəhayət, qardaşlarından fərqli olaraq, Məlikməmməd divi yaralayıb, almaları atasına gətirir. Sonra qardaşları ilə birgə divin ardınca gedir və quyuya enir. Məlikməmmədin gətirdiyi almanı şahın yeyib-yemədiyi məlum olmur. Məlikməmməd divin ardınca quyuya girdikdən sonra üç div öldürüb, üç qızı xilas edir. İpin kəsiləcəyini bilən qız Məlikməmmədə deyir ki, iki qoç döyüşə-döyüşə gələcək: biri ağ, biri qara.

Ağ qoç qara qoçu qovacaq, onda atıl min ağ qoçun belinə. O, səni işıqlı dünyaya çıxarsın. Qara qoça minsən, qaranlıq dünyaya düşəcəksən (1, s. 171).

Nağılda hər şey qız deyən kimi olur. Lakin ağ qoç Məlikməmmədi işıqlı dünyaya çıxarmır, atır qara qoçun üstünə. O da aparır qaranlıq dünyaya. Məlikməmməd burada qaranlıq (yeraltı) dünyanın təmsilçisi əjdahanı öldürüb, işıqlı dünyanın təmsilçisi, xeyirxahlıq rəmzi Zümrüd quşunun balalarını xilas edir. Nağıldan məlum olur ki, əjdaha hər il Zümrüd quşunun balalarını yeyirmiş. Deməli, Məlikməmməd Zümrüdün soyunun kəsilməsinin qarşısını almışdı. Əvəzində Zümrüd quşu onu işıqlı dünyaya gətirir (1, s. 175-176). Beləliklə, almaların kimi cavanlaşdırdığı məlum olmasa da, məhz onların ucbatından qızlar divdən, Zümrüd quşunun balaları məhv-olmadan qurtarırlar. Dolayısı ilə alma inancı onların həyatını xilas edir.

Almanın sakral xüsusiyyətləri onun uzun müddət qalması, xəstələrə «qut» verməsi ilə bağlıdır. Ən ağır xəstəyə bir dilim alma yedirtmək böyük ümid sayılır. Xalq arasında alma cənnət nişanəsidir. Heç təsadüfi deyil ki, ayrıca «Cənnət alması» adlanan alma növü vardır. Almanın sakral xüsusiyyətlərini özündə əks etdirən, daha çox üçlü sistemlə, həyatverici meyvə ilə bağlı olan bir folklor nümunəsində deyilir:

Üşüdüm, ay üşüdüm,
Dağdan alma daşıdım.
Almalarımı aldılar,
Məni cürmə saldılar.
Mən cürümdən bezərəm
Dərin quyu qazaram,
Dərin quyu beş keçi
Hanı bunun erkəci?
Erkəc qaya başında,
Eyhaladım gəlmədi,
Çiyid verdim yemədi,
Çiyid qazanda qaynar,
Qənbər bucaqda oynar.
Qənbər getdi oduna,
Qarğı batdı buduna,
Qarğı deyil qamışdı,
Beş barmağım gümüşdü,
Gümüşü verdim tata,
Tat mənə darı verdi,
Darını səpdim quşa,
Quş mənə qanad verdi,
Qanatdandım uçmağa
Haqq qapısın açmağa

Haqq qapısı kilitli
Kilidi babam belində
Babam Gilan yolunda
Gilan yolu dərbədər...

Bu nümunədə ana xətti dağdan gətirilən almanın əldən çıxması, zülmə düçar olmaq və bundan qurtarmaq təşkil edir. Mətndə dağ, alma və Gilan məsələsi diqqəti çəkir. Zərərə düşən qalır dağla Gilanın arasında.

Almanın alınması zülmə düçar olmaqdır. Bu, elə-belə alma deyil. Dağdan, soyuqdan gətirilən almadır. Almanın sirli xüsusiyyətləri həyat ağacı, həyat meyvəsi ilə bağlıdır. Beləliklə, həyat meyvəsi əlindən alınan, nağıl və dastanlardakı cavanlıq, sağlamlıq rəmzi hesab edilən almadan, dolayısı ilə onun verə biləcəyindən məhrum olan adam tədbir görməyə çalışır. Nicatını dərin quyu qazmaqda, dağın, yaşıllığın, yazın, gəncliyin təmsilçisi, məhsuldarlıq rəmzi keçini, daha dəqiq desək, onun aparıcısını, erkəcini çağırmaqda görür. Erkəc isə onun hayına gəlmir.

Bu mətnin Cabbar Cəlil Bəydilli tərəfindən maraqlı təhlili verilmiş, onun ayrı-ayrı cəhətləri şamanizmlə əlaqələndirilməklə qam şamanın bir dünyadan digərinə keçməsindən bəhs edildiyi bildirilmişdir. Müəllif yazır ki, bunu, folklor nümunəsini şaman mərasiminin süjetinin mifosimvolik dildə təsviri kimi qəbul etməliyik (5, s. 147-151).

Biz bu məsələdə bir neçə məqama diqqət yetirməyi məqsədəuyğun sayırıq. Hər şeydən öncə, alma və dağ, zülmə düşənin quyuya enməsi, keçinin yardıma gəlməməsi, haqqın qapısına – Qapıcığa yüksəlmə, burada da yolların bağlılığı-kilidliliyi, kilidin babada, babanın isə Gilan yolunda olması faktı (Qeyd edək ki, C.C.Bəydilli son iki məqamı verməyib). Beləliklə, nümunənin məhz Gilançay hövzəsində, Gilan yaşayış məntəqəsində baş verməsi, Gilanın abad olmaması, onun yollarının dərbədərliyi böyük önəm daşıyır. Nümunədə vermədiyimiz hissədə bu dağılmış, dərbədər ərazidə meymunlar gəzir.

Mətndə müşkülünü aşırmaq, çətinlikdən qurtarmaq üçün dağa düşmüş, həyat meyvəsi olan almanı gətirməyə getmiş adamın alması əlindən çıxıb, alınıb. O, əzaba düşüb, dərdinə çarə axtarır. Bu süjet həyat meyvəsi, çiçəyi axtaranların taleyinə oxşardır. Eyni çətinliyi «Bilqamıs» dastanında Bilqamıs yaşayır. Amma gənclik çiçəyi əlindən çıxır.

Oxşar hadisələr «dirilik suyu» axtaran İsgəndərin, Koroğlunun atasının da başına gəlir. Burada sadəcə olaraq həyat meyvəsi su ilə əvəz olunur.

Dağdan ümüdi kəsilmişin dərin quyu qazması, diqqət verərsək, dərin quyu, çox maraqlıdır. Bu şərq mifologiyasında dibsizlik, sonsuzluq mənada yerin altına enməkdir. Burada dağ-yüksəklik, dərə aşağı, quyu yerin dibidir. E.V.Antonova yazır ki, dağ və quyu yuxarı və aşağı yer oxunun iki kənar xətti sayılır. Yəni iki tərəfdən də nicat istənir (3, s. 114). Bu məsələyə

Bilqamıs və Dədə Qorqud dastanları yönündən baxaq. Bilqamısla Enkudu ağır səfərə, Humbabanı öldürməyə, Sidir meşəsini qırmağa gedərkən:

Günəşin qarşısında onlar quyu qazdılar.
Bilqamıs dağa çıxıb, ətrafa göz gəzdirdi,
«Dağ, sən mənə xeyirli yuxu gətir» – söylədi.

Nümunədən görünür ki, qəhrəmanlar məqsədlərinə çatmaq üçün quyuya enmişlər, Bilqamıs dağa çıxmışdır. Kitabi-Dədə Qorqudda Salur Qazan başına gələni Ala dağda yuxuda görür. Bilqamıs da dağdan xeyirli yuxu istəyir.

Quyu və alma məsələsi Məlikməmməd nağılında da folklor nümunəsi ilə oxşardır. Məlikməmməd almanı oğurlayan divin ardınca quyuya düşür. Burada isə alması əlindən alınan adam quyu qazıb, ora enir.

Folklor nümunəsindən aydın olur ki, quyu qazan keçi axtarır. Xüsusən məhsuldarlıq rəmzi olan erkəci. Erkəci aldatmaq, yanına gətirmək üçün ona yem-çiyid verir. Lakin erkəc gəlmir. Burada qurban vermə adətindən söhbət gedir. Qədim Mesopotamiyada və Şərqdə müəyyən şərdən, çətinlikdən qurtarmaq üçün quyuya, yeraltı dünyaya qurban vermək adəti olmuşdur. E.Q.Rabinoviç bunu şamanların müəyyən ruhlara verdiyi qurban kimi qiymətləndirir (15). Oxşar qurbanvermə mərasimi Sibir-Altay türklərində də mövcuddur. M.A.Devletin (6, s. 35-36), N.A.Alekseyevin (2, s. 73), M.R.Qryaznovun (13, s. 197-204) əsərlərinə, yerli məlumatlara, qayaüstü təsvirlərə əsaslanaraq demək olar ki, qədim türklərdə dağ ruhuna qurban vermə mərasimi olmuşdur. Bu qurbanlar dağın başında verilsə də, orada qazılmış quyuda, çalada edilirdi. M.A.Devlet yazır ki, heyvanı diri-diri həmin quyuya, çalaya salırdılar. Buraya salınan heyvan, xüsusən öküz, nə qədər çox böyürsəydi, uğurlu sayılırdı (6, s. 35-36).

Yuxarıdakı məlumatlardan aydın olur ki, alması alınmış, məqsədinə çatmayan adam keçini, xüsusən onun erkəcini qurban vermək istəyir. Keçi isə bunu bildiyindən gəlmir. Beləliklə, onun qurban verərək, məqsədinə çatmaq arzusu yerinə yetmir.

V.Əliyev Gəmiqayadakı təsvirlər içərisində keçi rəsmlərinin üstünlük təşkil etdiyini yazır (8, s. 42-43). Təbii ki, bunlar keçi kultu ilə əlaqələndirilir. Biz həmin təsvirlərin genezisindən geniş bəhs etməyəcəyik. Çünki belə təsvirlər, demək olar ki, dünyanın müxtəlif ərazilərindəki qayaüstü rəsmlərdə, həmçinin arxeoloji qazıntılar nəticəsində əldə edilmiş maddi-mədəniyyət nümunələri üzərindəki rəsmlərdə geniş yer tutur. V.Baxşəliyevin məlumatından aydın olur ki, qayaüstü təsvirdə həyat ağacı keçi kultu ilə birləşdirilmişdir (4, s. 203). Bizcə, alması əlindən çıxanın keçini çağırması bu süjetlə yaxınlıq təşkil edir. Özgə sözlə desək, almanı əldə etmək, itirilmişi qaytarmaq üçün keçidən istifadə olunmalıdır. Təsvirlərdə olduğu kimi, keçi, onun qurban verilməsi türk xalqları arasında geniş yayılmışdır. Bu öz əksini dəfn adətlərində də tapmışdır. Naxçıvan ərazisində tədqiq edilmiş bir sıra qəbir

abidələrindən keçi sümükləri aşkar edilmişdir. 2007-ci ildə B.İbrahimovun rəhbərliyi ilə Xaraba-Gilan ərazisində, Plovdağda aparılan araşdırmalar zamanı şərti olaraq 18 № ilə qeyd edilmiş qəbirdən bir sıra maraqlı əşyalarla bərabər bütöv halda dağ keçisi skeleti aşkar edilmişdir. Dəfn qaydasına uyğun olaraq onun qurban verildiyini söyləyə bilərik. Qədim türklərin dünyagörüşündə keçinin önəmli yer tutması, onun məhsuldarlıq rəmzi, buynuzlarının nəzəri, şəri sovuşdurmaq xüsusiyyətləri daşıması ilə bağlı inamlar geniş yayılmışdır. Bir çox halda keçi yenilməzlik rəmzi daşımaqla hakimiyyət simvolu olmuşdur. Keçi inamı ilə bağlı bir önəmli faktı qeyd etməkdə fayda görürük. Atın keçi başı və ya buynuzu ilə mifləşdirilməsi. İssık kurqanından aşkar edilmiş «Qızıl geyimli şahzadə»nin tacındakı at keçi buynuzludur. Başdar kurqanındakı at keçi skafandrında dəfn edilmişdir, «Kitabi-Dədə Qorqud»da Bayandır xanın tövləsində saxlanan 2 şahbaz atın biri Toğlu başlı Duru ayğır, digər keçi başlı Keçər ayğırdır. Bamsı Beyrəklə bağlı boydan bəlli olur ki, keçi başlı Keçər ayğır üstün keyfiyyətlərə malikdir. Dədə onun üzərində olarkən Dəli Qarcara: «Çalarsan əlin qurusun» deməklə o, qılıncı vura bilmir. Deməli, mifik atın üstündə Dədə daha da mifləşir. Duası qəbul olunur. Ümumiyyətlə, keçi ilə bağlı geniş bəhs edildiyindən biz ancaq bir məsələnin üzərində dayanacağıq. Nuh Tufanı və keçi. Keçini müqəddəsləşdirən amillərdən biri də budur. Bir Altay rəvayətinə görə: «Tufan olacağını ilk olaraq göy tüklü (yunlu) bir təkə xəbər vermişdir. Göy təkə yeddi gün yer üzünü dolaşdı və car çəkdi. Sonra 7 gün zəlzələ oldu, 7 gün dağlar atəş püskürdü, 7 gün yağış, dolu, qar yağdı, 7 gün fırtına oldu. Bundan sonra yerin üzünü su almasından, 7 qardaşın gəmi düzəltməsindən bəhs edilir (16, s. 15). Beləliklə, keçinin əvvəlcədən xəbər verməsi nəticəsində insanlar Tufandan xilas olurlar.

Bizcə, folklor nümunəsindəki adamın qurbanı qəbul edilmir, yəni keçi qurban olmağı istəmədiyindən onun çağırışına gəlmir.

Sonrakı materiallarda onun gümüş verib tatdan darı almasından, darını quşa verməklə qanadlanıb haqqını tələb etmək üçün divana getməsindən, lakin haqqın qapısının bağlılığından bəhs edilir. Buradakı tat, tatər oturaq, əkinçi mənasındadır. Buğdanı ancaq ondan almaq olardı. Quşun qanadı məsələsini Azərbaycan nağıllarında və rəvayətlərindəki çətinliyə düşmüş adamın hər hansı bir quş vasitəsilə qurtarması süjeti ilə müqayisə etmək olar (Məlikməmməd). Bu məcazi mənada qanadlanmaqdır. Folklor nümunədə zərərə uğrayan haqqa, daha dəqiq desək, məqama çata bilmir. Çünki məqamın qapısı kilidlidir. Bundan sonra hadisələrin cərəyan etdiyi yer tam bəlli olur:

Kilidi babam belində
Babam Gilan yolunda
Gilan yolu dərbədər...

Deməli, istiqamət Gilanadır. Biz belə düşünürük ki, zərərçəkən təkcə Gilançay vadisində deyil, bütövlükdə şərqdə şöhrət qazanmış, sonralar xarabalığa çevrilmiş, dərbədər olmuş, indi Xaraba-Gilan adlanan mərkəzə gəlmək, dərdini bildirmək istəyir, bu da baş tutmur. Əli göylərdən və yerlərdəki haqdan üzülən adam almacığını, yəni şəfasını, cavanlığını itirir.

Yekun olaraq, bu folklor nümunəsinin məhz Naxçıvanda Gilançay hövzəsində yaranmaqla əbədi həyat meyvəsi, ağacı ilə bağlı olduğunu söyləyə bilərik. Unutmayaq ki, bu süjet Gəmiqayadakı, dağdakı əbədi həyat ağacı, meyvəsi ilə əlaqəlidir, yəni inamın kökü oradandır. Bir sıra xalqlarda həyat ağacı müxtəlif olsa da, həyat meyvəsinə çox az rast gəlinir.

## ƏDƏBİYYAT


1. Azərbaycan nağılları: 5 cilddə, IV c., Bakı: Şərq-Qərb, 2005, 336 s.
2. Алексеев Н.А. Ранние формы религии тюркоязычных народов Сибири. Новосибирск: Наука, 1980, 318 с.
3. Антонова Е.В. Очерки культуры древних земледельцев Передней и Средней Азии. Москва: Наука, 1984, 263 с.
4. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
5. Bəydilli C.C. Qam-Şamançılığın etnomədəniyyətimizdə yeri. Bakı: Ağrı dağ, 2000.
6. Дэвлет М.А. Культ быка в центральной Азии / Москва: Наука, 1988, с. 35-37.
7. Elmas Y // Kızılelma Türk Folklor Araştırmaları, 1961, Eylül, № 146, s. 2510-2511.
8. Əliyev V.H. Gəmiqaya. Bakı: Əbilov, Zeynalov və oğulları, 2005, 148 s.
9. Жирмунский В.М. Тюркский героический эпос / Избранные труды. Л.: Наука, 1974, 728 с.
10. Kalafat Y. Kuzey Azerbaycan-Doğu Anadolu ve Kuzey İrakta eski Türk Din izleri. Dini folklorik tabakalaşma. Ankara: Kültür Bakanlığı yayınları, 1998, s. 78.
11. Kırzıoğlu F. Türk Milli Geleneginde Kızıl elma ve yerleri // BTTD, 1985, Mart, № 1, s. 30-37; 1989, Nisan, № 2, s. 41-48.
12. Qədirzadə H.Q. Azərbaycan türklərində alma ilə bağlı inamlara dair // NMİ, Xəbərlər, Naxçıvan, 2005, № 1, s. 95-100.
13. Грязнов М.Р. Бык в обрядах и культах древних скотоводов / Проблемы археологии Евразии и Северной Америки. Москва: Наука, 1977, с. 197-204.
14. Müseyibli N. Gəmiqaya. Bakı: Çaşıoğlu, 2004, 320 s.
15. Рабинович Е.Г. Колодец Шамаша // ВДИ, 1973, № 2.
16. Vəliyev K. Elin yaddaşı dilin yaddaşı. Bakı: Gənclik, 1988, 240 s.

**Хаджи Гадир Гадирзаде**

## НАСКАЛЬНОЕ ИЗОБРАЖЕНИЕ «ДРЕВА ЖИЗНИ» В ГЯМИКАЯ И ЕГО СРАВНЕНИЕ С ОДНИМ ФОЛЬКЛОРНЫМ ОБРАЗЦОМ

В статье исследованы форма и характер наскального изображения «Древа жизни» в Гямикая. Выявлено, что подобные сюжеты носят всемирный характер. Также проведен их сравнительный анализ с фольклорным образцом («Ушудум, ай ушудум…»), который показал, что данный образец тесно связан с изображениями Гямикая и древним городом Хараба-Гиланом.

**Hadji Gadir Gadirzade**

## ROCK DRAWING OF THE «LIFE TREE» IN GEMIKAYA AND ITS COMPARISON WITH ONE FOLKLORE PATTERN

In the article the form and character of the rock drawing of the «Life Tree» in Gemikaya are investigated. It is revealed, that these subjects have the universal world character. Also their comparative analysis with the folklore pattern («Ushudum, ay ushudum…») is carried out, which showed that the given sample is closely connected with the drawings of Gemikaya and the ancient city of Haraba-Gilan.

***Rəyçilər: Akademik İ.Hacıyev, tarix e.d. prof. H.Səfərli.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**ARİF ƏSƏDOV**
AMEA Naxçıvan Bölməsi

# NAXÇIVAN BOYALI QABLAR MƏDƏNİYYƏTİNİN MƏRKƏZİ KİMİ

Naxçıvan ərazisində yaşayan qədim tayfaların müstəqil inkişaf yolu Orta Tunc dövründə müxtəlif sənətkarlıq sahələrinin formalaşmasına zəmin yaratmışdı. Bu dövrdə dulusçuluq müstəqil sənət sahəsi kimi yüksək inkişaf mərhələsinə çatmışdır.

Təsərrüfat və məişətdə gil qablara olan tələbat onların istehsalının artırılmasına böyük ehtiyac yaratmışdı, onların keyfiyyəti yüksəlmiş və formaları mükəmməlləşmişdir (3, s. 56).

Azərbaycanın Tunc dövrü boyalı qablar mədəniyyətinin yaranma tarixi haqqında S.Pjevorski, K.Seffer, Ə.K.Ələkbərov, B.A.Kuftin, B.B.Piotrovski, G.M.Cəfərzadə, A.A.İessen, O.H.Həbibullayev, İ.H.Nərimanov, V.H.Əliyev, Q.S.İsmayılov, H.F.Cəfərov dəyərli tədqiqatlar aparmışdır.

Ə.K.Ələkbərov «Naxçıvan diyarının boyalı keramikası və Van çarlığı» əsərində Naxçıvan boyalı qabları ilə Urartu qablarını formaca vahid bir mədəniyyətə aid etmişdir. Lakin O.H.Həbibullayev onun fikri ilə razılaşmayaraq göstərmişdir ki, Naxçıvan boyalı qabları urartulılarını yürüşlərindən əvvəl meydana çıxmış və xronoloji cəhətdən daha əvvəlki dövrə aid olmuşdur (3, s. 98)

B.A.Kuftin və B.B.Piotrovski boyalı qablar mədəniyyətinin yaranma tarixi (e.ə. II minilliyin I yarısı) haqqındakı fikirləri ilə razılaşan O.H.Həbibullayev göstərir ki, Naxçıvan ərazisində boyalı qablar tarixini Kültəpədə tapılmış arxeoloji materialları müəyyən edir. Bu materialların morfoloji və tipoloji fərqliliyi onların stratiqrafik yerləşməsi xronoloji ardıcıllığı təyin edir. O.H.Həbibullayev boyalı qablar mədəniyyətini dörd tipə bölmüşdür. O, bunlardan üç tipini Tunc dövrünə, dördüncü tipini isə Dəmir dövrünün başlanğıcına aid etmişdir (3, s. 85-88).

V.H.Əliyev Naxçıvanı boyalı qablar mədəniyyətinin beşiyi hesab etməklə bərabər, onu Orta Tunc dövründən ilk Dəmir dövrünə qədər dörd inkişaf mərhələsi keçdiyini irəli sürür.

Birinci mərhələ üçün həndəsi motivdə insan və heyvan və quş təsvirləri ilə çox səliqəli naxışlanmış monoxrom boyalı qablar səciyyəvidir. Bu mərhələ e.ə. XVII-XX əsrləri əhatə edir.

İkinci mərhələ üçün mürəkkəb həndəsi motivdə insan, heyvan və quş rəsmləri ilə daha incə bəzədilmiş polixrom naxışlı qablar səciyyəvidir. Bu mərhələ e.ə. XVII-XV əsrləri əhatə edir.

Üçüncü mərhələ üçün həndəsi motivdə insan, heyvan və quş rəsmləri ilə nisbətən səliqəsiz naxışlanmış polixrom və monoxrom boyalı qablardan ibarətdir. Bu mərhələ XIV-XI əsrlərə aid edilir.

Dördüncü mərhələ üçün tam düşkünlük müşahidə olunan üzəri açıq rəngli anqobla örtülmüş və səliqəsiz həndəsi motivdə yalnız qırmızı rəngdə naxışlanmış boyalı qablar səciyyəvidir. Bu mərhələ e.ə. X-VIII əsrlərə aiddir (2, s. 138).

Arxeoloji tədqiqatlar zamanı sübut olunmuşdur ki, boyalı qablar mədəniyyəti dövründə Naxçıvan ərazisində qala şəhərlər meydana gəlmişdir. Bu şəhərlər yaxın şərqdə Zaqafqaziya arasında olan yollarda əsas vasitəçilik rolunu oynamışdır. Bundan başqa ən çətin anlarda düşməndən qorunmaq üçün yaşayış yerləri yaxınlığındakı keçilməz sıldırım qayalıqlarda müvəqqəti müdafiə istehkamları da tikilmişdir. Naxçıvan ərazisində aşkara çıxarılan Payız kəndinin yaxınlığındakı Çalxanqala da belə tikililərdəndir (2, s. 33).

Boyalı qablar mədəniyyətinin inkişafında ilkin şəhər mədəniyyətinin təşəkkülü ilə bağlı olması bu qədim mədəniyyətin başlıca mərkəzlərindən biri olduğunu sübut edir. Bu mədəniyyət mədəni ticarət əlaqələri vasitəsilə tədricən Zaqafqaziyaya yayılmışdır (5, s. 58).

Boyalı qablar mədəniyyətinə aid yaşayış yerləri ilə yanaşı, qəbir abidələrində də tədqiqatlar aparılmışdır. Məlumdur ki, eyni mədəniyyətə aid müxtəlif tipli abidələr bir-birini tamamladığından kompleks şəkildə öyrənilir. Tədqiqatlar zamanı həmin dövrə aid daş qutu, kurqan və torpaq tipli qəbirlər tədqiq edilmişdir.

Bu dövrə aid daş qutu qəbirlər forma, tikinti texnikası və həcminə görə üç qrupa bölmək olar.

1. Divarları yonulmamış daşlardan hörülmüş daş qutu qəbir
2. Divarları yonulmuş daşlardan hörülmüş daş qutu qəbir
3. Ətraflı kromlexlə əhatə olunmuş daş qutu qəbirlər.

Axırıncı iki tip daş qutu qəbir boyalı qablar mədəniyyətinə aiddir (2, s. 33).

Qızılburun, Şahtaxtı nekropollarının daş qutu qəbirlərdən müxtəlif çeşidli boyalı qab nümunələri tapılmışdır.

Qızılburunda qərb-şərq istiqamətində olan 7 qəbir aşkar edilmişdir. Qəbirlərin üzəri iri sal daşlarla örtülmüşdür. Qazıntı zamanı bu qəbirlərdən qısa və uzunboğazlı küpələr, təkqulplu kiçik küpələr, kasalar və çaynik formalı qablar aşkar edilmişdir və əlavə olaraq polixrom naxışlı qablar tapıl-

mışdı. Qəbirlərdə tunc xəncərlər, ox ucları, bilərziklər, əqiq və pasta muncuqlar, tunc halqa (asma) var idi. Kəllə sümüklərin yanında qırmızı, qara və qəhvəyi rəngdə saxsı məlumatları toplanmışdır. İ.İ.Meşşaninov qəbirlərin birindən 14 kəllə sümüyü tapmışdır (2, s. 33-37).

Boyalı qablar mədəniyyətinə aid kurqanlar lazımınca öyrənilməmiş və təsadüf nəticəsində aşkar edilmişdir. Onlardan biri Zurnabad (Xanlar rayonu) və Çalxanqala (Naxçıvan MR) tapılmışdır. Lakin Zurnabad kurqanı tamamilə dağıldığından az miqdarda maddi-mədəniyyət nümunələri salamat qalmışdı. Çalxanqala kurqanı isə 1963-cü ildə aşkar edilmişdi. Burada kurqanlardan biri dağıdılmışdır. Salamat qalan kurqanlara görə demək olar ki, kurqanın hündürlüyü 30-40 sm, diametri isə 8 m olmuşdur.

Kurqandan tapılan maddi-mədəniyyət nümunələri arasında monoxrom naxışlı küpələr, badyalar, eyni tipli sadə qablar, 2 tunc xəncər, nizə ucu, 6 sancaq qırığı, firuzəyi şivlə örtülmüş muncuq və başqa əşyalar əldə olunmuşdur (2, s. 38-39).

Torpaq qəbirlər Naxçıvan şəhərinin şimal hissəsində təsadüfən qazıntı işləri görülərkən aşkara çıxmışdı. Burada 6 qəbir öyrənilmişdir. Onlar dördkünc formada olub, 1 m dərinlikdə yerləşmiş və üzərləri 3-4 iri daşlarla örtülmüşdür. Şimal-cənub, şərq-qərb istiqamətində olan qəbirlərin dərinliyi 60 sm, uzunluğu 1,3-1,5m, eni 0,8-1 m-dir. Dağılmış qəbirlərdəki gil qabların bir hissəsi qırılmış, tunc məlumatın əksəriyyəti talan edilərək aparılmışdır. Qəbirlər maddi mədəniyyət nümunələrinin parçaları bir yerə toplandığından öyrənmək mümkün olmamışdır. Buradan küpə, vaza, kasa, xeyrə, badya, çölmək, sərnic və çaynik tipli 100-ə yaxın sadə boyalı gil qab aşkar edilmişdir. Hazırda yüksək sənətkarlıqla hazırlanmış bu qablar Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır. Tapıntılar içərisində az miqdarda olsa da, tunc bilərziklər, sırğalar, üzüklər və muncuqlar da tapılmışdı (4, s. 6-8).

Yuxarıda qeyd etdiyimiz kimi, Şahtaxtı ərazisində həmin dövrə aid yaşayış yeri və nekropol vardır. Nekropoldakı qəbirlər daş qutu tipli olub, biri şimal-şərq digəri isə cənub-qərb istiqamətdədir. Bu qəbirlər də iri sal daşlarla qurulub, üzərində isə iki yaxud bir neçə yastı daşla örtülmüşdür. Abidə 1936-cı ildə Ə.K.Ələkbərov tərəfindən tapılmışdır. Burada olan qəbirlərin bir qrupu kromlexlə əhatə olunmuş və daş qarışıq torpaq örtüyündən ibarət kurqan düzəlmişdi. Daş qutu qəbirdən bütöv at skeleti, 1 ədəd polixrom boyalı küpə, 29 ədəd müxtəlif qab və başqa əşyalar aşkar edilmişdir. Bu qəbirlərdə insan skeletinə rast gəlinməmişdir ki, bu da Orta Tunc dövrünün xarakterik cəhətlərindən biri kimi qiymətləndirilir.

Buradan yerüstü əlamətlər bilinməyən digər bir nekropol da aşkar edilmişdir. Əldə edilən materialların bir hissəsi V.H.Əliyev tərəfindən nəşr edilmişdir. Qəbirlərdən polixrom boyalı qablar, tunc əşyalar və bir ədəd silindrik möhür tapılmışdır (1, s. 63).

Bundan başqa, Nəhəcir nekropolu, Şortəpə nekropolu, Kükü nekropolu, Sarıdərə nekropolu və Kərki nekropolu da boyalı qablar mədəniyyətinə aiddir.

Naxçıvan ərazisində təşəkkül tapmış boyalı qablar mədəniyyətinə aid olan yaşayış yerləri aşağıdakılardan ibarətdir. Qızılburun, Şahtaxtı, I və II Kültəpələr, Nəhəcir, Şortəpə, Kükü, Sarıdərə, Kərki, Qazançı və Ağsal yaşayış yerləri bu mədəniyyətə aiddir.

Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, bu mədəniyyətin bütün dövrləri üçün yaşayış və qəbir abidələrindən çıxan maddi-mədəniyyət nümunələri eynilik təşkil edir. Bu abidələrdən çıxan materiallar əsasən monoxrom və polixrom naxışlı boyalı qablar, sadə gil məmulatı (küpə, çölmək, badya və s.), daş alətlər (dəvəgözü və çaxmaq daşından olan oraq dişləri, ox ucları, dən daşları, həvəngdəstələr, kürzlər, toppuzlar və s.), sümük bizlər, dəstəyinə ağac və ya sümük bərkidilən yastı tunc xəncərlər və müxtəlif bəzək əşyalarından ibarətdir.

Fikrimizə görə, Naxçıvan ərazisi boyalı qablar mədəniyyəti abidələrinin səciyyəvi xüsusiyyətlərinə görə həmdövr Zaqafqaziya abidələri ilə eyniyyət təşkil edir. Bu mədəniyyətə aid hasarsız, ətraflı müdafiə divarı ilə əhatə olunmuş yaşayış yerləri, siklop qalalar, torpaq, daş qutu və kurqan tipli qəbir abidələri səciyyəvidir.

Tədqiqatlar göstərmişdir ki, Naxçıvan boyalı qablar mədəniyyətinin inkişafına səbəb olan başlıca amil onun Yaxın Şərqlə, xüsusilə Urmiya və Mesopotamiya ilə sıx iqtisadi-mədəni əlaqə, yaratması ilə bağlı olmuşdu. O.H.Həbibullayevin ehtimalına görə, İran ərazisinin boyalı qablar mədəniyyətinin inkişafına, Naxçıvan boyalı qablar mədəniyyətinə öz təsirini göstərmişdir. Onun fikrincə, Naxçıvan və İran boyalı qabları formaca naxışların motivi və çəkilmə texnikasına görə oxşardır (3, s. 96-97).

Sonda bu nəticəyə gəlmək olar ki, hər bir ərazi maddi-mədəniyyətlərinin lokal xüsusiyyətlərinə malik olmuşdur. Naxçıvan boyalı qablar mədəniyyəti Yaxın Şərq, Ön Asiya ilə iqtisadi-mədəni əlaqələr nəticəsində Tunc dövründə yüksək inkişaf mərhələsinə çatmışdır ki, buna əsasən də bu mədəniyyət haqlı olaraq «Naxçıvan mədəniyyəti» kimi tanınmışdır.

## ƏDƏBİYYAT


1. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 296 s.
2. Əliyev V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 165 s.
3. Həbibullayev O.H. Kültəpə arxeoloji qazıntıları. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1959, 134 s.
4. Seyidov A.Q., Baxşəliyev V.B., Novruzlu Ə.İ., Babayev V.M. Naxçıva-

nın və Babək bölgəsinin arxeoloji abidələri. Bakı: Azərbaycan, 1995, 95 s.
5. Səfərov Y.H. Qədim Azərbaycan: nə bilirik. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1989, 155 s.

**Ариф Асадов**

## НАХЧЫВАН КАК ЦЕНТР КУЛЬТУРЫ РАСПИСНОЙ КЕРАМИКИ

В статье говорится о Нахчыванской культуре расписной керамики. Сделан вывод, что обнаруженные материалы созданы жившими на этой территории племенами. Эта культура существовала с эпохи Средней Бронзы и до начала Железного века.

**Arif Asadov**

## NAKHCHIVAN AS THE CENTRE OF PAINTED CERAMICS CULTURE

The Nakhchivan culture of painted ceramics is considered in the article. It is concluded, that the discovered materials are created by tribes, which lived in this territory. This culture has existed since the Middle Bronze Age and up to the beginning of the Iron Age.

***Rəyçilər: Tarix e.n. M.Məmmədov, tarix e.n. R.Bağırov.***
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**ALI HAGHIGHAT,**
**AMIR HOSSEIN SALEHI**
Tarbiat Modares University

# AN EVALUATION OF MENTAL NUMERICAL COGNITION OF RURAL MAN IN THE MIDDLE EAST OF NEOLITHIC AGE

Our material aspect of life appears, at a first glance at least, to have been built on numbers and figures. Whatever the system is, including dual, decimal or sexagesimal, we have computation and counting as our major engagement. We will perhaps never discover the man who first resorted to counting was: one… , two… , (no matter in what a language it was) where the man who first resorted to counting stayed and the like. However, one shall perhaps track up this river of developments with its unknown origin to a point close to the beginning. This paper is an effort for giving a well studies account of the signs of subjective counting and in other words, to provide an assessment of familiarity of mankind (epecially in the Middle East) with counting and number. We have in this direction relied on the pottery works in the Middle East (fertility crescent) that one dare call it the forms of human civilization and Iran. As for as it is apparent at first glance, stone, wood, and mud (cab and mud-brick) with time precedence to pottery and even plain ware couldn't be relied on for tracking up the signs. Such items as (Ishango) bone (ref. 10) (fig. № 1) are exceptions and what's more, they do not give us much help in coming to discovery of counters as their locations of discovery are in Africa, much far from the Middle cast (our area of interest) criticism of the statements of others about the aforementioned bones and the like is beyond the scope of this paper[1].

No evidence has remained from the ages before man came to create designs on pottery that could be relied on by us to say what a subjective counting process would be used by the man striking a core stone to work out a tool if he would at all count the strokes (in case he had an idea of numbers). On the other hand, it is rationally evident that the numbers of strokes wouldn't be of importance enough to him to count as far as they didn't lead to the maintenance of the objective he had in mind. It seems that such condition as this dominated all through the age when human being would merely take use of stone. Counting numbers and having a mental[2] concept of the same must, in principle, have de-

pended on a recognition ownership by man. The definition of ownership for the purpose of this paper is perhaps utterly different from the definition given to the word in our times and even back to the early in Bronze Age. Any discussion of the concept of ownership (of any definition or category) is beyond the scope of our paper and we avoid here to engage in the subject matter the discussion of which shall inevitable entail some discussion of philo-sophy. The purpose is how to give evidences to establish that man of middle Neolithic Age was capable of understanding the difference between a numerical concept and another concept of the similar category.

Man of the ages before the age in which he came to create designs on pottery, had been a craftsman[3] (though it may be a somewhat complicated cover word to give to Neanderthal and Homo sapiens). However, the story of the man that created designs on pottery is different. He had not only an understanding in many aspects compared to its ancestors, but also used such innovations in his designs that make as conclude that he was capable of making calculation. Unlike his ancestors, pottery designer has demonstrated to be unrealistic in that he took use of stylization in his designs. This intervention with natural rules and forms of objects suggests that he had the capacity to create a world of greater regularity and smaller entropy in his mind in addition to the real world before his eyes. A designer would as an honest narrator of reality, either refuse or fail to make a change in number of the elements he was designing according to a reality of natural elements. In case he failed, this is indicative of the point that he was void of the mental capacity of counting and understanding numbers; and this is what our hypothesis is based on however, in case he refused to make any change in the objective real number of elements (which in this case can be referred to as «a model») while he hold a true concept of e.g. the 3 cows he had painted, then the case shall go beyond the limits of objective evidences on which our paper relies and it will become a discussion of cause and effect in philosophy. In other words, we have no objective basis if known elements that helps disprove that the man residing then in Lascaux cave, as an instance, had sight (or the desire for hunting) exactly of this number of game or he designed that number of animals on the wall accidentally only.

The quality and style of the designs on pottery, from Samarra period in Mesopotamia in the least, are indicative of both the abstract nature of designs and the fact that man was conscious of what be painted and in some cases even of number of the designs he would crate.

It is not our intention in this paper to establish the commencement of a subjective process of counting in «Samarra»[4] period or even earlier, in Haji Firouz (Hasanlu X) period.

Fig 1: Ishango bone (after ref. 9)

Fig 4: specimen for 2nd experiment

Fig 3: raw specimen for 1st experiment

Fig 2: after ref. 3

Therefore, we begin with Samarra (of the same horizon as that of Susi) and continue to a later point of time so that a considerable length of time is reviewed. The point that man has evolved to this degree of perfection (the abi-lity to count) late in ruralism and early in urbanism, is extremely evident; and hence the discussion shall come to an end just as we arrive that point of time in this paper. That is tem point arriving at which we have the ground for stopping the discussion and the author shall be almost satisfied to have taken a long track of human developments.

It is evident that there is not the possibility for evaluation of numerous samples in this study. What's more, there isn't such a requirement. One may suppose that recognition of numbers was common to all the men of at least one region just the same way as was the recognition of other human development elements (recognition of pottery, taming animals, plant etc.) and that there were perhaps some differences in degree and scope of recognition. It is with such a reason in mind that we have give only few examples of any curtain age for a zone of antiquity importance (though it may be very broad in surface area).

The *symmetry* that forms the bases in this paper for the study of capability of ancient man for counting, is considered to be simply the equal number of elements in two or more components that make up a whole. The «whole» is generally considered to be a pottery or a piece of the broken object in which one may find homogenous form components. In case there is a rea-

sonable relation of «numbers» among the components of a «whole» then it can be taken as the product of a mind that not only identifies between two numbers but also recognizes and understands numerical concepts. This paper considers limited and still expressive samples from Neolithic age.

***Mesopotamia:***

The first sample from Neolithic ware of Mesopotamia studied here is a pottery of Samarra culture with a using of an Ibex[5] (fig. № 2), what is to be considered in respect of the aforesaid object and its Ibex for the purpose of this paper, is the number of lines that the artist has created to give an image of the burls on horns of the Ibex. Number of the burls on each horn is 14 (fourteen) and such an equality takes significance from the viewpoint of a cognition of numbers in mind of the potter considering the premises given in our intro-duction. One may at a first glance, consider the phenomenon a random or unintended equality of numbers. To determine the probability of such a rando-mized equality, the author made two experiments[6] the results of which are given below:

I. Without considering the age, the degree of acquaintance of the subjects with pottery[7], painting and with archeology and hence possibility that they must of their having seen the aforesaid pottery, the samples in fig. № 3 were made available to the subjects and they were asked to draw on both horn of the animal the number of lines they wished to with any accuracy and order and without having any certain idea in mind (table № 1).

II. For the second experiment, the same sample (fig. № 3) was provided to the same number of different subjects. However, they were asked this time to draw on both horns of the Ibex equal number of lines that would each exceed 10 but to do so without counting in mind and only based on a sense power or anything other then that of subjective counting. To this effect, we ensured to choose those who would from the viewpoint of age, be in condition to understand what avoidance of subjective counting meant at all (those over 20 years of age and an average degree of education). Moreover, a specimen prepared by the author was shown o the subject at the beginning of the experiment (fig. № 4) so that they might form some idea of what they were expected to do. It should be noted that the specimen prepared by the author had not equal lines on both horns of the Ibex so that any visual or mental imposition of equality would be avoided. However, the inequality had been arranged in the way that it shouldn't take sight at a first glance (table № 2).

The conclusion from the two experiments above is that the probability for creation at random of an equality between the lines on both horns of the aforesaid Ibex is a very low probability of smaller than 10% (ten percent). Moreover, one may hold that considering the difference between a prehistoric man (specially if he is, in spite of the purpose of this paper, considered to be without any subjective attitude toward numbers) and a man of the 21$^{st}$ century (who has

a full understanding of numbers free from such dements as age and education) the probability for random nature of such an equality should be considered even smaller than 5% (five percent). This small percentage will gradually become null as one considers many other factors some of which have been discussed in this paper.

…One more sample is a pottery from Tel es-Sawwan (Samarra) in which we are witness to the cycle of tertiary groups of decorative slanting lines around a container (fig. № 5). In respect of this figure one may suppose two ways of creation of numerical symmetry and equality in a plain geometric motif in two cyclic rows. The first supposition is that the ancient designer has either from the very beginning or after the creation of the first tertiary group of the motif, intentionally created equal and symmetric lines in which case we should accept the point that he had a full cognition of numbers. The second supposition is that he created the first tertiary group accidentally and then made it a model for the completion of the work. In this second case also we will come to appreciate the fact that the designer had had to form s subjective count of its own model 9 the first tertiary group) especially with the fact that the tertiary group of lines have been drawn around the container in tow distinct rows. Of course, one may, as always, consider the probability of creation at random of such a huge symmetry; the probability that is too much smell to be considered at all.

A further sample is also from the aforesaid mound (fig. № 6) here, the designer has taken use of intersection of the bands of four lines each. This is the design on a broken piece of pottery of which the figure illustrates two intact handles and a piece of some other handle on which the bund of four lines is seen. All these help us conclude that the designer has created the combination intentionally and with cognition of the number «4». A further point is that we may find with a more careful look that the band beginning at the left part is considerably smaller in width that the opposite bund (in which the lines have greater spaces in between). Now, even if one considers the smaller width of the aforesaid band because of a visual error of the designer (considering that the aforesaid band is smaller in width than its intersecting band by the width of a constituent line) one will come to the conclusion that the designer would refrain from drawing one of the constituent lines of the other band if only he had not had the intention to create exactly four lines in each band for the sake of creation of symmetry between the two bands and among all the bands forming the design. The very same design is seen on the container's neck (fig. № 7) to which apply all the premises above.

Two pieces to pottery from the same mound form our next sample (fig. № 8), the combination of designs on the two pieces of pottery create probably an image of a weeping man. It is not an important point whether or not the two pieces belong to the same container. The point to be known is that they have been drawn separately. The point of attention is here the equality and symmetry

of the lines drawn under the eyes to give an image of weeping the equality has not only been observed under the eyes in one figure but unexpectedly also in the other one. Let us suppose that the two designs belong to two separate containers. It is for from reality in that case that the designer has made both containers on the same day. Even if the two containers have been made on the same day (preferably by the same potter). Making one of the images an objective and subjective model of the latter has been inevitable. Now, let us consider (a supposition based on a greater probability) that the two figures belong to the same container. Experience has shown that in this case one figure would be created on each side of the container. However, even with the two figures created beside each other, the only way to create such equality would, as stated above, be a subjective and objective modeling.

Still another sample is from Tell Abada of Mesopotamia (fig. № 9) in which we observe two separate bands of seven lines each. The bunds beside each other and the closeness of the band to each other suggests at a first glance that then (was little possibility of a subjective counting but, considering the number of lines (seven lines) and the reasons and conclusions we had in respect of the first sample (Samarra) we dare say that the designer had no alternative choice to provide such a quality. As for the number of lines, the tripartite right column has seven lines in each part; but the left column six lines in each of the lower parts. This number of lines in this left column could be attributed to the fact that the column in the middle has only six lines. It is because as it has to some degree been known (and as experience has shown), a painter (even of our days) draws the lines following such a pattern and number, but the cause behind it can be assessed in two ways. The first is to take it an unintentional act in which case the certainty of our hypothesis saying that the drawing was based on a subjective cognition of number and on intentional selection of the number «seven» would be discriminated to some extent. The second is to follow the background coloring route (the black color) in which case we may hold that the designer has considered a smaller width for the left band and as he had first to draw the lines inside the upper part he has managed with some hardness and accuracy to include seven lines in it. However, he has not been so accurate in drawing the lines of the middle part in a continuation (it can be for any reason among which could be the avoidance from elimination of the space between each couple of lines, the overlapping of this part with the black background etc) and he has contented himself to drawing only six lines the reason to be given in support of the second idea is the fact that the lines on the right part of the column with seven lines are very close to each other (the upper part of the left column).

A further point to be explained is that there is a wider band of lines on the right side of the design that includes more than 7 lines (the exact number of lines couldn't be determined because of a fracture).

There are two possibilities here that wouldn't contradict our hypothesis.

- The possibility that the designer has for any reason, avoided the continuation of creation of a symmetry with seven lines for the remaining part of the pottery. The reasons could be the inclination for making symmetry with a number bigger than «seven» for the remaining part of designing and aside this bund; and further the inclination for creation of an overall band of such lines around the pottery. It seems that neither case would discriminate the symmetry we have hypothesized.

- We clearly our into such examples of ancient pottery in which it seems that «the designer was bored with continuation of sequence or symmetry» and this resulted in an irregularity due to hasty completion of the designs on the pottery. An example of that irregularity could (with a low probability) have taken in respect of this pottery as well. Yarim tepe, in Northern Iraq is a series of mounds. Perhaps, the most important discussion about the design of the ware discovered at Yarim Tepe II (fig. № 10) is the point we are seeking to establish in this paper. The three bunds around the container consist of 4 parallel lines each. This equality is wonderfully eye-striking at a first glance.

Fig 5: after ref.7, f:2
Fig 6: after ibid, f:3
Fig 7: after ibid,f:7
Fig 8: after ibid, f:5
Fig 9: after ref.5, f:16
Fig 10: after ref.8, f:10

***Iran***:

Relying on a chronographic priority, one may take the first Iranian sample from Sialk one witnesses on this sample (fig. № 11) that the designer

has first drawn some inverse triangles and he has taken use of lines between the rows in order to provide a decorative separation. The point worth noting for the purpose of this paper is the number of lines. Should we consider that the lines above and below each services of designs had been required for separation of each band of triangles from the background on the ware and hence exclude the aforesaid lines form the count, then what remains is the two lines that indicate, in the author's opinion, the subjective cognition of Sialk II designer of numbers. Of course our hypothesis wouldn't be discriminated even if we considered the package of lines to consist of four lines. However, we will be able to give a better explanation of our opinion with our first attitude toward the designs considering that the designer has created 3 lines instead of 4 in the band below the designs of the container. In this case one may suppose that the designer has, before creation of the band underneath, visualized to draw the two upper and lower lines to separate triangle designs (the upper to separate the series of upper triangles from the background and the lower one to separate the series of lower triangles from the background) and then, he[8] has drawn a decorative line between the two lines because of the limited space remained[9].

Fig 11: after ref. 3, p.56
Fig 12: after ref. 4, p.85
Fig 13: after ref. 2, p.193
Fig 14: after ibid, p.157
Fig 15: Schema : A.Haghighat

The pottery in fig. № 13 that belongs to «Agh Tepe» of Ghomrud[10], consists of two pieces with the approximately same design. The upper one has designs in two cows of tertiary bands that are expected to have encircled the

ware with the same number and in the same form. One shall need no additional explanation to appreciate the fact that the designer of «Agh Tepe» and the others cooperating with him in providing the designs on the lower piece of pottery had had sufficient cognition of number «3» (and hence of all numbers).

There is another mound somewhat ahead of this one at which the pottery ahs been designed in much the same way as that of the previous one following a style of vorticism (fig. № 44). Here also we are faced with bands of three lines each that lead us to the reality of having a cognition of numbers.

A division named «prehistory division» in «Museum of Ancient Iran» includes some abandoned and unknown pieces of pottery on which no broad study has yet been carried out[11]. Some of those pieces of pottery would help us with our paper. But, we avoided to discuss the same here in our paper because of the fact that their places of discovery and the period to which they might belong were unknown (they had been taken back from pothunters). We have only given two examples of the aforesaid pieces that more proper samples for our conclusion and their type of clay and temper indicated they must belong to the same millennia as did our other samples[12]. The two samples (fig. № 15). one finds a band of designs on part of which equal number of lines have been drawn symmetrically on both sides of a frame (one of which is hollow and the other one encircles a star).

Fig 16: schema: A.Haghighat
Fig 17: after ref.4. p63
Fig 18: after ibid. p60
Fig 19: after ref.1. p.129
Fig 20: after ref. 3. p.53
Fig 21: after ref .6 . f:15

On another part that is in between the aforesaid design, one finds a longitudinal design with a number of horizontal Zigzags. Zigzag lines have been

drawn equally in the bands regularly encircling each container (2 in each frame in the upper container and 3 in each frame of the lower one).

This equality and symmetry is indicative of advanced cognition of numbers by the potter. The interesting point with the lower pottery is that there is a symmetry of three lines on both sides of the hollow frames that discriminates the pentad regularity of the lines at a first glance.

Such an irregularity may in every other aspect, impact the aesthetics and uniformity of designs; but numerically it is a great help to establishment of the fact that numbers have been used consciously and knowledgeably. The point lies in the fact that the designer has sacrificed uniformity of designs for a numerically symmetry between the two sides of the frame and has conveyed the message to us that symmetry is more important that anything though he was aware of the difference between the numbers «three» and «five». It goes with-out saying here that a symmetry is based on counting and a related subjectivity.

In the same museum, there is a very well-known piece of pottery[13] from «Tell Bakun» (fig. № 16) the designer has taken use of numbers «five» and «two» to decorate this large pottery. Three bands of five crooked lines each have been created around eh container with both sides of the each band encased by vertical lines considering the large size of the container, one may establish, beside the ordinary conclusion drawn from this paper, that the designer has ensured to have the number «five» in his mind before commencement of de-signing or after he created the first band of five lines. Another interesting point is the clear sign of counting that is indicated by the five fingers the designer has created for each of the six hands of the three men stylized and designed on the pottery. Each of the stylized men has been designed in between two of the aforesaid bands. Of course, it is not far from reality to think of such a cognition of numbers considering the presence of man in Bakun (the container is probably from the layer AIII of Bakun). But, there are other samples much earlier in time indicatng some other type of symmetry and subjective cognition of numbers.

In Western Iran and perhaps somewhat before the designer in Sialk, in Haji Firouz of Azerbaijan, another designer has taken use of another type of number combinations to decorate pottery (fig. № 17). He has used intermittently 4 and 5 lines that indicate an admirable cognition about numbers[14].

Such decorative expression of numbers can be seen in the same millennium and in much lower geographical status that is in the era of Mohammad Jafar Dehluran (fig. № 18) Here, the designer takes some other (some what preli-minary) use of periodicity of numbers «three» and «four» and has left a sign of his cognition of numbers[15]. Of course, in a period not far from this one and in a location that wasn't either far from Dehluran that is, in Choghamish we are faced with a sample (fig. № 19) that gives a simple symmetry (or we'd better say an intersection) of three lines that is expected in fact to have been

repeated all over the container and to tell us about a subjective cognition of numbers.

The pottery from «Dalma Tepe» (fig. № 20) discussed in out paper, can be considered to be an amazing sample of gracefulness and also a sign of what takes importance in this paper that is, a subjective cognition in respect of numbers.

All constituents of this pottery are signs of symmetry and subjective cognition (and perhaps of objective cognition at this point). One shall clearly find out this fact upon looking at the symmetry of the numbers «3», «5», and «8». The symmetry is wonderfully significant for number «5». Of course, this certain case could be studied with some elaboration.

Could this design be attributed to counting or is it only a demonstration of pictorial imagination of the designer[16].

Man has perhaps known numbers and has in some way been familiar with their applications since thousands of years before.

We use the term «perhaps» because we have no well-documented evidence of this. Objective signs of such cognition go back to the age of development of country systems (and of course written forms) in Babylon and perhaps to an earlier age in Egypt. But, could one suppose that man has only as recent as the aforesaid ages, come to know numbers?

The answer to this question is certainly «no».

We spoke of the signs in this paper that could be considered as reasons for the existence of some subjective cognition in respect of numbers.

One couldn't speak of the first one who became familiar with numbers or of the first region in which man began to develop an understanding of numbers just the same way as one couldn't certainly speak of the fist potter, the fist architect, or the first inventor of wheels. It is reiterated that this paper is not (and may not be) intended to determine the fist trend that man took to know numbers; however, it provides for us to become closer to the signs that our ancestors have left to us.

Considering the premises above we dare say that the man residing in fertility crescent had been familiarity with numbers since a point of time before Hassuna and Jarmo (though we have no evidence of the same)[17]. On the other hand, should we consider the creativity of mankind a product of mental development with an outcome of the same to have been recognition of numbers and should we add that the trend of this mental development has been ace-lerated compared to previous periods in an age coincident with «Natufians», then we shall perhaps find some signs of mental recognition of mankind about numbers in the Middle East of Mesolithic (or Epipaleolithic) Ages. One requi-res a broad study and discovery objective evidences to get rid of irrational, ego-centric and imaginative reasoning.

***Dedication***: With special thanks to my dear professor, ***Dr. Ali reza Hejebri Nobari***, the instructor of T.M.U., for reading this paper; without whose kindness and his attention, its could not be accomplished.

[1] - It shall suffice here to pose that it shall not be logical to suppose that a human being (no matter he was a Neanderthal or Homo sapiens) would, about 20.000 years before our time, have the requirement to know the days of her periodical monthly menorrhagia basing her count of days on lunar months and considering prime numbers. It is for from rational to suppose that the man of those days was so much familiar with numbers (an admirable cerebral development) and however it took twelve-thirteen thousand year for that same man to create a reasonable system of mathematics. What further worsens such a supposition is that wan has experienced a continuous progress and development in al aspects of physical and mental life all through the aforesaid 12-13 thou-sand years and evidences are to be found in evolutionary trend in Mesopotamia and other parts of the world. One may suppose that these lines are some expressions of count of human beings and objects. They are in this case indi-cative of recognition of numbers by their designers; but, there is no evidence of this and one shouldn't proceed with a more supposition. Anyway, we believe that considering these lines as means of counting seems more logical than attributing to them any other application.

[2] - The attribute «Subjective» has been used in the paper because one may speak of objective cognition only when we engage in numbers in their real meaning in the same way us it took place early in development of literature (when man come to learn how to provide objective expression of his mental process of activities).

[3] - …and a craftsman, at least with the definition the word is given for those times, wouldn't think of symmetry and the use of a symmetry of numbers so that one could discover an evidence of conceptual cognition of numbers pointing in itself is not indicative of such a mental development or conceptual growth for us to conclude that the man of those days had grown the capability to count in other words; one couldn't say that painting is indicative of activation of many other capabilities that had been potential capacities of the man of those days.

[4] - The reason behind this point is that it is impossible to observe the any pottery discovered that may belong to earlier period. Moreover, there is no hypothesis in human sciences that could escape some degree of error.

[5] - Ibex is the very common motif of Mesopotamian and Iranian Civilizations that may be found on both pottery and other products of art of ancient man such as figurines, signets etc.

[6] - The reason for out application of those experiments to this sample was because of complexity and higher importance of the sample. Symmetry in any other sample is simple and expressive. On the other hand, the experiments of this

type on the man of our days bring results that are rarely acceptable. As an example, should we ask a person to draw lines on both sides of a rectangular frame (as seen for sample № 15) so that we might check its symmetry or asymmetry, we will find that the subject shall most probably use counting and the probability for the symmetry of his drawing shall be senselessly high.

[7] - It was found after the experiment that none of the subjects had had any previous familiarity with ancient pottery and the pottery in question.

[8] - What the designer has applied in his work and the subjective cognition he had had of the numbers came down through generations and emerged in a different and cleaver form in Layer 5, Sialk III (that seems normal considering the passage of so much time – fig. 12). The two banks of crooked lines seen beside each other, also give some further hint of subjective cognition of num-bers.

[9] - This reveals that if we have a correct hypothesis and attitude toward the design of this pottery, the ancient potters had had a mental image of the whole design before they designed the pottery and that they wouldn't use any rough sketch (of the type the painters of our days prepare before the create the original work and make any modifications in them).

[10] - Ghomrud is somewhat ahead of Sialk and it is a broad zone two ancient points of which were of great to us in coming to know the acquaintance of ancient man with numbers.

[11] - I am greatly thankful to the officials of this division for having let me have an access to the pieces. It should be noted that the revered officials of that division are engaged in a broad research on the objects of cultural value in which I hope they will come to helpful results.

[12] - There are containers with very close similarity of their designs to the aforesaid images that have been discovered in underneath layers of «Tepe Giyan». On the other hand, some designs of this type have been found in lower layers of Sialk

[13] - The author couldn't give exact details of the aforesaid container as it had not identification code as this paper was being prepared.

[14] - No clear comment could be given about the hatched triangles of this pottery on which many triangles in spite of their age and perhaps of the pottery technique used in them.

[15] - The two potteries just mentioned are perhaps the oldest potteries of this article however, regarding the progress of number-cognition (in contrast their age or even the techniqne used in them) they are the most developed potteries… Therefore, we may comment that: firstly, recognition of man of numbers and the evidences of such as recognition should be sought back to an earlier time in history, an example is what was discovered in «Ain Ghazal», Jordan – fig. 21 – based on which we didn't begin a study of subjective recognition in respect of numbers after it had been evaluated (specially with researchers having called it a game); secondly, one can hold as a presupposition that this subjective cog-

nition of numbers has, in Iran, been transferred eastwards from the west (west Iran, Lavant district and Mesopotamia)

[16] - That may have been according to a real model such as the mud-bricks that are stacked regularly over each other without having an idea of their number, however.

[17] - We considered these ages as those of probable perfection of numerical understanding of man for two reasons; firstly, considering a sample from Haji Firouz that is almost coincident to Jarmo and Hassuna; and secondly, one way hold with some reasonable understanding about archeological development of man that the man having left for many sings of the presence of number in daily life in the seventh and sixth millennia, had had full recognition and application of numbers at least 1-2 Millennia before them.

## BIBLIOGRAPHY


1. Alizadeh A. Prehistoric settlement, Pattern and Culture in Susian, southwestern Iran: the analysis of the F.G.L. Gremliza survey collection trans. of Papoli yazdi, Leila and Omran Garajian. Tehran: I.C.H.O., 2003.
2. Kaboli Mir A. Archaeological investigations in Ghomrud. Tehran: I.C.H.O., 1999.
3. Kambakhsh Fard S. Pottery in Iran: from Neolithic to modern ages. Tehran: Ghoghnus press, 2000.
4. Towhidi, F. Pottery Technique and Art. Tehran: Sa.M.T. press, 2000.
5. http://www.art.man.ac.uk/ARTHIST/ay2091/sites/Abada/1/Abada-1.htm.
6. http://www.art.man.ac.uk/ARTHIST/ay2091/sites/Ghazal/AinGhazal-1.htm.
7. http://www.art.man.ac.uk/ARTHIST/ay2091/sites/Tell%20es- Sawwan/ Sawwan2.htm.
8. http://www.art.man.ac.uk/ARTHIST/ay2091/sites/YT2/YT2-2.htm.
9. http://www.i-lo.tarnow.pl/edu/inf/alg/primes/pages/001.htm.



**Əli Həqiqət, Əmir Hüseyn Salehi**


## ORTA ŞƏRQDƏ NEOLİT DÖVRÜ İNSANLARININ SAY SİSTEMİNDƏN ŞÜURLU İSTİFADƏSİ

Qədim cəmiyyətin tarixi ilə tanışlıq göstərir ki, digər arxeoloji tapıntılar kimi, fiqurların da öyrənilməsi olduqca əhəmiyyətlidir. Arxeoloji tapıntılar o zaman əhəmiyyətli olur ki, biz onların vasitəsi ilə insanın incəsənət və texnologiyaya yiyələnməsi haqqında, meydana gələn sivilizasiyalar və bu sivilizasiyaları yaradan insan haqqında müəyyən təsəvvür əldə edirik. Araşdırmalar qədim insanların ən mühüm kəşflərinindən birinin boyalı qablardan ibarət olduğunu göstərir. İndiki mərhələdə biz boyalı qablar üzərində

təsvir edilən rəsmlərin formalarına və simmetriyasına əsaslanaraq say sisteminin işlədilməsini şərh etmişik.

**Али Хагигат, Амир Хусейн Салехи**

## ОЦЕНКА СОЗНАТЕЛЬНОГО ПРИМЕНЕНИЯ ЧИСЕЛ НЕОЛИТИЧЕСКИМ ЧЕЛОВЕКОМ НА СРЕДНЕМ ВОСТОКЕ

Знакомство с историей человечества показывает, что изучение фигур имеет значение, как и другие археологические находки. Археологические находки имеют значение тогда, когда мы с их помощью получаем определенное представление об овладении человеком искусствами и технологиями, о зарождающихся цивилизациях, а также о людях, которые эти цивилизации создали. Исследования показывают, что одним из значительных изобретений древнего человека была расписная керамика. В этой статье мы комментируем применение чисел древним человеком, основываясь на форме и симметрии изображений на расписной керамике.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, tarix e.d. V.Baxşəliyev, dosent R.Hejbəri.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**TÜRKAN QƏDİRZADƏ**
AMEA Naxçıvan Bölməsi

# UŞAQLARIN SAĞLAMLIĞININ QORUNMASI VƏ KÖRPƏLİK DÖVRÜNDƏ İCRA OLUNAN MƏRASİMLƏR, AYİNLƏR

Həyatın üç önəmli (doğum, ölüm və axirət) hissəsindən ilki olan doğum dünyanın bütün xalqlarında sevindirici hal olaraq qəbul edilir. Doğumdan sonrakı müddətdə xalq arasında icra olunan bir sıra mərasimlərin geniş şəkildə araşdırılmasına böyük ehtiyac vardır. Bunu nəzərə alaraq bu məqalədə körpənin göbəyinin kəsilməsi, diş çıxarması, gec yeriməsi zamanı icra olunan mərasimlərdən bəhs edəcəyik. Toplanan etnoqrafik materiallara əsaslanaraq demək olar ki, uşaq doğulduqdan sonra onun göbəyinin kəsilməsinə xüsusi önəm verilmişdir. Keçmişdə göbək kəsilən zaman körpəyə ad qoyular və bu onun «göbək adı» adlanardı. Günümüzdə isə doğulan uşaqlara «göbək adı» qoyulmur. Yaşlıların verdiyi məlumata görə, uşağa «göbək adı»nın verilməməsi günah sayılır. Deyirlər ki, hər bir insan Axirətdə «göbək adı» ilə çağırılacaqdır. Digər inama görə, «göbək adı»nı qoymaqda əsas məqsəd şər qüvvələri körpədən uzaqlaşdırmaqdır.

Xüsusi diqqət verilən məsələlərdən biri də göbəyin kim tərəfindən kəsilməsidir. İnama görə, körpənin göbəyini kim kəssə, gələcəkdə onun xüsusiyyətləri uşaqda da olar. Keçmişdə göbək kəsildikdən sonra onu ağ rəngli (sap əvvəlcədən qaynadılar, sonra istifadə olunardı) sapla möhkəm bağlayarmışlar. Ağ rəngli sapla bağlamaqda əsas məqsəd gələcəkdə uşağın ruzisinin bol olması ilə əlaqəlidir. Göbək kəsildikdən sonra onu möhkəm bağlamadıqda gələcəkdə körpədə müəyyən xəstəliklərin olacağına inanırmışlar. Qaraçay türklərində isə uşağın göbəyini kəsdikdən sonra onu ananın saçı ilə bağlayırmışlar (1, s. 358). Qız uşağının göbəyini kəsəndə onun qanından yanaqlarına və dodaqlarına vururlar ki, böyüyəndə gözəl olsun. Eyni zamanda qız uşağının göbəyini bulaq başına, su kənarına basdırarmışlar ki, gələcəkdə səliqəli və evdar olsun.

Etnoqrafik materialların araşdırılması sübut edir ki, kəsilmiş göbəyə münasibət bölgələr üzrə fərqlənir. Kəngərli rayonunun Şahtaxtı kənd sakini İmanova Sona Cavad qızının verdiyi məlumata görə, doğulan uşaqların göbəklərini ayrı-ayrı olmaq şərti ilə göy və ya yaşıl rəngli parçaya büküb xüsusi qaba qoyub evdə saxlayarmışlar. Bundan müəyyən məqsədlərlə

istifadə edərmişlər. Uşaq göy öskürmə və ya sarılıq olduqda öz göbəyini suya salıb ona içirərmişlər. Oxşar adətə altay türklərində də əməl edilmişdir (10, s. 98). L.A.Firşteyevin məlumatlarından aydın olur ki, Xarəzm Özbəklərində də uşaqların düşmüş göbəkləri eyni məqsəd üçün saxlanılır (9, s. 200).

Digər inama görə, uşağı şər qüvvələrdən qorumaq üçün kəsilən göbəyi parçaya büküb beşiyə asar, uşaq böyüdükdən sonra isə onu aparıb barlı ağacın dibinə basdırarlar. Uşağın göbəyini barlı ağacın dibinə, dini kitabların içinə qoymaq, məktəbin, xəstəxananın həyətinə basdırmaq adəti də vardır.

Kərkük Türkmənlərində isə uşağın göbəyini kəsdikdən sonra onun büküldüyü parçanı yandırıb, külünü uşağı olmayan gəlinlərin başına tökürlər. Bu «göbək tozu» adlanır (2, s. 306).

Anadolu türklərində isə uşağın göbəyi kəsilən bıçağı evdə saxlayırlar. Qızlar ərə gedərkən həmin bıçağı özləri ilə cehiz aparar, oğlanlar isə yastıqlarının altına qoyarlar.

Toplanmış etnoqrafik materiallara söykənərək demək olar ki, körpənin dişlərinin rahat çıxması üçün xalq arasında müəyyən inamlara əməl olunur. Uşağın ilk dişi çıxanda hədik qoyub (bişirib) qonşulara və qohumlara paylama adəti geniş yayılmışdır. Kəngərli rayonunun Qarabağlar kəndindən toplanan rəvayətə görə, yoxsul bir qadın uşaqlarına verməyə heç nə tapa bilmir. Uşaqlardan kiçiyi süd dişi çıxarırmış. Körpənin ağladığını görən ana onları sakitləşdirmək üçün 7 daşı götürüb qazana atıb qaynatmağa başlayır. Bir az keçəndən sonra gözəl bir iy ananı vurur, qazanın ağzını açıb görür ki, qazanda 7 ləvin (buğda, qağrıdalı, noxud, lobya, süd, duz, su) olan hədik qaynayır. Beləliklə, uşağın dişi çıxanda o vaxtdan hədik qoyulması adəti yaranmışdır. Xalq arasında olan inama görə, uşaq deyir: «Anam, atam bilsələr ki, mənim dişlərim necə çətin çıxır, anam başının yaylığını, atam papağını satıb buğda alar və hədik qoyub paylayarlar». Deyirlər ki, ilk diş çıxanda hədik qoyulmasa, körpənin o biri dişləri gec çıxar və böyüyəndə də tez tökülər. Diş hədiyindən heç kim yemədən 7 buğda dənəsini sapa düzüb uşağın üstünə asarlar və ya onun suyundan uşağa dadızdırarlar ki, dişləri rahat çıxsın və möhkəm olsun. Deyirlər ki, hədikdən heç kim yeməmişdən toyuqlara, quşlara, qarışqalara pay verilməlidir ki, uşağın dişinin ağrısı onlara getsin, körpənin dişi rahat çıxsın. Yuxarıda göstərdiyimiz kimi, qoyulan hədikdən yaxın qohumlara, qonşulara pay vermə adəti vardır. Hədiyin yerinə isə müəyyən hədiyyələr (uşağa paltar, corab, papaq, pul) qoyaraq geri qaytarırlar. Diş hədiyinin yerinə qoyulan ilk paltarı uşaq geyinməlidir. Anadolu türkləri arasında olan inama görə, körpənin ilk dişini görən adam ona hədiyyə almalıdır. Diş hədiyi bişirib paylama adəti Quzey İraqda yaşayan türklər, kırmançlar, qaqauzlar arasında da mövcuddur (3, s. 111).

Özbəklərdə uşağın ilk dişini görən adam «dişi çıxıb» deməz, «birinci çıxdı» deyər (4, s. 261). Naxçıvanın bəzi bölgələrində isə uşağın ilk dişini görən adam ona ağ rəngli paltar alar və köhnə paltarlarından birini cırar ki, dişləri tez çıxsın.

Uşağın dişinin alt və üst damaqdan çıxması ilə bağlı müəyyən inamlar vardır. Üst damaqdan diş çıxaran uşaqlar haqqında deyirlər ki, bu ruzisini yerdən, alt damaqdan diş çıxaran uşaq isə ruzisini Allahdan istəyir. Üst damaqdan diş çıxaran uşaqların gələcəkdə bilikli, ağıllı olacağına inanırlar. Uşağın dişi üst damaqdan çıxanda bunu gizlədirlər. Deyirlər ki, düşər-düşməzi olar. Ona görə də həmin ailədə qurban kəsilib paylanmalıdır. Bəzi uşaqların dişi çətin çıxır. Bunun üçün çıxacaq olan dişin yerinə soğan sürtürlər.

Qaraçay-Balkar türklərində də «diş hədiyi» mərasimi «tiş cırna» adlanır. Böyük qazanlarda buğda, qağrıdalı, noxud bişirilir. Sonra ona kişmiş də qatılır. Yaxın qohum və qonşular evə çağırılar, körpəni görməyə gələnlər ona müəyyən hədiyyələr gətirərlər. Hədik yeyilib qurtardıqdan sonra uşağın atası və ya anası onun başından bir ovuc qağrıdalı töküb deyər: «Dişlərin də qağrıdalı kimi çıxsın, İnşallah». Eyni zamanda «tiş cırna» mərasimdə iştirak etməyənlərə, xəstələrə də pay göndərirlər (1, s. 362).

Etnoqrafik materiallardan məlum olur ki, uşağın süd dişi düşüb yerinə başqası çıxanda onu təndirin küfləsinə atıb deyir ki, balta dişimi verdim sənə, mərcan, inci dişini ver mənə. Digər türk xalqlarında isə süd dişinə münasibət fərqlənir. Qars, İqdır və ona yaxın bölgələrdə uşaq süd dişini səmaya atıb deyir: «Qurdlar, quşlar çürük dişimi alın, mənə dəmir diş verin». Qaqauzlarda isə dişi çörəyə batırıb qarğaya atıb deyirlər: «Qarğa-qarğa, sənə çürük diş verirəm sən də mənə dəmir diş ver» (3, s. 111). Türkmənlərdə isə uşağın dişini at ayağını qoyduğu yerə basdırırlar (5, s. 25).

Toplanan materiallardan aydın olur ki, müəyyən yaş həddinə kimi uşağın hər bir hərəkəti üçün kiçik də olsa, mərasim keçirilmişdir. Xüsusi diqqət verilən məsələlərdən biri də 1-3 yaşına kimi uşaqların gec yeriməsi və gec danışmasıdır. Yaşlıların verdiyi məlumata görə, körpənin ayağının altından öpməzlər, bunu uşağın gec yeriməsi ilə əlaqələndirirlər. Xalq arasında gec yeriyib, tez danışan uşaqlar haqqında, «dili ayağını basıb», və ya «ayağı bağlı» – deyirlər. Etnoqrafik materialların araşdırılması sübut edir ki, uşağın gec yeriməsi, gec danışması, ayaqlarının bir-birinə dolaşması onun çiləli olması ilə bağlıdır. Yəni qırxlı vaxtı atası və ya başqa biri uşağın üstünə gəlir, onun çiləsi körpəni basır. Bunun üçün xalq arasında müəyyən inamlara əməl olunur. Belə uşağı üç dəfə atasının ayaqları arasından keçirirlər. Bəzi kəndlərdə isə körpəni ev qapısının giriş hissəsinin başında tuturlar ata onun altından keçib evə girir. Çiləni kəsmək üçün icra olunan digər inama görə, anası uşağı xəlbirdə qapının ağzına qoyub evin zibilini körpə-

nin üstünə süpürüb deyər: «Ellər qaçdı, sən də qaç». Sonra həmin zibil küllüyə atılır. Deyirlər ki, bununla da uşağın çiləsi küllüyə atılmış olur.

Bəzən də çilə basan uşağı cümə axşamları su üstünə aparıb, «suyum, səni xoş gördüm, körpənin çiləsinin yerini boş gördüm» – deyərlər. Sonra suyu bıçaqla və ya xəncərlə doğrayırlar. Uşağı çilə basanda onu üç dəfə tüfəngin qayışından keçirmə adəti də vardır. Deyirlər ki, uşağın çiləsi silahı basar, bundan sonra o düz atmaz.

Digər inama görə, uşaq gec yeriyəndə anası körpənin ayaq barmaqlarını iplə bir-birinə bağlayıb qıfıl vurub xəlbirə qoyar. Onun yanına pul, qayçı qoyar və buğda tökərək yol boyu heç kimlə danışmadan naxır ayağına aparar. Çoban çöldən qayıdanda ana deyər: «Ay çoban, inəklərinin ayağını mənim uşağıma ver, qoy bu da ayaq tutub yerisin». Çoban uşağın barmaqlarında olan ipi kəsib, üç dəfə «bu uşağın çiləsini kəsdim» – deyər. Çoban uşağı anasından alıb kəndi gəzdirdikdən sonra gətirib valideyininə verib deyər: «İnəklərimin iki ayağını uşağa verirəm, körpə dağ-daş kimi bərk olsun». Uşaq yeriyəndən sonra valideyinləri, nənəsi, babası çobana xələt verərlər.

Ordubad bölgəsində isə gec yeriyən uşağın ayağına gecədən qıfıl vurub yatırdırlar. Səhər tezdən körpənin ayağında olan qıfılı əkiz uşağı olan ana və ya qaynı ilə evlənmiş qadın açar. Bundan sonra ana uşağı xəlbirə qoyub 7 qapıya aparıb «çolağa çörək yığıram» – deyər. Evlərdə ona bir tikə çörək verərlər, ana yığdığı çörəkləri suya salıb həmin suyu uşağa içirər.

Anadolunun Qars və Ərzurum bölgələrində gec yeriyən uşaqların baş barmaqlarını və ya ayaq biləklərini bir-birinə bağlayıb 3 cümə günü məscidə aparırlar. Cümə namazından çıxan ilk adam «Bisimillah və 3 dəfə tu, tu, tu» – deyib, ipi kəsər (6, s. 22). Uşaq ilk ayaq açanda onun ayaqların arasından çörək keçirib həmin çörəyi gec yeriyən uşaqlara yedirdərlər.

Qaraçay-Balkar türklərində uşaq bir yaşı tamam olduqdan sonra yeriməzsə, un, yağ, qənd, qatıq, yumurta və üzüm qatılaraq «yaş çörəyi» bişirilir. Bu «cıl girqan» adlanır. Çörək hazır olduqdan uşağın nənəsi onu qohum və qonşulara paylayar. Deyirlər ki, bu mərasimdən sonra uşaq yeriyərmiş (3, s. 114).

Uşaqların gec danışması zamanı da müəyyən inamlara əməl edirlər. Uşaq gec danışanda xəmirəni (ilin axır çərşənbəsində götürülən su ilə xəmir yoğurub ondan bir az götürüb evdə saxlayırlar) suya salıb körpəyə verirlər. Bəzən də çörək bişirləndə onun üstünə vurulan «dəstov» (təndirdə çörək bişirərkən istifadə olunan su) suyundan uşağa içirirlər. Geniş yayılmış adətlərdən biri də gec danışan uşaqlara xan nəslindən gələn birinin yediyi yeməkdən alıb ona yedizdirməkdir. Ordubad bölgəsindən toplanan materiallardan məlum olur ki, dili qüsurlu olan və gec danışan uşaqlara Qurban bayramında kəsilən heyvanın dilini bişirib yedirdirlər. Uşaq gec danışanda nənəsi onu inək bağlanan yerə bağlayıb, barlı ağacın budağı ilə yavaş-yavaş

vuraraq: «Atsan kişnə, ulaqsan anqır, itsən hür, insansan danış» dedikdən sonra, onun ağzını açarla açar. Noqay türklərində isə uşaq gec danışanda nənəsi qaşıqla körpənin ağzına vurar (7, s. 239).

Etnoqrafik materiallardan məlum olur ki, uşağın kəsilən ilk dırnaqları və saçı ilə bağlı bəzi qadağalar mövcuddur. Uşağın ilk dırnaqları (bu «qarın dırnağı» adlanır) atılmır, yastığın içinə qoyulub saxlanılır. Bir qayda olaraq körpənin dırnaqları bir yaşına qədər qayçı ilə kəsilmir, ana öz əlləri ilə onları təmizləyir. Anadolu türklərində isə ilk dırnaq kəsmə «köstek kesme», «köstek kırma» adlanır. Zaza türklərində uşağın ilk dırnağını kəsəndə ana körpəni qucağına alıb evdən həyətə çıxarır. İçi konfet, fındıq, şirniyyat dolu səbəti uşağın qucağına qoyar. Səbətdə olan şirniyyatlar məhəllənin uşaqlarına paylanar və ilk konfet götürən adam körpənin dırnaqlarını kəsib anasından hədiyyə alar. Həmin dırnaqları meyvə ağacı olan bağa basdırarlar. Bu uşağın gələcəkdə ruzisinin bol olması ilə bağlıdır (4, s. 260). Anadolunun bəzi bölgələrində körpənin ilk dırnağını kəsmədən əvvəl onun əllərini atasının cibinə salar, özbək türklərində isə uşağın əllərini una batırarlar (4, s. 260). Bu adət Arnavutlularda da vardır (8, s. 31).

Yekun olaraq demək olar ki, körpəlik dövründə icra olunan mərasimlər, adətlər və inamlar digər türk xalqlarının məişətində də mövcuddur.

## ƏDƏBİYYAT


1. Kalafat Y. Balkanlardan Uluğ Türküstana türk halk inançları (Afqanistan, Tacikistan, Özbekistan, Türkmenistan, Karakalpakistan, Naxçıvan / Azərbaycan, Kuzey Kafkasya / Dağıstan, Türkmeneli / Irak, Suriye, Anadolu, Makedoniya, Türkmen-i Sahra / İran, Alasya / Kıbrıs, Batı Trkaya-Rodas / Yunanıstan Türkmenleri). VII c., Ankara: Berikan yayın, 2007, 420 s.
2. Kalafat Y., Ahmet D. Quzey İrakta karşılaştırmalı türk halk inançları. Ankara: Ecdad yayınları, 1995, 62 s.
3. Kalafat Y. Karşılaştırmalı Noqay-Türk halk kültürü / AE, 2006, s. 226-242.
4. Kalafat Y. Balkanlardan Uluğ Türküstana türk halk inançları (Makedonlar, Arnavutlar, Torbeşler, Çingeneler, Türmen-i Sahra, Lazlar, Yörükler, Varsaklar, Çiğiller, Musallalılar, Koçu Babalılar, Ceritler). IX-X c., birinci baskı, Ankara: Berikan yayın, 2006, 270 s.
5. Фириштейн Л.А. О некоторых обычаях и поверьях, связанных с рождением и воспитанием, у узбеков Южного Хорезма / Семья и семейные обряды у народов Средней Азии и Казахстана. Москва: Наука, 1978, с. 189-208.
6. Чанчибаева Л. О современных религиозных пережитках у алтайцев / Этнография народов Алтая и Западной Сибири. Новосибирск: Наука,

1978, с. 90-103.

**Туркан Гадирзаде**

## ЗАЩИТА ЗДОРОВЬЯ ДЕТЕЙ И ОБРЯДЫ, ИСПОЛНЯЕМЫЕ В ПЕРИОД МЛАДЕНЧЕСТВА

Некоторые обряды, исполняемые в народе во время после рождения ребенка, нуждаются в исследовании. В связи с этим в данной статье были подробно исследованы обряды, исполняемые во время перерезывания пуповины, появления у младенца зубов, а также в случае, когда ребенок поздно начинает ходить. Во время исследования было выяснено, что некоторые обряды и верования практиковались также и у других тюркских народов.

**Turkan Gadirzade**

## PROTECTION OF CHILDREN'S HEALTH AND CEREMONIES CARRIED OUT DURING INFANCY

Some ceremonies carried out among the people in the period after a child's birth, require a research. In this connection the ceremonies carried out during cutting an umbilical cord, when a baby is teething, and also if a child late starts to walk, are investigated in the given article in detail. During the research it is revealed, that some ceremonies and beliefs existed as well among the other Turkic peoples.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, tarix e.d. H.Q.Qədirzadə, AMEA-nın müxbir üzvü tarix e.d. V.Baxşəliyev.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**ASƏF ORUCOV**
AMEA Naxçıvan Bölməsi

# AİLƏLƏRİN ƏNƏNƏVİ QIŞ HAZIRLIĞI MƏSƏLƏSİ
## (Naxçıvan materialları əsasında)
## (I məqalə - bitki mənşəli məhsulların hazırlanması)

Qədim dövrlərdən başlayaraq günümüzə qədər insanlar qida əldə etmək üçün daim çalışmış və mübarizə aparmışlar. Onlar əvvəlcə bunu təbiətdən hazır şəkildə almış, sonralar isə ictimai inkişafın gedişi prosesində özləri çeşidli yeməklər hazırlamaq vərdişinə yiyələnmişlər. Bu baxımdan yeməklər xalqın maddi mədəniyyətinin əsas tərkib hissələrindən birini təşkil edir. Xalqın qidalanmasını öyrənmək üçün həmin xalqın təsərrüfat məşğuliyyətinin əsas sahələrini müəyyənləşdirmək ən vacib şərtlərdən biridir.

Qida məhsulları bir qayda olaraq iki tərkibdə qruplaşdırılmışdır. Birincisi bitki mənşəli məhsullar, ikincisi isə heyvan mənşəli məhsullar. Bu da onunla əlaqədardır ki, xalqımızın təsərrüfat məişətində hələ qədim zamanlarda aparıcı sahə kimi maldarlıq və əkinçilik geniş yer tutduğundan yeməklərdə bu iki təsərrüfat sahəsinin məhsulları daha üstün olmuşdur. F.Vəliyev yazır ki, bu məhsulların əldə edilməsi, hazırlanması və istifadə qaydalarında bir sıra spesifik-lokal xüsusiyyətlər özünü göstərir. Habelə bir sıra sosial-iqtisadi vəziyyət və etnik-məhəlli xarekterik cəhətlər də özünü büruzə verir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsi əhalisinin kulinariya mədəniyyətinin formalaşmasında bu sadaladığımız amillər mühüm rol oynamışdır (7, s. 57). Bu yeməklər həm də ciddi mövsümi səciyyəsi ilə diqqəti cəlb edir. Qədim zamanlardan başlayaraq insanlar ilin fərqli dövründə hansı məhsuldan daha çox istifadə edilməsini bilirdilər. İlin isti dövründə bitki, tərəvəz məhsullarından alınan yeməklərə, bundan fərqli olaraq soyuq fəsillərdə isə isti yeməklərə (xəmir, ət xörəklərinə) üstünlük verilmişdir. Y.V.Çəmənzəminli yazır ki, Azərbaycanda təbiət hər bir şeyi «istilik» və «soyuq» deyə iki yerə ayrır. Məsələn: istiot, şirniyyat istilikdir, qarpız və kartof soyuqluqdur (2, s. 85).

İnsanlar qışda istifadə ediləcək yeməklərin ilin hansı dövründən tədarük edilməsinə diqqət vermişlər.

Bitki mənşəli yeməklər insan həyatında ilk dövrlərdən mühüm rol oynamışdır. İnsanlar qış fəslini başa vurub yaz fəslinə qədəm qoyduqda,

bütün ərzaq məhsullarının tükəndiyi bir vaxtda daha çox bitki mənşəli yeməklərlə qidalanırlar. Yabanı bitkilərlə qidalanmaq əcdadlarımızın ilkin çağları ilə, əsas məşğuliyyətləri yığıcılıq olduğu bir zamanla səsləşir. H.Q.Qədirzadə yazır ki, hər şeydən öncə yığıcılıq ailələrin qış ehtiyatlarının hazırlanmasında və gündəlik tələbatlarının ödənilməsində ciddi rol oynayırdı (5, s. 102). Yabanı halda bitən qazayağı, şomu, ələyəz, cacıq, şeb (Şahbuz rayonunun Kükü kəndində dihçə adlanır), çobankirmidi, xatunbarmağı, unnuca, salmança, livik və s. göstərmək olar. Bu bitkilər qədim dövrdən başlayaraq günümüzədək erkən yazda həm kənd ailələrinin qida mənbəyinə çevrilib, həm də qış ərzaq ehtiyatı üçün tədarük edilib. Məsələn: cacığı (əsasən qırmızı cacığı) torpaqdan təzə çıxanda yığıb qurudurlar. Qurudulan zaman kölgəli yerə sərilir ki, öz rəngini itirməsin. Qurudulub qışa saxlanılan yabanı bitkilərdən biri də şebdir. Bəzi kəndlərdə bunu şıpbır, dihçə və əvəlik adlandırırlar. Erkən yazda yığıb quruludan bitkilərdən kəfkilə, kəvər, ələyəz və s. kimi ot bitkilərini də qeyd etmək olar. Bunlardan qışda duru yeməklər, plov üçün «üz-göz» hazırlayarkən istifadə edilir. Bununla yanaşı kəvərdən qış üçün turşu da qoyulur. Onu da qeyd edək ki, bu işlə əsasən qadınlar məşğul olar.

Bitki mənşəli ərzaqların içərisində çörək xüsusi yer tutmuşdur. İlin bütün fəsillərində istifadə edilir. Əcdadlarımız arasında çörək müqəddəs bilinmiş, insanların and yerinə çevrilmişdir. Çörəkdən ilin bütün fəsillərində istifadə edilməsinə baxmayaraq, insanlar qış çörəyinə xüsusi fikir vermişlər. Payızın «qəps» ayında insanlar 7-8 pud unun çörəyini yapıb qış üçün tədarük görərdilər. H.Həvilov bu haqda yazır: «Çörək hər bir ailə üçün 3-7 günlük müddətə bişirilirdi. Başqa bölgələrdən fərqli olaraq Naxçıvanda isə uzun müddət üçün (3-4 aylıq) lavaş hazırlanırdı (4, s. 165). El arasında bu «qış çörəyi» adlanırdı.

Onu da qeyd etmək istərdik ki, keçmişdə hər bir bitkinin ununa uyğun aşağıdakı çörək növləri yapılardı. Məsələn: tapı arpa unundan, dəstana- buğda və düyü unundan yapılardı. Cad hazırlamaq üçün qarğıdalı unundan istifadə edilərdi. Bunların hər biri xalqımızın uzun müddətli təcrübələri sayəsində əldə edilmişdir.

Unun hazırlaması işinə «peşqurd» (may ayının sonları iyun ayının əvvəlləri) ayında başlayardılar. F.Vəliyev yazır ki, bu un yaylağa qalxan əhalinin yaylaq zamanı çörəyə olan ehtiyacını ödəyirdi (8, s. 71). Buğdadan unun alınma üsulunun tarixi çox qədimdir. Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, hələ əkinçiliyin meydana gəldiyi dövrlərdə yerli əhali un və yarma əldə etmək texnikasına bələd olmuşdur. Buna misal olaraq II Kültəpə yaşayış yerində aparılmış arxeoloji qazıntılar nəticəsində əldə olunmuş buğda qalıqları, dəndaşları, kirkirə (əldaşı və ya dəstər) və s. göstərmək olar (3, s. 112). Unun əldə edilməsi üçün aşağıdakı üsullardan istifadə edilmişdir. Buğdanı yumaq üçün axar suda geniş yeri azacıq qazıb dərinləşdirər-

dilər. Suyun içində qazılmış yerə palaz sərər, ətrafına daş düzərdilər. Palazın alt tərəfini bir nəfər qaldırardı ki, palazın arasına tökülən buğda axmasın. Hərdən bir də buğdanı suyun içərisində qarışdırırlar ki, onun zibili yuxarı, suyun üzərinə qalxsın. Bu zaman suyun üzərinə qalxmış zibili (buna el arasında çət və ya kozar deyilir) kamaxla (xəlbirlə) yığılır. Şahbuz rayonunun Kükü kənd sakini Cabbarov Təvəkkül Salman oğlunun verdiyi məlumata görə, buğdanı sudan ayırmaq üçün cüyürdən, qamışdan toxunmuş səvərədən istifadə edilirdi (1). Bu işlə əsasən qadınlar məşğul olardılar. Buğdanı suda çox saxlamazdılar. Suda çox saxlanılan buğdanın çörəyi yaxşı çıxmazdı. Etnoqrafik çöl materiallarına görə, çörək yaxşı çıxmayanda deyərdilər ki, buğda «suya» verilib. Sudan çıxarılandan sonra buğdanı ətrafda palazın, garbıdın, kürsüyorğanın üstünə sərib qurudardılar. Sonra yığıb dəyirmanlarda üyüdərdilər. El arasında deyirdilər ki, su dəyirmanı unu yandırmır. Ona görə də belə dəyirmanlardan əldə edilən un heç vaxt xarab olmaz. Un qışa müəyyən üsullarla, müəyyən yerlərdə saxlanılırdı. Unu kündüdə (kəndi də deyilir), unluqda saxlayardılar. Kündü iki gözlü olub palçıqdan hazırlanırdı. Üst tərəfdən unu tökmək üçün xüsusi baca düzəldilirdi. Alt tərəfdən isə unu çıxarmaq üçün baca qoyulurdu. Bir qayda olaraq kündülər qara damlarda tikilirdi. Bundan başqa unun, buğdanın artıq qalan hissəsini garbıddan, cecimdən tikilmiş xarallarda saxlanılırdı. Digər bir üsula görə isə buğdanı qara damlardakı təndirlərdə və ya quyularda saxlayırdılar. N.Quliyeva yazır ki, quyularda saxlanılan buğda illərlə qalıb çürümürdü (6, s. 148). Onu da qeyd edək ki, taxıl məhsullarına bit düşməsin (taxıl biti) deyə içərisinə nar qabığı, kərmə və s. qoyardılar.

Qış üçün tədarük edilən məhsullardan biri də yarmadır. Yarma əldə etmək üçün bu işə payızın orta aylarından əkin işi yekunlaşıb qurtardığı bir zamanlardan başlayırlar. Yarma hazırlamaq üçün erkən yazda yarmalıq üçün pərinc əkərdilər. Pərincdən yarma almaq üçün onu qaynatmırdılar. Əldaşı (kirəc, kirkirə) ilə çəkib, sonra onu sovurur, əfsiyirdilər. Ələkdən keçirib unu çıxarırdılar. Buğdadan isə yarma almaq üçün xüsusi buğda növləri, dəvədişi və ağ buğda seçilərdi. Yarma hazırlamaq üçün ilk növbədə buğdanı qaynamış suya tökür, bişdikdən sonra çıxarılıb süzgəcdən keçirilir. Damların (əl və qara, yan damlar) üstündə sərib qurudulur. Buğda gərək yaxşı qurudula, çünki nəm olanda çəkilən zaman çoxu una çıxır. Qurudulduqdan sonra əldaşında, dəstərdə çəkib yarma edərdilər. Qış yeməkləri içərisində yarmadan hazırlanan yeməklərdən yarma aşını, yarma şiləsini, çəkmə və s. göstərmək olar.

Qış ərzaq ehtiyatları içərisində əriştəni də xüsusi qeyd etmək olar. Əriştə əldə etmək üçün bu işə təsərrüfat işlərinin azaldığı dövrdən, payız fəslinin orta ayından başlayırlar. Əriştə hazırlamaq üçün aşağıdakı üsullardan istifadə edilir. Əriştə unu yazlıq və qırmızı buğdadan hazırlanardı. Əriştənin xəmirini lavaş xəmirindən duzlu edərlər ki, həm qurudulan vaxtı

ipə sərəndə yerə tökülməsin, həm də bişiriləndə açılmasın. Lavaş xəmirindən fərqli olaraq əriştə xəmirinə xəmirə vurmazlar, çünki xəmrə vurulsa acıyar.

Əriştə kəsmək üçün kündələri balaca edərlər ki, kəsilən əriştə qalın olmasın. Kəsmə prosesində qarşılıqlı yardım formalarından istifadə edirlər. Qohum-qonşu qadınları yığışıb bir-birlərinə köməklik edərlər. Bu işdə 1-2 nəfər əriştəni kəsən, 2-3 nəfər dəstələyən (dəstələyənə dəstəkçi deyilir), 1 nəfər açan, 2 nəfər isə sərən olar. Əriştə hazırlamaq üçün ilk növbədə açan, kündəni vərdənələyib kəsənə verir, kəsən vərdənənin üzərinə çoxlu un səpib kəsir. Un çox səpilir ki, kəsilən zaman xəmiri bir-birinə yapışmasın. Kəsmək üçün xüsusi bıçaqlar (əriştə bıçağı) olar. Kəsilib qurtardıqdan sonra dəstəkçi onu dəstələməyə başlayır. Kəsilən xəmiri dəstələyən zaman dəstəyin çox kiçik olmamasına çalışır. Çünki qovurulan zaman yanmasına səbəb ola bilər. Dəstəkləyib qurtardıqdan sonra əriştə gün tutan yerdə ip üstünə sərilir. Əriştələr quruduqdan sonra cəriyin arasına yığıb, bir gün saxlanılır. Qeyd edək ki, bir gün saxlanılmanın səbəbi ətiştənin unu «yeməsidir». Əriştə unlu olanda qovurulan zaman yanmasına səbəb olur. Bundan sonra əriştənin qovurulması işinə başlanılır. Əriştəni sacın üstündə ərsinlə qovurulur. Qovurulmuş əriştəni götürüb cecimin arasına tökür, sonra üzərinə su çiləyib üstünü yenidən örtərlər. Su ondan ötəri çilənilir ki, bu zaman yaranan buğ əriştənin yaxşı qızarmasına köməklik edir. Əriştə haqqında «özünə umac ova bilmir, başqasına əriştə kəsir» kimi el deyimi də yaradılmışdır. Hər bir ailə qış üçün iki, üç pud əriştə tədarükü görərdi.

**Altəriştə.** Əriştəni dəstələyən zaman (xəlbirin üstündə dəstələyirlər) xırda olanlar əldə durmur xəlbirin üstünə tökülür. Onları ipə sərib qurutmaq olmadığı üçün palazın üstünə sərib qurudulur. Altəriştəni bəzən qovurmazlar. Yığıb sıvığ əriştə (əriştə aşı) bişirilir. Onu da qeyd edək ki, altəriştədən plov (əriştə plovu) olmur. Əriştədən əriştə umacı, ovma umac, əriştə çəkməsi, əriştə aşı və s. qış yemək̇ləri bişirilir.

Bitki mənşəli yeməklər içərisində əhalinin mətbəxində əhəmiyyətli dərəcədə rol oynayan bostan-tərəvəz məhsullarından da mövsümdən asılı olaraq geniş şəkildə istifadə olunur. Bostan-tərəvəz məhsularından qarpız, yemiş, xiyar, lobya, badımcan, həm əhalinin gündəlik yeməklərində yay fəslində təzə halda, həm də onların bəzilərindən hazırlanan (tutma, şoraba) (8, s. 16), qax halında qış fəslində istifadə olunur.

Yuxarıda göstərmişik ki, insanlar soyuq aylarında daha çox isti bişmişlərə və xəmir xörəklərinə yer vermişdilər. Biz burada daha çox qış mövsümünə uyğun bitki mənşəli və artıq süfrələrdə görsənməyən, yaşlı insanların yaddaşlarında qalan yeməklərdən bəhs edəcəyik.

**Xəşil.** Undan, daha çox yarma unundan hazırlanır. Qaynanmış suyun içərisinə unu az-az töküb oxlovunan qarışdırılır. Elə qaraşdırılır ki, un

təmiz açılır. Unun iyi gəlməsin deyə bir az soyuq su əlavə edilir. Sonra yağ, şəkər tozu, doşab əlavə edib yeyilir.

**Hərsə.** Buğda yuyulub dibəkdə döydükdən sonra qabığı çıxarılır. Bundan sonra qaynadıb üstünə yağ tökülür. Bəzi hallarda yemək istəyənlər doşab da əlavə edilir.

**Axsan.** Yeməyini hazırlamaq üçün düyünü suda qaynadıb, sonra içərisinə soğan, livik, alça qurusu vurulur.

**Tərək.** Doşabı unla qatıb qarışdırırlar, sonra yağı dağ edib doşabla unun içərisində qızardırlar. Üstünə şəkər tozu səpib yeyilir.

**Doşab şorbası** – quru çörəyi doğrayır, sonra üstünə doşab tökürlər. Yağ vurulmur. Qatıq əlavə edildikdə isə qatıqlı doşab şorbası adlanır.

**Horra.** Unu çaldıqdan sonra soğan yağda qızardılıb içərisinə vurulur. Onu da qeyd edək ki, dağ (qum) armudunu da kirkirədə çəkib və ya taxılın ucunun qılçığını üyüdüb horra bişirilərdi.

**Qəysəfə (Qaysava).** Şirin ərikdən hazırlanır. Ərik qaynar suya salınıb pörtdədilir, sonra dənəsi çıxarılır. Yağda qızardılır. Yağı çox edilir ki, yaxşı qızarsın. Üstünə şəkər tozu əlavə edilib qarışdırılıb yeyilir.

Bu yazıda ənənəvi qış yeməklərinin hazırlanması haqqında ətraflı məlumat verilməmişdir. Sadəcə onların bəzilərinin adları çəkilmişdir. Bəzi yeməklərin adlarını verməklə bu cür yemək**ləri** xalqımızın yaddaşına qaytarmaq mümkündür. Yeməklərin bölgələr üzrə fərqlənməsi süfrələrimizin zənginliyinə və maddi nemətlərin bolluğuna dəlalətdir. Xalqımızın ənənəvi qış yeməklərinin tarixi-etnoqrafik baxımdan Naxçıvan materialları əsasında öyrənilməsi belə bir nəticəyə gəlməyə imkan verir ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan kulinariyası zəngin və müxtəlifliyi ilə həmişə diqqət mərkəzində olmuşdur.

## ƏDƏBİYYAT


1. Cabbarov Təvvəkkül Salman oğlu (Şahbuz rayonu Kükü kənd sakini).
2. Çəmənzəminli Y.V. Seçilmiş əsərləri: 3 ciliddə, III c., Bakı: Elm, 1977, 326 s.
3. Həbibullayev O. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1959, 180 s.
4. Həvilov H. Azərbaycan etnoqrafiyası: Oçerklər. Bakı: Elm, 1991, 256 s.
5. Qədirzadə H.Q. Cəhriçay vadisi: m. ö. IV minillikdən günümüzədək. Naxçıvan: Qızıldağ, 2007, 160 s.
6. Quliyeva N. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. Bakı: Elm, 2005, 345 s.
7. Vəliyev F. XIX-XX əsrin əvvəllərində Naxçıvan bölgəsi əhalisinin ənənəvi xalq yemək**ləri** // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2006, № 2, s. 56-62.

8. Vəliyev F. XIX- XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (yeməklər və içkilər). Bakı: Azərnəşr, 2005, 112 s.

**Асеф Оруджов**

## ВОПРОС ТРАДИЦИОННОЙ ПОДГОТОВКИ К ЗИМЕ В СЕМЬЯХ

В статье на основе материалов Нахчывана рассматриваются вопросы заготовки на зиму продуктов растительного происхождения. Также с этой целью всесторонне изучены вопросы, связанные с календарными обычаями и поверьями. Далее рассматриваются маринование на зиму, запасание муки на целый год, сушка зелени и прочие заготовки.

**Asaf Orujov**

## PROBLEM OF TRADITIONAL PREPARATION FOR WINTER IN FAMILIES

In the article on the basis of Nakhchivan materials questions of preparation of traditional winter produce of vegetative origin are considered. Also with this purpose the questions connected with calendar customs and beliefs are comprehensively studied. Further are considered pickling for the winter, storage of flour for the whole year, drying of greens and other stockpiling.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, tarix e.d. H.Q.Qədirzadə, tarix e.n. İ.Zeynalov.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**AYTƏKİN QƏHRƏMANOVA**
Naxçıvan Dövlət Universiteti

# CƏLİL MƏMMƏDQULUZADƏ YARADICILIĞINDA «BƏZZAZLIQ» «ŞALBAFLIQ», «DULUSÇULUQ» VƏ «MİSGƏRLİK» SƏNƏT NÜMUNƏLƏRİNƏ DAİR BİR NEÇƏ SÖZ

Azərbaycanda sənətkarlığın tarixi çox qədim dövrlərdən başlayıb. Azərbaycan ərazisində mövcud olan Xocalı-Gədəbəy, Talış-Muğan, Naxçıvan, Kür-Araz mədəniyyətləri abidələrindən tapılmış maddi mədəniyyət nümunələri burada sənətkarlığın yüksək inkişafından xəbər verir (1, s. 116).

Tarixi mənbələr və arxeoloji qazıntılarla yanaşı, bədii ədəbiyyatda da dövrünə aid sənət nümunələri haqqında məlumat əldə etmək mümkündür. C.Məmmədquluzadə yaradıcılığını təhlil edərkən Azərbaycanda XIX əsrə aid sənət nümunələrinə rast gəlirik. Digər sənətkarlıq sahələri ilə yanaşı, «bəzzazlıq» sənət nümunəsi də Azərbaycanda qədimdən mövcud olmuş və C.Məmmədəquluzadə yaradıcılığında da öz dolğun əksini tapmışdır. Etnoqrafik mənbələrdən aydın olur ki, bəzzazlıq pambıq parça istehsalı ilə məşğul olan sənət növüdür. Bəzzalıq sənət növündə xam bezdən bəsit boyama, qələmkarlıq və ya basmanaxış üsulu ilə müxtəlif növ pambıq parça hazırlanırdı.

Orta əsrlərdə Təbriz, Marağa, Mərənd, Ordubad, Gəncə və s. Şəhərlər pambıq parça istehsalında başlıca mərkəzlərdən idi. XIX əsrdə bu sənət növü Naxçıvan, Şamaxı və Şuşa şəhərlərində də inkişaf etmişdir (1, s. 120).

G.Məmmədquluzadə yaradıcılığında XIX əsrə aid bəzzazlığın «qədəh», «şilə», «bez» kimi müxtəlif parça növlərinə rast gəlirik. Bu onu sübut edir ki, xalqımız öz məişətində sənətkarlığın bəzzazlıq növünü də mükəmməl inkişaf etdirmişdi. Yazıçı «Danabaş kəndinin əhvalatları» povestində Məhəmmədhəsən əminin arvadının ümumi görünüşünü təsvir edərək yazırdı: «Köhnə çarqğat, köhnə ağ çit arxalıq və köhnə solmuş şiləyi dizlik-övrətin libası ancaq budur» (7, s. 87). Yazıçı XIX əsr məişətimizdə həm sənətkarlıq sahəsini, həm də milli geyim növünü təsvir edir. Qeyd etmək lazımdır ki, ənənəvi xalq geyimləri hər xalqın maddi-mədəniyyətinin mühüm tərkib hissəsidir. Bunların öyrənilməsi xalqın milli xüsusiyyətlərini, iqtisadi və mədəni həyat səviyyəsini, təsərrüfat məşğuliyyətinin istiqamətlərini, onun başqa xalqlarla etnomədəni əlaqə və qarşılıqlı təsir məsələlərini,

etik normalarını, estetik və bədii zövqünü, etnik və sosial mənsubiyyətini müəyyənləşdirməkdə əhəmiyyətli rol oynayır (1, s. 132).

Etnoqrafik mənbələrdən aydın olur ki, Azərbaycanın bir çox şəhərlərində: Gəncədə, Şamaxıda, Naxçıvanda və digər şəhərlərdə bez istehsal edilirdi. Bez əksər hallarda təbii ağ rəngdə toxunduğundan sonra müxtəlif rənglərə boyanırdı. Onu qırmızı rəngə boyamaqla «şilə», tünd-göy rəngə boyamaqla «qədək» əldə edilirdi. Yazıçı həmin əsərində yazırdı: «Yolunan yeddi yaşında bir oğlan, ağ təskulah başında, göy qədək arxalıq əynində və ağ tuman, ayaqyalın, qabağına bir dəstə quzu qatıb və əlində şökə ilə bu quzuları vura-vura gəlir kəndə» (7, s. 90). Əsərə diqqət yetirdikdə bizə aydın olur ki, şilədən qadınlar, qızlar üçün, qədəkdən isə kişilər və oğlanlar üçün paltar tikərmişlər. Qədim dövrlərdən qırmızı rəng toy, bayram, sevinc, şadlıq rəmzi hesab edilib.

Keçmiş məişətdə işlənən pambıq parçalar içərisində çit mühüm yer tutur. Yazılı mənbələrdən aydın olur ki, kustar çit istehsalı ilə bilavasitə ənənəvi boyaqçılığın bu sahəsi üzrə ixtisaslaşmış basma naxış ustaları məşğul olurdular. Çit əldə etmək məqsədilə bezin zərif toxunmuş növündən istifadə edilirdi. Qəlib vasitəsilə naxışlanmış çit keçmiş məişətdə daha geniş yer tuturdu.

Parça istehsalı haqqında məlumat C.Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanıma yazdığı məktubdan aydın olur. Həmidə xanımın özünün yun emalatxanası olub ki, orada da şal parçaları istehsal olunurdu. Məktubda C.Məmmədquluzadə yazır: «Sənin yun emalatxanan necədir? Çalış ki, şallar daha zərif və daha tünd olsun. Göndərdiyin şaldan Teymur üçün şalvarlıq kəsib götürdüm, qalanını Minaya verdim» (8, s. 331). Həmidə xanımın yun emalatxanasında «şal» istehsal olunurmuş ki, bu da sənətkarlığın şalbaflıq növünə aiddir. Şalbaflıq dedikdə isə ev peşəsi və xırda əmtəə xarakterli yun parça toxuculuğu sahəsi nəzərdə tutulur. O, sonralar inkişaf edərək karxana toxuculuğu səviyyəsinə çatmışdır. Etnoqrafik mənbələrdən məlumdur ki, XIX əsrdə Azərbaycanda şal toxuculuğu Şamaxı, Quba, Göyçay, Qazax, Şuşa, Naxçıvan, Zəngəzur, Zaqatalada xüsusilə inkişaf etmişdir (1, s. 120). Məktubun da təhlilindən məlum olur ki, Həmidə xanımın özünün yun emalatxanası olmuş və orada şal toxunurdu. Qeyd etmək lazımdır ki, şalı ev şəraitində toxuyarkən yer hanasında «qılınc» adlanan zərbə aləti vasitəsilə qadınlar tərəfindən, karxana toxuculuğunda isə «şalbaf» adlanan peşəkar ustalar tərəfindən mütəhərrik şal dəzgahında toxunulurdu.

C. Məmmədquluzadə yaradıcılığında yun parça məmulatının ən yüksək növü olan mahuda da rast gəlirik. Ədib «Usta Zeynal» hekayəsində yazır: «Muğdusi Akop əhd elədi ki, əgər Usta Zeynal bu şərti vaxtında əmələ gətirsə, ustaya daha altı arşın yarım mahud versin» (7, s. 140). Etnoqrafik mənbələrdən aydın olur ki, şəhər karxanalarında mahud bəzən «karxa-

na şalı» da adlanırdı. Daha təkmil dəzgahlarda toxunan karxana şalına daxili və xarici bazarlarda tələbatın artması nəticəsində hələ orta əsrlərdən başlayaraq mahud istehsalı üzrə dar ixtisaslaşma getmişdir. Göründüyü kimi, yun məmulatlarının ən yüksək növü sayılan mahudçuluq, qədim dövrlərdən başlayaraq istehsal olunmağa başlanmışdır. Orta əsrlərdə Azərbaycanın mahud istehsalı əsasən Təbriz, Ərdəbil və Şamaxı şəhərlərində cəmlənmişdir.

XIX əsrdə mahud istehsalı çox məhdud miqdarda Zaqatala quberniyasında (Muxax və İlisu kəndlərində), Göyçay (Sulyan kəndində), Şamaxı, həmçinin Quba, Şuşa, Qazax, Zəngəzur və Naxçıvan qəzalarında inkişaf etmişdi (3, s. 120).

Tarixi mənbələrdən olan «Qarbağnamələr» kitabında Baharlının «Tarixi-Qarabağ» əsərində yazılır ki, bundan əqdəm hər bir dövlətli adamın bir bab karxanası var imiş ki, o karxanada darayı, çarqat və bir para o əsrdə dəb olan parçalar toxunurmuş, hər bir karxananın 20 nəfər kişi və övrət əmələsi olunurdu (5, s. 61).

C.Məmmədquluzadənin əsərlərində Azərbaycan sənətkarlığının ən qədim sahələrindən biri olan dulusçuluq sənət növünə də rast gəlirik. Bu sənət növü uzun əsrlərin təcrübəsi nəticəsində meydana çıxmışdır. Etnoqrafik mənbələrdən aydın olur ki, saxsı məmulatı istesalının meydana gəlməsi və onun uzun müddət davam etdirilməsində başlıca rol oynayan amillər Azərbaycan ərazisinin zəngin gil yataqları və ucuz odun ehtiyatına malik olmasında, əhalinin məişətində dulus məmulatına zəruri tələbatdan, əmtəə istehsalını zəiflədən natural təsərrüfat şəraiti və onun XX əsrin əvvələrinə qədər davam edən qalıqlardan ibarət olmuşdur (3, s. 338). Dulus məmulatlarını aşağıdakı kimi qruplaşdırmaq olar:

Su üçün istifadə olunan qablar, yemək məhsullarının hazırlanması, bişirilməsi və saxlanması üçün nəzərdə tutulan qablar, süd məhsulları üçün nəzərdə tutulan qablar, evlərin qızdırılması və işıqlandırılması məqsədilə istifadə olunan dulus əşyalar, digər məişət əşyaları, su təchizatı üçün istifadə olunan dulus məmulatlar. Azərbaycanda dulus ustaları 50-dən çox dulus məmulatları hazırlayırdılar (4, s. 92-94).

Zəngin çeşidə malik olan dulus məmulatı məişət ehtiyaclarını təmin etməklə yanaşı, həm də əlavə gəlir mənbəyi olmuşdur. Bu zaman dulus ustaları su qabları, təsərrüfat küpləri, xörək qabları, çıraq, qızdırıcı vasitələr və s. istehsal etmişlər. Su daşımaq üçün səhəng, cürdək, bardaq, süfrədə işlətmək üçün sürahi, dolça, parç, dəstəmaz almaq üçün lüləyin, aftafa və s. keçmiş məişətdə mühüm yer tuturdu. Ədibin «Danabaş kəndinin əhvalatları» povestində dulusçuluq məmulatlarını əks etdirən məişət əşyalarının adları sadalanır: «Tağlara düzülübdür çox bərni və hədsiz çini qablar» (7, s. 54) və yaxud «bucaqda var idi bir səhəng, bir lüləyn və süpürgə» (7, s. 63). Bərni – içində piti bişirmək üçün istifadə edilən saxsı qabdır (2, s. 286).

Bərni həm də banka anlamını da ifadə edir. Çini qab isə müxtəlif məmulat istehsal etmək üçün istifadə olunan əla gildən hazırlanmış mineral kütlə və həmin kütlədən hazırlanmış çini boşqab nəzərdə tutulur. Əsərin təhlilindən aydın olur ki, qazı daha varlı olduğu üçün onun evində daha zərif və keyfiyyətli məişət əşiyaları var.

Keçmiş məişətdə istifadə edilən sənət nümunələrindən biri də səhəng idi. Səhənglə gəlin və qızlar bulaqdan su gətirərdilər. Ədibin «Usta Zeynal» hekayəsində təsvir olunan dulusçuluq sənətinin bir növü olan küplərə rast gəlirik. Küp vasitəsilə su daşıyıb gəcə töküb qarışdıran Qurban küpün su axıtdığını görür və ustadan soruşur: «Usta, küpəniz irəlidən çatdaq idi, ya təzəliklə sınıb?» (7, s. 149). Görünür, küpdən təkcə ailə məişətində deyil, həm də tikinti təsərrüfatında da istifadə edirmişlər.

Yazıçının «Danabaş kəndinin əhvalatları» povestində dulusçuluq məmulatı olan bir sənət nümunəsinə də rast gəlirik. Müəllif yazır: «həyətin bir səmtində var idi əngənək, yanında çoxluca yuyulmuş paltar qalanmışdı» (7, s. 53-54). Əngənək saxsı ləyən, paltar yumaq üçün təknə, tabaqdır.

Dulus məmulatlarından olan çölməyin uzun müddət məişətimizdə özünəməxsus yeri olmuşdur. Çölməkdə bişən xörəyin dadını həqiqətən heç nə ilə əvəz etmək olmaz. Azərbaycan xalqının məişətini özündə mükəmməl əks etdirən «Danabaş kəndinin əhvalatları» povestində yazılır: «On-on iki yaşında bir oğlan sol əlində bir çölmək sallaya-sallaya girdi içəri, çölməyi qoydu yerə və üzünü tutdu Kərbəlayı Cəfərə:

– Dadaş, bu gün anam əti bir az yandırıb, yeyə bilsəniz yaxşıdır… Kərbəlayı Cəfər sağ qolunu çərməyib çölməyi üzüqoylu elədi sininin üstə, sonra ətləri bir-bir seçib qoydu çölməyə» (7, s. 65).

Neolit dövrünün mühüm nailiyyəti sayılan dulusçuluq sənət növündən olan çölmək XIX əsr Azərbaycan məişətində özünəməxsus yer tutmuşdur.

Hazırda Azərbaycanın bir sıra rayonlarında dulus ustaları fəaliyyət göstərirlər. Müasir məişətimizdə dulus məmulatına hələ də ehtiyac vardır. Və bəzi ailələrdə saxsı qablardan istifadə edirlər. Həmçinin saxsı qablardan suvenir kimi də istifadə olunur. Sənayenin inkişafı ilə əlaqədar ənənəvi sənət məhsullarına olan tələbat xeyli azalmış, onların bir çoxu aradan çıxmışdır. Bununla belə sənət növləri əsrlər boyu insanların mənəvi və məişət ehtiyaclarını ödəmiş, xalqın sənət salnaməsinə qiymətli səhifələr bəxş etmişdir.

C.Məmmədquluzadə yaradıcılığında həmçinin misgərlik sənət nümunəsinə də rast gəlirik. Ədibin «Danabaş kəndinin əhvalatları» povestində qazının evində olan «taxçalarda düzülüb mücrü, mis və çini qab, boğça. Sol səmtdən divara iki-üç mis məcməyi dayanıbdı» (7, s. 118). Metallurgiya tarixində tuncun meydana gəlməsi, bəzək, hərbi və təsərrüfat ləvazimatı istehsalı sahəsində möhkəm yer tutması mis məmulatı istehsalını tamamilə

aradan çıxara bilmədi (3, s. 357). Bundan sonra isə mis özünün tətbiq istiqamətini dəyişərək, məişət ehtiyaclarına xidmət etməyə başlamış və beləliklə də Azərbaycanda metalişləmə sahəsində misgərlik sənəti meydana gəlmişdir. Azərbaycanın ən qədim kəndlərindən biri olan Lahıcda misgərlik indi də mövcuddur. Misgərlik sənətinə aid olan məcmeyidə şərq üslubuna xas olan naxışlar xüsusi ilə diqqəti cəlb edir. Naxçıvan şəhər sakini Kübra Məmmədovanın dediyindən məlum olar ki, XX əsrin 60-70-ci illərində Zaqatala-Lahıc zonasından Naçxıvana gələn misgərlər (buna Naxçıvanda qəleyçi deyirlər – A.Q.) mis qazanları, məcmeyiləri, teşt və s. mis ləvazimatları yığıb aparar, bir müddətdən sonra həmin əşyaları zağlayıb gətirərdilər. Həmin əşyalar sanki təzəymiş kimi parıldayardılar. Əsasən məcmeyilərdə Novruz bayramında tabaqlar tutulub, xonça aparılardı, həmçinin məclislərdə plov məcmeyiyə yığılardı. Müasir dövrümüzdə də Novruz bayramında kimin evində dədə-babadan qalma məcmeyi varsa, ona bayram şirniyyatları düzüb, səməni qoyurlar və bu xonçanı stolun üstünə qoyub, şam düzüb yandırarlar.

Nəticə etibarı ilə deyə bilərik ki, Azərbaycanda mövcud olan sənət növləri haqqında məlumat toplayarkən yazılı mənbələrdən bədii ədəbiyyatın da mühüm rolu var. Belə yazılı mənbələrdən biri də etnoqrafik məxəzlərlə zəngin olan C.Məmədquluzadə yaradıcılığıdır. Ədib yaradıcılığında dövrünə aid olan sənət növlərini mükəmməl əks etdirmişdir. Belə nəticəyə gəlmək olar ki, XIX əsrdə Azərbaycanda, demək olar ki, sənətkarlığın bütün sahələri mükəmməl inkişaf etmişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Milli Ensiklopediyası. Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, 2007, 879 s.
2. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə, I c., Bakı: Şərq-Qərb, 2006, 744 s.
3. Baharlı M. Azərbaycan kitabı. Bakı, 1993, 192 s.
4. Həvilov H.A. Azərbaycan etnoqrafiyası. Bakı: Elm, 1991, 280 s.
5. Qarabağnamələr: 3 cilddə, III c., Bakı: Şərq-Qərb, 2006, 246 s.
6. Qəhrəmanova A.C. Məmmədquluzadənin «Danabaş kəndinin əhvalatları» povestində etnoqrafik çalarlar // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, 2007, № 21, s. 54-58.
7. Məmmədquluzadə C. Əsərləri: 4 cilddə, I c., Bakı: Öndər, 2004, 583 s.
8. Məmmədquluzadə C. Əsərləri: 4 cilddə, IV c., Bakı: Öndər, 2004, 580 s.

**Айтекин Кахраманова**

## НЕСКОЛЬКО СЛОВ ОБ ОТРАЖЕНИИ В ТВОРЧЕСТВЕ ДЖАЛИЛА МАМЕДГУЛУЗАДЕ ТАКИХ ВИДОВ РЕМЕСЕЛ, КАК «БЕЗЗАЗЛЫГ», «ШАЛБАФЛЫГ», «ДУЛУСЧУЛУГ» И «МИСДЖЕРЛИК»

История ремесла в Азербайджане очень древняя. В творчестве Дж. Мамедгулузаде мы встречаемся с такими видами ремесел как «беззазлыг» (изготовление бязи и ситца), «дулусчулуг» (гончарное дело), «шалбафлыг» (изготовление шерстяных тканей) и «мисджерлик» (ремесло медника). Это служит доказательством, что в XIX веке в Азербайджане были развиты все виды ремесел.

**Aytakin Gahramanova**

## SOME WORDS ABOUT THE REFLECTION IN JALIL MAMMEDGULUZADE'S WORKS OF SUCH HANDICRAFT KINDS AS «BAZZAZLYG», «SHALBAFLYG», «DULUSCHULUG» AND «MISGARLIK»

History of handicraft in Azerbaijan is very ancient. In the works of J. Mammedguluzade there is a description of such handicraft kinds as «bazzazlyg» (manufacturing of coarse calico and chintz), «duluschulug» (potter's craft), «shalbaflyg» (manufacturing of woolen fabrics) and «misgarlik» (craft of a copper-smith, tinker). It proves that in the 19th century in Azerbaijan all kinds of handicrafts were developed well.

***Rəyçilər: Tarix e.n. İ.Zeynalov, tarix e.n. V.Məmmədov.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 04 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

## AZƏRBAYCAN DİLİ

**ƏBÜLFƏZ QULİYEV,**
**SƏYYAR MƏMMƏDOV**
AMEA Naxçıvan Bölməsi

# ORDUBAD DİALEKTİNDƏ İSİM DÜZƏLDƏN ŞƏKİLÇİLƏR

Müasir ana dilimizin zənginləşməsi yolunda söz yaradıcılığının xüsusi rolu vardır. Bu baxımdan müasir Azərbaycan dilinin soykökünü, tarixini özündə mühafizə edən dialekt və şivələrimizdə sözdüzəldici (leksik) şəkilçilər vasitəsi ilə sözdüzəltmə prosesini öyrənmək böyük əhəmiyyət kəsb edir.

Dialekt və şivələrimizin sözyaratma qabiliyyətini öyrənmək, başlıca olaraq, iki əsas xüsusiyyətin aydınlaşmasına xidmət edir; birincisi, dilimizin necə və hansı yollarla inkişaf edib zənginləşdiyini sübut edir, ikincisi isə mənası müasir dövrümüz uçun anlaşılmayan, arxaikləşmiş, lakin mühafizə rolu oynayan dialekt və şivələrimizdə işlənən sözlərin tərkibinin aydınlaşmasına xidmət edir.

Kiçik bir məqalədə sözyaratma prosesində mühüm rol oynayan bütün sözdüzəldici şəkilçilərdən danışmağa, məlumdur ki, imkan yoxdur. Bu səbəbdən də burada – Ordubad dialektində yalnız isim düzəldən bir qrup şəkilçilərdən bəhs edilir. Bu şəkilçilərdən bəziləri yeri gəldikcə digər dialekt və şivələrimizin, eləcə də türk dillərinin materialları ilə müqayisə olunur.

***1. -çı, -çi, -çu, -çü.*** Bu şəkilçi **yan** sözünə qoşulub, bəyin sağdışı, soldışı mənasını bildirən ***yançı*** sözünü düzəldir. ***O: ili*** (keçmiş illər mənasında) ***mən bı kişi:n yançısıydım. (Ord. ş.).***

***-çı[4]*** şəkilçisi Ordubad dialektində ədəbi dilimizdəki ***-cıl[4]*** şəkilçisini də əvəz edir; məs.: ***qonaxçı, — Ağa kişi qonaxçı adamdı, unnan söx'bət elə. (Bil.); — Atan yaman çimirçi*** (yuxucul) ***adammış (Nüs.).***

***-çı[4]*** şəkilçisi ***köməx', qorux, dən, ərəbə, arı, atma*** (evin üstünə qoyulan ağac, tir)***, əyax, xorum*** (ot dəstəsi)***, piçin, car*** (arx)***, cəğ*** (mala)***, cər*** (evin üstünə döşənən çırpı və ya xırda ağac)***, cır*** (xırda, balaca)***, züx'*** (zurna)***, çəçix'*** (qızıl boyunbağı)***, çöl, səhman*** (səliqə)***, dəm, dirrix'*** (yaşayış)***, e:mal*** (süd sağımı)***, haf*** (lavaş yapma)***, əvə*** (kömək)***, lay-xorum*** və s. sözlərə qoşularaq peşə-sənət anlayışı bildirən ***köməx'çi, qoruxçu*** (qoruğu qoruyan

adam), ***dənçi*** (toxum səpən), ***ərəbəçi, arıçı, atmaçı*** (evin üstünü döşəyən), ***əyağçı*** (kuryer), ***xorumçu, piçinçi, carçı*** (arx salan), ***cəğçi*** (mala çəkən, bənna), ***çərçi*** (evin üstünü döşəyən usta), ***züx'çü*** (zurna çalaraq dəm tutan), ***çəçix'çi*** (zərgər), ***çölçü, səhmançı*** (süd sağan qadın), ***dəmçi*** (dəm tutan), ***dirrix'çi*** (bacarıqlı), ***e:malçı*** (süd sağan qadın), ***hafçı*** (lavaş açan və ya yapan qadın), ***əvəçi*** (ev işlərinə kömək edən), ***lay-xorumçu*** və s. düzəltmə isimlər əmələ gətirir.

Bu şəkilçi türkmən dilinin Emreli dialektində də isim düzəldən şəkilçi kimi özünü göstərir. Məs.: ***toy+çı, aç+çı*** (at saxlayan, atçı) (7, s. 57).

***2. -lıq, lik, -luq, -lük.*** Bu şəkilçi müasir ədəbi dilimizdə və tərkib hissəsi olduğu bir sıra türk dillərində olduğu kimi, Ordubad dialektində də geniş yayılmışdır. Burada **-lıq**[4] şəkilçisinin ədəbi dildəki formasından başqa, ***-lıx, -lix', -lux, lüx'; -nıx, -nix', -nux, -nüx'; -dıx, -dix', -dux, -düx'; -rıx, -rix', -rux, -rüx'; və -züx'*** fonetik variantları da işlənir. Ordubad dialektində ***-lıq***[4] şəkilçisi və onun fonetik variantları ilə əsasən isim və sifətlərdən sənət, peşə, vəzifə, xasiyyət, yer, əşya bildirən isimlər düzəlir.

**İsimdən düzələnlər.** ***Bacı, urman*** (orman – meşə), ***dən, tər, quzu, darax, daş, corab, əsgər, döş*** (sinə), ***diz, cəzi:rə*** (1. ada; 2. dərə), ***rəmdal*** (falçı), ***güz*** (payız), ***gün, xıl, işıx, qulax,*** isimlərinə ***-lıq***[4] şəkilçisini və onun fonetik variantlarını artırmaqla ***bacılıx*** (1. ögey bacı; 2. rəfiqə), ***urmannıx*** (meşəlik), ***dənnix'*** (toxum səpilmək üçün hazırlanmış sahə), ***tərrix'*** (yəhərin altından atın belinə qoyulan keçə), ***quzulux*** (qoyunun bətni), ***daraxlıx*** (heyvanlarda çanaq sümüyü), ***daşdıx*** (iri daşlı sahə), ***corablıx*** (corab toxumaq üçün əyrilmiş və rənglənmiş yun ip), ***əsgərrix', döşdüx'*** (qadınların üstlərinə bağladıqları parça), ***dizdix'*** (üst paltarın altından geyilən əlavə geyim), ***cəzi:rəlix'*** (ada, dərə çox olan ərazi), ***rəmdallıx*** (fala baxmaq peşəsi), ***güzdüx'*** (payızda bitən ot), ***günnüx'*** (əmək günü), ***döllüx'*** (dəyirmanın dən tökülən təknəsi) ***xıllıx*** (çobanların geydikləri keçə paltar) (11, s. 112), ***işıxlıx*** (toy adətlərinə aid söz) (1, s. 105), ***qulaxlıx*** (furqonun oxu ilə yatacağını birləşdirən dirsəkvari ağac) (1, s. 96) isimləri düzəlir.

Misallar: — ***Mə:m Nüsnüsdə bi <u>bəciliğim</u> va. (B.); — <u>Urmannıx</u> biz tərəfdə çoxdu. (Ord.ş.); — Şumlammış yerə <u>dənnix'</u> deyirıx. (Vən.); — Yə:rin əltinnən <u>tərrix'</u> qoyərix kin, atın tərin çəx'sin (Dəs.); — Qoyunun balasın saxladığı yer onun <u>quzuluğudu.</u> (B.); — Bizim kələ:n <u>daraxlığı</u> fırıx olduğuna kəsdix' (Əy.); — Bəyəxki gədə <u>dəbbəlix'də</u> tayı olmıyəndi ba:. (Ord.ş.); — Oili qızıma <u>cörəblix</u> ve:mişdim. (A); — Davarı, inəyi səğmağa gidəndə <u>döşdüx'</u> bəğli:rəm. (T.); — Qışda tumanın, şəvlərin altınnan geydiyimizə <u>dizdix'</u> diyərıx. (Nüs.); — U:n qərdəşi <u>rəmdallıx</u> eliyərdi (Əy.); — U vaxlar biz <u>günnüx'</u> pıl alırdıx. (B.); — <u>Güzzüx'</u> pəyizdə çıxan dıqqılı otdu. (Nüs.).***

**Sifətdən düzələnlər:** Ordubad dialektində ***-lıq***[4] şəkilçisi və onun fonetik variantları ilə insana, heyvana və s. məxsus keyfiyyət bildirən sifətlərdən isimlər əmələ gəlir.

***Avarakar*** (işsiz), ***bazzas*** (qaniçən), ***bekara*** (pis, yararsız), ***bəssüyüm*** (bədnəzər), ***bic*** (hiyləgər), ***çılpax*** (paltarsız), ***danqa*** (lovğa, kobud, böyük danışan), ***dəbbə*** (bic, hiyləgər), ***dağal*** (cığal, oyunpozan), ***dozqaz*** (kobud, ədabaz, dikbaş), ***dəmsal*** (yüngül xasiyyətli), ***dumux*** (gec başa düşən), ***düb//dub*** (tərs, inadkar, qanmaz), ***əcaz*** (əcaib), ***əysix'*** (əskik), ***əkəbükə*** (böyük, yaşlı), ***ərincəx'*** (tənbəl), ***faqqı*** (kələkbaz), ***gay*** (gic, ağılsız), ***göy*** (xəsis), ***hət-hüt*** (anlaşıqsız və iti danışan), ***hınzır*** (qalın, kobud adam), ***hozu*** (qanmaz, kobud), ***xərə*** (əkilməmiş, xam yer), ***xərəncə*** (kələkbaz, hiyləgər), ***xə:yin*** (1. xayin; 2. paxıl), ***xəbis*** (çoxbilmiş), ***xozan*** (istifadəyə yararsız yer), ***ifal*** (mədəni, xoşxasiyyət, sakit) sözlərinə ***-lıq***[4] şəkilçisini və onun fonetik variantlarını artırmaqla ***avarakarrıx*** (işsizlik), ***bəzzasdıx*** (qaniçənlik, rəhmsizlik), ***bekaralıx*** (işsizlik), ***bəssuyumnux*** (bədnəzərlik), ***bijdıx*** (hiyləgərlik), ***çılpaxlıx*** (atı yəhər olmadan minərkən istifadə olunan şinel parça), ***danqalıx*** (lovğalıq, kobudluq), ***dəbbəlix'*** (biclik, hiyləgərlik), ***dağallıx*** (cığallıq) (1, s. 106) ***dozqazdıx*** (kobudluq, dikbaşlıq, ədabazlıq), ***dəmsallıq*** (yüngül xasiyyətlilik), ***dumuxlux*** (anlamazlıq), ***düblüx'//dublux*** (1. tərslik; 2. qanmazlıq), ***əcazdıx*** (əcaiblik), ***əysix'lix'//əysiylıx*** (əskiklik), ***əkəbükəlix'*** (böyüklük, uzaqgörənlik), ***ərincəx'lix'*** (tənbəllik), ***faqqılıx*** (hiyləgərlik, biclik), ***gaylıx*** (giclik, ağılsızlıq), ***göylüx'*** (xəsislik), ***hət-hütdüx'*** (anlaşıqsızlıq, iti danışıq), ***hınzırrıx*** (kobudluq, qalınlıq), ***hozulux*** (qanmazlıq, kobudluq), ***xərəlix'*** (xam yer çox olan sahə), ***xərəncəlix'*** (kələkbazlıq), ***xəyinnix'*** (1. xayinlik; 2. paxıllıq), ***xəbisdix'*** (çoxbilmişlik), ***xozannıx*** (istifadəyə yararsız yer çox olan ərazi), ***ifallıx*** (xoşxasiyyətlilik, mədənilik, sakitlik) düzəltmə isimlər düzəlir.

Bu şəkilçi ilə bəzən feldən və saydan da əşya və s. bildirən isimlər düzəlir: **qırx(maq)** – ***qırxlıx*** (yun qırxmaq üçün istifadə olunan alət); **kəm (az)** – ***kəmlıx*** (azlıq).

Misallar: — ***Qiş vəxdi bizim tərəfdərdə bi əz <u>avarakarrıx</u> olur. (T.); — <u>Bekaralıx</u> da, oğul, bi şe də:l. (Nüs.); — O qərinin <u>bəssumnuğu</u> uşəxləri yəmən günə saldı əxirdə. (T.); — Ə, sən hələm <u>çiylix'</u> eli:sən? (Bil.); — <u>Danqalıx</u> eliyənə yəxçi adam kimin bəxməzdər bı:da. (A.); — <u>Dəbbəlix'</u> eləməx ə:mənilərin köhnə peşəsidi. (Vən.); — Oyunda oyun pozana <u>dağallıx</u> eləmə deyərıx (G.); — <u>Dəmsallıx</u> eliyən adama hürmət qo:mazdar (G.); — Sən mə: <u>əkəbükəlix'</u> ö:rətmə (Vən); — Urdubada gedən yolda <u>xərəlix'</u> çoxdu (A.); — <u>İfallıx</u> eləmə, diribaş ol (B.).***

Ordubad dialektində qapalı saitlərlə 4 variantda işlənən ***-lıx, -lix', -lux, -lüx'*** şəkilçisi və onun variantları Şəki dialektində ***-lıx, -lix', -nıx, -nux, -dıx, -dux*** (9, s. 78), Türkman ləhcəsində isə ***-lıq, -lığ, -lıx, -lik, -liğ, -lig, -nüg*** (8, s. 115) şəklində müşahidə olunmuşdur. Maraqlı fakt da vardır ki, Zəngilan (4, s. 177-178) və Çənbərək-Karvansaray şivələrində (10, s. 98) bu

şəkilçi və onun fonetik variantları Ordubad dialektindəki şəiklçi və fonetik variantları ilə eynilik təşkil edir.

Bundan başqa, bu şəkilçi yakut (6, s. 134) və başqırd dillərində (5, s. 68) söz yaradıcılığı prosesində fəal mövqedədir.

***3. -dax, -dəx'.*** Bu şəkilçi ilə isim, sifət və fellərdən bir sıra düzəltmə isimlər əmələ gəlir.

**İsimdən:** ***güz*** (payız)***, od, iş, diş*** sözlərinə ***-dax, -dəx'*** şəkilçilərini əlavə etməklə ***güzdəx'*** (1. payızda bitən ot; 2. payızda qırxılmış yun), *oddax* (ütülmüş taxıl), ***işdəx'*** (əkin yerinin ortasından düz çəkilən arx), ***dişdəx'*** (dişlənmiş meyvədə diş yeri) isimləri düzəlir.

Misallar: — ***Güzdəx' piçinnən söyrə pəyizdə çixən otdi. (Dır.); — Oddəmmiş büğdəyə oddax diyərıx. (Ord.ş.); — İşdəx'nən su gəti:rıx, kərdilə:mizi suvə:rıx. (Nus.).***

**Sifətdən:** ***xar*** (1. axtalanmış heyvan; 2. qısır heyvan), ***xəfə*** (havasız), ***hort*** (sulu), ***dübül*** (əxlaqsız) sifətlərinə ***-dax, -dəx'*** şəkilçilərini artıraraq ***xardax*** (1. axtalanmış keçi; 2. qısır inək), ***xəfədəx'*** (havasız yer), ***hortdax*** (bir içimlik su), ***dübüldəx'*** (səfeh adam) isimləri düzəlir.

Misallar: — ***Xardax pəyizdə qəvirməxdən yana səxladığımız geçidi. (Dır.); — Dib yer, nəfəsəlmax çətin oaln yer xəfədəx' addanar. (B.); — Bı sudan, ay qonax, bi hortdax iş gör nə sudi. (Ord.ş.); — Həylə adama de:llə filənkəsin uşə: dübüldəx'di. (Nüs.).***

Feldən: ***əyir(mək) – əyirdəx'*** (1. əyrilmiş yun ip; 2. Süd, yağ və xəmirdən bişirilmiş yemək)***, gər*** (gərmək felindən) – ***gərdəx'.***

Misallar: ***Əyirdəx'nən qışda geyməyə corəb toxi:rix. (Dır.).***

Ordubad dialektində müşahidə olunan ***-dax, -dəx'*** şəkilçisi Şəki dialektində ***-dex*** (9, s. 77), Çənbərək və Karvansaray şivələrində isə Ordubad dialektində işləndiyi kimi müşahidə olunmuşdur (10, s. 103-104).

Türkmən dilinin Qöklen dialektində isə ***-dek*** şəklində işlənməkdədir: məs.: qerdek (2, s. 55).

***4. -çılıx, -çilix', -çulux, -çülüx'.*** Ordubad dialektində bu şəkilçi ilə isim, sifətdən bir sıra düzəltmə isimlər əmələ gəlir. Lakin Ordubad dialektinin, eləcə də Naxçıvan qrupu dialekt və şivələrinin digər dialekt və şivələrdən fərqli səciyyəvi xüsusiyyəti budur ki, bu qrup dialekt və şivələrədə ***-çilix'*** şəkilçisi ilə feldən də düzəltmə isim əmələ gəlir: məs.: ***irgən (məx')*** (iyrənmək feli) – ***irgənçilix'//iyrənçilix'.***

**İsimdən:** ***alxım*** (göllənmə), ***davar*** (qoyun sürüsü), ***nökər, böşk*** (yalan, şər), ***qərəz*** (gizli ədavət, pis niyyət), ***çimir*** (mürgü), ***dalva*** (turac və kəklik tutmaq üçün rəngli parçadan qurama çətir)***, gün, nubar*** (ilk) – ***alxımçılıx*** (süni göl əmələ gətirən), ***davarçılıx*** (qoyunçuluqla məşğul olan), ***nökərçilix'//nökərçılıx, böx'çülüx'//böhçulux*** (yalan danışmaq peşəsi), ***qərəzçilix'*** (gizli ədavət), ***çimirçilix'*** (yuxu, mürgü düşkünü), ***dalvaçılıx*** (quş tutmaq

peşəsi), ***günçülüx'*** (yaşayış, ömür, həyat), ***nubarçılıx*** (meyvə-tərəvəz məhsulunun mövsümdə ilk dəfə yeyilməsi).

Misallar: — ***Bizim tayfə u vaxlar alxımçılıxnan məːşur olub. (B.); — Kəd cəməːtiːn hamısı davarçılıx eliːr. (Nüs.); — Ə gədə, əz böx'çülüx' elə ginən. (A.); — Qərəzçilix' əncax özə: ziyən eliyər. (Dır.); — Uşəx vəxti oqqədir dalvaçılıx eləmişəm ki. (Ord.ş.); — U zamannar nə günçülüx'nən yaşıyırdıx, nə günçülüynən üşəx böːdürdüx'. (Nüs.); — Biz tərəfdər yuxari kəddərdən tez nubarçılıx eliyər. (A.).***

**Sifətdən:** ***pinti, avarakar*** (işsiz), ***subay, əvvam, xoşbax, çiy*** (kobud, yersiz), ***dilxor*** (kefsiz) — ***pintiçilix', avarəkarçılıx, subayçılıx, əvvamçılıx, xoşbaxçılıx, çıyçilix'//çiyçilıx, dilxorçulux.***

Misallar: ***Miyvələ: təmiz yu$^{i}$, pintiçilix' eləmə. (Vən.); — Oğlum məx'dəbi quta:b, əmə hələm işdəmir, avarəkarçılıx eliːr. (Ord.ş.); — Subayçılığın qıymatı əvlənəndə bilinər. (Əy.); — Qədimdə əvvamçılıx baş aːb geːrdi. (Nüs.); — Çiyçilıx səːn köhnə peşəndi daː onsuz. (G.).***

Mürəkkəb tərkibli bu şəkilçi Şəki dialektində (9, s. 75), Zəngilan (4, s. 180-181) və Çənbərək və Karvansaray şivələrində də (10, s. 106-107) müşahidə olunmuşdur.

***5. -acax, -əcəx'; -cax, -cəx'.*** Müasir ədəbi dilimizdəki **-acaq$^2$, -caq$^2$** şəkilçilərinin fonetik variantları olan bu şəkilçilər əsasən fellərdən isim düzəldir. Lakin ***Əl*** və ***dör*** isimlərindən də ***əlcəx'*** və ***dörcəx'*** (toyda gəlinin oturması üçün yer) isimləri əmələ gəlir.

***Çıx, çap, təp(məx'), dayan(max), tut(max), bürün(məx), gəz(məx'), tüpür(məx'), çəx'(məx') — çıxacaq*** (hadisə), ***capacax*** (ət doğramaq üçün alət), ***təpcəx'*** (beldə ayaq qoymaq üçün yer), ***dayanacax*** (əl ağacı), ***tutacax*** (isti qabları götürmək üçün qalın parçadan tikilmiş mətbəx əşyası), ***bürüncəx'*** (soyuqdan qorunmaq üçün geyilən geyim), ***gəzəcəx'*** (gəzməli yer), ***tüpürcəx', çəkəcəx'*** (gəvən bitkisi yığmaq üçün alət).

Misallar: — **Belin** ***sapıːn əşağısında əyax vırmağa yer düzəldillər, olur təpcəx'. (B.); — Əvvəllə bına dəyanacax diyərdilə. (Ord.ş.); — Tutəcağı gət gə bıra! (Əy.); — Ay qız, qonəğə ordan bürüncəx' gəti ginən, soouxdu. (Dır.); — Quyruxdoğan vəxdi gəlsəydin gəzəcəyə əpərərdim, kəfşənimizi görərdiːz. (G.); — Əğzimdə tüpürcəyim yapışır susuzduğumnan. (Nüs.); — A gədə, çapacağı ma görüm. (T.).***

Bu şəkilçi Türkman ləhcəsində ***-acağ//-acax, -əcəx'*** (8, s. 116), Şəki dilektində ***-acax, -əcəx' və -cex'*** (9, s. 72, 80) Zəngilan (4, s. 82) və Çənbərək-Karvansaray şivələrində isə ***-acax, -əcəx'; -cax, -cəx'*** (10, s. 119) şəklində işlənir.

***6. -anax, -ənəx'; -nax, -nəx'.*** Bu şəkilçilərlə isim, sifət və fellərdən əşya, heyvan, xəstəlik və s. adı bildirən isimlər düzəlir.

İsimdən: ***xır+nəx',*** (xəstəlik adı) (1, s. 104), ***əngə+nəx'*** (xəmir yoğurmaq üçün böyük qab), ***xəfə+nəx'*** (xəstəlik adı).

Misallar: — ***Xırnəx' çox bəd xəsdəlıxdi. (Ord.ş.); — Əngənəyin içində unnan suyi qətip xəmir eli:rıx. (B.); — Çox öysurənə xəfənəx' deyirıx (T.).***

Sifətdən: ***bic+ənəx'*** (atası bilinməyən uşaq).

Misal: — ***Bicənəx' atası bilinməyən üşəğə diyərıx. (ək.k.).***

Fellərdən: ***dəy+ənəx'*** (1. xəstəlik adı; 2. naxırçı çubuğu), ***süz+ənəx'*** (xəstəlik adı), ***döy+ənəx'*** (qabar), ***eş+ənəx'*** (toyuqların torpağı eşərək qida axtardıqları yer), ***doğ+anax//doğ+ənəx*** (bir tərəfinə kəndir bağlanmış haça ağac parçası), ***sız+anax*** (irin tökülən yara), ***yığ+nax*** (yığıncaq), ***biç+ənəx'*** (ot biçilən yer) və s.

Misallar: — ***Dəyənəx' çox gej səğələn yərədi. (B.); — Böyrəhləri xəsdə olan adam süzənəx' tutər. (A.); — Kələnti əllərimi döyənəx' eli:b. (G.); — Sə:r o başdan to:xlari açıb ötü:rüx eşənəyə. (Nüs.); — Doğənəx iki dənə o:r; bi: palanda, bi: də sicimdə. (T.); — Yərə gej səğələr ha, soyra da su tökülər, ona də:rıx sızanax. (B.); — Geçən həfdə yığnax oldu oğlan əvində. (Əy.); — Yazda biçənəx' bi:sən nə gözəl olu? (Dır.).***

Əksər dialekt və şivələrimizdə də isim düzəldən məhsuldar şəkilçi kimi səciyyələnən (13, s. 135) bu şəkilçi Anadolu dialektlərində **-anak, -enek** şəklində müşahidə olunmuşdur; məs.: ***buğ+anak, sağ+anak, yet+enek*** və s. (12, s. 220).

Azərbaycan dilinin digər dialekt və şivələri kimi, Ordubad dialekti də ədəbi dilimizin söz yaradıcılığı prosesində özünəməxsus rol oynayır.

## ƏDƏBİYYAT


1. Azərbaycan MEA Naxçıvan Bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun 2007-ci il hesabatı (əlyazması). Naxçıvan, 2007.
2. Аразкулыев С., Атаныязов С., Бердиев Р., Сапарова Г. Түркмен дилинин гысгача диалектологик сөзлүги. Ашгабат: Ылым, 1977, 316 с.
3. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1962, 327 s.
4. Behbudov S.İ. Zəngilan rayonu şivələrində isim düzəldən şəkilçilər / Azərbaycan dilçiliyi məsələləri. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1967, s. 176-189.
5. Дмитриев Н.К. Грамматика башкирского языка. Москва: Наука, 1948.
6. Харитонов А.Н. Современный якутский язык (фонетика, морфология). Якутск, 1947.
7. Худайбергенов Ж. Түркмен дилинин Емрели диалекти. Ашгабат: Ылым, 1977, 128 с.
8. İraq-Türkman ləhcəsi. Bakı: Elm, 2004, 422 s.
9. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1968, 275 s.

10. Kərimov Ş.M. Azərbaycan dilinin Çənbərək və Karvansaray şivələri. Bakı: Nurlan, 2004, 362 s.
11. Quliyev Ə.A. Naxçıvan dialekt və şivələrinin bəzi leksik xüsusiyyətləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2006, № 4, s. 108-114.
12. Ömer Asım Aksoy. Gaziantep ağzı. I c., Ankara: Türk Dil Kurumu yayınları, 1945, 320 s.
13. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı: ADTP Ədəbiyyatı, 1962, 424 s.

**Абульфаз Кулиев, Сайяр Мамедов**

## АФФИКСЫ, ОБРАЗУЮЩИЕ ИМЕНА СУЩЕСТВИТЕЛЬНЫЕ, В ОРДУБАДСКОМ ДИАЛЕКТЕ

В статье описываются аффиксы ордубадского диалекта, употребляемые для образования имен существительных и отличающиеся своеобразными фонетическими, лексическими и грамматическими особенностями от других диалектов и говоров азербайджанского языка. В отличие от литературного языка, в ордубадском диалекте аффиксы показывают многовариантность. Одновременно здесь говорится о таких лексических аффиксах в ордубадском диалекте, как **-cax, -cəx'; -nax, -nəx'** и т. д. С другой стороны, в статье словообразовательные возможности данных морфологических единиц обосновываются многими примерами.

**Abulfaz Quliyev, Sayar Mammadov**

## NOUN-FORMING AFFIXES IN THE ORDUBAD DIALECT

The article deals with noun-forming affixes of the Ordubad dialect and their lexical, phonetic and grammatical features. Unlike the literary language in the Ordubad dialect the affixes have many variants. At the same time the article deals with such lexical affixes of the Ordubad dialect as **-cax, -cəx'; -nax, -nəx'** which aren't used in the literary language. Also many examples proving word-forming potentialities of these affixes are given here.

***Rəyçilər: Filologiya e.d. A.Bağırov, filologiya e.n. F.Rzayev.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**FİRUDİN RZAYEV**
AMEA Naxsıvan Bölməsi

# NAXÇIVAN TOPONİMLƏRİNDƏ OĞUZ TAYFALARININ İZİ, ONLARIN TARİXİNƏ VƏ «OĞUZ» SÖZÜNÜN ETİMOLOGİYASINA YENİ BAXIŞ

Türk xalqları, o cümlədən də Naxçıvan ərazilərində minlərlə yer adları yaradan, məskunlaşma tarixi və yayılma arealı hələ də «miqrasiyalarla» izah olunan qədim oğuzlar, qaynaq və tədqiqat əsərlərində e.ə. II yüzillikdən XI əsrə qədər «iç, dış, doqquz, otuz, səlcuq oğuzları» kimi tanınmışdır. F.Rəşidəddin, Əbül-Qazi, eləcə də Uyğur qolu «Oğuznamə»lərinin sahibi türklər olsa da, bu yazıların ilk tədqiqatçı və tərcüməçiləri əcnəbilər, F.Dits, V.V.Radlov, V.V.Bartold, P.Pellyo, V.Banq, A.Şerbak və b. Olmuşdur.

«Oğuznamə»nin uyğur variantını dilimizə çevirən K.Nərimanoğlu, F.Uğurlu, onlar haqqında tədqiqat aparan A.N.Orkun, E.Kemal, M.Seyidov, M.F.Köprülü, S.Əlizadə, Ə.Ərcilasun və b. fikrincə yenə nədənsə «Oğuzna-mə»lər və Dədə Qorqud boyları islamlaşdırılmış və onların islamdan sonra yaranması fikri formalaşmışdır. Biz məhz bu fikirlə bağlı bəzi mətnlərə nə-zər salacağıq.

«Oğuznamə»nin Uyğur variantında «...Oşul kız andağ görüklük erdi кim külsə, kök tenri külə tutur, y(ı)ğlasa, kök tenri y(ı)ğlaya tutur» ifadəsinin tərcüməsi belədir: *«o qız o qədər gözəldir ki, gülsə, göy tanrısı gülür, ağlasa, göy tanrısı ağlayır»*. Sonra Oğuzun birinci arvadı «üç erkək oğulnu toğırdı. Birinçisiqə Kün at, ikincisiqə Ay at, üçüncüsüqə Yıldız at koydılar...» ikinci arvadı «... üç erkək oğulnı toğurdı. Birinçisiqə Kök at, ikincisiqə Tağ at, üçünçüsiqə Teniz at koydılar». Əsərdə Tanrı Oğuza «böyük iş tapşırır», nazil olub «torpaqları törəmələrinə qismət edir» (26, s. 13-16, 31). Mətnlərdə Tanrı «insan» kimi ağlayır, gülür, oğlanları isə kainatı formalaşdırır... «Kitabi-Dədə Qorqud» dastanında Təpəgözün doğum təsviri, Sarı çobanın su üstünə gələn pəri ilə izdivacı, Dəli Domrulun gözünə Əzrail mələyinin görünməsi və mələklərin «bəşəriləşməsi», Bayburanın gözünün insan qanı ilə açılması kimi motivlər (13, s. 79-85, 98-104) islamdan qabağa, hətta eradan əvvələ aid olmaqla islami qanunlara görə Tanrının laməkan,

bənzərsiz ideyalarına ziddir. Oğuzların tarixi haqqında qaynaq və tədqiqatlara da nəzər salaq.

Hələ Herodotdan qabaq Assur və yəhudi qaynaqları (e.ə. IX-VIII əsrlər) oğuzları «skit», «işquza», «skif» kimi qeydə alır. Herodot midiyalıların Assuriyaya hücumu zamanı ora başda Madii olmaqla iskid-skiflərin gəldiyini və böyük güc olaraq Asiyaya sahiblənmələrini (14, I, 103; 10, s. 804), İ.M.Dyakonov bunun e.ə. VIII-VII əsrdə İspakanın nəvəsi Madinin (4, s. 229), L.N.Qumilyov isə, eramızın 709-716-cı illəri dövründə Göytürk xanları Moçur və Bilgənin deyimlərinə əsasən qurum, icma olduğunu yazır (18, s. 78-80). Bütün bunlar isə oğuzların «gəlmə» ideyasını vurğulayır. Lakin A.N.Bernştam «Oğuznamələrdə»ki tarixi prosesi «Patriarxal münasibətlərin təşkili», «Sinfi münasibətlərin formalaşması», «Hun, Mode-Mete dövrü», «VI-VIII əsrlər», «IX-XII əsrlər peçeneq-qıpçaq dövrləri»nə ayırır (2, s. 33- 43).

Azərbaycan alimləri H.Araslı, Ə.Sultanlı, F.Köprülü, Ə.Dəmirçizadə və b. da peçeneqlərin Qeok xanın oğlu Beçenedən gəlməsi, 24 oğuz boyunun bir qolu olması (21, s. 38), iskidlərin oğuzluğu, Bibliyadakı Skif-Sak çarlığının Aşkenaza adlanması, oğuz-peçeneqlərin gürcülərlə m.s. 70-ci illərdə Ermənistana hücumu Naxçıvan və İrəvan ərazisinə XI əsrdə gəlmələri və s. kimi yeni fikirlər söyləmişlər (15, s. 150-151; 16, s. 105; 17, s. 126). A.Məmmədvun tədqiqatlarında e.ə. VIII əsrdə «skif-iskid»lərin türk olması ilə yanaşı, onları irandilli hesab edən tədqiqatçı «mühafizəkarlara» tutarlı elmi təkzibləri də öz əksini tapmışdır (20, s. 18, 58, 67, 116). Türk tədqiqatçıları F.Kırzıoğlu, O.Aslanapa, E.Esin, F.Bayatın və b. yazılarında İsgəndərdən qabaq (e. ə. IV əsr) oğuzların Doğu Türküstandan (Cenas) Azərbaycanın qərbinə, indiki Gürcüstana, V yüzillikdə Moğolustandan Tuna və Volqaboyu yayımları, cinli-orbelilərin oğuzluğu, Kiçik Arşaklı-Arşakuni dövlətinin oğuz-Salvur boyundan olması, göytürklərin təşkilində oğuzların rolu, öncə «türkmən» adlanmaları (12, s. 1-6; 7, s. 91), səlcuqların Orta Asiyadan gəlib Türkiyə dövlətinə çevrilməsi (5, s. 22, 30) və s. araşdırılmışdır. Buradakı bəzi yanlış fikirlərə görə oxucularla bərabər bir məsələyə diqqət etmək istərdik. Nədənsə F.Rəşidəddinin «Oğuznamə» əsərində bəzi məqamlar həm tarixçi, həm də oğuzşünasların nəzərindən yayınmışdır. Biz ilk dəfə bir tarixlə bağlı araşdırmamızı oxucularla bölüşmək istərdik.

Oğuz əmiləri Kuz, Kür və Qara xanın qızlarına nişanlanıb sonuncu ilə evlənir (yəqin ki, ən azı 16-17 yaşda), sonra atası və əmiləri onların qəbilələri ilə 75 il vuruşmaqla 7 ilə Hindistanı və Kıl-Barakı tutur. 19 il burada qalıb səhra ölkəsinə gedir və 3 il orada qalır. Dərbənd, Gürcüstan, Şamaxı, Muğan və s. əraziləri 2 ilə, Dəclə, Şam, Antakiya, Rum və Firəngi 1 il 6 aya, Bağdad, Bəsrə, İsfahan, Fars, Kirman, və s. 5 il 6 aya tutub döyüşlər arası yenə 9 il dincəlməklə 50 ildən sonra öz yurduna qayıdır. Oğuzun min il ömür sürdüyü yazılır. Bundan sonra oğlu Gün xan 70 yaşında 70 il (cəmi

140 il), Dib Yavqu bir qədər (6-7 il), Kurs Yavquy 30 il, Koru Yasaq 90 il, İnal 120 il, İnal Sır Yavquy 7 il, Kayı İnal xeyli vaxt (40 ildən artıq) hakimiyyətdə olur və onun dövründə Dədə Qorqud Məhəmməd peyğəmbərlə görüşür (6, s. 16-38).

**Əgər bu tarixləri cəmləsək və 1432 ildən 622 ili çıxsaq, oğuzların tarixi e.ə. IX əsrə (810) təsadüf edir. Bu isə tarixşünaslığın mövcud «konsepsiyasını» birmənalı təkzib edir.**

Əsərdə daha bir maraqlı məlumata baxaq. Kayı İnaldan sonra oğlu Tuman 41 il, oğlu Kayı 90 il, Uladmur, oğlu, qardaşı Qara Alp 97 il hakimiyyətdə olduqdan sonra yavquylar nəsli sona çatır. Ardınca Buğra 107 il, Qoru təkin 75 il, Oyunaq 7 il, Kara Asraq 75 il, Osman xan 15 il, Əsli xan 3 il, Şaban xan 22 il, Buran 18 il, Əli 20 il xan olur. Sonra hakim olan Toğrul qardaşı Arslanı Ruma göndərir və yenə də Məhəmməd peyğəmbərin dövrünə qədər 20 il xan olur (6, s. 46-58).

Burada iki tarixi dövr ardıcıl davam edir, lakin qarışdırılır. Çünki Kayı İnal dövründən peyğəmbərə qədər xanlıq yenə davam edir və bu dövrə qədər 663 il keçir. Əgər ikinci məlumatı qəbul etsək, onda **oğuzların tarix səhnəsində mövcudluğu e.ə. 1443-cü ilə (XV əsrə), yəni II minilliyə təsadüf edir.** Burada müəmma olan nədir?

**Ən əvvəl Bayat boyundan olan Kerençikin** (6, s. 42) **sonradan «Dədə Qorqud» – «ulu, qüvvətli od», «ulu işıqlı uzaqgörən» adlanması «Dədə Qorqud» adının titul olması ehtimalını söyləməyə əsas verir. Bizə belə gəlir ki, «Kitabi-Dədə Qorqud» dastanında hər boyun öz «Dədə Qorqud»u – uca idrak sahibi, ağsaqqallı olmuş, ilkin ad sonradan «Dədə Qorqud» adlanmışdır. Kitab isə təkcə eramızın VII əsrinin deyil, e.ə. dövrlərin də boylarını özündə cəmləşdirmişdir.**

Fikrimizcə, Oğuzun 1000 il yaşaması da (6, s. 38) şübhəlidir və xeyli «oğuz»dan sonra son «oğuzun» oğlu Gün xan hakim olmuşdur. Xatırlasaq, Hun imperatorluğunda «yabqu» titul idi. Hun və oğuzlarda «yabqu», «yavquy» sözünün eyniliyi «oğuz» sözünün titul olması ehtimalını reallaşdırır. Bəs bu sözün mənası necədir? Türk tədqiqatçısı R.Özdək sözün «oxlar» – «siyasi qurum» (27, s. 41-43), M.Seyidov «baş tanrı», A.N.Somoyloviç, F.Köpürlü, Pavet de Ortelli, V.V.Bartolda istinadən «el dərdi və sevincinin dostu» kimi göstərir, 25-ə qədər rus, türk, gürcü müəlliflərinin yazılarında türklərə aidliyini yazıb, İbn Mühənnada, şivələrdə və xeyli araşdırıcıda «*qoşuda gələn», «usta», «ötüb keçən», «uzunçu»* və s. mənalarından bəhs edir. O, sonda M.Kaşğari, «Mogilyan» xan abidəsi və Qazax dilindəki anşi – «mahnı» sözünü, «ozan» – *mahnıda yarışan* mənasını qəbul edir. Deməli «uz» tərkibi türk dillərində *«qabaqlayan» «ötüb keçən», «usta»*dır (30, s. 155, 209). Biz də öz tərəfimizdən sözün «uz», «quz» tərkibindən danışmaq istərdik.

A≈e≈o≈u, ı≈u səs əvəzlənməsi ilə «uz» tərkibi areal türk onomastikasında geniş yayılıb. F.Körpülü Anadoluda xeyli «Ozan» kənd adını qeyd edir və bu ad təhriflə yaxınlara qədər Dərəçiçək mahalının Avazən, Avəzənik adlarında qalırdı (11, s. 53). Süleyman şah Kurtulmuş oğlu Anadolunu fəth edəndə Sakuz adasını da tutur (27, s. 79). Mənbələrdə «az», «izgil», «ediz», «özbək», Uz, Uz Bilgə və s. Orxon yazıları, insan və tayfa adlarında (28, s. 387, 389), Aruz, Uruz kimi, «Kitabi-Dədə Qorqud»da (13, s. 166, 175) Yarcauz, Uzunoba, Payız (Bəyuz), Urmuz, Sələsüz kimi, müasir və qədim Naxçıvanda (11, s. 68-72) Təbriz, Şiraz, Zenuz, Sakuz kimi yüzlərlə ad Cənubi Azərbaycanın yer adlarında (8, s. 155, 171) türk tayfasının adını bildirir.

Məntəqə adları tayfa adları ilə formalaşdığından bu oykonimlərin hamısında «uz» tərkibi tayfa adı kimi özünü doğruldur. Sisyan nahiyəsində Uz heç bir yardımçı komponent olmadan «uz» tayfasının adıdır. Haliyədə Dondar, Quşçu, Bayat və s. məntəqələr tayfa adıdır və «ozan»ın *«qabaqlayıb keçən», «mahir», «usta»* kimi mənalar ilə uyğun gəlmir.

«Uz» tərkibi «ur» şəklində *«qəbilə», «nəsil»* bildirmişdir (29, s. 635). T.Hacıyev Azərbaycan ərazisində kadusi, sak, kaspi, bus, və s. türklərdən yazaraq «oğuz» sözündəki «uz» tərkibinin az, uz/us və s. fonetik şəkillərinə (büzüşmək, bürüşmək) diqqət yetirmiş, onu tayfa kimi qəbul edərək «ur»un elə «uz» – tayfa adı, «uyğur» sözünün «oğuz» ifadə etdiyini yazmışdır (9, s. 126-127). Qədim türklərdə və şumerlərdə onun *«gələcəkdən xəbər verən»,* mənalarını da bildiyimizdən (29, s. 306-307) o, həm də *tanrıdır*. Bu gün də Allahqulu, Tanrıverdi kimi adlar tayfa, tirə adlarına çevrilməkdədir.

**Öz çarlıqlarını yaratmış türk kass-kassilərdə Mirizir tanrı idi. Adın «İldırım allahı» olmasını, türk-monqollarda **osir, oçir** sözlərinin *«ildırım qolu»* mənasında olduğunu yazan Q.Qeybullayev Midiyada Uzmanda şəxs adını uz – *«gələcəyi xəbər verən, müdrik»,* man – *«mən»*, da – *«qərarı ilə»* tərkiblərinə ayırıb «Mən müdrik allahın qərarı ilə» mənasında izah etsə də, burada hansı komponentin *«allah»* olduğunu yazmır (15, s. 62, 105). Araşdırmamıza görə, müəllif «allah» sözünün kökünü açıqlamasa da, bu tərkibdə «üz» Tanrının adıdır. Mirizir tanrı adında da iz – *«od»,* mir/bor – *«parıltı»*, ir/ər – *«kişi»* mənasındadır. «İz» tərkibi şumer, qazax, türkmən, başqırd, salar, azərbaycan, özbək və s. dillərdə «issi», «izik» şəklində *«od», «işıq»* mənalarını daşıyır (19, s. 8). Ər – *«kişi»* tanrı dünya xalqlarının mifologiyasında Tanrıça Şala (hürritlərdə), Artemida (yunan) və s. istisna olmaqla qədim ərəblərdə Aarra, avar, darqin və saxur miflərində Abdal, hindlilərdə Avatara, türklərdə Tenqr, Xuday, yunanlarda Zevs kimi kişi cinsinə aid idi (22, s. 21-23, 49, 619; 23, s. 463). Kassilərin Mirizir tanrı adında («Od tanrısı-əri») ir/ər «kişi» sözünün olması da, fikrimizcə, təsadüfi deyil. Bununla bərabər, «oğuz» sözünün ok/oğ tərkibi də maraqlı komponentdir. M.Kaşğaridəki «ağ» tərkibini *«uca»* anlamında götürsək (3, s. 9), «oğuz» sözü *«uca ötüb keçən»* mənasında tayfa adı deyil. Burada da biz

tərkibin yeni mənası ilə qarşılaşırıq. M.Seyidov türk dillərində «uk/uqu/oq» tərkibinin *«ailə», «birlik»* mənasından (30, s. 115), A.M.Məmmədov isə şumerlərdə «*nəsil», «tayfa»* kimi işləndiyindən bəhs edir (19). O zaman söz *«tayfa», «nəsil», «övlad»* kimi *«od övladı»* mənasında e.ə. minilliklərə, şumerlərə gedir və bu mifoloji iz tarixdə durmaqdadır.

İ.M.Dyakonov türk kassitlərdə (e.ə. III minillik) bir tayfa adının Karzi Yabku olduğunu qeyd edir (4, s. 137). Biz hunlarda bunun «hökmdar» mənası verdiyini yazdıq, Q.Qeybullayev bu adın təhlilini *«ağsaqqal», «hökmdar», «başçı»* mənalarında izah edir və «Oğuznamə»də bir neçə yabku-yavkuların adını çəkir (15, s. 63). Oğuz xanlarından Div, Kurs, Koru Yasaq, İnal, İnal Sır və b. şəxs adlarında «yavqu/yavquy» sözü *hökmdar* mənası vermişdir (6, s. 38-48).

Atropatena Midiyasının qüdrətli əyaləti olan Naxçıvan MR ərazisindəki Okuzbatr, Oğuzdaş, Qaqauz, Okuzlu, Axura, Biləv, İlquzaqay, Billəva, Vayxır kimi (cəmi 143) oykonimlərin 1590-1990-cü illərin arxiv sənədlərində qeydə alınması və tərkiblərində «Dış oğuzlar» (Oğuzdaş), «Oğuz yurdu» (Okuzbatr) «Oğuz övladı» (Qaqauz), «Kiçik oğuzlar» (Axura), «Oğuz bəyləri» (Vayxır) «Oğuz övladlarının yurdu» (İlquzaqay) və s. mənaların qalması çox əski bir tarixdir. «Kitabi-Dədə Qorqud»dakı «iç oğuz», «dış oğuz»un, Oğuzdaş, Beçene qolundan olan Bulla Çoban tayfa adının Billəva, «oqur» «onoqur», «hoturqır», «hunqar», «beş oqur», yəni «beş, on, otuz, hun oğuzları» kimi tərkiblərin Axura, Vayxır oykonimləri ilə eyniliyi (1, s. 13-17; 24, № 87, 13 listdə), bu oykonimlərdə «ok+uz» komponentlərinin oğuz olması, onun qollarının e.ə. III minilliklərdən ərazilərimizdə yaşamasının canlı sübutlarıdır.

Naxçıvan ərazisindəki adlarda **bat** – ***«ölkə»*** **ir/ur** – ***«uz» tayfa adı, «qurmaq», «tikmək»,*** **ka** – ***«şan-şöhrət»,*** **il** – ***«yurd, vətən»,*** **iç, dış** – ***«daxil, kənar»,*** eləcə də Alban çarlığında Mate-Batı, hun xaqanı Mete, Matu/Batu, (e.ə. IX-III əsrlər), Taldı-Kurqanda Matay, Qazaxıstanda Matay, İrkutskdə Baday, şumer, oğuz və b. türklərdə Uruk, Türkiyədə İl, İlçə kimi söz tərkiblərinin areallığı bu yurdun qədimliyi və elmi nəticənin doğruluğunu sübut edir.***

Bu mülahizələrdən sonra oğuzlar haqqında fikrimiz belədir:

***1. Oğuzların tarixi ən azı e.ə. III minillikdən kassitlərlərlə-yavquylarla başlanmış və eramızın XVI-XVII əsrlərinə qədər hakimiyyətdə olmuşlar.***

***2. «Oğuz» sözü əski inanclarımızdan yaranıb, öz adını qədim şumer, kassit türklərinin İşkur tanrı adından götürərək «od, işıq oğlu» anlamını ifadə etmişdir.***

***3.Tarixi qaynaqlarda iskid, skif, işkuz, uşquzay, oqur və s. kimi adı çəkilən türk oğuz birlikləri Naxçıvan ərazisində də ən qədim sakinlər olmuşlar.***

***4. Oğuzlar Orta Asiyadan gəlmə deyil, Azərbaycanın cənub bölgəsində e.ə. III minillikdən – Midiya dövlətindən öncə geniş ərazidə avtoxton sakinlər olmuş, Babilistanda hakimiyyəti ələ almış və e.ə. II minillikdə çarlıq yaratmışlar.***

**5.** ***Onlar işğallarla bağlı türklər yaşayan bütün ərazilərə yayılmış minlərlə yer adlarına öz adlarını verərək eramızın IV-XVI əsrləri ərzində bütöv oğuz səltənətinə hakim olmuşlar.***

Bütövlükdə türk olan və Azərbaycan xalqının təşəkkülündə iştirakı olmuş oğuzların tarixi *geniş* tədqiq olunmalı və sistemli şəkildə araşdırılmalıdır.

## ƏDƏBİYYAT


1. Баскаков Н.А. О происхождении этнонима «башкыр» / Этническая ономастика. М.: Наука, 1984, с. 13-18.
2. Бернштам А.Н. Историческая легенда об Огуз кагане // Советская этнография, М., 1935, № 6, s. 33-43.
3. Besim Atalay. Divanü lüğat-it-türk. Ankara: Dizni, 1986, 886 s.
4. Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. М.-Л., 1956, 485 с.
5. Emil Esin. Türk kültürü tarihi. Ankara, 1997, 87 s.
6. Fəzlullah Rəşiddəddin. Oğuznamə. Bakı: Azərnəşr, 1992, 72 s.
7. Fizuli Bayat. Türk Dili Tarihi. Ankara, 2003, 209 s.
8. Gültekin Qalibe. Azerbaycan doğusundakı yer adları. İstanbul, 2001, 191 s.
9. Hacıyev T.İ. Azərbaycanın qədim onomastikasına dair / Azərbaycan filologiyası məsələləri. Bakı, 1984, s. 126-127.
10. Herodot. Tarixdən parçalar / Antik ədəbiyyat müntəxəbatı. Bakı, 1991, s. 804.
11. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
12. Kırzıoğlu Fahrettin. Dede-Korkut Oğuznameleri. I kitap, İstanbul, 1952, 132 s.
13. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 s.
14. Геродот. История. Л.: Наука, 1972, 600 с.
15. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 278 s.
16. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Т. I, Баку: Элм, 1991, 552 с.
17. Qeybullayev Q. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, 138 s.
18. Qumilyov L.N. Qədim türklər. Bakı: Gənclik, 1993, 536 s.
19. Məmmədov A.M. Azərbaycan dilinin erkən tarixinə dair materiallar. 1. Şumer-türk leksik paralelləri / Azərbaycan filologiyası məsələləri. Bakı,

1983, s. 19-25.
20. Məmmədov A.M. Oğuz səltənəti. Bakı: Azərnəşr, 1992, 300 s.
21. Vəliyev (Baharlı) M. Azərbaycan. Bakı, 1993.
22. Мифы народов мира. Энциклопедия. Т. I, М., 1987, 671 с.
23. Мифы народов мира. Энциклопедия. Т. II, М., 1988, 719 с.
24. Naxçıvan MR MDA: f. 32, siy. 1, arxiv 9, iş 87, v. 16.
25. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı: Sabah, 1997, 336 s.
26. Oğuznamələr. Bakı, 1993, 119 s.
27. Rəfiq Özdək. Türkün qızıl kitabı. I-II c., Bakı: Yazıçı, 1992, 1993, 184 s., 232 s.
28. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı: Yazıçı, 1993, 400 s.
29. Севортян Э.В. Этимологический словарь тюркских языков. Т. I, Москва: Наука, 1974, 777 с.
30. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.

**Фирудин Рзаев**

## СЛЕДЫ ОГУЗСКИХ ПЛЕМЕН В НАХЧЫВАНСКИХ ТОПОНИМАХ, НОВЫЙ ВЗГЛЯД НА ИХ ИСТОРИЮ И ЭТИМОЛОГИЯ СЛОВА «ОГУЗ»

В статье, опираясь на древние источники и материалы исследований, рассматриваются история огузских племен и всесторонне анализирован исторические сообщения в «Огуз-наме» Ф.Рашид ад-Дина, Абу-л-Гази и в «Книге Деде Коркута».

В статье путём сопоставления исследованы все огузские потомки, «йавгуй» начиная с Огуз хана, и получены интересные научные результаты. История, которая исследована в новом аспекте, подтверждает, что огузы ещё в древности жили на нашей территории, в том числе на территории древнего Нахчывана. А это коренным образом отличается от нынешней концепции историографии, которая огузов считает «пришельцами»

Одновременно, исследуя этимологию слова «огуз», автор статьи обнаружил множество научных фактов. В Нахчыванских топонимах выявлены следы огузских племен и научными фактами подтверждено, что многие огузские племена были автохтонным населением древней Нахчыванской земли еще со II тысячелетия до н.э.

**Firudin Rzayev**

## TRACES OF OGHUZ TRIBES IN THE NAKHCHIVAN TOPONYMS, A NEW OPINION ABOUT THEIR HISTORY AND ETHYMOLOGY OF THE WORD «OGHUZ»

The author of this article, basing on ancient sources and research materials, considers the history of oghuz tribes and comprehensively analyzes historical data in the «Oghuz-name» of F.Rashid ad-Din, Abu-l-Gazi and in the «Book of Dada Gorgud».

In the article all Oghuz descendants of Yavgu since Oghuz khan are investigated in comparison, and interesting scientific results are gained. The history investigated in new aspect confirms that Oghuz tribes lived already in antiquity in our territory, including the territory of the ancient Nakhchivan. And it radically differs from the present historiography concept which considers Oghuzes as «newcomers».

Simultaneously investigating the etymology of the word «oghuz», the author of this article has discovered a lot of interesting scientific facts. In Nakhchivan toponyms the traces of Oghuz tribes are revealed and it is confirmed by the scientific facts, that many Oghuz tribes were the autochthonous population of the ancient Nakhchivan land since the II millennium B.C.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, filologiya e.d. Ə.Quliyev, filologiya e.d A.Bağırov.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**ELMAR HÜSEYNOV**
AMEA Naxçıvan Bölməsi

# ŞƏRUR RAYONU ƏRAZİSİNDƏKİ TEONİMLƏRİN (ZİYARƏTGAH VƏ PİRLƏRİN) ETİMOLOGİYASINA DAİR

Teonim qədim yunan sözü olub ***teos*** – «Allah, səcdəgah» və ***onim*** – «ad» sözlərinin birləşməsindən əmələ gəlib (8, s. 300), səcdəgah, səcdə edilən varlıq, bir sözlə müqəddəs varlıqların adı, yaşadığı məkan mənasında işlənir. Bu sahə ilə onomastikanın teonimika sahəsi məşğul olur ki, səcdəgahlar, ziyarətgahlar, pirlər, məscidlər, dini məbədlər, müqəddəs ocaqlar teonimikanın tədqiqat obyektinə daxildir.

Ana yurdumuz Azərbaycan qədim tarixi abidələrinin – müqəddəs ziyarətgahlarının çoxluğu ilə daim dünya ölkələrinin maraq dairəsində olub. Təəssüflə qeyd edək ki, keçmiş Sovet imperiyasının tərkibində olarkən belə ərazilərin tədqiqi, onların fəaliyyəti qadağan olunmuş, ümumilikdə qədim tarixə malik ölkəmizin tarixi məqsədyönlü şəkildə unutdurulmağa çalışılmışdır. Lakin ölkəmiz müstəqillik qazandıqdan sonra toponimik tədqiqata maraq xeyli artmış, bu sahəyə aid tədqiqat əsərləri, elmi məqalələr yazılmış, tarixi ərazilərə ekspedisiyalar təşkil olunmuşdur. Ölkəmizin tarixini, coğrafiyasını, burada yaşayan əhalinin dilini, onun toponimiyasını öyrənənlərin sayı artmışdır. Muxtar respublikamızda da bu istiqamətdə xeyli işlər görülmüş, bu ərazilərdə aparılan toponimik araşdırmalar nəticəsində Nuh yurdu Naxçıvanda yaşayan etnosların qədim tarixə, zəngin mədəniyyətə malik olması üzə çıxmışdır.

Bu istiqamətdə T.Əhmədov, M.Vəliyev (Baharlı), A.Bağırov, F.Rzayev, A.İmanlı və başqa tədqiqatçılar tərəfindən toponimik araşdırmalar aparılsa da, Naxçıvan MR teonimləri hələ də ətraflı şəkildə öyrənilməmişdir. Qeyd edək ki, bu sahənin araşdırılmasına bu gün də böyük ehtiyac duyulmaqdadır.

Muxtar Respublikamızda ən böyük əraziyə malik Şərur rayonu qədim toponimik adlarla yanaşı, xeyli ziyarətgah və pirləri ilə də diqqəti cəlb edir. 2006-2007-ci illərdə buradakı teonimlərdən bəzilərinin yaranma tarixi onları qeydə alaraq araşdıran V.B.Baxşəliyev, M.R.İsmayıl və N.Alıyev tərəfindən e.ə. III-I minilliyə, bəzilərinin yaranması isə orta əsrlərə, yəni Azərbaycanın ərəblər tərəfindən işğalından və xilafətin tərkibinə qatıl-

masından sonrakı dövrlərə aid edilir. Bu baxımdan Şərur rayonu ərazisindəki teonimlərin mənşəyini, onların adlarındakı səs dəyişilmələrini öyrənmək böyük əhəmiyyət kəsb etməklə yanaşı, həm də qədim tarixə malik milli irsimizin, burada yaşayan etnosların kimliyinin araşdırılmasına, aydınlaşdırılmasına və dəqiqləşdirilməsinə xidmət göstərir.

Şərur rayonu ərazisində onlarla pir, dini ocaq, müqəddəs ziyarətgah mövcuddur. Biz bunlardan yalnız bir neçəsi haqqında söhbət açacağıq.

**Şıxbaba ocağı.** Şərur rayonu ərazisindəki ən qədim tarixə malik müqəddəs ocaqlardan biridir. Təzəkənd ərazisində yerləşən bu ocaqdan tapılan maddi-mədəniyyət nümunələrinə görə tarixi e.ə. III minilliyə aid edilir. Bəzi tədqiqatçılar *dərviş və seyid* sözləri kimi *şıx* sözünü də ərəblərlə bağlayırlar. Şıx – şeyx mənasında dini rütbə, dini rəhbər kimi Şıxbaba/Şeyxbaba ərəb dilindən dilimizə keçmiş ad hesab olunarsa, onda bu teonimin tarixi VII əsrdən sonrakı dövrü əhatə etməlidir. Baba sözünün türk dilində olması bu qənaəti təkzib edir. Çünki əsasən mürəkkəb toponimlərin hər iki tərəfi də eyni dilə aid komponent olur (8, s. 172). Bəzi tədqiqatçılar e.ə. III minillikdə bu ərazilərdə qədim türk etnoslarından biri olan sakların yaşadıqlarını və bir çox abidələrin adlarının da məhz onların adı ilə bağlı olduğunu qeyd edirlər (1, s. 77). Ehtimal oluna bilər ki, Şıxbaba teonimindəki Şıx Sak etnoniminin dəyişikliyə uğramış formasıdır. *A≈ı* əvəzlənməsinə ən çox qərb qrupu dialekt və şivələrində, az da olsa, Naxçıvan dialektində rast gəlinir. Bu hadisə türk dillərində də müşahidə edilir (16, s. 50). İstər qədim, istərsə də müasir türk dilləri arealında biz *ç≈c, t≈d≈z, y≈ş, s≈ş, k≈q, k≈x, t≈d, v≈b, v≈f, f≈b və s.* yüzlərlə fonetik əvəzlənmələrin şahidi oluruq. Biz səslərin bu cür dəyişilmələrinə qədim türk yazılı abidələrində də rast gəlirik. Moyun Çor abidəsindəki *Acığ Altır köl*-sözündəki *köl* «göl» leksemi ilə eyni kökdəndir (10, s. 32).

Sözlərdə baş verən belə dəyişikliklər dilimizdə və digər türk soylarında çox qədim xarakterə malik dil hadisəsidir. Qeyd edək ki, Ordubad dialektində *x≈h* əvəzlənməsi (*həbər, horuz, hörək və s.)* özünü göstərir (3, s. 53). Naxçıvan qrupu dialekt və şivələrində *k≈x′, h≈x, ç≈ş və s.* samitlərinin bir-birini əvəzləməsi hadisəsi Azərbaycan dili ilə türk dilini müqayisə etdikdə də özünü göstərir. Belə ki, Azərbaycan dilində söz əvvəlində gələn ***x*** səsinə türk dilində ***h*** səsi uyğun gəlir (16, s. 85).

Müasir türk dillərində *üç* rəqəminin **üş**, *«saç»* sözünün **saş**, *«axça»* sözünün **axca** kimi işlənməsi, eləcə də *«süpürgə»* sözünün **şıpırğü**, *«süzgəc»* sözünün qazaxlarda **süzgiş,** türkmən və uyğurlarda **süzgüc** (11, s. 800-807) kimi işlənməsi də dediklərimizə sübutdur. Bu kimi ifadələrdə səs dəyişilmələrinin mövcudluğu və müxtəlif paralelliyin areal türk onomastikasında çox geniş yayılması bu hadisənin türk xalqları üçün xarakterik olduğunu göstərir. Bu fonetik hadisə *(y≈s≈ş≈c)* Şərur oykonimlərindən *Siyaqut* (Sisaqut-sisaklar), *Yengicə* (Sanq/sak+izə/izi "isti", "od") (15, s. 196), *Şahbulaq*

(Sak bulağı) oykonimlərində, *Şıxbaba* (Sak baba), *Şahbulaq* (Sak bulağı) teonimlərində çox geniş və aydın formada qorunmaqdadır.

Müasir Azərbaycan dilində işlənən «*ocaq*» komponenti də qədim tarixə malik sözdür. Bu söz dilimizdə ***«yurd, yuva»*** mənalarını da ifadə edir. Qədim şumercə *ödçak/öcak/ötçak/öçak/oçak/ocak/oçak* variantları mövcud olmuşdur (2, s. 74).

Şıxbaba ocağı qədim tarixə malik olsa da, bu teonim adının son dövrlərə aid olduğu qənaətindəyik. Belə ki, adın tərkibindəki müasir türk dillərində işlənən *«baba»* komponenti dediklərimizə sübut ola bilər.

**Şahbulaq piri (Şapur bulağı ziyarətgahı).** Şahbulaq kəndində yerləşən bu pirin tarixi e.ə. I minilliyə aid edilir. Deyilənə görə, səfərə çıxanlar, arzusuna qovuşmaq istəyənlər, övlad həsrətində olanlar, niyyətlərinə çatmaq istəyənlər buraya gələrək onun pak suyunda əl-üzlərini yuyar, ətrafından daş götürüb bulağın üstündəki «Əhdigah» adlanan qaya taxçalara atardılar. Rəvayətə görə, daş taxçada qalarsa, tutulan niyyət qəbul olunacaqdır (14, s. 298).

Tədqiqatçılar Şahbulaq sözünün «*şah*» komponentində *h≈k* səsəvəzlənmə hadisəsi ilə Şah-Sak etnosu ilə bağlılığı qənaətindədirlər (15, s. 79). Teonimin tərkibindəki ikinci tərəf hidronimlə ifadə olunmuş bulaq sözüdür. Bu söz qədim türk sözüdür. Bulaq iki komponentdən ibarətdir. ***Bu*** – qədim türk sözü olub, su, sulu yer, ***-laq*** – yer, məkan mənası ifadə edən isimdən isim düzəldən şəkilçidir (müasir Azərbaycan dilində bu şəkilçi işlənir: yaylaq, qışlaq, otlaq və s.). Buradan aydın olur ki, teonim Sak etnosu və bulaq hidroniminin birləşməsindən əmələ gəlib, «***Sak-bu-laq»*** mənasında *Sakların yaşadığı sulu* kimi başa düşülməlidir.

**Qızıldərə piri.** E.ə. II-I minilliyə aid edilən bu pir Şərur rayonunun Yuxarı Yaycı kəndində yerləşir. Bu mürəkkəb teonimin birinci tərəfi etnonimlə ikinci tərəfi isə oronimlə ifadə olunmuşdur. T.Əhmədov *ç≈c≈d≈z≈y≈s≈z≈ş* kimi səs uyğunluğunu çox qədim dövr dialektik paralelləri hesab etmişdir (8, s. 243). Buradan aydın olur ki, ***qız/kız*** komponenti ***z≈s*** səsəvəzlənməsinə görə ***qıs/kıs*** şəklinə düşmüş olur. *O≈ı≈i* səsinin ***«a»*** səsi ilə əvəzlənməsi və *a≈ı* səsəvəzlənmə hadisəsini Azərbaycan dili ilə yakut, tuvin və çuvaş dillərini müqayisə etdikdə görürük ki, Azərbaycan dilində (bir sıra türk dillərində də) sözün birinci hecasında olan ***«a»*** səsi ***«ı»*** səsi ilə əvəzlənir (16, s. 50). Qədim türk areallarında və müasir türk dillərində, eləcə də türk dili dialekt və şivələrində *o≈ı≈i≈a* səs əvəzlənmələrinə görə ***kos/kis/kıs*** komponentləri nəticə etibarı ilə ***kas*** komponenti ilə eyni mənşəli sözlərdir. Deməli, ***kıs*** komponenti *ı≈a* səsəvəzlənməsinə görə əslində Kas etnoniminin dəyişikliyə uğramış formasıdır. Kas etnonimi ilə bağlı Azərbaycan və türk dövlətləri ərazisində çoxlu sayda oykonim, hidronim, oronimlərə rast gəlinir. Qazançı, Qazax, Kosacan, Keçili, Akaş, Kasqalan,

«Kitabi-Dədə Qorqud» da Qazlıq dağı, Orta Asiyada Qızılüzən çayı və s. belə adlardandır.

Məmmədəli Qıpçaq **qızıl** sözünü *kız+ıl* şəklində göstərir və qeyd edir ki, **-ıl** şəkilçisi vasitəsi ilə əsasən rəng bildirən sifətlər yaranır (12, s. 76). F.Ağasıoğlu «Qədim türk eli Saqa-Qamər boyları» (2006) kitabında bu haqda geniş məlumat verərək yazır ki, «Macar alimi Nimeth qədim bulqar runik yazıları içində İlbek sözünü oxumuşdur. İlbek adının bu gün də Azərbaycanda işlək olan Elbəy, Elbək adlarından fərqlənmədiyini, Elxan, İlxan, Elçin adları ilə oxşar struktur tərkibə malik olduğunu izah etməyə ehtiyac yoxdur» (1, s. 61). Güman edilir ki, bu adların başında xalq, dövlət və ölkə anlamlarını özündə cəmləşdirən ***«el»*** sözümüz durur (1, s. 61). Qədim Kuti çarlarından Elulumeş (e.ə. XXIII əsr) adının əvvəlində də ***«el»*** sözü durur (13, s. 54). *«İl»* sözü bu gün də türk dilində ***«el, yer, yurd, vilayət»*** mənasında işlənməkdədir.

Budaq Budaqov isə *«qızıl»* sözünün müasir Azərbaycan dilində əlvan metal və rəng bildirdiyini qeyd edir. O, bildirir ki, belə toponimlərdə qızıl əsasən torpağın, yerin və s. rənginin qırmızımtıl olduğunu bildirir (6, s. 75).

Qeyd edək ki, teonimdəki *«dərə»* komponenti mənfi relyef quruluşlu obyekt adının formalaşmasında iştirak edir (8, s. 210).

Qızıldərə – Kasların yurd saldığı dərə və yaxud da qızılı rəngli torpağa malik dərə mənasında, Qızıldərə piri – kasların yurd yerlərindəki və yaxud da qızılı rəngli dərədəki müqəddəs ziyarətgah kimi başa düşülməlidir.

**İlan ocağı**. Şərur rayonunun Alışar kəndində olan bu ocaq XIV-XVIII əsrlərə aid edilir. R.Babayev qeyd edir ki, ilanla bağlı mifoloji mətnlərin, folklor nümunələrinin, adların zənginliyi Naxçıvan üçün xarakterikdir (4, s. 40). İlanla bağlı adlar heç də təsadüfi yaranmamışdır. Bu, şumerlərdən gələn mifologiya olmaqla, türklərdə totem hesab edilmişdir. «Kutadqu bilik»də ilan *«yılan»* şəklində verilir və heyvan adı bildirir. Budaq Budaqov bu adın qədimdə totem olduğunu və ilana (heyvan) xüsusi qayğı ilə yanaşıldığını qeyd edir (6, s. 78). Ancaq bəzi mənbələrdə ad *il+an* şəklində mürəkkəb söz götürülür. *«İl»* haqqında ətraflı məlumat verdiyimiz üçün buradakı ***-an*** komponenetinə baxaq: A.Kasım ***-an*** komponentini şumerlərlə bağlayır. «Harfiyen «ev An (ın)» yani, «An (ın)» Şumer «baş Tanrısı» evi» olduğunu görerik (2, s. 73). T.Əhmədov ***-an*** komponentini yer bildirən şəkilçi kimi göstərir (8, s. 160). F.Rzayev də bu fikrə şərik çıxaraq həmin şəkilçini məxsusluq, mənsubluq bildirən şəkilçi hesab edir (15, s. 80). Qeyd edək ki, qədim Şumerlərdə və Altay türklərində ***«Anu»*** sözü həm də Allah mənasında işlədilmişdir. Söhbətlərimizin birində F.Rzayev sözün ***Anu/ana/an*** şəklində bu günümüzədək gəlib çıxmasını və bu komponentin ***İlan/Elan/El-Anu*** – «Allah yurdu» mənasını ifadə etdiyini bildirmişdir.

**Qaradaş ocağı.** Tarixi XIII-XIV əsrlərə aid edilən bu müqəddəs ocaq Şərur rayonunun Axura kəndində yerləşir. Mürəkkəb teonimin tərkibi müxtəlif mənşəli komponentlərdən ibarətdir. *«Qara»* sifəti qədim türk dillərində ***rəng, böyük, qüvvətli, cəsur, uca, nəhəng, geniş*** mənalarında işləndiyi məlumdur. «Yaradılış» dastanında **Qara Xan** –*«Böyük Tanrı»* mənasındadır. Tərkib geniş tədqiqata cəlb olunub. Belə ki, T.Əhmədov bu komponentin müasir dilimizdə rəng mənasında işləndiyini və başqa mənaları da ifadə etdiyini bildirir (8, s. 211). F.Rzayev isə Şərur oykonimlərindən ***Qarabürc*** («Böyük qurd»), ***Qarahəsənli*** («Böyük kaslar»), ***Kərimbəyli Quşçu*** («Qüvvətli Kuşan bəyləri») oykonimlərində **«qara»** tərkibinin *«böyük» və «qüvvətli»* mənalarında işləndiyini qeyd edir (15, s. 79).

Teonimin ikinci komponenti ***«daş»***dır. R.Babayev Y.Kalafata istinad edərək yazır ki, qədim türk inanışlarında kult olaraq müqəddəslik daşıyanlardan birisi də ***daş*** olmuşdur (4, s. 37). Deməli, ***«daş»*** türk mifologiyasında kultlar sisteminə daxil olan obrazdır (7, s. 49). Dağ və daş qədim dövrlərdən insanların inancında, mifik təfəkküründə xüsusi rol oynamışdır. «Kutadqu bilik»də daş ***«taş»*** şəklində işlənmişdir (5, s. 80). Başqa bir əsərdə isə qeyd edilir ki, daşa dönmə insanların əski mifoloji dünyagörüşünün ifadəsidir. Daşla bağlı inanclar daşın ilkin yaradılışda iştirak etməsi ilə bağlı təsəvvürləri əks etdirir. Yenə orada B.Ögele istinadən yazılır ki, "Altay-türk yaradılış dastanlarının birində Ulgen insanoğlunu yaradanda əllərini torpaqdan, sümüklərini daşdan yaradır" (9, s. 52-56). B.Budaqov ***«daş»*** sözü ilə bağlı coğrafi adların əsas etibarı ilə dağlıq ərazilərdə, daş bol olan yerlərdə yarandığını, bu sözün bu və ya digər mənaları da əhatə etdiyini qeyd edir (6, s. 74).

Qeyd edək ki, *Qaradaş ocağı* – ***müqəddəs, böyük, nəhəng daşın olduğu ocaq*** mənasında işlədilmişdir.

**Ordugah.** Şərur rayonu Axura kəndinin şimalında, «Bəysalı» adlanan dağın təqribən 2 kilometrliyində orta əsrlərə aid arxeoloji abidədir. Ərazidə aparılan axtarışlar nəticəsində xeyli maddi-mədəniyyət qalıqları aşkar olunmuşdur. Ehtimal ki, Ordugahdan hərbi qüvvələrin müvəqqəti düşərgəsi kimi istifadə edilmişdir. Tapıntılara əsasən Ordugah IX-XVII əsrlərə aid edilir (14, s. 213). ***Ordu*** sözü qədim türk sözü olub, bu gün də öz qədim mənasını ifadə edir. Türk qoşunları yadellilər tərəfindən Orda (Qızıl Orda) da adlandırılmışdır. Mürəkkəb teonimin ikinci komponeneti olan ***-gah*** T.Əhmədovun da qeyd etdiyi kimi, **«yer, məkan»** mənasında işlənmişdir (8, s. 172). Qədim türklərin məskən saldığı ərazilərdə ***-gah*** komponenti ilə işlənən xeyli sayda toponimə rast gəlmək olar; məs.: ***Bilgəh, Digah, Xanəgah, Qalagah və s.***

Şərur rayonunda onlarca pir, ziyarətgah və müqəddəs ocaq adlarının mənşəyini araşdırdıqca qədim tarixi köklərə malik xalqımızın keçmişdən indiyədək zəngin mədəniyyətə, milli ənənələrə və dini dünyagörüşə

malik olması bir daha ortaya çıxır. Bu teonimləri araşdırarkən yurdumuzun hər daşında, qayasında, müqəddəs hesab etdiyimiz yerlərin adlarında – pir, ziyarət, ocaq adlarında xalqımıza, milli mentalitetimizə mənsub izlərə, adlara, sözlərə rast gəlirik. Araşdırmalarımızdan belə nəticəyə gəlmək olar ki, qədim tarixə malik teonimlər xalqımızın inanc yerləri olmaqla bərabər, həm də onun dini baxışlarını, inanclarını mühafizə edərək, tarixi yaddaşın izlərində qoruyub saxlamışdır.

## ƏDƏBİYYAT


1. Ağasıoğlu F. Qədim türk eli (Saqa-Qamər boyları). Bakı: Çıraq, 2006, 128 s.
2. Atakişi K.C. Şumerce kesin olarak türk dilidir. İstanbul: İstanbul universitesi, 2001, 151 s.
3. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri. Bakı: Azərb. SSR EA, 1962, 326 s.
4. Babayev R. Naxçıvan folkloru: Bəşərilik, türklük, regionallıq. Bakı: Elm, 2008, 144 s.
5. Balasaqunlu Y. Kutadqu bilik. Bakı: Avrasiya press, 2006, 440 s.
6. Budaqov B.Ə. Türk uluslarının yer yaddaşı. Bakı: Elm, 1994, 272 s.
7. Cəfərli M.A. Dastan və mif. Bakı: Elm, 2001, 188 s.
8. Əhmədov T. Azərbaycan toponimikasının əsasları. Bakı: Bakı Universiteti nəşriyyatı, 1991, 312 s.
9. İsmayıl M. Naxçıvan əfsanələri. Bakı: Elm, 2008, 208 s.
10. Karşılaştırmalı Türk Lehçeleri Sözlüğü: 2 cilddə, I c., Ankara, 1992, 1183 s.
11. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 278 s.
12. Qıpçaq M. Türk say sistemi. Bakı: Yazıçı, 1996, 132 s.
13. Quliyev Ə.A. Qədim türk onomastikasının leksik-semantik sistemi: 2 cilddə, I c., Bakı: Elm, 2001, 128 s.
14. Naxçıvan Ensiklopediyası: 2 cilddə, II c., Naxçıvan, 2005, 376 s.
15. Rzayev F.H. Qədim Şərur oykonimlərinin mənşəyi. Bakı: Nurlan, 2006, 244 s
16. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı: ADTP Ədəbiyyatı, 1962, 424 s.

**Эльмар Гусейнов**

## ОБ ЭТИМОЛОГИИ ТЕОНИМОВ НА ТЕРРИТОРИИ ШАРУРСКОГО РАЙОНА

Статья посвящена этимологии Шарурских теонимов, относящихся к ранним тысячелетиям до н.э. Подробно анализируя исторические корни некоторых теонимов, автор получил интересные результаты. Путем сопоставления фонетических замен и лексических значений в этих корнях уточнена их первоначальная форма.

Выявлено, что большинство теонимов Шарурского региона происходит от названий древних тюркских племен, которые жили до н.э.

**Elmar Huseynov**

## ABOUT THE ETYMOLOGY OF THEONIMS (SACRED PLACES FOR PILGRIMAGE) IN THE TERRITORY OF SHARUR DISTRICT

The article deals with the etymology of Sharur theonyms, concerning to the early millennia B.C. Having analyzed the historical roots of some theonyms thoroughly, the author has obtained interesting results. By comparison of phonetic substitutions and lexical meanings in these roots their initial forms are restored.

It is revealed, that the majority of theonyms of Sharur district have their origin in the names of ancient Turkic tribes which lived here B.C.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, filologiya e.d. Ə.Quliyev, filologiya e.n F.Rzayev.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**NURAY ƏLİYEVA**
AMEA Naxçıvan Bölməsi

# AZƏRBAYCAN DİLİNİN ŞAHBUZ ŞİVƏLƏRİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏR

Frazeoloji vahidlər uzun zamandan bəri xalq içərisində yaşayıb möhkəmlənən və həmin xalqın milli xüsusiyyətlərini özündə cəmləşdirən zəngin dil materialıdır. Ədəbi dilin zənginləşməsində, onun təşəkkül tapmasında dialekt və şivələrimizdə işlənən, ədəbi dildən müəyyən dərəcədə fərqli olan frazeoloji birləşmələrin – sabit birləşmələrin mühüm rolu vardır. S.Cəfərov yazır: «Frazelogiya az öyrənildiyindən onun əsas tədqiq obyektini təşkil edən söz birləşmələri üçün də vahid konkret termin hələ yaradılmamışdır. Odur ki, bunlar hələ də frazeoloji vahidlər, frazeoloji birləşmələr, tərkib hissələrinə bölünməyən söz birləşmələri, idiomatik ifadələr, idiomlar, frazemlər və s. kimi çoxlu terminlərlə adlandırılır» (6, s. 100). Frazeoloji vahidlərin əksəriyyəti üçün onu təşkil edən sözlərdən birinin və ya hamısının öz leksik mənasından az və ya çox dərəcədə uzaqlaşması, məna cəhətdən müstəqilliyini itirib, bir-birinə bağlanmış şəklə düşməsi əsasdır. Frazeoloji vahid sərbəst söz birləşməsinin modelləri üzrə törəyir (11, s. 250).

Ədəbi dildə, dialekt və şivələrimizdə olduğu kimi, Şahbuz rayon şivələrinin də lüğət tərkibi frazeoloji vahidlərlə zəngindir. Frazeloji vahidlərin aşağıdakı növləri vardır: idiomlar, ibarələr, hikmətli sözlər, atalar sözləri, zərbi-məsəllər.

İdiomlar həqiqi mənalı sözlərin qarşılığı olub, onu məcazi məna ilə bildirən sabit söz birləşmələrinə deyilir (6, s. 100). Şahbuz şivələrinin leksikasında işlənən idiomları işlənmə dairəsinə görə üç qrupa bölmək olar: 1) Həm şivədə, həm də ədəbi dildə eynilə işlənən idiomlar; 2) Ədəbi dildən müəyyən cəhətdən fərqli olan idiomlar; 3) Ancaq şivənin özünə məxsus olan idiomlar.

Həm ədəbi dildə, həm də şivədə eyni mənada işlənən idiomlar əsasən çoxluq təşkil edir. Belə idiomlar bir sıra isimlərin və fellərin həqiqi mənada yox, məcazi mənada işlənməsi yolu ilə əmələ gəlir. Daha çox idiomu əmələ gətirmək üçün bədən üzvlərinin adını bildirən: ayaq, bel, qol, əl, qaş, göz, üz, ağız, dil, boyun, ürək sözlərinin yol, söz və s. isimlərin gəlmək, görmək, düşmək, qoymaq və s. felləri ilə birləşərək məcazi mənada işlənməsi lazım-

dır. Məsələn: göz dəymək, göz ağartmaq, dil vermək, üz çevirmək, üz vurmaq, üz tutmaq, əl tutmaq, ayaq açmaq, əl üzmək, baş aparmaq, əl gəzdirmək, ağız açmaq və s. kimi birləşmələr həm ədəbi dildə, həm də Şahbuz şivələrində fəal şəkildə işlənir. Məsələn: – *Balaca uşaxların qoluna taxıllar gözmıncığı kin, onnara göz dəyməsin* (Bad.). Göz dəymək idiomu Şahbuz şivələrində kinayə ilə də işlənir. Bu zaman həmin ifadə tənbəllik, bir işi vaxtından gec yerinə yetirmək mənasında işlənir. – *Usda Vəli kin belə işdiyir gərəx' ona üzərrix' salax, yoxsa ona göz dəyər* (Kol.).

Bu birləşmə digər türk dillərində də müxtəlif variantlarda işlənir. Türk dilində nazar değmek, başqırd dilində küz tiyev, qazax dilində köz ötüv, qırğız dilində nazar tüşü, özbek dilində köz teğiş, uyğur dilində köz tadgmadk və s. (9, s. 642).

Göz ağartmaq idiomu da həm ədəbi dildə, həm də şivədə hədələmək, qorxutmaq, sirri açmamaq üçün işarə vermək, yaxud danışmamaq üçün edilən işarə mənalarında işlənir. – *İramazan ona elə bir göz ağartması vermiyip, bir də o:n sözün ağzına ala* (Səl.).

Baş aparmaq idiomu da şivədə bir neçə mənada işlənir. Bütün dialekt və şivələrimizdə olduğu kimi, uzunçuluq etmək, zəhlə tökmək mənası ilə yanaşı, eyni zamanda özündən razı adamların öz imkanlarından yuxarı danışması mənasında işlənir. – *Sara arvad genə başımızı-beynimizi aparmasa yaxcıdı* (Ş. k.). Misalda birləşmə çox danışmaq, uzunçuluq etmək mənasında işlənmişdir. – *Həsənin yetimi böyun də yamanca baş aparırdı, ağsaqqalar ağzını boza verdilər getdi* (Kol.). Burada isə idiom öz imkanından yuxarı danışmaq mənasında işlənmişdir.

Bir çox frazeoloji vahidlər də vardır ki, bunlar ədəbi dildə deyil, Şahbuz şivələrində işlənir. Məsələn: adam otarmax, qulp qoymaq, barmağ eləmək, baş əhməx', baş yeməx', göz yaşı yeməx' və s.

Adam otarmax idiomu adam aldatmaq, adama düz söz deməyən mənasında işlənir. – *Tutdum bir gün İbinin yaxasınnan dedim ki, məni otardığın bəsdi. Adam otarmax sa: hasan gəlməsin. Cavabıvı qəytərəllər* (Kol.).

Qulp qoymaq idiomu hər şeyə bir əmma qoymaq, iş düzəltməyən, işi əyən mənasında işlənir. – *İş kin, qaldı Fatıya, ta getdi. O, düz işə qulp qoyur, qala kin bı məsələ ola* (Biç.).

Barmağ eləməx' lağa qoymaq, rişxənd eləmək mənalarını, eyni zamanda hər hansı bir işə müdaxilə edib, onu pozmaq mənasında işlədilir. – *Kətdə hammı ona barmağ eləyib gülür, bilmirəm bə bı kimə gülür* (Biç.). – *İşi bir bəlaynan düzəltmişdik kin, bı nadürüsdün oğlu o tərəfdən bir barmağ elədi, pilanım alt üsd oldu* (Kül.).

Baş əhməx' aldatmaq, yalan demək, yoldaş etməmək mənalarında işlənir. Bu ifadə eyni zamanda oğurlamaq, başqasından bir şeyi gizlətmək mənalarını da ifadə edir. Maraqlı haldır ki, bu ifadə yalnız ikinci tərəfi ilə də (baş sözü olmadığı halda) eyni mənaları ifadə edə bilir. Baş sözü həm də mənsubiyyət və hal şəkilçiləri ilə də işlənə bilir (başın əhdix', başlarını

əx'dilər və s.). – *Dedim, ay Sadıx , bınnan bizə yoldaş olan çıxmaz. Başını bi təhər əx', gə yolumuza davam eliyəx'* (Q.Q.).

– *Gözüm tüşdü baltıya, dedim a qağa, sən bı:n başın söypətə qat, mən bı baltanı əkim* (Biç.).

Göz yaşı yeməx' həmfikir olmayan, sözü tutmayan, bir-birini istəməyən, düşmən olmaq mənalarında işlənir. – *Zalım oğlu:n elə bil balasın öldürmüşəm, məni görəndə elə baxır elə bil mənnən göz yaşı yeyipdi* (Tür.).

Üzə çəx'məx' keçən hadisəni, özü də pis hadisəni xatırlamaq, onu həmin hadisəni edənə irad tutub onu xəcalət etmək mənalarında işlənir. – *A kişi, keçənnəri üzə çəx'mə, o goul bulandırmaxdan başqa bir şey dəyil* (Kol.). Bu idiomun sinonimləri kimi başa vurmaq, başa qaxmaq, başa çırpmax birləşmələri də işlənir.

Üzə düşmək idiomu hər hansı bir adamın bir hadisəni özü istəmədən etməsi mənasında işlənir. Bu isə həm yaxşı, həm də pis hadisə ilə bağlı ola bilər. – *Bınnan hələ belə şey görünməmişdi, kişi üzə tüşdü bizə kabaf çəx'dirdi* (Səl.). Qeyd edək ki, Keçili, Külüs, Şahbuzkənd kəndlərində üzə düşmək ifadəsinin sinonimi kimi boynuna yük düşdü ifadəsi də işlənir.

Əti üzdən götürməx' idiomu Şahbuzun demək olar ki, bütün kəndlərində eyni mənada işlənir. Birləşmədəki götürmək felinin şəxsə və zamana görə dəyişməsi ilə bağlı olaraq ifadə müəyyən şəxsə və zamana aid ola bilir. İdiom ciddi surətdə savaşmaq, sözləşmək, yəni pərdəni aradan götürən, barışmağa yol verməyən mübahisə mənasında işlənir. Bəzi kəndlərdə isə birləşmə əti üzdən kəsmək variantında işlənir ki, bunların hər ikisi eyni mənanı ifadə edir. – *Adam da bir avara sözdən ötərin qahım-əqrabaynan əti üzdən kəsər* (Bad.). – *Xuduru yerə kişiynən əti üzdən götdüx', indi adam birbirinə baxanda isdiyir yerə girsin* (Day.).

Başdan savdı ifadəsi hər hansı bir işi tez, həm də keyfiyyətsiz başa çatdırmaq mənasında işlənir. – *Nainsaf oldular, arxəyin oldux kin, əməllibaşdı bir tavla tikəllər, tay nə biləx' bınnar hər işi başdansavdı görüllər* (A.Q.).

Başdan savdı sabit söz birləşməsinin ikinci tərəfi diqqəti cəlb edir. Belə ki, savmaq sözü ədəbi dildə sovmaq, sovuşmaq şəklində işlənir. Deməli, burada həm fonetik fərq var, həm də ki, bu sözün leksik mənası da maraqlıdır. Belə ki, savmaq sözü daha çox dəyirmanla bağlı işlənir. Həm ədəbi dilimizin lüğət tərkibində, həm də dialekt və şivələrimizdə belə bir birləşmə də var: "Suyu savılmış dəyirmana bənzəyir". Bu, boş, içərisində heç nə olmayan ev və s. yer haqqında deyilir. Sovuşmaq, sovmaq sözünün bir mənası da ötmək, keçməkdir. Xata mənnən savışdı, toyu savdı getdi və s. ifadələrində olduğu kimi.

Başdan saqqat//səqqət ağılsız, ağlı çatmayan mənalarını bildirir. – *Un elə oğlu da özünə oxşuyup, başdan saqqatın biridi* (G.Q.).

Maraqlı burasıdır ki, saqqat sözü şivədə ayrılıqda işləndikdə başdan saqqat sözünün antonimi kimi işlənir. Yəni ağıllı, işbilən, bacarıqlı mənə-

larını verir. Eyni zamanda bu söz güclü, vurub yıxan mənalarını da ifadə edir. – *Tərəkəmə gəlmişdi kəndə, atı özünnən, özü atınnan saqqat, İbi dedi: Uşaxlar, ata yaman quşum qonup, onu əx'məsəm atamın oğlu dəyiləm* (Kol.).

Qabıxdan çıxmax ifadəsinə daha çox əməklə bağlı rast gəlirik. Bu ifadə çox işləmək, heç bir haqq almadan işləmək mənalarını ifadə edir. –*İşdiyirdix' axşama qədər, qabıxdan çıxırdıx, amə nə faydası axırda gəlirdi olurdux haqqı bemuz* (Mər.). Qeyd edək ki, bu birləşməyə bədii ədəbiyyatda da tez-tez rast gəlmək olur.

Şahbuz şivələrində işlənən bir qisim sabit söz birləşmələri – idiomlar quruluşca əvvəlkilərdən fərqlidir. Belə ki, burada birləşməni əmələ gətirən tərəflərdən birincisi mənsubiyyət şəkilçisi (hər üç şəxsin ayrı-ayrılıqda ifadəçisi olan şəkilçiləri) qəbul edir, ikinci tərəf isə əsasən müxtəlif fellərlə ifadə olunur. Məsələn: dili uzunluq etmək, quşum qonub, quşum uçub, başı boş, başı bədəninə ağırlıq etmək, başı şişmək, ağzı bütün, ağzı boş, ağzıgöyçəklik etmək, ağzı söz tutmaq, ağzı kəsərri, gözü qıpıq, gözü ko:lu tox, əli qoynunda qalmaq, burnu yellənməx', qulağı darı dəlir, dili topuq çalmaq, ilan dili çıxarmaq və s.

Ağlı qırmaq idiomu Şahbuz şivələrinin əksəriyyətində işlənir. – *Ağlın nə qırır? – Ağlım bir şey qırmadı* – ifadələri Sənin fikrin nədir? Sən nə deyirsən? mənalarını bildirir. Hər hansı bir şey, məsələ haqqında münasibəti ifadə edir. Ədəbi dildə bu mənanı ifadə etmək üçün «Ağlın nə kəsir?» ifadəsi işlənir. – *Düzdü, siz bı:n tərifin çıxardıpsız dağın belinə, amma vallahı mə:m ağlım onnan heş nə qırmır* (Tür.).

Qulağı gəlməx' qulağın cingildəməsi mənasında işlənir. – *Sə:rdən dedim qulağım gəlir, qonağımız gələcəx', mən dedim, mən də eşitdim, ge:p bulaxdan su gətirmədi* (Kol.).

Kəli qaçmax birləşməsi Şahbuz şivələrinə xas olan bir birləşmə olub, zəhləsi getmək, istəməmək, əldən buraxmaq mənalarını ifadə edir. – *Elə həmən günnən ordan elə kəlim qaşdı, elə kəlim qaşdı kin, dedim ta günümə bir onnux qızıl da versələr bırda qalan dəyiləm* (Y.Q.).

Başını bələməx' ifadəsi həm evləndirmək, həm də hər hansı bir adam haqqında nahaqdan şər atıb onu rüsvay etmək mənalarında işlənir. – *Darıxma elə kin, başın bələdin, onnan sora yumurta yükü aparacax* (Biç.). – *Allah mərdiməzara min təsbeh nəhlət eləsin, yazığın başın elə bələmədilər kin, bir də o:n adın çəkən olsun* (Y.Q.). Axırıncı mənada Şahbuz şivələrində başını böyütməx' idiomu da işlənir.

Ağzını yığmaq idiomu qarşısını almaq mənasını ifadə edir. Bu mənanı həm də ağzına vurmaq, əyağını yığışdırmax, gözünün odunu almaq birləşmələri də ifadə edə bilir. – *Sən allah, o uşaxların bir ağzına vır, ötənəkeçənə nəlayix sözdər deyillər. – Bi dəfə tafşırmışdı kin, bı qor-qoduğun əyağını bırdan elə kəsirsən, elə yığışdırırsan, ta olmuyan təhər* (Kük.).

Gözü:n ilk avı birləşməsi ilk, birinci mənasında Şahbuz şivələrində geniş şəkildə işlənir. Bu ifadə övlad, nəvə, gəlin, sevgili və s. sözlərə aid edi-

lir. – *O mə:m gözümün ilk avıdı, yanı birimci gəlinimdi, odu kin, una heş kim söz diyəmməz* (Day.).

Sabit söz birləşmələrinin maraqlı növlərindən biri də ibarələrdir. İbarələrdə də sözün həqiqi mənası deyil, məcazi mənada işlənməsi əsas yer tutur.

Birləşməni təşkil edən sözlərin müəyyən hissəsinin məcazi, digər hissəsinin isə həqiqi mənada işlənməsi nəticəsində yaranan obrazlı birləşmələr ibarə adlanır (6, s. 111). İdiomlar dilin lüğət tərkibinin müəyyən bir hissəsini təşkil etdiyi halda, ibarələr əsasən bədii dildə işlənir (6, s. 112). Lakin bu o demək deyildir ki, dialekt və şivələrimizdə ibarələr yoxdur. Dialekt və şivələrimizdə, o cümlədən Şahbuz şivələrində də ibarələr var, amma bunlar idiomlara nisbətən azlıq təşkil edir. Məsələn: Zəli Sənəm, balta diş (adam), atıcının hı deyəni (özü iş görməyib özgəsinə buyuran), dargöz (adam), toy toxlusu, şana barmaq (adam), palaz qulax, vəl ayaq, eymə ağız və s. – *Zəli Sənəm o qəddərə göydü kin, özü də çörəx' yemir, çöpə dönüp* (Nur.). – *Belə balta diş qıza kimin quşu qonar, evdə qalasıdı ki, qalası* (Kül.). Misallarda zəli sözü xəsis mənasında, balta sözü isə böyük diş mənasında işlənmişdir.

Dilmizdə olan frazeoloji birləşmələrin bir növü də atalar sözü və zərbi-məsəllərdir. Xalq danışığında atalar sözünə tez-tez rast gəlmək olur. Bu mənada Şahbuz şivələri də zəngindir. Bu atalar sözlərinin və zərbi-məsəllərin əksəriyyəti ədəbi dildə də işlənir. Burada daha çox fonetik fərqlər özünü göstərir və ya sözlərdən bəziləri ədəbi dil variantı deyil, dialekt variantında olur. Məsələn: – *Ana ilə bala oturar, hərə közü öz qabağına çəkər* (Day.). – *İsinmədix' isdisinə, kor oldux tüsdüsünə* (Nur.). – *Qız ağacı, qoz ağacı, hər yetən bir selbə atar* (Kol.). – *Analı qızın işi görünər, anasızın dişi* (A.Q.). – *Hürüşünü bilmiyən it özünə qurt gətirər* (Tür.). – *Şumu qoyub pərşumda şıllaq atır* (Biç.).

Atalar sözlərində özünü göstərən bu fərqlər onların mənasına xələl gətirmir.

Şahbuz şivələrinin frazeologiyasını araşdıraraq belə bir nəticəyə gəlmək olur ki, Azərbaycan dilinin digər dialekt və şivələri kimi, Şahbuz rayon şivələri də sabit birləşmələrlə zəngindir. Bu birləşmələr həm ədəbi dildə, həm də başqa dialekt və şivələrimizdə işlənən birləşmələrdən müəyyən cəhətdən fərqlənir. Bu fərqlər adət-ənənə ilə, yerli şəraitlə (istər təbii, istərsə də ictimai şəraitlə), həmin yerdə yaşayan adamların məşğuliyyəti ilə, təsərrüfat formaları ilə, müəyyən ərazi yaxınlığı ilə bağlıdır.

Şahbuz rayonu şivələrində işlənən sabit söz birləşmələrinin quruluşu da ədəbi dildən fərqlənmir. Ədəbi dilin inkişafı üçün bədii üslubun daha təsirli olmasına kömək etmək üçün şivələrimizdə, o cümlədən Şahbuz rayonu şivələrində işlənən sabit söz birləşmələrinin toplanması və öyrənilməsi böyük əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1962, 325 s.
2. Azərbaycan dilinin dialektoloji lüğəti. Ankara: Kılıçaslan Matbaacılık, 1999, 374 s.
3. Azərbaycan dilinin izahlı lüğəti: 2 cilddə, I c., Bakı: Elm, 1966, 596 s.
4. Behbudov S. Azərbaycan dili şivələrinin omonimlər lüğəti. Bakı: Nurlan, 2003, 206 s.
5. Binnətova G. Azərbaycan dilinin Lerik rayonu şivələri. Bakı: Nurlan, 2007, 174 s.
6. Cəfərov S. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1982, 214 s.
7. Əhmədov M. Naxçıvan şivələrinin lüğəti. Bakı: Atilla, 2001, 167 s.
8. Əliyev Ə. Azərbaycan dilinin Meğri şivələri. Bakı: Elm, 2003, 579 s.
9. Karşılaştırmalı Türk lehceleri sözlüyü: 2 cilddə, I c., Ankara: Başbakanlık Basımevi, 1991, 1183 s.
10. Həsənov İ. Gəncə dialektinin leksikası. Bakı: Elm, 1974, 194 s.
11. Müasir Azərbaycan dili: 3 cilddə, I c., Bakı: Elm, 1978, 322 s.

**Kənd adlarının ixtisarı**

A.Q. –Aşağı Qışlaq
Bad. – Badamlı
Biç. – Biçənək
Day. – Daylaqlı
G.Q. – Güney Qışlaq
Kol. – Kolanı
Kül. – Külüs
Q.Q. – Qızıl Qışlaq
Mər. – Mərəlik
Nur. – Nursu
Səl. – Sələsüz
Ş.k. – Şahbuzkənd
Tür. – Türkeş
Y.Q. – Yuxarı Qışlaq

**Нурай Алиева**

## ФРАЗЕОЛОГИЧЕСКИЕ ЕДИНИЦЫ В ШАХБУЗСКИХ ГОВОРАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

В статье подробно исследованы фразеологические словосочетания, употребляющиеся в Шахбузских говорах Азербайджанского языка. Ука-

зывается, что эти словосочетания являются богатым языковым материалом, который объединил в себе национальные особенности народа и отражает род занятий, формы хозяйствования, традиции и обычаи населения региона. Отмечено, что Шахбузские говоры обладают своеобразной фразеологией, которая отличает их от литературного языка и это играет важную роль в обогащении Азербайджанского литературного языка.

**Nuray Aliyeva**

**PHRASEOLOGİCAL UNİTS İN THE SHAHBUZ PATOİSES OF THE AZERBAİJAN LANGUAGE**

Phraseological units – regular word combinations in the Shahbuz dialects of the Azerbaijan language are thoroughly researched in the article. It is also stated that these combinations are rich language material, which combines in itself characteristic features of the nation and reflects forms of business and economy, customs and traditions of the people in the region. It was noted that the patoises of Shahbuz has got specific phraseology, which differs them from the literary language and it plays an important role in the process of enrichment of the Azerbaijani literary language.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, filologiya e.d. Ə.Quliyev, filologiya e.d. A.Bağırov.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

## ƏDƏBİYYAT VƏ FOLKLOR

**FƏRQANƏ KAZIMOVA**
AMEA Naxçıvan Bölməsi

# MƏMMƏD CƏFƏR CƏFƏROV ROMANTİZMİN ARDICIL TƏDQİQATÇISIDIR

Çoxcəhətli və geniş əhatəli yaradıcılığa malik olan akademik Məmməd Cəfər Cəfərov Azərbaycan ədəbiyyatında romantizm problemlərinin tədqiqi sahəsində son dərəcə əhəmiyyətli işlər görmüşdür. O, ilk dəfə olaraq XX əsr ədəbiyyatında realizmlə yanaşı, romantizmin də xüsusi bir yaradıcılıq məktəbi olduğunu sübut etmiş, bu romantizmin mütərəqqi ideya-estetik məziyyətlərini işıqlandırmışdır.

M. Cəfərin romantizm bədii metodunu tədqiq etməsinə hansı yaradıcılıq ehtiyacı səbəb olmuşdur? Bu problemin həllini şərtləndirən yaradıcılıq yolu göz qabağındadır. O, əvvəlcə məşhur «Səni kim unudar?»(4) məqaləsini yazmış və bu mövzuya müraciətin səbəbini məqalənin ilk sətirləri aydın şərh edir: «Məhəmməd Hadi vətənini, elini sevirdi. Canından, həyatından artıq sevirdi. Hadi başqa xalqları, millətləri bütün ruhu ilə sevdiyi, onların səadətini, azadlığını arzu etdiyi kimi öz xalqını, öz millətini də sevirdi. Həm də coşğun, odlu və atəşin bir məhəbbətlə sevirdi, saf, təmiz, ləkəsiz, yüksək bir qəlblə sevirdi.

Ey vətən, ey pəriyi- vicdanım,
Kəsmə bizdən nigahi-şəfqətini!
Eylə ilqa, dildə məhəbbətini,
Səni sevmək deyilmi imanım?
Dili məhzun edən bu halətdir
Qıldım izhar iştə həsrətimi.
İstərəm bəxtiyar millətimi
Qəlbdə bəslənən bu niyyətdir»(4).

Məqalədə insanın işıqlı gələcəyindən xəbər verən Hadi romantikasının xüsusiyyətləri, kriteriləri, bu romantikaya xas olan səciyyəvi keyfiyyətləri xarakterizə edilmişdir.

Böyük Hadi təbii olaraq böyük Cavidə yol açdı. «Hüseyn Cavid» (1960) monoqrafiyası, 1957-ci ildə isə «1905-1917-ci ildə Azərbaycan ro-

mantizmində ideya xüsusiyyətləri haqqında» adlı əsəri yarandı ki, burada da Azərbaycan romantizminin xüsusiyyətləri şərh olunmuşdur.

Bunların ardınca 1961-ci ildə M.Cəfər «Hüseyn Cavid və Azərbaycan ədəbiyyatında mütərəqqi romantizm» mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. Dissertasiya işində mütərəqqi romantizimin nəzəri-estetik əsasları haqqında ətraflı danışılmış, bunun M.Hadi, A.Səhhət, A.Şaiq yaradıcılığındakı təzahür formaları, bundan sonra mütərəqqi romantizmin ideya xüsusiyyətləri, bu romantiklərdə Vətən məhəbbəti, Şərq və Qərb məsələsi, humanizm, azadlığa münasibət məsələləri geniş şərh edilmişdir. Dissertasiyanın böyük bir hissəsi Hüseyn Cavidə aiddir. Əsərdə göstərilmişdir ki, Azərbaycan romantizminin ən görkəmli nümayəndəsi olan Hüseyn Cavid çox ziddiyyətli bir yaradıcılıq yolu keçmişdir. Bütün ziddiyətlərinə baxmayaraq, o, görkəmli bir sənətkar, mütərəqqi romantizmin ən məşhur nümayəndəsi kimi Azərbaycan ədəbiyyatı tarixində silinməz izlər buraxmışdır. Cavidin lirik şeirləri, mənzum və mənsur dramları, habelə epik əsərləri, eləcə də sənətkarlıq xüsusiyyətləri xarakterizə edilmişdir.

M.Cəfərin hər hansı sənətkarı mühit, dövrü və ona müasir cəmiyyətin ideologiyası, fikri, fəlsəfi təmayülləri ilə birgə təhlil etməsi də onun yaradıcılıq xüsusiyyətindən irəli gəlirdi.

M.C.Cəfərovun tədqiqatlarına qədər Azərbaycan ədəbiyyatında romantizmin bir ədəbi cərəyan kimi ideya-bədii xüsusiyyətləri açılmamış, onun əsas qollarının mahiyyəti, ədəbiyyatımızda tutduğu mövqeyi lazımınca izah edilməmişdir. M.Cəfər Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının dərin, hərtərəfli şərhini vermək üçün həmin çətin məsələləri qabaqcadan dürüst müəyyənləşdirə bilmişdir.

O, «1905-1917-ci illər Azərbaycan romantizmində ideya xüsusiyyətləri haqqında» (5) məqaləsində ilk əvvəl Azərbaycanda romantizmin yarandığı konkret tarixi şəraitin təhlilini vermişdir. Müəllifin qeyd etdiyi kimi, Azərbaycan ədəbiyyatında yaranan və inkişaf edən romantizm «1905-1917-ci illərdə Azərbaycan həyatının doğurduğu ədəbi hadisələrdən biri idi» (2, s. 3).

Məqalədə romantizmin qolları haqqında oxucuya ətraflı məlumat verilmiş, onların fəlsəfəsi əsası, ideya xüsusiyyətləri, ziddiyyətləri dərindən və obyektiv surətlə açılmışdır.

M.Cəfər bu əsərində romantiklərin əsərlərindən misallar gətirərək onların hamısına mənsub ümumi keyfiyyətləri açmış və beləliklə, mütərəqqi romantizmin əsas xüsusiyyətlərini şərh etmişdir. O, yeri gəldikdə romantikləri bir-birindən fərqləndirən cəhətlərdən də bəhs etmişdir. Bu əsərdə ədəbiyyatşünaslıq elmimiz üçün böyük əhəmiyyət kəsb edən problemlər yüksək elmi-nəzəri bir səviyyədə, səlis, aydın və publisist bir dillə həllini tapmışdır.

Qeyd etməliyik ki, Azərbaycan ədəbiyyatında romantizm realizmdən sonrakı bir mərhələ kimi meydana çıxmış, onunla yanaşı fəaliyyət göstərmiş və ona təsir göstərməkdən daha çox realizm ənənələrindən təsirlənmişdir.

Bütün bu cəhətlər Azərbaycan romantizminin ideya-bədii istiqamətinə, onun estetik xüsusiyyətlərinə təsirsiz qalmamış və mürəkkəb orijinal ədəbi hadisə kimi onun elmi şəkildə tədqiq olunması ehtiyacını doğurmuşdur.

M.Cəfərin «Azərbaycan ədəbiyyatında romantizm»(2) adlı əsəri ədəbiyyatşünaslıq elmimizdəki bu ehtiyacı müəyyən dərəcədə ödəmişdir. Müəllif XX əsr Azərbaycan ədəbiyyatındakı romantikləri bədii yaradıcılıq məziyyətlərini, onların qüvvətli və zəif cəhətlərini dövrün siyasi-ictimai həyatı, ideya mübarizələri və ədəbi mübarizələri ilə əlaqədar bir şəkildə təhlil edilmişdir. Romantizmin ideya-bədii prinsipləri, mövzu, janr xüsusiyyətləri və obrazlar aləmi, romantiklərin ictimai görüşləri, məfkurə ziddiyyətləri, dil və üslubu Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq nəzəri cəhətdən belə şərh olunmuşdur.

Ədəbiyyatşünas-alim haqlı olaraq romantizmin xüsusiyyətlərini iki əsas cəhətdə axtarmışdır: birincisi, onun ideya məzmununda, yaradıcılıq ideallarında və məfkurə prinsiplərində, ikincisi, bilavasitə bədii idrak üsulunun və poetikasının xüsusiyyətlərində.

Əsərdə Azərbaycan romantizmi, hər şeydən əvvəl, xüsusi ideya məzmunu olan bir yaradıcılıq metodu, özünəməxsus vahid, ümumi mövzusu, problemləri, bədii ifadə vasitələri olan bir ədəbi cərəyan kimi alınmış, əsaslandırılmış və xarakterizə edilmişdir. Alim bu romantizmin poetik üslubu üzərində durmuş, hər cür ziddiyyətlərinə baxmayaraq, bütövlükdə Azərbaycan romantizmini fəal, mütərəqqi və mücadiləçi bir romantizm kimi təhlil və təqdim etmişdir.

M.C.Cəfərov ona qədər öyrənilməmiş, çətin və ciddi elmi məsələləri ilk dəfə bu əsərdə irəli sürmüş, məlum problemlərə toxunanda isə onların şərhini daha da dərinləşdirmişdir.

Romantizmin nəzəri-estetik prinsiplərini müəyyənləşdirərkən alim haqlı olaraq çox vaxt romantik yazıçıların (M.Hadi, A.Səhhət) tənqidi-nəzəri əsərlərinə də əsaslanmışdır. «Romantiklər müasir ruhda tərbiyə almış kimi görünən, lakin xalqa yabançı olan, A.Səhhətin «Müsəlman ürəfaları» şeirində təsvir edildiyi kimi, qınından çıxıb qınını bəyənməyən, müasirliyi, mədəniliyi «kübarcasına geyinib, zontik tutmaqda» görən, xalqın dilini, əməlini başa düşməyən, millətə, onun dilinə, ədəbiyyatına dodaq büzən, gününü restoranlarda keçirən idealsız «oxumuşları» da kəskin tənqid edirdilər» (2, s. 84).

«M.Hadinin nəzərində belə «ziyalılar» nəinki sadəcə xalqı bəyənməyənlər, özləri üçün yaşayanlar, həm də xalqı satan, məslək satan, istibdada, irticaya nökərçilik edən alçaqlar idi:

Olub məsləkfüruşan aləti-əzvaqi-istibdad,
Bu alçaqlar görür bu halı istedad şəklində» (2, s. 84).

Fəlsəfi, ideya və məfkurə cəhətdən müəllif romantizmin yüksək elmi təhlilini vermiş, romantiklərin dünyagörüşlərindəki hər cür mütərəqqi və mənfi ünsürləri dəqiq müşahidə və xarakterizə etmişdir.

Bu əsər XX əsr ədəbiyyatımızın bir sıra ədəbi problemlərini aydınlaşdıran orijinal tədqiqat əsəri kimi çox qiymətlidir.

Tədqiqatçı bütünlükdə Şərq romantizmini fərqləndirən cəhətlər üzərində ətraflı dayanmışdır.

M.Cəfərin hər iki monoqrafiyası: «Hüseyn Cavid» və «Azərbay-can ədəbiyyatında romantizm» monoqrafiyaları romantizm haqqında millinəzəri fikrin inkişaf mərhələlərini, istinad və inkişaf məqamlarını, onun metodoloji cəhətdən tarixi təkamülünü dolğun əks etdirir. Bu əsərdə 60-70-ci illər ədəbiyyatşünaslığında romantik ədəbiyyat haqqında elmi fikrin əsas istiqamətverici amili kimi meydana çıxmışdır. «XX əsr Azərbaycan ədəbiyyatında romantizm cərəyanını daxilən zidd, əks cəbhələrə bölməyin qeyri-elmiliyini ilk dəfə Məmməd Cəfər irəli sürmüşdür» (1).

Məmməd Cəfər Cəfərov XX əsr Azərbaycan ədəbiyyatının böyük mütəfəkkiri Hüseyn Cavid haqqında yazmış olduğu «XX əsr Azərbaycan romantizmi və Hüseyn Cavid» adlı doktorluq dissertasiyası (1963), həmçinin «Hüseyn Cavid» (3), «Cavid yaradıcılığının sənətkarlıq xüsusiyyətləri» (2), «Cavid haqqında söz» (2) və s. məqalələri ilə Azərbaycanda klassik romantizmin tədqiqi sahəsində müasir elmi-metodoloji istiqamətin əsasını qoymuşdur.

Yaradıcılığı və dünyagörüşü çox mürəkkəb və ziddiyyətli olan Cavidin ədəbiyyat tariximizdə mövqeyi nədir, onun yaradıcılığı və dünyagörüşündə olan və fəryad edən ziddiyyətlərin səbəbi, tarixi-ictimai kökləri nədən ibarətdir, Cavidin yaradıcılığında hansı cəhətlər bizim üçün qiymətlidir, hansı cəhətlər köhnəlmişdir? – bu suallara cavab vermək, Cavidi bütün zəddiyyətləri, həm də mütərəqqi, həm də məhdud cəhətləri ilə bərabər yaxşı öyrənməyə və gənc nəslə olduğu kimi tanıtdırmağa ehtiyac vardı. Cavid haqqında əsər işləmək üçün Məmməd Cəfər XX əsr ədəbiyyatımızda romantizm problemində işləmiş, hər iki məsələyə aydın elmi baxış yaratmışdır. Onun «Hüseyn Cavid» əsərində XX əsr romantiklərinin ən səciyyəvi nümayəndələrindən biri kimi Hüseyn Cavidin yaradıcılığında və dünyagörüşündə həm qüvvətli, həm də zəif cəhətləri aydınlaşdırmağa çalışmışdır. Cavid romantizmində qüvvətli, mütərəqqi cəhətlər hansılardır?

Konkret müşahidələr və faktlara əsaslanan tədqiqatçı bunları belə müəyyənləşdirir: dinlə və dini etiqadla elm, fəlsəfə arasında kəskin bağlılığı görməsi, («Şeyx Sənan» və «Bir xatirə» əsəri), kapital hökmranlığını pisləməsi, fəhlələrin burjuaziya tərəfindən ağır istismar edildiyini görməsi, zəhmətkeşləri, məhkum xalqları, kölə millətləri öz adi insani hüquqları

uğrunda mübarizəyə çağırması («Şeyda», «Məsud və Şəfiqə», «Nil yavrusu», «Bir insanpərvərin insanlara xitabı» əsərləri), sadə insanları məhəbbətlə təsvir etməsi, hər cür mühafizəkarlığa, avamlığa, cəhalətə düşmən olan adamlar arasında qəhrəmanlar axtarıb tapması (Cəlil, Humay, Şeyda, Alagöz, Xəyyam, Anton və digər surətlər), yüksək əxlaqi ideaları müdafiə etməsi, bu cəhətdən mənfi əxlaqa və ailə münasibətlərinə qarşı üsyanı («Afət», «Uçurum»), müxtəlif millətlərdən olan müsbət adamları eyni məhəbbətlə göstərməsi, 1936-cı ildə yazdığı «İblisin intiqamı» əsərində alman, italyan və yapon faşistlərini ifşa etməsi, faşizmin bəşəriyyət üçün böyük təhlükə və taun azarı olduğunu dərk etməsi, qüdrətli, sənətkar bir dramaturq olması, Azərbaycan ədəbiyyatına mənzum dramın ilk gözəl nümunələrini verməsi, Azərbaycan şeirini janr, mövzu, vəzn və başqa cəhətlərdən zənginləşdirməsi və s.

Bəs Cavidin «zəif, məhdud cəhətləri», «məfkurəvi səhvləri» hansılardır? Müəllif bu suala da konkret, o illər üçün ənənəvi olan cavablar vermişdir.

Monoqrafiya romantik və mənzum Azərbaycan dramaturgiyasının ideya-sənətkarlıq xüsusiyyətləri, obrazlar aləmi haqqında indi də mötəbər məxrəc olaraq qalır. Akademik İ.Həbibbəylinin təbiri ilə desək, «Hüseyn Caviddən yazan müəlliflərin heç biri, hələlik, Məmməd Cəfər aşırımını aşa bilməmişdir» (7, s. 11).

Romantizm ədəbi cərəyanının, romantik ədəbiyyatın tədqiqi sahəsindəki yaradıcılıq axtarışlarını davam etdirən M.C.Cəfərov ədəbiyyatda romantika, romantik üslub və onun ifadə vasitələrindən bəhs edən «Həyatda və ədəbiyyatda romantika» məqaləsini yazmışdır. Məqalədə romantik üslubun mahiyyətindən söz açan alim romantik üslubun müstəqil bədii formaları, ifadə vasitələrini geniş şərh etmişdir.

Məqalədə romantik üslubun başlıca vəzifəsinin nədən ibarət olması sualına elmi şəkildə cavab verilmişdir. Romantik üslubun başlıca vəzifəsini yazıçının öz görüşlərini, hiss, həyəcan, ehtiraslarını, şəxsi arzularını əks etdirməkdə görənlərin mülahizələri də məqalədə tutarlı elmi dəlillərlə təkzib olunmuşdur.

M.Cəfər romantik, ideal qəhrəman məsələsinə də toxunmuşdur. O, belə bir nəticəyə gəlmişdir ki, ideal, romantik qəhrəman hər şeydən əvvəl özündə ümumxalq xarakterini əks etdirməlidir. Belə qəhrəmanın yaradılması isə ancaq realist və romantik üslubun birləşməsi, qaynayıb-qarışması ilə mümkündür.

Göründüyü kimi, hər bir ədəbi hadisəyə müasir elmi-metodoloji səviyyədən yanaşan M.C.Cəfərov nəzəri fikir tariximizdə ilk dəfə olaraq romantizm problemini ədəbi metod kimi geniş tədqiq etmiş, gələcək tədqiqatlar üçün qiymətli və aydın proqram hazırlamışdır. Onun gərgin zəhmət və dərin müşahidələrdən yoğrulmuş axtarışları ədəbiyyatşünaslıq elmimizi

zənginləşdirdiyi kimi, öz yaradıcılığının da monumentallığı və elmi çəkisinin sanbalını artırmışdır.

## ƏDƏBİYYAT


1. Alışanov Ş. Tənqidimizin müdrik ağsaqqalı. «Kommunist» qəz., 1989, 21 iyun.
2. Cəfər M.C. Azərbaycan ədəbiyyatında romantizm / Seçilmiş əsərləri. II c., Bakı: Azərnəşr, 1974, s. 3-186.
3. Cəfər M.C. Hüseyn Cavid. Bakı: Azərnəşr, 1960, 262 s.
4. Cəfər M.C. Səni kim unudar. «Ədəbiyyat qəzeti» qəz., 1942, 28 oktyabr.
5. Cəfər M.C. 1905-1917-ci illər Azərbaycan romantizmində ideya xüsusiyyətləri haqqında / Füzuli düşünür. Bakı, 1959, s. 152-218.
6. Cəfər M.C. Həyatda və ədəbiyyatda romantika // Azərbaycan, 1959, № 9, s. 185-195.
7. Həbibbəyli İ. Məmməd Cəfər elmi məktəbi / Cəfərov M.C. Cəlil Məmmədquluzadə. Bakı: Çinar-çap, 2002, 72 s.



**Фаргана Казымова**


## МАМЕД ДЖАФАР ДЖАФАРОВ КАК ПОСЛЕДОВАТЕЛЬНЫЙ ИССЛЕДОВАТЕЛЬ РОМАНТИЗМА


В статье говорится о большой роли многогранного творчества М.Д.Джафарова в исследовании литературной школы романтизма.

В связи с этим в статье анализированы научные взгляды ученого на романтизм в романтических произведениях М.Хади, А.Сехкета, Г.Джавида и др.

Анализируя ряд проблем, автор статьи выбрал объектом исследования научные взгляды и отношение М.Д.Джафарова к романтизму Восточной и Западной Европы и их взаимосвязи и получил новые научные результаты.



**Fargana Kazimova**


## MAMMAD JAFAR JAFAROV AS A CONSISTENT RESEARCHER OF ROMANTICISM


It is spoken in the article about the significant role of M.D.Jafarov's many-sided works in the research of literary school of romanticism. In this connection in the article are analyzed scientific views of this researcher on romanticism in the romantic works of M.Hadi, A.Sahhat, H.Javid et al. By the

analysis of these problems the author of the article has chosen as the research object M.J.Jafarov's scientific views and his attitude to romanticism of East and Western Europe and their interconnections and has got new scientific results.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, filologiya e.d. Ə.Quliyev, filologiya e.d M.Cəfərli.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**FƏRMAN XƏLİLOV**
AMEA Naxçıvan Bölməsi

# MİRZƏ ƏLİ MÖCÜZƏ AİD EDİLƏN SAXTA BİR ŞEİRİN TARİXÇƏSİ

M.Ə.Möcüzün ədəbi irsini ilk dəfə kitab şəklində tədqiqatçı Q.Məmmədli 1945-ci ildə Təbrizdə çap etdirmişdir (14). «Seçilmiş əsərləri» adlandırdığı bu kitabdan sonra 36 il ərzində Bakıda şairin ən kiçiyi 20, ən böyüyü isə 350 səhifədən ibarət olan 6 kitabını çap etdirməsi (8, 9, 15, 16, 17, 18) Q.Məmmədlinin möcüzşünaslıqda unudulmaz və danılmaz xidmətidir. Məhz onun tərtibi ilə çap olunan kitablar sayəsində Q.Məmmədlinin özü demişkən «M.Ə.Möcüzün adı… Azərbaycan ədəbiyyatı tarixi»nə daxil olmuşdur (9, s. 17).

Q.Məmmədlinin bu tarixi xidmətini qiymətləndirməklə yanaşı, qeyd etməliyik ki, Möcüzün şeirlərini onun qədər təhrif edilmiş şəkildə oxuculara təqdim edən ikinci bir naşir tapmaq çətindir. Q.Məmmədlinin kobud təhrifləri, səhvləri, lüzumsuz «redaktə əməliyyatları» şairin 1945-ci il «Seçilmiş əsərləri»ndən start göturərək nəşrdən-nəşrə keçdikcə «zənginləşmiş» və bəzi düzəlişləri nəzərə almasaq, son nəşrdə öz mövqeyini daha da möhkəmləndirmişdir.

Araşdırmalar göstərir ki, Q.Məmmədlinin Möcüzün şeirləri üzərində apardığı «əməliyyatların» demək olar ki, hamısı şairi oxuculara Rusiyanı xilaskar obrazında görən, V.İ.Lenin ideyalarını ürəkdən bəyənən kommunist ruhlu bir sənətkar kimi təqdim etmək niyyəti ilə bağlı olmuşdur. Halbuki hazırda Amerikada yaşayan cənubi azərbaycanlı möcüzşünas Hadi Sultan Qurraienin dediyi kimi, «Möcüz heç vaxt kommunist olmağı arzulamamışdır» (4, s. 19).

Q.Məmmədlinin Möcüzü kommunistləşdirmək cəhdini sübut edən faktların sayı-hesabı yoxdur. Bu məsələnin şərhi başqa bir məqalənin mövzusu olduğundan biz burada yalnız həmin niyyətin tərkib hissəsi olan və uzun illər boyu Möcüzün adına qara bir ləkə kimi düşüb qalan, nəinki təkcə Q.Məmmədli nəşrlərində (8, s. 5; 9, s. 56; 15, s. 157; 16, s. 78; 18, s. 5), hətta müxtəlif antologiya, müntəxəbat və dövri mətbuat orqanlarında (6, s. 74; 7, s. 245; 10, s. 372; 11, s. 29; 12, s. 79) dönə-dönə oxuculara Möcüzün ən dəyərli əsəri kimi təqdim olunan, əslində isə Möcüz qələminə heç bir

dəxli olmayan «Lenin» adlandırılmış saxta bir şeir haqqında söz açmaq istəyirik. Biz bu şeirin Möcüz qələminin məhsulu olmaması haqqındakı məlumatı hələ sovet dövründə – keçən əsrin 70-ci illərində Bakıda əslən cənubi azərbaycanlı, filologiya elmləri namizədi mərhum Əbülfəzl Hüseyninin, Sovet İttifaqının süqutundan sonra isə İranda məşhur möcüzşünaslar M.T.Zehtabi, Y.Şeyda və M.Niqabinin dilindən dəfələrlə eşitmişdik. Hətta Ə.Hüseyni şəxsən bizə demişdi ki, «Lenin» şeirini o vaxt Azərbaycan Dövlət Universitetinin professoru Mübariz Əlizadə qələmə almış və Möcüzün şeiri kimi oxuculara təqdim etmişdir. 2000-ci ildə isə M.Niqabinin Naxçıvan Dövlət Universitetinin əməkdaşı Seyid Surəyə yazdığı məktubunda bu məlumatın doğruluğunu göstərən və tədqiqat üçün son dərəcədə əhəmiyyətli olan bir fakta rast gəldik: «Mübariz Əlizadə Qulamrza Budaqiyə (Cənubi Azərbaycan ziyalısıdır – F.X.) etiraf etmiş ki, «Lenin» şeiri Möcüzün yox, bəlkə mənim qələmimdən axmışdır» (21).

Əlimizdə M.Əlizadənin bu etirafını təsdiq edən kifayət qədər əsaslar vardır və artıq vaxtı çatmışdır ki, bu əsaslara söykənərək həqiqətin nədən ibarət olduğunu ortaya çıxaraq. Məsələyə aydınlıq gətirmək üçün lap əvvəldən – həmin şeirin meydana çıxması və yayılması tarixçəsini xronoloji ardıcıllıqla izləməkdən başlayaq.

1. 10 sentyabr 1945-ci il. M.Əlizadənin «Azərbaycan gəncləri» qəzetində «Cənubi Azərbaycan şairi Möcüz Şəbüstəri» adlı məqaləsi dərc olunur. M.Əlizadə məqalədə Möcüzü «ölməz dahinin (V.İ.Lenin nəzərdə tutulur – F.X.) məddahı» adlandırır, «sosialist inqilabımızın məziyyətlərini Möcüz qədər dərindən dərk edən və onun qədər səmimi bir qələmlə tərənnümə çalışan başqa bir şairin o zamankı İranda olmadığını» iddia edir (19). Müəllif bu iddiasının təsdiqi üçün «Tutaq Lenin ətəyindən, ona pənah aparaq» misrası ilə başlayan 4 misralıq şeiri bütövlükdə nümunə göstərir:

Tutaq Lenin ətəyindən ona pənah aparaq,
Zəmanəmizdəki həllali-müşkülat odur!
Həmişə mədh-sənasini vird qıl, Möcüz,
Fəqirə qeydi-sitəmdən verən nicat odur!

Beləliklə, sonralar Q.Məmmədlinin «Lenin» adlandırdığı şeir ilk dəfə olaraq meydana çıxır.

2. 25 noyabr 1945-ci il. Möcüz haqqındakı ilk məqaləsindən iki ay 15 gün sonra «Ədəbiyyat qəzeti»ndə M.Əlizadənin «İran Azərbaycanının şairi Möcüz Şəbüstəri» adlı ikinci məqaləsi dərc olunur. Bu dəfə müəllif daha irəli gedərək Möcüzün «Lenin bayrağı – azadlıq bayrağı»nın qarşısında diz çökməsi»ndən, «zəhmətkeş bəşəriyyətin böyük rəhbəri və müəllimi Lenin haqqında saf duyğularını tərənnüm edən» «nəğmə» yazmasından dırnaq içərisində verdiyimiz dəbdəbəli və təmtəraqlı ibarələrlə söz açıb «Lenin» adlandırılmış şeiri nümunə göstərir. Hətta bu şeirin yazılma tarixini 1918-1919-cu illərə aparıb çıxarır (20).

3. 1948-ci il. Q.Məmmədli həmin şeiri «Lenin» adlandıraraq şairin 29 aprel 1948-ci ildə çapa imzalanan və həmin ilin avqustunadək Bakıda çap olunan ilk kitabına daxil edir (16, s. 78) və məhz bundan sonra haqqında bəhs etdiyimiz şeir Möcüzün əsəri kimi məşhurlaşır. «Lenin» şeirinin meydana çıxması və Möcüzün Bakıda çap olunan ilk kitabına daxil edilməsini qısa – 3 illik tarixçəsi bundan ibarətdir.

İndi sual olunur: Əgər bu şeir həqiqətən Möcüzündürsə, onda:

1. Nə üçün şairin 1945-ci ildə Təbrizdə buraxılan ilk kitabına daxil edilməmiş, yaxud digər şeirləri kimi M.Əlizadənin təqdimindən əvvəl Təbrizdə çıxan «Vətən yolunda» qəzetində və «Şəfəq» curnalında dərc etdirməmişdir?

2. Nə üçün Q.Məmmədli Möcüzün ilk kitabına yazdığı müqəddimədə həmin şeir haqqında bir kəlmə də olsa, məlumat verməmişdir? Axı, bu müqəddimədə Möcüzün Leninə münasibətindən bəhs edərkən belə bir fakt ona hava və su kimi lazım idi!

3. Nə üçün Möcüzün tanınmış tədqiqatçılarından biri olan prof. C.Xəndan 1946-cı ildə «Vətən yolunda» qəzetində dərc etdirdiyi «Lenin İran Azərbaycanı şeirində» adlı məqaləsində (3) Möcüzün Leninə münasibətindən bəhs edərkən «Lenin» şeirindən söz açmamışdır? Maraqlı burasıdır ki, C.Xəndanın arxivindən tapılaraq 1970-ci ildə «Ulduz» jurnalında dərc etdirilən həmin məqaləsinin təkmilləşdirilmiş variantında «Lenin» şeirinin misraları da nümunə göstərilir (2, s. 11). Bu artıq o vaxt idi ki, M.Əlizadənin uydurduğu «Lenin» şeiri şairin əsərlərinin 1948 və 1954-cü il nəşrlərinə daxil edilmişdi.

«Lenin» şeirinin mətni əlyazma şəklində Bakı arxivində saxlanılır (13, iş № 86). Lakin bu əlyazma Möcüzün yox, Q.Məmmədlinin xətti ilədir. Maraqlıdır, görəsən Q.Məmmədli bu şeirin üzünü hansı mənbədən köçürmüşdür? Bəlkə, Təbrizdə əldə etdiyi şairin avtoqrafından? Axı, 1942-1945-ci illərdə Təbrizdə H.M.Naxçıvani və Möcüzün digər dostlarından aldığı avtoqraflarından üzünü köçürməsini Q.Məmmədli dəfələrlə etiraf etmişdir (9, s. 18). Faktlar göstərir ki, yox! Q.Məmmədli Təbrizdə olarkən adı çəkilən şeiri nə görmüş, nə də üzünü köçürmüşdür. Əgər doğrudan da Təbrizdə bu şeir ona bəlli olsaydı, onda nə üçün Sovet dövründə çox dəyərli hesab olunan həmin «nəğmə»ni M.Əlizadədən əvvəl heç yerdə çap etdirməmişdir? Güman edilə bilər ki, bəlkə, Q.Məmmədli Şimali Azərbaycana qayıtdıqdan sonra bu şeiri tapmışdır? Yox, bu da inandırıcı deyil. Çünki belə bir iş olsaydı, ədəbiyyat və mədəniyyət tariximizə aid olan hər hansı bir kiçik fakta belə rast gələndə onu sensasiyalı bir xəbər kimi mətbuata ötürən Q.Məmmədli susmaz və belə bir «qiymətli tapıntı» haqqında oxuculara məlumat verərdi.

Beləliklə, heç bir şübhə yeri qalmadan razılaşmaq lazım gəlir ki, Q.Məmmədli «Lenin» adlandırdığı şeirin üzünü M.Əlizadənin Möcüz haq-

qındakı ilk məqaləsindən köçürmüş, sonra onu şairin əsərlərinin Bakı nəşrlərinə daxil etmişdir.

Nəhayət, bu məsələ ilə bağlı nəticə olaraq belə qənaətə gəlmək olar:

1. Sovet dövləti və onun banisi V.İ.Leninin «müqəddəsliyi», «əzəməti» və «qüdrətini» göstərmək məqsədilə əslən Cənubi Azərbaycanının Xamnə qəsəbəsindən olan M.Əlizadə Şəbüstər ləhcəsinə az-çox bələd olduğu üçün «*Tutaq Lenin ətəyindən ona pənah aparaq*» misrası ilə başlayan şeiri Möcüzün dilinə və üslubuna oxşar şəkildə yazmağa nail olmuş və 1945-ci ildə onu mətbuatda Möcüzün şeiri kimi oxuculara təqdim etmişdir.

2. Əlinə göydəndüşmə bir töhfə kimi çatan bu şeiri Q.Məmmədli «Lenin» adlandıraraq Möcüzün kitablarına daxil etmişdir ki, bu da, şübhəsiz, onun Möcüzü kommunistləşdirmək niyyətindən irəli gəlirdi. Vəssalam.

Axı, 850 il bundan əvvəl yaşayan böyük Azərbaycan şairi N.Gəncəvi haqqında məşhur sovet şərqşünası Y.E.Bertels M.Ə.Rəsulzadənin də ironiya ilə xatırlatdığı «zəmanəmizdə yaşamış olsaydı, Nizami bizimlə (yəni bolşeviklərlə) birgə olardı» (22, s. 212) hökmünü verirsə, 1924-cü ildən bolşevik partiyasının üzvü olan (1, s. 128) və əməlli-başlı təhsil üzü görməyən Q.Məmmədlinin Sovet diktaturası illərində həyatda olan və lap yaxında – qonşu İranda yaşayan Möcüzü kommunistləşdirməsində təəccüblü nə var ki?!

## ƏDƏBİYYAT


1. Azərbaycan sovet yazıçıları: Ədəbi sorğu kitabı. Bakı: Yazıçı, 1987, 704 s.
2. Xəndan C. Azərbaycan ədəbiyyatında Lenin surəti // Ulduz, Bakı, 1970, № 4, s. 9-12.
3. Xəndan C. Lenin İran Azərbaycanı şeirində. «Vətən yolunda» qəz., Təbriz, 1945, 21 yanvar.
4. Qurraie Hadi Sultan. Mirzə Əli Möcüz Şəbüstəri və məşrutə dövrü: Filol. elm. dok …dis. (ingilis dilində). Vaşinqton Universiteti, 1997, 268 s.
5. Məmmədli Q. M.Ə.Möcüz (müqəddimə) / M.Ə.Möcüz. Əsərləri. Bakı: Yazıçı, 1982, s. 5-18.
6. Моджуз М.А. Ленин / Перевод П.Панченко // Литературный Азербайджан, Баку, 1954, № 10, с. 74-75.
7. Моджуз М.А. Ленин / Перевод П.Панченко / Антология Азербайджанской поэзии: В 3-х т. Т. II, Москва: Государственное Издательство Художественной литературы, 1960.
8. Моджуз М.А. Стихи / Составитель Г.Мамедли. Баку: Азербайджанское Государственное Издательство, 1956, 120 с.
9. Möcüz M.Ə. Əsərləri / Toplayanı, tərtib edəni, izahların müəllifi Q.Məmmədli. Bakı: Yazıçı, 1982, 350 s.

10. Möcüz M.Ə. Lenin / XX əsr Azərbaycan ədəbiyyatı müntəxəbatı: Ali məktəblər üçün dərs vəsaiti / Tərtib edən C.X.Hacıyev. Bakı: ADU nəşriyyatı, 1958.
11. Möcüz M.Ə. Lenin Təqdim edən X.Vəzirov // Azərbaycan, 1970, № 4.
12. Möcüz M.Ə. Lenin / Cənubi Azərbaycan ədəbiyyatı antologiyası: 4 cilddə, II c., Bakı: Elm, 1983, 580 s.
13. Möcüz M.Ə. Müxtəlif avtoqrafları və üzü Q.Məmmədli tərəfindən köçürülən şeirləri. S.Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyatı və İncəsənət Arxivi: M.Ə.Möcüzün f. 454, siy. 1, iş 1-121.
14. Möcüz M.Ə. Seçilmiş əsərləri / Tərtib edən Q.Məmmədli. Təbriz: Sovet İttifaqı ilə Mədəni Rabitə Saxlayan İran Cəmiyyəti Təbriz şöbəsinin nəşriyyatı, 1945, 252 s.
15. Möcüz M.Ə. Seçilmiş əsərləri / Toplayan və tərtib edən Q.Məmmədli. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1954, 358 s.
16. Möcüz M.Ə. Şeirlər / Toplayan və çapa hazırlayan Q.Məmmədli. Bakı: Azərnəşr, 1948, 254 s.
17. Möcüz M.Ə. Şeirlər / Q.Məmmədlinin redaktəsi ilə. Bakı: Uşaqgəncnəşr, 1949, 20 s.
18. Möcüz M.Ə. Şeirlər / Tərtib edən Q.Məmmədli. Bakı: Uşaqgəncnəşr, 1955, 64 s.
19. Mübariz M. Cənubi Azərbaycan şairi Möcüz Şəbüstəri // «Azərbaycan gəncləri» qəz., Bakı, 1945, 10 sentyabr.
20. Mübariz M. İran Azərbaycanı şairi Möcüz Şəbüstəri // «Ədəbiyyat qəzeti». Bakı, 1945, 25 noyabr.
21. Niqabi M. Naxçıvan Dövlət Universitetinin əməkdaşı Seyid Surəyfə yazdığı 29 noyabr 2000-ci il tarixli məktubu (surəti F.Xəlilovun şəxsi arxivindədir).
22. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1991, 232 s.

**Фарман Халилов**

## ИСТОРИЯ ОДНОГО ПОДЛОЖНОГО СТИХОТВОРЕНИЯ, ЯКОБЫ НАПИСАННОГО МИРЗОЙ АЛИ МОДЖУЗОМ

В статье говорится о стихотворении «Ленин», вошедшем в книгу выдающегося поэта-сатирика Южного Азербайджана Мирзы Али Моджуза, которая была опубликована под редакцией Г.Мамедли в г. Баку.

Автор приводит убедительные доказательства того факта, что данное стихотворение написано профессором Мубаризом Ализаде с целью представить Мирзу Али Моджуза как коммуниста. А Гулам Мамедли внес данное стихотворение в книги Мирзы Али Моджуза.

**Farman Khalilov**

## THE HİSTORY OF ONE FAKED POEM PURPORTEDLY WRITTEN BY MİRZA ALİ MOJUZ

The article is about the poem «Lenin», which has been included into the book of Mirza Ali Mojuz, a famous satiric poet of the South Azerbaijan, published and compiled by Gulam Mammadli in Baku.

The author proves with convincing facts, that this poem has been written by professor Mubariz Alizade and attributed to Mirza Ali Mojuz in order to present him as a communist. However, Gulam Mammadli included this poem into the books of Mirza Ali Mojuz.

***Rəyçilər: Filologiya e.n L.Əsgərzadə, filologiya e.n. dosent X.Kərimov.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**RAMİZ QASIMOV**
AMEA Naxçıvan Bölməsi

# CƏLİL MƏMMƏDQULUZADƏ YARADICILIĞINDA «KİÇİK» ADAM OBRAZLARININ SOSİAL MAHİYYƏTİ

Ayıq və vətənpərvər sənətkar olan vətəndaş-yazıçı Mirzə Cəlil məhz həyatın özündən ədəbiyyata qədəmlərini qoyaraq həyatın dibini və bu yerin sakinləri olan Məhəmmədhəsən əmi, Zeynəb, Novruzəli, Usta Zeynal, Məhəmmədəli və başqa «çağırılmamış qonaqları da» gətirdi. Cəlil Məmmədquluzadə yaradıcılığı üçün dövrün ictimai sifarişi məhz bu idi: «Ax necə arzu edirdim ki, mən də sahibi-ixtiyar olub, ürəyimin dərdlərini meydana qoyub intişar edə bilim!... Ürəyimin dərdi çox idi: «Tiflisin Şeytanbazarında rast gəldiyim islam aləmi hər gün və hər saat məni yazmağa vadar edirdi» (1, s. 69).

Ədibin təsvir etdiyi «xırda» qəhrəmanların fəaliyyət, davranış və münasibəti real həyat və onun tələbləri ilə təzad təşkil edir. M.Cəlilin qəhrəmanları «əsrin dindirdiyi adamlar» idilər. Bu mənada dövrün, ictimai-tarixi şəraitin tələbləri qarşısında təklif olunan insan tipi antiteza yaradırdı ki, bu da Mirzə Cəlil realizminin bədii pafos və məzmununu təşkil edir.

Məhəmmədhəsən əmi kasıb, yoxsul və yazıq bir gündə yaşayan adamdır. Məhəmmədhəsən əminin heç nəyi yoxdur. Bir təhər ailə-uşağın boğazından kəsməklə yığdığı pul hesabına aldığı uzunqulaqdan savayı bir şeyi yoxdur. İctimai hərəkət Məhəmmədhəsən əmini həyatın dibinə yuvarladıb. Məhəmmədhəsən əmi heç nəyi olmayan, amma çox şeydən asılı yaşayan siyasi, iqtisadi və mənəvi əsarət içində məhkumlaşıb boğulan yazıq adamdır. Sənətkarın Danabaş kəndində baş verən hadisələri təqdimindən dürüst məlum olur ki, Danabaş kəndi XIX əsrin axırlarında «kapitalist münasibətlərinin təşəkkül tapdığı və kapitalist cəmiyyətinin siniflərə parçalanması» ərəfəsində olan tipik Azərbaycan kəndidir. Məhəmmədhəsən əminin yoxsul qalmasının səbəbi, əlbəttə ki, kapitalistləşmə gedən bir dövrün ictimai hərəkətinin nəticəsidir. Müəllif xalqın sadə, köməksiz adamlarını yoxsul və ac qoyan ədalətsiz ictimai gedişatı lənətləyir. Çünki bu haqsızlıqların qabağında sadəcə boyun əyən Məhəmmədhəsən əminin eşşəyi də şəhərdə alqı-satqı malına çevrilməklə «bazar münasibətlərində» yoxa çıxır. Zeynəbin bütün var-dövlətinin, torpaqlarının, taleyinin həllolma bəhanəsi

olan siğə-kəbin məsələsi də məhz burda – şəhərdə pulun gücü ilə həll olunur. Pulun xüsusi əhəmiyyətə minməsi yeni əmtəə münasibətlərinin yaranmasının, kapitalist münasibətlərinin formalaşmasının təsbiti idi. Pul kapitalizmin gücü, onun simvoludur. Ədibin təsvir etdiyi şəhərdəki hadisələr və məsələlərin həlli tərzi yeni münasibətlərin qapının ağzını kəsdiyinə bir işarəsi və xəbərdarlığıdır. Ədalətsiz sosial inkişaf və acımasız kapitalist münasibətlərinin inkişafı içdən saf, xarakterdən təmiz, sadəlövh və savadsız Məhəmmədhəsən əminin və Zeynəbin var-yoxunun talan olması və səfalət içinə sürüklənməsi ilə nəticələnir. Bunlara öyrəşməmiş Məhəmmədhəsən əmi yeni dünyanın tələbləri altında təkcə öz ulağını deyil, onun «sahiblik hissini, hüququnu, ixtiyarını itirmiş» olur (1, s. 203). Bütün bu hadisələrdən ədibin həmin dövrdə mövcud olan sosial münasibətləri nizamlamaq vasitəsi olan qanunlara öz münasibətini ifadə edir, mövcud çatışmazlıqdan, qanunlardakı boşluqdan, məmurlardakı özbaşınalıqdan, dövlətdəki irticadan doğan eybəcərlikləri tənqid edir.

Bununla belə ədibin Novruzəlisi saf və sadəlövh olsa da, xeyli iqtisadi imkanlara malikdir, onun sosial vəziyyəti də Məhəmmədhəsən əmiyə nisbətdə xeyli fərqlidir. İtqapanlı Novruzəli «çox vaxt xanın yanına gəlibgedər və hər gələndə olmaz ki, undan, əriştədən, baldan, yağdan gətirməsin» (3, s. 123). Hər səfərində xana öz sonsuz sədaqətini nümayiş elətdirən Novruzəli kasıb və yoxsul görunmür. Novruzəli bütün bu malik olduqları ilə istər sosial, istər iqtisadi, istərsə də hüquqi baxımından özgə təəssurat yaradır: «A kişi, Novruzəli! Bu nə zəhmətdi çəkmisən?» Novruzəli çuvalların kəndirini aça-aça cavab verdi: «Bu nə sözdür, ay xan? Mən ölənə kimi sənə qulam» dialoqu da bunu ifadə etməyə imkan verir ki, «Novruzəli də adamdır» yox, məhz «Novruzəli adamdır». Elə adam ki, ictimai-tarixi şəraitə görə «ictimai dönüş yaratmanın» bir addımlığındadır. Yeni əsasnamədə artıq o, özünə hüquqi azadlıq qazanıb. Bu azadlıq Novruzəliləri adam yerinə qoymağa vadar edir. Artıq o, sosial münasibətlərin hüquqi baxımdan əsas tərəflərindən biri kimi qəbul edilməyə haqq qazanmış və bu mənada cəmiyyətdə olan sosial münasibətlər şəbəbkəsində, sosial strukturda özünə yer tutmuş sosial tərəfdir. Xanın Novruzəli ilə yumşaq və mülayim danışığı da Novruzəlini özündən incidib uzaqlaşdırmamağa ünvanlanmış məqsəddən doğur. Artıq Novruzəli də bir adamdır və xanın onun nazı ilə oynamaq məcburiyyəti vardır. İctimai-tarixi dəyişkənlik Məhəmmədhəsən əmi ilə Xudayar arasında olan münasibət sərtliyini qırıb, Novruzəli ilə xan arasındakı yumşaq bir münasibətə çevirib. Xanın Novruzəli ilə hörmət və ehtiramla, yumşaq davranması onun öz «mədənilik və humanizmində» deyil, ictimai-tarixi şəraitin Novruzəlilərə qazandıqları yeni sosial keyfiyyətlərlə bağlı adam yerinə qoyulmaq məcburiyyətilə bağlıdır. «Kimdir günahkar?» sualının prizmasından axtarışa çıxdıqca bu lillənmiş ictimai-tarixi şəraitdə Novruzəli əsas amil kimi diqqəti cəlb edir. Ədib

«Novruzəli adamdır» ictimai-tarixi hökmü ilə birgə öz müəllif konsepsiyası olaraq «Novruzəli necə adamdır?» sosial-psixoloji sualını da ortaya qoyur və mövcud sosial problemlərin mürəkkəbliyi və qarışıqlığı içərisində sosial ədaləti bu tezisdən araşdırmağa və axtarmağa başlayır. Əsərin ruhu isə elə bil bu sualı ehtiva edir ki, «Novruzəli necə, öz adamlığından xəbəri varmı? Öz mövqe və vəziyyətini Novruzəlinin ağlı kəsirmi?» məsələsi problemlərimizin açarı almaq baxımından xüsusi əhəmiyyət daşıyır. Bu mənada öz sadəliyi, primitivliyi ilə səhnəyə daxil olan Novruzəli öz davranış və fəaliyyətində də avamlıq və sadəlövhlüyünü nümayiş etdirir. Bütün zahiri quruluşu ilə sadəlik, adilik təsiri bağışlayan bu böyük ürəkli insan öz davranış və əməlləri ilə də bir o qədər də primitivlik və adilik təsiri göstərmiş oldu. Əgər o, köləliyinin səbəbini bilmiş olsaydı, onda, demək olar, «işin yarısını» udmuş olardı. Bu qədər sosial zülmlər içində əzilən və bu dəhşətli zülmlərə başı qarışan Novruzəli poçtxananı tanımır. Bütün ömrü boyu zülmlə, zorakılıqla oturub-qalxan bu insanlar zülmdən başlarını nə vaxt ayırd etdilər ki, yeni-yeni mühitə daxil olan poçt qutusunun da nə olduğunu bilsinlər? Ədib insanlar arasında ictimai bağların itməsi, sosial əməkdaşlıq, ictimai həmrəylik və cavabdehlik məsələsinə də toxunur. «Çay dəsgahı» alleqorik əsərindən başlayaraq, qeyd etdiyimiz kimi, ədib diqqətini bu cür sosial problemlərə verir və işıqlandırır. Günahkar qismində məhkəməyə cəlb olunan bütün çay dəsgahı üzvləri – samovar, podnos, çaynik, stəkan, nəlbəki, qaşıq, masa, truba və nökər Əli özlərini günahsızlaşdırmaq üçün hərə öz yaxasını kənara çəkməyə çalışır. Burda hər kəs ancaq özünü düşünür və yalnız öz taleyinə cavabdehlik daşıyır. Hərə öz başını saxlamaqdan ötrü başqasının dərdinə məhəl qoymur. Mühakimə dərinləşdikcə üzvlər arasındakı olan-qalan bağlar da qırılıb-tökülür, artıq hər kəs özünə qalır. Müəllif ictimai bəlaların ağırlığı altında əzilən həmvətənlərinin faciəsində, demək ki, ilk səbəblərdən biri kimi məhz fərdlər arasında, yəni onun Novruzəlisi, Məhəmmədhəsən və Zeynəbi, Usta Zeynal və Məhəmmədəlisi, necə deyərlər, danabaşlıları arasında ictimai bağların olmaması, ***birgə yaşamaq təbii hissi və məsuliyyətinin*** çatmamasını bariz problem kimi görürdü. Novruzəlinin də poçtxananı tanımaması əslində onun bu zərurətlə qarşılaşmaması ilə bağlı idi. Əgər onun «başqa adamı» olsa idi, onda bu zərurət yaranmış olardı. Sosial eqoizm Novruzəlinin də problemlərindən biridir. Müəllif bu adamlarında yaşayış rifahının biri-birinin xoşgüzəranlığına bağlı olmasını anlamamalarından, belə hissdən uzaq olmalarından narahatlığını ifadə edir. Diqqətini bu kimi məsələyə çəkən ədib öz felyetonlarından birində yazırdı ki, «…gündə yüz kərə milli və dini haqq və ixtiyarımıza toxunurlar. Milli və dini hüquq və namusunuzu ayaqlar altına salırlar. Cümləmiz siçan kimi evlərimizin deşiklərinə soxulub öz canımızın qeydinə qalırıq» (5, s. 143). Bunu aydın başa düşən müəllif zavallı «kiçik» adamlarına müraciət edirdi ki, «əgər siz adam olsaydınız və özgə millətlərin övrətləri qədərincə

qeyrətiniz olsaydı… Əgər şüur olsaydı və əqəllən bəzi heyvanlar tək ittifaqın mənasını bilsəydiniz, o vaxt hansı bir zalim cürət edə bilərdi ki, sizin, insanlıq hüququnuza əl uzatsın?...» (5, s. 170). «Əgər istəyirsiniz ki, sizidə adam hesab eləyib məclislərə qoysunlar, gərək mənim bir neçə vəsiyyətimə əməl edəsiniz. Əvvələn, gərək bir-birinizlə əl-ələ verəsiniz…, yəni birləşəsiniz… Çünki vallah, billah, yer haqqı, göy haqqı bundan başqa sizdən ötrü nicat yolu yoxdu» (4, s. 108). Ədib «Anamın kitabı», «Azərbaycan», «Tüstü», «Hicab məsələsi və cavabımız», «Mətbuat», «Müsəlman ürəfa və danişməndlərinə», «Necə qan ağlamasın daş bu gün, Qırxılır gör neçə min baş bu gün» kimi bədii əsər, məqalə və felyetonlarında, o cümlədən bütün yaradıcılıq kansepsiyasında dövrü üçün çox-çox aktual, zəruri və mühüm olan mütəşəkkil, mükəmməl ictimai birlik forması kimi milli birlik – millət idealını ortaya qoyurdu.

XX əsrin əvvəllərində ən çox ictimai müzakirə mövzusu olan milli ictimai birlik, vətəndaşlıq qeyrəti və milli azadlıq məsələsilə bağlı Mirzə Cəlil Məmmədquluzadə narahat-narahat yazırdı ki, «Bu gün Kərbəla meydanı Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır. Axıtmalı qanlarımız, ehsan etməli pullarımız varsa – gözümüzün qabağında ürəklər parçalayan Azərbaycan matəmgahı durur» (4, s. 9). Başqa bir felyetonunda isə fərdlərdəki birgə yaşamaq məsuliyyət hissinə işarə etməklə bildirirdi ki, «Hər kəsdə millət və vətən məhəbbəti olsa, aşura günü çıxar bir uca yerə və... iki əlli başına vura-vura deyər: – «Ax, biçarə qardaşlar, ax uzunqulaqlar» (4, s. 86). Ədib: «… müsəlman vəhşi millətdir, bir-birindən xəbəri yoxdur» (4, s. 48-49) deyəndə də məhz bu problemi nəzərdə tuturdu. Mirzə Cəlil fərdlərin sosial birlikdəki davranışını «kütləvi eqoizm» adlandırmasa da, «özündən razı yaşamaq» adlandırırdı. Bunun ən gözəl, tipik nümunəsi və məkanı kimi Cəlil Məmmədquluzadə Danabaş coğrafiyasını seçmişdi. Hərənin özü üçün yaşadığı və heç kimin heç kimdən xəbər tutmadığı bu məkanda ümid qapıları bağlanaraq mürgülü vətəndaşların ayıq qeyrətini gözləyir.

Mirzə Cəlilin «xırda» adamlarının siyasi hakimiyyətə olan münasibətində yadlıq açıq-aydın görünür. Sadə insanlar arasında hava, su kimi vacib olan hürriyyətin çörək, su, əşya kimi dərk olunması tragikomik bir faktdır. Heç kim onun nə olduğunu bilmir, amma ümidlə gözləyir: «Kərbəlayı Məmmədəli dedi:

– Bizim İrana hürriyyət verilib.

Pərinisə bir qədər dayanıb soruşdu:

– Nə verilib?

– Ay qız, hürriyyət də! İndiyə kimi bunu da bilmirsən?» Məsələ gün kimi aydındır: bu bədbəxt insanlar hələ hürriyyət nədir bilmirlər. Təkcə Məhəmmədəli, Pərinisə deyil, bütün iranlılar onlar kimi hüriyyətin nə ol-

duğunu bilmirlər: «Kabla İmaməli, Kabla Novruz, Qasıməli, Oruc, Məşədi, Bayram o qədər sevindilər ki, az qalırdılar börklərini göyə atalar. Qonsur, deyirlər sabah həmşərilərin hamısını çağıracaq, hürriyyət paylayacaq, ay can-ay can… Sağ olsun bizim padşahımız, ay can!» Məsələ təkcə onda deyil ki, bu insanlar o dərəcədə cahil və bədbəxt adamdırlar ki, hürriyyətin hüquqi-siyasi mahiyyətini bilmirlər, ən böyük bədbəxtlik və faciə orasındadır ki, onların dilində heç hürriyyət sözü yoxdur, indiyəcən hürriyyət sözü dillərinə dəyməyib və heç onun ilkin mənasını belə bilmirlər, onun nə ola biləcəyini belə ehtimal edə bilmirlər. Yüzlərcə, minlərcə söz arasında onlara hürriyyət sözü rast gəlməyib. Onların leksikonunda hürriyyət yeni sözdür, yeni söz olmaq şansını qazanmaq istəyən sözdür. Onu leksikona daxil etməyə fərdi təpər, ictimai cəhd, qeyrət lazımdır. Müəllif məqsədli olaraq onu indi bu adamların qarşısına çıxarır ki, mürgüləyən təpələrinin dirçəldib hürriyyətin gerçəkləşməsini ictimai-tarixi zərurət olduğunu sübut etsin. Problemin kulminasiyası ordadır ki, Məhəmmədəli suyu süzülə-süzülə geri qayıdıb: «balam qonsur bizə heç zad paylamadı» deyir. Demək, onlar gözləyirdilər ki, doğrudan da, «qonsur» onlara nəsə bir zad paylayacaq. Min illərlə siyasi hakimiyyətdən və onun idarəçiliyindən uzaq düşmüş, tale və müqəddəratlarının həllini «yuxarıdan» gözləyən, qərarların verilməsindən xəbərləri olmayan bu insanlar siyasi fəaliyyətə və mübarizəyə o qədər yadırğayıblar ki, nəinki azadlıq və onun mənasını bilmirlər, həmçinin onu əldə etmək, almaq haqqında da düşünmür, cəhd göstərmirlər. Bu min illərin siyasi prosesi onları nəinki öz müqəddəratlarını həll etməyə yadırğadıb, həm də onlarda öz talelərinə biganəlik yaradıb. Hazıra nazir, hər şeyi hazır hardansa gəlməyə, kiminsə mərhəmətinin payı kimi verilməyə öyrəniblər. İnqilablar dövrü XX əsrdə Məhəmmədəlilərin və onun kimilərinin belə rahat-rahat oturması öz taleyinə biganə insan tipinin faciəvi təsviridir. «Dünyada hədsiz şəxslər avamlıqdan gileyli qalıblar» deyən ədib bu gileyi və narahatlığını «Yorğan» adlı şeirində də ifadə edir:

Bax millətə, al qanə boyandıqca kefin çək,
Millətçilərin sinəsi yatdıqca kefin çək.

Ədib «Dərədə yatmış idim, oyatdılar, oyanmadım» başlıqlı şeirini də məhz bu məsələyə həsr edib biganə, avam həmvətənlərindən danışır. Ədib «Bu gün Kərbala meydanı ürəklər parçalayan Azərbaycan vətənidir» deyəndə də məhz bütün insanlardakı diqqəti vətənin taleyi üzərinə çəkirdi.

Kütləvi qorxaqlıq Danabaş coğrafiyasının milli eyiblərindən biridir. Bunun nəticəsi yenə də hakimlərin özbaşınalığı, qudurğanlığı üçün şərait yaradır. Danabaşda («Danabaş kəndinin müəllimi») hamı Pirverdi bəydən, çavuş Nəzərəlidən tük salır, bir «yuxarının» adamını görəndə az qala əsim-əsim əsirlər. Bu qorxaqlıq haqq verib ki, hakimlər «zoğal dəyənəyini nə vaxt kefi istəyir qaldırsın, nə vaxt istəyir endirsin». Soldat sözündən, yəni döyüşmək və özünü müdafiə etmək peşəsindən qorxan millət «uşaqlarını

kərmə qalağında gizlədən» danabaşlılar məhkumluğu, mütilik və köləliyi özləri qazanırlar. «Divanxananı yaxşı tanımağa məcbur edildiyi halda, poçt qutusunun, poçtxananın mahiyyətini bilməyən Novruzəli» (7, s. 14) öz köhnə dünyasında ayın-arxayın, tox yaşamağa öyrənsə də, yeni dünyanın inkişafı onu narahat edib divanxana zindanlarında çürüməsinə səbəb olur, şəraitin dəyişmə zərurətini öz sevimli adamlarına vaxtında inadla bildirmək üçün ədib belə detallara müraciət məcburiyyətində qalır. Müəllif başa salmaq istəyir ki, poçtun mahiyyətini bilməyən Novruzəli zindanxana küncündə gözüyaşlı qalmağa məcbur olacaqdır. Mirzə Cəlil belə təsvirlər verdikcə öz qəhrəmanlarına yanmaq, ağlamaq istəmir, əksinə dəyişmək və inkişaf etdirmək, bunun üçün fəaliyyət və maraq yönlərini dəyişmək zərurətini ifadə edib maarifə, elmə, təhsilə, necə deyərlər, gözüaçıqlığa səsləmək, vadar etmək istəyir.

Beləliklə, Mirzə Cəlil öz realist qələmi ilə bir tərəfdən həyatın dibini və orda hökm sürən səfalət, yoxsulluq və aclığı, zülm, sitəm və haqsızlıqları göstərirsə, digər tərəfdən XX əsrin qlobal dəyişikliklərinin tələblərinə uyğun bu insanlarda mövcudlaşmış sosial kütlüyü, fanatizm və təəssübkeşliyi, sosial eqoizm və geriliyi təsvir etmiş, tənqid eləmişdir.

## ƏDƏBİYYAT


1. Həbibbəyli İ.Ə. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997, 684 s.
2. Məmmədquluzadə C. Xatiratım. Bakı: Gənclik, 1971, 112 s.
3. Məmmədquluzadə C. Əsərləri / Tərtib edəni, ön sözün və izahların müəllifi akad. İ.Həbibbəyli: 4 cilddə, I c., Bakı: Öndər, 2004, 664 s.
4. Məmmədquluzadə C. Əsərləri / Tərtib edəni və izahların müəllifi Ə.Mirəhmədov: 6 cilddə, III c., Bakı: Azərnəşr, 1984, 291 s.
5. Məmmədquluzadə C. Əsərləri / Tərtib edəni, ön sözün və izahların müəllifi akad. İ. Həbibbəyli: 4 cilddə, IV c., Bakı: Öndər, 2004.
6. Şahtaxtlı M. Əsərləri. Bakı: Çaşıoğlu, 2006, 432 s.
7. Həbibbəyli İ.Ə. Ustad Mirzə Cəlil Məmmədquluzadə / Cəlil Məmmədquluzadə. Əsərləri / Tərtib edəni, ön sözün və izahların müəllifi akad. İ.Həbibbəyli: 4 cilddə, I c., Bakı: Öndər, 2004, 664 s.



**Рамиз Касымов**


## СОЦИАЛЬНАЯ СУЩНОСТЬ ОБРАЗОВ «МАЛЕНЬКОГО» ЧЕЛОВЕКА В ТВОРЧЕСТВЕ ДЖАЛИЛА МАМЕДКУЛИУЗАДЕ


В статье речь идет о социальной сущности образов «маленького» человека. Автор показывает, что из-за ограничения требований и интере-

сов личности в системе социальных отношений человек унижается, и снижается его социальный статус. Именно термин «маленький» есть выражение этого. Автор анализирует и критикует их, а также обосновывает религиозные, традиционные, социальные и политические причины данной обстановки.

**Ramiz Gasimov**

**SOCIAL ESSENCE OF IMAGES OF A «SMALL» PERSON IN THE WORKS OF JALIL MAMMEDGULUZADE**

The question of social essence of images of a «small» person is considered in the article. The author shows, that because of restriction of personal requirements and interests in the system of social relations a person is humiliated, and his social status decreases. Just the term «small» reflects it. The author analyzes and criticizes them, and also gives the religious, traditional, social and political reasons of these conditions.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, filologiya e.d. Ə.Quliyev, filologiya e.n L.Əsgərzadə.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**LÜTVİYYƏ ƏSGƏRZADƏ**
AMEA Naxçıvan Bölməsi

# HÜSEYN CAVİD VƏ MƏHƏMMƏD TAĞI SİDQİ

Azərbaycan ədəbiyyatında əlçatmaz zirvələrdən birini fəth etmiş, yaradıcılığı ilə çoxəsrlik milli şerimizin və dramaturgiyamızın zənginləşməsində müstəsna rol oynamış Hüseyn Cavid XIX əsrin sonlarında qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanda anadan olmuşdur.

XIX yüzilliyin ikinci yarısında Azərbaycanda məscidlərin nəzdində olan məktəblər və mədrəsələrlə yanaşı, yavaş-yavaş yeni tipli məktəblər də yaranmağa başlayanda və «maarifçilik Azərbaycanda hərəkat səviyyəsinə yüksələndə» «maarifçilik hərəkatı baxımından inkişaf etmiş mərkəzlərdən biri idi Naxçıvan» (3, s. 3-4). Maarifçilik hərəkatı baxımından inkişaf etmiş mərkəzlərdən biri olan Naxçıvanda 1894-cü ildə «Tərbiyə» məktəbi yaradılmışdı ki, bu da Azərbaycanda ilk milli məktəblərdən biri idi və bu məktəbinin yaradıcısı böyük maarifpərvər M.T.Sidqi idi.

Sidqi qaranlıq mühitdə ətrafı işığa bürüyən bir nur idi desek, heç də səhv etmərik. Tanrı sanki onu bu missiya ilə; xalqı maarifləndirmək, inkişaf etdirmək, bütöv bir nəslin, ziyalı nəslinin formalaşması üçün göndərmişdi. Azərbaycan milli məktəbini yaratmaq kimi nəhəng bir işi Məhəmməd Tağı Sidqi təkbaşına görə bilmiş, bütün ömrünü xalqının, millətinin tərəqqisinə həsr etmiş, xalqı irəli aparmaq üçün əlindən gələni etmişdir. Bu səbəbdəndir ki, «Sədaqət kanı, dəryayi-hikmət» olaraq bütöv bir ziyalı nəslinin yetişməsində müstəsna rol oynamış Sidqi məktəbinin yetirmələri Azərbaycan xalqının taleyində, Azərbaycan pedaqoji fikir, o cümlədən ədəbiyyat tarixində xüsusi yer tutmuşdur. Bir çox «tanınmış elm, ədəbiyyat və mədəniyyət xadimləri kimi şöhrət qazanmış milli ziyalıların böyük bir nəsli «Tərbiyə» məktəbində təhsil və tərbiyə almişlar. Görkəmli yetirmələrinə görə Məhəmməd Tağı Sidqinin «Tərbiyə» məktəbini yalnız Qori müəllimlər Seminariyası ilə müqaisə etmək olar» (4). Bu məktəbin görkəmli nümayəndələrindən biri də Azərbaycanın filosof şair-dramaturqu Hüseyn Caviddir. Lakin yalnız Naxçıvanda, Azərbaycanda deyil, bütövlükdə Yaxın Şərqdə tanınmış bir ruhaninin, Hacı Molla Abdullanın ailəsində doğulmuş Cavidin «Məktəbi tərbiyə»yə gedişi o qədər də asan olmamışdır. Belə ki, şairin atası Molla Abdulla əvvəlcə «Məni döy-öldür, molla olmayacağam» qərarını verən

Hüseynin «Məktəbi-tərbiyə»də oxumasına nəinki razı olmamış, hətta bərk qəzəblənmiş, onu bu yoldan çəkindirmək istəmiş, oğluna yeni tipli məktəbə getməyi qadağan etmişdir. Hüseyn bu hadisəni müəllimi Sidqiyə və Qurbanəli Şərifova bildirib, onlardan kömək istədikdən sonra Məhəmməd Tağı Sidqi və Qurbanəli Şərifzadə (professor Əziz Şərifin atası – L.Əsgərzadə) çox çətinliklə də olsa, molla Abdullanı razı salaraq Hüseynin təhsil almasına nail ola bilmişlər. Bundan sonra Hüseyn Cavid məktəbdə qalmış və təhsilini davam etdirmişdir (1894-1898).

M.T.Sidqinin «Məktəbi tərbiyə»si yeni tipli bir tədris ocağı idi. Burada mollaxanalardan fərqli olaraq proqram xeyli zəngin idi. Dünyəvi elmlərin öyrənilməsinə xüsusi diqqət yetirilirdi. Təsadüfi deyil ki, bu məktəbin fəaliyyəti elə o vaxt "məşhur mühacir İran qəzetlərindən olan «Əxtər»in 1892-ci il 20-ci nömrəsində dərc edilən «Məktəbi tərbiyeyi Naxçıvan» adlı məqalədə təqdir edilirdi» (2, s. 20).

Sözsüz ki, Cavid də təsadüfən «Məktəbi tərbiyə»də oxumağa həvəs göstərməmişdir. Molla məktəbində oxuyarkən Cavid mollaxanada özünü kəşf etmişdir. Burada oxuya-oxuya dərk etmişdir ki, gələcəkdə ata-anası onu məşhur bir molla görmək istəsələr də, mollaxanada ona dini elmlər öyrədilsə də, o heç vaxt bu aləmə qovuşa bilməz. Çünki o, bu aləmə qovuşmaqla bütün potensial qüvvələrini məhv edər. Dərk etmişdir ki, onun yolu başqadır. Digər bir tərəfdən isə onun bu məktəbə daxil olamasının əsl səbəbkarlarından olan, Cavidi ilk kəşf etmiş, Cavidin məktublarından birində «Sidqinin məktəbinə məni təşviq edən siz oldunuz» deyə minnətdarlıqla yazdığı Qurbanəli Şərifzadə olmuşdur.

Sözsüz ki, «Məktəbi-tərbiyə»də təhsil illəri Cavidin xarakterinə, onun dünyagörüşünün formalaşmasına müsbət mənada çox ciddi təsir göstərmişdir. Sonralar bu həqiqəti Cavidin özü də dəfələrlə təsdiq etmişdir. O, 1909-cu ildə İstanbuldan Q.Şərifzadəyə göndərdiyi məktublarından birində yazır: «Bəndəniz «Məktəbi-tərbiyə»yə girdiyi zaman əməliyi mövtalıq, küsgünlük pessimizi təbiətini kəndimdən (özümdən) atmışdım və indiyə qədər də o saf və pak vicdanla yaşayırdım və yaşadım» (1, s. 21).

Yaxud yenə Q.Şərifzadəyə göndərdiyi məktublarından birində: «Mən də atamın proqramı ilə böyüsə idim, indi kim bilir nə məsləkdə idim?! Sidqinin məktəbinə məni təşviq edən siz oldunuz» yazır (1, s. 22). Göründüyü kimi, həqiqətən də Cavidi «Tərbiyə» məktəbinə sövq edən «Sidqinin məktəbinə məni təşviq edən siz oldunuz» deyə minnətdarlıqla xatırladığı Qurbanəli Şərifzadə olmuşdur.

«Məktəbi-tərbiyə»dəki təhsil illəri və «atam yerində olan» adlandırdığı Məhəmməd Tağı Sidqi Cavid üçün çox böyük əhəmiyyətə malik idi. Cünki Sidqi Cavid üçün yalnız müəllim deyildi, ona atalıq qayğısı və düzgün yol göstərən idi. Cavid məhz bu məktəbdə oxuyarkən bədii yaradıcılığa başlamışdır ki, sözsüz ki, bunda da Sidqinin müsbət təsiri olmuşdur. Şagir-

dinin şairlik istedadını duyan M.T.Sidqi bu yolda da onun ilk müəllimi olmuşdur. Akademik Məmməd Cəfər yazır: «Sidqi şagirdinin şairlik istedadını görüb, onunla xüsusi məşğul olurdu, onu təkcə elmdə deyil, bədii yaradıcılıqda da yeni yola çağırırdı. İndi artıq balaca Gülçin mərsiyə deyil, klassik üslubda lirik şeirlər yazırdı. Sidqi Gülçinin şeirlərini diqqətlə oxuyur, səhvlərini göstərir, Azərbaycan və fars klassiklərini oxumağı ona tövsiyə edir, bir sözlə, bədii yaradıcılıqda da ona müəllimlik edirdi. Hüseyn də Sidqinin şagirdi adını daşımağı ilə fəxr edirdi» (1, s. 22).

Həqiqətən də, M.T.Sidqi Cavidi «Təkcə elmdə deyil, bədii yaradıcılıqda da yeni yola çağırırdı» (1, s. 22). Belə ki, Cavid bu illərdə «Gülçin», «Salik», təxəllüsləri ilə azərbaycanca və farsca bir sıra qəzəl və lirik şeirlər yazmışdır. Cavidin azərbaycanca və farsca yazdığı bu şeirlər isə onu göstərir ki, Cavid hələ «Məktəbi-tərbiyə»də oxuyarkən fars dilini bilirmiş, bu dildə şeirlər yazırmış. Bu da təbii idi, çünki Cavid ərəb və fars dillərini hələ mollaxanada oxuyarkən öyrənmişdir.

Digər bir tərəfdən Cavidin Molla Abdullanın ailəsində dünyaya gəlməsini də onun fars dilini bilməsinin təbii səbəblərindən saymaq doğru olar. Üçüncü bir tərəfdən gənc yaşında Cavidin bu şeirləri yazması onun klassık Azərbaycan və Şərq ədəbiyyatına bələd olmasını göstəriridi. Onun farsca yazdığı və müəllimi Sidqinin arxivində mühafizə olunub saxlanılaraq bizə gəlib çatan, Gülçin təxəllüsü ilə yazılmış lirik şeirlərindən biri belədir:

Verdim o gün ki zülfi-pərişanə könlümü,
Saldı nigar o zülfdə zindanə könlümü.
Yalvardım iczinən ona bəlkə xilas edə,
Zənciri-zülfə bağladı divanə könlümü.
Gülçin binəva, oldum müridi-şeyx,
Yandırmışam mən atəşi-hicranə könlümü (1, s. 23).

Cavidin Sidqinin arxivində saxlanılan bu qəzəli müəlliminin çox xoşuna gəlmişdir. Hüseyn bu qəzəli ilk dəfə məktəbli yoldaşlarının yanında müəllimi Sidqiyə oxuduqda, Sidqi demişdir: «Mən atan Molla Abdullanın yerinə olsaydım və Gülçin kimi bir şair oğlum olsaydı, rövzəxanlığı buraxıb, xanəndəlik edərdim və həmişə Racinin yox, öz oğlumun şeirlərini oxuyardım» (1, s. 23).

Şagirdlərdən birinin: «Müəllim! Bu günlərdə Hüseynin atasının səsi batmışdır, mərsiyə oxuya bilmir» replikasına cavab olaraq Sidqi yenə zarafatla demişdir: «Bəlkə elə oğlunun səsi atasının səsini batırıb!...»

Hüseyn utana-utana «Mənim heç yaxşı səsim yoxdur!» dedikdə, müəllim: «Var, sənin çox yaxşı səsin var» – demişdir. – «Amma öz aramızdır, rövzəxanların səsini batıran səsə oxşayır... Özünü gözlə, bu iki səs bir-birini batıran səslərdir!» (1, s. 23).

Deməli, hələ o zaman Sidqi Cavidin yazdığı qəzəli bəyənmiş və xanəndələr tərəfindən oxunmasını istəmiş və böyük bir uzaqgörənliklə Cavi-

din nə dərəcədə istedadlı olduğunu duymuşdur. Bu qəzəlin Sidqinin arxivində mühafizə olunub saxlanılması da onu göstərir ki, Cavidlə Sidqi arasında müəllim-şagird, ata-oğul münasibəti ilə yanaşı, həm də yaradıcılıq telləri ilə bağlı bir dostluq, sirdaşlıq da olmuşdur. Cavid öz müəlliminə böyük bir məhəbbət bəsləmiş, onu (M.T.Sidqini – L.Əsgərzadə) atasına hər zaman tərifləmişdir.

Əvvəllər Cavidi «Məktəbi-tərbiyə»yə qoymayan Molla Abdulla sonralar, 1896-cı ildə Şahtaxtından M.T.Sidqiyə yazdığı bir məktubunda onu «yeniliyin carçısı, dini fanatizmin amansız düşməni, mütərəqqi ideyalar sahibi Sidqini «müəllimlər müəllimi» (1, s. 22) adlandırmışdı. (Lakin Molla Abdulla Sidqiyə yazdığı məktubda ona xoş sözlər yazsa da, bəzi məclislərdə Sidqinin haqqında heç də xoş olmayan sözlər söylədiyi və bu sözlərin də gedib Sidqinin qulağına çatdığı və Molla Abdullaya bu barədə məktub yazdığı da məlumdur. Bu isə tamam başqa bir məqalənin mövzusudur).

1898-ci ildə Cavid «Məktəbi-tərbiyə»ni bitirir və yenə də təhsilini davam etdirmək istəyir. Lakin şiddətli göz ağrıları buna imkan vermır və atası onu müalicə üçün Təbrizə göndərir. (Onun böyük qardaşı Məhəmməd də Təbrizdə idi). Cavid müalicə üçün gəldiyi Təbriz şəhərindəki «Talibiyyə» mədrəsəsində təhsilini də davam etdirir. Bu zaman o, sevimli müəllimini də unutmur, ona tez-tez məktublar yazır, məktublarında ona hörmət və ehtiramını da bildirir, Sidqiyə göndərdiyi tarixsiz bir məktubunda «Məktəbi tərbiyə»ni xeyli tərifləyir, həmin məktəbə yardım göstərənlərə isə öz dərin təşəkkürünü bildirirdi. Aydındır ki, Sidqi də ona məktublar yazırdı və bu məktublar onun «qəmli gözlərini» güldürür, gözlərinə işıq verirdi. Məktublarından birində o, bu barədə yazır: «Məktubunu aldım. Qəmli gözlərimə işıq gəldi» (2, s. 24).

Məktublardan da göründüyü kimi, Hüseyn Cavidin müəllimi və yolgöstərəni M.T.Sidqiyə böyük hörmət və məhəbbəti olmuşdur. Onun müəllimi M.T.Sidqiyə olan sevgi və məhəbbəti İrandan yazdığı məktublarda öz geniş əksini tapıb. Bununla yanaşı, Cənubi Azərbaycanda olarkən (1904-cü ildə Cavid Urmiyədə idi – L.Əsgərzadə) onun sevimli müəllimi M.T.Sidqinin vəfat etməsi də şairi ürəkdən kədərləndirmişdir ki, onun Sidqinin vəfatı münasibəti ilə oğlu Mirzə Məhəmmədəliyə göndərdiyi məktubda yazdığı aşağıdakı ürək sızladan sözlərində bunu hiss etmək çətin deyil. Həmçinin bu məktublardan Sidqinin Cavidin taleyində nə dərəcədə böyük rolu olduğu da açıq-aşkar görünür. O yazır: «Naxçıvandan əziz və ərcüməndim ağayi Mirzə Məmmədəli ibni mərhum Məşədi Tağı Sidqinin xidmətinə!

Çün əbəvi-məqami Sidqi mərhumun xəbəri-vəhşət əsərini qürbət vilayətdə eşitdim... Nə dərəcədə möhnət və ələmə və qüssəvü qəm bəndeyi-dilxəstə və pərşikəstəyə üz verdi. Elə bilirəm ki, həqiqətdə mənim atam vəfat edibdir. Güman edirəm ki, o mərhumun rehləti heç kəsə məndən artıq təsir eləməyib və eləməyəcəkdir» (1, s. 29). 1904-cü il yanvarın 5-də yazılan

bu məktubdan bir az sonra Məmməd Tağı Sidqinin vəfatı münasıbəti ilə «yüz minlərlə heyif, yüz əfsus» deyərək Cavid 23 yanvarda H.C.Naxçıvanı imzası ilə «Şərqi Rus»a yazır:

«Hər ruz mibərəd əz busitan koli
Məcruh mikonəd dili biçarə.
Ze cahan rəft həzrəti Sidqi,
Səd həzaran driq, səd əfsus...» (1, s. 29).

«Hər gün bu bostandan bir gül qoparılır, bülbülün ürəyi yaralanır. Həzrəti Sidqi dünyadan getdi. Yüz münlərlə heyif, yüz əfsus» (1, s. 29).

«Böyük maarıfpərvər, şair M.T.Sidqinin ölümünə yanan yalnız Cavid deyildi. Yuxarıda göstərilən şeirin bir misrasını Sidqinin vəfatı münasibəti ilə yazdığı məqalədə işlədən, M.T.Sidqiyə böyük məhəbbət və ehtiram bəsləyən, «Məktəbi-tərbiyə»ni «Darülürfan» hesab edən Cəlil Məmmədquluzadə də bu ölümdən dərindən kədərləndiyini belə ifadə edirdi: «Getdi həyatdan həzrəti Sidqi. Amma çox zamanlar çəkər ki, mərhumun adı vətəndaşlarımızın yadından fəramuş ola. Çox zamanlar maarifpərvər həmşərilərimiz deyəcəklər: «Səd həzaran driğ, səd əfsus» (1, s. 24).

Həqiqətən də, «çoxcəhətli elmi fəaliyyətə malik olan böyük elm xadimi, tanınmış mütəfəkkir» M.T.Sidqinin adı «vətəndaşlarımızın yadından fəramuş» (1, s. 24) olmadı, əksinə, adı hər zaman hörmətlə anıldı, elmi fəaliyyəti tədqiq edilərək monoqrafiyalar yazıldı və maarifpərvər ziyalılarımız, alımlərimiz tərəfindən yüksək qiymətləndirildi. Bu baxımdan görkəmli maarifçi, tanınmış şair və mütəfəkkir M.T.Sidqini «cavan ağsaqqal» adlandıran akademik İsa Həbibbəylinin fikirləri daha çox diqqətəlayiqdir. O yazır: «Əslində, M.T.Sidqi «çoxcəhətli elmi fəaliyyətə malik olan böyük elm xadimi, tanınmış mütəfəkkirdir». Alim-pedaqoq («Nümuneyi-əxlaq», «Nəsihətnamə»), alim-metodist («Töhveyi-bənat, yaxud qızlara hədiyyə», «Məktəbi-tərbiyə» şagirdlərinin tapşırıqları»), ədəbiyyatşünas («Puşkin»), filosof («Heykəli insana bir nəzər»), coğrafiyaşünas («Müxtəsər coğrafiya risaləsi») kimi müxtəlif elm sahələri üzrə səmərəli fəaliyyət göstərməsi onun həm də geniş hazırlığa malik görkəmli alim olduğunu təsdiq edir» (4).

M.T.Sidqi Naxçıvanda yaşamasına baxmayaraq, yalnız Naxçıvanda deyil, Azərbaycanda, İranda, Cənubi Qafqazda, Krımda və Hindistanda belə tanınmış, «öz dövründə türk-müsəlman dünyasında böyük nüfuz sahibi olan qüdrətli ədib və mütəfəkkir kimi şöhrət qazanmışdır. O, təkcə Naxçıvan ədəbi-ictimai mühitində deyil, Azərbaycanda, hətta Cənubi Qafqazda söz sahibi olan cavan ağsaqqal kimi də qəbul olunmuşdur» (4).

Sözsüz ki, «Məktəbi-tərbiyə»də təhsil illəri, birbaşa böyük maarifpərvər ziyalı, alim, şair M.T.Sidqi ilə tanışlıq və ata-oğul münasibəti Cavidin xarakterinə, onun dünyagörüşünün formalaşmasına müsbət mənada çox ciddi təsir göstərmişdir. Sonralar bu həqiqəti Cavidin özü də dəfələrlə təsdiq etmişdir.

Cavid böyük sənətkar olmaqla yanaşı, həm də bir pedaqoq idi və o, uzun müddət müəllimliklə məşğul olmuşdur. Sözsüz ki, onun bir pedaqoq, bir yurdsevər vətəndaş kimi formalaşmasında da müəllimi M.T.Sidqinin böyük rolu olmuşdur və o, müəllimlik fəaliyyəti dövründə öz atası qədər sevdiyi müəllimindən əxz etdiklərini sevə-sevə dərs dediyi tələbələrə öyrətmişdir. Professor Əjdər Ağayev yazır ki, «Cavid Naxçıvanda, Tiflisdə, Bakıda müəllimlik edərkən də bir müəllim kimi şirin, lətafətli, məzmunlu nəqli ilə şagirdlərini valeh edər, onların vətənpərvərlik hisslərini coşdurar, ədəbiyyatımızı ilhamla öyrədərdi. Bəlkə də bu hiss ona müəllimi böyük pedaqoq Məhəmməd Tağı Sidqidən keçmişdir» (6). Həqiqətən də, bu belə idi.

M.T.Sidqi Şərq və Avropa mədəniyyətinə yaxından bələd olan, ictimai-siyasi görüşləri və məlumatının genişliyi etibarilə dövrünün qabaqcıl adamlarından idi. Sidqiyə həm də H.Cavid kimi ədəbiyyat nəhəngin müəllimi olmaq da nəsib olmuşdur.

Ümumiyyətlə, «Məktəbi-tərbiyə»dəki təhsil illəri və «atam yerində olan» adlandırdığı Məhəmməd Tağı Sidqi Cavid üçün çox böyük əhəmiyyətə malik idi. Cünki Sidqi Cavid üçün yalnız müəllim deyildi, ona atalıq qayğısı və düzgün yol göstərən idi. Belə ki, Cavid məhz bu məktəbdə oxuyarkən bədii yaradıcılığa başlamışdır ki, sözsüz ki, bunda da Sidqinin müsbət təsiri olmuşdur. Şagirdinin şairlik istedadını duyan M.T.Sidqi bu yolda da onun ilk müəllimi olmuşdur. Bir sözlə, Sidqi Cavidi «Təkcə elmdə deyil, bədii yaradıcılıqda da yeni yola çağırmış», onun dünyagörüşünün formalaşmasında və gələcəkdə böyük şair-dramaturq kimi yetişməsində böyük rol oynamışdır.

Azərbaycan milli məktəbini yaratmaq, pedaqoji fikir tarixini yazmaq üçün doğulan Məhəmməd Tağı Sidqi bütün ömrünü millətinin tərəqqisinə həsr etmiş, elm, təhsil sahəsində əlindən gələni etməyə çalışmışdı.

## ƏDƏBİYYAT


1. Məmməd C. Hüseyn Cavid. Bakı: Azərnəşr, 1960, 262 s.
2. Məmmədli Q. Cavid ömrü boyu. Bakı: 1982, 296 s.
3. Həbibbəyli. İ. Ön söz. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-pedaqoji fəaliyyəti / M.T.Sidqi. Əsərləri. Bakı: Çaşıoğlu, 2004, 279 s.
4. Həbibbəyli İ. Maarifçi mühitdə ağsaqqallıq missiyası. «Şərq qapısı» qəz., 2004, 10 sentyabr.
5. Ağayev Ə. Hüseyn Cavid ideyalarının pedaqoji çalarları. «Təhsil və zaman» qəz., 2007, 15 dekabr.

**Лютвия Аскерзаде**

## ГУСЕЙН ДЖАВИД И МУХАММЕД ТАГИ СИДГИ

Автор статьи всесторонне исследует жизнь великого мыслителя и основоположника школы «Мэктэби тэрбие» М.Т.Сидги. Здесь одновременно анализируется роль этой школы и великого просветителя в жизни и деятельности поэта-философа Г.Джавида.

**Lutviya Asgarzade**

## HUSEYN JAVID AND MOHAMMED TAGI SIDGI

The article deals with the role of the school «Mektebi-terbiye» and the great role of its founder, outstanding educator, poet and thinker M.Tagi Sidgi in the development of philosophy of H.Javid, who has reached the highest top in the Azerbaijani literature. The conclusion is drawn that the school where he studied and his teacher were of great importance for Javid's future development as a poet and playwright.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, filologiya e.d. Ə.Quliyev, filologiya e.d. M.Cəfərli.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**FARİZ YUNİSOV**
AMEA Naxçıvan Bölməsi

# MƏHƏMMƏDAĞA ŞAHTAXTLI VƏ HÜSEYN CAVİD: PROBLEMLƏR, BAXIŞLAR

Azərbaycan xalqının ictimai-siyasi, sosial-mədəni cəhətdən formalaşması və inkişafında müstəsna xidmətləri olan görkəmli publisist, ictimai xadim Məhəmmədağa Şahtaxtlı (1846-1931) və dahi şair-dramaturq Hüseyn Cavid Rasizadənin (1882-1941) adlarını yanaşı çəkmək olar. Birinci daha çox mətbuat və ictimai-siyasi fəaliyyət və bu məzmunlu publisistika ilə, ikinci isə ədəbiyyatımızda romantizmin bir ədəbi cərəyan kimi formalaşmasında, həmçinin təhsilin, maarifin yüksəlməsinə öz töhfəsini vermişdir. M.Şahtaxtlının tənqidi realizm cəbhəsində, H.Cavidinsə romantizm ədəbi cərəyanına mənsub olmaları, yəni məfkurə və estetik ideallarına görə fərqli mövqelərdə dayanmalarına baxmayaraq, hər iki ədibin əsas amalı xalqımızın sosial-mədəni səviyyəsi, insanların cəmiyyətdəki fəaliyyətinin məhz onların rifahına yönəlməsinə xidmət etmişdir. 1903-cü ildə M.Şahtaxtlının nəşrinə başladığı «Şərqi-Rus» qəzeti Azərbaycan mətbuatı tarixində, sözün əsil mənasında, bir inqilab idi. H.Cavid isə Azərbaycan ədəbiyyatı tarixində çoxşaxəli yaradıcılıq diapazonuna malik, Şərq-Qərb kontekstində düşünən, milli və bəşəri ideyalara xidmət edən əbədiyaşar əsərlər yaratmışdı. Bu iki görkəmli şəxsiyyət yaşadıqları dövrün çoxsaylı problemləri ilə mütəmadi məşğul olmuş, ictimai bəlalardan birdəfəlik xilas olmağın yollarını aramış və mühüm əhəmiyyətə malik ideyalar ortaya qoymuşlar. Bu problemləri və onlara yanaşmaları qısa şəkildə belə qruplaşdırmaq mümkündür:

1. Milli oyanışa xidmət edən ideya birliyi
2. Qadının sosial-ictimai inkişafdakı rolu
3. Qərb ədəbi-mədəni mühitinin təbliği və tərənnümü
4. Avropalaşmaya münasibət məsələləri.

XX yüzilliyin əvvəllərindən başlayaraq Qafqazda, eləcə də Azərbaycanda çar mütləqiyyətinə qarşı münasibət birmənalı şəkildə dəyişmiş, kütləvi etiraz dalğası böyüməkdə idi. Xalqların öz müqəddəratlarını düşünmələri üçün dövrün ziyalıları yorulmadan çalışır, ideoloji yöndə diqqətəlayiq işlər aparırdılar. Təbii ki, bu atmosfer, yəni ölkənin o zamankı vəziyyəti heç

kəsi təmin etmirdi. Belə bir məqamda mətbuat və ədəbiyyat vəhdət halında güclü silaha çevrilərək bu bəlalardan nicat yolunu göstərməklə yanaşı, milli oyanışla, məhz özünüdərklə varolmanı diktə edirdi. Bu işdə yaxından iştirak edən Almaniya və Fransada mükəmməl ali təhsil alıb bir ziyalı kimi formalaşmış M.Şahtaxtlı öz siyasi publisistikası və ictimai fəaliyyəti ilə xalqına xidmət edirdisə, H.Cavid də Təbrizdə və Türkiyədə dövrü üçün vacib elmləri mənimsəyib vətəninə layiqincə xidmət etməkdə idi.

M.Şahtaxtlı Azərbaycan xalqının taleyini düşünərək ilk əvvəl onun çevrələdiyi məkanı, etnik-milli şüurunu nəzərə alaraq milli dövlətçilik üçün vacib atribut olan millət, vətən və dil məsələlərinə həssaslıq ifadə edərək yazırdı: «Zaqafqaziya müsəlmanlarını azərbaycanlı, Zaqafqaziya türk dilini isə tatar dili əvəzinə Azərbaycan dili adlandırmaq məqsədəuyğun olardı» (5, s. 29).

Dünya xalqlarının azadlıq uğrunda çarpışdığı bir dönəmdə hələ də mətbuata, ədəbiyyata, mədəniyyətə nicat yolu kimi baxmağı yasaq etməyə çalışanlara öz qəzəb və nifrətini gizlədə bilməyən böyük ədib «Bizlər hələ cəhalətin qurbanı, avropalıların nökəri, daha açığı qonşularımızın sağılan inəyi mənzilində, məzəllətində qalmışız» (5, s. 70). M.Şahtaxtlı mədəni-milli, geriliyin səbəbini təkcə xalqda görmürdü. O, xalqın hüquqlarını daim əlindən almağa çalışan çar məmurlarını günahlandırır, ittiham etməkdən belə çəkinmirdi. Vaxtilə Rusiya hökumətinin Baş naziri Stolıpinin də qatıldığı Duma iclaslarından birində M.Şahtaxtlı Varşava nümayəndəsinin nitqini kəsərək «Yalandır! Hətta asiyalı yaponlar və farslar da bizə nisbətən daha azad yaşayırlar» – deyə etiraz etmişdi. Milli birlik olmadan azadlığın, müstəqilliyin mümkünsüz olduğunu dərk edən müəllif «Doğrusu, heç birimizdə dil dərdi, qeydi yoxdur. Çünki bir-birimizə əl verib ümumi heyətimizi saxlamaq hissi, nəslimizi dünyada var saxlamaq dərdi yoxdur...» (5, s. 130) deyərək son dərəcə vacib olan milli birlik ideyasını önə çəkirdi. Böyük ədib təkcə publisistik yazıları ilə deyil, həm də əməli işi ilə Azərbaycanın müstəqilliyinə öz töhfəsini vermişdi. Məlum olduğu kimi, M.Şahtaxtlı «1918-1919-cu illər Bakıda yaşamış, Azərbaycan Demokratik Respublikasının həyata keçirdiyi tədbirlərdə yaxından iştirak etmişdir» (4, s. 61). Azərbaycanda milli dövlətçiliyin möhkəmlənməsində mühüm rol oynamış «Azərbaycan» qəzetində Bakıda universitet yaratmaq haqqında hökumətin qarşısında dəfələrlə məsələ qaldırmış və nəhayət istəyinə nail olmuşdu.

H.Cavidin də yaradıcılığında mübarizlik, insan və onun hüquqlarının kobud şəkildə pozulması, bütövlükdə sosial ədalətsizlik bir problem olaraq təqdim olunur. Maraqlıdır ki, 1918-ci ildə «Bakı ətrafı fəhlə, qırmızı əsgər, kəndli və matros» şurasının «Əxbarı» H.Cavidin «Haqqını sən mübarizə ilə alarsan» şeirini vərəqə halında yaymışdır» (4, s. 94). İnsanları milli birliyə çağırış ideyası Cavidin «İblis» əsərində də problem səviyyəsinə qaldı-

rılır. Müəllif Arifin timsalında öz qardaşının belə qanını tökməkdən çəkinməyən qatillərə acıyır, dil bir, din bir qardaşların ixtilaflarına təəssüflənirdi:

Nə tühaf! Bir ananın övladı,
Bilmədən bir-birinin cəlladı (1, s. 338).

Elə Cavidin də məqsədi bu «bilməməzlik»ləri açmaq, insanlara həmrəy olmağı başa salmaqdan ibarət idi.

O dövrdə Rusiyanı etiraz dalğası bürüyəndə, Qafqazda da vəziyyət sabit deyildi. Çarizmin mürtəce siyasətinin nəticəsində yaranmış ictimai buxovlardan yaxa qurtarmaq üçün bir mücadilə yaranmaqda idi. Cavid də bu prosesləri yaxından izləyərək belə qənaətə gəlirdi ki, xalqımızın müstəqillik qazanacağı gün uzaqda deyil. «Fəqət, məmafih mən Qafqazın (Azərbaycanın – F.Y.) istiqbalını İrana nisbətlə daha ziyadə parlaq görürəm» (3, s. 269). Həqiqətən də Cavid dünyagörüşündə yanılmamışdı. Çox keçmədi ki, nəinki Azərbaycanda, hətta bütövlükdə Şərqin tarixində ilk dəfə olaraq demokratik, dünyəvi, sivil dəyərlərə malik Azərbaycan Demokratik Respublikası yarandı. Deməli, M.Şahtaxtlı və H.Cavid kimi vətən övladlarının işlətdiyi təbliğat maşını artıq öz mənzilinə çatmış və xalqımız azadlığın, hürriyyətin ideyalarını dadmağa başlamışdı.

Bu böyük zəka sahiblərinin hərtərəfli fəaliyyətlərinin mühüm bir istiqaməti də qadın məsələsi idi. Qadının ictimai həyatdakı rolu və fəaliyyəti, daha doğrusu, fəaliyyətsizliyi həmişə cəmiyyətimizin böyük problemlərindən olmuşdur. M.Şahtaxtlı yaradıcılığında qadının sosial-ictimai statusu birmənalı şəkildə dəstəklənir və diqqət mərkəzində saxlanılır. Müəllif bu qənaətdədir ki, qadınlar müəyyən imtiyazlardan məhrum olduqca onların övlad tərbiyəsindəki nümunəviliyindən danışmaq belə əsassızdır. «Bizim müsəlman arvadlarına nisbətən avropa arvadlarının bu qədər çox imtiyazları olduğu halda Avropa arvadları yenə öz halətlərinə qane olmayıb daha ziyadə hüquq alıb, kişilərlə müsavi (bərabər) olmağa çalışırlar. Madam ki, mədəni və maariflənmədə millətlər arvadların hürriyyətinə və hüquqca müsavatına bu qədər əhəmiyyət verirlər» (5, s. 115). Bu problem Cavidi də daim düşündürmüş və yazdığı əsərlərdə bu və ya digər dərəcədə mövzuya toxunmuşdur. Cavid «Şeyx Sənan»da Şeyx Kəbirin dilindən «Yaşamaqçin hicab qorxuludur, Utananlar pək az müvəffəq olur» deyərək qadınların buxovdan qurtulmasını istəmişdir. Cavid mədəniləşmədə qadınlara xüsusi əhəmiyyət verirdi. Sabahın anaları olacaq qızların da təhsilə cəlb olunmasının vacibliyini qeyd edən Cavid «Erkək qisminin maddi surətdə doğulub böyüməsinə qadınlar səbəb olduğu kimi mənəviyyatca da münəvvərəlfikir, tərəqqipərvər olmalarına yenə yeganə vasitə qadınlardır, demək, tərəqqinin ilk vasitəsi qadın və qız məktəbləridir» (3, s. 198) deyərək qızların təhsilə cəlb olunmasının zəruri olduğunu vurğulayırdı. Cavid irsini öyrəndikcə onun qadına münasibətlə bağlı fikirlərində müəyyən ziddiyyətlərlə qarşılaşırıq. M.Şahtaxtlı və H.Cavidin qadına olan münasibətlərindəki va-

hid prinsip ancaq ictimai-mədəni həyatda onların da iştirakını təmin etməyə yönəlmişdi. Hər iki mütəfəkkirin örtüyə olan etirazları, fikrimizcə, təkcə çadraya qarşı yönəlməmiş, geniş mənada bir insan olaraq qadına görünüşündə, geyimində, davranışında, hər bir işində azadlıq, sərbəstlik verilməsinin tələbi idi.

Dünyanın qabaqcıl ölkələrinin təcrübəsindən yetərincə yararlanmaq Azərbaycanın bir çox ziyalılarının ümdə amalı olmuşdur. M.F.Axundzadə, C.Məmmədquluzadə və başqaları Avropa mədəniyyətinə yiyələnməyi, yəni yaxşı nə varsa, qəbul etməyin tərəfdarı olmuşlar. M.Şahtaxtlı və Cavidin yaradıcılığı ilə tanış olduqda şahid oluruq ki, qərbə inteqrasiya etməklə elmdə, texnikada, siyasi dünyagörüşdə avropalıların yolu ilə getmək bu mütəfəkkirlərin böyük arzusu olmuşdur. Cavid «Topal Teymur» əsərində Teymurun dilindən «Hər halda məmləkətimiz aslanlar yurdu, qartallar yuvası olaraq qalmamalı. Bəlkə dünyada ən parlaq maarif və mədəniyyət ocağı, ən zəngin sənaye və ticarət mərkəzi olmalıdır» (2, s. 110). Bu idi Cavidin öz Vətəni üçün amalı, çağırışı. Bəllidir ki, M.Şahtaxtlı Avropanın qabaqcıl ali məktəblərinin məzunu olmuş, dünyada gedən ictimai-siyasi, mədəni prosesləri yaxından izləyə bilmişdi. Özü də dünyanın ictimai-siyasi və mətbuat arenasına daxil olmuş və görkəmli mühərrir kimi məşhurlaşmışdı. Vətəndaşı olduğu məmləkətin inkişafının ləngiməsini qəbul edə bilməyən böyük ədib mədəniyyətin Şərqdən Qərbə keçdiyini qeyd edərək: «Yeri gələndə qədim ərəb mədəniyyəti ilə fəxr edirik. Avropalılar mədəniyyəti islamdan aldılar, deyə şişirik. Amma bir kərə fikir elədim ki, bu bizim üçün nə qədər ayıbdır. Avropa xaçpərəst ola-ola qədim islam mədəniyyətini qəbul etsə də, biz öz malımızı almaqda, öyrənməkdə bu dərəcədə inad göstərək» (5, s. 71). Müəllif göstərirdi ki, mədəni inqilablar dövrü çoxdan başlamışdır. Dünyanın ən uzaq ölkələri belə bir-biri ilə ədəbi-mədəni əlaqələr qurmaqdadır. Nə üçün bizlər bu inkişafdan yararlanmayaq? «Bu gün aləmi-islamiyyətin işıqlı yerlərində Avropada vücuda gətirilən açıq, asan, faydalı kitablar, əsərlər, alətlər gündən-günə çoxalmaqda, alimlər onlardan istifadə etməkdədir» (5, s. 71).

M.Şahtaxtlı Qərb həyatını bütünlüklə mənimsəmiş, mütərəqqi adət-ənənələri özü üçün saf-çürük etmiş, Qərb düşüncəli, Şərq koloritli bir ziyalı kimi vətənə dönmüşdü. Xalqımız, ümumiyyətlə, islam Şərqinin Qərb yaşama tərzinə (təbii ki, bu məsələdə total yanaşma özünü doğrultmur) ikrah hissi ilə yanaşan, faydalı əməlləri öz qonşularına belə rəva bilməyənlərə hiddətlə: «Mən evimi fransız memarlığına tətbiqən yapdırıb və ya rus yapdığı dəmiryoluna minəyim? (yadına sal Usta Zeynalı – F.Y.) Yainki rusların borşunu türklərin bozbaşına tərcih verəm» (5, s. 132). Dini bir bəhanə kimi əlində əsas tutaraq başqalarının həyatından ibrət almayanları qınaq obyektinə çevirən Şahtaxtlı bu gör-götür zamanında arxada qalmaq yox, bütün ətrafla yanaşı addımlamağı tövsiyə edirdi. «Seyrə balonlarda çıxan» əcnə-

bilərə əlini qaşının üstünə qoyub heyrətlə, acizanə bir tərzdə tamaşa edənləri məzəmmətləyir, daha doğrusu, onlara vətəndaş təəssüfünü bildirirdi: «Əcdadlarımız qanlarını tökürdülər ki, xaric dinlərdə olanların əfkarını öyrənsinlər. Biz isə tənbəlliyimiz, yaramazlığımız adını əstəğfürullah tədris və tədəyyün qoyub özgə millətlərdən ürkürüz» (5, s. 132). Qloballaşan dünyada müsəlman aləmində qəsdən, süni şəkildə yaradılan sünni-şiə münasibətlərinin törədəcəyi fəsadın nə dərəcədə qorxulu olduğu barədə hələ «Şərqi-Rus»un 1904-cü il 162-ci nömrəsində nəşr etdirdiyi «Hər gün bir az»da ətraflı şəkildə aydınlıq gətirmişdir. Avropanın mərkəzində, Fransadakı faciəvi «Varfolomey gecəsi»ni xatırladan müəllif bu xüsusda yazırdı: «İmam Cəfəri Sadiqin rəyi-şərifləri o olur ki, peyğəmbər əleyhüssəlam bu beş vaxtı üç yerə də yığardı (namazı nəzərdə tutur – F.Y.). Hər iki müctəhid dinin sütunlarındandır. Hər ikisinin sözündə həqiqətə mərkəz olmaq ehtimalı çoxdur. Millət nə yapsın? Peyğəmbəri vəfatından sonra görmək mümkün deyildir ki, bu iki sözün hansı mütləq doğru olduğu bilinsin» (5, s. 205). M.Şahtaxtlı islamın daxilində təxribata yol açan hər hansı bir məzhəbin bu və ya digər səviyyədə mövcudluğuna qarşı idi.

H.Cavid bu qənaətə gəlmişdi ki, Qərb parıltılı sarayları, nüfuzlu universitetləri ilə öyünməməlidir. Burada həmçinin sadə zəhmət adamlarının əzab-əziyyəti dəyərləndirilmir, onların haqq və hüquqları hər gün pozulur. Qələmə aldığı «Rur civarında» ilə Cavid gözümüz önündə Qurbanların (A.Şaiq «Məktub yetişmədi») faciəli taleyinə bənzəyən insanların həyatını canlandırır. Cavid bu fikirdə idi ki, Qərb məmləkətlərinin məhz elmini, texnikasını, ədəbiyyatını öyrənmək, tərbiyələnmək lazımdır. Bununla belə Cavid kor-koranə Avropalaşmağın əleyhinə idi. Dünyanın surətlə artan siyasi, iqtisadi, mədəni əlaqələrinin qarşısında mədəniyyətlərin sıradan çıxmasından ehtiyatlanırdı. «Uçurum» əsərində bunu təsvir etdiyi türk gəncliyinin timsalında uğurla təqdim etmişdir. Müəllif əsərdə Uluğbəyin dilindən türk gənclərinin «qazanclarını» belə ümumiləşdirirdi:

O gün ki, İstanbulda gənclik fransızlaşdı,
Getdikcə türk övladı uçuruma yaxlaşdı…
Avropadan fəzilət, himmət, ciddiyyət, vüqar
Dururkən-yalnız çürük bir züppəlik aldılar (1, s. 240).

Cavid süni şəkildə Avropa modalarına aludə olub öz milli mentalitetinə biganə olanların aqibətinin, təbii ki, uçurum olduğunu sənətkarlıqla verə bilmişdi.

M.Şahtaxtlı və H.Cavid mədəni tərəqqi yolunda bəşər sivilizasiyasına qoşularaq öz inkişafında «xarici millət»lərin mütərəqqi ənənələrini öyrənib qabağa getmək üçün xalqın yoluna işıq tutmağa müvəffəq olmuşlar. Bu yolda məqsəd bütövlükdə xalqa xidmət, ictimai həyatın bütün sahələrində inkişafa nail olmaq, millətimizin millətlər içində layiqincə tanıdılmasına yönəlmişdi. Əbəs yerə fransız Lüsyen Buva Şahtaxtlı haqqında «Bütün

müsəlman Şərqi Məhəmmədağa Şahtaxtlıya minnətdar olmalıdır» deməmişdir. Ümumiyyətlə, xalqımızın bu iki böyük övladının xidmətləri təkcə Azərbaycanla məhdudlaşmamış, ölkəmizdən uzaqlara da əks-səda salmışdır. Cavid ədəbiyyatımızda bir-birindən gözəl, yadda qalan obrazlarla ümdə problemlərə toxunaraq, oxucularını ibrətləndirmiş, M.Şahtaxtlı isə hər şeydən əvvəl mətbuat və ictimai-siyasi arenada «millətinin canlı heykəli» titulunu qazanmışdır.

## ƏDƏBİYYAT


1. Cavid H. Əsərləri: 4 cilddə, II c., Bakı: Yazıçı, 1982, 394 s.
2. Cavid H. Əsərləri: 4 cilddə, III c., Bakı: Yazıçı, 1984, 377 s.
3. Cavid H. Əsərləri: 4 cilddə, IV c., Bakı: Yazıçı, 1985, 319 s.
4. Həbibbəyli İ.Ə. XX əsrin əvvəlləri Azərbaycan yazıçıları. Bakı: Nurlan, 2004, 160 s.
5. Şahtaxtlı M. Seçilmiş əsərləri / Toplayanı, tərtib edəni və ön sözün müəllifi akademik İsa Həbibbəyli. Bakı: Çaşıoğlu, 2006, 432 s.



**Фариз Юнисов**


## МАМЕДАГА ШАХТАХТЛЫ И ГУСЕЙН ДЖАВИД: ПРОБЛЕМЫ, ВЗГЛЯДЫ


В статье всесторонне исследовано формирование национальной прессы, политической публицистики и заслуги видных деятелей М.Шахтахтлы и Г.Джавида в развитии новых жанров и литературных направлений в Азербайджане. При исследовании автором получены новые научные результаты.



**Fariz Yunisov**


## MAMMADAGA SHAHTAKHTLY AND HUSEYN JAVID: PROBLEMS, APPROACHES


In the article the forming of national press, social and political journalism in Azerbaijan, the attitude of Mammadaga Shahtakhtly and Huseyn Javid, who have exceptional service in enriching of our literature with new genres and literary tendencies, to the heavy problems of our people are objects of the investigation.



***Rəyçilər: Filologiya e.d. M.Cəfərli, filologiya e.n., dosent F.Kazımova.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**SEYFƏDDİN RZASOY**
Azərbaycan Folklor İnstitutu

# OĞUZ MİFİNDƏ ANTROPOLOJİ MƏKANIN STRUKTURU

Oğuznamə eposunun Əbülqazi variantında («Şəcəreyi-tərakimə»də) Oğuz xan kosmoqonik mifin strukturuna uyğun olaraq atası Qara xanın böyük arvadından doğulmuş tək oğuldur: «Qara xanın böyük arvadından Aydan və Günəşdən daha gözəl oğlu doğuldu» (3, s. 51).

«Oğuz xan» kosmoqonik mifinin invariant sxemindən bəlli olduğu kimi, «Şəcəreyi-tərakimə»də Oğuzun zahiri gözəlliyinin Ay və Günəşlə müqayisə olunması Əbülqazi mətnində metafora olsa da, məhz Ay və Günəş metaforalarının buradakı iştirakı Əbülqazinin ixtiyari bədiiləşdirməsi olmayıb, epik yaddaşla bağlıdır. «Oğuz xan» dünya modeli, eyni zamanda, oğuz türklərinin qavrayıb psixi obraza çevirdikləri gerçəkliyin təsviridir. Bu modelin hər bir elementi dünyanı təsvirin kod vahididir. V.N.Toporovun göstərdiyi kimi, kosmoloji çağ insanının şüurunda «dünyanın təsvir edilməsindən ötrü müəyyən əlifba mövcud idi və Kosmosun əsas elementləri həmin əlifbanın vahidləri kimi çıxış edirdi» (10, s. 60-61).

«Şəcəreyi-tərakimə»də ilkin «Oğuz xan» mifindəki Təbiət-Cəmiyyət səciyyəli qarşıdurma blokları sosiallaşdırılaraq, din çağının kateqorial aparatına transformasiya olunmuşdur. Oğuzun öz atası Qara xanla «Şəcəreyi-tərakimə»dəki din qarşıdurması daha arxaik mətn olan uyğur «Oğuznamə»sində yoxdur. Ona görə də həmin qarşıdurma bloku öz strukturu ilə diqqəti çəkir.

Oğuz «Şəcəreyi-tərakimə»də doğulandan sonra üç gün-üç gecə anasını əmmir: «Bu uşaq hər gecə anasının yuxusuna girir və deyirdi: «Anacan, müsəlman ol! Əgər olmasan, ölsəm də [belə], [qoy] ölüm, ancaq sənin döşünü əmməyəcəyəm» (3, s. 51-52).

Qeyd edək ki, dini qarşıdurma «Şəcəreyi-tərakimə»dəki Oğuznamənin əvvəlində aktualdır və əsas etibarilə atası Qara xanla qarşıdurması şəklində təzahür edir.

«Şəcəreyi-tərakimə»nin təqdim etdiyi dini qarşıdurma blokunun bir tərəfini islam dini təşkil edirsə, qarşı tərəfi hər hansı bir din yox, məhz dinsizlik təşkil edir. Mətndən oxuyuruq: «Doğma anası öz uşağını məhv edə bilmədi və Tanrının təkliyinə iman gətirdi. Bundan sonra o oğlan onun dö-

şünü əmməyə başladı. Onun anası gördüyü yuxu haqqında və müsəlman olduğunu gizlədərək heç kimə danışmadı. Ona görə ki, türk xalqı Yafəsdən Alınca dövrünə qədər dindar idilər. Alınca xan hökmdar olandan sonra isə xalqın çoxlu mal-qarası və varı oldu; o, var-dövlətdən sərxoş oldu və Tanrını unutdu; hamı kafir oldu. Qara xan dövründə dinsizlik o qədər gücləndi ki, oğul atasının müsəlman olduğunu eşidəndə [onu] öldürdü və ata da eşidəndə ki onun oğlu müsəlman olub, [onu] öldürdü» (3, s. 52).

«Şəcəreyi-tərakimə»dəki dini qarşıdurma İslam-Kafirlik blokunu verirsə, islamdan əvvəldə bu, Tanrıçılıq-Dinsizlik (Kafirlik) qoşası kimi «oxuna» bilər. Örnək verdiyimiz parçada «Tanrının təkliyinə iman» gətirilməsi haqqındakı bilgi bu qarşıdurma qoşasının semantik nüvəsində Monoteizm-Politeizm semantik qarşıdurma münasibətlərini bərpa etməyə imkan verir. Əlbəttə, bu semantik qarşıdurma sütununun arxetip pillələrindən birini İslam-Tanrıçılıq bloku təşkil edir («Kitabi-Dədə Qorqud»un «Dəli Domrul» boyunda Dəli Domrul-Əzrayıl qarşıdurma qoşasını yada salaq). Oğuznamənin bütöv mətn korpusu, o cümlədən onun arxaik mətnləri Oğuz-Kafir qarşıdurma qoşasının arxetipik başlanğıcını bərpa etməyə imkan verir.

Oğuz – kosmos qütbünü, ona qarşı qütbdə duranlar – xaosu təmsil edirlər. F.Bayat da məhz buna əsaslanıb qarşıdurmanı «geniş mənada oğuz-xaos qarşıdurması» hesab edir (2, s. 25). Ancaq «Şəcəreyi-tərakimə»də Oğuz xan kosmik nizam qütbünü birmənalı olaraq islam dini kontekstində təmsil edir: «Oğuz danışmaq öyrənəndən «Allah, Allah!» kəlməsi dilinin əzbəri idi. Bunu eşidən hər kəs deyirdi: «O – uşaqdır, nitqi olmadığından nə dediyini özü də bilmir». Ona görə ki, «Allah» – ərəb sözüdür, moğollardan heç bir ata da ərəb dilini eşitməmişdir. Tanrı-taala hələ ana bətnində Oğuzu özünün sevimlisi (v ə l i ) edibdir, ona görə də onun danışığına və ürəyinə öz adını yerləşdiribdir» (3, s. 52-53).

Göründüyü kimi, «Şəcəreyi-tərakimə»də Oğuz nəinki ortodoksal islamı təmsil edir, o, eyni zamanda övliya – vəli (Allahın sevimlisi) səviyyəsinə qaldırılmışdır. Bu baxımdan, onun oğuz ənənəvi etnokosmik düşüncəsindəki müqəddəslik statusu islami kontekstdə də davam edir.

İslam-Kafirlik binar modeli Oğuzun öz arvadlarına münasibətdə xüsusi semantikaya malikdir. Burada ilk baxışdan aydın görünən münasibətlər modelində bir-birinə laylanmış (qovuşmuş) işarə strukturları vardır. Onların araşdırılması sistemli yanaşma tələb edir.

«Şəcəreyi-tərakimə»də Oğuzun üç arvadı olur. Qara xan əvvəlcə özündən kiçik qardaşı Gür xanın qızını Oğuza alır. Oğuz arvadına müsəlmançılığı qəbul etməyi təklif edir. Qız razı olmadığı üçün Oğuz onunla ailə həyatı yaşamır: ər-arvadlıq etmir. Sonra Qara xan özündən kiçik ikinci qardaşı Qır xanın qızını Oğuza alır. Eyni vəziyyət təkrar olunur. Qara xan, nəhayət, Oğuza üçüncü kiçik qardaşı Ur xanın qızını alır. Oğuz onunla

evlənməmişdən əvvəl qıza müsəlmançılıq təklif etmişdi. Qız müsəlmanlığı qəbul edir və onlar evlənirlər.

Uyğur «Oğuznamə»sində Oğuzun iki arvadı olur: Göyü təmsil edən və yeri təmsil edən arvadlar. Oğuzun onlarla izdivacı dünya modelinin kosmik kontinuumunun binar (ikili) sxemdə təqdim olunan şaquli modelinə söykənir: G ö y - Y e r. «Şəcəreyi-tərakimə»də «2»-nin «3»-ləşməsi (2 = 3) dünya modelinin şaquli sxemini pozmur: «3»-lük istər oğuz etnokosmik düşüncəsində, istərsə də universal sxemlərin, demək olar ki, hamısında dünyanın şaquli ölçülərini universumlaşdırır: Göy-Yer-Yeraltı. Bu halda Oğuzun üç dəfə evlənməsi dünya modelindəki funksional dinamikanın tamlığını da nümayiş etdirir. Evlənmə kosmoqonik baxımdan yaradılışın tamamlanması deməkdir. Oğuzun üç qadınla izdivacı onun kosmik kontinuumu (məkan-zaman sistemini) bütövlükdə, bir tam olaraq əhatə etməsi – o ğ u z l a ş d ı r m a s ı deməkdir. Bu, oğuz kosmoloji düşüncəsinin semiotik strukturuna görə xaosun kosmosa keçməsidir. Oğuz ona əks işarədə dayanan dünyanı (müsəlman olmayan qızları) kosmoslaşdırır – «Oğuz» kosmosunun strukturuna tabe edir. Zahirən bu, belə görünməyə bilər. Çünki onun iki əvvəlki arvadı müsəlmanlığı qəbul etmir və Oğuzun gerçək arvadlarına çevrilə bilmirlər. Ancaq bu, «Şəcəreyi-tərakimə»də elədir. Qadınların sistemləşdiyi «3»-lük universumu uyğur «Oğuznamə»sindəki «2»-lik universumunun transformativ törəməsi və eyni zamanda diaxronik ekvivalentidir. Onların semantik dəyəri (işarəsi) eynidir. Bu baxımdan, əvvəlki iki qadın müsəlmanlığı qəbul etməsə də, onlar Oğuzun arvadları statusundadır və evlənmənin kosmoqonik dəyəri bu qadınlarda ifadələnmişdir.

Burada başqa bir kosmoqonik cəhət də diqqətimizi cəlb edir. Qadınların sayının üç olması dünyanın şaquli modelini özündə əks etdirməklə həmin modelə məxsus kosmoqonik dinamika (hərəkət) sxemlərinin də strukturunu müəyyənləşdirir. Belə ki, «3»-lük kosmoqonik dinamikanının həm də alqoritmi, hərəkət tezliyinin vahididir. Xüsusən nağıllarda bir hərəkətin üç dəfə təkrar olunmasını yada salaq. Eyni hərəkət («1»-lik) üç dəfə təkrarlanır və başlıcası, təkrarlanan eyni bir struktur vahididir. Bu, riyazi münasibətlər müstəvisində «1=3» formulu ilə ifadə olunur. Bu baxımdan, «Şəcəreyi-tərakimə»də kişi vahidini təmsil edən Oğuzun üç arvadla evlənməsi qadın vahidinin şaquli model üzrə ritmik hərəkəti anlamına gəlir.

Oğuzun evlənməsi mürəkkəb struktura malik olmaqla dünya modelinin təkcə şaquli strukturunu əhatə etmir. Bu kosmoqonik aktda şaquli və üfüqi dinamika paralellik və qovuşmada təzahür edən vahid prosesdir. V.N.Toporovun araşdırmalarından bəlli olduğu kimi, kosmoloji çağ şüuru mətnləri üçün «təsvirin sinxron və diaxron aspektlərinin birgəliyi» xarakterikdir. Başqa sözlə, «dünyanın iyerarxik qurumunun təsviri onun elementlərinin yaradılış ardıcıllığının təsvir edilməsinə bərabərdir» (10, s. 61).

V.N.Toporovun universallaşdırdığı sxemdən çıxış etsək, kosmoqonik dünya modelinin şaquli strukturunun Oğuzun evləndiyi üç qadının simasında təsviri eyni zamanda onun üfüqi strukturunun təsvirinə bərabər olmalıdır: dinamik akt diaxron (şaquli) və sinxron (üfüqi) kontekstləri eyni zamanda nəzərdə tutmalıdır. Sxemin universallığı oğuz dünya modelinin simasında da təsdiq olunur. Belə ki, Oğuzun qadınların simasında şaquli sxem üzrə hərəkəti euni zamanda onun üfüqi sxem üzrə də hərəkətidir. Diqqət edək.

Oğuzun atası Qara xanın özündən başqa üç qardaşı vardır. Onlar birlikdə dörd qardaşdırlar. «4»-lük istər oğuz kosmoqoniyasında, istərsə də universal sxemlərdə dünyanın üfüqi strukturunun universumudur. Bu halda dörd qardaş dünyanın dörd cəhətini nəzərdə tutmaqla kosmoqonik modelin üfüqi strukturunu bütövlükdə təqdim edir. Oğuz bu qardaşlardan birinin oğlu olmaqla qalan üç qardaşın qızları ilə evlənir. Evlənmə ilə kosmik dünya modelinin üfüqi strukturunun dörd vahidinin birləşməsi baş verir: dünya nəinki şaquli strukturu ilə, eyni zamanda üfüqi strukturu ilə də oğuzlaşdırılır. Bu halda şaquli sxem (qızlar) üzrə hərəkət ardıcıllığı üfüqi sxem (qardaşlar – Oğuzun əmiləri) üzrə hərəkət ardıcıllığı ilə eyni zamanda baş verməklə həm semantik baxımdan ona bərabər olur, həm də bu hərəkət sxemləri semiotik baxımdan bir-birinin «işarəsi – kosmik ekvivalenti» kimi çıxış edir.

«Oğuz» vahidinin dünya modelinin kosmik strukturunu üfüqi (sinxron) və şaquli (diaxron) sxemlər üzrə bir bütöv olaraq təşkil etməsi kosmoqonik hərəkət sxemi kimi Oğuz xanın gerçək dünyanın topoqrafik strukturunu təşkil etməsində – fəthlərində ifadə olunur. Bu halda oğuz dünya modelinin müqəddəs hərəkət sxemi invariant model olaraq Oğuz xanın dünyanı fəth etməsində paradiqmalaşır. «Psixomifoloji planda bu, Total Dünya Modelinin oğuzların gündəlik həyatında ritmik təkrarla gerçəkləşməsidir» (9, s. 154).

Ümumiyyətlə, kosmoloji-əsatiri düşüncə ritmik strukturuna görə dünya modelinin struktur vahidlərinin təkrarlanması şəklində qurulur. Bunun qaynağı varlığın sinergetizm xassəsinə ehtiva olunur. Bütün varlıq aləmi teoinformasiyanın sinergetik törəmələr şəklində təkrarlanması əsasında qurulmuşdur. Mifoloji düşüncə teosinergetizmin bioantropoloji səviyyədə təzahürüdür. Kosmoloji çağ insanının adi – gündəlik (profan) həyatı qutsal (sakral – müqəddəs) invariantın təkrarı olaraq gerçəkləşir. Bu insanın bütöv həyatı onun şüurunda daşınan dünya modelini (ideal işarələr sistemini) gerçəkləşdirən mətndir. Bu halda şüuri hadisə olan dünya modeli – birinci işarələr sistemini, dünya modelinin gerçəkləşdiyi «həyat mətnləri» – ikinci işarə sistemlərini təşkil edir. İşarə sistemləri arasındakı əlaqə birinci sistemin (sakral işarənin) strukturunun ikinci olan sistemlərdə (profan işarələrdə) təkrarlanması şəklində gerçəkləşir. Bu baxımdan, eyni bir hərəkət

vahidi – invariant akt İnvariant-Paradiqma struktur sxemi üzrə təşkil olunmuş dünyanın bütün qatları üçün aktualdır. Ritmik təkrar etnokosmik sistemin üfüqi və şaquli səviyyələri üçün eyni dərəcədə səciyyəvidir. Burada başlıca olan hərəkətin üfüqi (sinxron), yaxud şaquli (diaxron) istiqamətlərini bilmək və dinamikanın gerçəkləşmə kodlarını (təsvir dilini) tanımaqdır. Birinci işarə sistemi olan Oğuz dünya modeli və onun etnokosmik proyeksiyası olan gerçək oğuz dünyası (ikinci işarə sistemi) kosmoqonik hərəkət sxemlərini istənilən səviyyə, qat, bloklarında yalnız ritmik olaraq təkrarlayır.

«Oğuz» adı altında işarələnən dünyanın sonrakı təşkilinin də bütün səviyyələri «oğuz» semiotik struktur invariantının ritmik olaraq təkrarlanması şəklində qurulur. «Şəcəreyi-tərakimə» Oğuz xanın oğlanlarının dual (ikili) sxem üzrə invariantdan gələn təsnifatını qoruyur:

– 3 böyük oğlan: Gün, Ay, Yulduz.

– 3 kiçik oğlan: Gök, Dağ, Dəniz.

Göründüyü kimi, oğuz dünya modelinin üfüqi strukturunun «3»-lük universumu oğuz kosmosunun struktur «böyüməsinin» hərəkət ritmi kimi qalmaqda davam etmişdir. Burada kosmoqonik ritm cərgə yaratmışdır: 3//3. Dünyanın təşkilinin astronomik kodu ilə antropoloji kodu qovuşmuşdur. Bu qovuşma mifoloji-kosmoqonik şüurun özünəməxsus «metaforizmi» ilə bağlıdır. Y.M.Meletinskiyə görə, mifoloji metaforizmin mahiyyətini «ictimai kateqoriya və münasibətlərin ətrafdakı təbiət mühitinin «obrazları» vasitəsi ilə təqdim olunması və əksinə, təbiət münasibətlərinin ictimai münasibətlər vasitəsi ilə «şifrələnməsi» təşkil edir (8, s. 232).

Oğuz kosmosunun «böyüməsinin» kosmoqonik ritmi «3»-lük universumunun təkcə paralelləşməsinə yox, həm də natural cəmlənməsinə söykənir: 3 + 3 = 6. Oğuz kosmosunun böyüməsinin (sinergetik özünütəşkil sxeminin) sonrakı pillələrində biz dünya modelinin struktur ölçülərinin – universallaşdırma vahidlərinin (universumların) müxtəlif kombinasiyalarını görürük. Oğuzun 6 oğlunun hərəsinin 4 oğlu olur. Bunun vurulma, yaxud natural cəmlənmə üzrə kombinasiyası 24 oğuz tayfasını verir: 6 x 4 = 24. «24»-lüyün dual sxem üzrə özünü təşkili 12-lik qoşasını verir: 24 : 2 = 12. Beləliklə, biz «Oğuz» kosmosunun özünütəşkilində yaradılışın (kosmoqoniyanın) daim təkrarlanan, müxtəlif kombinasiyalarda ritmləşən dəyişməz struktur universumlarını – kosmoqonik modelin ölçü vahidlərini görürük:

– 4: üfüqi (sinxron) universum (4 qardaş: Oğuzun atası Qara xan və onun qardaşları).

– 1: kosmoqonik konsentrasiya universumu (Oğuz).

– «4»-lük üfüqi universumunun «1»-lik mərkəz universumuna konsentrativ kombinasiyası: 4 = 1 (Qara xan və qardaşlarının simasında təqdim olunan «4»-lüyün «1»-lik universumunda gerçəkləşən «oğuz» kosmosuna konsentrasiyası).

– 3: şaquli (diaxron) universum (Oğuzun arvadları).

– «3»-lük universumunun şaquli ritmlə paralelləşməsi: 3 // 3 (3 böyük qardaş və 3 kiçik qardaş).

– «3»-lük universumunun üfüqi ritmlə cəmlənməsi: 3 + 3 = 6 (qardaş).

– «4 = 1» universumlaşma kombinasiyasının kosmoqonik şüur üçün səciyyəvi akt olan tərsinə proyeksiyalanma sxemi əsasında «1 = 4» universumlaşma kombinasiyası şəklində ritmləşməsi – təkrarlanması: (hər bir oğulun dörd oğlu: «1» universumunun növbəti kosmoqonik pillədə «4»-ləşməsi).

– 24: şaquli və üfüqi ritmləri eyni zamanda proyeksiyalandıran kombinator universum: «6»-lıq və «4»-lük uniersumlarının vurulma (hasil) kombinasiyası üzrə özünütəşkilinin «oğuz» kosmosunun «24»-lük universumu ilə qurulan növbəti kosmoqonik pilləsini təşkil etməsi.

– 12: «24»-lük universumunun dual sxem üzrə paralelləşməsinin (bölünməsinin) universumu.

– 2: oğuz kosmosunun sinergetik özünütəşkilinin kombinator uriversumu.

Qeyd edək ki, Azərbaycan folklorşünaslığında aparılmış tədqiqatlar Oğuz mifi üçün səciyyəvi olan universumları əks etdirən rəqəmlərin folklor dünya modelinin kəmiyyət strukturundakı rolunu ətraflı aşkarlamışdır. B.Abdulla «Kitabi-Dədə Qorqud»un poetikasını araşdıraraq abidədəki rəqəmlərin oğuz düşüncəsində «müqəddəs say»lar funksiyasında işləndiyini qeyd etmişdir (1, s. 207). R.Qafarlı Azərbaycan folkloru üçün səciyyəvi olan saylara «mif və sakral rəqəmlər» kontekstində yanaşaraq, onların «bədii mətnlərin poetik strukturunda semantik-stilistik mahiyyət daşıdığını», «ayrı-ayrı rəqəmlərin işlənmə dairəsi və funksiyasının olduqca müxtəlif olduğunu» göstərmişdir (7, s. 384-410). Müəllif oğuz dünya modelinin kəmiyyət strukturunu da formullaşdırmışdır (7, s. 387-387). R.Əliyevin folklor dünya modeli ilə bağlı saylar haqqındakı axtarışları (bax: 4) onu nəticə etibarilə Azərbaycan folklorşünaslığı üçün hələlik yeni olan «riyazi mifologiya» sahəsinə aid tədqiqatlara gətirib çıxarmışdır (5). A.Xəlil aşıq şerinin semiotik strukturunu statistik-distributiv üsulla araşdırmış və türk şerinin alqoritmlərini bərpa etməyə imkan verən formulları müəyyənləşdirmişdir. Onun aşkarlamalarına görə, alqoritmləri inikas edən rəqəm vahidləri – «6, 9, 12, 24 oğuz genealoji sxeminin riyazi modelinə uyğundur. Həm də istisna olunmur ki, burada oğuzun sosial strukturu proyeksiya olunub» (6, s. 83-87).

Sonuncu faktlar və aparılmış tədqiqat göstərir ki, aşkarlanmış rəqəmlər Oğuz mifi üçün səciyyəvi olan universumları əks etdirir və həmin kəmiyyət formulları Oğuz mifində antropoloji məkanın funksional struktur mexanizmləri olmuşdur.

## ƏDƏBİYYAT


1. Abdulla B. «Kitabi-Dədə Qorqud»un poetikası. Bakı: Elm, 1999, 223 s.
2. Bayat F. Oğuz epik ənənəsi və «Oğuz kağan» dastanı. Bakı: Sabah, 1993, 194 s.
3. Əbülqazi Bahadır xan. Şəcəreyi-Tərakimə (Türkmənlərin soy kitabı) / Rus dilindən tərcümə edən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. Bakı: Azərbaycan Milli Ensiklopediyası N-PB, 2002, 144 s.
4. Əliyev R. 7770 nədir? // Elm və həyat, 1988, № 4, s. 29-31.
5. Əliyev R. Oğuzdan Koroğluyadək: riyazi mifologiyaya giriş / AMEA Folklor İnstitutu Mifologiya Şöbəsində daimi fəaliyyətdə olan «Türk mifologiyasının problemləri lektoriyası»nın birinci iclasında oxunmuş məruzə (mətn müəllifdədir). Bakı, 2004, 31 s.
6. Xəlil A. Aşıq şerinin semiotik strukturu // Dədə Qorqud, 2004, № 1, s. 83-87.
7. Qafarlı R. Mif və nağıl (epik ənənədə janrlararası əlaqə). Bakı: ADPU, 1999, 448 s.
8. Мелетинский Е.М. Поэтика мифа. М., 1976, 407 с.
9. Rzasoy S. Oğuz mifinin invariant strukturundan / AŞXƏDT. XI c., Bakı: Səda, 2002, s. 141-161.
10. Топоров В.Н. О структуре некоторых архаических текстов, соотносимых с концепцией «мирового дерева» / ТЗС (сборник статей). Вып. 5, Тарту, 1971, 41 с.



**Сейфаддин Рзасой**


## СТРУКТУРА АНТРОПОЛОГИЧЕСКОГО ПРОСТРАНСТВА В ОГУЗСКОМ МИФЕ


Статья посвящена реконструкции антропологической структуры огузского мифа. По результатам исследования, в центре антропологического пространства огузской мифологической модели мира стоит мифический предок Огуз каган. Вся космогоническая драма происходит вокруг него. Основными структурными элементами процесса являются акт женитьбы Огуз кагана и циклическое повторение акта в лице его сыновей. Процесс продолжается до полного завершения создания огузского мира. Вследствие этого все антропологическое пространство подвергается «огузации».

**Seyfaddin Rzasoy**

## THE STRUCTURE OF ANTHROPOLOGICAL SPACE IN OGHUZ MYTH

The article is devoted to the reconstruction of the anthropological structure of an oghuz myth. According to results of this research, there is mythic ancestor Oghuz khakan in the centre of anthropological space of oghuz mythological world model. The whole cosmogonic drama happens around him. The basic structural elements of this process consist of the marriage act of Oghuz khakan and periodic repetition of this act in the persons of his sons. This process continues till the end of creation of oghuz world. As a result of this, all anthropological space is subjected to the «oghuzation»

***Rəyçilər: Filologiya e.d. M.Cəfərli, filologiya e.n., dosent F.Kazımova.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**MƏHƏRRƏM CƏFƏRLİ**
AMEA Naxçıvan Bölməsi

# «KİTABİ-DƏDƏ QORQUD»DA «HACƏTDİLƏMƏ» MƏRASİMİ

«Kitabi-Dədə Qorqud» abidəsi daim dünya türkologiyasının diqqət mərkəzində olan abidədir. Onun poetikası tədqiq edildikcə mövzu baxımından tükənmək əvəzinə, elmi düşüncəyə daha yeni mövzular təqdim edir. Bu, təbii ki, səbəbsiz olmayıb, eposun dünya tarixində möhtəşəm rol oynamış oğuz türklərinin bütün tarixi-mədəni həqiqətini yaddaşlaşdırması ilə bağlıdır. On iki boydan ibarət eposda daşınan informasiyanın nəhənglik ölçüləri, əslində, oğuz etnosunun bütün tarixinə bərabərdir.

Bu da ayrıca cəhət kimi qeyd olunmalıdır ki, elmdə hər bir nəsil «Kitabi-Dədə Qorqud»a yeni gözlə baxır. Elmin intellektual imkanları inkişaf etdikcə, yeni-yeni nəzəriyyə və metodlar meydana çıxdıqca oğuz abidəsi özünün yeni tədqiqat imkanlarını ortaya qoyur. Lakin bununla bərabər, belə hesab edirik ki, «Kitabi-Dədə Qorqud»da, əslində, öyrənilməsi son dərəcə vacib olsa da, diqqətdən yayınmış çox məsələlər vardır. Bunlardan biri «Kitabi-Dədə Qorqud» əsasında oğuz ritualının – mərasimlər sisteminin tədqiqi problemidir.

Ümummiyyətlə, hər bir ənənəvi mədəniyyətin tədqiqində ritualların öyrənilməsi son dərəcə vacib məsələdir. Ona görə ki, ənənəvi mədəniyyəti ritualdan yan keçməklə öyrəndikdə heç vaxt səmərəli nəticələr alına bilməz. Məsələn, mifologiyanı, folkloru dini rituallarsız təsəvvür etmək və öyrənmək birtərəfli nəticələr verir. Bu barədə görkəmli ingilis ritualşünası Viktor Ternerin etnoqrafik təcrübəsi səciyyəvi örnəkdir. O, Afrikada ndembu tayfaları içərisində etnoqrafik fəaliyyətlə məşğul olduğu dövrdə əvvəlcə mərasimlərin öyrənilməsinə fikir verməmişdir. Yerli mədəniyyətin içərisində ola-ola ondan, sanki, kənarda qalması alimi düşündürmüş və o, qəfildən anlamışdır ki, ndembuların mərasimlərini öyrənməyə başlamasa, bu xalqın mədəniyyətinə nüfuz edə bilməyəcəkdir. Alim sonralar bu barədə öz tədqiqatında yazırdı ki, «mən çöl təcrübəsinin ilk doqquz ayı ərzində qohumçuluq sistemi, kəndin strukturu, evlənmə və boşanma, ailə, tayfa və kənd siyasəti, kənd təsərrüfatı mövsümü haqqında çoxlu sayda məlumatlar topladım. Qeyd kitabçalarımı şəcərələrlə doldururdum; kənd evlərinin planlarını cızır və siyahılaşdırma ilə məşğul olurdum; nadir və naməlum qohum-

çuluq termininin sorağından ötrü vurnuxurdum. Buna baxmayaraq, hətta dili sərbəst şəkildə bilsəm də, həmişə qıraqdan baxırmış kimi özümü daim naqolay hiss edirdim. Axı mən bilirdim ki, mənim düşərgəmin yaxınlığında ritual barabanları gurlayacaq və mənim tanışlarım tez-tez məni bir neçə günlüyə qoyub gedəcəkdilər ki, ekzotik adları olan rituallarda iştirak etsinlər. Nəhayət, mən etiraf etməyə məcbur oldum ki, əgər mən ndembu mədəniyyətinin, heç olmasa, bir hissəsinin nə olduğunu başa düşmək istəyirəmsə, ritual əleyhinə əvvəlcədən mövcud olan fikirlərimdən əl çəkib onun tədqiqinə başlamalıyam» (1, s. 8).

Böyük etnoloq alimin fikrindəki həqiqəti oğuz mədəniyyəti və bu mədəniyyətin ən ulu abidəsi olan «Kitabi-Dədə Qorqud» da tətbiq etmək istəsək, deməliyik ki, əgər biz də oğuz mədəniyyətinin, heç olmasa, bir hissəsinin nə olduğunu öyrənmək istəyiriksə, onda abidədə öz əksini tapmış ritualları çox geniş elmi əsaslarla tədqiq etməliyik.

Qeyd edək ki, «Kitabi-Dədə Qorqud»da oğuz mərasimi məsələsi çox geniş və nəhəng məsələdir. Çünki bu abidədə bizim mərasim adına adi gözlə müşahidə edə bildiklərimiz eposdakı real mərasim strukturlarının, təqribən, üçdən birini təşkil edir. «Kitabi-Dədə Qorqud» süjetlərinin ritual-mifoloji semantikasını tədqiq etmiş mifoloq Seyfəddin Rzasoy bu barədə yazır: «KDQ («Kitabi-Dədə Qorqud» – M.C.) mətnindəki törənlər (ayin, mərasim, ritual – M.C.) onun poetik qurumunun müxtəlif qatlarında gerçəkləşmişdir. Bu qatlardan birincisini süjetin tərkibində özünə üzvi yer alan və bizim tərəfimizdən şərti olaraq təsviri törənlər adlandırılan törənlər sırası təşkil edir. Başqa sözlə, eposun mətnində biz dürlü törənlərin təsviri ilə rastlaşırıq. Məs., toy, yas, adqoyma törənləri, eləcə də funksiyası bir qədər gec başa düşülən, ilk baxışda qavranışı adi oxucu üçün aydın olmayan törənlər. Bu törənlərin boyların bütöv süjetində yeri, funksiyası var. KDQ mətnindəki ikinci törən qatını süjetin konkret formulunun, hər hansı mənalı kəsiyinin məzmununu əhatə edən törənlər təşkil edir. Üçüncü törən qatı isə eposun bütöv boylarının, yaxud boy süjetlərinin müstəqil qollarının məzmununu təşkil edən törənlər sırasıdır» (2, s. 84).

«Kitabi-Dədə Qorqud»da haqqında danışmaq istədiyimiz ritual da S.Rzasoyun təsnifatı baxımından təsviri rituallar sırasına daxildir. Bu, «hacətdiləmə» – istək diləmə ritualıdır. Eposun «Baybörənin oğlu Bamsı Beyrək boyu»nda göstərilir ki, bir gün İç Oğuz və Dış Oğuz bəyləri Qam gan oğlu Bayandır xanın məclisinə yığılmışdı. Məclisdə birdən hörmətli oğuz bəylərindən olan Baybörəni ağlamaq tutur.

«Bunu görən Qalın Oğuzun arxası, Bayındır xanın kürəkəni Salur Qazan qaba dizi üstünə çökdü. Baybörə bəyin üzünə qıyqacı baxdı. Dedi: «Baybörə bəy, niyə ağlayıb-zarıyırsan?» Baybörə bəy dedi: «Qazan xan, necə ağlamayım, necə zarımayım? Oğuldan dayağım yox, qardaşdan sayıl-

mağım! Allah-təala məni qarğayıbdır… Bəylər, taxtım-tacım üçün ağlayıram. Bir gün ola, düşəm öləm, yerimdə-yurdumda kimsə qalmayacaq».

Qazan dedi: «Arzun elə budurmu, Baybörə bəy?» Dedi: «Bəli, budur. Mənim də oğlum olsun, Bayındır xanın xidmətində durub, qulluq eləsin, mən də baxıb güvənim, sevinib-fərəhlənim…».

Belə dedikdə Qalın Oğuz bəyləri göyə üz tutdular. Əl qaldırıb dua elədilər. «Allah-təala sənə bir oğul versin!» – dedilər.

O zamanlar bəylərin alqışı alqış, qarğışı qarğış idi. Dualarını yerini tuturdu. Baybican bəy də yerindən durdu, dedi: «Bəylər, mənimçin də bir dua eləyin Allah-təala mənə də bir qız versin», – dedi. Qalın Oğuz bəyləri əl qaldırdılar, dua eylədilər: «Allah-təala sənə də bir qız versin», – dedilər» (3, s. 150).

Göründüyü kimi, burada Oğuz bəyləri Allahdan Baybörəyə oğul, Baybicana qız diləyirlər. Bu, istəkdiləmə mərasimidir. S.Rzasoy Allahdan bu övlad diləmə mərasimini eposun birinci boyundakı övladdiləmə mərasiminə əsasən «hacətdiləmə» mərasimi adlandırmışdır (2, s. 86).

Eposun «Dirsə xan oğlu Buğac xan boyu»nda Dirsə xanın övladı yox idi. Bayandır xanın ildə bir dəfə mərasim keçirər və bu mərasimdə oğlu olanı ağ çadırda, qızı olanı qırmızı çadırda, oğlu-qızı olmayanı qara çadırda yerləşdirərdi. O, bunu belə əsaslandırırdı: «Bir adamın ki, oğlu-qızı olmaya, onu Allah qarğayıbdır, biz də qarğayarıq» (3, s. 133).

Qarğışa tuş olmuş Dirsə xan evinə dönür, arvadının məsləhəti ilə çoxlu ehsan verir: «Əl götürdülər, hacət dilədilər. Bir ağzı dualının alqışılə Allah-təala bir əyal verdi. Xatunu hamilə oldu. Bir neçə müddətdən sonra bir oğlan doğurdu. Oğlancuğını dayələrə verdi, saqlatdı» (3, s. 35).

S.Rzasoy hacətdiləmə mərasimini həm də Tanrıya yalvarış törəni kimi səciyyələndirərək yazır: «Beləliklə, süjetin başlanğıc qütbündə Bayındır xanın keçirdiyi soissasi dəyərləndirmə (təsnifat) törəni, sonunda isə Dirsə xanın keçirdiyi «Hacət diləmə» – Tanrıya yalvarış məhsuldarlıq törəni durur. Əslində, törənlərə verdiyimiz bu adlar şərtidir, funksiyaları inikas edir. Mətndə bu törənlərin xüsusi adları çəkilmir, sadəcə, hər ikisi «toy» adlandırılır. Bu törənlərin onların gerçək tarixi kontekstində necə adlanmasından asılı olmayaraq, onların artımla bağlı törənlər olduğu göz qabağındadır» (2, s. 86).

Əlbəttə, biz həmin törənlərin öz təyinatına görə məhsuldarlıq mərasimi olması ilə razılaşırıq. Lakin fikrimizcə, «hacətdiləmə» mərasimi yalnız Allahdan övlad istəmək məqsədi ilə keçirilmir. Mərasimi daha geniş şəkildə təhlil etdiyimizdə onların keçirilməsində əsas məqsədin Tanrı qarğışından qurtulmaq olduğunu götürək. Övladın dünyaya gəlməsi nəticədir. Əsas məsələ səbəbdir. Səbəb isə Tanrı qarğışına gəlməkdir. Tədqiqat göstərir ki, bəylər övladlarının dünyaya gəlməsi ilə məhz həmin ilahi qarğışdan qurtulmaq istəyirdilər. Bunu Baybörə və Baybicanın simasında görürük.

Eposda ilk baxışda tədqiqatçıya elə gələ bilər ki, hər üç bəy (Dirsə, Baybörə və Baybican) övladsızdır. Lakin belə deyildir. Dirsənin heç bir övladı – nə oğlu, nə də qızı yox idi. Lakin prof. Kamal Abdullanın göstərdiyi kimi, Baybörə sonsuz deyildi: qızları (Beyrəyin bacıları nəzərdə tutulur – M.C.) var idi, oğlu yox idi. Baybicanın isə oğlu var idi (Dəli Qarcar – M.C.), qızı yox idi (4, s. 100).

Bu hadisəyə Bayındır xanın ildə bir dəfə ağ, qırmızı, qara çadırların qurulması ilə təşkil etdiyi ritual baxımından yanaşdıqda, bu halda Baybörəni qızıl otaqda, Baybicanı isə ağ otaqda təsəvvür edə bilərik. Lakin buna baxmayaraq, Baybörə özünü Tanrı qarğışına tuş gəlmiş sayır.

Demək, məsələnin bütün mahiyyəti Tanrının nəzərindən düşə bilmək və beləliklə, onun qarğışına gələ bilməklə bağlıdır. Oğuzlar həyatlarında baş verən bu taleyüklü hadisələrin hamısını tanrının münasibəti ilə əlaqələndirdikləri üçün Dirsə övladsızlığını, Baybörə oğulsuzluğunu, Baybican isə qızsızlığını Tanrı qarğışı hesab edir. Məsələyə bu yöndən yanaşdıqda «hacətdiləmə» mərasiminin əsl mahiyyətində Tanrı qarğışının insanın üstündən götürülməsi məsələsi durur.

«Hacətdiləmə» mərasiminin semantik strukturu mifoloji qarşıdurma qoşalıqlarını özündə əks etdirir. Burada, əsasən, «alqış-qarğış» qoşalığını müşahidə edirik. Bu qoşalıq arxaik-mifoloji şüurla bağlıdır. F.e.d. Bəhlul Abdulla göstərir ki, «alqış və qarğışların yaranmasında əsas zəmin… adamların təbiətdəki əsrarəngizlik qarşısında naşı olmaları ilə əlaqədardır» (5, s. 53-54). Müəllif «Kitabi-Dədə Qorqud» abidəsində, o cümlədən digər folklor mətnlərindəki alqış və qarğışlar haqqında yazır: «Ümumiyyətlə, alqış və qarğışlar haqqında mövcud nümunələr əsasında daha geniş, ətraflı danışmaq mümkündür. Amma elə deyilən və digər bu qəbil ifadələr özləri sübut edir ki, …onlar, əsasən, insan təfəkkürünün hələ gərəyincə formalaşmadığı bir dövrlə, ibtidai təsəvvürlərlə, inamlarla bağlıdır. Deməli, Azərbaycan xalq ədəbiyyatındakı alqış və qarğışlar öz kökü ilə əski etiqadlar və bədii anlamlarla sıx əlaqədardır» (6, s. 64).

Prof. Azad Nəbiyev də alqış və qarğışları əski mifik təsəvvürlərlə bağlı hesab edir: «Müxtəlif xalqlarda olduğu kimi, şərq xalqlarının əsatirində xeyir və şər təsəvvürləri şəxsləndirilmişdir. Bu varlıqları insan cildində görmək istəyi təkcə qədim türk tayfaları içərisində deyil, ümumiyyətlə, qədim insanın həyatı dərketməsinin əsas mərhələlərindən biri olmuşdur. Bu qüvvələr qədim təsəvvürlərdə xeyiri alqışlamaq, şəri isə qarğışlamaq anlayışını yaratmışdır» (7, s. 14).

Mərhum tədqiqatçı prof. Mürsəl Həkimov sözü gedən janrların mifoloji etiqadlarla bağlı olmasını qabardaraq yazmışdır: «Bu alqış və qarğışlarda xalqın ictimai-iqtisadi…tarixinin izləri ilə yanaşı, inamı, etiqadı da öz əksini tapmışdır… Bu da bir həqiqətdir ki, atalar sözü və məsəllər kimi,

alqış və qarğışların da işlək məqamı Azərbaycan xalqı arasında tarixin çox qədim dövrləri ilə səsləşir» (8, s. 108-109).

Prof. Paşa Əfəndiyev də yazır ki, alqış və qarğışlar «qədim insanların inam və etiqadları ilə bağlı yaranan nümunələridir» (9, s. 85).

F.e.d. Seyfəddin Qəniyev Şirvan qarğışlarının təhlili zamanı qeyd etmişdir ki, «Şirvan qarğışları da mövzu və məzmun baxımından rəngarəngdir. Onlarda insanların müxtəlif emosiyalı mənfi arzuları (nifrət duyğuları) ifadə olunur» (10, s. 50).

F.e.n. Cəlal Bəydili (Məmmədov) alqış və qarğışların magik gücü ilə bağlı yazmışdır: «Özünəməxsus janr göstəricisi olan alqış mətnlərinin kökləri mifoloji düşüncənin ilkin çağlarına bağlanır. Alqış metafora kimi görünsə belə, əslində, məcaz olmayan sözün bir nəsnəni yaratmaq, «həyata gətirmək» kimi bir gücü olduğuna dair əski mədəniyyətdəki ən arxaik mifoloji görüşlərin bir ifadəsidir» (11, s. 34). Alim qarğışlar haqqında qeyd edir ki, «qarğışlardan məqsəd sözün təsir gücündən yararlanaraq arzu olunan nəticəni əldə etməkdir. Qarğış mətnləri təsvir edilənlə arzu olunan hadisələr arasında paralelizm üzərində qurulur. Bu mətn formullarının başlıca cizgisi yaradana, təbiət qüvvələrinə və digər obyektlərə üz tutulması, onlara yalvarılması və ya onlardan bir şeyin olmasının istənməsidir» (11, s. 218-219).

Beləliklə, alqış və qarğışlarla bağlı səciyyəvi fikir nümunələrinin nəzərdən keçirilməsi göstərir ki, onlar əski mifoloji dünyagörüşü ilə bağlıdır. Əski oğuzların həyatında alqış və qarğışların xüsusi mövqeyi olmuşdur. Eposda «O, zamanda bəylərin alqışı alqış, qarğışı qarğış idi. Dualarını müstəcab olurdı» ifadəsi alqış və qarğışın qədim oğuz cəmiyyətinin həyatında çox böyük rol oynadığını göstərir. Oğuzların davranışlarının əsasında alqış qazanmaq, qarğışa tuş olmamaq dururdu. Bunu «hacətdiləmə» mərasimində aydın şəkildə müşahidə edirik. Oğuz cəmiyyətində övladsızlıq – oğlu-qızı olmamaq Tanrı qarğışına tuş gəlmək sayılırdı. Eləcə də qızı olanlar oğlanlarının olmamasını, oğlu olanlar qızlarının olmamasını Tanrı qarğışı sayırdılar. Bu cəhətdən belə hesab edirik ki, «hacətdiləmə» mərasiminin əsasında övladın istənilməsi bir nəticə olsa da, əsas məqsəd tanrı qarğışının götürülməsidir.

Yazımızın sonunda qeyd etmək istəyirik ki, oğuz rituallarının öyrənilməsi çox aktual məsələdir. Folklorşünas Ağaverdi Xəlilin yazdığı kimi, «oğuz boylarının yaşamının, həyat tərzinin sosial-mədəni ritmini təmin edən rituallar və ya onların bəzi elementləri mətnin (boyların) arxestrukturu olaraq aktual funksiya daşıyır. Bu mənada, mətnin ritual səviyyəsinin öyrənilməsi, təsviri və təhlili mətn strukturunun və süjetin arxetiplərinin müəyyənləşdirilməsi deməkdir» (12, s. 23). Bu isə öz növbəsində qorqudşünaslıqda yeni elmi sahə və səviyyə deməkdir.

## ƏDƏBİYYAT


1. Бейлис В.А. Теория ритуала в трудах Виктора Тернера / Тернер В. Символ и ритуал. М., 1983, с. 7-31.
2. Rzasoy S. «Kitabi Dədə Qorqud» süjetlərinin ritual-mifoloji semantikasından (eposun ilk boyu əsasında) / Kitabi-Dədə Qorqud (məqalələr toplusu). Bakı: Elm, 1999, s. 83-96.
3. Kitabi-Dədə Qorqud / F.Zeynalov və S.Əlizadə çapı. Bakı: Yazıçı, 1988, 265 s.
4. Abdulla K. Gizli «Dədə Qorqud». Bakı: Yazıçı, 1991, 152 s.
5. Abdullayev B. Haqqın səsi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1989, 144 s.
6. Абдуллаев В. Азербайджанский обрядовый фольклор и его поэтика. Баку: Elm, 1990, 120 s.
7. Nəbiyev A. Azərbaycan folklorunun janrları. Baku: ADU, 1983, 84 s.
8. Xalqımızın deyimləri və duyumları / Toplayıb yazıya alanı və tərtib edəni f.e.d. M.Həkimov. Bakı: Maarif, 1986, 392 s.
9. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1982, 430 s.
10. Qəniyev S. Şirvan folklor mühiti. Bakı: Ozan, 1997, 241 s.
11. Bəydili (Məmmədov) C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 s.
12. Xəlil A. Arxaik ritualın janra transformasiyasında motiv səviyyəsi («Kitabi-Dədə Qorqud» eposunun materialları səviyyəsində) / «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» V uluslararası folklor konfransının materialları. Bakı: Səda, 2007, s. 23-27.



**Магеррам Джафарли**


## ОБРЯД «ХАДЖЕТДИЛЕМЕ» В «КНИГЕ ДЕДЕ КОРКУТА»


В статье рассматривается один из описываемых в «Книге Деде Коркута» обрядов, называемый «Хаджетдилеме», то есть обращение к Богу с просьбой об исполнении желания, о ниспослании чего-либо. Исследования показывают, что главной целью этого обряда являлось избавление от Божьего проклятия. Ниспослание ребенка – это как бы следствие, а не причина обращения к Всевышнему, ибо бездетность, равно как и наличие детей только мужского или только женского пола, считалось у огузов проклятием Всевышнего.

**Maharram Jafarli**

## CEREMONY OF «HAJETDILEME» IN THE «KITABI-DADA GORGUD»

In the article the ceremony named «Hajetdileme» (asking for something. the Almighty) is explained not only as asking God for a child but also as a wish to be saved from God's damnation.

The main point is the reason not to be punished by God and the state of having a child is the result of God's mercy.

Investigations prove that beys (gentlemen) tried to avoid God's damnation by having a child.

Among the Oghuz tribes childlessness was considered as God's damnation. Having only male or only female children was also considered to be punished by the Almighty.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, filologiya e.d. Ə.A.Quliyev, filologiya e.d. A.Bağırov.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**MƏHSƏTİ İSMAYIL**
AMEA Naxçıvan Bölməsi

# «SARI GƏLİN» XALQ MAHNISININ ANADOLU TÜRKLƏRİNDƏ İŞLƏNƏN VARİANTLARIN TƏHLİLİ

Dünyada dil, din adət və ənənələrinə görə fərqlənən yüzlərcə xalqlar vardır. Bəşəri hiss və duyğular bu xalqları bir-birinə yaxınlaşdıran əsas amillərdən biridir. Hətta sivlizasiyadan uzaqda həyat sürən kiçik xalqlar belə məhəbbət, nifrət, qəzəb, şər, xeyir, gözəllik kimi hissləri duyur və müəyyən vasitələrlə ifadə edirlər. Ümumi insani keyfiyyətlərin, bəşəri hisslərin yalnız bir millətə aid olması fikri doğru deyildir. Heç bir xalq bəşəri hissləri digər millətlərə yaydığını iddia edə bilməz. Mədəniyyətlərarası fərqlər olduğu kimi, onlar arasında yaxınlığın da olması labüddür. Hər bir xalq öz həyat tərzinə, mədəniyyətinə, dininə, dünyabaxışına, yaşadığı coğrafi şəraitə uyğun folklor yaradır. Folklor nümunələrindəki fərqliliklər də buradan görünür.

Azərbaycan folklorşünaslığında problem məsələlərdən biri də özünü türklərə tarixi düşmən elan etmiş ermənilərin ərazi iddialarından əlavə mənəvi mədəniyyət nümunələrimizə, xüsusilə folklorumuza göz dikmələridir. Bu problemlərdən biri də «Sarı gəlin» xalq mahnısının sözləri və mənsubluğu üzərindədir. Bəlkə də burada çox sözə ehtiyac yoxdur. Mahnının musiqisi və ifa tərzi hər şeyi ortaya qoyur. Bu Azərbaycan xalq mahnılarının ritmlərinə uyğun olan bir ifadır. Yeri gəlmişkən qeyd etmək istəyirik ki, tarixən ermənilər Azərbaycan xalq mahnılarını ifa etməkdən xoşlanmış, türk dilinin erməni dilinə və musiqisinə böyük təsiri olmuşdur.

Qeyd etdiyimiz kimi, «Sarı gəlin» xalq mahnısının həm sözləri, həm də musiqi bəstəsi Azərbaycan xalqına məxsusdur. İkincisi, bu xalq mahnısının bir çox variantları Anadolu türklərində də var və əsasən azəri türklərinin yaşadığı Ərzurum, İrəvan və digər yerlərlə bağlıdır. Bu mahnı türklərin adətləri və mərasimləri ilə səsləşən notlar üzərində qurulmuşdur. El dilində səslənən xalq mahnısının müxtəlif variantları olan əfsanələri də var.

Türkiyə varintına görə: İslamiyyətin yayıldığı dönəmlərdə ərəb olan Şeyx Sənan adlı bir şəxs Çoruh vadisinə gəlir və bu vadidə yaşayan xristian bir bəyin sarışın qızına vurulur. Məlum olduğu kimi, xristianlıq Fələstində, yəni ərəblərin yaxınlığında yaranmışdı. Xristianlığı ilk yayanlar arasında

suriyalılar da var idi. Sasani şahı I Xosrovun arvadı Şirin suriyalı xristian olmuşdur. Odur ki, xristianlıq yalnız ermənilərlə bağlı deyil. Digər tərəfdən, antropoloji baxımdan ermənilər sarı da deyil.

Başqa bir varianta görə, «Sarı gəlinin» XVIII əsrin II yarısı və XIX əsrin başlanğıclarında yaşamış gözəlliyi dillərdə dastan olan bir Türk gözəlinə qoşulmuşdur. Lakin belə konkret ünvanlamalar şifahi xalq ədəbiyyatında fakt kimi götürülə bilməz. Çünki xalq mahnıları, oyun və havaları ümumi xarakter aldığı üçün orada zamana və şəxsə görə dəqiqləşdirmək mümkün olmur. Sarışın qıza aşiq olub dillərə düşən aşiq ümumiləşmiş bir obraza çevrilir.

Tarixçi Əhməd Rəfik bəy (Altunay) «Kafkas yollarında – Hatıralar və tahassüsler» adlı kitabında Qarsda olan belə bir əfsanə variantı vermişdir. (Əfsanə 1918 ildə Gölənin Okçu kəndində qeydə almışdır). Okçu kəndində olan Əli adlı bir türk dəliqanlısı kəndlərində yaşayan xristiyan qızını sevir. Səhərlər tarlaya gedəndə ardınca gedir. Axşamlar sürüləri aparanda yenə qızı seyr edərmiş. Bütün varlığı ilə qıza aşiq olan oğlan onun tapındığı xaçı görmək istəyi ilə bazar günü durub kilsəyə gedir. Bir tərəfdə durub sevgilisini və onun tapındığı xaçı, ayini seyr edir. Türküdə deyilir:

Vardım kilsəsinə baxdım xaçına,
Mail oldum bölük-pörçük saçına,
Qız seni götürem İslam içine.
Vay Sinan ölsün Sarı gelin.
Vardım kilsəsine qəndillər yanar,
Qıranta keşişlər pərvanə dönər.
Tərsa sevmiş deyin el beni qınar,
Vay Sinan ölsün Sarı Gəlin.
Seni saran neyler dünya malını,
Seni alan neyler dünya malını.

Türkünün Diyarbəkirdə, Ərzincanda, Ərzurumda oxunduğu haqda da məlumatlar verilmişdir.

Professor Fahrettin Kırzıoğlu «Kars tarixi» kitabında «Sarı gəlin» mahnısının azərbaycanlılar və Kür boyu yaşayan tərəkəmələr arasında yaydığını bildirmişdir. Alimin verdiyi əfsanə variantı eyniilə H.Cavidin əsərində olduğu kimidir. Lakin burada Xumar Tiflis kralı Davudun qızıdır. Sənan yeddi il sonra Xumarı İslam dininə gətirir və sevgililər birlikdə qaçırlar. Kralın adamları aşiqləri izləyirlər. Hər iki sevgilinin diləyi ilə yer yarılır, bir qapı açılır və içinə girib qeyb olurlar. Onların girdikləri yerdən qaynar su fışqırır. Qızına etdiyi qəddarlıqdan peşmançılıq duyan kral Davud da bu suyun üzərində «Əziz Davud» kilsəsi tikdirmişdir. Əfsanədə sevgililərin dilək diləməsi və diləyin yerinə yetirilməsi mövzusu ümumtürk əfsanələri üçün xarakterik motivdir. Yuxarıda deyilənlər türklərdə digər xalqlara din,

dil fərqi qoymadan onlara qarşı insanca davranış mədəniyyətinin olduğunu göstərir. Faktlar təsdiq edir ki, sevgi hissləri din və sərhəd tanımır.

Qars və Ərzurumda söylənən «Şeyx Sənan və kralın Sarı qızı» əfsanəsinin iki variantı vardır.

I variantda Əbdülqadir Qeylaninin dostu Şeyx Sənan bədduaya uğrayır və yolu Peneke düşür. Burada o Penek padşahının donuzlarını otarır. Donuz otarmaq şeyxin izzəti-nəfsinə toxunur. Şeyx Sənan padşahın Sarı qızına aşiq olur. Qızın isə bundan xəbəri olmur. Sənan Allaha yalvarır ki, qızın da könlünə onun eşq sevdasını salsın. Onun diləyi qəbul olur. Qız onu sevir və İslam dinin qəbul edir. Yeddi il çilə dolduran Şeyx bir gün Allahuəkbər dağlarından dəf səsi eşidir. Bu səs şeyxin çiləsinin dolduğuna işarə idi. Demək, dəfi Qeylaninin göndərdiyi 40 mücahid çalırmış. Şeyx və Sarı qız dağlara tərəf üz tutub getmiş, ordu da onları izləmişdir. Şeyxlə qız müridlərə çatanda kafir ordusu onlarla döyüşə başlayır. Qırx mürid şəhid olur. Ora indi «Qırxlar» və yaxud «Qırx şəhid məzarlığı» adlanır. Şeyxlə qız isə dağın təpəsində şəhid olur və ora hazırda ziyarətgahdır. Deyilənlərə görə, bura indi də müqəddəs yer kimi tanınır.

F.Kırzıoğlu Penekin Kitabi-Dədə Qorqud «Oğuznamə»lərində «Ban Hisarı» adı ilə bilinən yer olduğunu yazmışdır. Topladığımız məlumata görə, bu, hazırda Ərzurumun Şənqaya ilçəsinə aid bir kənddir.

II variantdakı əfsanədə isə Şeyx Sənan Əbdülqadir Qeylaninin müridi olur. Şeyxindən inciyir və ayrılır. Ərzurum və Oltu tərəflərə gedir. Burada tanış olduğu bir dərvişlə yola çıxır. Penek çayına çatanda dərviş Sənandan onu qarşı tərəfə keçirməyi istəyir. Sənan dərvişin istəyinə əməl etmir. Dərviş isə «məndən əsirgədiyin çiyinlərinə donuz balaları minsin» deyə bəddua edir. Xristian Penek bəyinin qonağı olduqları zaman Sənan bəyin gözəl qızına vurulur. Sonra da sarayda qalıb bəyin donuzlarına çobanlıq edir. Bundan sonra da hadisələr bildiyimiz kimi inkşaf edir.

Göründüyü kimi, bu motivlərdə erməni faktoru yoxdur. Bəs onda xristian bəy kimdir? Yaxud xristian deyəndə mütləq ermənilərmi nəzərdə tutulur. Prof. F.Kırzıoğlu «Sarı gəlin və Şeyx Sənan» əfsanəsinin XII əsrdə Quzey Qafqazdan gələn Ortodoks Kumanlarından (yəni Qıpçaqlar) qalması kimi qətiyyətli bir fikirlə də çıxış edir. Bildiyimiz kimi hazırda da bir qisim türklər xristian olaraq qalmaqdadırlar.

Digər bir tərəfdən, mahnı Ərzurum yörəsində belə oxunur:

Ərzurum çarşı pazar,
İçində bir kız gəzər.
Elinde divit kalem,
Katlime ferman yazar.
Palandöken yüce dağ,
Altı mor sümbüllü bağ.
Seni vermem ellere,

Niceki bu canım sağ.

(Mahnının sözləri qısa verilmişdir).

İrəvan variantında isə mahnı:

Sarı gelin, Sarı qız,
Etdin ömrüm yarı qız

nəqarəti ilə söylənir. F.Kırzıoğlu bildirmişdir ki, bu mahnı

Sarı kız, Sarı gəlin,
Dünyanın varı gəlin

nəqarəti ilə də oxunur.

Beləliklə, türklərə aid coğrafi ərazidə söylənən mahnının istər musiqi, istərsə də mətn etibarilə azsaylı ermənilərdən alınması qeyri- mümkün görünür. Musiqi və mətn aid olduğu xalqın həyat tərzini, dünyabaxışını ifadə edir.

Nakam eşq və məhəbbət xalq dilində insanların düşüncəsində hər zaman platonik dəyər qazanmış, daha çox tərənnüm edilmişdir. Azərbaycan variantındakı mahnının sözləri isə minillik tarixi olan bayatılardı. Fikrimizcə, bu sevgi əfsanəsinin folklorlaşma prosesindən keçmiş ən qədim nümunəsi elə Azərbaycan türkcəsində oxunan variantıdır.

Bülbüləm gül ayrısı,
Aşiqəm dil ayrısı.
Bir gününə dözməzdim,
Oldum illər ayrısı.

Bundan əlavə mahnının əvvəlində deyilir:

Saçın ucun hörməzlər,
Gülü sulu dərməzlər.
Bu sevda nə sevdadır,
Səni mənə verməzlər.

Etnoqraf alim H.Q.Qadirzadədən şifahi aldığımız məlumata görə, ərə gedib qayıtmış gəlinlərdə saçlarını tam hörməmək kimi bir adət varmış. Sonra mahnıda «səni mənə verməzlər» deyilir. Lakin diqqətimizi çəkən başqa bir məqam var. Gəlin olmuş qızı digər türk ailəsi subay oğlu üçün almaz. Məhz bu səbəblə də mahnı nakam, kədərli notlar üzərində köklənmişdir. Çünki bu ayrılıq əbədidir. Fikrimizcə, bu adət də ermənilərə xas deyil.

«Sarı gəlin»in Anadolunun quzeyində yaşamış türklərin bir qolu olan Qıpçaqlara – Kumanlara aid olması fikri də əsaslıdır. Həmçinin Kuman sözü sarışın mənasında işlənir. Qaynaqlara görə də qıpçaqlar gözəl və sarışın, mavi gözlü, yaraşıqlı olmuşlar.

Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsi H.Cavidin «Şeyx Sənan» əsərinin mövzusu da bu əfsanələrdən qaynaqlanır. Yazılı ədəbiyyatda işlənən, H.Cavidin yaratdığı əsərin mövzusunu təşkil edən «Şeyx

Sənan və Xumar» əfsanəsinin variantı üzərində durmaq ayrıca bir mövzudur və bu haqda gələcək tədqiqatlarda danışılacaqdır.

Bu mövzudan klassik şərq ədəbiyyatında da geniş bəhs olunmuşdur. Y.Əmrə, XII əsrin sonu, XIII əsrin əvvəllərində yaşamış Fəridəddin-i Əttarın «Məntuq ut teyr» (Mantıkut tayr) məsnəvisi «Şeyx Sənan» hekayəsi başlığı ilə verilmişdir. Sonra bu hekayə XIII əsrin sonu-XIV əsrin əvvəllərində yaşamış türk şair Süleyman Gülşəhrin «Fələknamə» əsərində «Dastan-i Abdürrəzzaq» fəslində, XIV əsrin II yarısında yazılan Sədinin «Fərhənknamə-i Sadi», Hafizin «Divanın»da və s. bir çox mənbələrdə bu şeyxdən və onun eşqindən söz açılır.

Cübbevü hırka tahtü tac bular versə gərəkdür ışka bac
Dördyüz müridü əlli hac tərk eylədi Abdürrazzak (Y.Əmrə).

Y.Əmrədə peyğəmbərin şəfaəti imdada yetişər. Qız bir yuxu görər və oyanınca da müsəlman olar. Göründüyü kimi, yazılı ədəbiyyatda işlənən bu variantın ermənilərə aidiyyatı yoxdur. Əfsanə motivlərindən də aydın olur ki, mövzu Türklərin, Qafqazın islamlaşması dönəmində geniş yayılmışdır. Erməni dilində söylənən mahnıda türk sözlərinin çoxluq təşkil etməsi bu mahnının onlara aid olmadığının bir daha sübutudur.

Musiqi insanları din, dil, mədəniyyət və s. keyfiyyətlərlə birləşdirən bir vasitədir. Xoş melodiya, ahəngdar ritm, xalq ruhunun ifadəsidir. Təbiətin səsi heç bir bəstəkarın bəstələmədiyi musiqidir. Təbii olanları duymaq isə bəşəri bir hisdir. Bu mahnı neylə ifa olunur. Ney geniş çöl və düzəngahdakı dağ yamaclarında dalğa-dalğa yellənən güllərin, çiçəklərin, və məhz orda hakim olan rüzgarın səsidir. Bir sözlə, musiqi bütün xalqlara, millətlərə aiddir. Amma yalnız dinləmək üçün başqalarının yaradıb, sahib olduqlarını oğurlamaq üçün yox. Nəticə olaraq «Sarı gəlin» xalq mahnısı, qaynaq etibarilə istər Anadolu, Qıpçaq, istərsə də Azəri türklərinə bağlı olub türk ruhunu, mədəniyyətini ifadə edir.

## ƏDƏBİYYAT


1. www. turkudostlari. net/ hikaye.
2. www. turkudostlari. net/ soz.
3. http://nedir, antoloji. com/ sarı-gelin.



**Мехсети Исмаил**


## АНАЛИЗ ВАРИАНТОВ НАРОДНОЙ ПЕСНИ «САРЫ ГЕЛИН», РАСПРОСТРАНЕННЫХ У АНАТОЛИЙСКИХ ТЮРКОВ


В статье на основе анализа вариантов народной песни «Сары гелин», распространенных у Анатолийских тюрков, определено, что песня

связана с образом жизни и мышления тюркских народов. Исследования показывают, что древнейшие варианты песни связаны с баяты, распространенными среди Азербайджанских тюрок. Сравнительное исследование легенд, собранных на разных территориях, доказывает, что источником песни были легенды, и эти песни отражают этнокультурные особенности, характерные для тюрков.

**Mehseti Ismayil**

## THE ANALYSIS OF VARIANTS OF THE NATIONAL SONG «SARY GELIN», WIDESPREAD AMONG THE ANATOLIAN TURKS

Basing on the analysis of variants of the national song «Sary Gelin», widespread among the Anatolian Turkis, it is determined in the article, that this song is connected with the way of life and thinking of Turkic peoples. Researches show, that the most ancient variants of the song are connected with the bayati, widespread among the Azerbaijan Turks. Comparative research of the legends collected in the different territories, proves, that a source of this song are legends, and these songs reflect ethno-cultural features, which are typical for Turks.

***Rəyçilər: Filologiya e.d. M.Cəfərli, filologiya e.n. F.Kazımova.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**RAFİQ BABAYEV**
AMEA Naxçıvan Bölməsi

# PAREMİOLOJİ VAHIDLƏRIN BƏZI ÖZÜNƏMƏXSUSLUQLARI

Paremilər tədqiqatlarda «deyim» kimi şərh edilir, dil, fikir, folklor hadisəsi kimi səciyyələndirilir, bu mətnlərin 60-dan çox məntiqi-semiotik konstruksiya tipini özündə birləşdirməsindən danışılır (7, s. 74, 78).

Xalqımızın qədim inam və etiqadları, həyata, dünyaya baxış dəyərləri, mentaliteti haqqında ən dolğun informasiya daşıyan (8, s. 132) paremilər öz funksiyası baxımından maraq doğurur. Naxçıvanda paremioloji fondun zənginliyi çox təbiidir. Kosmoloji dünyanın, tarixi-empirik zamanın poetik əksi olan bu mətnlərdə etnik düşüncə bütün genişliyi ilə reallaşıb.

Şəksiz ki, bu da «gerçəklikdən mətnədək olan proseslərin şərhini» vacib bir məsələ kimi ortaya qoyur (7, s. 85).

Ovsunların bəzən fal, tilsim, sehr və s. ilə eyniləşdirilməyindən, lakin onların şəkilcə də, məna, mahiyyətcə də fərqliliyindən bəhs edən filologiya elmləri doktoru Bəhlul Abdullayev yazır: «Nağıl və dastanlarımız üçün mühüm vasitə olan tilsimlər virdlə, lövhlə əlaqədardır və onu bilən, icra edən də, əsasən cadugərlərdir, şər qüvvələrdir. Ovsunlar isə bilavasitə insan, real həyat və cəmiyyət hadisələri ilə bağlı formada təzahür edir» ( 3, s. 110).

«Göygöz kosa» nağılında deyilir: «Göygöz kosa tez sehr oxudu. Qarşıda bir bağ peyda oldu. Qızlar bağı dolandılar. Məlik Məhəmmədin arvadı dedi:

– Məlik Məhəmməddən qorxuram, mən qayıdıram evə.

Göygöz kosa sehr oxudu, bağ çəkildi. Özüynən Məlik Məhəmmədin arvadı yoxa çıxdı. Ortancıl bacıyla kiçik bacı ağlaya-ağlaya qaldı. Axşam qardaşlar evə gəldi. Ortancıl bacıyla kiçik bacı ağlaya-ağlaya dedi:

– Abamızı Göygöz kosa apardı» (1, s. 216).

Sehrlə bağlı çoxlu motivdən biri «gözləri göy, dişləri seyrək, cadugər kosanın» adı ilə bağlıdır: deməli, şər qüvvə sehrin yardımı ilə fəallaşır, xeyirin təsiretmə imkanlarını heçə endirir.

Elə həmin nağılda tilsimdən də bəhs olunur: «Qız dedi:

– Məhəmməd, qorxma, dev zor gələmməz. Ancaq tilsimindən özünü gözlə» (1, s. 218).

«Kitabi-Dədə Qorqud»da Təpəgözün pəri anası gəlib oğlunun barmağına bir üzük keçirir, «sənə ox batmasın, tənini qılınc kəsməsin!» – deyir (9, s. 114). Beləliklə, ana oğlunu tilsimləyir, Basatın Təpəgözü öldürdüyü qınsız qılınc da, görünür ki, tilsimlidir.

Deməli:

– Tilsim bütün variantlarda şərə qulluq edir;

– Tilsimin köməyi ilə şər qüvvə xeyirlə mübarizədə qeyri-adi imkanlara malik olur;

– Şər qeyri-adi imkanları ilə xeyir qüvvəni tilsimə salır.

«Şahzadə Seyfəddin» nağılında deyilir: «Qız dedi:

– O balaca pərdənin dalında bir şüşə var. O şüşənin içində göyərçin var, bu, divin canıdı.

Oğlan tez ovsun oxudu, pərdə açıldı. Oğlan tez şüşəni yerə çırpıb göyərçinin başını üzdü» (1, s. 145).

Ovsunlardan isə çox vaxt fəlakətdən, çətinliklərdən, şərdən qorunmaq üçün istifadə olunur. Məhz bu səbəbdən müxtəlif sahələrdə, müxtəlif məqsədlərlə ovsunların «köməyinə» ehtiyac duyulur.

«Söz əsas və başlıca meyar olan ovsunda» (3, s. 111) sınaqların izlərinə də təsadüf edilir.

Qəcələni daşla qovmazlar, yoxsa bədbəxtlik olar. Onu xoş dindirsən, könlünü alsan, hər şey xeyirliyə olar.

Bir ovsunda deyilir ki, heyvan-zad çöldə qalanda qurdun ağzını bağlayırlar. Bu zaman qara bıçağı götürüb, üç dəfə püfləyir, dua oxuyur, hər duadan sonra ağzını bir az qatlayırsan. Bıçağı təmiz qatlayandan sonra deyirsən:

Yağladım,
Zağladım.
Qurdun ağzın
Bağladım (1, s. 63).

Deməli, bu mətnlərdə birinci tərəf (ovsunçu) fəaldır, vasitə (ovsun) əsas səbəbdir, ikinci tərəf (ovsunlanan) aktivliyi heçə endiriləndir.

Oppozisiya tərəfləri, xeyirlə şər mübarizəsinin xarakteri, mahiyyət, vasitələr tamamilə fərqli olsa da, Naxçıvanda qorxulu ilanların qarşılaşdığı adamı ovsunlaması barədə söylənilənlər maraq doğurur.

Guya ilan adama «nəzər salanda», «ovsunlayanda» o, hərəkətsiz qalır, şüurunu itirir, heç bir fəaliyyət göstərə bilmir.

Doğrudur, bu zaman ilan pisliyin, şərin, mənfiliyin timsalıdır. O, yamanlıq edir, faciə, vahimə yaradır; ancaq bu zaman ovsun mətnlərindən istifadə edilmir. Hadisəni ilandakı vahimə reallaşdırır.

Göründüyü kimi, bölgədə bunu ilanın adamı ovsunlaması adlandıranda müəyyən cəhətləri nəzərə alırlar.

Belə ki, hər iki variantda nəticə oxşardır: ikinci tərəf (ovsunlanan) aktivlikdən düşür: «Şər xəbər» gətirən qəcələnin «qıçı sınır», şər missiyasının icraçısına çevrilə bilmir; yamanlıq edəcək qurdun ağzı bıçağın ağzı kimi bağlanır və s.

Naxçıvanda öz mahiyyəti, işlənmə yerlərinin genişliyi ilə bağlı ovsunların zəngin sistemi formalaşıb.

Son illər araşdırmalarda yeni janrlardan bəhs olunması paremioloji fondun qeyri-adi zənginliyini nümayiş etdirir.

Andlar, yalvarışlar, alqışlar və qarğışların son 10-15 ildə folklor məcmuələrinə daxil edilməsi lazımlı, əhəmiyyətli bir iş kimi qiymətləndirilir ( 2, s. 19).

Alqış və qarğışları adamların arzu və istəklərinin həyata keçəcəyinə inamı ilə bağlayan Bəhlul Abdullayev həm də «alqış» və «qarğış»ın söz, ifadə kimi yaranmasından, formalaşmasından bəhs edir (3, s. 118, 120).

Məhsəti İsmayılın «Xalq yaddaşının izləri» (6, s. 84) kitabında Şahbuz rayonundan toplanmış «Alqışlar»dan nümunələr verilmişdir.

Adil Bağırovun «Naxçıvanın hikmət xəzinəsindən» kitabında ilk dəfə olaraq «Peşimanlamalar», «Yalvarışlar» adlı bölmələr təqdim olunmuşdur (5, s. 83).

Folklor informasiyasında semantikası, qəlib tipi ilə seçilən, lakin nədənsə nəzəri cəlb etməyən paremioloji vahidlər də az deyil.

Sual cümləsi şəklində qurulan, cavabı «yox» və ya cümlənin təkrarı ilə gerçəkləşən bu deyimlər də avtonom status qazanıblar.

Çingiz Aytmatovun «Ağ gəmi» əsərindəki bir nəğmə öz quruluşu ilə həmin deyimləri xatırladır:

Səndən enli bir çay varmı, Enesay?
Səndən əziz məkan varmı, Enesay?
Səndən dərin bir dərd varmı, Enesay?
Səndən azad, söylə, varmı, Enesay?

Sual cümlələrindən istifadədə müəllifin niyyəti nəyisə soruşmaq, müəyyənləşdirmək, müqayisədən nəyisə qətiləşdirmək, bir nəticəyə gəlmək yox, poetik zirvədən Enesaydan enli, əziz məkan, «dərin bir dərdli», azad çay olmadığını bəyan etməkdir:

Səndən enli bir çay yoxdur, Enesay,
Səndən əziz məkan yoxdur, Enesay.
Səndən ağır başqa dərd yox, Enesay,
Səndən azad azadlıq yox, Enesay (4, s. 380).

Barəsində danışdığımız deyimlər struktur baxımından bu nümunə ilə səsləşsələr də, mənaca tamamilə fərqlidirlər. Onların məzmununda dərin bir narazılıq, ironiya, özünü alçaldılmaqdan qoruma niyyəti çox güclüdür.

Onların əksəriyyətini izlədikcə bir cəhəti də müşahidə edirsən: «Poetik formaların inkişaf tarixi boyunca onun nüvəsində dayanan mifoloji forma – arxeforma daşlaşmaqla, sxemləşməklə davam etmişdir» (11, s. 115).

Dalınca qırmızı alma göndərmişdim?
Göydən zənbilinən düşmüsən?
Mən yerdən çıxmışam?
Kürün iki atı var, niyə ikisi də ayğırdı?
Sənin qaş-gözün qaradı?
Niyə mənim iki buynuzum var?
Dəlinin başında palıd ağacı olur?
Səni ana doğub, məni dana?
Sən niyə qaragöz inəyin balasısan?
Keçəl başıma zif salmısan? və s.

Göründüyü kimi, cavab sualın nüvəsindədir, hər şey bəlli olduğundan nəyisə soruşmaq lazım da deyil. Suallardan istifadədə məqsəd təsdiqlənmə, bəyanlanma aktının təsir gücünü daha da artırmaq, çatdırılan fikri daha da qabartmaqdır:

Dalınca qırmızı alma göndərmişdim?
(Yox).
(Dalınca qırmızı alma göndərməmişdim).
Göydən zənbilinən düşmüsən?
(Yox).
(Göydən zənbilinən düşməmisən) və s.

Bu vahidlərin nəzarətində olduğu formulların qayda-qanunları ilə idarəsi göz qabağındadır.

İlkin stixiyanı simvollaşdıran obrazlara bu deyimlərdə sıx-sıx rast gəlirik. Ağac, dağ, su obrazlarını bədii söz sakral aləmdən gətirib. Niyə məhz «dalınca qırmızı alma göndərmişdim» deyilir? Qocanı cavanlaşdırmaq funksiyasından başqa, «nağıl və dastanlarımızda hətta alma insanı dünyaya gətirən vasitə kimi göstərilir» (10, s. 71).

«Göydən zənbillə düşmə», «yerdən çıxmışam» deyimlərində, bizcə, xeyir (göy), şər (yeraltı) simvollaşdırılır.

Çingiz Aytmatovun «Gün var əsrə bərabər» romanındakı məşhur manqurt əfsanəsində deyilir ki, əvvəlcə əsirlərin başını qırxırmışlar, sonra dəvənin dərisini (zifi) onların başına keçirib, manqurt edirmişlər.

«Keçəl başıma zif salmısan?» deyimində də eyni struktur-semantik mahiyyət var.

Başın qırxılması (keçəllik), dəvənin dərisi (zif) manqurtluğun yaradılması üçün hazırlıq tədbirləridir.

Bu tipli paremioloji vahidlər sorğu şəklində formalaşsa da, göründüyü kimi, onların nüvəsində təsdiqləmələr, bəyanlamalar dayanır.

Naxçıvan folklor mühitində geniş yayılan bu təsdiqləmə və bəyanlamalar iki yolla reallaşır:

1. Ayrıca sintaktik vahidlər kimi.
2. Mətnlər daxilində.

Bütün bunlar sübut edir ki, paremioloji fonda bölgənin folklor mühitində həssas münasibəti, ilk növbədə, mifoloji təsəvvür və görüşlərin genişliyi formalaşdırıb.

## ƏDƏBİYYAT


1. Azərbaycan folkloru antologiyası. I kitab (Naxçıvan folkloru), Bakı: Sabah, 1994, 388 s.
2. Azərbaycan folkloru antologiyası. VI kitab (Şəki folkloru): 2 cilddə, I c., Bakı: Səda, 2002, 495 s.
3. Abdullayev B. Azərbaycan folklorunun qədim janrlarından / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VI kitab, Bakı: Elm, 1981, s. 90-135.
4. Aytmatov Ç. Gün var əsrə bərabər. Bakı: Yazıçı, 1987, 446 s.
5. Bağırov A. Naxçıvanın hikmət xəzinəsindən. Bakı: Nurlan, 2007, 240 s.
6. Xalq yaddaşının izləri / Toplayanı və nəşrə hazırlayanı M.İsmayıl. Bakı: Elm, 2005, 144 s.
7. Xəlil A. «Divani lüğat-it türk»ün paremioloji fondu və tərkib elementləri / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XVI kitab, Bakı: Səda, 2005, s. 89-93.
8. İsmayılov H. Azərbaycan folklorunun regional xüsusiyyətləri. Bakı: Səda, 2006, 336 s.
9. Kitabi-Dədə Qorqud. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1962, 176 s.
10. Qafarlı A. Mif və nağıl: Epik ənənədə janrlararası əlaqə. Bakı: ADPU nəşriyyatı, 1999, 448 s.
11. Rzasoy S. Oğuz paremioloji vahidlərinin mifoloji-funksional semantikası / Struktur-semiotik araşdırmalar. Toplu, Bakı: Səda, 2002, №2, s. 99-127.



**Рафик Бабаев**


## САМОБЫТНОСТЬ ПАРЕМИОЛОГИЧЕСКИХ ЕДИНИЦ


В статье говорится о самобытных паремиологических единицах, отражающих разные стороны народного бытия, такие как поверья, присловья, заклинания, заговоры и т. п.

Кроме того, всесторонне анализировано построение присловий в форме вопросительных предложений, ответ на которые определяется словом «нет», или повторением предложения.

В результате выявлены разные языковые особенности.

**Rafig Babayev**

**ORIGINALITY OF PAREMIOLOGICAL UNITS**

The article deals with some original features of paremiological units which involve detailed information connected with different sides of the people's life, such as beliefs, sayings, spells, incantations etc.

The sayings constructed in the form of interrogative sentences are also investigated in detail, answer of them is determined by the word «no» or the repetition of the sentence.

As a result, various linguistic peculiarities are revealed.

***Rəyçilər: Filologiya e.n. F.Kazımova, filologiya e.d. M.Cəfərli.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**NAZİRƏ ƏSGƏROVA**
AMEA Naxçıvan Bölməsi

# BAYATILARIN JANR XÜSUSİYYƏTLƏRİ

Azərbaycan folklorunda başqa janrlar kimi, bayatılar da qədim və zəngin mədəniyyətin izlərini yaşadır. Bayatı Azərbaycan folklorunun qədim janrlarındandır. Xalq həyatının bütün sahələrini özündə əks etdirən oynaq, dərin məzmunlu, yüksək fəlsəfi fikirlərlə zəngin bayatılar bütün türkdilli xalqların şifahi və yazılı ədəbiyyatında özünə layiqli yer tutmuşdur.

Məlumdur ki, Azərbaycan folklorunda dörd misralı, yeddi hecalı şeir başqa türk xalqlarından fərqli olaraq bayatı adlanır. «Bayatı» sözünü tədqiqatçılar Oğuzların Bayat qəbiləsinin adı ilə bağlayırlar. Bizcə, prof. V.Vəliyevin dediyi kimi, qəbilə adından əvvəl bu söz tanrı adı daşımışdır. Oğuz xanın nəvələrindən birinin adı da Bayat olmuşdur. Əvvəl Tanrı, sonra şəxs və qəbilə adı daşımış «Bayat» sözü nəticədə şifahi poeziyada xalq şeri adına çevrilmişdir. Bayat tayfası Oğuzun başqa tayfaları ilə müqayisədə musiqiyə, şeirə, sənətə daha çox bağlı olmuşdur. Çox güman ki, vaxtı ilə tanrı adı olan «Bayat» sözü zaman keçdikcə konkret adam adı kimi formalaşmış, sonra isə qəbilə adında sabitləşmişdir (8, s. 124).

Bayatıların böyük əksəriyyəti el yaradıcılığının məhsuludur. Fikrimizcə, hər hansı bir folklor nümunəsi ilk öncə bir nəfər tərəfindən yaradılır, sonra həmin nümunə dildən-dilə, eldən-elə gəzib dolaşaraq tədricən müəyyən dəyişikliklərə uğrayır, durulur, cilalanır, son nəticədə bir adamın yox, bütöv xalqın yaradıcılığına çevrilir.

Naxçıvan regionunun bayatılarında bu elin insanların vətən, yurd, el-oba haqqında düşüncələri də öz əksini tapmışdır. Bu baxımdan sərhədboyu axan və cənubla şimal arasında sərhəd olan Araz çayının adı bu regionun bayatılarında çəkilir. Arazla bağlı bayatılar özünəməxsusluqları, region xüsusiyyətləri ilə seçilir.

Arazım çağlar axar,
Dörd yanı bağlar axar.
Əlim suyuna çatmaz,
Sinəmi dağlar axar (1, s. 287).

Başqa bir bayatıda:

Arazım aran yeri

Sızıldar yaram yeri
Hər möhlətə dözərəm
Kəsilib çarəm yeri (7, s. 113).

Bu nümunələrdə Arazın sərhəd edilərək Azərbaycanın iki yerə bölünməsi, insanın, xalqın bundan doğan kədər hissləri əks olunmuşdur.

Diqqəti cəlb edən başlıca cəhətlərdən biri budur ki, Araz çayının adı bayatılarda daha çox ikiyə bölünmüş vətənin, ayrılığın rəmzi kimi işləndiyi halda, bəzi bayatılarda bu obrazın məna tutumu çox genişdir.

Aşağıdakı bayatını nəzərdən keçirək:

Araz deyiləm, daşam,
Qum deyiləm qaynaşam,
Apar zərgər yanına,
Gör nə qiymətli daşam! (1, s. 274)

Burada Araz obrazı insanın qədir-qiymətinin, onun mənəvi-fiziki gözəlliklərinin məhək daşı – müqayisə obyekti obrazında çıxış edir.

Başqa bir bayatıda deyilir:

Araz üstə nanəyəm,
Yel, əsmə, pərvanəyəm.
Üç ildi yarım gedib
Həsrətdən divanəyəm (1, s. 282).

Bu bayatıda isə Araz dərin məhəbbətlə sevən, sevgilisinin yolunda hər cür cəfalara dözməyə hazır olan, eyni zamanda öz eşqinin səmimiliyini sübut etməyə ehtiyacı olan aşığın qəlb çırpıntılarını təcəssüm etdirən obrazdır. Beləliklə, folklorşünas Məhərrəm Cəfərlinin qeyd etdiyi kimi, Araz Naxçıvan bayatı folklorunda həm də ayrılığın simvoludur. Bu ayrılıq məhəbbət ayrılığı da ola bilər, vətən ayrılığı da. Aşağıdakı bayatıda Araz birbaşa vətən ayrılığının simvoludur. Burada o, bir ayrılıq rəmzi kimi bütün ağrı-acıları rəmzləndirir. Anasından ayrılan lirik qəhrəman öz dərdi ilə ayrılıq simvolu olan Arazla «həmdərd olur» (3, s. 110).

Arazı ayırdılar
Qumunan qayırdılar,
Mənim nə vədəm idi,
Anamdan ayırdılar (2, s. 276).

Naxçıvandan toplanmış bayatıların bədii özünəməxsusluğunun əsas qaynaqlarından biri onların regional-məhəlli cizgiləri ilə bağlıdır. Bu bayatıların özünəməxsusluğunun əsas xüsusiyyətlərindən biri regionun el-obasının, kənd-qəsəbələrinin, dağlarının, çaylarının və s. barəsində söz açılmasıdır.

Naxçıvanın duz dağı,
Duz təpəsi, duz dağı,
Çəkdi yar sinəm üstə,
Dağ üstündən yüz dağı (1, s. 104).

Başqa bir bayatıda:

Əsafkəf ocaq-caq
Orda şamlar yanacaq,
Xoş o qızın halına
Sevdiyinin olacaq (1, s. 104).

Başqa bir bayatıda:

Asafkəf ocağında,
Şam yanar bucağında.
Burdan bir gəlin keçdi,
Ağ oğlan qucağında (7, s. 93).

«Asəfkəf» adı müqəddəs «Quran»da çəkilən ocaqdır, ora niyyətlə, diləklə gəlirlər. Deməli, uşaq diləyi ilə üz tutan gəlinə «ocaq sahibi» kömək edib – onun qucağında indi «ağ oğlan» var. «Ağ» təmizlik, müqəddəslik, xoşbəxtlik, ucalan, yüksələn anlamlarında işlənir. «Asəfkəf»in köməyi ilə doğulan oğlan müqəddəsliyə qovuşub, kimlərəsə xoşbəxtlik gətirib (2, s. 91).

Azərbaycan folklorunun yeni nümunələri, mətnləri məhz torpaq itkisi ilə qarşılaşdığımız hadisələrlə bağlı yarandı və yaşamaqdadır. Milli azadlıq mübarizəsinə mənəvi yüksəkliyə üz tutan azərbaycanlılar şəhidə ağı, bayatı ilə məzar laylasını çalmaqdadır. Bu növ nümunələr ona görə seçilir ki, orada müharibənin, itkinin adı, zamanı, ünvanı var. Babək rayonunun Nehrəm kənd sakini Hacıyeva Fatma Qəmbər qızından qeydə adlığımız nümunələri nəzərdən keçirək:

Əzizinəm nəs illər,
Nəs aylar, nəs illər
Xocalı çıxmaz yaddan
Keçsə neçə nəsillər.

Göründüyü kimi, fərdi yaradıcılıq burada özünü qabarıq büruzə verir. Nümunənin yaranma tarixi bəllidir. Başqa bir nümunədə isə deyilir:

Eşidin, ey insanlar,
Qəlbim od tutub yanır.
Bütün dərdlər unudulsa da,
Yaddan çıxmaz iyirmi yanvar.

Bu bayatılar günümüzdəki insanların düşüncə tərzinin məhsuludur. Mühit və şərait düşüncəni formalaşdırdığı kimi də əks olunur. Demək keçmişdə də, bu gün də insanlar yaşadığı, gördüyü hadisələri sözlə ifadə edir. Sanki zaman şifahi nitqdə özünü gələcəyə tanıtdırır.

Bayatıların yaranma yolları da müxtəlif olmuşdur. Hər şeydən əvvəl, bunlar Azərbaycan xalqının mübarizəsi tarixi, həyat və məişəti ilə əlaqədar meydana gəlmişdir (4, s. 17).

Bayatılarda vətənə, yurd, yuvaya bağlılıq, qürbətə, qəribliyə dözümsüzlük qabarıq yer tutur.

Qürbətə düşdü yolum
Düşmən oldu sağ-solum.
Eldən ayrı düşəli,
Buxovlandı əl qolum (1, s. 114).

Başqa bir bayatıda

Qəribəm bu vətəndə
Gözüm yoldan ötəndə,
Könlüm bir qardaş istər,
Baş yastığa yetəndə (1, s. 271).

Qürbətə, qəribliyə dözümsüzlük motivi daşıyan bayatılar dolayısı ilə vətən torpağına sevginin, ana yurda bağlılığın da ifadəçisidir.

Bayatıların özünəməxsus xüsusiyyətlərindən biri insanın lirik-psixoloji ovqatının təbiət, əşya və hadisələri üzərinə köçürülməsi yolu ilə ifadəsidir.

Corabın ağına bax,
Dəstədə bağına bax
Mən yadına düşəndə
Naxçıvan dağına bax ( 1, s. 278).

Bayatılar insanların psixologiyasında mənəvi istəklərinin ödənilməsində mühüm yer tutur. Bayatı türk etnopsixologiyasındakı lirizmi, humanizmi, kövrəkliyi, geniş ürəkliliyi, səmimiyyəti və məhəbbəti sonsuz sayda çalarlarla əks etdirən könül güzgüsü və duyğu dünyasıdır (6, s. 49).

Bayatılarda qafiyə sistemi əsasən üçlük ahəngindən ibarət olur. İlk iki misra və dördüncü misra qafiyələnir, üçüncü misra sərbəst buraxılır.

Ümumiyyətlə, bayatılarda qafiyə məsələsinə son dərəcə həsasslıqla yanaşıldığı duyulmaqdadır. Bu bir tərəfdən, qafiyənin önəmli rol oynamasından, ikinci tərəfdən də oynaq, axıcı qafiyələrin mətnə emosional-üslubi təravət aşılaya bilməsindən irəli gəlir. Odur ki, bayatılarda misralararası əlaqəni mükəmməlləşdirən, mətn bütövlüyünü tənzimləyən qafiyə rəngarəngliyinə və əlvanlığına ayrıca diqqət yetirilmişdir.

Dildən-dilə, nəsildən-nəsilə adlayan bayatılar xalqın yaddaşında yüz illər boyunca yaşayaraq uzun bir tarixi yol keçmişdir. Bu folklor örnəyinin azmisralı və azhecalı olması onun asanlıqla yadda saxlanılmasına, yayılmasına imkan açmışdır. Bayatıların melodik avazlı söylənilməsi də onun bədii nüfuzetmə gücünün artmasında mühüm amil olmuşdur. Bayatı heç də bütün vəziyyətlərdə deyil, müəyyən bir lirik-psixoloji ovqatın yaranmış olduğu situasiyada söylənilir. Mətnin hansı əhvalla, hansı coğrafi şəraitdə, ilin hansı çağında, kimlərin əhatəsində və nə münasibətlə söylənilməsi bayatının həqiqi və bütöv folklor görkəmi üçün çox mühüm şərtdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. Bakı: Sabah, 1994, 375 s.
2. Babayev R. Naxçıvan folkloru: Bəşərilik, türklük, regionallıq. Bakı: Nurlan, 2008, 143 s.
3. Cəfərli M. Folklor və etnik-milli şüur. Bakı: Elm, 2006, 126 s.
4. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1981,407 s.
5. Xalq yaddaşının izləri. Bakı: Elm, 2005, 141 s.
6. Qasımlı M. Bayatı dünyası // Folklor və etnoqrafiya, 2004, № 4, s. 42-54.
7. Naxçıvan folkloru. Bakı: Nurlan, 2007, 248 s.
8. Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985, 413 s.



**Назирэ Аскерова**


## ЖАНРОВЫЕ ОСОБЕННОСТИ БАЯТЫ


В статье исследованы жанровые особенности баяты. В баяты нашли выражение невыносимость пребывания на чужбине, любовь к родине, к своей земле, морально-психологические потребности людей.

Баяты говорятся в определенных лирико-психологических ситуациях, на выразительность баяты оказывают влияние такие факторы, как настроение людей, время года, окружение и местонахождение исполнителей.



**Nazira Asgarova**


## GENRE RECULIARITIES OF BAYATI (A GENRE OF THE ORAL FOLK POETRY)


In the article genre peculiarities of bayati are investigated. Unbearableness of staying in a foreign land, love to the mother country, moral and psychological needs of the people have found their reflection in bayati.

Bayati are said in certain lyric-psychological situations, the expressiveness of bayati is influenced by such factors, as people's mood, a season, an environment and location of a performer.



***Rəyçilər: Filologiya e.d. M.Cəfərli, filologiya e.n. F.Kazımova.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**FƏXRƏDDİN EYLAZOV**
AMEA Naxçıvan Bölməsi

# XV ƏSR AZƏRBAYCAN TƏRCÜMƏ ABİDƏSİ «GÜLŞƏNİ-RAZ»IN ORFOQRAFİK XÜSUSİYYƏTLƏRİ HAQQINDA

Məlumdur ki, ərəb qrafikasının təbiətindən doğan ümumi çətinliklər orta əsrlərdə Azərbaycan dilində yazılmış əsərlərin fonetik tərkibinin, eləcə də orfoepik normalarının aydınlaşdırılmasına xeyli əngəl törədir. Buna görə də diakritik işarələr düzülmüş, hərəkələnmiş əlyazma nüsxələri çox maraqlıdır.

Qeyd etmək lazımdır ki, bu və ya digər müəllifin əsərləri, onun dil və üslub xüsusiyyətləri, tələffüz və imla normaları haqqında düzgün nəticə çıxarmaq üçün mötəbər mənbə şairin avtoqrafı olmalıdır. Lakin Orta əsr Azərbaycan müəlliflərinin avtoqraf nüsxələri çox nadir hallarda əldə edilə bilər. Ona görə də orta əsrlərdə yaşayıb yaradan Azərbaycan müəlliflərinin imla-tələffüz xüsusiyyətlərindən danışmaq xeyli çətinləşir. Bu müəlliflərin əsərləri müxtəlif ərazidə yaşayan, bir-birindən fərqli yazı və xətt üslubuna malik olan, ayrı-ayrı xəttatlıq məktəblərinə mənsub nasixlər tərəfindən köçürüldüyü üçün tələffüz və imla xüsusiyyətlərinə görə əsl müəllif dilindən fərqlənir. Eyni zamanda əlyazma nüsxələrinin imlasının öyrənilməsi dil tarixi üçün çox əhəmiyyətlidir. Çünki əlyazmalarının imlası müəllifin öz dilindən fərqli olsa da, o dövrün dil və imla xüsusiyyətlərini öyrənməyə faktik material verir. Deməli, XV əsr tərcümə abidəsi «Gülşəni-raz»ın imlasından danışdıqda şairin öz şəxsi yazı tərzi, onun tələffüzü haqqında deyil, məhz əlyazmasının xüsusiyyətləri barəsində mülahizə yürüdülür. Bu da öz növbəsində nüsxənin yarandığı dövrün, yəni XV əsr Azərbaycan yazısının müəyyən ənənəyə malik imla xüsusiyyətlərini əks etdirən bir abidə kimi tədqiq olunur (1, s. 64).

«Gülşəni raz»ın əlyazma nüsxələrində əksərən Azərbaycan sözləri ərəb dili qaydalarına, ərəb imlasının tələblərinə müvafiq şəkildə yazılmış, sait səslər, demək olar ki, qeyd edilməmişdir. Nüsxədə saitlərin verilməsi üçün əsas vasitə hərəkələr olmuşdur. Onlar mətnin oxunuşuna, sözlərin tələffüzünə yardım etsələr də, səslərin fonetik vəzifələrini müəyyənləşdirmək, dilimizin 500-600 il bundan əvvəlki fonetik qanunlarını, səs tərkibini tam, dürüst aydınlaşdırmaqda həlledici rol oynaya bilmirlər. Odur ki, ərəb qra-

fikasının xüsusiyyətlərinə əsasən, ümumiyyətlə, türk dilləri, eləcə də Azərbaycan dilinin səslərinin keyfiyyəti və məxrəci, bu dilin sözlərinin tələffüzü və həmin tələffüzdə gözə çarpan sabitlik və qanunauyğunluq haqqında irəli sürülən mülahizə və çıxarılan nəticələr, şübhəsizdir ki, təqribi xarakter daşıya bilər.

«Gülşəni raz»ın əlyazması peşəkar xəttat tərəfindən aydın, oxunaqlı və gözəl nəsxlə köçürülmüşdür. Lakin nüsxədə gözə çarpan imla və qrafika müxtəlifliyi həmin əlyazmasının ayrı-ayrı dövrlərdə yazılmış nüsxələrdən köçürüldüyünü deməyə imkan verir. Ona görə də əlyazmasında vahid orfoqrafiya qaydalarına riayət edilməmiş, başqa-başqa vaxtlarda köçürüldüyü üçün müxtəlif imla xüsusiyyətləri saxlanılmışdır.

Orta əsrlərin anadilli yazılı abidələri, o sıradan tərcümə abidələri üzərindəki müşahidələr göstərir ki, onları səciyyəvi qrafik-orfoqrafik xüsusiyyətləri baxımından iki qrupa bölmək olar:

1. Klassik ərəb yazı üsuluna daha çox meyilli olan, yəni ərəb mətnlərində olduğu kimi, qısa saitləri əsasən hərəkələrlə bildirən əlyazmalar. Belə əlyazmaların iki başlıca səciyyəvi xüsusiyyəti var: a) ərəb mətnləri kimi, nəsx xətti ilə köçürülmələr və hərəkəli olmaları, b) «sağır nun»un əsasən ک «kaf» hərfi ilə ifadə olunması.

2. Ərəb əlifbasını türk mətnlərinə uyğunlaşdırmağa meyilli olan, yəni ərəb mətnlərindən fərqli olaraq, qısa saitləri də hərflərlə bildirən əlyazmalar. Bu qrupa aid əlyazmaların da iki başlıca səciyyəvi xüsusiyyəti var: a) nəstəliq xətti ilə yazılmaları; b) «sağır nun»un əsasən نک «nun» + «kaf» diqrafı ilə ifadə olunması.

1-ci qrup əlyazmaların əksəriyyəti üçün daha bir səciyyəvi cəhət onların Osmanlı Türkiyəsi ərazisində köçürülməsidir. 2-ci qrup əlyazmalar isə əsasən Azərbaycan ərazisində hazırlanmışdır (2, s. 20-21).

«Gülşəni raz» tərcüməsinin Sankt-Peterburq əlyazmasının mətni bütövlükdə hərəkələnmişdir. Katib qısa sait səsləri, bir az qayda olaraq, hərəkə ilə ifadə etmişdir. «Sağır nun» əlyazmada yalnız «kaf» hərfi ilə ifadə olunmuşdur.

Əlyazmanın səciyyəvi qrafik-orfoqrafik xüsusiyyətlərindən biri sağır (kar) «n» səsinin ifadəsi ilə bağlıdır. Katib bu səsi bildirmək üçün yalnız «kaf» hərfindən istifadə etsə də, ayrı-ayrı hallarda onun üzərində üç nöqtə qoymağı da lazım bilmişdir: اوڭ «ön», طاڭى «tan,ı», آڭا «an,a», صوڭى «son,ı» və s. Katib bəzi hallarda «g» səsini bildirmək üçün də «kaf» hərfinin üstündə üç nöqtə qoymuşdur: ڭوڭدن «gögdən», ڭوڭل «gönül». Qeyd edək ki, bu sözlər əlyazmada daha çox adi kafla yazılmışdır (3, s. 12).

Əlyazmanın daha bir səciyyəvi orfoqrafik xüsusiyyəti ayrı-ayrı sözlərin sonundakı «ı», «i» səslərinin «ya» hərfi ilə yox, hərəkə ilə ifadə olunmasıdır. Bu hal istər türk sözlərinin, istərsə də ərəb sözlərinin yazılışında

müşahidə olunur. Məsələn, آچدی «açdı», قوش «quşı», اوتدی «etdi», آلتی «altı», حجابی «hicabı», وجودی «vücudi» və s (4, s. 23, 42, 51).

Əlyazmada bir nümunədə söz sonunda «ə» səsinin kəsrə ilə ifadə olunmasına təsadüf etdik: یردَ «yerdə».

Nüsxənin səciyyəvi imla xüsusiyyətləri sırasında bəzi ərəb və fars sözlərinin fərqli şəkildə yazılmasını da göstərmək olar. Məsələn, بزرک «bozorq» (böyük) əvəzinə بزروک, ورق «vərəq» əvəzinə ورەغی, قدرت «qüdrət» əvəzinə قدرتینی, صورت «sürət» əvəzinə صورتینی, قوت «qüvvət» əvəzinə قوەتینی, تماشا «təmaşa» əvəzinə تماشه, دکان «dokan» əvəzinə دوکن və s. Göründüyü kimi, bu sözlərdən ورق, قدرت, صورت, قوت ənənəvi yazılışından tərkiblərindəki «ə» səsinin «ha» hərfi ilə ifadə olunmaları ilə seçilir (5, s. 28-30).

Əlyazmada bu halın əksi ilə də qarşılaşırıq: katib bəzi sözlərin sonundakı «ə» səsini bildirən «ha» hərfini yazıda buraxmışdır. Bu hal, bir qayda olaraq, həmin sözlərin şəkilçi qəbul etmiş formalarında özünü göstərir. Məsələn, کیجدن «gecədən», اوزکدن «özgədür», نقطدن «nöqtədən», لحظدن «ləhzədə», لالنیك «lalənin», آشفتو «aşüftəvü» və s. Göründüyü kimi, bu hal həm türk mənşəli sözlərə, həm də ərəb-fars sözlərinə aiddir. Qeyd edək ki, belə sözlərin hamısının sonundakı «ə» səsi (adlıq halında) yazıda «ha» hərfi ilə ifadə olunur.

Katib bir yerdə «qamu» sözünü də hal şəkilçisi ilə birgə işlədərkən söz sonundakı «vav» hərfini buraxmış və «u» səsini hərəkə ilə ifadə etmişdir: قامدن «qamudan». Bu halın başqa yazılı abidələrində müşahidə olunmasına dair bir qeydə rast gəlmirik.

## ƏDƏBİYYAT


1. Nağısoylu M. Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti. Bakı: Elm, 2000, 264 s.
2. Əlizadə S. Orta əsrlərdə Azərbaycan yazılı dili. Bakı: ADU nəşriyyatı, 1985.
3. «Gülşəni-raz»ın Sankt-Peterburq nüsxəsi. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu, 1501, 104 s.
4. «Gülşəni-raz»ın İstanbul nüsxəsi. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu, 1526, 70 s.
5. «Gülşəni-raz»ın Almaniya nüsxəsi. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu, 1636, 127 s.

**Фахреддин Эйлазов**

## ОБ ОРФОГРАФИЧЕСКИХ ОСОБЕННОСТЯХ «ГЮЛЬШАНИ-РАЗ», ПЕРЕВОДНОГО ПАМЯТНИКА ПИСЬМЕННОСТИ АЗЕРБАЙДЖАНА XV ВЕКА

Изучение азербайджанских средневековых письменных памятников имеет большое значение для истории языка, в особенности для исследования истории фонетики. Этому способствует то, что многие наши средневековые письменные памятники имеют отличающиеся друг от друга стили письма и почерка, так как их переписчики принадлежали к различным каллиграфическим школам. Поэтому во множестве случаев две копии произведения одного автора могут полностью отличаться друг от друга по своей орфографии в зависимости от времени и района их переписывания.

**Fakhraddin Eylazov**

## ABOUT ORTHOGRAPHICAL FEATURES OF THE «GULSHANI-RAZ», AN AZERBAIJANI TRANSLATED LITERARY TEXT FROM THE XV CENTURY

Studying of the Azerbaijani medieval literary texts is of great importance for the language history, in particular for the investigation of phonetics history. Of great importance is also the fact that many our medieval literary texts are written in different script and handwriting styles, as the copyists of them belonged to various schools of calligraphy. Therefore two copies of one author's work often can differ completely from each other in their orthography depending on the period and area of copying.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, filologiya e.d. Ə.Quliyev, filologiya e.d., prof. M.Nağısoy.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

## İNCƏSƏNƏT

**ƏLİ QƏHRƏMANOV**
AMEA Naxçıvan Bölməsi

# NAXÇIVAN TEATRI: YENİ MƏQSƏD, YENİ AMALLAR

1905-ci ildə Naxçıvanda da teatrın fəaliyyəti daha qüvvətlənir, onun repertuarı və məzmunu yeniləşir. Teatr yeni məqsəd, yeni amal uğrunda mübarizəyə başlamaqla maarif və mədəniyyətin təbliği ilə yanaşı, dövrün siyasi hadisələri ilə zəngin əsərləri də öz repertuarına daxil edir. Həmin dövrdə M.F.Axundovun əsərləri ilə yanaşı, N.B.Vəzirovun «Müsibəti-Fəxrəddin», Ə.B.Haqverdiyevin «Bəxtsiz cavan», «Pəhləvanani-zəmanə», «Pəri cadu» kimi dolğun əsərlər Naxçıvan səhnəsində tamaşaya qoyulur.

Demokratik ruhlu mətbuat sahəsində güclü realist qələm sahibləri yetişib fəaliyyətə başladı. Xalqın arzu və istəklərinin, ictimai-siyasi mübarizənin aynası olan teatr tərcümanı olan mətbuat ədəbiyyatla sıx əlaqədə oldu. İyirminci yüzilliyin ilk rübündə elə bir görkəmli Azərbaycan yazıçısı yox idi ki, teatrla, mətbuatla bilavasitə bağlı olmasın. Ədəbiyyat məhz bu iki yolla – teatr və mətbuat vasitəsilə inkişaf etdirilir, geniş təbliğ olunur, kütlələrin intibahı və siyasi mübarizəsi işinə xidmət edirdi.

M.F.Axundovun, N.B.Vəzirovun pyeslərində çıxış edən aktyorlar nadanlığı, acgözlüyü, mənəvi çatışmazlığı kəskin tənqid atəşinə tuturdu. Həm də onlar bütün bunları məişət xəttində deyil, ictimai aspektdə verirdilər. Teatrın əsas qayəsini cəmiyyətin əxlaqını yaxşılaşdırmaqda görən aktyorlar səhnə sənətində özünütərbiyəni, öz üzərində işləməni başlıca şərt sayırdılar. Onlar özlərinin həyatdakı rəftarına, davranışına yüksək etik normalar ilə yanaşır, səhnəyə məhəbbəti, bir-birinə qarşı köməyi hər şeydən üstün tutur, həyatda öz əxlaqları ilə nümunə göstərməyə çalışırdılar. O dövrdə göstərilən tamaşaların əsas qayəsi xalqı mədəniyyətə və maarifə cəlb etmək olmuşdur.

Mütərəqqi adamları gözü götürməyənlər «Naxçıvan müsəlman incəsənəti və dram cəmiyyəti»nin mütərəqqi fikirli xadimlərini təqib və təhqir edir, tamaşaların göstərilməsinə hər vasitə ilə mane olurdular. Lakin bunlara baxmayaraq, «Naxçıvan müsəlman incəsənəti və dram cəmiyyəti»nin

fəaliyyətini dayandırmağa müvəffəq ola bilmirlər. «Naxçıvan müsəlman incəsənəti və dram cəmiyyəti» üzvləri onları gözügötürməyənlərə qarşı şiddətli müqavimət göstərərək öz mütərəqqi fikir və çoşqun fəaliyyətini davam etdirirdilər. «Müsəlman incəsənəti və dram cəmiyyəti» xalqın ayılmasına yardım göstərdiyi kimi, Naxçıvandakı tərəqqipərvər ziyalıların inkişafına və onların yaradıcılıqlarına da qüvvətli təsir göstərirdi.

Tədqiqatlarda bu inkişafı Rusiyadakı 1905-ci il siyasi hadisələri ilə başlamaq meyli əsas yer tutur. Bizə belə gəlir ki, dəyişmələri «bolşevik-hümmət»çilərinin fəaliyyəti ilə bağlamaq düzgün deyil. Milli intibah dövrü idi, bu intibah həyatın əksər sahələrini əhatə etmişdi. Bu illərdə Azərbaycan xalqının ictimai-siyasi və mədəni həyatında mühüm addımlar atıldı, Azərbaycanın digər bölgələrində olduğu kimi Naxçıvanda da mütərəqqi ziyalıların mədəni inkişaf sahəsindəki fəaliyyəti xeyli gücləndi və milli azadlıq mübarizələri sürətləndi. Bu zaman Naxçıvanda yeni üsullu milli məktəblərin sayı artdı, qəzet nəşrinə təşəbbüs göstərildi. Teatr həvəskarları teatrın repertuarını dövrün tələbi səviyyəsində tərtib edərək yeni məqsəd və amallar uğrunda mübarizəyə başladılar.

Cəmiyyətin üzvləri 1907-ci ilin may ayının 25-də N.B.Vəzirovun «Müsibəti-Fəxrəddin» əsərini (1, s. 143) tamaşaya qoyurlar. Bir tərəfdən dövrün ictimai-siyasi hadisələri, digər tərəfdən isə əsərdəki konflikt tamaşaçılara çox güclü təsir edir. Bu illərdə Naxçıvan teatr həvəskarları mətbuat və teatrdan geniş şəkildə istifadə etməyə çalışırlar. Onlar 1907-ci ilin noyabr ayında Ə.B.Haqverdiyevin «Bəxtsiz cavan» əsərini yenidən tamaşaya qoyurlar. Tamaşa rəğbətlə qarşılanır. Bu münasibətlə xalq maarif müfəttişliyinə belə bir teleqram göndərilir: «Hörmətlə, yazıb sizə məlum edilir ki, bu il noyabrın 20-də «Naxçıvan müsəlman incəsənəti və dram cəmiyyəti» tərəfindən Ə.B.Haqverdiyevin «Bəxtsiz cavan» tamaşası göstərilmişdir. Tamaşadan toplanılmış 26 manat pul narodnoe uçilişyenin yoxsul şagirdlərinə vermək üçün 7057 №-li qəbzlə noyabrın 22-də Naxçıvan xəzinəsinə təhvil verilmişdir» (11, v. 8). Hər iki əsər Böyükxan Naxçıvanlının rejissorluğu ilə tamaşaya qoyulmuşdur.

Zaman-zaman Naxçıvanın ictimai-ədəbi mühitində teatrın əhatə dairəsi genişlənir, həm diyarın məktəblərində tamaşalar göstərilir, həm də buradan çıxmış ziyalılar Naxçıvandan kənarda təşkil etdikləri tamaşalardan toplanılan vəsaiti doğma yurdun təhsil ocaqlarının inkişafına yönəldirlər. Danılmaz faktdır ki, Əbülfət Şahtaxtinski 1891-ci ildə həvəskarların köməyi ilə Aleksandropol (Gümri – Ə.Q) şəhərində göstərdiyi tamaşadan yığılan 103 manat vəsaitin Şahtaxtı məktəbinin nəfinə xərclənməsinə nail olmuşdu (2, s. 179). Bununla yanaşı XIX əsrin sonu, XX əsrin əvvəllərində təkcə Naxçıvan şəhər məktəbində deyil, ümumiyyətlə, vilayətin müxtəlif məktəblərində də teatr tamaşaları hazırlanıb göstərilmişdir. C.Məmmədquluzadənin 1889-cu ildə Baş Noraşen (İndiki Cəlilkənd-Ə.Q) məktəbində

pedaqoji fəaliyyətlə məşğul olarkən yazdığı «Çay dəstgahı» əsərini alleqorik dram kimi qələmə alması və şeirlə mənzum şəkildə yazması da məktəb şagirdlərinin yaşı və dünyagörüşü, maraq dairəsi ilə bağlı idi. Həmin ildə Baş Noraşen (İndiki Cəlilkənd) məktəbinin müdiri Məmmədbəy Qazıyevin rəhbərliyi ilə bu təhsil ocağında «kasıb şagirdlərin nəfinə» qoyulmuş tamaşa da göstərilən məktəbin müəllimi C.Məmmədquluzadənin «Çay dəstgahı» əsərinin əsasında hazırlanmışdır (2, s. 179).

İrtica illərində Rusiyada və eləcə də Zaqafqaziyada demokratik fikirli adamlar həbslərə, sürgünlərə məhkum edilirdi. Azadlıq tərəfdarı olan bütün mətbuat qadağan edilirdi. Həmin illərdə azadlıq uğrunda aparılan mübarizə Naxçıvanda da daha kəskin bir şəkil almışdı. Bunun əsas səbəbi 1907-ci ildə Təbrizdə baş verən inqilabi hərəkat olmuşdur. Bir tərəfdən Təbrizdə baş verən inqilabi hərəkat, digər tərəfdən də Naxçıvana gələn inqilabçılar Naxçıvanın təqəqqipərvər ziyalılarına müəyyən təsir göstərirdilər. Odur ki, Naxçıvanda, Culfada, Ordubadda gizli cəmiyyətlər yarandı. Həmin cəmiyyətlərdə birləşən ziyalılar müxtəlif istiqamətli mübarizədə fəal surətdə iştirak edirdilər.

Ordubadda yaranan gizli siyasi cəmiyyətə M.S.Ordubadi (1872-1950) də cəlb edilmişdi. Ordubadi siyasi ideyaları təbliğ etdiyinə və siyasi ruhlu əsərlər yazdığına görə təqib edildiyindən Culfaya köçməli olur və burada Əliqulu Qəmküsar, Nəsrulla Şeyxov, Baxşəli ağa Şahtaxtlı, Məmmədhüseyn Hacıyev və başqa sadiq dostlarının köməyi ilə tezliklə işgüzar bir şəraitə daxil olur (9, s. 38). Həmin dövrdə Əliqulu Qəmküsar Culfada yaşayır, dayısı Nəsrulla Şeyxovla birlikdə gömrükxana işlərilə məşğul olurdu. Şairin ədəbi-tənqidi görüşlərini araşdıran filologiya elmləri namizədi Fərqanə Kazımova Əliqulu Qəmküsarın Culfadakı ictimai-siyasi fəaliyyəti ilə bağlı yazır: «Əliqulu Qəmküsarın ədəbi yaradıcılığı 1905-ci ildə istər Rusiyada, istərsə də İranda baş verən siyasi hadisələrdən sonra daha da genişlənmişdir. Bu dövrdə Culfada yaşayan şair İranda baş verən hadisələri yaxından izləmiş, burada gedən milli azadlıq hərəkatını ilhamla tərənnüm etmişdir. O, zalımların əsarəti altında əzilən, ac, yoxsul səfil həyat keçirən xalqı azadlıq uğrunda mübarizəyə səsləmiş, xalqı mətin, yekdil olmağa çağırmışdır» (3, s. 30).

Culfada ictimai-siyasi işlərlə maraqlananlar, siyasi fəaliyyətlə məşğul olanlar, demokratik və azadlıq tərəfdarı olan qüvvələr Ordubada nisbətən fəal idi. Ordubadi tezliklə gizli təşkilatın fəal üzvlərindən biri olur. O, İran inqilabına kömək edən təşkilatın üzvü kimi də çox iş görürdü. Görkəmli aktyor M.A.Əliyev (1883-1954) öz xatirələrində yazır: «Naxçıvanda qastrolda olarkən Culfaya da getdik. Orada tamaşa göstərdik. Azərbaycanın məşhur şairi və yazıçısı M.S.Ordubadi ilə bu səfərimdə tanış oldum» (10).

1905-ci ildən sonra «Naxçıvan müsəlman incəsənəti və dram cəmiyyəti»nin inkişafında Bakı teatr təşkilatının və onun görkəmli aktyorlarının rolu, köməyi danılmazdır. 1908-ci ildə Naxçıvana qastrola gələn Cəlil Bağdadbəyov (1887-1949) şəhər məktəbinin müdirindən məktəblilərdən bir neçəsinin kütləvi səhnədə iştirak etmələrinə icazə alır. Əkbər Namazov, Əkbər Abbasov, Həsən Səfərli, Süleyman Süleymanov, Məmmədhəsən Sidqi, Əli Xəlilov və başqaları kütləvi səhnələrdə iştirak edirlər.

Arxiv sənədləri və dövrü mətbuatda nəşr olunan materiallar sübut edir ki, o dövrdə ziyalı gənclərdən Mirzə Həsən Novruzov, Mir Abbas Seyidov, Cabbar Vəzirov, Məşədi Həsən Qurbanov və digərləri Naxçıvan teatrı ətrafında birləşirlər. Onlar 2 avqust 1908-ci ildə teatr binası tikilməsi məsələsinin müzakirə edir (1, s. 116) və teatr binası tikilməsini qərara alırlar. Bu ziyalı gənclər çarizmin milli zülmünə məruz qalır, onun müstəmləkə siyasətindən–milli mədəniyyəti və maarifi məhdudlaşdırmaq siyasətindən əzab çəkirlər. Çarizm feodal patriarxal quruluşunu ardıcıl müdafiə etməklə xalq kütələrini köləlikdə, cəhalət və zülmətdə saxlamağa çalışır. Yerli məktəbi, teatrı, maarif ocaqlarını hər vasitə ilə məhdudlaşdırır, yaxud sadəcə olaraq ləğv edir. Teatr və maarif sahəsində göstərilən hər bir təşəbbüsü, hətta ən kiçik təşəbbüsü də boğurdu. Buna görə də ziyalı gənclər öz təşəbbüslərini (teatr binası tikmək fikirlərini) həyata keçirə bilmirlər. Naxçıvanda teatr tamaşalarını göstərmək üçün xüsusi bina olmadığından teatr tamaşaları 1907-ci ildən 1911-ci ilə kimi uryadniklər üçün tikilmiş tövlədə, 1911-ci ildən sonra isə şəhərin mərkəzində yerləşən Böyük bağ adlanan parkdakı ictimai yığıncaq binasında göstərilir.

Naxçıvan teatr həvəskarları vaxtaşırı rus dilində də tamaşalar göstərirlər. Naxçıvan teatrının səhnəsində rus klassiklərinin də əsərləri rus dilində tamaşaya qoyulurdu. Bu barədə professor Rza Təhmasib yazır: «1907-ci ildə məktəbdə oxuyarkən Puşkinin ölümünə həsr edilmiş gecədə Qoqolun «Ölü canlar» əsərində Çiçikovun Nozdryovun evinə gəlməsi səhnəsini göstərirdik. Mən Çiçikov rolunu oynayırdım. Özü də rusca. Rejissorumuz böyük istedad sahibi Böyükxan Naxçıvanski idi» (6, s. 11).

1907-ci ildə Naxçıvanda teatr tamaşaları daha müntəzəm sürətdə aparılır və yeni-yeni əsərlər nümayiş etdirilirdi. Bu işdə Bakı teatr cəmiyyətinin də böyük rolu olmuşdur. 1909-cu ilin iyun ayında Azərbaycanın böyük aktyorlarından biri Hüseyn Ərəblinski (1881-1919) 12 nəfər artistlə Naxçıvana gəlir (7, s. 90). O, Naxçıvanla yanaşı, Ordubadda da olur (8, s. 98). O, burada yerli dram dərnəyinin üzvləri ilə birlikdə Ə.Haqverdiyevin «Bəxtsiz cavan» əsərinin tamaşasını göstərir. H.Ərəblinski Naxçıvanda olduğu müddətdə yerli aktyorlarla, dram dərnəyinin üzvləri ilə söhbətlər aparır və onlara aktyorluq sənətinin rəngarəng sirlərini öyrədir. Onun təsiri altında Rza Təhmasib (1894-1980), Əli Xəlilov (1896-?), Əliqulu Qəmküsar (1880-1919), Həsən Səfərli (1888-1960), Rza İsfəndiyarlı (1882-1972), Mir

Həsən Mirişli (1903-1973) və bir çox başqaları həmişəlik həyatlarını teatra bağlayırlar.

Birinci Dünya Müharibəsi dövründə «Naxçıvan müsəlman incəsənəti və dram cəmiyyəti» tərkibində olan ziyalılar dövrün siyasi hadisələrindən kənarda qala bilməzdilər. Onlar dövrün ictimai-siyasi zövqünə uyğun əsərləri tamaşaya qoyub, xalqın nəzər-diqqətini həmin məsələlərə cəlb edirdilər. Həmin illərdə tamaşaya qoyulan pyeslər əsasən «Döymə qapımı, döyərlər qapını», «Ac həriflər», «Pul, yoxsa allah», «Pulsuzluq», «Nadanlıq», «Bizim kirayənişin özünü öldürdü» və başqa əsərlərdən ibarət idi (4, s. 116). Bu əsərlər Ə.Xəlilovun, P.Təhmasibin, H.Səfərlinin fəal iştirakı ilə oynanılırdı. Tamaşadan toplanan vəsait müharibə cəbhələrinə gedən və daha çox xəsarət alan şəxslərin ailələrinə verilirdi. Bu dövrdə Naxçıvanda da ədəbi qüvvələrin və teatr həvəskarlarının fəaliyyəti genişlənmişdir. Həmin illərdə şair Əliqulu Qəmküsar (Nəcəfov), istedadlı artist, professor Rza Təhmasib, görkəmli rejissor kimi tanınmış şəhər hakimi Böyükxan Naxçıvanski Naxçıvan teatrının inkişaf etdirilməsi üçün ciddi səy göstərmişlər. 1909-cu ilin axırlarında Azərbaycanın görkəmli aktyorlarından biri Sidqi Ruhulla Cənubi Azərbaycanda ilk qastrolundan sonra Naxçıvana gəlir. Həmin müddətdə Böyükxan Naxçıvanskinin xidməti işlərə başı qarışdığına görə məşğələlər müntəzəm keçmirdi. Həvəskarlar bu vəziyyətdən çıxmaq üçün müəyyən yollar axtarırdılar. Sidqinin Naxçıvana gəlişi yaranmış çətinliyi aradan qaldırdı. O, Naxçıvanda olduğu müddətdə yerli teatr həvəskarlarının fəaliyyətlərinə istiqamət verərək bu işi yenidən canlandırdı (5, s. 78).

Bu dövrdə yeni məqsəd, yeni amallar Naxçıvan teatrının daha geniş fəalliyyəti üçün etibarlı təminat yaratdı.

## ƏDƏBİYYAT


1. Azərbaycan teatrının salnaməsi: 2 cilddə, I c., Bakı: Azərnəşr, 1975, 583s.
2. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997, 683 s.
3. Kazımova F. Əliqulu Qəmküsarın ədəbi-tənqidi görüşləri. Bakı: Elm, 2007, 82 s.
4. Kərimov İ. XIX və XX əsr Azərbaycan teatrının yaranma və inkişaf tarixi. Bakı: Elm, 1991, 263 s.
5. Qəhrəmanov. Ə. Naxçıvan teatrı: İntibah yollarında. Bakı: MBM, 2008, 160 s.
6. Məmmədov C. Rza Təhmasib. Bakı: Azərbaycan teatr cəmiyyəti, 1916, 62 s.
7. Məmmədli Q. Hüseyn Ərəblinski. Aktyorun həyat və fəaliyyətinə dair sənədlər məcmuəsi. Bakı, 1967, 290 s.
8. Rəhimli İ. Akademik Milli Dram Teatrı: 2 cilddə, I c., Bakı: QAPP-Poli-

qraf, 2002, 440 s.
9. Vəzirova F. M.S.Ordubadi (monoqrafiya). Bakı: Gənclik, 1970, 158 s.
10. «Ədəbiyyat və incəsənət» qəz., 1949, 23 iyul.
11. Naxçıvan MR DA: F. 26 m, siy. 1, iş 204.

**Али Кахраманов**

## НАХЧЫВАНСКИЙ ТЕАТР: НОВЫЕ ЦЕЛИ И ЗАДАЧИ

В статье говорится о важном этапе (1905-1910) в деятельности Нахчыванского театра и анализируются характерные черты этого этапа. Автор, впервые делая сопоставительный анализ, выявил, что развитие театральной жизни Нахчывана не связано с процессами 1905 года в России, а тесно связано с национальным развитием этого региона.

В результате получены новые научные факты.

**Ali Gahramanov**

## NAKHCHIVAN THEATRE: NEW AIMS, NEW TASKS

It is spoken in the article about the important stage (1905-1910) in activity of the Nakhchivan theatre and characteristic features of this stage are analyzed. The author, making the comparative analysis for the first time, shows that development of theatre life in Nakhchivan was not connected with the processes of 1905 in Russia, but was closely connected with national development of this region.

As a result, the new scientific facts are received.

***Rəyçilər: Filologiya e.d. M.Cəfərli, filologiya e.n., dosent F.Kazımova.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**YAQUT QULİYEVA**
AMEA Naxçıvan Bölməsi

# NAXÇIVANDA AŞIQ MUSİQİSİNİN YARADICILARI

Xalq musiqi nümunələrimizdən sayılan aşıq musiqisi Azərbaycanın müxtəlif bölgələrində musiqi tariximizin öyrənilməsi üçün çox əhəmiyyətli mənbələrdəndir.

Bu baxımdan əsrarəngiz gözəlliyə malik olan, dünya elminə, mədəniyyətinə, ədəbiyyatına, diplomatiyasına dahilər bəxş etmiş Naxçıvan bölgəsində yaşayıb-yaratmış bir çox istedadlı, görkəmli musiqiçilər Azərbaycan xalq musiqisi xəzinəsini dəyərli incilərlə zənginləşdirmişlər.

Göyçə və Dərələyəz aşıq mühitləri ilə yaxın sənət əlaqələri olan Naxçıvan aşıq mühiti də Azərbaycan aşıq sənətinin tarixi mənzərəsində müəyyən yer almışdır (6, s. 77). Naxçıvan mühiti ötən yüzilliklər ərzində söz yaradıcılığı və saz bəstəçiliyi sahəsində özünəməxsus uğurlar qazanaraq bu sənətin repertuar zənginliyinə qiymətli örnəklər əlavə etmişdir. «Naxçıvanı», «Naxçıvan gülü», «Köhnə Naxçıvanı», «Ağır Şərili», «Yüngül Şərili» və s. bu kimi orijinal saz havaları və aşıq şeiri nümunələri Naxçıvanda sazsöz ovqatının uzun bir müddət ərzində sənət mühiti şəklində yaşadığını göstərir.

Əsasən, Naxçıvanın Şərur, Şahbuz, Sədərək və Ordubad bölgələrinin bəzi kəndlərində çalıb-çağıran Naxçıvan aşıqlarının ifaçılıq məharətinin sorağı bu bölgənin hüdudlarını aşaraq qonşu Şərq ölkələrinə də yayılmışdır. XX yüzilliyin əvvəllərinə qədər Naxçıvan aşıqları Naxçıvanın özündən daha çox İran və Türkiyə ərazisində toy məclislərinə dəvət alarmışlar (4, s. 181-182).

XVIII əsrdə yaşayıb-yaratmış Azərbaycan aşıq yaradıcılığında öz sözü, öz dəstixətti ilə fərqlənən görkəmli ustad Ağ Aşıq Allahverdi Kosacanlı Şərur mahalının Kosacan kəndində dünyaya göz açmışdır. O, aşıq sənətinin sirlərinə məhz bu diyarda yiyələnmişdir. Aşıq sənətinin zirvəsində dayanan Aşıq Ələsgərin müəllimi olan, görkəmli söz ustadı Aşıq Alının müəllimi məhz Ağ Aşıq Allahverdi Kosacanlı olmuşdur. Ağ Aşıq Allahverdi Kosacanlı 1754-cü ıldə Şərur mahalının Kosacan kəndində tanınmış şeyx nəslindən olan Qara Osman oğlunun ailəsində dünyaya gəlmişdi. Qara Osmanoğlu öz dövrünün sayılan aşıqlarından olmuşdur. O, Arazın hər iki

tayında məclislər apararmış. Allahverdinin ustadı atası olmuş, aşıq sənətinin sirlərini ilk dəfə atasından öyrənmişdir. Bəzi vaxtlarda Qara Osmanoğlu iştirak etdiyi məclislərə oğlu Allahverdini də apararDı. Allahverdinin bu cür el məclislərində iştirak etməsi onun aşıq sənətinə olan marağını daha da artırırdı. Ağ Aşıq Allahverdinin bacısı Ümbülbanu da çox gözəl saz çalar, qoşmalar yaradarmış. Allahverdi ilk təhsilini mollaxanada almışdır. Dərisinin ağlığına və səsinin çox məlahətli olduğuna görə el arasında onu Ağ Aşıq ləqəbi ilə çağırarmışlar. Mollaxanadan sonra təhsilini mədrəsədə davam etdirən Allahverdi gündüzlər dərs oxuyar, axşamlar isə atasından saz və söz sənətini öyrənərdi. O, mədrəsəni bitirdikdən sonra din xadimi olmaqdan imtina etdi və aşıq sənətinin sirlərinə dərindən yiyələnmək üçün ömrünü tamamilə bu sənətə bağladı. İllər ötdükcə Allahverdi aşıq sənətində böyük təcrübə topladı. Artıq o da atası ilə bərabər el məclislərində məharətlə çıxış edirdi. O, qısa bir müddət ərzində tanındı və məşhurlaşdı. Onun sorağı Bağdaddan, Təbrizdən, İstanbuldan, Bəsrədən, Rumdan gəlirdi (5, s. 14-16).

XVIII əsrin sonlarında Araz sahillərində şah qoşunlarının hücumları, talanı başladı. Camaat el-obasından didərgin düşdü. Əhali sığınmaq üçün Dərələyəz, Göyçə mahallarına üz tutdu. 1795-ci ildə Ağ Aşıq Allahverdi də öz külfəti ilə birlikdə Göyçə mahalına köçməyə məcbur qaldı. O, ürəyində Vətən yanğısı, gözlərində yurd həsrəti daşıyaraq, doğma torpağını, yurd-yuvasını tərk etdi. O, Şərurdan uzaqlaşsa da, ürəyini bu torpaqda qoyub getmişdi. «Gedər oldum sən Şərurla qal, Aşıq» deməsi ilə Vətənə bağlılığını poetik şəkildə ustalıqla göstərmişdir.

Ağ Aşıq Allahverdi Kosacanlı kimi Aşıq Cəlil də «Ustad aşıq» adı ilə Azərbaycan aşıq yaradıcılığı tarixinə düşmüşdür. Bu sənətkarlar biribirindən gözəl aşıq melodiyaları yaratmış, eyni zamanda gördüklərini və yaratdıqlarını obrazlı poetik şəkildə, ustalıqla söyləmişlər (5, s. 18).

Aşıq Cəlil 1858-ci ildə Şərur-Dərələyəz qəzasında anadan olmuşdur. Cəlilin atası Mehralı kişi şeir-sənət vurğunu olmuşdur. O, tez-tez saz-söz məclislərini dinləməyə gedərdi. Hələ kiçik yaşlarından atası Cəlili də bu cür maraqlı məclislərə aparar, onun aşıq sənətinə meyil etməsinə və bu sənətə tam yiyələnməsinə böyük səy göstərirdi. Dərələyəz mahalının tanınmış söz ustadları Şair Təhməzin, Aşıq Əsədin, Dəllək Xələfin təşkil etdikləri saz-söz məclislərinə Naxçıvandan, Göyçədən, Zəngəzurdan, İrandan, Türkiyədən məşhur ustad sənətkarlar dəvət olunardılar. Uşaqlıqdan bu cür yüksək səviyyəli məclislərdə iştirak etmək balaca Cəlilin sənət seçimində öz mühüm təsirini göstərmişdir. Məclislərdən birində sənəti və söz-söhbətləri ilə hamını heyran qoyan iranlı Aşıq Abbas 16 yaşlı Cəlilin saz çalmasını və məlahətli səslə oxumasını çox bəyənir, onu şəyirdliyə götürür. Aşıq Cəlil öz ustadının yanında beş il şəyirdlik etdikdən sonra Aşıq Abbas məclis düzəldib şəyirdini imtahana çəkir. O, Cəlilin qabiliyyətini qiymətləndirərək ona saz bağış-

layıb xeyir-dua və halallıq verir. Aşıq Cəlilin şöhrəti artıq bütün Azərbaycana yayılaraq Göyçə mahalına, Dədə Ələsgərə gedib çatır. Dədə Ələsgər deyişmək üçün Dərləyəz mahalına, Aşıq Cəlilə xəbər göndərir. Aşıq Cəlil bu dəvəti böyük məmnunluqla qəbul edərək böyük ustadın görüşünə, Göyçə mahalına gəlir. Məclis qurulur, Göyçə mahalındakı bütün sənətsevərlər bu məclisə toplaşırlar. Aşıq Cəlil bu məclisdə «Məclis divanisi»ni, «Osmanlı divanisi»ni, «Ustadnamə»ni, sonda isə özünün yenicə qoşduğu havanı ifa edir. Aşıq Cəlilin şəninə təriflər söyləyən ustad, sonuncu havanın ona tanış olmadığını söyləyir. Cəlil həmin havanı özü qoşduğunu ustadına bildirir. Dədə Ələsgər bu gözəl Havacatı çox yüksək qiymətləndirərək, onu «Cəlili» adlandırır. O, həmin «Cəlili» havasıdır ki, bu gün də Azərbaycan aşıqlarının repertuarında tez-tez səslənir, hal-hazırda Aşıq Əmrah Gülməmmədovun ifasında Azərbaycan Radiosunun Qızıl Fondunda saxlanılır.

Aşıq Cəlilin əsas yaradıcılıq dövrü XIX əsrin sonu, XX əsrin əvvələrinə təsadüf olunur. O, 12-dən artıq aşıq havası yaratmışdır. «Baş Cəlili», «Orta Cəlili», «Ayaq Cəlili», «Qəhrəmanı», «Dərələyəz gəraylısı», «Qaytarma», «Badamı» və hazırda adları hələ məlum olmayan beş saz melodiyası haqqında məlumatlar əldə edilmişdir. Aşıq Cəlilin Aşıq Qulu, Aşıq Bəhman, Aşıq Qəhrəman kimi istedadlı şəyirdləri olmuşdur. Ustad Aşıq Cəlil öz şəyirdlərini imtahan etmək üçün həmkarı Dədə Ələsgərin yanına apararardı. Ustadlar-ustadı Aşıq Ələsgər məclislər qurur, cavan aşıqları bərkə-boşa salandan sonra, layiq olanına «Aşıq» adı verərmiş. Aşıq Cəlilin həm melodik, həm də quruluş baxımından gözəl saz havasına «Qəhrəmanı» adının verilməsi də bu imtahan sınaqlarının birinin tarixi ilə bağlıdır.

Qəhrəman adlı bir şəyirdini Aşıq Ələsgərin yanına imtahana gətirən Aşıq Cəlil qurulan bu mötəbər söz məclisində ustadı ilə deyişir. O, ustadlarından icazə alıb, «Məclis Divanisi»ni, «Osmanlı Divanisi»ni, «Misri»ni, «Koroğlu»nu ifa edir. Aşıq Qəhrəmanın ifasından razı qalan Dədə Ələsgər onu qucaqlayıb bağrına basır və ona təriflər söyləyir. Şəyirdinin imtahandan uğurla çıxdığını görən Aşıq Cəlil ilhama gələrək yenidən meydana girir və yenicə qoşduğu aşıq havasını çalmağa başlayır. Aşıq Ələsgər bu saz havasına həmin məclisdə «Aşıq» adını qazanmış Qəhrəmanın adını verir. O gündən məşhur «Qəhrəmanı» saz havası sənət incilərinin sırasında səslənməkdədir. Aşıq Ələsgər öz həmkarı Aşıq Cəlilin yaratdığı saz havalarına öz heyranlığını bu cür bıldırmışdir: «Oğul, söz xiridarı biz tərəflərdə, Havacat xiridarı siz tərəflərdədir».

Dahi sənətkarın bu sözləri həqiqət idi. Dahiyanə, dəqiq verilmiş bu qiymətdən, ömrünün yetkin çağlarını Naxçıvan torpağında keçirmiş Aşıq Cəlilə, eləcə də Naxçıvan aşıq yaradıcılığına da bir sənət payı düşürdü. Demək olar ki, o, əsərlərinin çoxunu Şərur mahalında yaşadığı dövrlərdə yaratmışdır. Aşıq yaradıcılığında yüksək sənətkarlıq qabiliyyəti ilə misilsiz

izlər buraxan Aşıq Cəlil 1923-cü ildə Şərur mahalının Dizə kəndində dünyasını dəyişmişdir (5, s. 17-19).

Naxçıvan torpağının yetirmələri olan, dahi Aşıq Alının ustadı Ağ Aşıq Allahverdinin, Aşıq Cəlilin, Aşıq Ümbülbanunun, Aşıq Süleymanın, Aşıq Məmmədcəfərin, Aşıq Muxtarın, Gülalı Məmmədin, Aşıq Dədəkişinin, Aşıq Yusif Sədərəklinin, Aşıq Əli Xanxanım oğlunun, Füqarə Məmmədin, Aşıq Nabatın və onlarla sözlü-söhbətli aşıqlarımızın yaratdıqları dastanlar, rəvayətlər, qoşmalar, bayatılar, gəraylılar, müxəmməslər, təcnislər, aşıq melodiyaları Naxçıvan bölgəsində aşıq yaradıcılığının çox zəngin tarixi olduğundan xəbər verir (8, s. 25).

Ustad aşıqlarla, aşıq şairlərlə yanaşı, ifaçı aşıqlar da, əsasən, ustad sənətkarların yaradıcılıqlarını təbliğ etmiş, yüksək sənətkarlıq, ifaçılıq səviyyəsi nümayiş etdirmişlər. Bu gün dillər əzbəri olan, muğənnilər tərəfindən sevilərək ifa olunan xalq mahnılarının müəllifləri, demək olar ki, məlum deyildir. Lakin son dövrlərdə aparılan araşdırmalardan məlum olur ki, xalq mahnılarının bəzilərinin yaradıcıları məhz sayılıb seçilən el aşıqlarımız olmuşdur. Tədqiqat işi üzrə aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, «Apardı sellər Saranı» Azərbaycan xalq mahnısı məhz Ağ Aşıq Allahverdi Kosacanlıya məxsusdur. Mahnıda aşıq intonasiyaları, aşıq musiqisi aydın şəkildə duyulur. Mahnının leytmotivi sadə aşıq melodyasında olduğu kimi, «xalis kvarta» intervalı həcmindədir. Melodiyada «kiçik sekunda» intervalının tonikaya və ya əksinə, tonikanın kiçik sekundaya meyil etməsi «kiçik sekunda» intervalının mahnıda həlledici əhəmiyyəti, eləcə də melodiyanın aşıq intonasiyaları bu mahnının aşıq mahnısı olmasını təsdiqləyir.

Azərbaycan aşıq poeziyasının inkişafında qadın aşıqlarımızın da özünəməxsus xüsusi yeri və yüksək əməyi olmuşdur. Azərbaycan xalqının müdrik babaları qadın zəkasına və onun qüdrətinə dərin inam bəsləmişlər. Müxtəlif dövrlərdə yazıb yaratmış qadın aşıqlardan Aşıq Sona, Aşıq Pəri, Aşıq Həmayıl, Aşıq Bəsti kimi adı dillər əzbəri olan klassik aşıqlarımızın böyük bir dəstəsi yaranmışdır. Bu ənənəni davam etdirən, dövrünün mühüm hadisələrini sazla-sözlə dilə gətirən, öz fitri istedadı ilə xalq arasında şöhrət qazanmış ustad aşıqlardan biri də qədim Şərur torpağının nəğməkar qızı Aşıq Nabat Paşa qızı Cavadovadır (6, s. 183).

Aşıq Nabat 1914-cü ildə Şərur rayonunun Parçı kəndində yoxsul bir kəndli ailəsində anadan olmuşdur (kənd 1938-ci ildə boşaldığına görə 1965-ci ildə sərəncamla ləğv olunmuşdur) (7, s. 117). Kiçik yaşlarından ata və anasını itirən Nabat qardaşlarının himayəsində böyümüşdür. O, gənc yaşlarından sazlı-sözlü aşıq sənətinə meyil salmış, nisgilli həyatını telli sazı ilə dilə gətirmişdir. Aşıq Nabat Naxçıvanda, həmçinin Azərbaycanın muxtəlif bölgələrində təşkil olunan aşıq məclislərində iştirak edirdi. O, bu məclislərdə el aşıqlarının yaratdığı havacatlarla yanaşı, öz taleyinə həsr etdiyi qoş-

malarını da söyləyərdi. Onun qoşmaları dinləyicilər tərəfindən çox bəyənilər, hətta aşıq həmkarlarının da ifasında sevilərək təkrar-təkrar ifa olunardı. Məclislərdən birində Aşıq Nabat Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Musa ilə tanış olur. Aşıq Musa onun el məclislərində iştirak etməsinə və Aşıq Nabat yaradıcılığının geniş təbliğ olunmasına böyük köməklik göstərir. Aşıq Nabat ustadından 30 saz havası və bir neçə xalq dastanı öyrənir (1, s. 17).

Aşıq Nabat 1934-cü ildə öz doğma diyarından ayrılıb muğənnilər diyarı olan Qarabağa üz tutaraq Yevlax şəhərinə köçür. Azərbaycan qadın aşıqlarının ən görkəmli nümayəndələrindən biri sayılan Aşıq Nabat Cavadova bu sənət mühitində püxtələşib kamilləşdikdən sonra öz məlahətli səsi və gözəl ifaçılığı ilə böyük şöhrət qazanmışdır. Aşıq Nabat hələ iyirminci yüzilliyin əvvəllərində Naxçıvandan Moskvaya qədər getmiş, yüksək ifaçılıq məharəti ilə geniş tamaşaçı kütləsini heyran qoymuşdu. Dahi Azərbaycan şairi Səməd Vurğunun «Danışaq» adlı qoşması Aşıq Nabatın musiqisində, sazında və səsində radio dalğalarında Moskva şəhərindən dünyanın hər yerinə yayılır. Moskvada dərc olunan «İzvestiya» qəzetində Aşıq Nabat haqqında geniş məqalə və onun şəkli verilir. Yevlaxda çıxan «Təşəbbüs» qəzetində onun haqqında bir neçə genişhəcmli məqalələr çap edilmişdir. Aşıq Nabat ifaçılıqla bərabər, həm də yaradıcı bir aşıq kimi inkişaf edərək doğma vətənini tərənnüm edən qoşmalar, gəraylılar, havacatlar yaratmışdır. Aşığın «Məhəbbətim var», «Yaxşıdır», «Sinəmdə», «Gülür gözəllər» adlı qoşma və gəraylıları bu gün də məclislərdə oxunaraq dillər əzbəri olmuşdur. Aşıq Nabatın yaradıcılığında el dərdi, vətən həsrəti, həyat nisgili ətraflı şəkildə əks olunmuşdur. O, doğulduğu torpaqdan ayrı düşsə də, özü ilə apardığı böyük sərvəti olan məlahətli səsindəki Naxçıvan – Şərur abhavasını heç zaman dəyişmədi. Aşıq Nabat tale və sənət dalğasının təkanları ilə çox ellər gəzib dolaşdı. O harada yaşasa da, oxuyanda da, danışanda da doğulub, boya-başa çatdığı Şərur mahalının şirin ləhcəsini unutmadan, böyük həvəslə tərənnüm edirdi. Aşıq Nabatın məharətli ifa tərzi, onun poetik irsi, ictimaiyyətin, saz sənətini sevənlərin hər zaman diqqət mərkəzində olsa da, onun repertuarının geniş şəkildə yazıya alınmasına bir o qədər də diqqət yetirilməmişdir. Çox təəssüf ki, bu gün radionun qızıl fondunda Aşıq Nabatın cəmi dörd lent yazısı saxlanılır.

Onun yaşayıb-yaratdığı dövrdə Naxçıvanda qadın aşıqlara çox az təsadüf olunurdu. Bu baxımdan da Aşıq Nabat Cavadova XX əsrin birinci yarısında Naxçıvanda sayılıb seçilən yeganə qadın aşıq olmuşdur. Aşıq 1973-cü ildə oktyabr ayının 3-də Şərur rayonunun Siyaqut kəndində vəfat etmişdir (1, s. 3-11).

XX əsrin əvvəllərində böyük sənət ocağı olan Naxçıvan torpağı onlarca ifaçı aşıqlar yetirmiş və onların səsləri bir çox xarici ölkələrin geniş konsert salonlarından eşidilmişdir. Naxçıvanda aşıq sənətinin geniş inkişaf

dövrü daha çox ötən əsrin əvvəllərinə təsadüf olunur (4, s. 31). Bu qədim sənət ocağında aşıq sənətinin geniş şəkildə inkişaf etməsini səciyyələndirərək 1935-ci ildə Naxçıvan Aşıqlar İttifaqı adlı rəsmi təşkilat yaradılmışdır. Naxçıvan Aşıqlar İttifaqının həmin il keçirilən təsis konfransında regional mühiti təmsil eləyən əllidən yuxarı sənətkarlar, məşhur el aşıqları iştirak etmişlər.

Bir çox ustad aşıqların, xüsusilə də Aşıq Ələsgərin Naxçıvan bölgəsinə səfərləri, eləcə də Naxçıvan sənətkarlarının başqa bölgələrdə məclis aparmaları, deyişmə məclislərinin təşkil olunması Naxçıvan aşıq yaradıcılığının inkişafına öz əhəmiyyətli təsirini göstərmişdir.

## ƏDƏBİYYAT


1. Aşıq Nabat / Redaktoru və ön sözün müəllifi M.Cəfərli. Bakı: Nurlan, 2001, 39 s.
2. Cəfərli M. Folklor və etnik-milli şüur (Naxçıvan folklor materialları əsasında). Bakı: Elm, 2006, 126 s.
3. Həkimov M. Xalqımızın deyimləri və duyumları. Bakı: Maarif, 1988, 380 s.
4. Quliyev N. Naxçıvan musiqi mədəniyyəti tarixindən (XX əsr). Bakı: Elm, 1999, 137 s.
5. Qasımlı M. Aşıq sənəti. Bakı: Ozan, 1996, 258 s.
6. Naxçıvan tarixinin səhifələri. Bakı: N.Tusi adına ADPU, 1996, 265 s.
7. Rzayev F. Qədim Şərur oykonimlərinin mənşəyi. Bakı: Kitab aləmi, 2006, 225 s.
8. Şərur qədim diyardır. Naxçıvan: Naxçıvan mətbəəsi, 1988, 56 s.


**Ягут Кулиева**

## СОЗДАТЕЛИ АШУГСКОЙ МУЗЫКИ В НАХЧЫВАНЕ

В статье рассматривается ашугская музыка, в частности, жизнь и творчество Нахчыванских ашугов. В том числе исследуется творчество мастера художественного слова Аг Ашуга Аллахверди Косаджанлы, которое занимает важное место в ашугском искусстве.

**Yagut Guliyeva**

## CREATORS OF ASHUG MUSIC IN NAKHCHIVAN

In the article the ashug music, in particular, life and creative work of Nakhchivan ashugs is considered. Also is investigated the creative work of the

well-known master of artistic word Ag Ashug Allahverdi Kosajanly which takes the important place in the ashug music.

***Rəyçilər: Filologiya e.d. M.Cəfərli, sənətşünaslıq n. Ə.Qəhrəmanov.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

## İQTİSADİYYAT VƏ FƏLSƏFƏ

**TEYMUR ABBASOV**
Naxçıvan Dövlət Universiteti

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SAHİBKARLIĞIN SOSİAL-İQTİSADİ İNKİŞAFDA ROLU VƏ MAKROSƏVİYYƏLİ ƏHƏMİYYƏTİ

Regionda sahibkarlığın inkişafı həmin regionun resurslarını və onun əhali tələbatının ödənilməsi amili kimi baxılır [1, s. 10-16]. Ona görə də onun təşkilatlanmasında, tam bazar diktəsinin tətbiqi, yaxud ancaq tələb və təklifin ancaq özü-özünü tənzimləmə kriterisi kimi qəbul edilməsi, ərazi proporsiyalarının pozulmasına, miqrasiyanın güclənməsini və regionların kompleks tarazlı və sahələrin əlaqəli inkişafına əks təsir edə bilər. Ona görə də ərazi proporsiyalarının tarazlı inkişafının təmin edən tənzimləmə obyekti kimi, sahibkarlığın inkişafı dövlət tənzimləmə obyekti olaraq əsaslandırılır və onun inkişafında dövlət və yerli orqanların vəzifələri müəyyən edilir.

Sahibkarlıq özü-özündə təşəbbüskarlıq, gəlir gətirmək və rəqabətə dözümlü, fəaliyyət təşkil edən həm geniş təkrar istehsalı, həm də bazar tələbatına uyğun çevir riskli siyasət həyata keçirən təsərrüfat amili kimi tədqiq olunur [5, s. 145-160]. Azərbaycanda sahibkarlığın inkişafı bütün iqtisadi idarəetmə istiqamətində atılan mexanizmlərin tətbiqi sferası kimi özünün meyillərini və dəyişmə dinamikasını xüsusiyyətlərini doğurur. Onun dövlət himayəsi və ümumi iqtisadi problemləri, sahə və ərazi problemləri, funksional və kommersiya səyləri daim inkişaf edir, çevik iqtisadi idarəetmə mexanizminə çevrilir [4, s. 26].

Sahibkarlığın makroiqtisadi rolu, iqtisadi və sosial inkişafın sürətlənməsi və əhalinin rifahının yüksəldilməsi və iqtisadi müstəqillik istiqamətləri üzrə əldə olunan nəticələrlə ölçülür. ÜDM-ni artım tempində sahibkarlığın rolu, bütövlükdə onun yaratdığı dəyər və son məhsul, yaxud xalis məhsul kimi ÜDM-ni artım tempindəki rolu ilə xarakterizə olunur. Sahibkarlığın sosial-iqtisadi inkişafda rolu onun ayrı-ayrı sahələrinin və bu sahə daxilində qeyri dövlət sektorunun xüsusi çəkisi ilə müəyyən olunur. Ölkənin iqtisadi artım tempi, ümumi daxili məhsulda qeyri-dövlət sektorun ro-

lu, idxal və ixracatda özəl sektorun rolu, makroiqtisadi tənzimləmə obyekti olaraq ümumi strateci sahibkarlıq meyillərini aşkar edir.

**Sosial-iqtisadi inkişafda sahibkarlığın rolu**

| | 1997 | 1998 | 1999 | 2002 | 2003 |
|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul, mlrd. manat | 15352 | 16580 | 18600 | 9922,0 | 34000 |
| O cümlədən qeyri-dövlət sektorunun xüsusi çəkisi | 46 | 55 | 65 | 73 | 74 |
| Sənaye məhsullarının həcmi | 12568 | 12200 | 12950 | 11166,4 | 12113,3 |
| O cümlədən qeyri-dövlət sektorunun xüsusi çəkisi | 18,3 | 28 | 33 | 45 | 46 |
| Kənd təsərrüfatı məhsullarının ümumi həcmi | 41121 | 4180 | 4455 | 4195,5 | 4620,0 |
| O cümlədən özəl sektorun payı (%) | 74,1 | 90,0 | 95 | 98 | 98 |
| Pərakəndə əmtəə dövriyyəsi, mlrd. man. | 8468 | 9560 | 8710 | 13442 | 15201 |
| O cümlədən qeyri-dövlət sektoru | 91,8 | 97,1 | 98,1 | 99 | 99,1 |

Cədvəldə 2004-cü il sosial-iqtisadi inkişaf göstəriciləri üzrə hesablanmışdır. Sahibkarlığın iqtisadi rolu, bazar iqtisadiyyatının formalaşması və təşəkkülü üçün ilkin şərait və potensialın yaradılması vəzifəsi ilə icra olunur.

Planlı təsərrüfat sistemindən bazar münasibətlərinin yaranmasının ilkin şəraiti və əsas amili olaraq özəlləşdirmənin prioritetləri və əsas istiqamətləri müəyyən olunur. Bu məqsədlə aqrar sektorun iqtisadi rolu və onun özəlləşdirməsinin əsas xüsusiyyətləri sonrakı inkişaf şəraiti və əsas istiqamətlərini müəyyən edir.

Azərbaycanda sahibkarlığın sahə quruluşu formalaşmış potensialın sahə quruluşu ilə müəyyən olunur. O cümlədən əhalinin məşğuliyyət sahələrinin prioritetliyi, onun təbii və resurs potensialının iş qüvvəsinin formalaşma növü və təsərrüfat fəaliyyəti regionlarda sahibkarlığın əsas sahə və funksional xüsusiyyətlərini meydana atır.

Sahibkarlığın makroiqtisadi səmərəsi onun sosial-iqtisadi nəticələri ilə ölçülür. Özəl müəssisələrin istehsal həcmi ilə yanaşı, onun əhalinin məşğulluğu və əmək haqqı, gəlirlərinin formalaşmasında rolu keyfiyyətcə yeni meyarlarla ölçülür. Əgər ixracatda sahibkarların rolunu da qiymətləndirsək, onda əmtəə və tələb və təklifinin tarazlı inkişafında onun rolunun qiymətləndirilməsi metodologiyası daha aparıcı həlqə olur.

Regionlarda sahibkarlıq region və sahə ixtisaslaşması və kompleks region iqtisadi inkişaf konsepsiyası baxımından ölçülür. Regionda sahibkarlıq mülkiyyət münasibətlərinin qarlışıqlı əlaqəsi, onların resurs potensialında istifadə, sahiblik və sərəncam vermək hüququ ilə müəyyən olunur. Hər bir regionda əsas resurslar üzərində xüsusi mülkiyyət dövlət və bələdiyyə (yerli) sahibkarlığı forması mövcuddur. Özəlləşdirmənin birinci proqramına (1998-2000-ci illərdə) görə, əsas fondların tərkib hissəsi olan torpaq və kənd təsərrüfatı avadanlıqları üzərində xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti forması xarakterik cəhət olaraq qalır.

Kənd regionlarında torpaq üzərində xüsusi mülkiyyət və əsas becərilən torpaqların onun istifadəçilərinə verilməsi, digər insanların və hətta yaşamayan əhalinin pul vəsaitindən istifadə edilməsi imkanlarını azaldır. Kənd yerlərində torpaqların becərilməsi üçün lazım olan texniki vəsaitlərin və emal sənayesinin inkişafı üçün kəndlilərin maliyyə imkanlarının çatışmazlığı müşahidə olunur.

Bələdiyyə torpaqları istifadə edilmədən qalır, ya da icarəyə verilir. İcarəyə haqqı, icarədarların torpaqdan istifadəsinin hüquqi əsasları hələ ki, təminatlı olmadığı və onun istifadəsində əlavə kapitalın təminatının hüquqi və təşkilati bazası inkişaf etmədiyi üçün, bələdiyyə torpaqlarının tam iqtisadi dövriyyə cəlb edilməsi çətinliklərə gətirib çıxarır. Bələdiyyə mülkiyyətinin iqtisadi dövriyyə cəlb edilməsində ərazinin və bütün ölkənin iqtisadi və maliyyə potensialının istifadəsi üçün ilkin şərait tam yaradılmamışdır.

Bələdiyyə mülkiyyəti, bələdiyyə torpaqları və onların istifadəsi nəticəsində əldə olunan xammal və hazır məhsul istehsalını özündə birləşdirir. Bələdiyyə torpaqları üzərində tikilən müəssisələr və xidmət sahələri həmin bələdiyyətinin gəlirlərini əhatə edir. Bələdiyyə mülkiyyətinin istifadəsi nəticəsində formalaşan gəlirlər və onun təsərrüfat formaları ərazinin kompleks inkişafı üçün iqtisadi idarəetmə, təşkilati və maliyyə strukturu kimi inkişaf edir və ərazi münasibətlərinin əsas sahəsi kimi çıxış edir. Ərazilərdə kompleks inkişaf və sahibkarlıq mühiti həmin ərazidə mülkiyyət formalarının və mülkiyyət hüquqlarının vahid sistem halında ərazi potensialının maksimal istifadəsi meyarına uyğun formalaşır və inkişaf edir.

Mülkiyyət münasibətlərinin təkmilləşməsi aqrar sektorun və sahibkarlığın digər sahələrinin əlaqə formalarının təkmilləşdirilməsi gəlirlərinin formalaşması maliyyə mənbələrinin regionun sosial-iqtisadi inkişafına yönəldilməsinin səmərəli variantları ilə təmin olunur.

Əhalinin gəlirləri və ərazinin inkişafı onun əhatəsində olan hüquqi və fiziki şəxslərin əmlakının strukturundan və onların gəlirlərinin istifadə mexanizmlərindən xeyli asılıdır. Əhali məşğuliyyət növündən asılı olaraq dövlət, bələdiyyə və xüsusi mülkiyyətin istifadəsi hesabına gəlirlər əldə edir. Həmin gəlirlərin istifadəsi hesabına sahibkarlığın formaları və onun inkişafının istiqamətləri müəyyənləşir.

Bələdiyyə (yerli) gəlirlər onun büdcə xərclərini və sahibkarlığın inkişafı üçün maliyyə əsaslarını müəyyən edir. Ərazinin sosial-iqtisadi inkişafının maliyyə əsasları həmin regionun yerli gəlirləri, büdcədən ayrılan dotasiyalar və yerli büdcə gəlirləri ilə formalaşır. Ona görə də hər bir regionun kompleks sosial-iqtisadi inkişaf proqramı həmin regionda olan təsərrüfat formalarının ərazidə formalaşan hüquqi və fiziki şəxslərin büdcəsini və xərclərinin imkanlarını nəzərə alır [2, s. 110-120].

Dövlət büdcəsinin gəlirləri sahibkarlığın özünün inkişafı, onun vergi növləri üzrə potensialı, həmçinin vergi verməyin fəallığı ilə formalaşır. Döv-

lət büdcəsində həmçinin xərclərin istiqamətinə uyğun olaraq gəlirlərin artırılması imkanlarının maddi və maliyyə bazası yaradılır. İqtisadi və sosial inkişafın büdcə vasitəsi ilə maliyyə bazası və onun istifadəsinin texnologiyası əsaslandırılır. Dövlət büdcəsinin xərclərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri, sahələr, funksional vəzifələr və iqtisadi məqsədlər üzrə təsnifatlaşdırılır və prioritetlərə uyğun olaraq xərc strukturu formalaşdırılır. Hər bir regionun gəlirləri ilə xərcləri arasında mövcud fərqlər büdcə vasitəsi ilə maliyyələşdirilir ki, bu fərqin yaranmasının iqtisadi əsasları və normativ-hüquqi göstəriciləri əsasında tərtib olunur.

Regionların büdcəsi xərcləri və gəlirləri arasında fərq həmin regionların sosial-iqtisadi inkişafında ələbaxımlıq, yaxud başqa regionların maliyyəsi hesabına ödənilməlidir. Bu kompensasiya sosial kontingentlərin ehtiyaclarını ödəmək üçün mərkəzləşdirilmiş büdcə və fondlar hesabına ödənilir.

Hər bir regionda sosial-iqtisadi inkişaf həmin əhalinin məşğuliyyət quruluşu, yaşamaq üçün zəruri olan şərait və məhsulların təminat səviyyəsi və onlardan istifadə imkarları əsasında formalaşır.

Regionda təhsil, səhiyyə, pensiya təminatı və uyğun statuslu əhalinin çox olması həmin regiona ayrılan vəsaiti artırır, onun gəlirləri və xərcləri arasında fərqi formalaşdırır. Respublikada dövlət büdcəsinin gəlirlərinin 85%-i mərkəzləşdirilmiş gəlirlər hesabına formalaşır. Kənd regionlarında fiziki şəxslərdən torpaq vergisi və əmlak vergisi bələdiyyə (yerli) büdcələrinə daxil olur. Digər vergi növləri torpaq vergisindən başqa kənd təsərrüfatı sahələri, mülkiyyət münasibətlərindən asılı olmayaraq vergilərdən azaddır. Bu da sosial-iqtisadi inkişafın aqrar bölməsinin regionlarda inkişafı üçün idarəetmə mexanizminin təkmilləşdirilməsi deməkdir.

Regionun sosial-iqtisadi inkişafında xırda biznesin və orta sahibkarlığın daha sürətli artımı üçün 24 noyabr 2003-cü il Azərbaycan Respublikasının fərmanına uyğun olaraq sahibkarlığa kömək məqsədi ilə ayrılan kreditin 75%-ni rayonlara yönəldilməsi əsas prioritet kimi qəbul olunur.

Sahibkarlığın inkişafının regional problemləri və əsas istiqamətləri həmin regionun resurslarından və onun əsas tələbat sisteminin ən səmərəli ödənilməsi yollarından və xüsusiyyətlərindən asılıdır. Regionun kompleks iqtisadi inkişaf proqrammı həmin regionun imkanalırını nəzərə almaqla bazar tələbatına uyğun istehsal və istehlak səviyyəsini təmin etmək üçün zəruri olan iqtisadi-təşkilati tədbirləri əhatə edir. Sosial-iqtisadi inkişafın sürətlənməsi üçün özəlləşdirilmiş müəssisələrin, o cümlədən regionlar üçün əsas iqtisadi potensial olan kənd təsərrüfatı və onunla bağlı olan sahələrin kompleks əlaqələrini təmin edən inkişaf şəraitini yaratmaqdan ibarətdir.

Regionun inkişafında tələbat sistemi, həmin regionun idxal və ixrac potensialı və onun tənzimlənməsi dövlətin siyasətindən xeyli asılıdır. Regionun potensialını artırmaq həmin regionda olan təbii resurslarının sahibkar-

lıq yolu ilə istehsal olunan və əhalinin fiziki şəxs kimi, yaxud sahibkarlıq fəaliyyəti olaraq əhalidən aldığı məhsulların satışını təşkil edən müəssisə fəaliyyəti kimi səmərəli təşkilat formalarından asılıdır. Hər bir regionda istehsal strukturu, kənd təsərrüfatı məhsullarının istehlak və marketinq strukturu ilə müəyyən olunur.

Ona görə də özəlləşdirilmiş müəssisələrin inkişafı, onların sonrakı planlaşdırılması və idarəedilməsi əsas potensial amil olaraq inkişafın stimullaşdırılması rolunu oynayır. Sahibkarlıqda xarici bazara çıxış, öz məhsullarının reallaşması üçün bazar məkanının genişlənməsi, birbaşa əlaqə və yaxud məhsulun marketinq quruluşunun dəyişməsi ilə baş verir. Ona görə də marketinq strukturunun təkmilləşdirilməsi makrosəviyyədə iqtisadi inkişaf üçün əsas strateji məqsəd rolunu oynayır. Xarici ölkələrə hazır məhsulun ixracatında şirkətlərin və sahibkarların maraqlarının nəzərə alınması üçün şərait yaradılması bazar mühitində haqsız rəqabət və stimul yaratmaqla həyata keçirilir. Xarici ölkələrdə ixracat prosesi dinamik olaraq sahibkarlığın inkişafı, onun məhsuldarlığı və təsərrüfat əlaqələri məqsədi ilə yerli sahibkarlığın texnoloji quruluşunun təkmilləşdirilməsi və yeni marketinq strukturla məhsul istehsal etməklə daha səmərəli inkişaf baş verir [3, s. 50-85].

Sahibkarlıq inkişafında, əmtəə və xidmət bazarının genişlənməsi, onun ərazi və ayrı-ayrı ölkələrə nüfuz etməsi, həmçinin daxili bazarın qorunması və sahibkarlığın özünün stimullar əsasında artması üçün əmtəə və xidmət bazarının dövlət tərəfindən qorunması mühüm amil və tədbirlər məcmusudur. Dövlət idxal və ixrac prosesində həm ölkənin iqtisadi müstəqilliyini, onun istehsal potensialını və əhalinin maraqlarını qorumaq üçün sistem siyasəti həyata keçirir.

Belə ki, bəzi məhsulların respublikaya gətirilməsi üçün iqtisadi mexanizmlər vasitəsi ilə məhdudiyyət və ödəmələr tətbiq etməklə yerli istehsalın stimullaşdırılmasına stimul yaradılır. Son illərdə ölkədə idxalın azalması və ixracatın artması meyilləri inkişaf edir, bu da müsbət saldonun əmələ gəlməsinə səbəb olur.

## ƏDƏBİYYAT


1. Əlirzayev Ə.Q. İqtisadiyyat: düşüncələr, baxışlar. Bakı: Adiloğlu, 2002, 466 s.
2. Gənciyev G.Ə., Kərimov C.H. Sahibkarlığın əsasları: Məqalələr toplusu. Bakı: Elm, 1999, 136 s.
3. Musayev V.R., Seyfullayev İ.Z. Sahibkarlığın əsasları. Bakı: Çaşıoğlu, 2000, 372 s.
4. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı: Nurlan, 2004, 503 s.

5. Şəkərəliyev A.İ. Keçid iqtisadiyyatı və dövlət. Bakı: BDU, 2000, 342 s.

**Теймур Аббасов**

**РОЛЬ И МАКРОУРОВНЕВОЕ ЗНАЧЕНИЕ ПРЕДПРИНИМАТЕЛЬСТВА В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ.**

В статье исследованы особенности и закономерность развития предпринимательства, роль и макроуровневое значение предпринимательства в социально-экономическом развитии, а также стратегия развития аграрного рынка Нахчыванской Автономной Республики.

**Teymur Abbasov**

**THE ROLE AND MACROLEVEL SIGNIFICANCE OF ENTREPRENEURSHIP IN THE SOCIAL-ECONOMIC DEVELOPMENT OF NAKHICHIVAN AUTONOMOUS REPUBLIC**

In this paper peculiarities and objective laws of development and macrolevel significance of entrepreneurship activities in the social-economic development, also the development strategy of the agrarian market in Nakhchivan Autonomous Republic are investigated.

***Rəyçilər: İqtisad e.d. A.Rüstəmov, iqtisad e.d. N.Əhmədov.***

***Naxçıvan Dövlət Universitetinin «İqtisad» fakultəsinin «Gömrük işinin təşkili və BİM» kafedrasının 05 may 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 12).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**İRADƏ BAĞIROVA**
Naxçıvan Dövlət Universiteti

# XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN İDARƏ EDİLMƏSİNDƏ GÖMRÜK İŞİNİN ROLU

Ümumilli lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış və dövlət başçısı cənab İlham Əliyev tərəfindən reallaşdırılan sosial-iqtisadi inkişaf strategiyasının nəticəsi olaraq makqoiqtisadi sabitlik təmin edilmiş, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşmış, Azərbaycan iqtisadiyyatının dünya iqisadiyyatına inteqrasiyası istiqamətində uğurlu addımlar atılmışdır. Ölkə iqtisadiyyatında 1996-cı ildən başlanmış tərəqqi davam edərək iqtisadi və sosial həyatda yeni nailiyyətlərlə əlamətdar olmuş, bu prosesləri əyani nümayiş etdirən makroiqtisadi göstəricilər yüksəlmişdir. Təkcə 2006-cı ilin yanvar-sentyabr ayları ərzində ümumi daxili məhsul isehsalı keçən ilin müvafiq dövrü ilə müqayisədə 34 faiz artmış, adambaşına ÜDM istehsalı 1524,3 manat (1693,3 ABŞ dolları) təşkil etmişdir. Bu gün ümumi daxili məhsulun tərkibində qeyri-dövlət bölməsinin payı 75 faizə çatmışdır. Əsasən özəl bölmənin nümayəndələri vasitəsilə dünyanın 134 ölkəsi ilə ticarət əlaqələri yaradılmışdır.

Təbii inhisar subyektləri istisna olmaqla, sənaye, kənd təsərrüfatı, tikinti, ticarət və digər xidmət sahələri bütünlükdə, nəqliyyat və rabitənin xeyli hissəsi özəl sektora mənsub hüquqi və fiziki şəxslər tərəfindən inkişaf etdirilir.

Bütün bunlar ölkə iqtisadiyyatının inkişafında özəl bölmənin rolunun hansı səviyyəyə çatdığını açıq şəkildə göstərir. Özəl sektorun inkişafından isə iqtisadiyyatın başlıca parametrlərindən biri olan dövlət büdcəsinin gəlirlər hissəsinin formalaşması asılıdır. Bu baxımdan gömrük ödənişləri üzrə dövlət büdcəsinin mədaxil proqnozunun yerinə yetirilməsi özəl sektora münasibətdə gömrük siyasətinin düzgün müəyyənləşdirilməsinə çox bağlıdır.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi fəaliyyətə başladığı 16 il ərzində özünün struktur fəaliyyətinin genişləndirilməsi, ölkəmizdə mal dövriyyəsinin sürətləndirilməsi, gömrük ərazisinin müdafiə olunması, eləcə də xarici-iqtisadi fəaliyyəti iştirakçıları üçün əlverişli şərait yaradılması məqsədilə yeni infrastrukturlar, ixtisaslaşdırılmış gömrük ida-

rələri, postlar yaradılmış, gömrük orqanlarının fəaliyyətinin tənzimlənməsi ilə bağlı beynəlxalq standartlara uyğun qanunvericilik bazası möhkəmləndirilmişdir. Bu gün ölkəmizin iqtisadi maraqlarının qorunması, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınması, fiskal funksiyasının yerinə yetirilməsi üçün gömrük orqanları tərəfindən ölkəmizin sərhəd-buraxılış məntəqələrindən keçirilən mal və nəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük qanunvericiliyinin, eləcə də beynəlxalq müqavilələrin tələblərinə uyğun olaraq gömrük nəzarətindən keçirilir (1, s. 64).

Ölkədə ixrac əməliyyatının həvəsləndirilməsi və daxili bazarın qorunmasını təmin edən gömrük rüsumlarının tətbiqi, sərbəst gömrük zonasının və gömrük anbarının yaradılması, habelə qaçaqmalçılığa qarşı mübarizənin gücləndirilməsi və sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin qarşısının alınması kimi tədbirlərin həyata keçirilməsi də gömrük orqanlarının bu istiqamətdəki işini yenidən qurmaq üçün strateji xətt olaraq müəyyənləşdirilmişdir. Dövlət Gömrük Komitəsində müxtəlif beynəlxalq təşkilatların yaxından köməyi ilə ciddi modernləşdirmə prosesi həyata keçirilmişdir.

Bütün bu tədbirlərin həyata keçirilməsinin əsas məqsədi bir tərəfdən, ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək üçün gömrük nəzarətinin daha da gücləndirilməsi, digər tərəfdən, ticarət əməliyyatlarının gömrük rəsmiləşdirilməsi prosedurlarının sadələşdirilməsi və iş adamlarının gömrüklə bağlı vaxt itksinə yol verilməməsi, gömrük rəsmiləşdirilməsi prosesində xarici ticarətlə məşğul olan sahibkarlara gömrük işçilərinin birbaşa təmas imkanlarının aradan qaldırılmasıdır (2, s. 98).

Son illər gömrük nəzarətinin və qaçaqmalçılığa qarşı mübarizənin gücləndirilməsi, gömrük orqanlarının maddi-texniki bazasının, habelə maliyyə intizamının möhkəmləndirilməsi sahəsində görülən tədbirlər büdcə gəlirinin formalaşmasında Dövlət Gömrük Komitəsinin rolunu xeyli artırmışdır. Büdcə daxilolmalarında gömrük vergi və rüsumlarının xüsusi çəkisi 1994-cü ildəki 3 faizdən 2005-ci ildə 18,3 faizə, mütləq rəqəmlə 3,5 milyon manatdan 2005-ci ildə 376,17 milyon manata çatdırılmışdır. 2006-cı ilin büdcə daxilolmalarında isə bu göstərici 505,4 milyon manat nəzərdə tutulmuş və artıq 9 ay ərzində 384,46 milyon manat vergi və rüsumların büdcəyə ödənişi təmin olunmuşdur. Cari ilin ilk 9 ay ərzində aparılmış ticarət əməliyyatlarının həcmi 8 626 126 min, o cümlədən bu müddət ərzində 4 847 465,3 min ABŞ dolları dəyərində 1967 adda mal ixrac, 3778 660,7 min ABŞ dolları dəyərində 5527 adda mal isə idxal olunmuşdur. İdxal-ixrac əməliyyatları üzrə müsbət saldo 1068 804,6 min ABŞ dolları təşkil etmişdir (5, s. 147).

İstehsalı genişləndirmək və ixraca əlverişli şərait yaratmaq məqsədilə iş adamlarını maraqlandıran mühüm məsələlərdən biri də gömrük tarif və

qeyri-tarif tənzimlənməsi tədbirləri həyata keçirməkdir. Bu istiqamətdə Nazirlər Kabineti tərəfindən bir sıra tədbirlər görülmüşdür.

Bütün bunlar, o cümlədən daxili istehsalı qorumaq və ixracı stimullaşdırmaq istiqamətində görülən işlər xarici icarə dövriyyəsində ixracın həcminin artmasına şərait yaratmışdır. Əgər 1994-cü ildə ixracın həcmi 508,1 milyon ABŞ dolları təşkil edirdisə, 2005-ci ildə bu rəqəm 4,34 milyard ABŞ dolları olmuşdur. 2006-cı ilin 9 ayında isə ixracın həcmi 4,85 milyard ABŞ dollarına çatmışdır.

Xarici ticarətin liberallaşdırılması, idxal-ixrac əməliyyatlarına tam sərbəstlik verilməsi ölkə iqisadiyyatında müsbət dəyişikliklərin əsasını qoymuş və xarici ticarətin dövlət tənzimlənməsinin mühüm vasitəsi olan gömrük tariflərinin formalaşması və tətbiqində mühüm rol oynamışdır. Son illər ərzində gömrük tarif tənzimlənməsindən idxalın əmtəə strukturunu səmərələşdirmək, ixracı stimullaşdırmaq, daxili istehsala şərait yaratmaq istiqamətində xeyli işlər görülmüşdür ki, bu da ölkə iqtisadiyyatını xarici rəqabətin mənfi təsirindən qorumaq üçün əlverişli şərait yaradır (4, s. 143).

Bunun nəticəsi olaraq 1994-cü illə müqayisədə xarici ticarətin illik dövriyyəsi 8 dəfə artmışdır.

İdxalın əmtəə strukturunu səmərələşdirmək, sahibkarlığın inkişafına normal şərait yaratmaq məqsədilə tariftənzimləmə tədbirləri kimi xarici ticarətdə bir çox dövlətlərlə mal və xidmətlər, azad ticarət, iqtisadi inteqrasiya sazişlərinin imzalanması da əsas şərtlərdən biridir. Bu baxımdan hazırda Rusiya Federasiyası, Ukrayna, Qazaxıstan, Gürcüstan, Qırğızıstan, Belarus və Moldova ilə bağlanmış azad ticarət sazişinə uyğun olaraq (protokolla müəyyən olunmuş mallar istisna olmaqla), həmin ölkələrdən Azərbaycana, Azərbaycandan isə bu dövlətlərə idxal olunan mallar idxal rüsumlarına cəlb edilmir (3, s. 88).

Avropa Birliyi ilə Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin imzalanması Avropa Birliyinə daxil olan ölkələrlə xarici-iqtisadi əlaqələri xeyli genişləndirmişdir. Avropa Birliyi ölkələrinin standartlarına cavab verə biləcək yeni Gömrük Məcəlləsinin son variant Avropa Gömrük Təşkilatının dəstəyi ilə işlənib hazırlanmış və yaxın zamanda Milli Məclisin müzakirəsinə veriləcəkdir. Azərbaycan gömrük təşkilatı Avropa Birliyinin TACİS və TRASEKA proqramları çərçivəsində gömrük sisteminin inkişafı və modernləşdirilməsi sahəsində də ardıcıl olaraq işlər görür və müxtəlif təyinatlı layihələr hazırlayıb təqdim edir. Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olması üçün idxal-ixrac əməliyyatları üzrə tarif və qeyri-tarif tənzimlənməsi tədbirlərini beynəlxalq normalara uyğun qurmaq istiqamətində müvafiq tədbirlər görülür.

Sonda bir daha vurğulayım ki, Dövlət Gömrük Komitəsi Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, onun iqtisadi qüdrətinin daha da artırılması, mövcud problemlərin aradan qaldırılması, ölkədə sahibkarlığın

inkişafına əlverişli şərait yaradılması və ona mane olan müdaxilələrin qarşısının alınması sahəsində ölkə Prezidenti İlham Əliyev tərəfindən qarşıya qoyulmuş vəzifələrə əməl olunması, həmçinin digər funksiyalarla yanaşı, fiskal funksiyasının, eləcə də büdcə daxilolmalarında gömrük vergi və rüsumları üzrə müəyyən edilmiş proqnozların yerinə yetirilməsi üçün bütün imkanlarını səfərbər edir. Bütün bunlar isə çətin şəraitə baxmayaraq, ölkənin bütün bölgələrinin həqiqi inkişafa və dirçəlişə qovuşmasına əsaslı təsir göstərir.

## ƏDƏBİYYAT


1. Əliyev A. Xarici ticarət iqtisadi əlaqələrə gömrük nəzarəti / Azərbaycan iqtisadiyyatı: problemlər, perspektivlər. Bakı: Elm, 2002, 268 s.
2. Azərbaycan Respublikası Gömrük Məcəlləsi. Bakı: Qanun, 1997, 150 s.
3. İmanov M.N. Gömrük qanunvericiliyi barədə. Bakı: Elm, 2000, 180 s.
4. Основы таможенного дела: Учебное пособие. Вып. 1-7, Москва: РНО РТА, 1995, 387 с.
5. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Çaşıoğlu, 2005, 380 s.



**Ирадэ Багирова**


## РОЛЬ ТАМОЖЕННОГО ДЕЛА В УПРАВЛЕНИИ ВНЕШНИМИ ЭКОНОМИЧЕСКИМИ СВЯЗЯМИ


В статье исследуется роль таможенного дела в управлении внешними экономическими связями Азербайджанской республики и обеспечении экономической безопасности страны.

В статье сделан вывод, что для успешной реализации поставленных задач следует расширить производство, создать благоприятные условия для экспорта, обеспечить защиту внутреннего рынка.



**Irada Bagirova**


## ROLE OF CUSTOMS SERVICE IN MANAGEMENT OF FOREIGN ECONOMIC RELATIONS


In the article is investigated the role of customs service in management of foreign economic relations of the Azerbaijan republic and in the maintenance of economic safety of the country.

In the article a conclusion is drawn, that for successful realization of tasks in view it is necessary to expand production, to create favorable conditions for export, to provide protection of the home market.

***Rəyçilər: İqtisad e.d. A.Rüstəmov, dosent A.Qəribov.***

***Naxçıvan Dövlət Universitetinin «İqtisad» fakultəsinin «Gömrük işinin təşkili və BİM» kafedrasının 05 may 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 12).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**QƏRİB ALLAHVERDİYEV**
Naxçıvan Dövlət Universiteti

# FƏRDİ AZADLIQ İCTİMAİ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

Fərdi azadlığın ictimai münasibətlər sistemində yerin və meyarlarını təhlil edərkən, birinci növbədə fərdi və ictimai arasındakı əlaqələrin mahiyyətinə diqqət yetirilməlidir. Sözügedən məsələ müasir sosial fəlsəfədə kifayət qədər öyrənilməmişdir və öz elmi həllini gözləyən problemlərdəndir.

Fərdi-şəxsi tərəf ilə ictimai münasibətlər sistemi bir-birindən ayrılmazdır. Onların əlaqələri öz məzmunu etibarilə son dərəcə rəngarəngliyi ilə, xarakterinə görə isə çoxsaylı variantlar spektrinə malik olması ilə səciyyələnir. İnsanı digər canlılardan fərqləndirən ən mühüm əlamətlərdən biri onun sosial mühitdə, müəyyən ictimai münasibətlər sistemində yaşayıb fəaliyyət göstərməsidir. Bu mənada hər bir fərdin bütövlükdə sosial məzmunu, hərəkətləri və davranışının azadlıq dərəcəsi onun əhatə olunduğu ictimai münasibətlərin xarakteri və imkanları ilə sıx bağlıdır. V.Solovyov haqlı olaraq qeyd edirdi ki, «istənilən adamdan, onun başqaları ilə əlaqələrindən əldə etdiyi cəhətləri əlindən alsan, onun nəinki azadlığından, heç öz mövcudluğundan da bir şey qalmaz» (7, s. 343).

Fərd ilə ictimai münasibətlər sisteminin daxili immanent vəhdəti bununla şərtlənir ki, hər bir insan öz əməyi sayəsində sosial əhəmiyyət kəsb edən, predmetlər və məhsullar yaradır və özünü onlarda təcəssüm etdirir. Onun bu qabiliyyəti maddi istehsal sahəsi ilə məhdudlaşmır. Sosial sferanı, siyasi həyatı mənəvi dəyərlərin yaranmasını, təşkilati-idarəçilik strukturlarını da əhatə edir, bir sözlə, ictimai münasibətlərin bütün növlərində özünü göstərir. Buna görə də bütövlükdə ictimai həyat sözün müəyyən mənasında insan varlığının özünüreallaşdırılması, predmetlərdə təcəssüm olunması və təkrar istehsalı deməkdir. İnsanın əməyi qapalı və əlahiddə baş verməyərək, kollektiv xarakter daşıdığından onun ictimai həyatda təcəssümü həm də əlaqələr, təmaslar və münasibətlər formasında ifadə olunur. İnsan əmək prosesində şüurlu məqsədi və idealı ilə yanaşı, həm də malik olduğu bilikləri və digər mənəvi keyfiyyətləri də reallaşdırır. Qeyd olunan proses onun idraki azadlığı və iradəsinin fəal iştirakı ilə həyata keçirilir. Fərdi azadlıq ilə ictimai münasibətlər sisteminin çoxtərəfli əlaqələri məhz bu əsas üzərində formalaşır.

Qeyd edək ki, fərdi ilə ictimai bir-birinə qarşı duran alternativlər olmayıb, hərəsinin öz spesifikliyi olan, iki qarşılıqlı təsirdə və vəhdətdə çıxış edən tərəflərdir. Buna görə fərdi və ictimai (qrup) maraqların düzgün əlaqələndirilməsi və uzlaşdırılması həm bütövlükdə cəmiyyəti, həm də buradakı hər bir insanı qoruyub saxlamağın və inkişaf etdirməyin iki ayrılmaz zəruri şərtidir.

Ümumiyyətlə götürdükdə, fərdi ilə ictimainin əlaqələri çox mürəkkəb məzmuna malik olduğundan, onun elmi tipologiyasının verilməsi ciddi çətinliklər yaradır. Bununla belə son dövrün sosial-fəlsəfi ədəbiyyatında sözügedən əlaqələrin dörd növünün müəyyənləşdirilməsi cəhdi özünü göstərir və bu mühüm elmi maraq doğurur (1, s. 105-106):

a) sosial-tipik ilə fərdi şəxsi cəhətlərin qarşılıqlı surətdə bir-birini tamamlayan növ; b) onların üzvi surətdə bir-birinə nüfuz etdiyi növ; c) sosial birlik ilə insanın fərdi keyfiyyətlərinin qarşılıqlı etinasızlığı ilə səciyyələnən növ; ç) onların qarşılıqlı surətdə bir-birini dəf etdiyi növ.

Bizim araşdırdığımız problemin pozitiv mənalandırılması baxımından birinci iki növ xüsusi əhəmiyyət kəsb edir (həm də qeyd olunmalıdır ki, onları daha geniş yer tutur). Fikrimizcə, bu növləri fərdi və sosial maraqların əlaqələndirilməsi vahid prosesinin iki ardıcıl yetkinlik səciyyəsi kimi də təsəvvür etmək olar. Lakin onların hər biri özünəməxsus səciyyə daşıyır. Qeyd olunan əlaqə tiplərinin reallaşmasında sosial birlik formaları fərd ilə ümumi ictimai arasında əlaqələndirici vəsilə kimi çıxış edir. Buna görə də fərdi maraqların və azadlığın ümumi maraqlar və azadlıq ilə uzlaşdırılması məhz sosial birlik səviyyəsindən keçərək baş verir. Qeyd olunan vəziyyət bununla şərtlənir ki, sosial birlik forması (kollektiv, sosial qrup, millət və s.) öz üzvlərinin maraqları əsasında formalaşan üzvi bütövlük olduğundan, onların həyat fəaliyyətinin bütün sahələrinə dərindən nüfuz edir və aktivliyini stimullaşdırır. Buna görə də sosial birlik formasının maraqları sadəcə ümumi rəy və mövqe olmayıb, ümumi fəallıq, birgə hərəkət deməkdir. Bununla yanaşı, göstərilməlidir ki, son dövrlərdə ölkə daxilində və beynəlxalq miqyasda baş verən əsaslı dəyişikliklər fərd ilə onun daxil olduğu sosial birlik forması arasında əlaqələrdə də müəyyən yeniliklər yaradır. İndi cəmiyyətdə lokal və mikrososial birliklərin sayının çoxalması, birlik formalarının açıq xarakterinin güclənməsi, sürətlənməkdə olan miqrasiya prosesləri fonunda ayrıca bir insanın sosial birliyə münasibətində avtonomluğu və müstəqilliyi artır, onların əlaqələrinin zəifləməsi meyli müşahidə olunur. Bu meyil şəxsiyyətin sosial identikləşməsində məcburiliyin, ənənə gücünün, təzyiqin xüsusi çəkisinin azalmasına gətirib çıxarır. Onların yerini fərdiliyin inkişafı, təşəbbüskarlıq, iradə, seçim müstəqilliyi və azadlıq kimi keyfiyyətlər tutur. Bu münasibətdə Q.Q.Diligenskinin aşağıdakı fikri doğru səslənir: «Hazırda öz motivlərini və biliklərini, əxlaq normalarını və dünyagörüşü ustanovkalarını qrup mədəniyyətlərindən hasil edən ənənəvi

model aradan qalxır. İndividuallaşma baş verir ki, bu, fərdin avtonomluğunun inkişafı demək olub, onu öz şüuru və davranışını səmtləşdirən müstəqil dəyərlər seçimi zərurəti qarşısında qoyur» (2, s. 40).

Hər bir insan şüurlu varlıq kimi öz tələbatlarını, maraqlarını, iradəsini və qarşısına qoyduğu məqsədi reallaşdırmağa yönələn fəaliyyət göstərir. Bu prosesdə o, sosial mühitin və ictimai münasibətlər sisteminin yaratdığı real imkanlardan bəhrələnir. Bununla yanaşı, insan passiv deyil, yaradıcı mövcudatdır, buna görə də sonuncular buna şərait yaratmadıqda, subyekt onlara qarşı etiraz edir və onları dəyişdirməyə cəhd göstərir. Bu məqam da insanın fərdi azadlığının göstəricisi kimi çıxış edir.

Ümumiyyətlə götürdükdə, insan-cəmiyyət münasibətləri çoxşaxəli xarakterə malikdir. Burada uyğunluq, vəhdət və ahəngdarlıq, qarşılıqlı nüfuz etmək kimi istiqamətlərlə yanaşı, həm də fərqlilik və müəyyən məsafəliliyin (ayrılığın) olduğu qeyd edilməlidir. Bu məqama məhəl qoymadan fərdi azadlığın ictimai münasibətlər sistemində yerini, rolunu və ölçülərini hərtərəfli araşdırmaq mümkün deyildir. Həm də nəzərdə tutulmalıdır ki, yuxarıda göstərilən istiqamətin rolunun şişirdilməsi, qeyri-ixtiyari surətdə insanın cəmiyyət içərisində əridilməsinə gətirib çıxarır. Buna görə də ayrıca bir insan ilə sosial birlik və bütövlükdə cəmiyyət ilə münasibətdə müəyyən fərqliliyin və ayrılığın olduğu mütləq göstərilməlidir. Qeyd olunan məqam bununla izah olunur ki, insan sözügedən münasibətlərdə bir subyekt kimi çıxış edir, daim öz subyektivliyinin davam və inkişaf etdirilməsinə cəhd göstərir. Bunu nəzərdə tutmaq çox vacibdir. «İnsanın subyektivliyi problemi onun mövcud olan və fəaliyyət göstərən sosial aləmdən yüksəyə qalxmağı arzu edən təbiəti ilə bağlıdır» (3, s. 36).

İnsanın subyektivliyi məzmun etibarilə çox genişdir. Buraya onun təbii imkanları və qabiliyyətləri, sosial keyfiyyətləri, daxili mənəvi aləmi (dünyagörüşü, dəyərlər orientasiyası, motivasiyası, emosional-psixoloji durumu və s.) daxildir. Deyilənlər göstərir ki, insanın subyektivliyi onun mənəviliyi ilə sıx bağlı olsa da, təkcə ondan ibarət deyildir. Daha geniş məzmun daşıyan bu anlayış həm də obyektiv və subyektiv keyfiyyətlərin özünəməxsus qovuşuğu kimi çıxış edir. İnsanın subyektiv aləmi daim onun həyat fəaliyyətinin möhkəm dayağı, tükənməz enerjisi və yaradıcılıq qabiliyyətinin daxili mənbəyi rolunu oynayır. Bu cəhət insanın fərdi azadlığının səviyyəsi və inkişafının onunla sıx bağlılığını şərtləndirir.

İnsan ilə cəmiyyət, ictimai münasibətlər arasındakı fərqlilik (ayrılıq və məsafəlilik) həm də onun ikili (parçalanma və totallıq) təbiətində təzahür edir. Birinci tərəf onda ifadə olunur ki, cəmiyyət inkişaf etdikcə, insan fəaliyyəti getdikcə daha artıq dərəcədə müxtəlif növlərə ayrılır və diferensiasiyaya uğrayır, ictimai həyat son dərəcə rəngarəng strukturların və əlaqələrin bütöv məcmusu kimi çıxış edir. İctimai həyatın daim mürəkkəbləşməsi və şaxələnməsi özünün müvafiq ifadəsini həm də insan fərdiyyətində tapır.

Sonuncu da çoxlu şaxələrə ayrılır və müəyyən konkret fəaliyyət növünə sıx bağlılığı ilə səciyyələnir.

Qeyd olunan prosesin insanın özünə güclü təsiri aşağıdakı iki məqamda aşkara çıxır. Bir tərəfdən, insan daha çox ixtisaslaşır, həyat fəaliyyətinin bir sahəsində mərkəzləşir. Nəticədə onun birtərəfli inkişafı sürətlənir, universallığı və çoxtərəfliliyi isə sözün müəyyən mənasında kölgədə qalır. Digər məqam odur ki, bu prosesdə insanın artmaqda olan funksionallaşması özünü göstərir. Belə ki, insanın professionallığının dərinləşməsi və birtərəfli inkişafı nəticəsində, onun həmin müvafiq fəaliyyət sahəsindən asılılığı da çoxalır. K.Yaspers bunu «Fərdin funksiyalara parçalanması» kimi səciyyələndirirdi (8, s. 49).

Sözügedən proses o deməkdir ki, insan tədricən və çox vaxt da özü hiss etmədən ictimai istehsalın və strukturların özünəməxsus funksiyası rolunu yerinə yetirən subyektə çevrilir. Bu isə nəticə etibarilə ona gətirib çıxarır ki, insanın şəxsiyyət kimi inkişafını göstərən bəzi keyfiyyətlər arxa plana keçir, onların yerini konkret istehsal və orada insanın rolu ilə bağlı tərəf tutur. «İctimai ölçülər baxımından yanaşdıqda fərd daha şəxsiyyət kimi çıxış etmir. Cəmiyyəti yalnız fərdin müəyyən tərəfi və keyfiyyətləri maraqlandırır, nəticədə o məcmusu şəxsiyyət kimi deyil, müəyyən ixtisaslı fəhlə və qulluqçu kimi qəbul olunur» (5, s. 174).

İnsanın ictimai münasibətlər sistemi ilə müəyyən ayrılıqda olması təkcə görkəmli şəxsiyyətlərə mənsub olan keyfiyyət deyildir. O ümumilikdə hər bir insana aid edilməlidir. Bu, cəmiyyətin hər bir üzvünün təkrarolunmaz və özünəməxsus cəhətlərin, sosial təcrübənin, yaradıcılıq və iradənin bütöv və müstəqil sistemi kimi çıxış etməsindən irəli gəlir. Qeyd olunan münasibətdə V.S.Solovyovun aşağıdakı fikrinə haqq qazandırmaq olar: «Hər bir fərdi adam qeyri-məhdud gerçəkliyi həyata keçirmək üçün imkan və yaxud sonsuz məzmunun xüsusi forması deməkdir» (6, s. 282).

Fərdi azadlıq və ictimai münasibətlər sisteminin əlaqələrinin sosial-fəlsəfi araşdırılması, həm də sosial fəallığının ictimai və fərdi növlərinin qarşılıqlı əlaqələrinə və özünəməxsusluqlarına nəzər salmağı tələb edir. Bununla əlaqədar göstərilməlidir ki, cəmiyyətin insana təsiri məzmun etibarı ilə müxtəlif olur (insanın mövqeyi baxımından yanaşdıqda).

Fərdi azadlıq ilə ictimai münasibətlər sistemi və ümumi maraqların əlaqələri mürəkkəb olub, aşağıdakı üç formada özünü göstərə bilir. Birinci ictimai zərurət tərəfindən azadlıq qarşısında həddən artıq məhdudiyyətlərin qoyulması ilə səciyyələnir. Fərdi azadlığın belə sərt determinasiyası, onun reallaşmasında, yəni subyektin öz həyat fəaliyyətini arzu və istəklərinə uyğun qurması yolunda lüzumsuz sədd çəkilməsinə gətirib çıxarır. Nəticədə cəmiyyətdə ictimai münasibətlər də zərər çəkir, onun sabitliyi pozulur, sosial sistemin ahəngdar inkişafı ləngiyir. Deyilənlərdən heç də belə bir qənaət hasil olmamalıdır ki, cəmiyyət tərəfindən fərdin hər cür arzu və istəklərinə

şərait yaradılmalıdır. Əks halda fərdi mənafelləri ümumi maraqlarla uzlaşdırmaq qeyri-mümkün olardı.

İkinci fərdi azadlığın hüdudlarının həddindən artıq şişirdilməsi və ictimai zərurətə məhəl qoyulmamasıdır ki, bu da arzuolunmazdır. Belə ki, sözügedən vəziyyətdə ictimai həyatda özbaşınalığın, xaosun, nizamsızlığın yaranması və baş alıb getməsi labüddür.

Üçüncü vəziyyət, fərdin azadlığı ilə ictimai azadlıq və mövcud sosial münasibətlər sistemi arasında normal qarşılıqlı əlaqə və təsirin həyata keçirilməsini nəzərdə tutur. Bu, bir tərəfdən, fərdin öz qabiliyyət və imkanlarını azad surətdə reallaşdırmaq üçün şərait yaradır, digər tərəfdən isə onun maraqlarının digər insanlar və ümumilikdə cəmiyyətin maraqları ilə əlaqələndirilməsini və uzlaşdırılmasını təmin edir. Deyilənlərdən aydın olur ki, bu həm ayrıca bir insanın azadlığını inkişaf etdirməyin, həm də onun digər insanlarla və bütövlükdə cəmiyyətlə ahəngdar münasibətlərini yaratmağın ən məqbul və optimal modelidir.

İnsan daim yaşadığı cəmiyyətin və ictimai münasibətlər sisteminin çoxtərəfli təsirinə məruz qalsa da, onun səviyyəsi bütün zamanlarda eyni olmur. Bu mənada yaşadığımız müasir dövr daha səciyyəvidir. Belə ki, burada cəmiyyətin insana təsirinin ənənəvi formaları (müvafiq əmək sahəsinin tələbləri, müxtəlif makro və mikrostrukturların maraqlarının qorunması, dövlətin və ictimai idarəçilik institutlarının tələbləri, adət və ənənələrin təsiri və s.) daha da güclənir və yeni, daha mükəmməl formalar ilə tamamlanır. Sonuncu məqam xüsusilə mühümdür. Söhbət ondan gedir ki, müasir dövrdə ölkə daxilində gedən əsaslı dəyişikliklərin miqyası və sürəti artdıqca, onların insana təsiri də güclənir. Ən başlıcası isə budur ki, hazırda dünyada baş verən kommunikativ əlaqələrin möhkəmlənməsi, qloballaşma, bütün ölkələri və regionları özünün sıx şəbəkəsi ilə əhatə edən informasiya inqilabı, dünya birliyinin müasir mərhələsini səciyyələndirən digər mühüm meyillər və s. bütöv bir vəhdət təşkil edərək, cəmiyyətin insana təsirini əvvəllərdə olduğundan müqayisəyəgəlməz dərəcədə artırır. Müasir insan Sözün əsl mənasında götürülən ictimai təsir burulğanına cəlb olunur. Bu təsir çoxistiqamətli olduğu kimi, həm də nizamsız, dağınıq və qarmaqarışıqlığı ilə səciyyələnir. Nəticədə hər bir subyektdə bu təsirlərə reaksiya vermək, ümumi ictimai axına uyğunlaşmaq tələbatı yaranır. Bununla əlaqədar qeyd edək ki, insan nə qədər qüdrətli və möhkəm olsa belə, həmin təsirlərin hamısına adekvat reaksiya vermək iqtidarında deyildir. Onun seleksiyaedici qabiliyyəti və müəyyən özünümüdafiə mexanizmi işləyib hazırlaya bilməsi bu işdə ona çox ciddi kömək edir. Söhbət ondan gedir ki, insan şüurlu və aktiv mövcudat kimi, bütün ona olan ictimai təsirlərə müəyyən seçici münasibət bəsləyir. Bu o deməkdir ki, subyekt həmin təsirlərin bir qismini tam qəbul edir və öz daxili varlığına interiorizasiya edib köçürür, digərlərinə isə sadə və bəsit şəkildə adaptasiyaedici münasibət bildirməklə reaksiya verir.

Yerdə qalan təsirləri isə o, ümumiyyətlə, qəbul etmir və özündən kənarlaşdırmağa cəhd göstərir.

Deyilənlər sübut edir ki, insan ona yönəlmiş olan çoxsaylı ictimai təsirləri birmənalı qəbul etmir, onlara müəyyən süzgəcdən keçirməklə öz münasibətini bildirir. Fərdin şəxsi mövqeyi, onun subyektiv keyfiyyətləri və dünyası bu məqamda daha aydın üzə çıxır. Başqa sözlə desək, insan ona göstərilən bütün ictimai təsirləri mexaniki surətdə özünə köçürmür, onlara öz maraqları və subyektiv keyfiyyətləri meyarından yanaşır, onları şəxsiyyət kimi adekvat mənalandırır. «Fərd, öz iradəsi, fantaziyası, təxəyyülü və varlığın nizamlarına qarşı inadkarlığı vasitəsilə özünü çoxvariantılığın və azadlığın stoxastik məqamına qovuşdurur» (4, s. 200).

Araşdırma göstərir ki, fərdi azadlıq ictimai münasibətlər sistemində çox mühüm və özünəməxsus yer tutur. O, fərdin daxili varlığının başlıca keyfiyyəti olaraq, onun ictimai və fərdi həyatda özünüreallaşdırılması kimi çıxış edir. Onun sayəsində insan özünün müxtəlif fəaliyyət sahələrində zərurəti dərk edərək, onu özünün inkişafı şərtinə çevirə bilir. Lakin fərdi azadlığın inkişafını maraqlardan kənarda duran və ya ona qarşı yönələn proses kimi təsəvvür etmək doğru deyildir. Əksinə, ictimai münasibətlər sisteminin təkmilləşməsi, cəmiyyətin iqtisadi, sosial, siyasi və mənəvi sahələrində qazanılan uğurlar, fərdin yaradıcılığının və azadlığının inkişafına təkan verir, onun üçün yeni-yeni imkanlar açır. Azadlığın, fərdi mənafeləri ilə ictimai mənafelərin uzlaşdırılması üsulu olması mahiyyəti məhz bu məqamda daha aydın üzə çıxır.

Beləliklə, ictimai münasibətlər sistemi ilə fərdi azadlıq arasında mürəkkəb və çoxistiqamətli qarşılıqlı əlaqə və qarşılıqlı təsir mövcuddur. Bu, əsas etibarilə aşağıdakı iki səbəb ilə izah edilir: birinci, hər bir insan yaşadığı cəmiyyətin ümumi ictimai münasibətlər sisteminin təsiri altında, onun ümumi proqramını və tələblərini öz həyat fəaliyyəti müstəvisinə çevirmək və reallaşdırmaq əsasında yaşayır və inkişaf edir. Bu mənada onun fərdi azadlığının hüdudları həmin cəmiyyətin inkişafı səviyyəsi ilə şərtlənir və müəyyən olunur. İkinci, insan özünəməxsus mahiyyət kəsb edən şəxsiyyət olmaqla, vahid ictimai proqramın və ictimai münasibətlər sisteminin ümumi tələblərini öz daxili fəaliyyəti proqramı üçün mənbə kimi qəbul etməklə yanaşı, ona yaradıcılıqla yanaşaraq, məhz ona məxsus olan daxili proqram formasına salaraq reallaşdırır. Burada o, yaradıcı subyekt kimi çıxış edir, öz seçimini iradə azadlığını nümayiş etdirir, müstəqil özünüreallaşdırma qabiliyyətini üzə çıxarır.

## ƏDƏBİYYAT

1. Барулин В.С. Социальная философия. М.: Фаир Пресс, 2002, 320 с.
2. Дилигенский Т.Т. В защиту человеческой индивидуальности // Вопросы

философии, 1990, № 3, с. 40-48.
3. Крутова О.Н. Человек и история. М.: Наука, 1992, 157 с.
4. Панарин А.С. Философия политики. М.: Владос, 1996, 378 с.
5. Соатла Т.А. Индивид и общество. Таллин: Кинст, 1988, 212 с.
6. Соловьев В.С. Сочинения: В 2-х т. Т.1, М.: Мысль, 1990, 892 с.
7. Спиркин А.Г. Философия. М.: Гардарики, 2000, 803 с.
8. Ясперс К. Духовная ситуация времени. М.: Республика, 1990, 500 с.

**Гариб Аллахвердиев**

## ИНДИВИДУАЛЬНАЯ СВОБОДА В СИСТЕМЕ ОБЩЕСТВЕННЫХ ОТНОШЕНИЙ

В статье описывается место индивидуальной свободы в системе общественных отношений и ее критерии, в социально-философском аспекте исследуется их взаимосвязь. В связи с этим рассматривается взаимосвязь и своеобразие общественных и индивидуальных видов социальной деятельности, устанавливаются формы связи индивидуальной свободы с системой общественных отношений и общих интересов.

В статье отмечается значение нормальной взаимосвязи и взаимодействия между свободой индивида и общественной свободой и существующей системой социальных отношений.

**Garib Allahverdiyev**

## INDIVIDUAL FREEDOM IN THE SYSTEM OF SOCIAL RELATIONS

In the article the position and criteria of individual freedom in the system of social relations are described, their interrelation is investigated in social-philosophical aspect. In this connection the interrelation and originality of public and individual types of social activity are considered, forms of connection of individual freedom with the system of social relations and the common interests are established.

The importance of normal interrelation and interaction between freedom of an individual, freedom of the society and the existing system of social relations is marked in the article.

***Rəyçilər: Fəlsəfə e.n., dosent Y.Hüseynov, fəlsəfə e.n. N.Rəhimov.***

***Naxçıvan Dövlət Universiteti «Sosial idarəetmə və turizm» kafedrasının 12 sentyabr 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 14).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**CAVADXAN QASIMOV**
AMEA Naxçıvan Bölməsi

# MÜASİR DÖVRDƏ AQRAR SAHƏNİN FAYDALILIĞI

Ölkəmiz 1991-ci ildən etibarən müstəqil dövlət olmaqla sosial-iqtisadi, ictimai-siyasi, mədəni və digər sahələrdə tamamilə yeni olan mərhələnin əsası qoyulmuşdur. Bu yenilik iqtisadiyyatımızın da möhkəm təməllər üzərində qurulmasını özündə əks etdirirdi. Keçmiş inzibati amirlik iqtisadi sistemindən imtina edərək, yeni bazar iqtisadi sisteminə keçən ölkəmiz yalnız və yalnız düşünülmüş və məqsədyönlü iqtisadi siyasət nəticəsində nəzərdə tutulmuş məqsədə çata bilərdi.

1988-1990-cı illərdə bu bir o qədər də asan məsələ deyildi. Bir tərəfdən, tarixi düşmənlərimiz olan ermənilərin torpaqlarımıza işğalla nəticələnən təcavüzü, digər tərəfdən də ölkədaxili vəziyyətin qeyri-sabit olması bütün sahələrlə yanaşı, iqtisadi sahədə də sözün əsl mənasında böyük maneə obyektinə çevrilmişdir. Nəzərə alsaq ki, bu işğalın nəticəsində 1,2 milyon Azərbaycan vətəndaşı qaçqın vəziyyətinə düşmüş və həmin dövrdə bu proses mövcud vəziyyəti daha da ağırlaşdırırdı, onda bir iqtisadi formasiyadan digərinə keçidin nə qədər ağır olduğunu təsəvvür etmək o qədər də çətin olmaz. Çünki aydındır ki, həmin tarixi mərhələlərə keçməyi təmin etmək üçün çox güclü iqtisadi potensiala malik olmaq lazım idi. Məlumdur ki, erməni daşnaklarının işğalçılıq siyasəti nəticəsində ərazimizin 20%-i zəbt edilmiş və iqtisadiyyatımıza isə 60 milyard ABŞ dolları həcmində ziyan dəymişdir. Belə ki, işğal nəticəsində sahəsi 497340 ha olan Dağlıq Qarabağ təbii-iqtisadi rayonu və əlavə olaraq:

1) Laçın rayonu – 166410 ha;
2) Kəlbəcər rayonu – 124380 ha;
3) Ağdam rayonu – 137250 ha;
4) Cəbrayıl rayonu – 11601 ha;
5) Füzuli rayonu – 128070 ha;
6) Qubadlı rayonu – 79830 ha;
7) Zəngilan rayonu – 72540 ha (6, s. 409, 441) olan tarixi torpaqlarımızdan milli iqtisadi inkişaf üçün istifadə edilə bilmir. Yəni bu torpaqlarda aqrar sahədə heç bir iqtisadi fəaliyyətin göstərilməsi mümkün deyil. Hal-

buki, həmin təbii-iqtisadi rayonların aqrar sahəyə yararlı və rəngarəng növlərə malik torpaqları mövcuddur.

Belə olan bir halda iqtisadi gücümüzü yenidən dirçəltməklə, ölkəmizin gələcək inkişaf perspektivlərini yeni formasiyaya uyğun şəkildə müəyyən etmək zəruri məsələ olmaqla, böyük cəsarət tələb edirdi. Bunun üçün Respublikamızın malik olduğu yeraltı və yerüstü təbii sərvətlərimiz dərindən öyrənilməli və onlardan ölkəmizin inkişafı üçün səmərəli şəkildə istifadə edilməli idi. Eyni zamanda hüquqi-normativ aktların qəbul edilməsi ilə bu sahədə müvafiq tənzimləmə siyasəti həyata keçirilməli idi.

Qeyd olunan məsələlərin düzgün və uğurlu həlli üçün məqsədyönlü iqtisadi siyasət yeridilməsi tələb olunurdu. Ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra yeritdiyi uzaqgörən və müdrik siyasət nəticəsində qeyd olunan bu və ya digər məsələlərin həlli istiqamətində uğurlu nəticələr əldə edilməyə başlandı. İlk əvvəl milli iqtisadi proseslərin bazar münasibətlərinə uyğunlaşdırılması istiqamətində addımlar atmağa başladı. Bu çox zəruri bir məsələ idi. Çünki əgər keçid etdiyimiz bazar iqtisadi sisteminin müvafiq qanun və qanunauyğunluqlarını da qəbul etmişiksə, onda ölkə iqtisadiyyatını da bu istiqamətdə formalaşdırmağı əsas məsələlərdən biri kimi qəbul etməliyik.

Bütün bu kimi həllivacib məsələləri daim diqqət mərkəzində saxlayan ümummilli lider köhnədən qalma təşkilati formaları yenisi ilə əvəz etmək üçün müxtəlif qanunları təsdiqləyərək qəbul etməklə davamlı inkişafın əsasını qoydu. Qeyd edək ki, bu mötəbər ideya hazırda ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu hüquqi tənzimləmə məsələlərini aşağıdakı kimi xarakterizə etmək olar:

1. 1995-ci ilin fevral ayında «Aqrar İslahatlar haqqında» və «Sovxoz və kolxozların islahatı haqqında» Azərbaycan Respublikasının Qanunları (3, s. 117);
2. 1995-ci ilin oktyabr ayında «Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu (3, s. 115);
3. 1996-cı ilin aprel ayında «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının Qanunu (1, s. 72) imzalandı;
4. 1992-ci ilin aprel ayında qəbul edilmiş «Kəndli-fermer təsərrüfatları haqqında» Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər etmək məqsədi ilə 1997-ci il iyun ayının 1-də eyni adlı qanunu imzaladı. Qeyd edək ki, 1992-ci ildə qəbul edilmiş qanunda keyfiyyət dəyişikliyi edildi (2, s. 59);
5. Azərbaycan Respublikasının Prezidenti tərəfindən «Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi» haqqında 23 yanvar 2007-ci il tarixli fərman imzalandı (4, s. 1).
6. Azərbaycan Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramının (2007-2010-cu illər) təsdiqi haqqında fərman 15 may 2007-ci il tarixdə dövlət başçısı tərəfindən imzalandı. Bu tarixi sə-

nəddə bütün sahələrlə yanaşı, kənd təsərrüfatı sahəsində də əhalinin səmərəli və faydalı məşğulluğu öz əksini tapmışdır və s.

Qeyd edək ki, sadalanan ardıcıllığı daha da davam etdirmək mümkündür.

Göründüyü kimi, yeni iqtisadi şəraitdə hərtərəfli inkişaf strategiyasını özündə cəmləşdirən həmin qanunlar praktik olaraq da müvafiq təsərrüfat fəaliyyətinin həyata keçirilməsində həm dəstək, həm yaxından kömək, həm də böyük stimul demək idi. Bu dövrdən başlayaraq hər sahədə olduğu kimi, iqtisadi sahədə də tamamilə yeni bir mərhələnin başlanğıcı qoyuldu.

Aydın məsələdir ki, bu cür şəraitdə kənd təsərrüfatının, sənayenin, həmçinin xalq təsərrüfatının digər sahələrinin tarazlı və balanslaşdırılmış Canlanmasını təmin etmək və bununla da milli iqtisadi inkişafın əsasını yaratmaq çox vacib bir məsələyə çevrilmişdir. Fikrimizcə, bunun üçün artıq aşağıdakı mərhələləri düşünülmüş və çevik şəkildə olaraq keçilmişdir:

1. Artıq qeyd olunduğu kimi, yeni iqtisadi şəraitə uyğun mühitin yaradılması, yəni köhnə iqtisadi sistemdən qalma nə varsa, hamısını yenisi ilə tamamilə əvəz etməyə şərait yaratmaq. Hansı ki, bu indi hərtərəfli olaraq mümkün olmuşdur;

2. İnsanlarda bu istiqamətdə maarifləndirmə işlərinin düzgün aparılması, onlara bazar iqtisadi sistemi haqqında təsəvvürlərə yiyələnməkdə kömək etmək, həvəsləndirmə və cəlbetmə tədbirlərinə nəzarət;

3. Kəndin iqtisadi cəhətdən canlanması. Ölkənin sosial-iqtisadi inkişafa dair proqram və digər qanunvericilik aktlarında kəndə qayğını özündə geniş şəkildə əks etdirən tədbirlərin nəzərdə tutulması.

4. Kəndlinin daim diqqət mərkəzində saxlanılması və onun hərtərəfli olaraq göz önündə olması, yəni həm maliyyə, həm də texniki cəhətdən olmaqla (çünki, kəndli bunu hiss edərsə, özündə daha da stimul yaradar) dəstək olunması. Texniki cəhətdən dedikdə, bura mineral gübrələrlə təmin olunma, suvarma kanallarının (sistemlərinin) mövcudluğu və zərurət olduqda yenilərinin çəkilməsi, Elmi-Texniki Tərəqqinin ən son nailiyyətlərini özündə cəmləşdirən müasir texnolgiyalardan istifadə (həm də səmərəli) edilməsinə güclü zəmin yaradılması və digər vasitələr nəzərdə tutulur;

5. Kəndli bilməlidir ki, o, torpaq üzərində tam səlahiyyət sahibidir və bu səlahiyyət çox güclü qanunvericiliklə qorunur və tənzim olunur. Bu zaman o daha aktiv olaraq öz fəaliyyətini quracaq və onun fəaliyyətinin nəticəsində də müvafiq mənfəət əldə edəcəkdir. Bu isə həm onun özünə, həm də milli iqtisadi inkişafa real töhfəsini verəcəkdir;

6. Və nəhayət, kəndli özünü «iqtisadiyyat» adlı bir binanın qurucusu kimi formalaşdırmalıdır və bunu düşünülmüş şəkildə qəbul etməlidir.

Müasir şəraitdə ölkəmizin əhalisinin əksər hissəsinin kənd yerlərində yaşaması (Naxçıvan Muxtar Respublikasında təxminən 70%-dən çoxdur) və maddi nemətlərin müəyyən hissəsinin burada istehsal edildiyini nəzərə

alaraq, onu qeyd etmək lazımdır ki, kənd təsərrüfatı sahəsində məhsuldar fəaliyyəti təmin etməklə bərabər, burada əhalinin məşğulluq probleminə münbit şərait yaradacaq mühiti formalaşdırmaq əsas məsələ kimi çıxış edir. Çünki kənd təsərrüfatı milli iqtisadiyyatımızın (xalq təsərrüfatının) önəmli və aparıcı sahəsi olduğundan, burada təmin ediləcək əhali məşğulluğu çox böyük əhəmiyyət daşıyacaq və ümumilikdə milli iqtisadi inkişaf göstəriciləri içərisində əlamətdar yer tutacaq.

Düşünürük ki, hazırkı şəraitdə kəndli, daha doğrusu torpağa bağlı insanlar məhsuldar işləmək üçün hər cür potensial imkanlara malikdir. Bunu qeyd etmək üçün bir çox əsas tapmaq mümkündür. Əvvəla, onun yaşadığı yer, məkan kənddir və o, kəndli kimi, müvafiq sahədə müəyyən təcrübəyə yiyələnmişdir. Digər tərəfdən, kəndlinin stimulla işləməsi üçün dövlətin həyata keçirdiyi məqsədyönlü iqtisadi siyasəti var və bu siyasət məhz kəndliyə xidmət edir. Nəzərə alsaq ki, kəndli müxtəlif texniki və maliyyə yardımları, həmçinin güzəştləri ilə də təmin edilməkdədir, onda buna görə kəndli həm problemsiz işləyər, həm məhsuldarlıq yüksək olar, həm də burada əsas istehsal vasitəsi olan torpaq da öz münbitliyini qoruyub saxlayar.

Dünyanın inkişaf etmiş, qabaqcıl ölkələrinin aqrar sahədə keçdiyi yola nəzər salanda görürük ki, kənd təsərrüfatının bütün sahələrində torpaqdan kifayət qədər istifadə edilməkdədir. Aydın məsələdir ki, torpaq maddi nemətlərin əksər hissəsinin istehsal olunması üçün ən real kömək vasitəsidir. Burada taxıl, meyvə-tərəvəz, şəkər çuğunduru, pambıq, digər sahələrlə yanaşı, üzümçülük sahəsini də inkişaf etdirmək ən zəruri məsələ hesab edilə bilər. Bu həqiqətən də sox həlledici tədbir kimi qiymətləndirilməlidir. Çünki yuxarıda qeyd olunan sahələrlə yanaşı, üzümçülüyün inkişafı da həm insanların özünün, həm də hər bir dövlətin iqtisadi qüdrətinin daha da artırılmasında böyük rola malikdir. Üzümçülük sahəsini inkişaf etdirməklə təkcə aqrar sektorun inkişafı və insanların şəxsi tələbatları təmin edilməz, eyni zamanda iqtisadiyyatımızın digər böyük sahəsi olan sənaye sahələrinin də tərəqqisinə əlverişli şərait yaratmaq mümkün olar. Əsasən, müasir şəraitdə şərabçılıq zavodlarının tikilməsi insanların işlə təmin olunmasına geniş imkanlar açmaqla, Ümum Daxili Məhsulda kənd təsərrüfatı ilə yanaşı, sənayenin də xüsusi çəkisinin artmasına səbəb olar. Bu isə öz növbəsində ölkəmizin sosial-iqtisadi qüdrətinin güclənməsinə gətirib çıxara bilər. Qeyd edək ki, hələ keçən əsrin ortalarında respublikamızda üzüm əkin sahələri başlıca olaraq Şirvan, Kirovabad (indiki Gəncə), Qazax, Dağlıq Qarabağ təbii iqtisadi zonaları ilə birlikdə, Naxçıvan Muxtar Respublikasında da yerləşdirilmişdir. Çünki həmin zona və rayonların torpaq və iqlim şəraiti üzümçülüyün müvəffəqiyyətli inkişaf etdirilməsinə və yüksək gəlir götürməyə imkan verir (5, s. 224).

Məlum məsələdir ki, hazırkı şəraitdə əhalinin məşğulluğu ən optimal məsələ olmaqla bərabər, həm də günümüzün əsas reallığını təşkil etməkdə-

dir. Bütün sahələrdə bu istiqamətdə mühüm tədbirlərə imza atan dövlətimiz insanların məşğul olmaları və həm də bunun ölkəmizin bütün regionlarında mümkünlüyünə çox ciddi diqqət yetirməkdədir. İstər sənaye, istər tikinti, istər nəqliyyat, istər neft sahələri ilə yanaşı, əhalinin məşğulluq probleminin kənd təsərrüfatı sahəsində də səmərəli həllinə önəm verilir. Onu qeyd edək ki, kənd təsərrüfatı respublikamızda çox zəruri sahələrdən biri olmaqla əhəmiyyətli göstəriciləri özündə əks etdirir. Məlumdur ki, respublikamızda da əhalinin böyük əksəriyyəti kənd yerlərində yaşayır. Belə olan halda təbiidir ki, kənd təsərrüfatı məhsullarına olan tələbat da sürətlə artır. Buna görə də məqsədyönlü iqtisadi siyasət yeritməklə bu sahədə davamlı inkişafa nail olmaq əsas məsələlərdən biri hesab olunur. Bütün bunları qeyd edərkən ümummilli liderimiz möhtərəm Heydər Əliyevin hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi müasir dövrdə təməlini qoyduğu aqrar siyasətin nə qədər böyük əhəmiyyəti olduğunun şahidi oluruq. Belə ki, 1992-ci il aprel ayının 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində «Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozların ləğv edilməsi və onların əsasında şəxsi təsərrüfatların yaradılması haqqında» qərar qəbul edildi və bununla da Azərbaycanda ilk dəfə bazar iqtisadiyyatı sahəsində addımlar atılaraq yeni iqtisadi sistemə faktik olaraq keçildi.

Son onbeşillik bir dövr ərzində güclü iqtisadi potensiala, düşünülmüş strateji planlaşdırmaya və hərtərəfli məqsədyönlü siyasətə əsaslanan milli iqtisadi inkişaf özünü mikro və makro səviyyələrdə göstərməkdədir. Bunun da nəticəsində yoxsulluq səviyyəsi minimuma (16%) endirilmiş, əhalinin məşğulluğu, alıcılıq qabiliyyəti və sosial müdafiəsi yüksəlmiş, iqtisadi subyektlərin fəaliyyət dairəsi genişlənmiş və iqtisadi münasibətlər daha da təkmilləşmişdir.

Ümumiyyətlə, müasir şəraitdə iqtisadiyyatın aqrar sahəsini canlandırmaq, burada məhsuldar əməyin və uğurlu göstəricilərin təmin edilməsi çox zəruri bir məsələ kimi çıxış etməkdədir. Düşünürük ki, hazırkı dövrdə aqrar sahəni inkişaf etdirməyin faydalılığı özünü aşağıdakı sahələrdə göstərə bilər:

1. Sözü gedən sahədə əhalinin məşğulluq probleminin həllinin səmərəli yollarına təminat yaradar;
2. Cəmiyyətdə iqtisadi münasibətlərin təkmilləşməsində həlledici amil ola bilər;
3. Ölkəmizin milli-iqtisadi inkişafı proqramlarının əsasını təşkil edən qeyri-neft sektorunun tərəqqisi üçün geniş şəraiti təmin edə bilər;
4. Aqrar münasibətlərin uğurlu davamına münbit zəmin yaradar;
5. Strateji məsələ olan ərzaq təhlükəsizliyinin təminatı sahəsində əvəzedilməzdir,

6. Qeyd etdiyimiz kimi Ümum Daxili Məhsulun tərkibində kənd təsərrüfatının xüsusi çəkisinin artmasına geniş imkanlar açar, və. s.

## ƏDƏBİYYAT


1. Azərbaycan iqtisadiyyatı. Bakı: Ağrıdağ, 1998, 396 s.
2. Babayev T. Aqrar sahədə özəl qurumların təşkili və iqtisadi əsasları. Bakı, 1998, s. 12.
3. İqtisadi nəzəriyyə. Bakı: Çaşıoğlu, 1999, 417 s.
4. «Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı. «Şərq Qapısı» qəz., 2007, 23 yanvar.
5. Qasımov Ə. Sosialist kənd təsərrüfatının iqtisadiyyatı. Bakı: Maarif, 1968, 320 s.
6. Məmmədov Q. Azərbaycan Respublikasının Dövlət Torpaq Kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı: Elm, 2003, 445 s.



**Джавадхан Касымов**


## ПОЛЕЗНОСТЬ АГРАРНОГО СЕКТОРА НА СОВРЕМЕННОМ ЭТАПЕ


В статье рассмотрено реальное состояние дел в аграрном секторе, в сфере обеспечения занятости сельского населения, а также претворенная в жизнь экономическая политика.



**Javadkhan Gasimov**


## UTILITY OF AGRARIAN SECTOR AT THE PRESENT STAGE


In the article real conditions in agrarian sector, in the sphere of employment ensuring of rural population, and also realized economic policy are considered.



***Rəyçilər: İqtisad e.d. A.Rüstəmov, iqtisad e.n. M.Cabbarzadə.***

***AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun Elmi Şurasının 2 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**POLAD ƏLİYEV**
AMEA Naxçıvan Bölməsi

# MİLLİ GƏLİRİN İSTEHSALI HƏCMİ İLƏ ƏMƏK MƏHSULDARLIĞI VƏ MƏŞĞULLUQ ARASINDA ƏLAQƏ

Hər bir cəmiyyətin sosial iqtisadi inkişafı böyük ölçüdə həmin cəmiyyətin milli gəlirinin istehsalının həcmindən asılıdır. Hər bir milli iqtisadiyyat müəyyən hədd daxilində əmtəə və xidmətlər istehsal edə bilər ki, bu da həmin iqtisadi sistemin potensial istehsal həcmi adlandırılır. Potensial istehsal həcmi həmin milli iqtisadiyyatın istehsal edə biləcəyi əmtəə və xidmətlərin, milli gəlirin ən yuxarı həddini göstərir və həmin ölkənin sahib olduğu istehsal resurslarının və texnalogiyanın həcmi və keyfiyyəti ilə müəyyən edilir. Gördüyümüz kimi, potensial istehsal həcmi ilə istehsal resursları və texnologiya arasında funksional asılılıq mövcuddur.

$$Q=f\ (N, L, K,T)$$

Q – potensial istehsal həcmini; N – iqtisadiyyatın müəyyən edilmiş təbii sərvətlərinin miqdarını; L – iqtisadiyyatın sahib olduğu işçi qüvvəsini; K – iqtisadiyyatın sahib olduğu investisiya yığımının miqdarını, T – istehsalda istifadə edilən texnologiya və informasiya səviyyəsini əks etdirir. Buna görə də qısa dövr ərzində müəyyən iqtisadi sistemin potensial istehsal həcmi sabit hesab edilə bilər, amma uzun dövrdə həmin iqtisadi sistem daxilində istehsal mövcud istehsal faktorlarının həm kəmiyyətcə, həm də keyfiyyətcə dəyişməsi ilə bağlı dəyişə bilər. İstehsal həcminə təsir edən digər bir amil də texnologiyanın inkişaf səviyyəsidir. Texnologiya istehsal amillərinin ən məhsuldar şəkildə birləşdirilməsindəki bacarıq və təsirlilik kimi müəyyən edilir. Beləliklə N, L, K-nin hər birinin kəmiyyət və keyfiyyəti digərinin məhsuldarlığına təsir göstərsə də, T onların hər birinin məhsuldarlığının başlıca müəyyənedicisidir. Aydındır ki, istehsal faktorlarının həcmi eyni olan iki ölkədən texnoloji səviyyəsi yüksək olanın istehsal həcmi də yüksək olacaqdır. Digər tərəfdən isə bəzi iqtisadçılar mövcud milli iqtisadiyyatın potensial istehsal həcmi həmin ölkənin işçi qüvvəsinin həcmi ilə orta əmək məhsuldarlığının ($P_n$) hasili olaraq göstərir. Yəni

$$Q=LxP_n$$

Belə olan halda əmək məhsuldarlığı sabitkən işçi qüvvəsinin miqdarı artdıqca potensial istehsal həcmi də artacaqdır. Bu həm istehsal prosesinə

cəlb ediləcək işçilərinin sayının artırılması hesabına, həm də eyni sayda işçinin iş vaxtının uzadılması hesabına təmin oluna bilər. Digər bir tərəfdən, işçi qüvvəsinin həcmi sabitkən orta əmək məhsullarının artması da ölkənin istehsal həcminin, başqa sözlə desək, milli gəlirin real artımına səbəb olacaq. Əslində, əmək məhsuldarlığında meydana gələn artım bir sıra amillərdən – təbii ehtiyatların kəmiyyət və keyfiyyətindən, investisiya və texnologiyanın səviyyəsindən asılıdır. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə işçi qüvvəsini kəmiyyət etibarilə artırmaq əmək məhsuldarlığının artırılmasından daha asandır. Əmək məhsuldarlığının artırılması yuxarıda qismən qeyd etdiyimiz ölkə iqtisadiyyatının mövcud dəzgah, maşın və avadanlıqların həm kəmiyyət, həm də keyfiyyətcə yüksəlməsindən, inkişaf etmiş texnologiyalardan istifadədən, elmi-texniki inkişaf səviyyəsindən asılıdır. Bütün bunlar qısa müddət ərzində əldə ediləcək nailiyyətlər deyil. İnkişaf etməkdə olan ölkələrdə əsas problem bundadır. Halbuki, milli gəlirin daha yüksək artım sürəti ancaq əmək məhsuldarlığının yüksəldilməsi hesabına təmin edilə bilər. Elə buna görə də inkişaf etmiş ölkələrdə milli gəlirin artımının əsas mənbəyi kimi əmək məhsuldarlığı çıxış edir. Bu həm həmin ölkələrdə əhalinin təbii artımının getdikcə azalması, nəticə etibarilə əmək ehtiyatları problemlərinin kəskinləşməsi, həm də əmək məhsuldarlığının hər faiz artımının daha yüksək əhəmiyyət kəsb etməsi ilə əlaqədardır. Həmçinin əmək amilinin qiyməti həmin ölkələrdə daha yüksəkdir. Bundan başqa, sivil ölkələrdə milli gəlirin iş vaxtının həcminin hesabına artırılması imkanı aşağıdır. İnkişaf etmiş ölkələrdə istehsal resurslarının istehsal prosesinə cəlb olunması məsələsi, yəni təzə iş yerlərinin açılması daha çox investisiya qoyuluşu tələb etdiyi üçün milli gəlirin artırılmasında əmək məhsuldarlığının yüksəldilməsi yolu iqtisadi cəhətdən daha səmərəlidir. Əmək məhsuldarlığının yüksəlməsi nəticəsində məhsul vahidinə məsrəflər aşağı düşür ki, bu da pərakəndə satış qiymətlərini azaldılmasına imkan yaradır. Əmək məhsuldarlığının yüksəldilməsi adambaşına düşən milli gəlirin artırılmasına və iş vaxtının azaldılmasına da şərait yaradır. Məhsulun fond və material tutumuna, maya dəyərinə, istehsalın rentabellik səviyyəsinə xeyli təsir göstərir. Əmək məhsuldarlığı yeni texnikanın tətbiqinin, əsaslı vəsait qoyuluşunu, istehsal fondlarında istifadənin iqtisadi səmərəliliyi material xərclərinə qənaətlə müəyyən edilir (1, s. 99). İnkişaf etməkdə olan ölkələrdə bu nəticələrə nail olmaq olduqca çətindir. Bundan başqa, belə ölkələrdə istehsal prosesinə cəlb edilməyən kifayət qədər keyfiyyətli istehsal resursları olur. Ümumiyyətlə götürdükdə isə iqtisadiyyatın bütün resurslarının heç də hamısını istehsala cəlb etmək olmaz. Yəni istehsal olunan milli gəlirin həcmi həmişə milli gəlirin potensial istehsal həcmindən aşağı olur. Buna görə də istehsalın potensial həcmi anlayışı ilə yanaşı, biz həmçinin milli iqtisadiyyatın həqiqi istehsal səviyyəsini, yəni istehsal olunan real milli gəliri ifadə edən anlayışdan istifadə edirik ki, bu da real istehsal həcmi anlayı-

şıdır. Əgər nəzərə alsaq ki, milli iqtisadiyyatın müəyyən dövr ərzində real istehsalının nəticəsi milli gəlirdir, onda aşağıdakı düsturu yazmaq olar.

$$MG=f\ (L, N, K, T)$$

Düsturdan gördüyümüz kimi, hər hansı bir milli iqtisadiyyatın istehsal etdiyi milli gəlir həmin iqtisadi sistemin istehsal prosesinə cəlb edilməsini təmin edə bildiyi istehsal resurslarının (əmək, kapital, təbii ehtiyatlar) və texnoloji səviyyənin funksiyasıdır. Beləliklə, buradan belə nəticə çıxarmaq olar ki, istehsalın potensial həcmi anlayışı istehsal prosesinə cəlb edilməsi mümkün olan istehsal resurslarının istehsal prosesinə cəlb olunduğu halda əldə edilə biləcək ən yüksək məcmu mal və xidmətləri göstərirsə, istehsalın real həcmi göstəricisi isə ölkənin sahib olduğu istehsal resurslarından sadəcə olaraq cari dövrdə istifadə edilə bilinənlərdən əldə edilən məcmu mal və xidmətlərin miqdarını göstərir. Qeyd etdik ki, yuxarıdakı düsturdakı L ölkənin bütün işçi qüvvəsini deyil, yalnız və yalnız məhsuldarlığın T səviyyəsində istehsal prosesinə cəlb olunan işçilərin sayını nəzərdə tutur. N, K də iqtisadiyyatın sahib olduğu investisiya, təbiət amillərinin hamısını deyil, istehsal amillərinin ən məhsuldar şəkildə birləşməsindəki bacarıq və təsirlilik dərəcəsi kimi müəyyən edilən texnoloji inkişafın T səviyyəsində istehsal prosesinə cəlb olunan təbii sərvət və investisiyanın həcmini əks etdirir. Beləliklə, milli gəlirin istehsalının real həcmi istehsal prosesinə cəlb edilən resursların kəmiyyət, keyfiyyətindən və onların məhsuldarlığından asılıdır. İstehsal prosesinə cəlb edilən resursların kəmiyyət və keyfiyyətini məşğulluq anlayışı ifadə edir. Gördüyümüz kimi, milli gəlirin istehsalının real həcmi istehsal prosesinə cəlb edilən istehsal amillərinin məşğulluq səviyyəsi və onların məhsuldarlığı tərəfindən müəyyən edilir. Əgər biz istehsal prosesinə cəlb edilən K və N-in kəmiyyət və keyfiyyətini məhsuldarlığının qısa dövr ərzində sabit qaldığını qəbul etsək, onda həmin iqtisadi sistemdə istehsal edilən əmtəə və xidmətlərin (milli gəlirin) real həcmi burada istehsal prosesinə cəlb edilən əmək amilinin kəmiyyət və keyfiyyətindən (məşğulluq səviyyəsindən) və məhsuldarlığından asılıdır. Məşğulluğun kəmiyyət tərəfi dedikdə əmək qabiliyyətli əhali ilə mövcud iş yerləri arasındakı nisbətlilik, keyfiyyət tərəfi dedikdə isə iş qüvvəsindən istifadənin səmərəlilik dərəcəsi başa düşülür (3, s. 164).

Yuxarıdakı düsturdan da gördük ki, hər bir ölkənin istehsal etdiyi məcmu əmtəə və xidmətlərin həcmi ilə, yəni milli gəlirlə həmin ölkədə istehsal prosesinə cəlb edilməsi mümkün olan istehsal amillərinin həcmi arasında funksional asılılıq var. Beləliklə, istehsal prosesinə nə qədər çox istehsal vasitələri cəlb olunarsa, bir o qədər çox əmtəə və xidmətlər istehsal olunacaq ki, bu da ölkədə yaşayan insanların həyat səviyyəsinin yüksəlməsinə imkan verəcək. Buradan da görürük ki, milli gəlir və məşğulluq arasında üzvü əlaqə mövcuddur. Daha dəqiq desək milli gəlir məşğulluğun artan funksiyasıdır. Məsələyə bu nöqteyi-nəzərdən yanaşan bəzi iqtisadçılar məş-

ğulluq səviyyəsi ilə mili gəlir anlayışını eyni mənada işlədirlər. Onu da qeyd edək ki, burada söhbət hər hansı amilin deyil, bütün amillərin işlədilməsindən gedir. Diqqət yetirməli olduğumuz digər bir məsələ isə məşğulluğun səviyyəsi ilə real milli gəlirin artım tempinin həmişə eyni olmasıdır. Ölkənin sahib olduğu istehsal resurslarının istehsal prosesinə cəlb olunması səviyyəsi yüksəldikcə milli gəlirdə meydana gələn artım tempi məşğulluğun artım tempindən aşağı olacaq. Belə ki, məşğulluq səviyyəsi artdıqca istifadəyə cəlb ediləcək istehsal resurslarının həcminin eyni keyfiyyətdə artma ehtimalı aşağı düşür. Məsələn, daha az verimli torpaqlar kənd təsərrüfatına istifadə olunur, daha az qabilliyətə malik olan insanlar işə cəlb olunur. Məşğulluq anlayışı bütün istehsal resurslarının istehsal prosesinə cəlb edilməsini ifadə etsə də, çox vaxt bu anlayış əmək amilinə aid edilir və onun istehsal prosesinə cəlb olunması ilə ifadə olunur. Çünki digər resursların istehsal prosesinə cəlb edilməməsi yalnız və yalnız iqtisadi problemlər yaradır. Bundan fərqli olaraq, əmək resurslarının istehsala cəlb edilməməsi təkcə iqtisadi problemlərin yaranmasına təkan vermir, eyni zamanda işsizlik sosial-siyasi problemlərin də mənbəyidir. Işsizliyin cəmiyyətdə yarada biləcəyi narahatlıqlar əmək resurslarının istehsala cəlb edilə bilməməsinin digər resursların boşda qalmasına görə daha önəmli problem kimi qabardılır (2, s. 910). Buna görə də məşğulluq anlayışından dar və geniş mənada istifadə edilir. Dar mənada məşğulluq dedikdə sadəcə olaraq əmək resurslarının istifadəsi və işlədilməsi ilə əlaqəli problemlər, geniş mənada məşğulluq dedikdə isə əmək də daxil olmaqla digər bütün istehsal resursları ilə əlaqəli problemlər nəzərdə tutulur (2, s. 910). Bu anlayışlar əslində bir-birilə əlaqəlidir. Belə ki, texnologiyanın müəyyən sabit həddində əmək faktorundan istifadə digər resurslardan da istifadəni şərtləndirdiyi üçün bu resursdan nə qədər çox istifadə edilərsə, digər resursların istehsal prosesinə cəlb olunması bir o qədər də artacaqdır. Məşğulluq – iş yerləri ilə təmin edilmələri üzrə işçilər arasındakı münasibətlərin və istehsal vasitələri ilə iş qüvvəsinin birləşməsinin tarixi xüsusiyyətlərini özündə əks etdirən sosial-iqtisadi prosesdir. O, içtimai əmək bölgüsü ilə bağlı olub, bütün içtimai-iqtisadi quruluşlar üçün xasdır (3. s. 163). Əgər texnologiya təkmilləşərsə, əmək resursuna görə digər resurslar daha artıq miqdarda istifadə edilir. Lakin əvvəl qeyd etdiyimiz kimi, hər hansı bir iqtisadi sistemdə digər istehsal resurslarının istehsala cəlb olunmaması böyük iqtisadi itki ilə nəticələnə bilər. Buna görə də məşğulluqdan danışarkən istehsalın ayrı-ayrı resursları əmək resurslarından ayrılmır. Sadəcə olaraq bu zaman əmək resurslarının istehsal fəaliyyətinə cəlb olunması səviyyəsi digər resursların istehsal prosesinə cəlb olunmasının nəticəsi, göstəricisi kimi qəbul olunur. Buna görə də iqtisadi ədəbiyyatlarda məşğulluq anlayışı digər resursların məşğulluq dərəcəsini özündə əks etdirən işçi qüvvəsinə aid edilir. Onda yuxarıdakı düsturu

$$MG=f(LT)$$

kimi yazmaq olar.

## ƏDƏBİYYAT


1. Henry R. Mussey, Elizabeth Donnar. Economic principles and modern practice. Boston, 1944, 840 p.
2. Keyns C.M. Məşğulluq mənfəət və pulun ümumi nəzəriyyəsi / Azərbaycan dilində. Bakı: Qanun, 2001, 441 s.
3. Muradov Ş.M. İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər. Bakı: Elm, 2004, 656 s.
4. Nağıyev Ə.T. Sosial-iqtisadi inkişafın metodoloji aspektləri. Bakı: Səda, 2002, 267 s.
5. Teffik Pekin. Makro ekonomi. Izmir, 1996, 255 s.



**Полад Алиев**


## СВЯЗЬ МЕЖДУ ОБЪЕМОМ ПРОИЗВОДСТВА НАЦИОНАЛЬНОГО ДОХОДА, ПРОИЗВОДИТЕЛЬНОСТЬЮ ТРУДА И ЗАНЯТОСТЬЮ


В статье освещены теоретические вопросы экономических связей между объемом производства национального дохода, производительностью труда и занятостью в новой экономической системе.



**Polad Aliyev**


## CONNECTION BETWEEN PRODUCTION CAPACITY OF THE NATIONAL INCOME, LABOUR PRODUCTIVITY AND EMPLOYMENT


Theoretical questions of economic connections between production capacity of the national income, labour productivity and employment in the new economic system are thrown light on in the article.



***Rəyçilər: İqtisad e.d. A.Rüstəmov, iqtisad e.n. C.Mahmudov.***

***AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun Elmi Şurasının 2 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**ZAUR MƏMMƏDOV**
AMEA Naxçıvan Bölməsi

# AQRAR SAHƏDƏ SAHİBKARLIĞIN İNKİŞAFININ PRİORİTET İSTİQAMƏTLƏRİ

Tədqiqat nəticəsində məlum olmuşdur ki, xüsusi mülkiyyətə əsaslanan çoxnövlü kənd təsərrüfatı müəssisələrinin təşkili, emal, xidmət və satış infrastrukturlarının yaradılması, könüllük prinsipinə uyğun istehsal, emal, xidmət və satış müəssisələri arasında iqtisadi əlaqələrin formalaşdırılması ölkədə sahibkarlıq fəaliyyətinin perspektiv inkişafının başlıca istiqamətləridir.

Araşdırmalarımız göstərir ki, aqrar bölmədə sahibkarlığın inkişafı üçün hüquqi bazanın yaradılmasına, əmlak və torpaqların vətəndaşlar arasında bölüşdürülməsinə baxmayaraq, yaradılmış hal-hazırkı şərait sahibkarlığın daha da inkişaf etdirilməsinə imkan vermir. Belə ki, ailə təsərrüfatları sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına baxmayaraq, onların hələlik hüquqi statusu yoxdur. Ölkədə kəndli (fermer) təsərrüfatlarının inkişaf etdirilməsinə üstünlük verilməsinə baxmayaraq, bu təsərrüfatçılıq növü klassifikasiya olunmamışdır. Aqrar bölmədə sahibkarlıq fəaliyyətini genişləndirmək üçün emal, xidmət və satış infrastruktur sahələr, demək olar ki, inkişaf etdirilməmişdir. Sahibkarlığın əlverişli inkişaf parametrləri təcrübədə sınaqdan keçməmiş və kooperasiya əlaqələri yaradılmamışdır. Odur ki, yuxarıda qeyd edilən istiqamətlərdə bir sıra tədbirlərin kompleks formada həyata keçirilməsini zəruri hesab edirik.

Müşahidələrimiz göstərir ki, sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli hüquqi-iqtisadi şərait yaradıldıqca kənd əhalisi ailə təsərrüfatlarının inkişafına daha çox üstünlük verirlər.

Lakin çox əfsuslar olsun ki, Azərbaycan Respublikasının qanunçuluğu ilə hələ ailə təsərrüfatlarının dəqiq statusu müəyyənləşdirilməmişdir. Ölkədə çoxnövlü təsərrüfatçılığın yaradılması üçün hüquqi bazanın olmasına baxmayaraq, bu qanunçuluq sistemində ailə təsərrüfatı barədə hələlik tam aydınlıq yoxdur. Odur ki, qanunçuluqla ailə təsərrüfatının statusu müəyyənləşdirilməlidir. Bizə belə gəlir ki, kənd təsərrüfatı ailəsi kənd təsərrüfatı məhsulları istehsalı subyektidir, hansı ki, bu təsərrüfatı ailə üzvlərin-

dən biri, vahid şəxs idarə edir, əmək sərfinin əsas hissəsini ailə üzvlərinin əməyi təşkil edir. Fikrimizcə, ailə təsərrüfatını bir tərəfdən ev təsərrüfatından, digər tərəfdən isə kooperativ təsərrüfatlarından fərqləndirən cəhətlər qanunçuluqda öz əksini tapmalıdır.

Heç şübhə yoxdur ki, ölkədə ailə təsərrüfatı ilə ev təsərrüfatı arasında fərqlər barədə alimlər, mütəxəssislər və rəhbər işçilər arasında vahid fikir birliyi hələlik yoxdur. Məhz elə bu səbəbdən də mövcud qanunçuluqda ailə təsərrüfatı nəinki öz əksini tapmamışdır, hətta inamla demək olar ki, bu mühüm məsələ süni şəkildə unudulmuşdur.

Qanunçuluqda ailə təsərrüfatlarının statusu müəyyənləşdirilmədiyindən onlar təsərrüfat növü kimi dövlət qeydiyyatından keçə bilmir, kredit almaq imkanları məhdudlaşır, dövlətin kənd təsərrüfatı məhsul istehsalçıları üçün nəzərdə tutduğu bir sıra güzəştlər onlara şamil edilmir, ən başlıcası vergidən yayınma halları kütləvi hal alır ki, bu da son nəticədə kənd təsərrüfatının büdcənin formalaşdırılmasındakı rolunu süni surətdə azaldır.

Bütün bunların nəticəsində də dövlətin makroiqtisadiyyat səviyyəsində həyata keçirdiyi tədbirlərdə, xüsusi ilə bank-maliyyə, vergi, qiymət, sığorta və kredit siyasətində iqtisadiyyatın digər sahələrinə nisbətən kənd təsərrüfatının üstün inkişaf etdirilməsinin həyati zəruriliyi lazımi səviyyədə nəzərə alınmır, onlara subsidiya verilmir. Bu səbəbdən də bazar münasibətlərinə keçid şəraitində kənddə bir sıra sahələrdə irəliləyişlər müşahidə edilsə də, istehsalın bütünlükdə böhran vəziyyətindən çıxarılması prosesi ləngiyir, stabilləşdirmə gecikir, əhalinin ərzaqla təminatı daxili istehsal hesabına deyil, kənardan gətirilən məhsullar hesabına həyata keçirilir ki, bu da ölkədə əhalinin məşğulluğunda, demoqrafik problemlərin həllində, istehsal, emal, xidmət və satış müəssisələri arasında yeni iqtisadi münasibətlərin və əlaqələrin formalaşdırılmasında gərginliyi artırır.

Tədqiqat nəticəsində məlum olmuşdur ki, bir çox ölkələrdə, o cümlədən Rusiya Federasiyasında aqrar iqtisadçı alimlər təklif edirlər ki, kənd təsərrüfatında ailə təsərrüfatı ilə ev təsərrüfatı arasında fərqlər həcm-miqdar baxımından da müəyyənləşdirilə bilər. Təklif edilir ki, əgər ailə təsərrüfatı minimum əmək haqqının 12 mislindən çox kənd təsərrüfatı məhsulları istehsal edib, həm də satarsa və yaxud həmin ailə göstərilən həcmdə məhsul istehsalı üçün istehsal ehtiyatlarına, o cümlədən torpaq sahəsinə, mal-qaraya malik olarsa, bu təsərrüfatlar ailə təsərrüfatlarına aid edilməli, əks halda həmin təsərrüfatları ev təsərrüfatlarına aid etmək lazım gəlir (5).

Biz tədqiqat prosesində müəyyənləşdirmişik ki, əgər Azərbaycan Respublikasının qanunçuluğunda yuxarıda qeyd edilən şərtlər çərçivəsində ailə təsərrüfatı kənd təsərrüfatı müəssisələrinin bir növü kimi tanınıb onun statusu müəyyənləşdirilərsə, hal-hazırda fəaliyyət göstərən şəxsi yardımçı təsərrüfatların əksəriyyəti ev təsərrüfatı kateqoriyasına aid ediləcək, onlar-

dan az bir qismi isə kəndli (fermer) təsərrüfat kateqoriyasında uçota alınacaqdır.

Araşdırmalarımız göstərir ki, ölkəmizdə fəaliyyət göstərən ailə təsərrüfatları ilə kooperativ təsərrüfatları arasında bir sıra fərqlər vardır. Hər şeydən əvvəl, həmin təsərrüfat növləri arasındakı fərqli cəhət özünü idarəçilik formasında göstərir. Belə ki, ailə təsərrüfatını həmin ailənin üzvlərindən biri idarə edirsə, kooperativ müəssisələri həmin kooperativin təsisçiləri iki və ikidən çox sahibkarlar idarə edir. Bundan başqa kooperativ müəssisələrində işçilərin əksəriyyəti muzdla tutulmuş işçilərdən ibarətdir. Bu, kənd təsərrüfatında ailə təsərrüfatları ilə kəndli (fermer) təsərrüfatları arasında mövcud olan ən mühüm fərqlərdən biridir. Odur ki, ailə təsərrüfatının statusunun dəqiqləşdirilməsi hüquqi şəxs kimi və ya qeyri-hüquqi şəxs kimi kəndli (fermer) təsərrüfatlarının təşkilinə daha geniş imkan yarada bilər. Bununla belə, hər iki halda yaradılan təsərrüfatçılıq formasında ailə əlaməti saxlanılmalıdır.

Tədqiqat göstərir ki, fəaliyyət göstərən ailə təsərrüfatlarının heç də hamısında ailənin gəlirləri onların tələbatını ödəmir və ailə üzvləri işlə təmin olunmur. Bununla əlaqədar olaraq görünür, statistikada düzgün uçot aparmaq və fəaliyyət göstərən kəndli (fermer) təsərrüfatlarının fəaliyyətini qiymətləndirmək üçün ailə təsərrüfatlarını kəndli (fermer) təsərrüfatlarından fərqləndirmək lazım gəlir. Bu zaman hesab edirik ki, meyar kimi onların gəlirlərinin həcmi və ailə üzvlərinin məşğulluq səviyyəsi əsas götürülə bilər. Bu baxımdan kəndli (fermer) təsərrüfatlarını fəaliyyət əlamətinə görə birbirindən fərqləndirmək lazım gəlir. Onlardan: ailə üzvlərinin məşğulluğunu tam təmin edən kəndli (fermer) təsərrüfatları; ailə üzvlərinin bir hissəsinin məşğulluğunu təmin edən və yaxud yardımçı kəndli (fermer) təsərrüfatları. Kəndli (fermer) təsərrüfatlarının bu cür klassifikasiyası dünyanın bir çox ölkələrində mövcuddur.

Araşdırmalar göstərir ki, ailə təsərrüfatlarının, eləcə də digər təsərrüfatçılıq növlərinin, xüsusi ilə kəndli (fermer) təsərrüfatlarının səmərəli fəaliyyətləri onların emal, xidmət və satış təşkilatları arasında bazar münasibətləri prinsiplərinə uyğun qarşılıqlı iqtisadi münasibətlərin yaradılmasından və kooperasiya əlaqələrinin formalaşdırılmasından daha çox asılıdır.

Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi inandırıcılıqla təsdiq edir ki, hər hansı təsərrüfatçılıq növləri olur-olsun, onlar arasındakı qarşılıqlı əlaqələr kommersiya fəaliyyətinə əsaslanmalıdır. İri kənd təsərrüfatı müəssisələri və qeyri-kənd təsərrüfatı biznesmenləri kiçik həcmli ailə və kəndli (fermer) təsərrüfatlarının torpaqlarının becərilməsini, məhsuldar cavan mal-qara ilə təchizatını, toxumla təminatını, material resurslarına tələbatlarının ödənilməsini, məhsullarının emalını, daşınmasını, saxlanmasını və satışını öz üzərlərinə götürə bilir.

Bu da son nəticədə, bir tərəfdən, ailə təsərrüfatlarının, eləcə də kəndli (fermer) təsərrüfatlarının səmərəli fəaliyyət göstərməsinə imkan verir, əmtəəlik məhsul istehsalının artımına real şərait yaradır, digər tərəfdən də biznesmenlərin fəaliyyət dairələrini genişləndirir, ekoloji tələbləri gözləməklə bazar rəqabətinə tab gətirirlər. İri biznesmenlərlə ailə və fermer təsərrüfatlarının səmərəli əlaqələndirilməsini ölkəmizdə kənd təsərrüfatının gələcək inkişafının magistral yolu hesab edirik. Bunu kənd təsərrüfatının nisbətən üstün inkişaf tapmış dünyanın bir çox ölkələrinin təcrübəsi də təsdiq edir.

Araşdırmalarımız nəticəsində məlum olmuşdur ki, ailə təsərrüfatçılığının inkişafı şəraitində kooperasiya iki istiqamətdə müşahidə olunur. Onlardan üfüqi və şaquli istiqamətdə yaranan əlaqələr əsasında formalaşan kooperasiyalar. Üfüqi istiqamətdə yaranan əlaqələr əsasında formalaşan kooperasiya ailə təsərrüfatlarının kəndli (fermer) təsərrüfatlarının, kooperativ müəssisələrin və sair təsərrüfat növlərinin könüllük prinsipi əsasında öz aralarında yaratdıqları kooperasiyadır.

Şaquli istiqamətdə yaradılan kooperasiya forması isə idarəetmənin ayrı-ayrı səviyyələri üzrə həyata keçirilən tədbirlər kompleksi sistemidir. Məsələn, ailə və kəndli (fermer) təsərrüfatlarının fəaliyyətlərini tənzimləyən kredit və sığorta haqqında qanunlar və zəruri normativ-hüquqi aktlar; ailə, kənd təsərrüfatı kooperativləri və kəndli (fermer) təsərrüfatlarının fəaliyyətlərini müdafiə edən xüsusi proqramların hazırlanması və yerinə yetirilməsi; respublika, rayon və kənd səviyyələrində kənd təsərrüfatı kooperativ ittifaqlarının formalaşdırılması; hər bir ərazidə kooperativ hərəkatının müdafiəsi fondunun və məsləhət mərkəzlərinin təşkili; kooperativ və kəndli (fermer) təsərrüfatları üçün kadrların hazırlanması; kənd əhalisi arasında kəndli (fermer) və kooperativ təsərrüfatlarının inkişafının zəruriliyinə dair daimi izahat işinin aparılması.

Ailə təsərrüfatlarında texnologiyanın yeniləşdirilməsi. Ailə fermerlərinin inkişafının ən başlıca istiqamətlərindən biri bu təsərrüfatçılıq formasına mütərəqqi kənd təsərrüfatı texnologiyalarının tətbiqidir. Çoxillik təcrübələrin araşdırılması təsdiq edir ki, ailə təsərrüfatlarında yeni mütərəqqi texnologiyaları tətbiq edilmədikdə onlar öz iqtisadi və sosial funksiyalarını yerinə yetirə bilmirlər. Müşahidələr göstərir ki, hər hansı konkret məhsul üzrə ixtisaslaşdırmanın dərinləşməsinə və çoxsahəliliyinin aradan qaldırılmasına nail olmadan ailə təsərrüfatlarında yeni texnologiyaları tətbiq etmək mümkün deyildir. Bunun üçün hər bir regional torpaq-iqlim xüsusiyyətlərinin tələblərinə cavab verən sahə elmi-tədqiqat institutları ailə təsərrüfatlarında tətbiq üçün məsləhət bildiyi texnologiyalar hazırlanmalı və tətbiqinə nail olmalıdırlar.

Aqrar büdcə bölüşdürülərkən ailə təsərrüfatlarının maraqlarının nəzərə alınması. Azərbaycan Respublikasının aqrar büdcəsi bölüşdürülərkən

iri kənd təsərrüfatı müəssisələrinin maraqları nəzərə alınmır. Büdcə bölüşdürülərkən ailə təsərrüfatlarının, şəxsi yardımçı təsərrüfatların, ailə-fermer təsərrüfatlarının və sairə maraqları cüzi miqdarda nəzərə alınır, faktiki olaraq onlar hətta büdcədə nəzərdə tutulan vəsaiti də ala bilmirlər. Bununla belə, ailə və şəxsi yardımçı təsərrüfatların inkişafı üçün dövlət və yerli büdcədən vəsaitin ayrılması nəzərdə tutulmur.

Ailə təsərrüfatlarının təsərrüfat növləri içərisində sayca çoxluq təşkil etməsi, burada əkin sahəsinin cəmi əkin sahəsinin tərkibində yüksək xüsusi çəkiyə malik olması, kənd təsərrüfatı istehsalına cəlb edilmiş cəmi işçilərin tərkibində ailə təsərrüfatında çalışanların üstünlük təşkil etməsi və ümumi daxili məhsulun xeyli hissəsinin ailə təsərrüfatlarında istehsal olunması nəzərə alınmalı, ölkənin aqrar siyasətində, eləcə də respublika və yerli büdcə vəsaitinin yenidən bölüşdürülməsində ailə təsərrüfatlarının müdafiəsi məqsədi ilə büdcə vəsaitinin ayrılması lazım gəlir. Bu zaman ailə təsərrüfatlarının istehsal etdiyi məhsulun bütünlükdə respublika kənd təsərrüfatı müəssisələrinin istehsal etdiyi ümumi məhsulun tərkibində tutduğu xüsusi çəkisi meyar kimi qəbul edilə bilər.

Araşdırmalarımız göstərir ki, doxsanıncı illərin əvvəllərindən başlayaraq ölkədə ailə-fermer təsərrüfatları xeyli sürətlə yaranmağa başlasa da, sonrakı illərdə, xüsusi ilə 1993-1994-cü illərdə onların sayının artım sürəti ləngimiş, 1995-ci ildən sonra isə ölkə statistikasının verdiyi məlumata görə kəndli (fermer) təsərrüfatlarının sayı sürətlə artmış, kəndli (fermer) təsərrüfatları adı altında isə əsl həqiqətdə ailə-fermer təsərrüfatlarının sayı çoxalmış, kənd əhalisinin əksəriyyəti torpaq paylarını alsalar da, onlar şəxsi həyətyanı sahələrinin inkişafına üstünlük vermişlər.

Məlumdur ki, ölkədə kənd təsərrüfatının dövlət idarəetmə orqanları sistemində isə yeni yaradılan müxtəlif növlü kənd təsərrüfatı müəssisələrini bilavasitə idarə edən struktur bölmələr yaradılmamışdır.

Rayonlarda yaradılmış informasiya və məsləhət xidməti mərkəzlərinin əsas funksiyası kənddə islahatların aparılmasına iqtisadi, təşkilati, hüquqi, texniki, texnoloji və s. istiqamətində məsləhət xarakterli köməklik göstərilməkdən ibarət olmuşdur. Kəndlərdə yaradılan ailə-fermer təsərrüfatlarına, ailə təsərrüfatlarına və şəxsi yardımçı təsərrüfatlara bazar iqtisadiyyatı prinsipləri istiqamətində çox böyük köməklikləri olmuşdur. Rayonlardakı müxtəlif istiqamətli özəl təsərrüfatların bir-biri ilə və digər təşkilatlarla əlaqələri formalaşdırılmalıdır.

Müstəqil Azərbaycan Respublikasında ailə təsərrüfatlarının inkişafı üçün yuxarıda qeyd edilən şəraitin yaradılması söz yox ki, realdır. Lakin ölkəmizdə ailə təsərrüfatlarının yaradılmasının bu yolu tədrici proses olub, uzun vaxt tələb edəcəkdir. Hər şeydən əvvəl ona görə ki, ölkəmizin aqrar bölməsində bazar təsərrüfatçılığına uyğun aparılan iqtisadi islahatlar hələ başa çatdırılmamışdır. Kənd əhalisi torpaq və əmlak paylarını alsalar da,

onların əksəriyyəti ailə təsərrüfatçılığı şəraitində fəaliyyət göstərir, yaradılan kənd təsərrüfatı müəssisələrinin əksəriyyəti kiçik həcmli olduğundan bir sıra sosial-iqtisadi problemlərini həll edə bilmirlər, hətta əksər ailə təsərrüfatları istehsal etdikləri məhsullarla və göstərdikləri xidmət nəticəsində əldə etdikləri gəlirlərlə ailənin tələbatını belə ödəyə bilmirlər.

Bütün bunlar o deməkdir ki, Azərbaycan şəraitində dünyanın bir çox inkişaf etmiş ölkələrində olduğu kimi, səmərəli fəaliyyət göstərən ailə təsərrüfatçılıq sisteminin yaradılması qısamüddətli hər hansı bir tədbir deyildir. Odur ki, bazar münasibətləri şəraitində səmərəli fəaliyyət göstərə bilən ailə təsərrüfatçılıq sisteminin formalaşdırılması uzun vaxt və kompleks tədbirlər sisteminin həyata keçirilməsini tələb edir.

## ƏDƏBİYYAT


1. Məmmədov A.İ. Kənd təsərrüfatının iqtisadiyyatı. Bakı, 1992.
2. Niftullayev V.M. Kənd təsərrüfatının iqtisadiyyatı. Bakı, 1996, 360 s.
3. Hüseynov Ə.Ə. Azərbaycanda sahibkarlığın inkişafı. Bakı, 1997, 167 s.
4. Verdiyev Ə.Ç., Abbasov V.H., Əfəndiyəv M.O. Aqrar-sənaye kompleksində sahələrarası inteqrasiya əlaqələrinin səmərəliliyi. Bakı, 1994, 106 s.
5. Государственное регулирование экономики / Под ред. профессора Т. Г.Морозовой. М.: Экономика, 2002, 255 с.
6. Боев В.Р. Государственное регулирование агропромышленного производства // Достижения науки и техники в АПК, 1997, № 5, с. 38-41.
7. Гулиев Р.Р. Проблемы агропромышленной интеграции СНГ (на примере России и Азербайджана). Баку: Издательство МСХА, 2003, 268 с.
8. Крылатых Э.Н., Строкова О.Г. Аграрные аспекты вступления стран СНГ в ВТО. М.: Энциклопедия Российских деревень, 2002, с. 165.



**Заур Мамедов**


## ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АГРАРНОМ СЕКТОРЕ


В результате исследований выявлено, что основные перспективные направления развития предпринимательской деятельности в стране – создание сельскохозяйственных предприятий на основе различных видов частной собственности, создание инфраструктуры производства, услуг и торговли на принципах добровольности, формирование экономических связей между предприятиями производства, услуг и торговли.

**Zaur Mammadov**

## PRIORITY DIRECTIONS OF DEVELOPMENT OF BUSINESS UNDERTAKINGS IN THE AGRARIAN SECTOR

As a result of researches it is revealed, that the basic perspective directions of development of entrepreneurial activities in the country are creation of the agricultural enterprises on the basis of various types the private property, creation of the production infrastructure, services and trade on principles of voluntaryism, formation of economic connections between the enterprises of manufacture, services and trade.

***Rəyçi: İqtisad e.d. A.Rüstəmov, iqtisad e.n. C.Mahmudov.***

***AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun Elmi Şurasının 2 iyul 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**SƏBUHİ İBRAHİMOV**
AMEA Naxçıvan Bölməsi

# İMAMİLİYİN FƏLSƏFİ TARİXİ

Məlumdur ki, Məhəmməd peyğəmbər müsəlman icmasının başçısı və İslam dininin yayıcısı kimi miladi təqvimi ilə 610-632-ci illər ərzində 23 il fəaliyyət göstərmişdir. Məhəmməd peyğəmbər nə qədər ağıllı, nə qədər geniş dünyagörüşlü kamil bir insan olmaqla həmin dövrün çətinliklərinə baxmayaraq, cəmiyyətin bütün həyat sahələrini tənzim edəcək hüquq normaları yarada biləcək sistem şəklini təmin etmişdir. Hərçənd ki, müsəlman hüquqşünas və kəlamçıları bütün biliklərin Quranda olmasını iddia edirlər. Hətta Məhəmməd peyğəmbərin özünün sağlığında da elə ictimai münasibətlər meydana çıxmışdır ki, həmin münasibətləri Quranda göstərilən normalar, peyğəmbərin hədisləri, göstəriş və məsləhətləri ilə həll etmək mümkün qədər həll edilmişdir. Lakin Məhəmməd peyğəmbərin ölümündən çox keçmədən islamın 2 qolu – sünnilik və şiəlik yaranmış, bu özü də azmış deyə, sonradan həmin qolların özündə də parçalanma baş vermiş, məzhəblər yaranmışdır.

Quranda «biz kitabda heç bir şey kəsik buraxmadıq» (VI-38) deyilməsinə baxmayaraq, islamın ilk dövrlərində belə onun bütün həyat hadisələrini əhatə etdiyinə inanılmamış, yeri gəldikdə mövcud məsələləri həll edənlər öz rəylərinə əsaslanmışlar, lakin bu rəyin Qurana zidd olmamasını özləri üçün əsas götürülmüşdür. Çox zaman adətlərdən istifadə edilmişdir. Misir valisi danışıq zamanı şərh edilməmiş bir məsələnin həlli qaydasını II xəlifə Ömərdən soruşmuş, xəlifə ona belə bir cavab yazmışdır: «Bu xüsusda mənə heç bir şey çatmamışdır (bizdən əvvəlkilərdən), buna görə qərar vermək işini sənin öhdənə qoyuram, onu öz rəyinə görə həll et». Bu barədə IX əsr ərəb alimi və tarixçisi Əlginələşin «Misirin Vali və qaziləri» əsərində göstərmişdir (1, s. 605).

Hələ Məhəmməd peyğəmbərdən bilavasitə sonra xəlifəliyə keçmiş əl-Xüləfa ər-Raşidin, yəni Əbu Bəkr, Ömər, Osman və Əlinin xəlifə olduqları dövrdə vahid islam dini hakimiyyət uğrunda gedən mübarizə və Quran ehkamlarının tətbiqi məsələlərində fikir ayrılığına görə sünni və şiə qollarına ayrılmış, həmin qolların davamçıları arasında amansız mübarizə getmişdir.

Bütün məzhəb ardıcılları qarşıya çıxan məsələlərin həllində özlərini haqlı saymışlar.

«İslamın fəthlərindən sonra islam dininin yayılması, yeni-yeni ictimai münasibətlərin həlli zərurətinin meydana çıxması, hər bir qolun, yəni sünnilik və şiəliyin ayrı-ayrı məzhəblərə bölünməsinə, məzhəb ardıcıllarının da hüquq məsələlərinin həllində ciddi fikir ayrılıqları yaratmalarına gətirmişdir. Müxtəlif dövrlərdə həmin məzhəblərin ardıcılları və məzhəblərin özləri müxtəlif olmuş, bəzi məzhəblər yarandığı vaxtdan öz mövcudiyyətini mühafizə etsə də, başqa məzhəblər zamanın sınaqlarına davam gətirə bilməmiş, zaman-zaman öz ardıcılları bu gün o qədər azdır ki, nəzərə alınmır» (1, s. 605).

İslamın sünni qolu nisbətən lap əvvəldən güclü olmuşdur. Bütün islam aləminin böyük əksəriyyəti, Yəmən, İran, Azərbaycan, İraq ərazisində yaşayan müsəlmanların bir hissəsi istisna olunmaqla qalan müsəlmanlar, demək olar ki, sünni qoluna mənsubdur. Bu səbəbdən də sünni qolu üzrə məzhəblər də çox yayılmış, daha artıq dərəcədə dəyişikliklərə uğramışdır.

İslamın sünni qolunun müasir dövrə qədər yaşamış 4 əsas məzhəbi mövcuddur ki, həmin məzhəblər də öz yaradıcılığının adı ilə Hənəfilik, Şafiilik, Malikilik və Hənbəlilik adlanır. Doğrudur, sünni qolu üzrə məşhur fəqihlər olan əl-Əvzay, Sufiyan əs-Savri, Zahiri, Vəhhabi, məşhur tarixçi ət-Təbəri tərəfindən bu məzhəblər qeydə alınmış, lakin bunlar öz dövrlərində müəyyən müvəffəqiyyətlər qazansa da, sonralar tərəfdarlarını itirərək aradan çıxmışlar.

İslamın şiə qolunun ardıcılları əsasən İran, Yəmən, Hindistan, Çin Pakistan, Suriya, Azərbaycan və İraq ərazisində yaşasalar da, Ərəbistan yarımadası, Misir, Əfqanıstanda da şiələr var. Şiəlik xüsusilə səfəvilərin İranda dövlət hakimiyyətini ələ alaraq dövlət yaratmaqla ətraf əraziləri işğal edərək şiəliyin könüllü olaraq yaymalarından sonra genişlənmişdir. Şiəlik qolunun da bir sıra məzhəbləri vardır: Zeydiyyə, İmamiyyə, Ələviyyə, İsmailiyyə və s. Azərbaycan ərazisində yaşayan müsəlmanların əksəriyyəti imamilik məzhəbinə etiqad edir və bu məzhəbin ülvü xeyirxahlıq prinsiplərini həyata keçirməklə öz mənəvi paklığına, doktirinasına sahib olurlar. Ümumiyyətlə, sünnilik və şiəliyin yayılması nisbi götürülür. Şiəliyin geniş yayıldığı Azərbaycan, İran, Hindistan, Pakistan, Yəmən Ərəb Respublikası, İraqda sünni qoluna mənsub müsəlmanlar olduğu kimi, sünniliyin geniş yayıldığı Türkiyə, Misir, Əlcəzair, İordaniya, Küveyt, Somali, Livan, Liviya, Tatarıstan, Şimali Qafqaz və başqa ərazilərdə yaşayan müsəlmanlar arasında da şiələr vardır.

«Şiəlik və sünniliyin yan-yana mövcud olduğu dövlətlərdə onların barışdırılması, aralarında ciddi ixtilaflar çıxmaması üçün tədbirlər görülməsi həmişə zəruri olmuşdur» (4, s. 67). İslam ölkələri arasında hakimiyyət və yeni torpaqlar zəbt edilməsi uğrunda aparılan müharibələr çox zaman

bu don geyindirilərək xalqın qanı əbəs yerə axıdılmışdır. Bu təbliğatdan istifadə edilməsi XVI əsrdə İran Səfəviləri ilə Osmanlı türklər arasında gedən müharibələrdə öz yüksək həddinə çatmış, sünni və şiələrin bir-birinə nifrətlə yanaşması təbliğ olunmuşdur.

Şiəlik sözünün kökü ərəbcə tərəfdar deməkdir. Şiəlik Məhəmməd peyğəmbərin əmisi oğlu və qızının əri Əli ibn Əbu Talibin siyasi hakimiyyətə – xəlifəliyə gəlməsi uğrunda gedən mübarizə nəticəsində meydana gəlmiş, daha sonra ideologiyaya çevrilmişdir. Məhəmməd peyğəmbərdən sonra ilk xəlifə Əli ibn Əbu Talib olmalı olduğu halda, Əbu Bəkri (Məhəmməd peyğəmbərin son arvadı Aişənin atası), Ömər ibn Xəttab və Osman gizli razılığa gələrək xəlifəliyə gətirmişlər. Buna görə Əli ibn Əbu Talib bir müddət guşənişin olmuş, heç bir siyasi işə qarışmamışdır. Əbu Bəkr 2 il yəni miladi tarixilə 632-634-cü illər ərzində xəlifə olduqdan sonra Ömər ibn Xəttab hakimiyyətə keçərək 10 il xəlifə olmuşdur. Sonra Osman 12 il xəlifə olmuş, 655-661-ci illər ərzində isə Əli ibn Əbu Talib xəlifəliyə keçmişsə də, onun hakimiyyəti dövründə Əməvilər daima hakimiyyət davasında olub, onu rahat buraxmamışlar. Nəhayət, 661-ci ildə Əli ibn Əbu Talibin məsciddə namaz qılarkən zəhərli qılıncla vurularaq şəhid edilmiş və Nəcəful-Əşrəfdə dəfn edilmişdir. Xəlifələrdən Müaviyənin oğlu Yəzid tərəfindən Əlinin və onun ailə üzvlərinin Kərbəla çölündə amansız şəhid edilməsi və qalanları isə üryan dəvələrə süvar edilərək Şam şəhərinə əsir edilməsi şiəliyin əsas ideoloji bazasını, ayrılığının mənbəyini təşkil edir.

İmamilər Əli ibn Əbu Talibin peyğəmbərin ailəsinə mənsub olması, qızının əri olması, atası Əbu Talibin peyğəmbərin himayəçisi və dayağı olmasını, bütün müharibələr zamanı göstərdiyi rəşadətləri nəzərə alaraq onun xəlifəliyini zəruri hesab etmişlər. Şiəliyin məzhəb və təriqətləri Əlinin adını İslamın əsas ifadələrinə əlavə edərək hər bir imaminin onun adını Allahın, Məhəmməd peyğəmbərin adı ilə yanaşı yad etməsini tələb etmişlər. Əliallahilik təriqəti isə onu ilahiləşdirməyə belə cəhd etmişdir.

Şiəliyin ən çox yayılmış məzhəbi İmamilikdir. İmamilər peyğəmbər nəslindən olan 12 imama inanıb onun ardınca getməyi, 12-ci imam həzrəti əl-Mehdinin qayıdacağı, bütün haqsızlıqları yer üzündən siləcəyi, yeni bəşəri həyat yaradacağına inanırlar. İmamilər qarşıya çıxan məsələləri həll edəcək normaları Quranda, İcmada olmaqla yanaşı, həmçinin müctəhidin rəyinə və fitvasına əsaslanmağın zəruriliyini qəbul edirlər. İmamın paklığına etiqad edir, beytül-mala verilən əmlakın, vəqf mülkiyyətinin bir qisminin peyğəmbər nəslindən olan seyidlərə verilməsini məqbul sayırlar.

Şiəliyin ən mürəkkəb qolu olan İsmailiyyə müxtəlif təlimləri özündə birləşdirdiyi üçün ayrı-ayrı yerlərdə batinilik, məzdəkilik, qərəmətilik, təlimlik, mülhidilik və başqa adlar altında özünü göstərmişdir.

İmamilər sünnilərin əksinə olaraq hər hansı bir təhlükə mövcud olan vaxt öz inamlarını gizlətməyin mümkünlüyünü qəbul edir. Bunun Qurana

uyğun olmasını da iddia edirlər. Bu, tarixən imamiliyin təqib olunması, təqibdən yaxa qurtarmaq üçün öz fikirlərini gizlətməsi zərurətdən irəli gəlmişdir. Bundan başqa, imamilər qəməri ilinin Məhərrəm və Səfər aylarını özləri üçün matəm ayı sayırlar. Hər il Məhərrəm ayında Kərbəla düzündə imam Hüseynin şəhadətə yetirilməsinin il dönümündən sonra 40 günlük matəm saxlayırlar. Namaz vaxtı imamilər həyata keçirdikləri müxtəlif zəruri hərəkətlər də sünnilərinkindən fərqlənir.

İmamilik fəlsəfi təlimini fərqləndirən biri də imama verdikləri qiymətdir. İmam sözü ərəbcə qabaqda gedən, qabaqda duran, başçı və rəhbər deməkdir. Dini təbircə də imam camaatın qarşısında durub onları namaza qaldıran şəxsə deyilir. İmamdan əvvəl alnını möhürə dayayan şəxs şeytanla əlbir hesab olunur. Bu mənada hər bir mömin və hörmətli müsəlman imam kimi camaatı namaza qaldıra bilər. Adətən imamlıq vəzifəsi dini qaydaları yaxşı bilən alim şəxslərə həvalə olunur. Lakin ayrı-ayrı qrupların özləri üçün də imam seçməsi halı mövcuddur. İmamlıq nə sənət, nə də vəzifə hesab olunur. O, namaz qılınan vaxtda imamdır, namaz qılındıqdan sonra isə başqa müsəlmandan fərqlənməyərək hamı ilə bir sırada durur. Sünnilərdə həm də şəriət elmlərini ən yaxşı bilən, fiqhə, üsul əl-fiqhə elmlərin öyrənilməsi haqqında, elmə, kəlam, təfsir elmlərinə dair əsərlərin müəlliflərinə imam ləqəbi vermişlər. Məsələn, Əbu Hənifə, İdris Şafii, Qəzali və başqaları imam hesab olunmuşlar, bu ləqəblə də onların ən böyük din başçısı olması müəyyən edilmişdir. İslamın imamilik qolunda isə imam sözü bir çox mənalarda işlənmiş, uzun mübahisələr və ziddiyyətlər mövzusu olmuşdur. Bu mübahisələr əsasən Məhəmməd peyğəmbərin qızı Fatimənin əri, əmisi oğlu və ən yaxın silahdaşı Əli ibn Əbu Talibin və onun kişi cinsli xələflərinin ən yüksək imam olması ətrafında cərəyan etmişdir (2, s. 204). Şiələrdən Zeydilik məzhəbi imaməti Əli və onun oğulları Həsən və Hüseynin üzərində görürlər. İmam həddi-buluğa çatmış, ağıllı, kişi cinsli, mömin, Kəlamlı – yəni Üsul əd-Dini yaxşı bilən, saleh və etibarlı şəxs olmalıdır. Digər şiə məzhəblərindən fərqli olaraq, Zeydilər həmişə bir çox imamların mövcud olacağına, hətta müəyyən dövr ərzində heç bir imamın mövcud olmayacağına inanırlar. Bu mənada imam peyğəmbərdən sonra birinci dərəcəli şəxs hesab olunur.

İmamilər imam adını xəlifə adı ilə eyniləşdirirlər, hətta özlərinin müsəlman belə hesab etdikləri Əməvi və Abbasi xəlifələrini saxta imam adlandırmışlar. İmamilərə görə, imam İslam dininin çirklənmələrdən qorumalı, peyğəmbərlərin həqiqi varisləri olduğuna görə hakimiyyəti əllərində saxlamalı, İslam qanunlarını sistemləşdirməlidirlər. İmamlar pak, təmiz və məsumdurlar, onlarda zahirən qeyri-müəyyən hərəkət görünsə də bu pis hesab edilməməlidir, çünki onların hərəkətlərinin qiyməti aşağılar tərəfindən verilə bilməz. Ümumiyyətlə, İmamilik qolu tərəfindən imamlar, Əli və onun

övladları müqəddəsləşdirilir, onlara qeyb olma, gizlənmə, möcüzə yaratma keyfiyyətləri şamil edirlər.

## ƏDƏBİYYAT


1. İslam Ansiklopedisi. IV c., İstanbul, 1948.
2. Прозоров С.М. Шиитская (Имамитская) доктрина верховной власти. Москва: Ислам, 1966, 241 с.
3. Müznib Ə. Müxtəsər Ənbiya və İslam Tarixi. Bakı: Gənclik, 1990, 60 s.
4. Саидбаев Т.С. Ислам и общество. Москва, 1973.
5. Hicrani Ə. Vəhdət və Birlik Yolunun Çıraqları. Tehran: Etimad Qum, 1999, 66 s.



**Сабухи Ибрагимов**


## ФИЛОСОФСКАЯ ИСТОРИЯ ИМАМИЗМА


12 имамов из рода пророка поверили в него и пошли за ним; также считается, что с возвращением двенадцатого имама Сахиба аз-Замана все несправедливости будут стерты с лица земли и в мире воцарятся идеалы гуманизма. По учению имамизма, в случае, если невозможно разрешить возникающие проблемы на основе норм Корана и законов общины, необходимо полагаться на мнение мучтеидов.



**Sabuhi Ibrahimov**


## PHILOSOPHICAL HISTORY OF IMAMISM


12 imams from the Prophet's clan have believed him and followed him; also it is considered, that with the return of twelfth imam Sahib az-Zaman all injustice will be wiped off the face of the world and ideals of humanism will be established in the world. According to the doctrine of imamism, when it is impossible to resolve arising problems on the basis of norms of the Koran and laws of a community, it is necessary to rely on opinion of Muchtehides.



***Rəyçi: AMEA-nın müxbir üzvü, fililogiya e.d. Ə.Quliyev, fəlsəfə e.d., prof. M.Rzayev.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 03).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

## TƏNQİD VƏ BİBLİOQRAFİYA

**İSMAYIL HACIYEV**
AMEA Naxçıvan Bölməsi

# NAXÇIVAN: TARİXİ VƏ ABİDƏLƏRİ

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə həsr edilmiş «Naxçıvan: tarixi və abidələri» kitabı (Bakı, «Təhsil», 2007, 216 səh.) bu günlərdə yüksək poliqrafik səviyyədə nəşr edilərək oxucuların istifadəsinə verilmişdir. Kitab Azərbaycan MEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin və AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının qərarları ilə çap olunmuşdur. Əsərin Baş məsləhətçisi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, müəllifləri isə AMEA-nın m.ü., prof. Yaqub Mahmudov və t.e.d. Kərim Şükürovdur. Kitabda Azərbaycanın ayrılmaz tərkib hissəsi və dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanın tarixi inkişaf yolu və abidələrindən bəhs edilir. Kitab ulu öndərimizin məşhur sözləri ilə açılır: «Azərbaycanın qədim və zəngin tarixinə, mədəniyyətinə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir».

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulduğundan, həm də Naxçıvanın tarixi və abidələrini beynəlxalq ictimaiyyətə tanıtmağa yönəldiyindən Azərbaycan və ingilis dillərində nəşr olunmuşdur. Bu mənada kitabın yayılma dairəsi geniş olmaqla, Naxçıvanın tarixi və abidələri haqqında sistemli və geniş məlumatlar verir. Kitabın iki dildə olması onun oxucu dairəsinin geniş olmasına və Naxçıvanın beynəlxalq aləmdə tanıdılmasına xidmət edir.

Əsər iki hissədən ibarətdir: Naxçıvan ən qədim zamanlardan muxtariyyət dövrünədək və Naxçıvan Muxtar Respublikası 1924-cü ildən bizim günlərədək. Kitabda qeydlər, illüstrasiya materialları oxucularda həmin dövrlər haqqında daha dolğun təsəvvürlər yaradılmasına, Naxçıvan tarixinin daha dərindən dərk edilməsinə imkan yaradır.

Əsərdə Naxçıvanla bağlı qiymətli və ümumiləşmiş fikirlərə geniş yer verilmişdir ki, bu da qədim Azərbaycan torpağı olan bu diyarın tarixi taleyimizdə oynadığı rolu əsaslandırmış olur. Kitabın ilk səhifələrində verilmiş aşağıdakı fikirlər dediklərimizə ən yaxşı nümunədir: Qədim Azərbaycan torpağı olan Naxçıvan Yer kürəsində həyatın başlandığı ilk insan məskənlərindən biridir. Azərbaycan xalqı bu diyarda qədim və zəngin mədəniyyət yaratmışdır. Naxçıvan, eyni zamanda dünyanın da ən qədim mədəniyyət məskənlərindəndir. Azərbaycanın digər bölgələri kimi Qədim Şərq sivilizasiyaları ilə sıx bağlı olan Naxçıvan tarixi inkişafın gedişində dərin iz qoymuşdur. Bu diyarda Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi formalaşmışdır.

Azərbaycan ərazisində bir sıra coğrafi adlara rast gəlinir ki, onların izahında yekdil fikir yoxdur. «Naxçıvan» toponimi də bu qəbildəndir. Sözün etimologiyası ilə bağlı elmdə bir sıra fikirlər mövcuddur ki, kitabda bunlardan üçü haqqında məlumat verilir: «Nəqş-i cahan», «Nuhçuvan» və «Naksuana» (Naxçuan). Fikrimizcə, burada başqa mülahizələrdən bəhs edilsəydi və müəlliflərin üstün yer verdikləri sözün etimologiyası izah edilsəydi daha yaxşı olardı.

Məlumdur ki, Naxçıvan ərazisində qədim daş dövründən başlamış ən qədim insanların ilk yaşayış məskənləri olmuşdur. Yeni daş, mis-daş, tunc dövrlərində Naxçıvanda zəngin mədəniyyət yaradılmışdır. Kür-Araz mədəniyyəti, boyalı qablar mədəniyyəti və adından göründüyü kimi Naxçıvan mədəniyyəti bu diyar üçün xarakterikdir. 3500-4000 ildən artıq yaşı olan Naxçıvan şəhəri sonralar Azərbaycanın iqtisadi, siyasi və mədəni mərkəzlərindən birinə çevrilmişdir.

Naxçıvan uzun əsrlər ərzində Manna, Midiya dövlətlərinin, Əhəməni imperiyasının, Atropatena, Sasani dövlətlərinin, Ərəb xilafətinin, Səlcuq və sonrakı dövlətlərin tərkibində olmuş və bu dövlətlərin ən inkişaf etmiş əyalətlərindən biri olmuşdur. Eldənizlər dövründə Naxçıvan bir müddət bu dövlətin paytaxt şəhəri kimi şöhrət qazanmışdır. Həmin dövr mənbələrinin birində Naxçıvan haqqında yazılır: «Naxçıvan Azərbaycanda şəhərdir, böyükdür və əhalisi çoxdur, hündür yerdə yerləşir, çox möhkəmləndirilmişdir. Çoxlu saraylar, şəhərkənarı qəsrlər – köşklər və təmtəraqlı eyvanlar tikilib, şəhərin yanında daşdan qala tikiblər, qalada mədrəsə, məscid inşa ediblər; qalada şirinsulu bulaq var. Deyirlər ki, yer üzündə bundan çox əhalisi olan şəhər yoxdur... Araz çayı şəhərin içərisindən axır. Əlahəzrət Eldənizin mübarək zamanında şəhər özünün ən yüksək əzəmətinə çatdı. Orada hökmdarın iqamətgahı... və hökumət binaları tikildi».

Naxçıvan tarixinin sonrakı inkişafı kitabda izlənilmiş, Hülakülər, Qaraqoyunlu və Ağqoyunlu, Səfəvilər dövlətlərinin tərkibində olan Naxçıvanın hərbi-strateji, iqtisadi və siyasi mövqeyi və rolu izah edilmişdir.

Naxçıvan sancağının illik gəliri, Naxçıvan dairəsinin mahalları üzrə əhalinin, o cümlədən köçkün ermənilərin bölgüsü ilə bağlı verilmiş cədvəllər tarixi qaynaqlara əsaslanır və oxucularda obyektiv fikirlər formalaşdırır. Xüsusilə, erməni iddialarına burada obyektiv cavab var: Buraya ermənilərin kütləvi surətdə köçürülüb gətirilmələrinə baxmayaraq Naxçıvan əhalisinin əksəriyyəti yenə də azərbaycanlılardan ibarət idi.

Rusiya işğalından Naxçıvana muxtariyyət statusunun verilməsinədək olan dövr tarixi ardıcıllıqla izlənilmiş, tarixi hadisələrə obyektiv münasibət bəslənilmişdir. Xüsusilə, muxtariyyət statusunun bu diyarın tarixi taleyindəki rolu düzgün izah edilmişdir.

Kitabın bu hissəsində yeri gəldikcə Naxçıvan diyarının görkəmli yetirmələri haqqında bəhs edilir və onların ən məşhurları haqqında oçerklər verilir. Xalqımızın ümummilli lideri Heydər Əliyev haqqında, onun Azərbaycan, xüsusilə Naxçıvan Muxtar Respublikasının taleyində oynadığı rol tutarlı faktlarla verilmişdir. Əcəmi Əbubəkr oğlu Naxçıvani, Nəsirəddin Tusi, Cəmşid Naxçıvanski, Cəlil Məmmədquluzadə haqqında verilən oçerklər də Naxçıvan diyarının yetirmələri haqqında təsəvvür yaradır. Hər dövrün tarixi materiallarında da Naxçıvanın yetirmələrindən bəhs edilir: Qızıl Arslan, Zahidə xatın, Fəzlullah Nəimi, Naxçıvanilər, Hatəmbəy Ordubadi, Heydərqulu xan, Kalbalı xan, Azərbaycanda elm, ədəbiyyat və incəsənətin inkişafında önəmli rol oynayan naxçıvanlılar, Bəhruz Kəngərli, Behbud ağa Şahtaxtinski və b.

Kitabın ikinci hissəsində müəlliflər Naxçıvan Muxtar Respublikasının tarixini iki dövrə ayırır: 1. Sovet dövrü (1924-1991-ci illər). 2. Müstəqillik dövrü (1991-ci ildən indiyədək).

Naxçıvan Muxtar Respublikası yarandıqda onun sahəsi 5.998 kv.km idi. 1929-1930-cu illərdə Sovet rəhbərləri Moskva və Qars müqavilələrinə əhəmiyyət verməyərək Naxçıvan Muxtar Respublikasının tarixi torpaqlarından 657 kv.km ərazini Ermənistana verdilər. Nəticədə Naxçıvan MR-in ərazisi 5.365 kv.km oldu. Əslində isə beynəlxalq müqavilələr buna imkan vermirdi. Bunu nəzərə alan Ulu Öndərimiz 1998-ci ildə demişdir: «Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq».

Naxçıvanın 20-30-cu illər tarixi, siyasi repressiyalar, əhalinin say dinamikası, İkinci Dünya müharibəsində Naxçıvanın faşizm üzərində qələbəyə göstərdiyi tarixi xidmətlər, müharibədən sonrakı illərdə Naxçıvanın sosial-iqtisadi, siyasi və mədəni həyatında baş verən dəyişikliklər geniş faktiki materiallar əsasnda izah edilmişdir. 70-80-ci illər Azərbaycanda olduğu kimi, Naxçıvanın da həyatında dirçəliş illəri kimi yadda qalmışdır. 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində baş verən siyasi hadisələr, ölkənin

çətin vəziyyətə düşməsi, Heydər Əliyevin Vətənə qayıtması və siyasi hadisələrə təsiri obyektiv mövqedən təhlil edilmişdir. Müəlliflər çox düzgün olaraq göstərirlər ki, «Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası tarixinin məna və mahiyyətinə görə bir-birindən kəskin surətdə fərqlənən iki dövrü bir-birindən ayrılırdı – sovet dövrü başa çatır, xalqın arzusunda olduğu müstəqillik dövrü başlanırdı. Naxçıvanda yeni, Azərbaycanın quruculuğu prosesi gedirdi. Bu tarixi prosesə ulu öndər Heydər Əliyev başçılıq edirdi».

Müstəqilliyin ilk illərində Bakıda hakimiyyət çəkişməsi, siyasi hərcmərclik hökm sürürdüsə, Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvanda istiqlal mübarizəsi və yeni həyat quruculuğuna başlanmışdı. Xüsusilə, Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü Naxçıvanın taleyini həll edirdi. Həm bu illərdə, həm də Heydər Əliyevin respublikaya ikinci rəhbərliyi dövründə Naxçıvanda yeni iqtisadi münasibətlərin təşəkkülü və inkişafı, xalqın həyat səviyyəsinin yüksəldilməsi, sərhədlərin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi və mədəni inkişaf sahəsində böyük uğurlar əldə olundu.

Əsərdə Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı, görkəmli dövlət xadimi, Ölkə Prezidenti İlham Əliyev, 1995-ci ilin dekabrından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən, Naxçıvanın hərtərəfli inkişafına nail olan görkəmli ictimai-siyasi və dövlət xadimi Vasif Talıbov, Azərbaycanın görkəmli kimyaçı alimi Yusif Məmmədəliyev, Azərbaycanın görkəmli şairi və dramaturqu, çağdaş Azərbaycan ədəbiyyatının banilərindən biri Hüseyn Cavid haqqında oçerklər verilmiş, onların fəaliyyətlərindən bəhs edilmişdir.

Naxçıvanın tarixini araşdıran müəlliflər belə nəticəyə gəlmişlər ki, Naxçıvanın keçdiyi qədim və uzun tarixi inkişaf yolunun hər bir səhifəsi aydın sübut edir ki, bu diyar ən qədim zamanlardan türk yurdu kimi Azərbaycana məxsus olmuşdur, onun ayrılmaz tərkib hissəsidir və Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biridir.

Kitabın əlavələr hissəsində verilən illüstrasiya və şəkillər onun əhəmiyyətini artırır. Burada muxtar respublikanın tarixi və bu günü barədə 20-yə yaxın xəritədən, 5-ə yaxın cədvəl və plandan, 260 şəkil və illüstrasiyadan istifadə olunmuşdur ki, onların da 189-u tarixi memarlıq abidələridir. Mustye mədəniyyətinə aid əmək alətlərinin, daş dövrü alətlərinin, müxtəlif dövrlərə aid keramika məmulatlarının, Kür-Araz və boyalı qablar mədəniyyəti nümunələrinin, Gəmiqaya rəsmlərinin, Xarabagilan tapıntılarının, Oğlanqala, Çalxanqala, Əlincəqala kimi müdafiə istehkamlarının plan və şəkillərinin, Əshabi-Kəhf mağarasından olan müxtəlif şəkillərin, arxeoloji, tarixi, memarlıq, epiqrafik abidələrə aid onlarla illüstrasiya və şəkillərin verilməsi kitaba oxucu marağını artırır, onlarda müxtəlif dövrlər haqqında daha dolğun təsəvvür yaradılmasına kömək edir. Ulu babalarımızın yarat-

dıqları memarlıq abidələri, türbələr, orta əsr şəhər yerləri, daş qoç heykəlləri bir daha bu ərazinin qədim türk yurdu olduğunu təsdiq edir. Həmin abidələrin plan, quruluş və kompozisiyaları, memarlıq üslubları bunların ulu əcdadlarımız tərəfindən yaradıldığını təsdiq edir. Kitabda məişət əşyalarından və etnoqrafik materiallardan verilən illüstrasiyalar da fikrimizi bir daha sübut edir. Əsərdə XX əsr boyu naxçıvanlıların yaratdıqları abidələr, muzeylər, məscidlər, məqbərələr, meydanlar, heykəllər haqqında da şəkil və illüstrasiyalar verilmişdir. Müəllif fikirlərini şəkil və illüstrasiyalar tamamlayır. Xalqımızın ümummilli lideri, Ulu öndərimiz Heydər Əliyevin və Ölkə Prezidenti İlham Əliyevin müxtəlif vaxtlarda Naxçıvan Muxtar Respublikasına tarixi səfərlərindən verilmiş nümunələr kitabın əhəmiyyətini daha da artırmış, bu diyarın qorunub saxlanılmasında və inkişafında Heydər Əliyev və İlham Əliyevin tarixi xidmətləri minnətdarlıqla xatırlanır.

Etiraf etməliyik ki, «Naxçıvan: tarixi və abidələri» kitabı Naxçıvanın tarixinə və abidələrinə həsr olunmuş layiqli və dəyərli kitablardan biridir. Kitabın təqdimat mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu əsəri "Naxçıvanın tarixi və memarlıq abidələri barədə ensiklopedik nəşr" kimi qiymətləndirmişdir.

İnanırıq ki, Naxçıvanın tarixi və abidələri ilə maraqlanan oxucular buradan özləri üçün geniş və obyektiv məlumat əldə edə biləcəklər.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

**HACIFƏXRƏDDİN SƏFƏRLİ**
AMEA Naxçıvan Bölməsi

# NAXÇIVAN HƏQİQƏTLƏRİNİ ƏKS ETDİRƏN TOPLU

Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində «İrs» («Nasledie») Beynəlxalq Azərbaycan jurnalının 3 (27)-ci sayı (2007-ci il) işıq üzü görmüşdür. Jurnalın bu nömrəsi bütünlüklə Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biri, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana həsr olunmuşdur. İndiyədək Azərbaycanın müxtəlif bölgələrinə xüsusi nömrəsi həsr olunmuş bu jurnalın növbəti sayının Naxçıvana həsr olunması heç də təsadüfi deyildir. Bədnam qonşularımız ermənilərin Azərbaycana ərazi iddialarında əsas yer tutan Naxçıvan bölgəsinin tarixinin, mədəniyyətinin, arxeologiyasının, etnoqrafiyasının, folklorunun, ədəbi mühitinin dərindən, obyektiv, hərtərəfli araşdırılması və beynəlxalq ictimaiyyətə çatdırılması çox böyük siyasi-tarixi əhəmiyyətə malik bir işdir. Bu baxımdan «İrs» jurnalının bu cür vətənpərvərlik mövqeyindən çıxış etməsi təqdirəlayiqdir.

Azərbaycan MEA-nın həqiqi üzvləri İsa Həbibbəyli və İsmayıl Hacıyevin elmi məsləhətçiliyi ilə çox nəfis şəkildə, poliqrafik cəhətdən yüksək səviyyədə nəşr olunan bu topluda Naxçıvanın ən qədim zamanlardan başlayaraq bu günə qədər tarixinin və mədəniyyətinin müxtəlif problemlərinə aid 22 məqalə nəşr olunmuşdur. Çox yaxşı haldır ki, bu məqalələrin böyük əksəriyyətinin (17-sinin) müəllifi Naxçıvanda yaşayıb yaradan alimlərdir. Qətiyyətlə demək olar ki, əgər 10-11 il əvvəl belə bir toplu yaradılsaydı, orada nəşr olunan məqalələrin müəllifləri sırasında naxçıvanlı tədqiqatçıların xüsusi çəkisi çox az olardı.

Bu bir həqiqətdir ki, Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun xüsusi sərəncamı ilə 1996-cı ildə Naxçıvanda keçirilən «Uluslararası qaynaqlarda Naxçıvan» beynəlxalq simpoziumundan sonra keçən yüzilliyin 80-ci illərinin sonu-90-cı illərinin əvvəllərində bütün Azərbaycanda, o cümlədən Naxçıvanda başlanan, bütün sahələrdə olduğu kimi, elmdə də hökm sürən böhran, tənəzzül, sükut, ətalət aradan qaldırılmış və elmi tədqiqatlar sahəsində canlanma başlanmışdır. Bunun ardınca Naxçıvanda elmi tədqiqatların genişləndirilməsi istiqamətində həyata keçirilən digər tədbirlər, xüsusi ilə ümummilli liderimiz Heydər Əliyevin sərəncamı ilə 2002-ci ildə

AMEA Naxçıvan Bölməsinin yaradılması bölgədə elmi tədqiqatların yüksələn xətt üzrə inkişafına güclü təkan verdi və bunun üçün münbit zəmin yaratdı. Məhz Naxçıvanda elm sahəsində həyata keçirilən uğurlu siyasət, yüksək dövlət qayğısı və elmi tədqiqatlar üçün yaradılan münbit şərait qısa bir müddətdə öz nəticəsini verdi və bunun məntiqi nəticəsi olaraq Naxçıvanda elmin müxtəlif sahələri üzrə yüksək ixtisaslı kadrlar yetişməyə başladı. Təkcə bunu demək kifayətdir ki, 1996-cı ilədək Naxçıvanda 1 nəfər də olsun tarix elmləri doktoru yox idisə, keçən müddət ərzində Naxçıvanda tariximizin müxtəlif problemləri ilə məşğul olan 4 tarix elmləri doktoru, 20-dən artıq tarix elmləri namizədi hazırlanmışdır. Ona görə də adı çəkilən çox sanballı nəşrdə işıq üzü görən məqalələrin müəllifləri sırasında Azərbaycanın çox görkəmli alimləri ilə yanaşı, AMEA Naxçıvan Bölməsinin və NDU-nun əməkdaşlarının çoxluq təşkil etməsi təsadüfi bir hal kimi deyil, Naxçıvanda elmə göstərilən yüksək dövlət qayğısının, bu sahədə aparılan məqsədyönlü siyasətin nəticəsi kimi qiymətləndirilməlidir.

«İrs» jurnalının rus və ingilis dillərində nəşr edilən və Naxçıvana həsr olunan bu sayı Naxçıvan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində çox mühüm addımdır. Bu nəşr yaxınlarda təqdimat mərasimi keçirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun baş məsləhətçiliyi ilə AMEA-nın müxbir üzvü Yaqub Mahmudov və tarix elmləri doktoru Kərim Şükürov tərəfindən Azərbaycan və ingilis dillərində yazılmış «Naxçıvan: tarixi, abidələri» adlı mötəbər nəşrlə birlikdə Naxçıvan həqiqətlərini dünyaya çatdırmaq baxımından çox sanballı qaynaq kimi diqqəti cəlb edir.

Jurnalın tərtibçiləri məqalələri yerləşdirərkən tarixi məqalələrdə xronoloji ardıcıllığı ümumi şəkildə gözləsələr də, hər bir məqalədən sonra Naxçıvanın müasir həyatını, ədəbi mühitini, folklorunu, memarlığını və s. əks etdirən məqalələr verməklə tarixiliklə müasirliyi əlaqələndirmiş, jurnalın oxunaqlılığını artırmışlar.

Naxçıvanı Azərbaycanın istehkamı kimi səciyyələndirən baş redaktor Musa Mərcanlının məqaləsi ilə açılan jurnalda ilk yer alan arxeoloji məqalələrdə Naxçıvan insanların məskunlaşdığı ilk ərazilərdən, ilkin şəhər mədəniyyətinin yarandığı yerlərdən biri kimi xarakterizə edilmişdir. Qeyd olunmuşdur ki, Naxçıvanda əhali ən azı 100 min il bundan əvvəl – mustye dövründən məskunlaşmış və təxminən 4000 il əvvəl burada ilkin şəhər mədəniyyəti meydana gəlmişdir. AMEA-nın müxbir üzvü Vəli Əliyevin məqaləsində Naxçıvan Azərbaycanın ilkin şəhər mədəniyyəti mərkəzi kimi xarakterizə edilmiş, arxeoloji qazıntılar zamanı aşkar olunmuş zəngin maddimədəniyyət nümunələri və yazılı mənbələr əsasında belə bir qənaətə gəlinmişdir ki, çox əlverişli coğrafi mövqedə və mühüm ticarət yollarının keçdiyi ərazidə yerləşən Naxçıvan ərazisi eramızdan əvvəl XXIII-XIV əsrlərdə ilkin şəhər mədəniyyətinin yarandığı ərazilərdən birinə çevrilmiş və e.ə. II minil-

liyin əvvəllərində – 4 min il bundan əvvəl Naxçıvan şəhəri təşəkkül tapmışdır.

Tarix elmləri namizədi Məmməd Məmmədovun Naxçıvanın müstəqillik illərindəki tarixinə həsr olunmuş məqaləsində keçən yüzilliyin 80-ci illərinin sonlarından başlayaraq Naxçıvanda baş verən ictimai-siyasi proseslərə nəzər salınmış və qeyd olunmuşdur ki, görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin həyatının və siyasi fəaliyyətinin Naxçıvan dövründə, 17 noyabr 1990-cı ildə Muxtar Respublika Ali Sovetinin I sessiyasının bu böyük şəxsiyyətin sədrliyi ilə keçirilən ilk iclasında Naxçıvan Muxtar Respublikasının adından Sovet Sosialist sözləri çıxarılmış, Ali Sovetin adı dəyişdirilərək Ali Məclis adlandırılmış, ADR-in üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilmişdir. Həmçinin, məqalədə ümummilli liderin Ali Məclisin sədri kimi blokada şəraitində yaşayan Naxçıvanın işğaldan, əhalinin aclıqdan, səfalətdən və s. xilas etmək üçün apardığı işlərdən bəhs olunmuş, Naxçıvan Muxtar Respublikasında son illərdə aparılan geniş miqyaslı abadlıq və quruculuq işlərindən söhbət açılmışdır.

AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevlə türk alimi Oktay Bəllinin müştərək yazdıqları məqalədə Naxçıvanda formalaşan qədim mədəniyyətlər tarixi mədəni proses kimi izlənmiş, bu ərazidəki qədim mədəniyyətlərin türk xalqlarına məxsus olduğu göstərilmişdir.

Jurnalda Naxçıvanda elm və təhsilin inkişafında xüsusi yeri və rolu olan Naxçıvan Dövlət Universitetinə ayrıca məqalə həsr olunması təqdirəlayiqdir. Universitetin rektoru, akademik İsa Həbibbəylinin məqaləsində əsası 1967-ci ildə qoyulan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 mart 2007-ci tarixli sərəncamı ilə oktyabr ayında 40 illik yubileyinin keçiriləcəyi Naxçıvan Dövlət Universitetinin inkişafı yoluna nəzər salınmış, əldə olunan nailiyyətlər və qarşıda duran vəzifələr haqqında söhbət açılmış, bu qədim diyarın ilk ali təhsil ocağı haqqında ətraflı məlumat verilmişdir. Məqaləyə əlavə edilən və universitetin müxtəlif görüntülərini əks etdirən 4 ədəd foto şəkil son illərdə artıq klassik universitet nümunəsi kimi qiymətləndirilən bu ali təhsil müəssisəsi haqqında müəllifin fikirlərinin əyani göstəricisinə çevrilmişdir.

Jurnalda nəşr olunan məqalələrdən aydın olur ki, qədim və ilk orta əsrlər zamanı müxtəlif quldar və feodal dövlətlərinin tərkibində olan Naxçıvan VII əsrin ortalarından etibarən ərəblərin hakimiyyəti altına düşür, əhali islamlaşır. Bu zaman Naxçıvan inkişaf etmiş yaşayış məskəni kimi ərəblərin əsas dayaq və istinad nöqtələrindən birinə, iqamətgahına çevrilir. Erməni alimlərinin anti azərbaycan təbliğatında xalqımızın guya köçəri olması, heç bir dövlətçilik ənənəsinə malik olmaması haqqında cəfəng iddialar xüsusi yer tutur. Jurnalı oxuyarkən akademik Nailə Vəlixanlının fikirlərindən oxucuya bəlli olur ki, nəinki Azərbaycan, hətta onun ayrılmaz tərkib hissəsi

olan Naxçıvan çox qədim dövlətçilik ənənələrinə malik olmuşdur və bu baxımdan Naxçıvanın Azərbaycan dövlətçiliyi tarixində özünəməxsus yeri vardır. Belə ki, burada X əsrin sonları-XI əsrin ortalarında Şəddadilər dövlətinin tərkibində Naxçıvanşahlıq deyilən kiçik dövlət qurumu yaranmış, ərazi əsası 1136-cı ildə Şəmsəddin Eldəniz tərəfindən qoyulmuş Azərbaycan Atabəylər dövlətinin mərkəzi hissəsinə, Naxçıvan şəhəri isə dövlətin paytaxtına çevrilmişdir. Atabəylər dövləti kimi dövrünün nəhəng bir dövləti məhz 30 il Naxçıvan şəhərindən idarə edilmişdir. Paytaxt buradan köçürüldükdən sonra da şəhər dövlətin inkişaf etmiş əsas mərkəzlərindən biri olmuşdur. Bu dövrdə Azərbaycan memarlığının Naxçıvan məktəbi təşəkkül tapmış, Yusif ibn Küseyir, Möminə Xatun kimi möhtəşəm memarlıq abidələri yaradılmış, Naxçıvan şəhəri «Nəqşicahan»a – Dünyanın bəzəyinə çevrilmişdir.

Tarix elmləri doktoru Hacıfəxrəddin Səfərli öz məqaləsində Naxçıvanın epiqrafik abidələrini bu qədim diyarın daş pasportları kimi xarakterizə edir və bu kitabələr Naxçıvan ərazisinin qədimdən müsəlman türklərə məxsus olmasını təsdiq edən sanballı qaynaqlar kimi təqdim olunurlar. Naxçıvanın müsəlman kitabələrindən nümunələrin qrafik təsvirlərinin mətnə əlavə olunması məqalədə bəhs olunan məsələ haqqında təsəvvürü daha da genişləndirir.

İndi olduğu kimi, orta əsrlər zamanı da Naxçıvan yer adı konkret bir şəhərə aid olmaqla yanaşı, həm də böyük bir inzibati ərazi bölgüsünü əhatə etmiş ayrı-ayrı dövrlərdə bu ad altında indiki Naxçıvan Muxtar Respublikası ərazisindən qat-qat geniş olan böyük ərazilər birləşmişdir. Tarix elmləri doktoru, professor Vaqif Piriyevin məqaləsindən aydın olur ki, XIII-XIV əsrlərdə Naxçıvan tüməni Ordubaddan Makuya qədər çox böyük əraziləri birləşdirmiş, Azərbaycanın əsas elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Əhalisi türk etnosundan ibarət olan Naxçıvandan çıxmış adamlar Hülakülər və Cəlairilər dövlətinin idarə olunmasında fəal iştirak etmişlər. Həmin dövrdə Naxçıvandan Nəsirəddin Tusi, Nəcməddin Naxçıvani, Həsən ibn Ömər Naxçıvani, Fəxrəddin Hinduşah, Məhəmməd ibn Hinduşah və başqaları kimi alimlər yetişmişdir.

Tarix elmləri doktoru Hacıfəxrəddin Səfərlinin «Naxçıvan Səfəvilər dövründə» məqaləsində qeyd olunmuşdur ki, Səfəvilər dövründə Naxçıvanın siyasi, iqtisadi, ticarət əhəmiyyəti artmış, ərazi Səfəvi şahlarının xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş, kiçik istisnalar nəzərə alınmazsa, demək olar ki, Səfəvilər dövlətinin mövcud olduğu 235 il (1501-1736-cı illər) ərzində onun tərkibində olmuş və Qızılbaş hökmdarlarının tapşırığı ilə bölgənin ən qədim sakinlərindən olan Kəngərli tayfa başçıları tərəfindən idarə olunmuşdur. Bunun məntiqi nəticəsi olaraq Naxçıvanın iri feodalları və irsi hakimləri olan Kəngərli tayfa başçıları 1747-ci ildə Naxçıvan xanlığını yaratmışlar. 1747-1797-ci illərdə müstəqil, 1797-1828-ci illərdə yarım müstəqil

olan Naxçıvan xanlığının tarixi Musa Quliyevin məqaləsində yığcam şəkildə ifadə olunmuşdur.

Jurnalın üstün cəhətlərindən biri də orada tarixi qaynaqlardan geniş istifadə olunması, hətta yeri gəldikcə həmin qaynaqlardan müxtəlif tarixi məsələlərin izahına yardım edən fikirlərin verilməsidir. Məsələn, 1833-cü ildə Sankt-Peterburqda rus məmuru V.Qriqoryev tərəfindən nəşr olunan «Naxçıvan əyalətinin statistik təsviri» kitabından akademik İsa Həbibbəylinin sanballı ön sözü ilə orijinaldan verilən fikirlər 1828-ci il Türkmənçay müqaviləsindən sonra ermənilərin İrandan Naxçıvana köçürülməsinin, bu köçürmənin acı nəticələrinin həmin hadisələrin şahidinin – hətta dini və milli cəhətdən xalqımızla heç bir əlaqəsi olmayan V.Qriqoryevin dili ilə oxucuya çatdırılması çox yerinə düşür və ermənilərin Azərbaycanda, o cümlədən Naxçıvanda məskunlaşdırılması haqqında oxucuda aydın təsəvvür yaradır.

Dövrün ən aktual problemlərindən biri, xalqımızın ümummilli lideri Heydər Əliyevin «tarixi nailiyyət» kimi xarakterizə etdiyi Naxçıvana muxtariyyət statusunun verilməsi, bu statusun verildiyi siyasi-tarixi şərait haqqında akademik İsmayıl Hacıyevin «Naxçıvanın muxtariyyət statusu haqqında» məqaləsində məlumat verilir və qeyd olunur ki, Naxçıvanın üç tərəfdən Ermənistanla əhatə olunması, onun Azərbaycanın əsas hissəsindən ayrı düşməsi və idarəsinin mürəkkəbləşməsi səbəbindən Naxçıvana milli əlamətlərə görə deyil, daxili və xarici faktorlara, bölgənin coğrafi və geosiyasi vəziyyətinə görə muxtariyyət verilmişdir.

Dosent Həmzə Cəfərovun məqaləsində az müddət yaşamasına baxmayaraq, Azərbaycan tarixində müəyyən iz buraxan Araz Türk Respublikasının tarixi və həmin vaxt ermənilərin Naxçıvanda törətdikləri qırğınlar öz əksini tapmışdır.

Ermənilərin Azərbaycana qarşı əsassız ərazi iddiaları və onun ifşası məsələləri də jurnalda özünə yer almışdır. Akademik İsmayıl Hacıyevin ingilis dilində yazdığı «Erməni iddiaları: tarix və gerçəklik» məqaləsində erməni iddialarının tarixi kökləri araşdırılır və etibarlı tarixi qaynaqlar əsasında bu iddiaların puçluğu və əsassızlığı sübuta yetirilir. Məqalədə Türkmənçay müqaviləsinin şərtlərinə əsasən ermənilərin Naxçıvan bölgəsinə köçürülməsi, bu prosesin XIX yüzillik boyu davam etdirilməsi, beləliklə, erməni əhalisinin xüsusi çəkisinin süni surətdə artırılması təkzibolunmaz faktlarla əsaslandırılmış və bu haqda oxucuda aydın təsəvvür yaradılmışdır.

Jurnalda orta əsrlərdən başlayaraq Naxçıvanda formalaşan ədəbi mühit, onun görkəmli nümayəndələri haqqında ətraflı məlumat verən dosent Hüseyn Həşimli XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Cəlil Məmmədquluzadənin bir felyetonu, şairlərdən Əliyar Yusifli və Asim Yadigarın şeirlərindən nümunələr verməklə Naxçıvan ədəbi mühiti haqqında dolğun təsəvvür yaratmışdır.

Jurnalda Naxçıvanın mənəvi mədəniyyət məsələləri də diqqətdən yayınmamış, AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadənin «Əshabi-kəhf mağarası kultu və onun tarixi kökləri» məqaləsində Əshabi-Kəhf haqqında rəvayət, hazırda Əshabi-kəhfdə əhali tərəfindən yerinə yetirilən mərasimləri təhlil edilərək belə qənaətə gəlinmişdir ki, bu mərasimlər ümumi türk xarakteri daşımaqla Azərbaycanda olduğu kimi, türk xalqları yaşayan digər ölkələrdə də mövcuddur. Naxçıvan folklor materialları əsasında filologiya elmləri doktoru Məhərrəm Cəfərlinin və Məhsəti İsmayılın məqalələrində Naxçıvan mifoloji mətnlərində Azərbaycan xarakteri təhlil olunur və qeyd olunur ki, Naxçıvanda bu günə qədər gəlib çatan folklor nümunələri, onların mifoloji kökləri və regional xüsusiyyətləri təsdiq edir ki, onlar Naxçıvanın yerli əhalisi olan türk etnosuna məxsusdurlar. Cəlil Vəzirovun və Əli Qəhrəmanovun Azərbaycanın ən qədim teatrlarından olan 125 yaşlı Naxçıvan teatrının tarixinə dair məqaləsi də jurnalda özünə yer almış, bu haqda dəyərli məlumatlar verilmişdir.

Kənd təsərrüfatı elmləri namizədi Əlövsət Quliyevin «Naxçıvan kəhrizləri» məqaləsində əsasən quraqlıq təbiətə malik olan Naxçıvan bölgəsinin içməli və suvarma suyuna olan tələbatının ödənilməsində qədim zamanlardan bəri kəhriz sistemindən istifadə olunması, Naxçıvanda mövcud olan kəhrizlər haqqında maraqlı məlumatlar verilmiş, onlardan istifadənin perspektivləri əsaslandırılmışdır. Nadir Babayevin məqaləsində isə Naxçıvan Duz mədəninin müalicəvi əhəmiyyətindən bəhs edilmişdir.

Memarlıq doktoru Vilayət Kərimovun məqaləsində Naxçıvanın arxeoloji abidələri, AMEA-nın müxbir üzvü Cəfər Qiyasinin məqaləsində isə Səlcuq memarlığının təsiri altında yaranmış «Naxçıvan memarlıq məktəbi», bu memarlıq məktəbinin möhtəşəm nümunələri və onun təsir dairəsindən söhbət açılmışdır.

«İrs» – «Naslediye» jurnalının Naxçıvana həsr olunmuş bu sayı çox böyük ictimai-siyasi əhəmiyyətə malikdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz çıxış və məruzələrində Azərbaycanın, o cümlədən Naxçıvanın tarix və mədəniyyətinin dərindən öyrənilməsi və beynəlxalq ictimaiyyətə çatdırılmasını təxirəsalınmaz və aktual bir vəzifə kimi tədqiqatçıların qarşısında qoymuşdur. «İrs» jurnalının Naxçıvana həsr olunmuş bu sayı ilk növbədə ulu öndərin tarix və mədəniyyətimizin öyrənilməsi, təbliği və beynəlxalq ictimaiyyətə çatdırılması haqqında tövsiyə və tapşırıqlarının yerinə yetirilməsi istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində ciddi bir nəşr kimi mühüm əhəmiyyət kəsb edir.

Jurnalda Naxçıvanın keçdiyi tarixi inkişaf yolu haqqında nəşr olunan məqalələrdən əldə olunan nəticələr və ən qədim zamanlardan başlayaraq bölgədə yaradılmış maddi-mədəniyyət nümunələri, tarix-memarlıq abidələri, indiyədək gəlib çatan orta əsr qaynaqları, epiqrafik faktlar, mənəvi mədəniyyət nümunələri və s. hamısı kompleks şəkildə ərazinin sakinlə-

rinin qədim zamanlardan bəri türk etnosundan ibarət olması faktını tamamilə təsdiqləyir. Naxçıvanın tarixinə həsr olunmuş məqalələrdən aydın olur ki, qədim və orta əsrlər zamanı bölgənin əhalisi türklərdən ibarət olmaqla türklər ərazinin aborigen sakinləri olmuşlar.

Fikrimizcə, «İrs» jurnalının bu nömrəsində nəşr olunan, Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanın qədim, orta əsrlər, yeni və ən yeni tarixi, mədəniyyəti, folkloru, ədəbi mühiti və s. haqqında yığcam məlumat verən bu məqalələr ermənilərin Naxçıvana qarşı ərazi iddialarının əsassızlığını sübut edən, bu ərazilərin qədim zamanlardan türklərə mənsub olmasını bir daha təsdiqləyən nəşr kimi böyük maraq doğuracaqdır.

Jurnalda nəşr olunan məqalələr heç də göydəndüşmə fikirlər əsasında deyil, arxeoloji qazıntılar zamanı əldə olunmuş maddi-mədəniyyət nümunələri, sanballı orta əsr qaynaqları, mühüm və etibarlı tarixi faktlar əsasında yazılmış, söylənilən fikir və müddəalar həmin qaynaqların məlumatları ilə əsaslandırılmış, XIX yüzilliyin ortalarından başlayaraq bölgədə tədqiqat aparan əcnəbi tədqiqatçıların fikirləri ilə möhkəmləndirilmişdir.

Məqalələrdə haqqında bəhs olunan məsələlərə aid maddi-mədəniyyət nümunələrinin, nadir arxeoloji tapıntıların, möhtəşəm memarlıq abidələrinin, müsəlman kitabələrinin, sikkələrin və s. rəngli foto şəkillərinin verilməsi, tarixin müxtəlif dövrlərində Naxçıvanın bir sıra feodal dövlətlərinin tərkibində yerini və mövqeyini əks etdirən xəritələrin mətnə əlavə olunması da nəşrin dəyərini artıran cəhət kimi diqqəti cəlb edir.

Azərbaycan alimləri fərdi qaydada xaricdə nəşr olunan kitab və məqalələri ilə erməni saxtakarlarına qarşı tutarlı cavablar versələr də, bu jurnal Naxçıvanın tarixi və mədəniyyəti haqqında əsl həqiqətləri beynəlxalq ictimaiyyətə dünya dillərindən ingilis və rus dilləri vasitəsilə kompleks şəkildə təqdim edən toplu kimi böyük əhəmiyyətə malikdir. Bu nəşr Naxçıvanda yaşayan alimlərin, xüsusilə gənc tədqiqatçıların xaricə çıxışı və tanınması üçün mühüm amil kimi çox böyük əhəmiyyətə malikdir.

Azərbaycanın işğal olunmuş bölgələri və onların işğal tarixini iri planda diqqəti cəlb edəcək şəkildə oxuculara təqdim edən jurnalın əsas məziyyətlərindən biri də ondan ibarətdir ki, burada nəşr olunan məqalələrin ingilis dilində xülasəsi verilmişdir. Bu da heç şübhəsiz hər bir əcnəbi oxucuda Naxçıvanın tarix və mədəniyyətini əks etdirən məqalələr haqqında yığcam təsəvvür yarada biləcəkdir.

Jurnalın müxtəlif səhifələrində, yeri gəldikcə akademik Həsən Əliyevin sözləri ilə desək, yerinin altı tükənməz xəzinə, üstü canlı muzey olan bu qədim diyarın təbiət abidələrinin (Batabat gölü, Əlincə qala, Gəmiqaya, Pəzməri şəlaləsi və s.), təbii sərvətlərinin (Badamlı, Sirab), müasir memarlıq abidələrinin (Təbriz mehmanxanası, Nəqşi-cahan oteli və restoranı) rəngli foto şəkillərinin verilməsi oxucuların bu bölgənin təbiəti, hazırda aparılan

quruculuq işləri haqqında bilik dairəsini genişləndirmək sahəsində xüsusi əhəmiyyət kəsb edirlər.

Fikrimizcə, «İrs» jurnalının bu nömrəsinin muxtar respublikaya gələn əcnəbi qonaqlara hədiyyə kimi təqdim edilməsi onların Naxçıvan, onun tarixi və mədəniyyəti, ərazi mənsubiyyəti, aborigen əhalisi haqqında geniş və dəqiq məlumat əldə etməsinə böyük yardım edə bilər. Jurnalın bu sayının kütləvi tirajla nəşr olunması və xarici ölkələrdə yayılması, beynəlxalq ictimaiyyətə çatdırılması çox yaxşı olardı. Arzu edərdik ki, «İrs» jurnalının bu xeyirxah və vətənpərvər işi gələcəkdə də davam etdirilsin.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2008, №3*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2008, №3*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2008, №3*

## YUBİLEYLƏR

**ASİF ŞİRƏLİYEV**
Naxçıvan Dövlət Universiteti

# GÖRKƏMLİ ALİM VƏ İSTEDADLI ELM TƏŞKİLATÇISI

Həmyerlimiz, görkəmli iqtisadçı alim, yorulmaz tədqiqatçı, elm fədaisi, böyk elm təşkilatçısı, ölkəmizdə iqtisad elminin əzəməti, təcrübəli pedaqoq, ictimai xadim, təvazökar, həssas və qayğıkeş insan iqtisad elmləri doktoru, professor, Respublika Elmləri Akademiyasının Akademiki Əhməd Əkbər oğlu Mahmudov 1923-cü ilin may ayının 25-də istedadlar məskəni olan Şahtaxtı kəndində anadan olmuşdur. 1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində iştirak etmiş, 1950-ci ildə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu fərqlənmə diplomu ilə başa vurmuş, 1950-1954-cü illərdə keçmiş SSRİ Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun aspirantı olaraq iqtisad elmləri namizədi alimlik dərəcəsi adını almışdır. Əhməd müəllim 1955-ci ildə Azərbaycan Respublika Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda kiçik elmi, daha sonra baş elmi işçi, eyni zamanda Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda müəllim, 1958-64-cü illərdə elmi-tədqiqat İqtisadiyyat institutunun direktor müavini, 1964-cü ildən ömrünün axırına kimi (1989) direktor vəzifəsində işləmişdir. Tanınmış alim Əhməd Mahmudov 1967-ci ildə iqtisad elmləri doktoru alimlik dərəcəsi almış, 1972-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1983-cü ildə isə akademiki seçilmişdir.

Akademik Əhməd Mahmudov hər şeydən əvvəl böyük alim və elmi araşdırıcı olmuşdur. O, 20 monoqrafiyanın, elmi və praktiki əhəmiyyətli 300-dən artıq elmi məqalənin müəllifidir ki, onların da xeyli hissəsi respublikadan kənarda – müsəqil dövlətlər birliyi ölkələrində, həmçinin dünyanın bir sıra ölkələrində nəşr edilmişdir. Onun iqtisadi irsi aspirantların və dissertantların tədqiqat və araşdırmalarında daim istifadə etdikləri əsas mənbələrdən biri sayılmışdır.

İqtisad elminin elmi-tədqiqat üzrə çoxsaylı istiqamətləri onun adı ilə bağlıdır. İqtisadi Nəzəriyyə (siyasi iqtisad), İqtisadi təlimlər tarixi, statistika və konkret iqtisad elmləri üzrə tədqiqatlar görkəmli alimin araşdırmalarının coğrafiyasını təşkil edir.

O, apardığı iqtisadi tədqiqat və araşdırmalar üzrə bir sıra prinsiplər, müddəalar və qanunauyğunluqlar işləyib hazırlamağa nail olmuş, elmə və praktikaya 200-dən çox tövsiyə və təklif vermiş, 30-dan çox iqtisadi ideya formalaşdıra bilmişdir. Elmdə qəti dəyişiklik etməyi bacaran akademik Əhməd Mahmudov bənzəri olmayan bir iqtisadçı alim idi. Onun işləyib hazırladığı monoqrafiyaları, tutumlu araşdırmaları yeni ideya, prinsip və müddəalara əsaslanırdı və zənginliyi ilə səciyyələnirdi. həm də mühüm elmi dəyərə və praktik əhəmiyyətə malik idi, ölkənin sosial-iqtisadi inkşafına, ictimai istehsalın səmərəliliyinin artmasına köməklik göstərirdi. Bütün bunlar çoxlarına müyəssər olmayan cəhət və keyfiyyət imkanı idi. Həm də onun işləyib hazırladığı prinsip, müddəa, qanunauyğunluqlar müddətsiz aktuallıq xarakteri daşıyırdı.

**Əhməd Mahmudov (1923-1989)**

İstedadı və nadir elmi qabiliyyətinə görə respublika iqtisadçıları hələ cavan yaşlarında Əhməd müəllim iqtisad elminin korifeyi, alimlər alimi və iqtisad elminin ağsaqqalı adlandırmışlar.

Aqrar bölmədə istehsalın və əməyin təşkili, bölgü münasibətləri, torpaq fondu və əmək ehtiyatlarından istifadə, kənd təsərrüfatında əmək məhsuldarlığı və rentabellik, istehsal xərcləri, dağlıq rayonların iqtisadiyyatı,

istehsalın intensivləşdirilməsi, iqtisadi tədqiqatlarda riyazi üsullardan istifadə, istehsalın idarə edilməsi, əsaslı vəsait və investisiya qoyuluşu, elmi-texniki tərəqqinin sosial-iqtisadi məsələləri, aqrar islahatları, istehsalın tənzimi metodologiyası, aqrar-sənaye inteqrasiyası, kəndin sosial-iqtisadi inkişafı, həyat səviyyəsinin proqnozlaşdırılması məsələləri Əhməd müəllim apardığı elmi-tədqiqat işlərinin başlıca istiqamətləri və araşdırma obyekti olmuşdur.

Böyük iqtisadçı alim həm respublikamızda və keçmiş SSRİ-də təcrübəli elm təşkilatçısı kimi tanınmışdır. O, respublika, müstəqil dövlətlər birliyi ölkələri, habelə Şərqi Avropa, Asiya ölkələri üçün 100 nəfərdən çox aspirantın və doktorantın elmi rəhbəri və elmi məsləhətçisi olmuşdur.

Əhməd müəllim 20-dən çox gənc Azərbaycanlı mütəxəssisini keçmiş SSRİ-nin nüfuzlu və tanınmış ali məktəblərinin və elmi-tədqiqat müəssisələrinin aspiranturasında oxumağa göndərmişdir.

Bir elm təşkilatçısı kimi Əhməd müəllim rəhbərlik etdiyi aspirantlara və elmi məsləhətçisi olduğu doktorantlara həmişə qayğıkeşlik və mehribanlıq göstərməsilə yanaşı, elmdə onlara qarşı çox ciddi, sərt tələbkarlıq etmiş və heç bir güzəştə getməmiş, elmdə həqiqətpərəst olmuşdur. Mən Onun aspirantı olanların, demək olar ki, əksəriyyəti indi iqtisad elmləri doktoru kimi səmərəli elmi-pedaqoji fəaliyyət göstərirlər.

Əhməd müəllim özünün iqtisadi məktəbini yaratmış, burada müntəzəm olaraq respublikada iqtisad elminin aktual məsələləri qarşıya qoyulmuş, irəli sürülmüş və elmi tədqiqat obyektinə cəlb edilmişdir.

Təcrübəli tədqiqatçı və elm təşkilatçısı Əhməd müəllim həm də İqtisadiyyat İnsitutunun direktoru işlədiyi ilk günlərdən respublikada elmi-tədqiqat İqtisadiyyat İnstitutlarının və İqtisadiyyat təmayüllü ali təhsil müəssisələrinin elmi potensialını gücləndirmək, əlaqələndirmək və isiqamətləndirmək, habelə elmi-tədqiqat işlərində paralelçiliyi və təkrarı aradan qaldırmaq məqsədilə rəhbərlik etmişdir. Məhz bununla həmçinin respublikada əhalinin iqtisadi təhsili və iqtisadi təfəkkürünün formalaşması məsələlərinin tənzimlənməsinə xeyli köməklik göstərmiş, əhalinin iqtisadi tərbiyəsi məsələləri bir sistem kimi formalaşdırılmışdır. Bu əlaqələndirmə sayəsində eyni zamanda respublikada iqtisad elmləri üzrə aparılan elmi-tədqiqat və araşdırma işlərinin nəticələrinin səviyyəsi yüksəlmiş və faydalılığı artmışdır. Böyük alimin səyi nəticəsində əlaqələndirmə sayəsində eyni zamanda respublikada iqtisad elmləri üzrə aparılan elmi-tədqiqat və araşdırma işlərinin nəticələrinin səviyyəsi yüksəlmiş və faydalılığı artmışdır. Böyük alimin səyi nəticəsində əlaqələndirmə şurasının köməyilə ölkəmizdə iqtisadi təhsil və araşdırma üzrə qüvvələrin və gücün vahid mərkəzdə birləşdirilməsinə nail olunmuşdur.

Görkəmli və təcrübəli elm təşkilatçısı kimi akademik Əhməd Mahmudov respublikanın və keçmiş SSRİ-nin bir sıra respublikalarının elm və dissertasiya şuralarının üzvü kimi geniş və faydalı fəaliyyət göstərmişdir.

Belə ki, Əhməd müəllim respublika elmi dissertasiya şuralarının üzvü olmaqla yanaşı, Lenin adına ümumittifaq kənd təsərrüfatı elmləri akademiyasının Zaqafqaziya şöbəsinin kənd təsərrüfatı istehsalının iqisadiyyatı və təşkili bölməsinin üzvü, Azərbaycan Elmlər Akademiyasının tarix, fəlsəfə və hüquq bölməsinin akademik katibinin müavini, SSRİ Elmlər Akkademiyasının elm və texnika komitəsinin «elmi-texniki və sosial-iqtisadi proqnozlaşdırılmasının regional problemləri» üzrə ümumi regional komissiyasının üzvü, Azərbaycan Respublika Elmlər Akademiyasının rəyasət heyəti yanında iqtisadi problemlər üzrə respublika elmi şurasının sədri, elmlər namizədi və elmlər doktoru alimlik dərəcəsi üzrə elmi şurasının sədri, SSRİ Elmlər Akademiyasının və dövlət elm və texnika komitəsinin SSRİ-nin elmi-texniki tərəqqisinin kompleks proqramı və perspektivi üçün onun sosial-iqtisadi nəticələrinin işlənib hazırlanması üzrə komissiyanın üzvü, SSRİ aqrar-sənaye kompleksinin iqtisadiyyatı, sosiologiyası və hüquqi problemləri üzrə elmi şurasının Azərbaycan filialının sədri olmuşdur.

Görkəmli alim, böyük elm təşkilatçısı Əhməd müəllimi nəinki keçmiş SSRİ respublikaları, habelə Şərqi Avropanın, və Asiyanın bir sıra ölkələrinin elmi ictimaiyyəti yaxından tanıyırdı.

Əhməd müəllim elmi-tədqiqat işi ilə yanaşı, həm də uzun müddət pedaqoji faliyyətilə məşğul olmuş, respublikanın iqtisad təmayüllü ali məktəblərində iqtisadi nəzəriyyə (siyasi iqtisad), statistika fənlərini bacarıqla, pedaqoji ustalıqla və məharətlə tədris etmiş, bu elmlərin incəliklərini tələbələrə çatdıra bilmiş, onların həmin elmlərə yiyələnməsinə səy və qayğı göstərmişdir.

Akademik Əhməd Mahmudov həm də ictimai xadim olmaqla respublikanın və keçmiş SSRİ-nin bir sıra təşkilatlarının və komitələrinin üzvü olmuş və onların fəaliyyətinin yaxşılaşdırılmasına öz köməyini əsirgəməmişdir. Belə ki, Əhməd müəllim respublika «Bilik» cəmiyyətinin iqtisadi biliklərinin təbliği üzrə elmi-metodik şuranın sədri, SSRİ elm və texnika üzrə dövlət komitəsi yanında «Zaqafqaziya su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi» şurasının üzvü, elm və texnika üzrə Azərbaycan Respublika Nazirlər Soveti yanında Dövlət Mükafatı Komitəsinin üzvü olmuş, keçmiş SSRİ-nin ərzaq proqramının işlənib hazırlanması haqqında komissiyanın sədri müavini, Azərbaycan dövlət plan komitəsi yanında planlaşdırma və iqtisadi həvəsləndirmənin yeni metodlarının təbliği üzrə idarələrarası komissiyasının üzvü idi.

Əhməd müəllim həm də keçmiş SSRİ dövründə belə öz xalqının və millətinin taleyi və gələcəyi ilə müntəzəm maraqlanmış, azərbaycançılığı daim və sistemli təbliğ etmiş, respublikamızın və millətimizin fəal müdafiəsi kimi fəaliyyət göstərmiş və bütün bunların əziyyətini kimin tərəfindən isə çəkməli olmuşdur.

Tanınmış alim, böyük elm təşkilatçısı və fəal ictimai xadimin elmi-pedaqoji fəaliyyəti və əməyi yüksək qiymətləndirilmiş, bir sıra orden, medal və fəxri fərmanlarla təltif edilmişdir. «Şöhrət», «Şərəf Nişanı» ordenləri, «Böyük Vətən Müharibəsinin 20 illik», «Yubiley medalı», «Fədakar Əməyə görə» medalı ilə, 30-dan çox fəxri fərmanlara layiq görülmüşdür.

Onu da qeyd etmək gərəkdir ki, Əhməd müəllim təkcə özünün, qohum və yaxınlarını deyil, digərlərinin də arxası, müdafiəçisi və yaxın məsləhətçisi olmuşdur.

Əhməd müəllimin ümumi fəaliyyətinə, o cümlədən elmi, təşkilatçılığının, pedaqoji və icimai fəaliyyətinə əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, bütün bunlarda həmşə, daim, müntəzəm olaraq özünün ağıl və zəkasına arxalanmış, yalnız və yalnız ondan faydalı və xeyir götürmüşdür.

Xalqımızın ağıllı oğlunun, daim və əvəzedilməz iqtisadçının, Azərbaycanda iqtisad elminin, korifeyini – alimlər alimini, ustadlar ustadını onun aspirantları və doktorantları, otuz ildən artıq rəhbərlik etdiyi elmi müəssisənin səmimi kollektivi, respublikanın elmi-pedaqoji ictimaiyyəti, iqisadiyyatçılar ittifaqı iftixarla xatırlayır və bunu özlərinin borc və fəxri hesab edirlər. Böyük alim və şəxsiyyət olan Əhməd müəllim həmişəlik xatırlananların ön sırasındadır.

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalın əsas məqsədi elmi keyfiyyət kriteriyalarına cavab verən orijinal elmi məqalələrin dərc edilməsindən ibarətdir.
2. Jurnalda başqa nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.
3. Məqalənin həmmüəlliflərinin sayının üç nəfərdən artıq olması arzuolunmazdır.
4. Məqalələrin keyfiyyətinə, orada göstərilən faktların səhihliyinə müəllif birbaşa cavabdehdir.
5. Dərc olunan hər məqalə haqqında redaksiya heyəti üzvlərindən ən azı birinin, həmin sahə üzrə mütəxəssisin rəyi, müvafiq elmi müəssisənin elmi şürasının protokolundan çıxarış olmalı və məqalənin sonunda bunlar göstərilməlidir.
6. Məqalələr üç dildə – Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi verilməlidir.
7. Məqalənin mətni jurnalın redaksiyasına fərdi kompyuterdə, A4 formatlı ağ kağızda, «14» ölçülü hərflərlə, səhifənin parametrləri yuxarıdan 2 sm, aşağıdan 2 sm; soldan 3 sm, sağdan 1 sm məsafə ilə, sətirdən-sətrə «defislə» keçmədən, sətir aralığı 1,5 interval olmaq şərti ilə rus dilində Times New Roman, Azərbaycan dilində isə – Times Roman AzLat şriftində yazılaraq, 1nüsxədə çap edilərək, disketlə birlikdə jurnalın məsul katibinə təqdim edilir. Mətnin daxilində olan cədvəllərin parametri soldan və sağdan 3,7 sm olmalıdır.
8. Səhifənin sağ küncündə «12» ölçülü qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı yazılır.
9. Aşağıda işlədiyi təşkilatın adı 1 interval ara verməklə, «12» ölçülü adi və kiçik hərflərlə yazılır (məs: AMEA Naxçıvan Bölməsi; Naxçıvan Dövlət Universiteti). Sonra 1 sətir boş buraxılmaqla aşağıdan «14» ölçülü hərflərlə məqalənin adı çap edilir. Məqalənin əsas mətni yenə də 1 sətir boş buraxılmaqla aşağıdan yazılır.
10. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl «12» ölçülü hərflərlə, kodlaşdırma üsulu və əlifba sırası ilə göstərilməlidir. «Ədəbiyyat» sözü səhifənin ortasında qalın və böyük hərflərlə yazılır.

    Ədəbiyyat siyahısı yazıldığı dildə adi hərflərlə verilir. Məs:

    **Kitablar:**

    Qasımov V.İ. Qədim abidələr. Bakı: İşıq, 1992, 321 s.

    **Kitab məqalələri:**

    Həbibbəyli İ.Ə. Naxçıvanda elm və mədəniyyət /Azərbaycan tarixində Naxçıvan, Bakı: Elm, 1996, s. 73-91

    **Jurnal məqalələri:**

    Baxşəliyev V.B., Quliyev Ə.A. Gəmiqaya təsvirlərində yazı elementləri //

AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 74-79

11. Məqalənin xülasəsində müəllifin adı və soyadı «12» ölçülü kiçik, qalın hərflərlə; mövzunun adı böyük, qalın hərflərlə; xülasənin özü isə adi hərflərlə yazılır. Xülasə məqalənin məzmununu tam əhatə etməli, əldə olunan nəticələr ətraflı verilməlidir.
12. Məqalədəki istinadlar mətnin içərisində verilməlidir. Məs: (4, s.15)
13. Məqalələrin ümumi həcmi, qrafik materiallar, fotolar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 5-7 səhifədən çox olmamalıdır.
14. Məqaləyə müəlliflər haqqında məlumat (soyadı, adı və atasının adı, iş yeri, vəzifəsi, alimlik dərəcəsi və elmi adı, ünvanı, iş və ev telefonları) mütləq əlavə olunmalıdır.

**QEYD:** AMEA Naxçıvan Bölməsinin «Xəbərlər» jurnalına təqdim olunan məqalələrin sayının çoxluğunu və «Tusi» nəşriyyatının imkanlarının məhdudluğunu nəzərə alaraq bir nömrədə hər müəllifin yalnız bir məqaləsinin çap edilməsi nəzərdə tutulur.

**XƏBƏRLƏR**
AMEA Naxçıvan Bölməsinin elmi nəşri
№3(12)

**Nəşriyyatın direktoru:** *Qafar Qərib*
**Redaktor:** *İsmayıl Quliyev*
**Korrektor:** *Yelena Muxtarova*
**Operatorlar:** *İlhamə Əliyeva, Aynur Əliyeva*
**Proqramçı mühəndis:** *Taleh Maqsudov*

Yığılmağa verilmişdir: 15.08.2008
Çapa imzalanmışdır: 13.09.2008
Kağız formatı: 70 x 108 1/16
19,8 çap vərəqi. 316 səhifə
Sifariş №13. Tiraj: 200

*AMEA Naxçıvan Bölməsinin «Tusi» nəşriyyatında çap edilmişdir.*

**Ünvan:** *Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35.*